ƏSGƏR ABDULLAYEV

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ TARİXİNDƏN BƏZİ MƏQAMLAR

BAKI – 2011

“Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir”

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri

XIX əsrin əvvəllərində Qarabağa və Zəngəzura İrandan və Osmanlı imperiyasından çoxlu sayda erməni ailələrinin köçürülməsi, 1905 və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin qanlı səhifələridir.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Müəllif əsərin çap olunmasında göstərdiyi diqqət və qayğıya görə millət vəkili, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor **ŞƏMSƏDDİN HACIYEVƏ** dərin ehtiram və minnətdarlığımı bildirir.

Elmi redaktor: t.e.d., professor **Hidayət Cəfərov**

Rəyçilər: t.e.d., professor **Bəhruz Abdullayev**
t.e.n., dosent **Mehdi Quliyev**
t.e.n., dosent **Zəfər Bayramov**
t.e.n., dosent **Solmaz İmanova**

Əsgər Abdullayev
Ermənistanın Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar (Monoqrafiya). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011.

© Ə. Abdullayev, 2011
©"İqtisad Universiteti" Nəşriyyatı, 2011.

I - Xəritə

İstər Azərbaycanın 3 quberniyadan – Bakı, Yelizaveetpol (Gəncə), və İrəvan quberniyalarından ibarət olduğu dövrdə və istərsə də 1862-1917-ci illər dövrünü əhatə edən 1-ci xəritədən aydın olur ki, nəinki Dağlıq Qarabağ, hətta Sovet hökumətinin köməyi ilə yaradılmış Ermənistan ərazisi də azərbaycanlıların yaşadığı əpazi oliuşdur. Bunu Azərbaycanın XX əsrin ilk illərindəki tarixi-siyasi cobrafiyasının ümumi mənzərəsini göstərən 1903-cü ildə Bakıda təkrarən nəşr olunmuh «Карта Кавказского военного округа 1903 года» xəritəsi təsdiq edir. Tarixi mənblər təsdiq edir ki, həmin dövrdə Azərbaycanın ərazisi 130 min kV km olmuşdur.

II - Xəritə



II xəritədə Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi nəticəsində 4400 kv km-dən artıq vilayət ərazilərinin və eləcə də vilayətin hüdudlarından kənarda olan rayonların işğalı göstərilir. Həmin rayonlardan:

17 may 1992-ci ildə 1835 kv km olan Laçının,

3-4 aprel 1993-cü ildə 1836 kv km olan Kəlbəcərin,

23 iyul 1993-cü ildə 1094 kv km olan Ağdamın,

18 avqust 1993-cü ildə 1050 kv km olan Cəbrayılın,

23 avqust 1993-cü ildə 1386 kv km olan Füzulinin,

30 avqust 1993-cü ildə 802 kv km olan Qubadlının,

30 oktyabr 1993-cü ildə 707 kv km olan Zəngilanın işğalı göstərilir.

MÜNDƏRİCAT

GİRİŞ 8

I FƏSİL. ÇARİZMİN CƏNUBİ QAFQAZDA MİLLİ SİYASƏTİ VƏ ERMƏNİ-MÜSƏLMAN MÜNASİBƏTLƏRİ..... 25

II FƏSİL. RUSİYA İMPERİYASININ SÜQUTU VƏ ERMƏNİLƏRİN AZƏRBAYCANA TƏCAVÜZÜ..... 97

III FƏSİL. SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANA QARŞI MƏKRLİ SİYASƏTİ..... 187

IV FƏSİL. ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI HƏRBİ TƏCAVÜZÜ VƏ ONUN ACI NƏTİCƏLƏRİ..... 277

GİRİŞ

Qafqazın bir hissəsi olan Azərbaycan olduqca misilsiz gözəlliklərə malik olmaqla, onun iqlimi, bitki və heyvanlar aləmi, füsunkar təbiəti son dərəcədə rəngarəngdir. Onu demək olar ki, yer üzərindəki 11 iqlim növünün 9-u Azərbaycandadır. Deməli, Azərbaycanın zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi və münbit torpaqları çox qədimdən bir sıra qonşu dövlətlərin diqqətini özünə cəlb etmişdi. Buna görə də Azərbaycan tarixən müharibələr meydanına çevrilmiş və baş verən müharibələrdə az faciələrlə üzləşməmişdir. Ancaq bu faciələrin unudulmaz tarixi XIX əsrin əvvəllərindən daha dəhşətli olmuşdur. Belə ki, həmin əsrdə Azərbaycan iki dəfə ağır itkiyə məruz qalmışdır. Bunun birincisi 1813-cü ildə Gülüstan, ikincisi isə 1828-ci ildə Türkmənçay müqaviləsi nəticəsində Azərbaycanın iki yerə bölünməsindən əlavə Azərbaycanın müxtəlif bölgələrinə ermənilərin kütləvi halda köçürülüb ən səfalı yerlərdə – Qırxbulaq, Sürməli, Zəngibasar, Dərəçiçək, Göyçə mahallarında və başqa yerlərdə yerləşdirilməsi olmuşdu[1].

Digər tərəfdən Naxçıvan və İrəvan xanlıqlarının işğalından sonra həmin ərazilərdə «erməni vilayəti» yaradılmışdı. İki əsr ərzində Rusiyanın havadarlığı ilə ermənilərin Azərbaycana qarşı təcavüz siyasəti XX əsrin axırlarına yaxın daha kəskin bir hal almışdı. Bu ermənilər tərəfindən iqtisadi-sosial problemlər bəhanəsilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi iddiası ilə başlanmışdı. Əslində isə burada elə bir problem yox idi. Digər tərəfdən 1923-cü ildə Dağlıq Qarabağa muxtar vilayət statusu verilmişdi. Bununla kifayətlənməyən qatı erməni millətçiləri «Böyük Ermənistan» yaratmaq naminə tarixi həqiqətlərə məhəl qoymadan işğalçılıq siyasətlərini həyata keçirdilər və bununla da onlar nəinki vilayət ərazisini, hətta oradan kənarda olan yeddi Azərbaycan rayonunun işğalına nail olmaqla, Azərbaycanın suverenliyini pozdular. Onlar bununla da BMT Nizamna-

məsinin əsas prinsiplərindən olan «hər bir dövlətin ərazi toxunulmazlığı»na məhəl qoymadılar. BMT Nizamnaməsini pozdular.

Ermənistan eləcə də, «başqa dövlətlərin ərazisini hərbi işğal ərazisinə çevirməmək» haqqında ATƏT-in qanunlarını da açıq şəkildə pozdu. Belə ki, ATƏT yarandığı gündən bildirmişdir ki, «Avropa dövlətlərinin sərhədləri pozulmaz sərhədlərdir», onlar ancaq «dinc yolla və razılığa gəlmək əsasında dəyişdirilə bilər, sərhədlərə heç bir şəkildə qəsd olunmamalıdır».[2]

Təəssüf ki, ATƏT-in üzvü olan Ermənistan həmin təşkilatın başqa bir üzvü olan Azərbaycanın ərazisini işğal etməklə sərhədləri zorla dəyişdirmiş və bununla o ATƏT-in göstərilən qərarlarını pozmuşdur.

Beynəlxalq təşkilatların qərarlarına əməl edilməsi tələbi əvəzinə dünyanın bir sıra dövlətləri bu təcavüzə nəinki biganəliklə yanaşdılar, hətta Rusiya ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə yardımçı oldu. Əlbəttə, Rusiyanın belə mövqeyi təsadüfi deyil. Yaxşı məlumdur ki, Rusiya imperiyası Qafqazı işğal edərkən ermənilər strateji müttəfiqə çevirmiş və Qafqaz xalqlarının əsarət altına alınmasında onlardan hərtərəfli istifadə etmişdir. Deməli, çarizmin milli-müstəmləkə siyasəti ermənilərin məqsəd və məqamlarına tamamilə uyğun olmuşdu. Ermənilər illər keçdikcə belə mövqedən məharətlə istifadə etmişlər.

Buna görə də Azərbaycanın XIX-XX əsrlər tarixi, 1828-1832-ci illərdən başlayaraq mərhələlərlə, təxminən yüz il müddətində Rusiyanın təhriki və himayədarlığı ilə ermənilərin Azərbaycanda və xüsusilə də azərbaycanlıların ata-baba yurdu olan İrəvan əyalətində yerləşdirilməsi və sonra da ermənilərin ölkəmizə qarşı ərazi iddiası və bu iddianın zorla həyata keçirilməsi ilə nəticələnmişdir.

Rusiya dövlətinin ermənilərı ardıcıllıqla müdafiə etməsi Azərbaycan xalqı üçün böyük faciələr törətdi. Onlar öz doğma torpaqlarından sıxışdırılmaqla bərabər həm də zora-

kılıqla deportasiya olundular. İki əsr ərzində azərbaycanlıların sıxışdırılması, qətlə yetirilməsi və doğma torpaqlarından qaçqına çevrilməsi Azərbaycan xalqı üçün ağır faciə, soyqırım oldu. Rusiya həmçinin ermənilərin sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması və milli müqəddəratın təyin olunması pərdəsi altında Azərbaycana qarşı başladıqları təcavüzkar siyasətə haqq qazandırır və Dağlıq Qarabağın, Naxçıvanın və digər Azərbaycan ərazilərinin tarixən ermənilərə məxsus olması uydurmasının həyata keçirilməsi üçün təcavüzkarlıq siyasətinə dolayı yolla havadarlıq etmiş və etməkdədir. Buna görə də Azərbaycan xalqı üçün olduqca ağır faciələrlə nəticələnmiş bir tarixi mərhələ başlanmışdı. Ermənilər açıqdan-açığa tarixi faktların ziddinə gedərək dünyanın 70-dən artıq ölkəsində, o cümlədən ABŞ-da 650 min, Fransada 250 min, İranda 200 min, Livanda 150 min, Türkiyədə 150 min, Suriyada 120 min və s. yaşamalarından istifadə edərək saxta ideyanı yaymaqda davam edirlər. Bu işdə ermənilər kilsələrdən də məharətlə istifadə edirlər. Belə ki, dünyanın müxtəlif ölkələrində 74, habelə ABŞ-da 23 (o cümlədən Nyu-Yorkda 6) erməni kilsəsi[3] məhz erməni saxtakarlığının təbliğində öz rolunu oynayır.

Sovetlər İttifaqının dağılmasından sonra «Böyük Ermənistan» yaratmaq iddiası Azərbaycana qarşı açıq hərbi təcavüzlə nəticələndi və xeyli ərazimizin işğalına gətirib çıxartdı. Ancaq dünyada bəşəriyyət üçün olduqca vacib olan problemlərin həlli üçün əlverişli şəraitin yaradılması əvəzinə dövlətlərin bir-birinə ərazi iddiaları irəli sürməsi və işğal etməsi yolverilməz haldır. Bu, xalqların dinc, əmin-amanlıq şəraitində yaşaması və inkişaf etməsi üçün böyük təhlükədir. Deməli, Ermənistanın siyasəti nəinki Azərbaycan üçün, eyni zamanda Qafqaz üçün, burada dinc həyat üçün, sülh üçün olduqca təhlükəlidir.

Tarixən Rusiya dövlətinin ermənilərə olan himayədarlıq mövqeyi yavaş-yavaş onların azərbaycanlılara qarşı mübarizə aparmalarına və hətta azərbaycanlıların öz doğma

yerlərindən çıxarılmasına təsir göstərdi. Nəticədə azərbaycanlı kəndləri dağıdıldı, əhalinin bir hissəsi isə çətinlik və təzyiq üzündən Türkiyə və İrana qaçmış oldu. Bununla da azərbaycanlıların öz doğma torpaqlarından çıxarılması faciəsi başlandı.

Tarixi mənbələr təsdiq edir ki, azərbaycanlıların öz doğma torpaqlarından erməni millətçiləri tərəfindən amansızlıqla çıxarılmasının iki yüz ilə yaxın tarixi mövcuddur. Azərbaycanlıların doğma torpaqlarından (indiki Ermənistan ərazisindən) çıxarılması tarixini Beynəlxalq Avrasiya Mətbuat Fondunun həmsədri Modris Auzenş 1998-ci ilin yazında Sankt-Peterburqda «Milli məsələ və qaçqınlar problemi» mövzusunda beynəlxalq elmi-praktik konfransda etdiyi məruzəsində azərbaycanlıların öz doğma torpaqlarından çıxarılmasını belə müəyyənləşdirmişdi:

1 – 1826-1828-ci illər. Bu müddətdə azərbaycanlılar İran, Türkiyə, Azərbaycan ərazisinə qovulublar.

2 – 1905-1907-ci illər. Bu dövrdə azərbaycanlılar Türkiyə və Azərbaycan ərazilərinə qovulublar.

3 – 1915-1920-ci illər. Bu illərdə azərbaycanlılar Türkiyə ərazilərinə qovulublar.

4 – 1947-1953-cü illər. Bu illərdə azərbaycanlılar yalnız Azərbaycan ərazisinə deportasiya olunublar.[4]

Təkcə 1920-ci ildən 1991-ci ilə qədər olan müddətdə Ermənistandan – Qərbi Azərbaycandan 600 kəndin azərbaycanlı əhalisini tamamilə çıxartdılar. Ermənilər bununla tarixin bir həqiqət səhifəsini silməyə və özlərinin həmin ərazidə ta qədim dövrdən yaşamaları iddialarını əsaslandırmağa çalışdılar. Eyni zamanda onlar çalışdılar ki, İrəvan xanlığına aid olan bir sıra şəhər və kəndlər, xan sarayları, qalalar, yaşıllığa qərq olmuş mahallar – Zəngi-Basar, Dəmir-Bulaq, Topabaşı, Hacı-İlyas, məşhur İrəvan bağları faktları haqqında bizim uşaq və nəvələrimiz heç bir şey öyrənməsinlər, bilməsinlər.

Buna görə də Ermənistan Ali Sovetinin 1978-ci il yanvarın 25-də verdiyi bir fərmanla azərbaycanlılar yaşayan və türk mənşəli olan 94 kəndin adı dəyişdirilmişdi. Həmin fərmanla təkcə Üçkilsə (Eçmiədzin) rayonunda 15 azərbaycanlı kəndinin adı dəyişdirilmişdi[5].

Buna görə də təsadüfi deyildir ki, erməni mənbələrinin məlumatlarına görə 1935-1978-ci illərdə Sovet Ermənistanında 465 yaşayış yerinin adı, 1991-ci ildə isə L.Ter-Petrosyanın bir fərmanı ilə 97 yaşayış məntəqəsinin adı dəyişdirildi [6].

Tarixi mənbələr sübut edir ki, XIX əsrin ortalarından başlayaraq ermənilər Rusiyanın himayədarlığına əmin olaraq azərbaycanlılara qarşı sistemli şəkildə soyqırım siyasəti aparıblar. Bunun yüzlərlə, minlərlə acınacaqlı qanlı səhifələri vardır. Təəssüflər ki, bu günə qədər beynəlxalq təşkilatlar səviyyəsində həmin soyqırım siyasətini əks etdirən heç bir sənəd qəbul edilməmişdir.

Nəhayət, 2001-ci il aprel ayının 23-27-si arasında Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyasında ilk dəfə olaraq ermənilərin azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız faciələrin, soyqırımın tanınmasına dair bəyannamənin qəbul olunması tarixi əhəmiyyət kəsb edən bir sənəd oldu. Eyni zamanda Avropa Şurası Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlıq hüququnu tanıdığını bəyan etdi.

2001-ci ilin mayında Avropa Şurası ölkələri Xarici İşlər nazirləri 108-ci sessiyanın yekunlarına dair qəbul edilmiş Kommunikedə Avropa dövlətlərinin beynəlxalq ictimaiyyət tərəfindən tanınan sərhədlərini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərini bildirdilər. Sessiyada iştirak edən Azərbaycanın Xarici İşlər Naziri bildirdi ki, 1996-cı il Lissabon sammitində olduğu kimi, burada da 43 dövlətdən 42-i ərazi toxunulmazlığını, sərhədlərin dəyişilməzliyini gələcək Avropa üçün əsas prinsip kimi təsdiq etdilər. Bu toplantıda Avropanın heç bir Xarici İşlər naziri Ermənistanın separatçı mövqeyini müdafiə etmədi.[7] Beləliklə, Rusiyanın

köməkliyi ilə ermənilər üçün yaradılan şəraitin təsiri altında «Böyük Ermənistan» dövləti yaratmaq planı formalaşdı.

«Böyük Ermənistan»ın tərkibinə ağlagəlməz ərazilərin qatılması nəzərdə tutulurdu. Bu plan bir sıra xarici ölkələrin də diqqət mərkəzindən yayınmamışdır. Hətta 1919-cu ildə ABŞ Senatına senator Lodgenin təqdim etdiyi layihədə gələcəkdə yaranacaq «Böyük Ermənistan»a aşağıdakı torpaqlar qatılmalı idi.

1 – Türkiyədəki 6 vilayətdən ibarət Türkiyə Ermənistanı.

2 – Qafqaz Ermənistanı.

3 – İran Ermənistanı və bu da əsasən İran Azərbaycanı ərazisi hesabına yaranmalı idi.

Amerikada erməni Milli İttifaqının «1919-cu ildə Ermənistan haqqında» adlı yazdığı əsərdə yuxarıda göstərilən layihə ilə bərabər «Böyük Ermənistan» xəritəsi də hazırlanmışdır. Bu xəritədə «Böyük Ermənistana»a Ermənistan, Trabzon, Samsun da daxil olmaqla Gəncə şəhəri yaxınlığından başlayaraq Kür boyu ilə Xəzər dənizinə qədər uzanan yerlərdəki, Salyan, Muğan, Mil, Qarabağ, Zəngəzur, Göyçə qəzasının dağlıq hissəsi, Naxçıvan, Ordubad, İran Azərbaycanından Astara, Ərdəbil, Qaradağ, Təbriz, Xoy, Urmiyə və s. daxil idi.[8]

Belə Ermənistan yaratmağa çalışan ermənilər təsadüfi deyildir ki, İrəvan quberniyası ərazisində yaşayan yerli əhali – azərbaycanlılara qarşı amansızlıq edib dəhşətli faciələr törətdilər. Törədilən faciələr haqqında Paris Sülh Konfransının sədrinə ünvanlanan 16-19 avqust (1919-cu il) tarixli sənəddə göstərilirdi: «Van» və «Sasun» adları altında müxtəlif erməni hərbi hissələri müsəlman əhalisini qılıncdan keçirtdi, kəndləri toplardan və zirehli qatardan atəşə tutdular, öldürülənlərin qarnını yırtıb, gözlərini oydular, bəzi cəsədləri yandırdılar, əhalini taladılar, ümumiyyətlə, eşidilməmiş vəhşiliklər etdilər. Vedibasar rayonunda belə bir dəhşətli fakt da baş verdi ki, Qaraxaç, Qədirli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz kəndlərinin kişiləri sonuncu nəfərə qədər qətlə yetirildilər.[9]

Belə əqidəyə qulluq edən ermənilər tezliklə İrəvanın azərbaycanlılara məxsus tarixi ərazi olmasını unutdular və buranı özlərinin ərazisi hesab etdilər. Onlar başdan-başa saxta iddialarına haqq qazandıraraq İrəvan xanlığı ərazisindən əlavə Azərbaycana məxsus bir sıra tarixi ərazilərlə bərabər Dağlıq Qarabağın da məhz ermənilərə məxsus olduğunu irəli sürərək dünya ictimaiyyətini aldatmağa çalışdılar. Ümumiyyətlə, ermənilər Dağlıq Qarabağa həmişə xüsusi maraq göstərmişlər. Buna görə də erməni tarixşünaslığında belə bir saxta «konsepsiya» özünə möhkəm yer tutmuşdur ki, bu bölgə ermənilərə məxsusdur.

Bununla saxtalığı özlərinin amalına çevirmiş ermənilər tarixi həqiqəti anlamaq istəməmiş və istəmirlər. Ancaq bu da bir həqiqətdir ki, ruslar Qafqazı işğal etməyə başlarkən ermənilər Qarabağda da azlıq təşkil etmişlər. 1810-cu ilin rəsmi məlumatlarına görə «Qarabağ vilayəti»ndə 12 min ailəli əhali olmuş və bunların içərisində cəmi 2500 erməni ailəsi olmuşdur.[10]

N.N.Şavrovun bu fikri 1972-ci ildə Yerevanda nəşr edilmiş «Присоединение Восточной Армении к России» kitabında da təsdiq edilmişdir. Həmin kitabda göstərilmişdi ki, Qarabağda 12 min ailə yaşamışdır. Bunun 9500-i müsəlman, 2500-ə qədəri erməni ailəsi olmuşdur[11]. Bu fakt Rusiya statistikasında da təsdiq edilmişdi. Belə ki, Rusiya statistikasına görə 1823-cü ildə Qarabağda kameral sayma zamanı Şuşada 1532 ailə yaşamışdır. X.D.Xəlilovun yazdığına görə onlardan min yüz on biri azərbaycanlı (72,5 faiz), 421-i erməni ailəsi olmuşdur və bu da 27,5 faizi təşkil etmişdi.[12]

Bu fakt Şuşanın «erməni şəhəri» olmasını iddia edənlərə və eləcə də R.Koçaryana «Şuşa azərbaycanlıların 20-ci illərdə ələ keçirdiyi erməni şəhəridir» uydurmasına tutarlı cavabdır. Şuşanın «erməni şəhəri» olmasını iddia edənlər özlərinin saxta iddiaları ilə tarixi həqiqəti inkar edir və anlamaq istəmirlər ki, tarixi hamıya yaxşı məlum olan Şuşanın əsasını 1758-ci ildə Qarabağ xanı Pənahəli xan qoymuş və

hətta şəhər əvvəllər onun adı ilə Pənahabad adlanmışdı. Bu tarixi faktı təsdiq edən V.A.Potto yazır ki, şəhər məscidinin divarında qalan yazı da sübut edir ki, şəhərin və qalanın əsasını Pənah xan qoymuşdu[13].

İ.P.Petruşevskiyə görə «Qarabağ heç bir zaman erməni mədəni mərkəzlərinə mənsub olmamışdır».[14] Aydındır ki, belə olan halda Dağlıq Qarabağ, Şuşa ermənilərə məxsus bir ərazi ola bilməzdi. Tarixi faktlara məhəl qoymayan Z.Balayanın uydurmasına görə guya XIX əsrin əvvəllərində Qarabağda yaşayanların 98 faizi ermənilər olmuşdur: nə dərəcədə saxtalıq! Z.Balayana birdəfəlik məlum olmalıdır ki, Ermənistan ərazisində olduğu kimi, XIX əsrin əvvəllərinə qədər Dağlıq Qarabağda da əhalinin milli tərkibində azərbaycanlılar çoxluq təşkil etmişlər[15].

Ancaq Moskva mətbuatında Qarabağın tarixinin açıqdan-açığa saxtalaşdırılmasına yol verilməsi faktı ermənilərin əsassız mövqeyinin müdafiəsi kimi, Z.Balayanın saxta fikrinin təsdiqlənməsi kimi səslənir.

Akademik T.Köçərli «Bir daha Moskva mətbuatında Qarabağın tarixinin saxtalaşdırılması haqqında» yazdığı çox əhəmiyyətli silsilə təşkil edən elmi məqaləsində tarixi mənbələr və müxtəlif müəlliflərin tədqiqatları əsasında erməni müəlliflərinin və Moskva mətbuatının saxtalığını alt-üst etmiş və o saxtakarlara bildirmişdir ki, çarizmin erməniləri Azərbaycan ərazisində yerləşdirmək siyasətinin başlanğıcı və azərbaycanlıların öz doğma yerlərindən İrəvan xanlığı ərazisindən olduğu kimi Qarabağdan da sıxışdırılıb çıxarılması XIX əsrin əvvəllərindən etibarən başlanmışdır. Bakıxanovun yazdığına görə 1811-ci ildə Qarabağdan İran Azərbaycanına «beş-altı min ailə»[16] köçmüşdür. İkinci köçmə 1822-ci ildə baş vermişdi. Həmin ildə Mehdiqulu xanla birlikdə üç min Qarabağlı ailəsi öz torpaqlarından İrana getmək məcburiyyətində qalmışlar[17]. İrəvan xanlığı ərazisində isə qalan bir qrup xanlar – Məhəmməd xan, Kamal xan, Abbasqulu xan, Qədir bəy və digərlərindən çar generalları

yüksək vergi tələb etməklə onların hüquqlarını tamamilə azaltmışdır. Buna qarşı çıxanları məhkəməyə cəlb edir və yaxud da sürgün etmişlər. Bir sözlə Paskeviçin əmri ilə azərbaycanlılar üzərində ciddi nəzarət qoyulmuşdu[18].

Erməni millətçilərinə bir tarixi faktı da xatırlatmaq lazımdır ki, hələ xanlıqlar vaxtında mərkəz Şuşa olmaqla Dağlıq Qarabağ ərazisi Qarabağ xanlığı (1747-1822) tərkibində olmuşdur. Qarabağ xanlığı Rusiya tərkibinə daxil edildikdən və orada komendant idarəsi yaradıldıqdan sonra da Dağlıq Qarabağ Azərbaycanın tərkibində Qarabağ əyalətinə daxil olmuşdu. 1868-ci ildən 1920-ci ilə qədər Yelizavetpol quberniyası dövründə də Dağlıq Qarabağ İrəvan quberniyası tərkibində olmamışdır [19].

Deməli, Dağlıq Qarabağ heç bir vaxtda və heç bir əsrdə Ermənistanın tərkibində olmamışdır. Eyni zamanda XIX əsr ərzində Dağlıq Qarabağ ermənilər Gəncə quberniyası tərkibindən çıxmaq və İrəvan quberniyası tabeliyinə keçmək təşəbbüsü belə qaldırmamışlar. Belə olan halda Dağlıq Qarabağın Ermənistana məxsus olması iddiası olduqca təəccüblüdür, tarixi həqiqəti inkar etməkdir. Qatı millətçi Z.Balayana yazdığı məktubda onun və onun şəxsində bütün erməni millətçilərinin mövqeyini haqlı olaraq ifşa edən tarix elmləri doktoru, professor Kamran Rəhimov yazır: - Siz Dağlıq Qarabağı Ermənistana çıxmaqla kifayətlənmirsiniz. Bütövlükdə Azərbaycanın tarixən mövcud olduğunu inkar etmək yolunu tutur, bunun üçün heç bir əsası, tarixi kökü və sübutu olmayan uydurmalara əl atırsınız. Lakin əgər siz tarixi dərindn öyrənsəydiniz, tarixi faktları qəbul etmək qabiliyyətinə malik olsaydınız, onda özünüz inanardınız ki, Ermənistan Respublikasının özü uydurma olmuşdur. Əgər 1918-ci il mayın axırlarında İrəvan, sonralar Zəngəzur qəzası, Qazax qəzasının böyük bir hissəsi, Naxçıvan MR-in bir hissəsi, Göyçə mahalı, Vedibasar, Zəngibasar müxtəlif qüvvələrin xəyanəti ilə Ermənistana güzəştə gedilməsəydi, sizin

indi yaşadığınız Ermənistan Respublikası heç vaxt olmazdı. Siz də indi meydan oxuya bilməzdiniz [20].

Beləliklə, Rusiyanın himayədarlığına əmin olan ermənilər Cənubi Qafqazda Azərbaycanın müxtəlif bölgələrində məskunlaşdırıldıqdan sonra «Böyük Ermənistan» yaratmaq iddiaları ilə azərbaycanlılara qarşı mübarizəyə başladılar. XX əsrin müxtəlif illərində – 1905-1907, 1918-1920-ci illərin dəhşətli hadisələri soyqırım siyasətinin davamı oldu. 1905-1906-cı illərdə dəhşətli faciələrlə müşahidə olunan Bakı hadisəsindən sonra ermənilər Qaryagində (indiki Füzulidə, Cəbrayılda, Şuşada, Naxçıvanda, Gəncədə, Qazaxda, İrəvanda, Tiflisdə amansız faciələr törətmişlər.

1918-ci ildə ermənilər öz amansızlıqlarını təkrar edərək İrəvan quberniyasında 221, Gəncədə 272, Zəngəzurda 115, Qubada 112, Qarabağda 157, Şamaxıda 58 yaşayış məntəqələrini vəhşicəsinə dağıtmışlar [21]. 1918-ci ildə Sovet Rusiyasının təzyiqi ilə 9 min kv. km İrəvan xanlığı sahəsinin ermənilərə, 7 min kv. km Dərbənd xanlığı sahəsinin Rusiyanın tabeliyinə keçməsi ilə Azərbaycanın 16 min kv. km sahəsi itirildi.[22] Bununla da Azərbaycanın ərazisi zorakılıqla 114 min kv. km endirildi.

Bunun əksi olaraq 1918-ci ilədək 9,8 min kv. km sahəsi olan qondarma erməni vilayəti 1920-ci ildən sonra Azərbaycan torpaqları hesabına genişləndirildi və ərazisi 29,8 min kv. km-ə çatdırıldı.

1920-ci ildə Qazax qəzasının cənub hissəsi, 1922-ci ildə Dilican və Göyçə əraziləri, 1923-cü ildə Naxçıvanın 9 Azərbaycan kəndi, 1929-cu ildə Qazaxın 5 min hektar torpaq sahəsi, Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğud kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Ermənistana verilməklə xeyli miqdarda Azərbaycan ərazisi yenidən azaldı.[23]

Sovet hakimiyyəti illərində göstərilən yerlərin Ermənistana, Borçalının isə Gürcüstana verilməsi ilə təxminən Azərbaycan 27,4 min kv. km ərazisini itirdiyindən respublikamızın ümumi ərazisi 86,6 min kv. km oldu [24]. Ermənilər Sovet

Rusiyasının köməyi ilə Azərbaycanın ərazilərinin xeyli hissəsini ələ keçirmələrinə baxmayaraq növbəti məqsədləri Azərbaycanda yaşayan ermənilərə muxtariyyət verilməsi oldu. 1923-cü il 7 iyulda ermənilər yaşadığı Qarabağın 4,4 min kv. km ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması məqsədlərinə nail oldular. Bunun ardınca 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindən kütləvi surətdə deportasiyası xalqımıza qarşı törədilmiş tarixi cinayət olmuşdur.

80-ci illərin ortalarında ermənipərəst Qorbaçovun hakimiyyətə gəlməsindən əlverişli məqam kimi istifadə edərək Ermənistan millətçiləri yenidən fəallaşdılar və Dağlıq Qarabağ Muxtar Vilayətini ələ keçirmək naminə vilayətdə sosial-iqtisadi çətinliklər pərdəsi altında Azərbaycana qarşı açıq təcavüzə başladılar. Mərkəzi hökumət həmin təcavüzün qarşısını almaq sahəsində qəti tədbirlər görmək əvəzinə bu təhlükəli hərəkata göz yumdu. Belə mövqedən istifadə edən Ermənistan silahlı qüvvələri və separatçıları Dağlıq Qarabağı nəzarətə aldılar. Bununla da 1988-ci ildən başlanan Qarabağ müharibəsi Azərbaycan xalqı üçün olduqca ağır nəticələr verdi. Həmin ilin axırlarına yaxın Ermənistanda öz ata-baba yurdunda yaşayan 200 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla oradan çıxarıldı. Erməni millətçiləri azərbaycanlılarsız Ermənistan məqsədlərinə nail oldular. Erməni birləşmələri eyni zamanda Dağlıq Qarabağda yaşayan azərbaycanlıları da oradan qovmaqla etnik təmizləmə həyata keçirdilər. Rusiya qoşunlarının köməyi ilə ermənilər Bakıda Yanvar və Xocalı faciəsini törətdilər. Belə amala qulluq edən ermənilər işğal olunmuş ərazilərdə 500 tarixi arxitektura abidəsini və 100-dən artıq arxeoloji abidəni, 9 tarixi sarayı, 22 muzeyi, 4 şəkil qalereyasını və fondlarda olan 48 mindən artıq qiymətli əşyaları talan etmişdilər [25]. Ermənistan hərbiçiləri Rusiya qoşunlarının iştirakı ilə əvvəlcə Dağlıq Qarabağı, sonra isə onun ətrafındakı rayonları işğal etdilər.

Azərbaycan xalqına edilmiş zülmü, törədilmiş dəhşətli faciələri xatırladıqca uzun illər Ermənistan Yazıçılar İttifaqının sədri olmuş Avetik İsahakyanın çox haqlı olaraq dediyi: - Erməni xalqı pozuldu, namərdləşdi, heyvanlaşdı. Hörməti, nəcibliyi, milli ənənələrini itirdi fikri bu günlə nə qədər dolğun və düzgün səsləşir.

Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar olaraq BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel tarixli 822, 29 iyul tarixli 853, 14 oktyabr tarixli 874 və 11 noyabr tarixli 884 nömrəli qətnamələr qəbul etməsinə və həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyri-şərtsiz çıxarılması tələb olunmasına baxmayaraq Ermənistan rəhbərliyi həmin qərarlara heç bir məhəl qoymur.

Deməli, Rusiyaya güvənən Ermənistan işğal olunmuş Azərbaycan ərazilərini qaytarmaq istəmir. Rusiya isə danışıqların ədalətlə, sülh yolu ilə həll edilməsində təsiredici rol oynaya biləcəyi ümidləri doğrultmur.

Burası da qəribədir ki, ərazisinin 20 faizindən çoxunu itirən, bir milyondan artıq qaçqını olan, dəhşətli faciələrə məruz qalmış Azərbaycana dünya dövlətlərinin münasibəti biganədir. 1992-ci ildə ABŞ-ın Azərbaycana qarşı 907-ci maddənin tətbiq etməsi, ayrı-ayrı illərdə Ermənistana nisbətən Azərbaycana az miqdarda yardım göstərməsi təəccüb doğurur.

1996-cı ildə Avropa Birliyinin Zaqafqaziya regionu üçün ayırmış olduğu 4 milyon dollar yardımın bir milyondan artığının Ermənistana verilməsinin nəzərdə tutulması və bunun müqabilində Azərbaycana cəmi 250 min dolların ayrılması[26] bir daha dünya dövlətlərinin mövqeyini açıqlayır.

Ermənistanın ABŞ-dakı səfiri Arman Kirakosyan Yerevan Dövlət Universitetində etdiyi çıxışında «İsraildən sonra Ermənistan ABŞ-dan həcminə görə humanitar yardım

alan ikinci ölkədir»[27] deməsi Ermənistana olan diqqət və qayğını təsdiqləyir.

Ermənilər əsassız ərazi iddiaları ilə bərabər Azərbaycan musiqisini erməni musiqisi kimi təbliğ etməkdən də usanmırlar. Onlar Azərbaycanın bir sıra bəstəkarlarının – T.Quliyevin, F.Əmirovun, Q.Qarayevin, C.Cahangirovun, C.Hacıyevin, S.Ələsgərovun və b. əsərlərini erməni musiqisi kimi qələmə verirlər. Azərbaycan müəllifləri əsərlərinin on illərlə ermənilər tərəfindən oğurlanmasında «Ани – Речч-дс» səsyazma studiyanın qeyri-qanuni fəaliyyəti də az rol oynamamışdır. Həmin studiyanın sayəsində 1999-2003-cü illərdə Rusiyada və MDB-də habelə başqa ölkələrdə «Vağzalı», «Tərəkəmə», «Yallı», «Uzundərə», «Qazağı» Azərbaycanın xalq rəqsləri, «Xan bacı», «Dəli Ceyran» və s. xalq mahnıları «erməni rəqsləri», «erməni mahnıları» adı altında təbliğ edilmişdi.[28]

Göstərilən tarixi faktlar bir daha təsdiq edir ki, ermənilər azərbaycanlılara qarşı iki əsr ərzində nə dərəcədə soyqırım siyasəti yeritmişlər. Soyqırımla əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisinin 2001-ci il 30 mart tarixli iclasında Bəyanat qəbul edildi. Bəyanatda beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə bildirildi ki, əsrlər boyu azərbaycanlılara qarşı törədilmiş soyqırım cinayətlərini tanısınlar və gələcəkdə belə cinayətlərin qarşısını almaq üçün mümkün olan bütün tədbirləri görsünlər.

Beləliklə, XIX-XX əsrlərdə azərbaycanlılara qarşı apardıqları qanlı mübarizələrdə Azərbaycan torpaqları hesabına Ermənistan dövlətinin yaradılmasına nail olan ermənilərin 1918-1920-ci illərdə məqsədləri tarixçi alim Əli Əliyevin yazdığı kimi birinci növbədə azərbaycanlıları imkan dairəsində qırmaq, salamat qalanların qovulmasına nail olmaqla «Böyük Ermənistan» yaratmağın əsasını qoymaq idi.

İkincisi, II Dünya müharibəsi ərəfəsi illərində ermənilərin məqsədi Azərbaycanda tutduqları vəzifələrdən məharətlə

istifadə edərək görkəmli azərbaycanlı kadrların məhv edilməsinə nail olmaq və həm də Azərbaycanı pantürkist respublika elan etmək və belə bir respublikanın Türkiyə ilə sərhəd yaxınlığının təhlükəli olması pərdəsi altında nəhayət azərbaycanlıların sürgün olunmasına nail olmaq idi. Şübhəsiz, bu da təsadüfi deyildir ki, müharibə dövründə azərbaycanlıların köçürülməsi təşəbbüsü olmuşdu.

Üçüncüsü, XX əsrin sonlarında Qorbaçov kimi ermənipərəst bir adamın hakimiyyətə gəlməsindən istifadə edən ermənilər fəallaşdı və Dağlıq Qarabağı ələ keçirmək uğrunda Azərbaycana qarşı işğalçılıq müharibəsinə başladılar.[29]

İstər XIX əsrdə və istərsə də XX əsrin əvvəllərindən başlayaraq göstərilən hər üç mərhələdə azərbaycanlılara qarşı törədilən bütün faciələrdə Rusiya dövlətinin günahı az olmamışdır. Həmin günahın nəticəsi idi ki, 1918-ci ilin mart qırğınında 30 min, 1920-1923-cü illərdə 40 min qətlə yetirildiyi halda, 1918-1940-ci illərdə Azərbaycanda məhv edilənlərin sayı 500 minə çatmışdı.[30]

Azərbaycan xalqı əmindir ki, Respublika prezidenti İ.Əliyevin ədalətli siyasəti və mübariz fəaliyyəti öz bəhrəsini verəcək, işğal olunmuş torpaqlarımız azad olunacaq, qaçqınlar öz yerlərinə qayıdacaq və Azərbaycan sülh şəraitində inkişaf edən sivilizasiyalı dövlətlərdən birinə çevriləcəkdir.

GİRİŞ

1. İnqilab Smaylov. Ermənilərin soyqırımı, repressiya və deportasiya siyasəti. «Azərbaycan» qəz., 24 aprel, 2001.

2. Sülh, təhlükəsizlik və əməkdaşlıq naminə Helsinkidə keçirilmiş müşavirənin yekunlarına aid 30 iyul – 1 avqust 1975-ci il. Bakı, 1975, səh. 19.

3. Elşad Abdullayev. Tarixi həqiqət unudulmur. «Azərbaycan» qəz., 11 aprel, 1998.

4. Qarabağ XIX-XX əsrlərdə separatizmin xronologiyası. «Xalq» qəz., 3 aprel 1998.

5. Vidadi İsayev. Haradan gəlir köç. Bakı, 1995, səh. 113-114.

6. Kamran İmanov. Siyasi saxtakarlıq edən kimdir? «Xalq» qəz., 15 oktyabr 1998.

7. «Yeni Azərbaycan» qəz., 12 may 2001.

8. M.M.Bala. Ermənilər və İran. Ankara, 1994, səh. 21-22.

9. Əziz Ələkbərli. Qərbi Azərbaycan / Vedibasar mahalı, Bakı, 2000, səh. 80.

10. Н.Н.Шавров. Новая угроза русскому делу в Закавказье: Предстоящая распродажа Мугани инородцам. С.Петербург, 1911, səh. 63.

11. Присоединение Восточной Армении к России. I cild, Yerevan, 1972, səh. 562.

12. Х.Д.Халилов. Из этнической истории Карабаха – Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1992, səh. 39.

13.В.А.Потто. Кавказская война. Ставропол, 1994, səh. 602.

14. И.П.Петрушевский. О дохристианских веерованиях крестьян Нагорного Карабаха. Баку, 1930, səh. 8.

15. Vidadi İsayev. Göstərilən əsər, səh. 17.

16. T.Köçərli. Bir daha Moskva mətbuatında Qarabağın tarixinin saxtalaşdırılması haqqında. «İqtisadiyyat» qəz., 20 sentyabr – 3 oktyabr 1999.

17. А.С.Грибоедов. Сочинения. М.-Л., 1959, səh. 445.

18. «Vışka» qəz., 6 fevral 1993.

19. Конфликт в Нагорном Карабахе. Баку, 1990, səh. 38.

20. K.Rəhimov. Bir daha yaşamaq strategiyası haqqında. «Azərbaycan kommunisti» jurnalı, № 5, may 1991, səh. 18-19.
21. «Azərbaycan» qəz., 31 mart 2001.
22. «Azərbaycan müəllimi» qəz., 5-11 aprel 2001.
23. İnqilab Smaylov. Göstərilən məqalə.
24. «Azərbaycan müəllimi» qəz., 5-11 aprel 2001.
25. О.Ф.Эфендиев. Военные преступления от Нюрнберга до Карабаха. Москва, 2000, səh. 155-160.
26. Həbib Rəhimoğlu. Azərbaycana Ermənistanın təcavüzü – təkzibedilməz faktlar. «Xalq» qəz., 19 noyabr 1996.
27. «Yeni Azərbaycan» qəz., 15 iyun 2001.
28. Yenə orada, 6 fevral 2004.
29. Əli Əliyev. Əlincə yaddaşı: Naxçıvan 1914-1992, Bakı, 1997, səh. 27.
30. Yenə orada.

I F Ə S İ L
ÇARİZMİN CƏNUBİ QAFQAZDA MİLLİ SİYASƏTİ VƏ ERMƏNİ-MÜSƏLMAN MÜNASİBƏTLƏRİ

Qafqaz – habelə Azərbaycan tarixən Rusiya imperiyasının maraqlarını cəlb edən regionlardan biri olmuşdu. Lakin o da yaxşı məlumdur ki, I Pyotrun dövrünə qədər Rusiyanın burada qlobal xarici siyasət yeritmək imkanı olmamışdır. Yalnız I Pyotrun dövründə belə bir şərait yaranmışdı. 1701-ci il iyun ayının axırlarında Bavariyadan Litva sərhədlərini keçərək Rusiyaya İzrail Oriya adlı bir erməni gəlmişdi. O, özü ilə Qərbin qan qoxulu tamahını əks etdirən «Böyük Ermənistan» adlı türk şərqinin istila xəritəsini də gətirmişdi. 1703-cü ilin payızında həmin avantürist xəritə I Pyotrun imperator stolunun üstünə qoyulmuşdu. Xəritə imperatorun çox xoşuna gəlmiş və Bavariya ermənisi İ.Oriyaya polkovnik rütbəsi vermişdi.[1]

Belə münasibətin təsiri ilə Şamaxını erməni torpaqlarının açarı hesab edən İ.Oriya məhz rus ordusunun köməyi ilə Şamaxını, Naxçıvanı, İrəvan və Təbrizi «azad», İranı zəbt, Türkiyəni işğal edərək hələlik «Böyük Ermənistan»ın çox kiçik bir hissəsini müsəlmanlardan xilas etməyi planlaşdırmışdı.[2] Bir casus kimi Qafqaza göndərilən İ.Oriya burada olan hərbi düşərgələrin planını çəkərək gizli yolla Rusiyaya göndərmişdi.

Şübhəsiz, I Pyotrun dövründə aparılan müharibələrdə əldə edilmiş qələbələr və ölkənin iqtisadi qüdrətinin artırılması üçün həyata keçirilən tədbirlər Rusiyanın qüvvətlənməsində və onun nüfuz dairəsinin Qafqaz istiqamətində artmasında öz rolunu oynamışdı. Həm də belə şəraitdən istifadə edən Rusiya imperiyası işğalçılıq siyasətində ermənilər strateji müttəfiqinə çevirmiş və Qafqaz xalqlarının əsarət altına alınmasında onlardan hərtərəfli istifadə etmişdir. Bunlarla bərabər, Rusiya imperiyası işğal etdikləri ərazilərdə möh-

kəmlənməkdə ermənilərdən bir dayaq vasitəsi kimi də istifadə etmişlər və edirlər.

Deməli, I Pyotr ermənilərі Azərbaycanda yerləşdirməyə xüsusi qayğı ilə yanaşmış və bu cəhətdən onun 1724-cü il tarixli fərmanı böyük rol oynamışdı. İmperator hətta general Matumşkinə ermənilərin torpaqlarla təmin edilməsi və həm də onların Dərbəndə, Bakıya, Salyana və başqa yerlərə köçürülməsi və həmin yerlərdə mənzillə, torpaqla təmin edilməsi göstərişini vermişdi. İmperatorun imzaladığı fərmanda «Düşmənçilik edən və yaxud şübhə doğuran müsəlmanları qovub rədd edin, onların yerlərini xristianlar tutsun»[3] ifadəsi də kəskin qoyulmuşdu.

I Pyotrun göstərilən mövqeyi XIX əsr rus tarixçisi Sergey Mixayloviç Solovyov tərəfindən də çox aydın səslənmişdi. O yazmışdı: «Rusiya ətrafındakı işğal olunmuş ərazilərdə möhkəmlənmək üçün Pyotra görə ən yaxşı vasitə həmin yerlərdə xristian əhalisinin qüvvətləndirilməsi, müsəlmanların isə azaldılması hesab olunurdu».[4]

Deməli, Pyotrun layihəsinə görə ermənilər İrandan Şirvan yerlərinə, buranın əhalisi isə İrana köçürülməli idi. Bu layihə başdan-başa azərbaycanlıların sıxışdırılması və öz doğma torpaqlarından çıxarılıb sürgün edilməsi layihəsi idi. Ancaq Mehmetzade Mirza Balanın yazdığı kimi Rusiya dövləti buna tam nail ola bilmədi və buna görə də onlar Türkiyə, İran və Rusiyada yaşamağa məcbur oldular. Bununla da Rusiyanın himayədarlığı ilə ermənilərin Azərbaycan ərazisi hesabına dövlət yaratmaq uğrunda fəaliyyətləri hələ XVIII əsrin əvvəllərindən başlanmış oldu. Rusiyanın ermənilərə olan siyasəti I Yekaterinanın və II Yekaterinanın dövründə də davam etdirilmişdi. Hətta 1726-cı ildə I Yekaterinanın və 1768-ci ildə II Yekaterinanın dövründə ermənilərə havadarlıq edilməsi haqda fərman imzalanmışdı.[5] Hətta II Yekaterinanın dövründə (1762-1796-cı illərdə) 1768-1774-cü illərdə olan Rusiya-Türkiyə müharibəsi illərində ermə-

nilər Türkiyənin daxilində ixtişaşlar törətmiş, terrorçuluqla məşğul olmuşlar.

Kamil Dərələyəzlinin yazdığı kimi ermənilərin bu «əzmkar» fəaliyyətini qiymətləndirən II Yekaterina Peterburq ermənilərinin qaldırdıqları məsələyə dəstək verərək Qafqazda «bic Ermənistan» yaradılmasını qərarlaşdırmış və yekun sözünü belə tamamlamışdı: «Əminəm ki, belə bir dövlət yalnız Rusiyanın himayəsində yaradıla bilər».[6]

V.Pikul özünün «Favorit» kitabında qraf. Q.Potyomkinlə II Yekaterina arasında olan söhbətdən belə bir fikri yazmışdı: İş bacaran ermənilər artıq özlərinə paytaxt gözaltı etmişlər – İrəvan şəhərini.

- Paytaxtdan nə çıxar, əgər ölkə yoxdursa?

- İndi yoxdur, bizdən sonra bulunacaq – deyə Potyomkin cavab vermişdir.[7]

Bununla bərabər həm də Rusiya imperiyası öz mənafeyinə uyğun olaraq Zaqafqaziyada İrana və Türkiyəyə qarşı erməni və gürcülərdən ibarət yeni «xristian» dövləti yaratmaq istəyirdi. Məhz belə şəraitdə 1796-cı ilin aprelində Rusiya ordusunun Azərbaycana hücumu başlandı. Erməni arxiyepiskopu İosif Arqutinski bundan bir əlverişli bir məqam kimi istifadə etdi. O, Qarabağın erməni məliklərinə bildirdi ki, Rusiya ordusunun Zaqafqaziyaya yürüşünün başlıca məqsədi ermənilər müsəlmanların «zülmündən» xilas etməkdir.

Rusiyanın bu siyasətinin mahiyyətini açıqlayan A.İsahakyan yazmışdı: «… erməni həmişə Rusiyanın qəyyumluğu altında yaşayıb və inkişaf edib, çoxalıb, başqalarının torpaqlarına sahib olub».[8]

Rusiyanın belə qayğısına əmin olan ermənilər Azərbaycana qarşı siyasətlərini daha da kəskinləşdirdilər və hətta Azərbaycanı xəritədən silmək istədilər. Lakin ermənilər azlıq təşkil etdiklərinə görə imperatora müraciət etməli oldular. Müraciətdə deyilirdi: «Rusiyada yaşayan ermənilərin siyahısı tərtib olunmalı, onların harada yaşamasından asılı

olmayaraq, Azərbaycana gəlmələrinə imkan yaratmaq lazımdır… Azərbaycanda ermənilərin sayı kifayət qədər olmalıdır. Başqa bir imkan yoxdur. Xristianlıq naminə bu işi sürətləndirmək vacibdir». Rusiya imperatoru həmin məsələ ilə əlaqədar olaraq hər yerdə yaşayan ermənilərin siyahıya alınması sərəncamını verdi və bu yerinə yetirildi. Bu məqsədlə hətta xaricdə yaşayan ermənilərə də müraciət olundu və bu ermənilər tərəfindən rəğbətlə qarşılandı. Qısa vaxt ərzində ermənilər Qarabağın məhsuldar torpaqlarına gəlməyə başladılar. Təkcə Şuşaya 390 erməni ailəsi köçürüldü.[9]

Bununla da Rusiyanın köməkliyi ilə ermənilərin Azərbaycana, o cümlədən Şuşaya gəlişi üçün lazımi şərait yaradıldı. Hətta rus dilində ermənilərin çap etdirdiyi vərəqədə yazılmışdı: «Ruslar da, ermənilər də xristiandırlar. Burada heç bir ayrılıq ola bilməz. Allahın iradəsinə uyğun xristianlığı hər yerdə yaymalıyıq. Qarabağ da bu yerlərdən biridir».[10] Belə bir münasibətdən bəhrələnən ermənilər və onların liderləri, din xadimləri Azərbaycan ərazisində rus qoşunlarının xərclərini öz üzərlərinə götürmüşlər. Şübhəsiz, bu təsadüfi deyildi. Ermənilər bu hiyləgərlikləri ilə özlərinin ruslara tam yaxın olmalarını, onlara dayaq olmalarını nümayiş etdirirdilər və digər tərəfdən də bu yolla Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsini getdikcə artırmaq və bununla da gələcəkdə azərbaycanlıların öz yerlərində sıxışdırılmasına nail olmaq istəyirdilər. Belə şəraitdə I Aleksandr (1801-1825) dövründə də ermənilərə olan diqqət davam etdirilmişdi. I Aleksandr dövründə 1804-1813-cü illərdə olan Rusiya-İran müharibəsi nəticəsində bağlanmış Gülüstan müqaviləsi ilə Azərbaycanın Bakı, Quba, Şirvan, Şəki, Gəncə, Talış və Qarabağ xanlıqları Rusiyanın tabeliyinə keçmiş və bununla da ermənilər üçün əlverişli şərait yaranmışdı. Həmin müharibə dövründə Rusiya qoşunları iki dəfə İrəvan xanlığını işğal etmək istəmişlər. Birinci təşəbbüs 1804-cü ilin iyununda general Sisianovun komandanlığı altında olmuşdur. 1804-cü il iyulun əvvəlindən sentyabrın 2-ə qədər

olan müddətdə Sisianov bir neçə dəfə hücum etmişdisə də müvəffəqiyyət qazana bilməmişdir.[11]

İrəvanı işğal etməyin ikinci təşəbbüsü 1808-ci ilin payızında general-feldmarşal Qudoviçin komandanlığı altında olmuşdu. Lakin bu da bir nəticə verməmişdir. Ancaq göstərilən vaxtdan bir neçə il sonra Qafqazın Rusiya tərəfindən işğalı və Yaxın Şərqdən köçürülmüş ermənilərin Azərbaycanın müxtəlif bölgələrində və əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan İrəvan xanlığı ərazisində yerləşdirilməsi ilə azərbaycanlıların gələcəkdə baş verəcək faciələrinin təməli qoyulmuş oldu. Həmçinin Qərbi Azərbaycan torpağında erməni vilayətinin yaranması onun paytaxtının İrəvan şəhəri olması haqqında 21 mart tarixli (1821-ci il) fərman ermənilərin ümidlərini doğrultdu və bununla da azərbaycanlılara qarşı gələcəkdə olacaq faciələrin təməli əsaslandırıldı. Hansı ki, həmin vaxtda vilayətdə 83 min azərbaycanlı, 25 min erməni, İrəvanda isə 7331 azərbaycanlı və 2 mindən bir az artıq erməni yaşayırdı.[12] Buna baxmayaraq 1827-ci ildə İrəvan xanlığı Rusiya qoşunları tərəfindən işğal edildikdən sonra (o vaxt İrəvanın müdafiəsinə Həsən xan başçılıq etmişdi) ermənilər üçün daha əlverişli şərait yaradıldı. Hətta İrəvan xanlığının işğalında xüsusi qəddarlıq nümayiş etdirmiş İ.F.Paskeviçin xidmətləri çar tərəfindən mükafatlandırıldı. I Nikolay (1825-1850) Paskeviçə feldmarşal rütbəsi verməklə bərabər həm də ona familiyasının qarşısında «İrəvanski» sözünü yazmağa icazə verdi. O vaxtdan etibarən ermənilərə edilən havadarlıq müntəzəm olaraq daha açıq şəkildə həyata keçirildi.

1827-ci il noyabrın 4-də I Nikolayın fərmanı ilə İrəvanın baş məscidi dəyişdirilib xristian kilsəsinə (в честь Покровка Пресвятой Богородицы) çevrildi.[13]

1826-1828-ci il Rusiya-İran və 1828-1829-cu illərin Rusiya-Türkiyə müharibələri ermənilərin Rusiyaya olan ümidlərini doğrultdu. Belə ki, həmin müharibələrdən sonra 1828-1832-ci illərdə İrandan və Türkiyədən ermənilər kütləvi hal-

da köçürülərək, Azərbaycanın müxtəlif bölgələrində o cümlədən İrəvan əyalətində yerləşdirildilər. Azərbaycanlılar isə öz ata-baba doğma torpaqlarında sıxışdırılmağa və sonra isə qaçqına çevrilmək məcburiyyətində qaldılar. Azərbaycan xalqı üçün olduqca ağır və faciələrlə müşaiyət olan həmin dövrü xatırladan H.Əliyev soyqırım günü münasibəti ilə Azərbaycan xalqına 27 mart 2001-ci il tarixli müraciətində demişdi: «XIX əsrin əvvəllərindən başlayaraq ardıcıl olaraq, tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir».

1828-ci ildə Naxçıvan və İrəvan xanlıqları ərazisində yeni bir bölgə – erməni vilayəti təşkil edildi və bunun təşkili ilə azərbaycanlıların öz doğma torpaqlarında sıxışdırılması prosesi müntəzəm xarakter aldı. Hansı ki, erməni vilayəti təşkil edilən zaman həmin ərazidə olan 752 yaşayış məntəqəsindən ancaq 62-i erməni kəndi idi.[14] Həmin vaxt İrəvanda 4 xan, 41 bəy və sultan azərbaycanlı ailəsi yaşadığı halda, erməni məlik və ağa ailəsinin sayı cəmi 8 idi. Şəhərdə xristian ruhanisi cəmi 13 nəfər olduğu halda, axunda və mollanın sayı 50 nəfər idi.[15]

Ermənistanın dövlət quruculuğu məsələsinə gəldikdə XIX əsr erməni müəllifi K.P.Patkovun yazdığı «Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ölkənin coğrafi termini olub qonşu dövlətlərin «öz mübahisələrini həll etdikləri yer olmuşdur»[16] – fikrinin haqlı olaraq akademik T.Köçərli tərəfindən tarixi fakt kimi qeyd edilməsi bir daha Ermənistan dövlətinin necə dövlət olması haqqında həqiqəti təsdiq edir.

Erməni alimlərindən Malik Abeqyan yazır: «Erməni xalqının əsli nədir, necə nə vaxt, harada və hansı yollarla o buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə

təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur».[17]

Mehmetzade Mirza Bala «Ermeniler və İran» əsərində yazır ki, XIX əsrin əvvəllərində Qafqazda Ermənistan deyilən bir şey yox idi. Hətta Rusiyanın əli ilə yaradılan Ermənistan və onun mərkəzi sayılan İrəvan da azərbaycanlıların tarixi əraziləri olmuşdur. Bunu tarixi sənədlər dönə-dönə təsdiq etmişdir. İrəvan şəhərinin tarixi səfəvilərin görkəmli hökmdarlarından olan Şah İsmayılın sevimli sərkərdələrindən olan Rəvanqulu xanın adı ilə bağlıdır. Belə ki, Şah İsmayıl 1500-cü ilin yazında Kiçik Asiyaya getmək qərarına gələrkən Araz çayının şimalındakı dağlıq rayona, Göyçə gölünün cənub sahillərinə doğru hərəkət edir. Bundan sonra Şah İsmayıl vaxtı ilə Əmir Teymurun sevimli adamlarından olan Xoca xan Vahicaninin 1407-1408-ci illərdə saldırdığı şəhərin xarabalıqları yerində möhtəşəm qala ucaldılmasını Rəvanqulu xana tapşırır və həmin qalaya onun adı verilir. Bununla da qala Rəvan (İrəvan) adlanır.[18]

Belə olan halda ermənilərin nəinki Ermənistanla, hətta Qafqazla əlaqələri olmamışdır. Bunu erməni müəllifləri də etiraf etmişlər. 1916-cı ildə Sankt-Peterburqda B.İşxanyan nəşr etdirdiyi «Народности Кавказа» məqaləsində yazmışdı: «Ermənilərin həqiqi məskəni indiki Ermənistan ərazisində yox, Kiçik Asiyadadır».

M.Q.Nersisyanın redaktorluğu ilə 1980-ci ildə Yerevanda çap olunmuş «История Армянского народа» kitabında İrəvan xanlığının XIX əsrin əvvəllərində 15 mahala – Zəngibasar, Vedibasar, Sürməli, Göyçə və b. bölünməsi və onların adlarının azərbaycanca yazılması, habelə xanlığın idarə olunması üçün çoxsaylı vəzifələrin (Baş mirzə, xəzinədar, qalabəyi və b.) göstərilməsi də indiki Ermənistan ərazisinin məhz azərbaycanlılara məxsus olduğunu təsdiq edir. Digər tərəfdən həmin kitabda Rusiya qoşunları tərəfindən «İrəvanın işğal edilməsindən ermənilərin çox məmnun olması» faktı da təsdiq edir ki, İrəvan xanlığı azərbaycanlı-

ların əzəli ərazisi olmuşdur. Belə bir tarixi fakt da diqqəti cəlb edir ki, Rusiya tərəfindən İrəvan xanlığı işğal ediləndə şəhər əhalisinin 70 faizdən çoxu azərbaycanlılar idi.[20] Həmin faktla əlaqədar erməni müəlliflərindən Zaven Qorqodyanın 1932-ci ildə nəşr etdirdiyi «Sovet Ermənistanının əhalisi son yüz ildə 1831-1931» statistik məlumat kitabında yazmışdı: «2310 kənddən iki mini azərbaycanlılara məxsus olmuşdur».[21]

Erməni millətçilərinə bir tarixi faktı da xatırlatmaq lazımdır ki, XIX əsrin əvvəllərində İrəvanda da əhalinin çoxu azərbaycanlı olmuşdur. 49 bəy, məlik və sultandan 41 azərbaycanlı, İrəvan xanlığını idarə edən 49 nəfərin hamısı azərbaycanlı idi.[22]

Ümumiyyətlə, Ermənistan adlandırılan ölkənin ərazisində tarix boyu əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. Bu obyektiv həqiqəti məşhur Amerika tarixçiləri T.Svyatoxovski, Odri, P.Altstadm, rus alimləri N.N.Şavrov, S.N.Qlinka, V.L.Veliçko, Yuri Pompeyev, fransız alimi Jorj de Malevil və başqaları ilə bərabər müasir Azərbaycan tədqiqatçıları Z.Bünyadov, T.Köçərli, M.İsmayılov, İ.Əliyev və digərləri ilə yanaşı erməni alimlərindən B.İşxanyan, M.Abeqyan, M.Nersisyan, Z.Qorqodyan, V.A.Parsamyan və b. Təsdiqləyirlər.

V.A.Parsamyan açıq etiraf edərək yazmışdı: «Rusiyaya birləşənə qədər Şərqi Ermənistanın 160 min 195 nəfər əhalisinin 56.305 nəfəri, yaxud 33,8 faizi erməni, 84089 nəfəri, yaxud 49,7 faizi müsəlman, 26911 nəfəri, yaxud 16 faizi kürd və 850 nəfəri, yaxud 0,5 faizi kənar millətlər olmuşdur.[23]

Bunu eyni zamanda vaxtı ilə erməni vilayətində gəlirlər və dövlət mülkiyyəti idarəsinin keçmiş sədri İ.Şopen 1852-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi «Историический памятник состояния Армянской – области в эпоху ее присоединения к Российской империи» əsərində də təsdiq etmişdi. Onun özünün etiraf etdiyi kimi, həmin əsəri müşahidələri və erməni tarixçisi Moisey Xorenskidən, fransız alimi Sen-Martenin qeydlərindən və İnciçiyanın «Qədim Ermə-

nistan» əsərindən istifadə etməklə yazmışdı. Onun 1232 səhifəlik əsərini oxuyarkən aydın olur ki, müəllif qədim Ermənistanın sərhədlərini təsvir edərkən erməni müəlliflərinə əsaslandığına görə, şübhəsiz qeyri-obyektiv hallara yol vermişdi. Özü də haqlı olaraq bəzi məqamların izahında etiraf edir ki, digər mənbələrdə bu məlumatlara rast gəlmədiyindən onlara inanmaq o qədər də düzgün deyil. Buna baxmayaraq əsərdə ermənilərin ərazi iddialarının əsassız olduğunu və İrəvanda yaşayan əhalinin əksəriyyətinin azərbaycanlılar təşkil etdiyini məhz şəhərin azərbaycanlılara məxsus olduğunu sübut edən faktlar az deyildir. Əsərdən bəzi faktları göstərmək erməni saxtakarlığının ifşası baxımından olduqca əhəmiyyətlidir. İ.Şopen yazır ki, İrəvan xanlığı Hüseyn xan tərəfindən idarə ediləndə xanlığa bir şəhər, 13 mahal daxil idi. Mahallardan Qırx-bulaq, Zəngi-basar, Vedi-basar, Sürməli, Şərur və s. adları təsdiq edir ki, bunlar azərbaycanlıların yaşadığı yerlər olmuşdur. Şəhərdə Vəli xan məscidi, Novruzəli bəy məscidi, Hüseynəli xan məscidi, Hacı İmamverdi və Hacı Cəfər bəy məscidlərinin olması bir daha erməni saxtalığını ifşa edir. İrəvanda eyni zamanda 8 hamamın olması və bunların Şeyxülislam, Vəlixan, Mehdibəy, Hacıbəyli, Kərim bəy və s. adlanması faktları da şəhərin azərbaycanlılara məxsus olduğunu təsdiq edir.[24]

Şopen yazır ki, İrəvanda şəhər meydanlarının adlarından da məlum olur ki, bura azərbaycanlıların çoxluq təşkil edib yaşadığı yer olmuşdur. Buna misal olaraq Xanbağı meydanını göstərmək olar, hansı ki, həmin yerdə artıq bura köçürülmüş ermənilərin evləri yerləşir.

Şopen özünün bir fikri ilə də erməni saxtalığını ifşa edərək yazır: Ermənistan çarlığı dövründə guya ermənilər 6 milyon nəfər olublar? Ancaq 1852-ci il üçün dünyanın müxtəlif yerlərinə səpələnmiş ermənilərin sayı 2 milyonu təşkil etmişdi. Rusiya tərkibində olan qədim Ermənistan ərazisində 440 min əhali yaşamış və bunun da yarıdan çoxu müsəlmanlar olmuşdu.[25] İrəvan xanlığına 1755-1762-ci il-

lərdə Həsənəli xan Qacarın, 1762-1783-cü illərdə Hüseynəli xanın, 1783-1784-cü illərdə Qulaməli xanın, 1784-1805-ci illərdə Məhəmməd xanın, 1805-1806-cı illərdə Mehdiqulu xanın, 1806-1807-ci illərdə Məhəmməd xanın, 1807-1827-ci illərdə Hüseynqulu xan və qardaşı Həsən xanın[26] başçılıq etməsi faktı da bir daha İrəvan xanlığı ərazisinin azərbaycanlılara məxsus olduğunu təsdiq edir. Bu tarixi həqiqət həmçinin Rusiya Dövlət Duması və Federasiya Şurası sədrlərinin dəvəti ilə 2001-ci il aprelin 15-dən 21-dək Rusiyada rəsmi səfərdə olan Azərbaycan parlamentinin nümayəndələrinin çıxışlarında da səslənmişdi.

Dövlət Dumasının 95 illiyi münasibəti ilə keçirilən konfransda keçmiş spiker Murtuz Ələsgərovun çıxışında 1906-cı ildə birinci Dövlət Dumasına 6 Azərbaycanlının seçildiyini bildirməsi və Dumanın həmin üzvlərinin məhz Azərbaycanın üç quberniyasını – Bakı, Yelizavetpol və İrəvanı təmsil etdiklərini bildirməsi tarixi faktından ermənilər çox narahat olmuşlar. Bununla konfrans iştirakçılarına məlum oldu ki, İrəvan Azərbaycanın tərkib hissəsi olub və burada yaşayan əhalinin əksəriyyəti də məhz azərbaycanlılar olmuşlar. Göstərilən tarixi mənbələrin ermənilərin əsassız iddialarını ifşa etməsinə baxmayaraq ermənilər yenə də saxta iddialarını təbliğ etməkdə davam edirlər.

2001-ci il aprelin 30-da Ermənistanın BMT yanında Daimi Nümayəndəliyi həmin təşkilatda gülünc bir «memorandum» yayıb. Belə ki, 1926-cı ildə çap olunmuş Böyük Sovet Ensiklopediyasına istinad edilərək yayılan sənəddə göstərilir ki, 1922-ci ildə Ermənistan əhalisinin 86 faizinə yaxınını ermənilər, 9,8 faizini «türk və farslar» təşkil ediblər. Ağ yalan. Tarixi mənbələrin göstərdiyi kimi 1828-ci ildə hazırkı Ermənistanda azərbaycanlılar əhalinin 70 faizdən çoxunu, ermənilər isə cəmi 28,6 faiz təşkil ediblər. Bəs necə olub ki, 1828-1922-ci illər ərzində ermənilər 28,6 faizdən 85,6 faizə qalxıblar. Akademik T.Köçərli haqlı olaraq yazır: «Bəlkə hansısa qeyri-adi hadisə baş verib deyək ki, hər erməni qa-

dın ildə 30-40 uşaq doğub, amma azərbaycanlılarda əsla təbii artım olmayıb».[27]

Göstərilən faktlarla yanaşı İrəvan xanlığı ərazisində 420 azərbaycanlı kəndinin ruslar tərəfindən xarabalığa çevrilməsi[28] də həmin yerlərin məhz azərbaycanlılara məxsus olduğunu bir daha təsdiq edir. Bunu hətta ABŞ tarixçiləri Çastin Makkarti və Karolin Makkarti (ər-arvad) də təsdiq etmişlər. Onlar «Турки и армяни» kitabında yazmışlar ki, Ermənistan dövlətinin tutduğu indiki ərazi ermənilərə deyil, azərbaycanlılara məxsus olmuşdur.

Deməli, Azərbaycanın ərazisində ermənilər hələ az idilər. Bu ermənilər və hətta İ.F.Paskeviçi çox narahat edirdi. Ermənilərin Azərbaycanda az olması vəziyyətindən narahat olan və bu məsələni daim düşünən Paskeviç Peterburqa göndərdiyi məktublarında qeyd etmişdir ki, Naxçıvanda 10 min azərbaycanlı, 3 min erməni vardır. Yaxın vaxtlarda bu iş qaydaya düşməlidir. Azərbaycanda ermənilərin sayı çoxalmalıdır.[29] Həmin məlumatın saxtalığına baxmayaraq, Rusiya generalının mövqeyindən aydın olur ki, ermənilərin Azərbaycanda çoxaldılmasına nə dərəcədə maraq olmuşdur. Belə mövqedən istifadə edən ermənilər «Böyük Ermənistan» yaratmaq iddiaları naminə məhz Azərbaycan torpaqlarında ərazi əldə etməyə ümid bəsləyirdilər. Bu məsələdə İrəvan və Qarabağ əsas ərazi hesab olunurdu. Ona görə də həmin yerlərdə və eləcə də Azərbaycanın digər yerlərində ermənilərin artırılması qarşıda duran məsələ idi. Bu isə ermənilərin kütləvi halda köçürülməsi ilə ola bilərdi.

Deməli, ermənilərin Azərbaycan torpaqlarına kütləvi halda köçürülüb yerləşdirilməsini təmin etmək üçün əlverişli məqam, şərait yaradılmalı idi. Belə şərait XIX əsrdə ikinci Rusiya-İran (1826-1828-ci illərdə) müharibəsinin gedişində yarandı. Bu Sankt-Peterburqda İrandan ermənilərin köçürülməsi məsələsinin qaldırılması oldu. İ.Paskeviçin Qafqaz Rus ordusuna baş komandan təyin edilməsi və onun bacısı oğlu A.Qriboyedovun Rusiya Xarici İşlər nazirliyi bölmə-

lərindən birinə başçı təyin edilməsilə ermənilərin köçürülməsi məsələsi daha fəal hal aldı.

İ.Paskeviç 1828-ci il fevralın 29-da göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan, Naxçıvan bölgələrində və qismən də Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin.[30]

Paskeviçin Lazarevə 24 apreldə (1828-ci ildə) verdiyi tapşırığa görə köçkünlərin böyük hissəsi və xüsusi ilə də kasıblar Qarabağa getməyə təhrik edilməli idi. Şübhəsiz bu tapşırıq Lazarev tərəfindən canla-başla yerinə yetirildi. Hətta, ermənilərin çoxu yol xərci üçün pulla təmin edildi və onların İrəvanla bərabər Qarabağa getmələrinə inam yaradıldı.[31]

Akademik T.Köçərlinin haqlı olaraq yazdığı kimi «bu azərbaycanlıları öz dədə-baba yurdlarında sıxışdırmağa istiqamət verilməsi demək idi».[32] Bu, eləcə də Veliçkonun yazdığı kimi, ermənilər tərəfindən Zaqafqaziyanın bəzi ərazilərinin müstəmləkə halına salınmasının başlanması demək idi.[33]

Beləliklə, Türkmənçay (1828-ci ildə) müqaviləsindən sonra bu əyani şəkildə həyata keçirildi və hətta bu məsələlərlə məşğul olan xüsusi köçürmə komitəsi yaradıldı və köçürmə işi Rus ordusunun polkovniki erməni L.Lazarevin ixtiyarına verildi (Rusiyanın bu siyasəti bir sıra görkəmli tədqiqatçılar tərəfindən tarixi mənbələr əsasında araşdırılmışdı. Onların içərisində V.L.Veliçkonu, A.Qriboyedovu, T.Svyatoxovskini, N.N.Şavrovu, T.Köçərlini, M.İsmayılov və başqalarını göstərmək olar).

Bağlanmış müqavilənin şərtləri də başdan-başa ermənilərin xeyrinə idi. Belə ki, İrandan köçürülub azərbaycanlılara məxsus ərazidə yerləşdirilən ermənilər 6 il müddətinə vergidən azad olunurdular, onlara daşınmaz əmlaklarını satmaq üçün imkan yaradılırdı və s. Buna görə də İran ermənilər Rusiya imperatoruna fəda olmaq üçün canfəşanlıq edirdilər. Bununla da Rusiya-İran (1826-1828-ci illərdə) və Rusiya-Türkiyə (1828-1829-cu illərdə) müharibələrindən

sonra İrandan və Türkiyədən İrəvan xanlığı ərazisinə, Azərbaycanın müxtəlif bölgələrinə, habelə Dağlıq Qarabağa ermənilərin kütləvi halda köçürülməsi və yerləşdirilməsi prosesi başlandı. Ermənilərin köçürülməsinin təşəbbüsçülərindən olan A.S.Qriboyedov həmin məsələ ilə əlaqədar olaraq yazırdı: «Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (müsəlmanların – Ə.A.) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişdik».[34]

General Paskeviçin 29 fevral (1828-ci il) tarixli göstərişi özünü 1826-1828-ci il Rusiya-İran müharibəsi gedişində və müharibədən sonrakı illərdə daha aydın göstərdi. Belə ki, 1827-ci ilin oktyabrından ruslar Təbrizə daxil olarkən polkovnik Lazarev şəhərin komendantı təyin edildi. Ermənilər tez bir anda Təbrizə toplaşdılar. Onlar Lazarevə «Siz bizim tayfa üzvümüz, qohumumuzsunuz» – deyərək bildirdilər ki, böyük imperatordan təvəqqə edin ki, biz onun himayəsində yaşamağa və ölməyə şadıq.[35]

Şübhəsiz, Rusiya dövləti ermənilərin arzularına biganə qalmadı. Rusiyanın qələbəyə heç bir şübhəsi olmadığı vaxtda Lazarev çar hökumətinə bir layihə təqdim etdi. Burada məqsəd Rusiya imperiyası tərkibində erməni çarlığının bərpa edilməsi ideyası idi. Rusiyanın hakim dairələri üçün həmin ideya imperiyanın ucqarında xristian dövləti yaradılması üçün əsas olmuşdur və buna görə də müharibədən sonra ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi siyasəti təsadüfi olmamışdır. Hətta Lazarevin 30 mart 1828-ci ildə imza etdiyi sənəddə göstərilirdi ki, Rusiya dövləti köçmək istəyən ermənilərə bildirirdi ki, arzu etdikləri yerlərə – İrəvana, Naxçıvana və Qarabağa köçüb təhlükəsiz və xoşbəxt yaşaya bilərlər.[36] Rusiyanın ermənilərə verilən belə səlahiyyətindən və Türkmənçay (1825-ci il) müqaviləsindən sonra Cənubi Qafqaz ərazisinə, xüsusilə İrəvan xanlığı ərazisinə və Azərbaycanın müxtəlif yerlərinə ermənilərin kütləvi axını başlandı.

V.A.Parsamyan yazır: 1828-ci il mart ayının 20-də I Nikolay bu müqaviləni (yəni Türkmənçay müqaviləsini) təsdiq etdi və martın 21-də isə erməni vilayətinin yaradılması haqqında fərmanı imzaladı.[37] Həmin fərmana görə Naxçıvan və İrəvan xanlıqları ləğv edildi və onlar «Erməni vilayətləri» adı altında birləşdirildi. Bununla da Rusiya tərəfindən yaradılan «Erməni vilayəti» tam ermənilərin xeyrinə olan bir addım oldu. Bu eyni zamanda Rusiyanın ermənilər içərisində nüfuzunun daha da artmasına təsir göstərən bir

addım oldu. Onu da nəzərə almaq lazım idi ki, həmin vilayət yaradılarkən orada 16078 müsəlman ailəsi və 4428 erməni ailəsi məskunlaşmışdı. «Erməni vilayəti» məhz belə erməni ölkəsi idi.[38]

Prof. Fuad Əliyev, Urfan Həsənova görə «Erməni vilayəti» 1850-ci ilə kimi mövcud olmuşdur. Həmin ildə vilayət İrəvan quberniyasına çevrildi və bu quberniyanın tərkibinə Naxçıvan, Ordubad qəzaları da daxil edildi.[39] Bununla da 1827-ci ildə Rusiya ordusu tərəfindən o zaman demək olar ki, müstəqil və böyük əraziyə malik olan İrəvan xanlığının işğalı ilə əhalisinin 92 faizini[40] təşkil edən azərbaycanlıların faciəli günləri başlandı. Bu ərazidə azərbaycanlıların yaşadığı 420 kənd darmadağın edildi. Azərbaycanlılar öz yerlərindən çıxarılmağa məruz qaldılar. Bunun nəticəsində bölgələrdə demoqrafiya nisbəti getdikcə dəyişikliyə səbəb oldu. Belə ki, İrəvan əhalisinin etnik tərkibi 1828-ci ildə ermənilərin xeyrinə dəyişdi. Onların sayı 2379 nəfərdən 4132 nəfərə qədər artdı.[41]

Dağlıq Qarabağ məsələsinə gəldikdə ermənilərin Rusiyanın vasitəsilə Dağlıq Qarabağda məskunlaşması prosesindən sonra Azərbaycanın ayrılmaz hissəsi olan həmin yer ermənilərin azərbaycanlılara qarşı yeni mübarizə meydanına çevrildi. Onlar Qarabağı özlərinin qədim torpaqları kimi qələmə verərək buranın zəngin təbiətinə, sərvətinə yiyələnmək istəmişlər.

Tarixi mənbələr dönə-dönə sübut etmişlər ki, Qarabağ xanlığının banisi Pənahəli bəy olmuşdu. Onun vəfatından sonra Qarabağ xanlığının ən bacarıqlı və görkəmli hökmdarı oğlu İbrahim xan olmuş və İbrahim xanın hökmranlığı dövründə Qarabağ xanlığı daha da inkişaf edib şöhrətlənmişdi. Bu vəziyyət isə ermənilərı qane etməmişdi. Çünki ermənilərin Qarabağa olan meyli, istəyi gündən-günə artmışdı. Buna görə də ermənilər öz xəyanətkar istəklərinə nail olmaq üçün Rusiyadan istifadə etmək yolunda az əmək sərf etməmişlər. Onlar hətta Qarabağ xanı İbrahim xanın aradan götürülməsinə və bu yolla onun erməni ilə əvəz edilməsi kimi alçaq bir xəyanətdən belə çəkinməmişlər. Bu fikir 1783-cü il aprelin əvvəllərində knyaz Potyomkinin imzaladığı sənəddə də öz əksini tapmışdı. Sənəddə «İbrahim xanı devirməli və Qarabağda müstəqil erməni əyaləti təsis etməli» fikri yazılmışdı. P.Q.Butkova görə knyaz münasib məqamda İbrahim xanı erməni millətindən olan hökmdarla əvəz olunması göstərişini də vermişdi.[42]

Ermənilər Tiflisdə olan rus hərbiçiləri ilə də danışıqlar aparıb bildirmişlər ki, əgər İbrahim xan məhv edilərsə, o halda Qarabağda xristian dövləti yaradıb onu Rusiyaya tabe edəcəklər.[43] Ermənilərin hiyləgərliklə Rusiyaya yaxınlaşmaq cəhdində əsas məqsədi necə olursa-olsun onu Zaqafqaziyaya hücuma cəlb etmək, bir sıra Azərbaycan torpaq-la-rının işğalına nail olmaq və Ermənistan dövləti yaratmaq olmuşdu.

Azərbaycanın istər İrəvan xanlığı ərazisində və istərsə də Qarabağ xanlığı ərazisində erməni-xristian dövlətinin yaradılması naminə ermənilərin bütün xarakteri – İbrahim xanı devirmək, ona sui-qəsd etmək və bu məqsədlə erməni məlikləri ilə katolikos arasında gizli danışıqlar, erməni məliklərinin xəyanəti, İbrahim xanın satqınlıq edən erməni məliklərini həbs etdirməsi və s. məsələlər görkəmli alim, akademik T.Köçərlinin «Qarabağ» əsərində tarixi mənbələr əsasında təfsilatı ilə aydın verilmişdi. Əsər Qarabağ tarixi haqqında olduqca əhəmiyyətli, sanballı bir monoqrafiyadır, əvəzsiz bir xəzinədir.

İbrahimxəlil xana qarşı münasibətlərin kəskin bir dövründə Rusiya 1801-ci ildə Şərqi Gürcüstanı özünə tabe etdi. Həmin dövrdə Qazax və Şemseddil sultanlıqları Gürcüstandan asılı ol

duqlarına görə Şərqi Gürcüstanla birlikdə həmin yerlər da Rusiyaya tabe edildi. Bununla da deməli Rusiya Azərbaycanın da işğalına başlamış oldu. Belə bir şəraitdə Qafqazda Rusiya ordusunun baş komandanı olan general Sisyanovun Gəncə xanlığına marağı artdı. Bura olan marağın təsirilə Sisyanov 1803-ci il fevralın 25-də Cavad xana göndərdiyi məktubda: Rusiya imperatoru Sizi və Sizin xalqı öz himayəsinə götürür və böyük oğlunuz Uğuzlu ağanı əmanət kimi Tiflisə göndərməyi bildirmişdi. Cavad xan rədd cavabı verir. Bu Sisyanovu qane etmədiyinə görə hərbi əməliyyata başlamaq qərarına gəlir. Hətta 1803-cü ilin noyabrın axırlarında Gəncə ermənilərinin satqınlığına əmin olan Sisyanov onlara müraciət göndərərək əmin edir ki, imperiyanın müdafiəsinə qalxan adamlar özünün əmlakının təhlükəsizliyinə təminat alacaq, müsəlmanların təqib və soyğunçuluğundan canınız qurtaracaq və Rusiya dövlətinin sakini kimi Gürcüstanın istədiyiniz yerində asudə yaşayacaqsınız (Bax: Azerbaycan tarixi. cild. Bakı, 1994, səh.571). Şübhəsiz həmin müraciət öz rolunu oynadı və bundan sonra Sisyanov 1803-ci ilin dekabrında Cavad xana təslim olmaq haqqında ultimatum göndərdi. Sisyanov hetta Cavad xana hakimiyyətdə qalıb bac verməsini də təklif etmişdi. Polad iradəli Cavad xan bu təklifi nəinki qəbul etmiş, hətta Sisyanova cavab belə verməmişdi.

Deməli, Cavad xan xanlığın müstəqilliyini ad-sanından, taxtı-tacından üstun tutmuş və işğalçılara qarşı vuruşmaq yolunu seçmişdi. Ona görə də haqlı olaraq Cavad xanın şəxsiyyəti, onun dönməzliyi, igidliyi xatirələrdə yaşayır və yaşayacaqdır.

Onu da xatırlamaq lazım gəlir ki, satqın ermenilər həqiqətən də Gəncənin işğalında ruslara yardımçı olmuşlar. Bunu Vəzəndə məliki Cəmşidinin Peterburqa yazdığı məktubdan da aydın görmək olur. Məktubda göstərilmişdi: Biz məliklər döyşlərdə çox fərqlənmişik. Lakin mərhum Knyaz Sisyanovun qəlbindeə ermeni xalqına olan nifrət Gəncənin fəthində bizim göstərdiyimiz xidmətləri padşaha çatdırmağa qoymamışdı (Bax: Г.А.Эзов.

Сношения Петра Великого с Армянским народом. Документы. 1998. səh.C.XIX.).

Ermənilərin xəyanətini bildirən akademik T.Köçərlinin də fikri çox maraqlıdır. O, yazmışdı: Eçmiədzindən Şəmkirə-Sisyanovun qərargahına gələn arxiyepiskop Nerses və başqa erməni din xadimləri Gəncənin fəthində bilavasitə iştirak etmişdilər (Bax: T.Köçərli. Qarabağ əsəri, Bakı, 2002, səh.198).

Gəncənin süqutu Qarabağ xanlığının vəziyyətini bir qədər mürəkkəbləşdirdi. Sisyanovun növbəti diqqəti Qarabağ xanlığına oldu. O, Qarabağ xanından xarici siyasətində kimə arxalandığını bildirməsini tələb etdi. Bunu dərk edən İbrahimxəlil xan Sisyanovla görüşüb danışıq aparmağı məqsədəuyğun hesab etdi və bununla da 1805-ci ilin mayında Gəncə şəhərinin 20 verstliyində Kürəkçay yaxınlığında ibrahimxəlil xanla Sisyanovun görüşü oldu. Mayın 14-də hər ikisi Qarabağ xanlığının Rusiya hakimiyyəti altına keçməsi haqqında əhdnamə sənədini imzaladılar. Həmin sənəddə İbrahimxəlil xanın ailəsinin nəslinin və əyalətinin Ümumrusiya imperiyasının tabeliyinə daxil olması göstərilmişdi. Hətta əhdnamə ilə İbrahimxəlil xanın əyalətinin bütövlüyünün saxlanmasına imperator zəmanəti verilmişdir. (Bax: Azərbaycan tarixi qaynaqlar. Səh.274)

Ancaq, çox təəssüf ki, İbrahimxəlil xanın, ailəsinin nəslinin və əyalətin bütövlüyünün saxlanmasına olan vədlər tez unuduldu. Müqavilənin bağlanmasından bir il sonra, 1806-ilin iyununda Xanı, ailəsini, sülaləsini və əyalətini "qoruyan" Rusiya ordusu böyük xəyanet edərək silahı "qoruduqlarına" qarşı çevirdi. Gecə mayor Lisanoviç başda olmaqla bir qrup hərbi dəstə xanın yaşadığı mənzilə basqın edərək, dəhşətli faciə törətdilər. Qatillər xanı, ailəsini, yaxın qohumlarını birlikdə 17 nəfər adamı qətlə yetirdilər. Bununlada ermənilər İbrahimxəlil xanln aradan götürülməsi məqsədlərinə nail oldular.

50 ilə yaxın böyük bir əraziyə - 21 mahala malik olan Qarabağ xanlığına ləyaqətlə başçılıq etmiş ibrahimxəlil xan ölkənin iqtisadi, mədəni və quruculuq işlərinə daima qayğı ilə ya-

naşmışdı. Eyni zamanda o, qonşu dövlətlərlə əlaqələr saxlanmasına da diqqətli olmuşdu.

Görkəmli tedqiqatçı alim Zemfira xanım Haciyevanın «Qarabağ xanlığı: Sosial-iqtisadi münasibətlər və dövlət quruluşu» eserində Qarabağ xanlığının bütün sahələrdə gördüyü işlər və əldə etdiyi nailiyyətlər olduqca çox maraqlı faktlarla geniş verilmişdi.

Zemfira xanım yazır ki, 1800-cü ilin məlumatına əsasən, Şuşada 219 sənətkar olmuşdu. Onların 16-sı dərzi, 17-si papaqçı, 21-i ayaqqabı tikən, 7-si boyaqçı, 6-sı dabbaq, 7-si Xamutçu, 9-u misgər, 8-i silah ustasi, 15-i daşyonan və evtikən, 10-u Xarrat, 7-si zərgər və s. Olmuşlar (Bax: Zemfira Hacıyeva. Göstərilən əsər, Bakı, 2007, səh.l59).

Bu faktlar təsdiq edir ki, şəhərdə müxtəlif sahələrdə sənətkarlıq nə dərəcədə inkişaf etmişdi. Bunlardan əlave müəllif yazır ki, İbrahimxəlil xan Şuşanın bir ağac məsafəsində «Xan bağı» adını almış bağ saldırmışdı. Burada bağlar, tövlələr, buzxana və dəyirmanlarla bəraber ipək, yun və iplik dəri boyamaqla məşğul olan üç boyaqxana olmuşdu.

Faktlar göstərir ki, şəhərdə qaynar həyat yaşanmışdı. Belə şəraitin hökm sürdüyü bir dövrdə 1805-ci ildə İbrahimxəlil xan Kürəkçay müqaviləsi imzalanan vaxt vəliəhdlik adını böyük oğlu Məmmədhəsən ağaya vermişdi. Zemfira xanım yazır ki, "Məmmədhəsən ağa hələ İbrahimxəlil xanın sağlığında, 1806-ci il fevralın 24-də xəstələnib qəflətən vəfat etmişdi. Xanın qalan oğlanları arasında ən böyüyü general mayor Mehdiqulu ağa idi. Odur ki, varislik və vəliəhdlik sənədi xanın və Qarabağın başqa əyanlarının möhürü ilə Mehdiqulu ağaya verilmişdi. Mayor Lisanoviç İbrahimxəlil xanı qətlə yetirdikdən sonra general Nesvetsayevə raport yazmış və həmin raborta əsasən, 1807-ci ildə çar I Aleksandr Mehdiqulu xana xanlıq fərmanı, hakimiyyət bayrağı və cəvahirlə bəzənmiş qılınc göndərmişdi" (Bax: yenə orada, səh.200).

Zemfira xanımın gərgin əməyinin və böyük zəhmətinin məhsulu "Qarabağ xanlığı: Sosial-iqtisadi münasibətlər və dövlət quruluşu" əsəri olduqca aktual bir məsələyə həsr edilmişdi.

Tarixi mənbələr, faktlar əsasında yazılmış əsərin hər səhifəsində ermənilə- rin əsassız və uydurma iddiaları alt-üst edilmişdir.

Bununla bir daha Ermənilərin Qarabağ haqqındakı əsassız iddialarına gəldikdə tarixi mənbələrdən aydın olur ki, Qarabağ heç bir vaxt ermənilərə mənsub olmamışdır. Azərbaycanın görkəmli nümayəndələri – Ə.B.Haqverdiyev, N.B.Vəzirov, S.S.Axundov, Xurşudbanu Natəvan, Q.B.Zakir, Firudin bəy Köçərli, M.M.Nəvvab kimi tarixi şəxslər Şuşada yaşayıb-yaratmışlar. Akademik T.Köçərlinin yazdığı kimi Şuşada qaynar ədəbi və mədəni həyat olmuşdur. Burada həvəskar gənjlər 1884-cü ildə M.F.Axundovun komediyalarını, 1899-cu ildə V.Şekspirin «Otello»sunu tamaşaya qoymuşlar.[44] Qarabağ həm də Azərbaycan milli musiqisinin şöhrət qazanmış beşiyi olmuşdur. Firudin Şuşinski haqlı olaraq Şuşanı bütün Zaqafqaziyanın Konservatoriyası adlandırmışdı.[45]

Tarixi reallıqlara heç bir məhəl qoymayan bəzi erməni müəllifləri, o cümlədən Barxudaryan yazır ki: Şuşada ermənilərin yaşadığı hər erməni məhəlləsində həmin məhəllənin adını daşıyan kilsə olub və burada olan dörd kilsədən biri 1816-cı ildə, ikincisi 1822-ci ildə, üçüncüsü 1832-ci ildə və dördüncüsü – Qazançılar 1887-ci ildə tikilmişdir.[46]

Akademik T.Köçərli yazır ki, Şuşa bina ediləndən ta XIX əsrin əvvəllərinədək şəhərdə erməni kilsəsi olmayıb. XVIII əsrdə Şuşada bir məbəd – İbrahimxəlil xanın 1768-1769-cu illərdə tikdirdiyi Cümə məscidi olub. 1864-1865-ci ildə xanın qızı Gövhər Ağa həmin məscidi təmir etdirib və başqa bir məscid də tikdirib. XIX əsrdə Şuşada artıq 16 məscid olub.[47] Belə olan halda Qarabağ, Şuşa ermənilərə məxsusdur fikrinin söylənilməsi həqiqətdən çox-çox uzaqdır, gülüş doğuran sərsəmlikdir. Ermənilərin bu bölgələrdə çoxluğu

təşkil etmələri məsələsinə gəldikdə bu da heç bir əsası olmayan yanlış fikirdir.

Tarixi sənədlər təsdiq edir ki, Rusiya Qafqazın işğalına başlarkən ermənilər Qarabağda da azlıq təşkil etmişlər. Bu cəhətdən müşavir Mogilevski və polkovnik Yermolovun 1823-cü ildə hazırladıqları «Qarabağ əyalətinin təsviri» adlı kitabı əhəmiyyətli sənəddir. Burada Qarabağın bütün kəndlərinin, Şuşanın hətta ailə başçılarının siyahısı verilmişdir. Həmin kitabda göstərilir ki, Qarabağ xanlığında 90 min sakin yaşamışdır. Burada bir şəhər, 600-dən artıq kənd olmuşdur və bundan da yalnız 150-i erməni kəndi[48] idi. Bu zaman Şuşa əhalisinin də əksəriyyətini azərbaycanlılar təşkil etmişlər. 1830-cu illərin məlumatına görə şəhərdə olan 1700 ailədən 900-ü azərbaycanlı, qalanları isə erməni və başqa millətin nümayəndələri olmuşdur.[49]

Burası qəribədir ki, tarixi sənədlərə məhəl qoymayan bir sıra erməni müəllifləri, o cümlədən Z.Balayan əsası olmayan belə bir iddia irəli sürür ki, «Keçən əsrin əvvəllərində ermənilər Qarabağda əhalinin 98 faizini təşkil etmişlər». Lakin Z.Balayana xatırlatmaq lazımdır ki, Rusiyanın 1823-1827-ci illərdə olan rəsmi məlumatına görə də azərbay-canlılar Azərbaycanın bütün bölgələrində çoxluğu, İrəvan xanlığında əhalinin 76 faizini, Naxçıvan əyalətində 86,5 faizini, Qarabağ əyalətində isə 90 faizdən artığını təşkil etmişlər.[50]

Hətta, Rusiya imperiyasının əli ilə ermənilərin Qarabağa köçürülüb yerləşdirilməsi tədbirindən sonra, 1832-ci ildə ermənilər Qarabağ əhalisinin 31,6 faizini təşkil etmişlər.[51] Ermənilərin Qarabağda da müəyyən dərəcədə artmasında köçürülmələrinin təsirini inkar etmək olmaz. Belə ki, 1828-ci ildə Cənubi Azərbaycanın Marağa şəhərindən gələn 250 erməni ailəsi Dağlıq Qarabağın Maraqaşen kəndində məskunlaşmışdı. Hətta 1978-ci ildə bunun 150 illiyi şərəfinə abidə qoyulmuşdu. Bu tarixi sənəd abidəsini – yəni ermənilərin bura gəlmə olmaları faktını 1988-ci ildə ermənilərin yenidən azərbaycanlılara qarşı başladıqları mübarizədə dağıt-

dılar. Çarizmin köçürmə siyasəti ilə Qarabağda ermənilərə hər cür əlverişli şərait yarandı və təsadüfi deyildir ki, onlar bir ağızdan qışqırırdılar ki, I Nikolay böyük mərhəmətliyinə görə birinci çardır. Yaşasın Ermənistan dövlətinin hökmdarı I Nikolay. Çox sonralar isə Lenin, Partiya, Qorbaçov və az sonra isə «Boris, Siz Ermənistanın ümidisiniz» və s. sözlər[52] səsləndi. Bununla da Naxçıvan, İrəvan və digər Azərbaycan xanlıqlarının torpaqlarında ermənileşdirmə siyasəti həyata keçirildi.

A.S.Qriboyedov ermənilərin İrandan Zaqafqaziyaya köçürülmələri məsələsindən bəhs edərək yazmışdı: «Ermənilər əsas etibarilə müsəlman (yəni azərbaycanlı – Ə.A.) mülkədarlarının torpaqlarına köçürülürdülər».[53]

Belə bir dövrdə Türkiyədə yaşayan ermənilərin də Zaqafqaziyaya, Azərbaycana gəlmək həvəsi və marağı olduqca artmışdı. Bu məsələ ilə əlaqədar olaraq qraf Paskeviç 1829-cu ildə çara göndərdiyi məlumatda yazmışdı: Ədirnə (1829-cu ildə) müqaviləsindən sonra 90 min erməni Anadoludan Rusiyaya köçmək qərarına gəlmişlər. Katolikos Varfolomeyin nəsihət və tövsiyələrini dinləyən ermənilər: «Əgər Həzrəti-İsa göydən bizə getməməyi tövsiyə etsə də qulaq asmarıq» – cavabını vermişlər.[54]

Bununla da Ədirnə müqaviləsindən sonra ermənilərin Türkiyədən də Cənubi Qafqaza köçürülməsi fasiləsiz olaraq davam etmişdi. Xaricdən ermənilərin Cənubi Qafqaza köçürmə siyasəti azərbaycanlıları yaşadıqları yerlərdən qovmaq və ermənilər yerləşdirmək siyasəti ilə müşayiət olunurdu.

Beləliklə, çarizmin havadarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Dağlıq Qarabağda məskunlaşmağa nail oldular. 1828-1830-cu illər arasında Zaqafqaziyaya 40 mindən artıq İrandan və 84 min Türkiyədən erməni köçürülmüş oldu.[55] Təkcə 1830-cu ildə Göyçə ətrafı yerlərə 45 min Türkiyə ermənisi köçürüldü.[56]

Bununla da I Pyotrun ermənilərə qayğı və köçürmə siyasəti onun varisləri tərəfindən həyata keçirildi. Minlərlə

erməni ailəsi Araza yaxınlaşan anda da Rusiya hökuməti onlara göstərilən qayğını əsirgəmədi. Naxçıvan məsələsinə gəldikdə akademik T.Köçərlinin yazdığına görə müsəlman vilayətlərində ermənilər yerləşdirmək siyasəti Naxçıvanda, İrəvanda və digər ərazilərdə ermənilərin sayının artması ilə nəticələnsə də XIX əsrdə və XX əsrin əvvəllərində heç vaxt ermənilər Naxçıvanda çoxluq təşkil etməyiblər.[57]

Ancaq buna baxmayaraq Rusiyanın köçürmə siyasətinin nəticəsi olaraq ermənilər İrəvan və Yelizavetpol quberniyalarının ən əlverişli torpaq sahələrində, o cümlədən Yelizavetpol quberniyasının dağlıq hissəsində yerləşdirildilər. Onlara 200 min desyatindən çox xəzinə torpaqları ayrıldı.[58]

Qərbin və xüsusilə Rusiyanın milli siyasətinə böyük ümidlər bəsləyən erməni millətçiləri fəallaşdılar. Onların Cənubi Qafqaza köçmələri davam etdi və 1896-cı ilə kimi olan müddətdə Qarabağa 400 min erməni köçürüldü.[59] Həmin köçürülmələr nəticəsində XX əsrin əvvəllərində Zaqafqa-ziyada yaşayan 1,3 milyon ermənin bir milyondan çoxu N.N.Şavrovun yazdığı kimi «diyarın köklü sakinləri olmayıb bizim (yəni Rusiya tərəfindən – Ə.A.) tərəfimizdən məskunlaşdırılmışdır».[60]

Ermənilərin Zaqafqaziyaya, habelə İrəvan quberniyasına köçürülməsi ilə azərbaycanlıların orada sıxışdırılması və öz doğma torpaqlarından qovulması prosesi başlandı və bu haqda hesablamalar göstərir ki, 1828-ci ildən 1920-ci ilədək olan müddətdə iki milyondan çox müsəlman Rusiyadan qovuldu və bunların əksəriyyəti indiki Ermənistanı tərk edənlər oldu.[61] Həmin yerdən azərbaycanlıların qovulması siyasəti erməni tarixşünaslığında belə bir uydurma ilə əsaslandırılır ki, guya Ermənistanda yaşayan azərbaycanlılar orta əsrlərdə ermənilərin ərazisini işğal etmiş köçəri türk-tatarların nəsilləridir. Buna görə də guya onları buradan çıxartmaqla tarixi ədalət bərpa edilir. Bu saxta konsepsiya uzun illər boyu erməni diasporu tərəfindən xaricdə və Ermənistanda geniş təbliğ edilmişdi. Azərbaycan tarixçiləri bunun

əsassız olduğunu bilsələr də, çox təəssüf ki, həmin andan ona qarşı lazımi dərəcədə mübariz olmamışlar. Beləliklə, ermənilərin Azərbaycanın müxtəlif bölgələrinə köçürülməsi ilə Azərbaycan xalqının tarixində daha kəskin bir dövr başlanmışdı.

Çarizmin ermənilərə olan qayğısı sonrakı illərdə də özünü büruzə verdi. Bu qayğı XIX əsrin ikinci yarısında daha aydın hiss olundu. Hansı ki, o vaxtlar Rusiyanın məqsədi Qara dənizdə, boğazlarda öz mövqeyini genişləndirmək idi. Əslində bu məqsəd «Türk müsəlmanlarının zülmündən xristianların azad edilməsi uğrunda mübariz» şüarı altında gizlədilirdi. Həm də erməni burjuaziyası bu şüarla Türkiyə erməniləri arasında geniş təbliğat aparırdılar. Çarizmin erməni millətinə olan münasibətindən istifadə edən və ona böyük ümidlər bəsləyən Rusiya ermənilər çarın Qafqazda olan valisinə etdikləri müraciətdə xahiş etmişdilər ki, Türkiyə ilə sülhün (San-Stefanoda 1878-ci ilin fevralında) şərtləri müzakirə olunanda Rusiya dövləti ermənilərin mənafeyini müdafiə etsin. Bu müraciəti nəzərə alan Rusiya sülh danışıqlarında Türkiyəyə bildirdi ki, erməni vilayətlərində lazımi islahatları gecikdirmədən həyata keçirsin və buna tək Rusiya deyil, Berlin konqresi iştirakçıları olan dövlətlər (6 böyük dövlətlər) nəzarət etsin.[62]

Erməni vilayətlərində Türkiyə hökumətini islahatlar keçirməyə vadar edən həmin qərara hətta Berlin konqresində (1878-ci ilin iyununda) baxıldı. Berlin konqresinin qərarı erməni burjuaziyasının mötəbər dairələrinə böyük ümidlər verdi. Onlar erməni milli dövlətini yaratmaq uğrunda mübarizəni artıq Rusiya ilə bərabər bütün böyük ölkələrdə aparmağı zəruri saydılar.

Beləliklə, erməni məsələsi beynəlxalq problem kimi meydana atıldı. Bundan istifadə edən erməni millətçiləri Londona, Parisə, Amerikaya və digər yerlərə nümayəndələr göndərərək onların maddi və mənəvi yardımını əldə etməyə çalışdılar. Qərbin və xüsusilə Rusiyanın milli siyasətinə bö-

yük ümidlər bəsləyən erməni millətçiləri və onların yaratdıqları ayrı-ayrı millətçi təşkilatlar ziddiyyətləri daha da artırdı.

Belə təşkilatlardan biri 1885-ci ildə Fransada partakalyan tərəfindən yaradılan «Armenakan» təşkilatı oldu.[63] Bu təşkilatın proqramında göstərilirdi ki, onun əsas məqsədi erməni dövləti yaratmaqdır. Bu məqsədlə təşkilat İstanbulda və Şərqi Anadolu şəhərlərində, İranda, Zaqafqaziyada və Amerika Birləşmiş Ştatlarında özəklərini və ya dayaq məntəqələrini təşkil etmişdi.[64]

Partiya təşkilatı gizli şəkildə Şərqi Anadoluya silah gətirərək burada müqavimət hərəkatı qrupları yaratdı. Bu ilk erməni-millətçi təşkilatının məqsədi bütün ermənilərı silahlandırmaq, Türkiyə əleyhinə üsyan qaldırmaq və türkləri, kürdləri qırmağa nail olmaq idi. Partiyanın fəaliyyəti az sonra zəiflədi.

1887-ci ildə Cenevrədə A.Nazarbekyan, M.Vartanyan, X.Ohanyan, R.Xan-Azat və Q.Qafeyan tərəfindən yaradılmış «Qnçak» erməni təşkilatının proqramında isə Türkiyə ərazisində yaşayan ermənilər içərisində inqilabi hərəkatı oyatmaq və həm də orada erməni dövləti yaratmaq məsələsi əsas yer tuturdu.[65]

Ancaq ermənilərin Türkiyəyə qarşı ərazi iddiasının kökləri vardır. Bu Almaniyanın yaxın Şərqdə öz nüfuzunu artırmaq siyasəti ilə əlaqədar idi. Ona görə Almaniya Cənubi Qafqazda Rusiyanın nüfuzuna qarşı erməni separa-tizmindən istifadə edirdi. Berlin müşavirəsindən sonra ermənilərdə Türkiyədə muxtariyyət arzusu oyanmışdı. Lakin 1897-ci ildə Fransa Xarici İşlər Nazirliyinin məlumatında bildirilmişdi ki, Türkiyənin heç bir əyalətində ermənilər çoxluq təşkil etmədiklərinə görə onlara muxtariyyət hüququ vermək mümkün deyildi.[66] Bununla belə «Qnçak» (Zəng) partiyasının xarici ölkələrdə və Rusiyada bir sıra şöbələri yaranmaqda idi.

Özünü milli sosialist partiyası adlandıran bu təşkilatın dünyanın bir sıra ölkələrində filialları vardı. Belə ki, bunun Rumıniyada 7, Bolqarıstanda 9, İranda 15, Rusiyada 36,

Türkiyədə 184 filialı fəaliyyət göstərirdi. [67] Nəticədə bu partiya sonra da Rusiya, İran və Türkiyədə olan bütün ermənilər öz bayrağı altında birləşdirərək Sasunda, Vanda, Ərzurumda və digər bölgələrdə «Böyük Ermənistan» yaratmaq və ora İrəvan quberniyası, Qarabağ, Qazax, Zəngəzur, Axalkalaki, Axalkasi və başqa Azərbaycan, Gürcüstan torpaqlarını da birləşdirməyi nəzərdə tutan iddia ilə çıxış etmişdi.

Ermənilər bu iddialarını zorakılıqla əldə etməyə çalışırdılar. Hətta tarixçi Luis Nalbandyan «Qnçak»ın proqramının mahiyyətini xarakterizə edərək bildirirdi ki, onlar Türkiyə Ermənistanının ictimai sisteminin varlığını Türkiyə hökumətinə qarşı zorakılığın tətbiqində görürdülər. [68] Buna görə də terrorçuluq formasını təbliğ edirdilər. Onlar terrorçuluq vasitəsilə tək türkləri deyil, hətta «Qnçak»ın ideyasına müqavimət göstərən erməniləri də öldürürdülər. İstanbulda təşkil olunan qnçaqlılar öz fəaliyyətlərini Şərqdə, Avropada, Birləşmiş Ştatlarda da yaymağa nail olmuşdular. Onlar başqa etnik qruplarla da, o cümlədən yunanlarla, makedoniyalılarla və b. əlaqələr yaratmışdılar. Həmin partiya fəaliyyətinin üç ili ərzində az qanlar axıtmadı.

«Qnçak» partiyası 1890-1892-ci illərdə Zeytun və Sasunda ermənilərin üsyanlarını təşkil etdi. Erməni silahlı dəstələrinin əli ilə 65 mindən artıq silahsız türk – qocalar, qadınlar, uşaqlar məhv edildi. [69] Bu erməni silahlı dəstələrinə çar ordusunun zabitləri başçılıq edirdi. Bununla əlaqədar olaraq Türkiyə hökuməti Rusiya, ABŞ, Fransa və İngiltərə hökumətlərinə qəti etirazını bildirdi. Belə halda «Qnçak» təşkilatının rəhbərləri özlərinin ifşa olunacaqlarını hiss edərək fəaliyyətlərini Avropanın bir sıra şəhərlərində davam etdirməyə keçdilər. 1895-ci ildə bu partiyanın Bakıda da şöbələri vardı. [70] Bu şöbələr «Qnçak» və «Paylan» («Parlaq») jurnallarını xaricdə çap edir və Rusiyaya gətirərək yayırdılar. 1896-cı ildən partiyanın daxili birliyində parçalanma əmələ gəldi və bu da onun mahiyyətini tam aşağı saldı.

«Qnçak» partiyasından qat-qat təhlükəli, qatı millətçi partiya 1890-cı ildə Tiflisdə Stefan Zoryan, Simon Zavaryan və Xristofor Mikaelyanın başçılığı ilə yaradılan erməni «Daşnaksütyun» («Erməni inqilabı ittifaqı») partiyası oldu. Bu təşkilatın əsas mətbuat orqanı Cenevrədə çıxan «Droşak» («Bayraq») adlı qəzeti idi. Qəzet 1891-ci ildən Tiflisdə, sonra xaricdə çap olunurdu. Onun səhifələrində yazıların hamısı «Böyük Ermənistan» dövləti yaratmaq ideyasına həsr olunurdu.[71] Qəzetdə geniş miqyasda millətçilik ideyası təbliğ edilirdi.

Partiya üzvləri az vaxt içərisində silahlı dəstələr, silah ambarları təşkil etdilər. Hətta lazım gəldikdə kilsədən də istifadə olunurdu. Bu daşnak dəstələrinin məqsədi tədricən bütün Şərqi Anadoluda yayılmaq idi və buna az vaxt içərisində nail oldular. Dəstələr əvvəllər geniş miqyasda fəaliyyət göstərmədilər və onlar müxtəlif şəxslərə qarşı terrorçuluq aksiyaları ilə kifayətləndilər. Onlar Van şəhərinin qubernatoruna və İstanbulda erməni patriarxına qəsd etdilər.

Daşnak partiyası yarandığı gündən «Qnçak» partiyasının proqramında olduğu kimi Azərbaycan, Gürcüstan, Şərqi Anadolu hesabına Ermənistan dövləti yaratmaq proqramı ilə çıxış etmişdir. [72] Daşnak partiyasının XI qurultayının çağırışında deyilirdi ki, bu məqsədə nail olmaq yolunda maneə Sovet Rusiyasıdır. Erməni xalqının siyasi, iqtisadi və mənəvi azadlığının vacib şərti Rusiyada sovet quruluşunun yıxılmasıdır.[73]

Daşnaksütyun partiyasının fəaliyyət dairəsi də böyük ərazini əhatə edirdi. Belə ki, bu təşkilatın dünyanın müxtəlif ölkələrində üç mindən artıq qrupu fəaliyyət göstərirdi. Bundan 90 İranda, 2311 Rusiyada, 693 Türkiyədə və digər ölkələrdə fəaliyyətdə idi. [74] V.F.Mayevski yazmışdır ki, ermənilər Daşnaksütyun partiyasının qipnozu altına düşmüşdülər. [75]

Bunlarla yanaşı bu partiyanın xüsusi təyinatlı təşkilatları «Qırmızı xaç», «Özünümüdafiə komitəsi», «Terrorçu fəaliyyət komitəsi», «Vahimə təşkilatı» və s. də vardı. Bu

təşkilatlar partiyanın müxtəlif tapşırıqlarını yerinə yetirir və hətta gələcəkdə daşnak silahlı dəstələrinin yaradılmasına hazırlıq işləri görürdülər. Məsələn, Bolqarıstanın və eləcə də ABŞ-ın hərbi məktəblərində erməni zabit kadrları hazırlanırdı.

«Daşnaksütyun» partiyasının proqramında erməni xalqının bütün qüvvələrini birləşdirmək, terror aktları, silahlı çıxışlar etməyi həyata keçirməklə yanaşı Qərb dövlətlərinin yardımı ilə ermənilərі türklərin təsirindən xilas etmək və əvvəlcə Türkiyə daxilində onlara muxtariyyət verilməsinə nail olmaq məqsədi qarşıya qoyulmuşdu. Hətta bütün ermənilərin katolikosu – V Gevork «Daşnaksütyun»un tapşırığı ilə türk ermənilərinə muxtariyyət verilməsi haqqında Rusiya çarına müraciət etmişdi. Bir qədər sonra bu tələblər daha geniş tələblərlə – «Dənizdən-dənizə böyük Ermənistan» yaratmaq iddiası ilə əvəz olundu. Bu məqsədlərinə çatmaq üçün Qərb ölkələrinin köməyinə böyük ümidlər bəsləyən ermənilər Amerikaya, Parisə, Londona və digər yerlərə nümayəndələr göndərirdilər. Hələ «Qnçak» və «Daşnaksütyun» təşkilatlarından əvvəl Qərbin hakim dairələri tərəfindən qızışdırılan erməni millətçiləri Türkiyənin 1862, 1878 və 1884-cü illərdə Zeytun, 1880-ci ildə Sasun, 1884-cü ildə Van vilayətlərində milli qırğınlar törətdilər. Belə hadisələrin baş verməsində Rusiyadan gələn ermənilərin də az rolu olmadı.[76]

Türkiyə ərazisində ermənilərin ilk böyük silahlı çıxışı 1890-cı ilin 18 iyununda Ərzurumda olmuşdu. Bundan sonra Alaşkert, Van, Çarşancak və b. vilayətlərdə silahlı toqquşmalar baş vermişdi. [77] 1890-cı ildə Peterburq Universitetinin tələbəsi Sarkis Kukunyanın başçılığı ilə 100 nəfərdən ibarət silahlı dəstə «Türkiyə» ermənilərini azad etmək» şüarilə Türkiyəyə hərbi səfəri olmuş, lakin sərhəddə toqquşma nəticəsində dəstənin 60 nəfəri öldürülmüş, qalanı Qars həbsxanasına salınmışdı.[78] 1895-ci ilin 12 oktyabrında «Qnçak» partiyasından millətçilərin Zeytun şəhərində üsyanı, 1894-1896-cı illərdə Sasundakı iğtişaşlar da nəticəsiz qallmışdı.[79]

1894-cü ildə daşnaklar açıq fəaliyyətə keçdilər. Həmin ildə Samsun şəhərində erməni quldur dəstələri Türkiyənin məsul şəxsləri, əsasən vergi yığanlar üzərinə basqınlar etdilər. 1895-ci ildə Zeytun və Vanda üsyan qaldırdılar. Üsyan çox çətinliklə Türkiyə ordusu tərəfindən yatırıldı. Təxminən 400 müsəlman, 1700 erməni həlak oldu. [80] Erməni millətçiləri 1894-1896-cı illərdə Türkiyədə bir sıra erməni-türk toqquşmaları təşkil edərək orada vətəndaş müharibəsinə keçməklə Şərqi Türkiyəni qoparmaq niyyəti ilə mübarizəyə başladılar. «Erməni məsələsi» də Avropada əslində belə yarandı.

Bundan əlavə müxtəlif erməni partiyalarının nümayəndələri Türkiyə sərhədinə yaxın olan kəndlərə toplanır və bələdçilərin köməyi ilə gecələr Türkiyədə ermənilərin yaşadıqları kəndlərə gəlib öz düşmənçilik fəaliyyətlərini davam etdirirdilər. Onlar təxribatçılıq fəaliyyətləri ilə yanaşı, həm də geniş antitürk təbliğat işi aparırdılar. Bu işdə hazırladıqları vərəqələr böyük rol oynayırdı.

1896-cı ilin avqustunda erməni daşnak komitəsi tərəfindən on iki paraqrafdan ibarət olan Proqram məhz erməni təbliğatının məhsulu idi. [81] Bu proqramda Türkiyə ərazisində ermənilər üçün geniş hüquqlar tələb olunurdu. Erməni millətinin xoşbəxtliyini türklərin bədbəxtliyi üzərində qurmaq iddiaları münasibətləri gündən-günə daha da gərginləşdirdi. Belə şəraitdə Qərbi Avropanın bir sıra ölkələrində, habelə İngiltərədə, İsveçrədə, Fransada fəaliyyət göstərən erməni xadimləri, təhsil alan tələbələr fəal təbliğat işi apararaq bildirdilər ki, türklərin «zülm etdiyi» ermənilərı xilas etmək və onları inkişafın yeni yollarına çıxarmaq və «Müstəqil, azad Ermənistan» yaratmaq zəruridir. 1890-cı il iyunun 28-də Ərzurumda üsyan, həmin il iyulun 15-də İstanbulda kütləvi nümayiş, 1894-cü ilin avqustunda Samsun rayonunda üsyan, 1895-ci ilin sentyabrında hökumət binasının qarşısında kütləvi nümayişlər bu təbliğatın nəticəsi idi. [82]

1895-ci ilin oktyabrı – 1896-cı ilin yanvarında Zeytunda (Kilikiyada), 1896-cı ilin iyununda isə Vanda qiyamlar təşkil

edildi. Türklərin kütləvi surətdə öldürülməsi ilə nəticələnən Van qiyamı «Daşnak» partiyası tərəfindən Vanda olan rus səfiri general Mayevskinin köməkliyi ilə təşkil edilmişdi. [83]

Burada aparılan qatı millətçi təbliğat iki millət arasında qanlı toqquşmaların baş verməsi ilə nəticələndi. Bu haqda 1896-cı il 15 may tarixli məlumatında mayor Vilyams (o, 1896-cı il yanvarın 26-dan İngiltərənin Vanda yeni səfir müavini idi) bildirirdi ki, vilayətdə vəziyyət yaxşı deyil. Son həftə ərzində ermənilər iki dəfə hücum etdilər, ölən və yaralananlar vardır və hər iki hadisədə meyidlər dəhşətli hala salınmışdı. [84]

Yuxarıda deyildiyi kimi, «Daşnaksütyun» və «Qnçak» partiyalarının əsas məqsədi Türkiyə torpaqları hesabına Ermənistan dövləti yaratmaq idi. Həmin dövlət Türkiyənin şərq vilayətlərini əhatə etməli idi. Ermənilərin türklərdən istədikləri vilayətlər – Qars, Van, Ərzurum, Xarput, Diyarbəkir, Bitlis, Sivas, Adana və Kilikiyanın cənubu idi. Belə xəyallarla yaşayan ermənilər Anadolunun cənubuna silahlı basqın etdilər. 1896-cı ildə Sultan Əbdül Həmid Türkiyə torpaqlarında ermənilərin cinayətli hərəkətlərinin qarşısını almaq üçün tədbirlər gördü və bu da xeyli miqdarda ermənin Cənubi Qafqaza köçməsi ilə nəticələndi. Gələnlərin əksəriyyəti erməni-azərbaycanlı münasibətlərini qızışdıran daşnaklar, qatı erməni millətçiləri idi.

Ən dəhşətli hadisələrdən biri 1896-cı il avqustun 26-da İstanbulda Osman imperiyası bankına edilən basqın idi. Bu «Daşnak» terrorçu qrupu tərəfindən həyata keçirilən tədbir idi. [85] Bir neçə dəqiqədən sonra şəhərin küçələrində dəhşətli mənzərə əmələ gəldi. Xeyli insan tələfatı oldu. Həmin qrup tərəfindən müasir tarixdə ilk dəfə adi vətəndaş edilən hücumla girov götürüldü. Beləliklə, erməni daşnak təbliğatının təsiri ilə 1894-1896-cı illərdə Türkiyədə erməni-türk və erməni-kürd toqquşmaları törədildi. [86]

XX əsrin əvvəllərindən başlayaraq daşnaklar mübarizə meydanını Türkiyədən Cənubi Qafqaza, xüsusilə Azərbay-

can ərazisinə keçirdilər. 1905-1907-ci illər inqilabı dövründə çarizmin öz hökmranlığını qoruyub saxlamaq məqsədilə həyata keçirdiyi tədbirlərdən biri millətlər arasında nifaq salmaq idi. Çar mütləqiyyəti yaxşı bilirdi ki, Cənubi Qafqazda azərbaycanlılar və ermənilər arasında dərin ziddiyyətlər vardır. Həmin ziddiyyətlər həm də çarizmin milli siyasəti nəticəsində ermənilərin XIX əsrin əvvəllərində Azərbaycana köçürülməsi ilə başlanmışdı. Türklərlə ermənilər arasında olan ziddiyyətlər də regionda olan hadisələrə öz təsirini göstərmişdi. Məhz bütün bunları nəzərə alan çarizm 1905-ci il inqilabı zamanı ermənilərdən bir vasitə kimi istifadə edərək onları azərbaycanlılar əleyhinə qaldırdılar. Ancaq ermənilər o vaxt sayca bir o qədər də çox deyildilər. Qafqazda 54 qəzadan yalnız beşində onlar çoxluq təşkil edirdilər.[87] Hətta Yerevanda da ermənilər azlıq təşkil edirdilər. Bütün bunlara baxmayaraq, habelə Türkiyədəki məğlubiyyətlərdən lazımi nəticələr çıxarmayan ermənilər Qafqazda olan yüksək vəzifəli rus məmurlarının köməyi və fitvası ilə silahlanaraq təcavüzə başladılar. Onlar Naxçıvan, Ordubad, Yerevan, Qarabağ, Gəncə, Bakı və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı mübarizə apardılar. Ermənilər bununla qırğınlar törətdikləri ərazidə çoxluğa nail olmaq istəyirdilər. Buna görə də məhv edə bilmədikləri azərbaycanlıları öz doğma yerlərindən qovmağa başladılar. Bütün bu faciələrin baş verməsində «Daşnaksütyun» partiyasının da az xidməti olmadı. Gürcü sosialistlərindən olan Qaribi «Qızıl kitab»da yazır ki, «Daşnaksütyun» partiyasının yaradılmasına qədər Cənubi Qafqazda sülh və dostluq hökm sürürdü. Bu ölkədə türklərlə (azərbaycanlılarla – Ə.A.) ermənilər arasında olan qanlı qırğınların kölgəsini belə xatırlayan yox idi. Ermənilər, azərbaycanlılar və gürcülər əsrlərlə bir yerdə yaşamışdılar, hətta bu müddət ərzində heç kim millətlərarası ədavət görməmişdi. Daşnaklar gəldilər və müstəqil Ermənistan dövləti yaratmaq istədilər.[88]

Bakıda 1905-ci il qırğınına daşnaklar ciddi hazırlaşmışdılar və hətta V.F.Mayevski yazır ki, münaqişə ərəfə-sində polis Bakıda daşnakların silah anbarını aşkar etmişdi.[89] Belə şəraitdə millətlərarası ədavət daha da kəskinləşdi və toqquşma baş verdi.

Bununla da Azərbaycanda daşnakların fitnəkarlığı nəticəsində 1905-1906-cı illərdə Daşnaksütyunu ilə müsəlman-erməni toqquşması törədildi, insanlar məhv edildi. Həmin illərdə olan ilk toqquşma Bakıda törədildi. 1905-ci ilin fevralında Bakıda erməni kilsəsinin yaxınlığında Sabunçu kəndinin sakini Ağarza Babayev ermənilər tərəfindən öldürüldü. Hadisə yerinə gələn azərbaycanlılar atəşlərlə qarşılandı, fevralın 6-da 18 nəfər öldü, 33 adam yaralandı. 7 fevralda ölən və yaralananların sayı 100-ə qədər oldu.[90] Fevralın 10-dək davam edən qanlı atışmalar vaxtı hər iki tərəfdən min nəfərə qədər adam qırılmışdı.[91]

Rusiya çarı II Nikolayın 1905-ci il 18 fevral tarixli fərmanı ilə Bakıda və Bakı quberniyasında hərbi vəziyyət elan edilmişdi. Fərmana əsasən Bakıda və Bakı quberniyasında müvəqqəti general-qubernatorluq yaradılmışdı. Bütün yerli hakimiyyət və ictimai müəssisələr və ordu ona tabe edilmişdi.[92] Belə şəraitdə 1905-ci ilin martında dəmiryolçuların, iyunda dənizçilərin tətilləri başlanmışdı.[93] Digər tərəfdən də, Qarabağda ermənilərlə azərbaycanlılar arasında gərginliyin artması haqqında general-qubernatora məlumatlar gəlmişdi.[94] General-qubernator artmaqda olan tətil hərəkatından çıxış yolunu ermənilərin Bakıda azərbaycanlılara qarşı fitnəkarlıqlarına meydan verməkdə görürdü. Bu mövqeyin belə istiqamət almasında Voronsov-Daşkovun az təsiri olmadı. O, fəaliyyətə başlayan kimi Zaqafqaziyada Rusiya idarəçiliyində ermənilərlə dostluq məsələsinə xüsusi diqqət verdi. Bu dövrdə çar çinovniklərinin ali təbəqələri arasında Türkiyə ilə müharibə aparmaq tərəfdarları da çox idi. Ona görə Voronsov-Daşkov əmin idi ki, bu məsələdə ermənilər Rusiyanın sadiq köməkçisi olacaqlar. Voronsov-Daşkov II Nikolaya

yazmışdı: Ali Həzrət, Sizə məlumdur ki, Qafqaz rayonunda tarixən uzun müddət bizim münasibətimiz Böyük Pyotrun dövründən ermənilərə rəğbət bəsləmək olub və Türkiyə məsələsində onlara arxalanmışıq, onlar da müharibənin gedişində öz fəallıqlarını göstərmişlər.[95]

Çarizmin belə münasibəti şəraitində toqquşmalar şəhərlərlə bərabər kəndlərdə də baş verdi və bunun nəticəsi olaraq 128 erməni, 158 müsəlman kəndi qarət olundu və dağıdıldı.[96]

1905-ci ilin avqustun 20-də Bakıda ermənilərin azərbaycanlılara qarşı olan çıxışı avqustun 25-dək davam etdi. Nəticədə birinci polis sahəsində 9 azərbaycanlı və 8 erməni, ikinci polis sahəsində 16 azərbaycanlı və az miqdar erməni, dördüncü polis sahəsində 6 azərbaycanlı və 3 erməni öldürülmüşdü.[97]

Millətlərarası ziddiyyətlər Mirzəbekyanın tütün fabrikində də özünü aydın göstərmişdi. 1905-ci il 16 sentyabr 933 nömrəli general-qubernatora ünvanlanmış sənəddə göstərilirdi: «Fabrik fəhlələri ilə aparılan söhbətdə ermənilər bildirdilər ki, biz müsəlmanlardan qorxuruq, ona görə də onların hamısı buradan çıxarılmalıdır. Qəribədir, fabrikdə işləyən müsəlmanların sayı 50 nəfər, ermənilər isə 400 nəfərə qədər olmasına baxmayaraq qorxuruq sözünü bəhanə etdilər. Fabrikin mühəndis mexaniki Artyom Adamov açıq şəkildə bildirdi ki, bu qırğının günahkarı polisiyadır.[98]

M.S.Ordubadi 1905-1906-cı illərdə olan qırğına həsr etdiyi «Qanlı illər» əsərində yazmışdı: Çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb yaxıldı… bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı. Bununla da təxminən iki il davam edən müsəlman-erməni qırğını başlandı.[99]

Bakı hadisəsindən sonra müsəlman-erməni toqquşmaları 1905-ci ilin may-iyun aylarında Şuşada, Qaryagində (indiki Füzulidə), Cəbrayılda, Naxçıvanda, İrəvanda və həmin ilin sentyabr ayının axırlarında Qazaxda, noyabrın

ortalarında Gəncədə və noyabrın axırlarına yaxın isə Tiflisdə baş vermişdi.

1905-ci il mayın 23-də İrəvanda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qətllər bir aya qədər davam etmiş və İrəvan ətrafında olan 15 müsəlman kəndi viran edilmişdi. M.S.Ordubadi yazmışdı ki, İrəvan mahalı bir yanar dağa, Vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi. Bu ərəfədə ermənilər İrəvan və Naxçıvanla bərabər Cavanşir qəzasında da az faciələr törətməmişlər. 1905-ci ilin oktyabrın əvvəllərində Sırxavənd kəndinə Amazaspın başçılığı ilə hücum edən 400 nəfərlik erməni caniləri dəhşətli gırğın törətmiş və kütləvi halda azərbaycanlıların məhv edilməsində onun yanında komissar olan A.Mikoyanın da az günahları olmamışdı.[100]

Erməni millətçilərinin təqsiri üzündən Şuşada da faciələr baş verdi. Onların hücumu avqustun 16-da geniş miqyasda həyata keçirildi. Onlardan bir dəstə meydana, bir dəstə Yuxarı Xəlifəli, bir dəstə isə Köçərli məhəlləsinə hücuma keçdilər. Ermənilər Köçərli məhəlləsində qədim bir tayfaya mənsub, 90 yaşlı Abbas bəy adlı birisini evindən çağırdılar və ona dedilər ki, sən bizim qonşumuz olduğuna görə səninlə işimiz yoxdur. Lakin Abbas bəyi, yeganə oğlunu və qardaşı oğlunu qətlə yetirdilər, evi yandırdılar.[101]

1905-1906-cı il erməni-müsəlman münaqişəsində ermənilərin otuz ildən bəri tədarük etdikləri və gizli yerlərdə (qəbristanlıqda, qayalıqlarda, zirzəmilərdə, kilsələrdə) gizlətdikləri müxtəlif növ silahları aşkara çıxarıb azərbaycanlılara tərəf yönəltdilr. Onlar görünməmiş qəddarlıqla azərbaycanlılara qarşı faciələr törətdilər. Ermənilər Şuşanın yaxınlığında olan bir dəyirmana gəlib oradakı kişini öldürdülər və sonra qucağında dörd aylıq uşağı olan qadına yaxınlaşdılar. Qadın yalvarıb: «Məni öldürün, uşağa toxunmayın» – deyir. Ermənilərdən iki nəfəri irəliləyib «qorxma, uşağı öldürməyəcəyik» deyirlər. Onlar uşağı götürüb bələyini açırlar, hərəsi uşağın bir ayağından tutub dartaraq onu iki yerə

parçalayıb ananın üstünə atırlar və anaya isə bir neçə güllə vurub dəyirmanı talan edirlər.[102]

Namərdlik, qəddarlıq, nankorluq və s. ermənilərin səciyyəvi xüsusiyyəti olması tarixən məlumdur. Buna çoxlu misallar çəkmək olar. Bu cəhətdən Şuşada Hacıbəylərin başına gətirilənləri xatırlamaq kifayətdir. O, Nikolay adlı bir erməni taciri ilə dostluq edirdi, onlar tez-tez görüşür və baş verən hadisələrdə bir-birini qorumağa söz vermişdilər. Bir dəfə Nikolay Hacının dükanında olanda küçədə atışma baş vermiş və erməni bundan çox qorxmuşdu. Hacı ona ürəkdirək verib gizlətmiş və sonra da ehtiramla onu evinə yola salmışdı. Bundan bir neçə gün sonra Hacı Nikolayın yanına gedir. Onlar söhbət etdiyi vaxt küçədə yenə güllə səsləri eşidilir. Hacı belə güman edir ki, o, Nikolayı qoruduğu kimi, Nikolay da onu qoruyacaq. Lakin belə olmamış, Nikolay tapançasını çıxarıb ona atəş açmışdır.

Erməni hiyləgərliyinə, ikiüzlülüyünə, məkrli fəaliyyətinə aid onlarla misal gətirmək olar. Bu cəhətdən belə bir faktı da xatırlatmaq olar. Xankəndində ermənilər iki rus ailəsinə üç yüz manat pul verərək xahiş edirlər ki, azərbaycanlıların dövlət yanında müqəssir olmaları üçün bir tədbir görsünlər. Ruslar bu təklifi qəbul edərək ermənilərin məqsədini həyata keçirmək üçün ailələri ilə birlikdə Ağdama yola düşürlər. Onlar iki bağın arasından keçən yola çatanda qışqıraraq azərbaycanlılar bizi soyurlar deyirlər. Onları Ağdamdakı rus hakiminin yanına gətirirlər və o görür ki, bunları tamamilə soyundurublar. Bundan qəzəblənən hakim əhvalatı generala yazmaq istəyir. Lakin bu vaxt yasavul (osetin) hakimin yanına daxil olaraq rusların gəldiyi arabanı yoxlaması üçün icazə verməsini bildirir və o, arabada axtarış apararkən paltarları otun altından tapır. Əhvalatdan xəbər tutan hakim rusların və arabaçının cəzalandırılması haqqında əmr verir. Belə halda qadınlar məcbur olub onları bu işə təhrik edənlərin ermənilər olduğunu açıq etiraf etmişdilər.

Erməni millətçiləri «Böyük Ermənistan» yaratmaq iddiası uğrunda mübarizə apardıqları bütün dövrlərdə, eləcə də 1905-1906-cı illərdə azərbaycanlılara qarşı milli-dini ədavəti qızışdırmaq üçün kilsələrdən, din xadimlərindən də istifadə etmişdilər. Kilsənin toxunulmaz tanrı məbədi olduğunu nəzərə alaraq keşişlər onu 1905-1906-cı illərdə xalqımıza qarşı erməni quldur dəstələrini silahlandıran hərbi sursat cəbbəxanasına çevirmişdilər. M.M.Nəvvab yazırdı: «1906-cı ildə Şuşada ardı-arası kəsilməyən bu qırğınlardan cana doymuş bir neçə erməni Şuşa kilsələrinin yeraltı qatlarında məxfi hərbi sursat anbarları olması haqqında gizlicə şəhər üsul-idarəsinin başçısı olan rus generalına xəbər verərək həmin anbarların ləğv edilməsini tələb edirlər. Yoxlanış zamanı iki kilsənin yeraltı qatından çoxlu miqdarda tüfəng, güllə, top, bomba, dinamit, evlərin yandırılmasında istifadə etmək üçün müxtəlif maddələrlə doldurulmuş silah anbarları aşkar edilmişdi. Kilsənin əsas fəaliyyəti ilə daban-dabana zidd olan bu əməllərinə görə Ter-Ovanesyan, Ter-Arsen, Vartapetov, Ter-Karapet Vartapetov, Mirzəbekov, Asatur Vartapetov kimi keşişlər Şuşadan uzaqlaşdırılmışdılar.[103]

İki millət arasında davam edən qırğınlar zamanı kilsənin fəaliyyətini öyrənmiş rus diplomatı, general Mayevski öz qeydlərində yazır: Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Erməni din xadimlərinin fəaliyyəti «Allah kəlamını» çatdırmaqdan yox, müsəlmanlarla xristianlar arasında nifaqı qızışdırmaqdan ibarətdir. Məhz erməni kilsəsi, daşnak təşkilatları və erməni millətçilərinin birgə səyi nəticəsində Qarabağda – Şuşada azərbaycanlılara qarşı qırğınlar törətmək məqsədilə geniş hazırlıq işləri aparılmışdı. İrəvandan, Gəncədən, ətraf erməni kəndlərindən 7 min erməni silahlıları, 850 nəfər rus kazakları, 400 nəfər ermənilər tərəfində olan ruslar, neçə min Şuşadan olan ermənilər – cəmi 12 min erməni səfərbər edilmişdi. Üç gün azərbaycanlılar həmin qüvvələrə qarşı dəyanətlə müqavimət göstərdilər və kömək

gəldikdən sonra ermənilərə ağır tələfat verdilər. Beş günlük vuruşma nəticəsində ermənilərdən ölənlərin sayı 500-700 qədər, yaralananların sayı 278 nəfər oldu. Azərbaycanlılardan isə ölənlərin sayı 18 nəfər, yaralananların sayı 21 nəfər olmuşdur.[104]

Azərbaycan ərazisində qanlı faciələrlə kifayətlənməyən ermənilər Gürcüstanın Borçalı qəzasında erməni-azərbaycanlı toqquşmasına nail oldular, yüzlərlə adam yaralandı, öldü. Bunun nəticəsində qəzaya 2 milyon manata qədər ziyan vuruldu.[105]

1906-cı il fevralın 20-də Tiflisdə Voronsov-Daşkovun başçılığı ilə erməni-müsəlman sülh məclisi açıldı. Burada Tiflis, İrəvan, Gəncə qubernatorları, erməni-azərbaycanlı nümayəndələri və b. iştirak etdilər. Azərbaycan nümayəndələri içərisində Əhməd bəy Ağayev, Ələkbər bəy Xasməmmədov, Məhəmməd bəy Şahmalıyev və b. var idi. Məclisin fevral ayının 20-dən 28-dək altı iclası keçirildi.[106]

Burada bir sıra məsələlərlə yanaşı, azərbaycanlıların öz mal-qaralarını yayda arandan yaylaqlara köçürməsi, ermənilərin terrorçuluq əməlləri məsələləri müzakirə edildi. Erməni nümayəndələri çalışdılar ki, azərbaycanlılar yaylaqlara mal-qara aparmaq hüququndan məhrum olsunlar. Geniş müzakirələrdən sonra məclis ermənilərin bu təklifini rədd etdi.[107] Terrorçuluq məsələsinə gəldikdə Azərbaycan nümayəndələrinin təkidi ilə bu məsələ vacib bir məsələ kimi müzakirə edildi. Çünki ayrı-ayrı millətləri, xüsusi ilə azərbaycanlıları qorxutmaq, vahiməyə salmaqla özlərindən asılı vəziyyətə gətirmək məqsədi ilə ermənilər terrorçuluqdan geniş istifadə edirdilər. Belə ki, 1904-1906-cı illərdə Türkiyənin Van vilayətində, Tiflis və Bakıda erməni terrorçuları ölümlə nəticələnən 105 sui-qəsd aktı həyata keçirmişdilər.[108] Öldürülənlər içərisində türk, rus, azərbaycanlı və hətta sülh məramlı ermənilər də olmuşdu. Bu dövrdə Bakı qubernatoru Nakaşidze, sərhəd xidməti polkovniki Bıkov, Yelizavetpolun vitse-qubernatoru Andreyev, general Əlixanov və

başqaları daşnakların təşkil etdiyi terrorçuluğun qurbanları olmuşdular.[109]

Erməni terrorunu dəf etmək üçün azərbaycanlıların «Difai» (Dəf edən) partiyasının böyük rolu oldu. Bu partiya 1905-ci ilin yazında Gəncədə yaradılmışdı. Təşkilatın əhali arasında böyük nüfuzu olmaqla bərabər öz komitələri, proqramı və kassası var idi. Bu təşkilat erməni terrorunun qarşısını almaq üçün qabaqcıl ziyalıları, milli qüvvələri bura cəlb etmişdi. «Difai»nin təşkilatçısı Əhməd bəy Ağayev və A.Rəfibəyov idi. Onun Gəncədə, Şuşada, Qarabağda yerli komitələri fəaliyyət göstərirdi. «Difai» partiyasının ermənilərin törətdikləri terrorçuluqla əlaqədar olaraq Qafqaz baş valisinə göndərdiyi bəyannamədə deyilirdi: «Daşnak firqəsi əmin olsun ki, heç bir vaxt öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoş güzəran qurmasına yol vermərik» .[110]

1907-ci ilin mayında İsmayıl Ziyadxanolvun başçılığı ilə «Müdafiə» adlı digər bir milli Azərbaycan təşkilatı da yaradılmışdı. Bu təşkilat da daşnaklara qarşı fəaliyyət göstərirdi.[111]

Ermənilər törətdikləri cinayətlərlə kifayətlənməyərək daha böyük miqyaslı terrorçuluq planları hazırlayırdılar. Onların məqsədləri Rusiya, Türkiyə və İran dövlətinin başçılarını öldürmək və belə bir vəziyyətdən istifadə edərək Ərzurum və Qarsa hücum edib Qərbin köməyi ilə «Böyük Ermənistan» yaratmağa nail olmaqdan ibarət idi. Ermənilərin bu planı çox təhlükəli olduğundan bu məsələ vacib və zəruri bir məsələ kimi müzakirə olundu. Voronsov-Daşkovun sülh məclisində həmin məsələnin müzakirəsi Əhməd bəy Ağayevin çıxışı ilə başlandı və o, öz çıxışında erməni terrorçuluğunun millətlər üçün nə qədər faciələr, dəhşətlər törətdiyini və buna görə də onun tezliklə qarşısının alınmasının vacibliyini bildirdi. Məclis, hökuməti Qafqazda terrorun qarşısını almağa çağıran qətnamə qəbul etdi. Lakin məclis erməni-azərbaycanlı münaqişəsinin qarşısını ala bilmədi. Gərginlik 1906-cı ilin oktyabr ayına qədər davam etdi. Münaqişə il-

lərində Azərbaycanın bir sıra rayonlarına maddi zərər dəydi, kəndlər qarət edilib yandırıldı, 10 min nəfərlərlə günahsız insanlar məhv edildi.[112]

Erməni canilərinin vəhşilikləri görünməmiş və eşidilməmiş dərəcədə qəddarlıqla həyata keçirilərək 1905-ci ilin dekabrında Cavanşir qəzasının Ümidli kəndini ermənilər mühasirəyə alıb atəşə tutdular, kişilərin başlarını kəsdilər, qadınların bir hissəsini öldürdülər, bir hissəsini əsir apardılar. M.S.Ordubadi «Qanlı illər» kitabında yazmışdı ki, 1906-cı ilin avqustunda Zəngəzurun Oxçu-Şəbadək yaşayış məntəqələrindən Ordubada doğru gedən müsəlmanlar ermənilər tərəfindən ələ keçdilər. Molla Həsən Əfəndinin ətrafında bir neçə qadın, əlində Quran ermənilərdən rəhm etmələrini bildirdi. Ermənilər Quranı yandırıb, Molla Həsən Əfəndini isə doğradılar. Qaçmağa çalışan qadın və uşaqları vəhşicəsinə öldürdülər. Hadisə yerinə gələn ordubadlılar 62 nəfər qadın və uşağın cəsədini, 15 nəfər körpənin kəsilmiş başlarını gördülər. [113] Göründüyü kimi erməni daşnak hərəkatının əsil mahiyyəti Azərbaycan millətinə qarşı amansızlıq, vəhşilik olmuşdu.

Beləliklə, Rusiya imperiyasının havadarlığına tam əmin olan ermənilər onların dəstəyi ilə 1905-1906-cı illərdə azərbaycanlılara qarşı apardıqları mübarizədə yüzlərlə yaşayış yerlərini qəddarlıqla dağıdıb məhv etmiş və minlərlə azərbaycanlıları – uşaqları, qadınları, qocaları öz doğma torpaqlarında amansızcasına qətlə yetirmişdilər. Eyni zamanda o dövrdə Cəbrayıl, Şuşa, Cavanşir və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi, Gəncə və İrəvan quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi yerlə-yeksan edilmişdi. Ancaq təəssüf ki, erməni millətçilərinin təqsiri ucbatından azərbaycanlılara üz vermiş 1905-1906-cı illər faciələri haqqında məlumat çox azdır. Erməni mənbələrində isə faktlar saxtalaşdırılmışdır. Belə vəziyyətdə M.S.Ordubadinin, M.M.Nəvvabın tarixi sənədlər əsasında söylədikləri fikirlərin ideya mənbəyi kimi elmi-nəzəri əhəmiyyəti az deyil.

Belə ki, M.S.Ordubadinin və M.M.Nəvvabın əsərlərində Azərbaycanın Bakı, Naxçıvan, Zəngəzur, Gəncə, Qazax bölgələrində, eləcə də İrəvan və Dağlıq Qarabağ ərazilərində gedən müharibənin səbəblərinin, onun tarixi köklərinin və ermənilərı müdafiə edən xarici qüvvələrin Azərbaycanda apardıqları siyasətin aydınlaşdırılmasında dəyərli məlumatlar verilmişdir [114].

Daşnaksütyun öz millətçilik planını həyata keçirmək naminə Rusiyadakı müxtəlif partiyalarla əlaqə yaratmaq və bu partiyaların nüfuzundan öz mənfur məqsədləri üçün istifadə etmək fürsətini də əldən vermədi. Belə partiyalardan biri eserlər partiyası oldu. 1907-ci ildə Daşnaksütyun partiyası eserlərin zəmanəti ilə sosialist partiyası sifətilə II İnternasionala daxil olaraq eserlərin yarımbölməsi kimi Ştutqart (1907-ci ildə) və Kopenhagen (1910-cu ildə) konqreslərində iştirak etdi. Daşnaklar II Dövlət Dumasında da eserlərlə bir fraksiyada fəaliyyət göstərdilər. «Erməni məsələsi»ni Rusiya xalqlarının milli azadlıq hərəkatının tərkib hissəsi kimi qələmə vermələri ilə yanaşı daşnak partiyası eyni zamanda Rusiya imperiyasına öz xilaskarı kimi baxırdı. 1906-cı ildə daşnakların ideoloqlarından biri olan M.Varandyan yazırdı ki, «Həqiqi erməni sosialistləri» rus generallarının hər bir əmrini canla-başla yerinə yetirməlidir və türk ermənilərı xilas edilməlidir, yalnız bu məqsəd bizi birləşdirməlidir.[115]

Belə bir fikrin ifadə edilməsi Rusiya dövlətinin siyasətində də görünürdü. 1907-ci ilin avqust ayında İngiltərə-Rusiya müqaviləsinin bağlanması ilə Antantanın yaradılması rəsmiləşdirildi və Rusiya kapitalistlərinin yeni bazarlara olan marağı daha da artdı. O cümlədən Rusiya İstanbulu, Qara dənizdən Aralıq dənizinə gedən boğazları və Türkiyədə ermənilərin yaşadıqları vilayətləri ələ keçirmək istədi. Belə bir məqamdan istifadə edən daşnaklar fəaliyyətlərini genişləndirərək özlərinə dayaqlar axtardılar. 1907-ci ildə onların təşəbbüsü ilə Parisdə Osman imperiyası əleyhinə olan bütün partiyaların qurultayı keçirildi və burada dövlət çevri-

lişi planı hazırlandı.[116] Çevriliş 1908-ci ildə başverdi, lakin ermənilərin gözlədiyi nəticə alınmadı. 1909-cu ildə Kilikiyada yeni qırğın törədildi, 20 mindən artıq erməni əzab çəkməli oldu.[117]

1912-ci ildə «Daşnaksütyun» partiyası tərəfindən «Erməni Milli Bürosu» yaradıldı. «Milli büro»nun tərkibində Qafqaz canişini Voronsov-Daşkovun arvadının aşnası (milliyyətcə erməni olan Liza Kinikor qızı) Tiflis erməni burjuaziyasının nümayəndəsi yepiskop Mesrop, A.Xatisov (1918-1919-cu illərdə daşnak hökumətinin başçısı), doktor Zavriyev («Daşnaksütyun»un xarici işlər üzrə şöbə müdiri), samson Arutyunov (daşnak silahlı banda dəstələrinin rəhbəri), Dro (sonralar «Daşnaksütyun»un hərbi diktatoru) və fırıldaqçı cəllad Andranik var idilər.[118] Tərkibi bu göstərilənlərdən ibarət olan Milli büro işə girişərək katolikos V Gevorqa müraciət edərək bildirdilər ki, o çar II Nikolaya çatdırsın ki, ermənilər onun sadiq övladlarından biridir və çardan xahiş edirlər ki, Türkiyə ərazisində yaşayan bizim qardaşlarımızın əzablarına son qoysun. Katolikos V Gevorq həmin müraciətlə əlaqədar olaraq Qafqaz canişininə məktub göndərdi və ondan erməni məsələsini yaddan çıxarmamağı və bu məsələnin həlli üçün yaranan əlverişli şəraitdən istifadə etməyi xahiş etdi.

Həqiqətdə də ermənilər Rusiya dövlətinin köməyinə böyük ümidlər bəsləyirdilər. Bunu bir sıra tarixi faktlar daha aydın şəkildə təsdiq edir. Erməni şairi Ovanes Tumanyan erməni xalqını öz ümidlərini ancaq Rusiyaya bağlamağa səsləyərək bildirmişdi ki, Rusiya yeganə dövlət kimi öz həlledici siyasəti ilə erməni xalqına kömək edə bilər.[119]

Ermənilər də, öz növbəsində, Rusiyaya yaxınlıq göstərmişdilər. Hətta Milli büro ermənilərdən 2 milyon manat pul yığaraq Qafqaz cəbhəsində vuruşan rus ordusuna vermiş və Türkiyənin şərq əyalətlərinin işğalının sürətləndirilməsi üçün 10 min nəfərlik ordu yaradılmasına nail olmuşdur. Erməni-

lərin Rusiyaya olan meyli bir sıra digər sənədlərlə də təsdiq olunur.

1912-ci il noyabrın 26-da Konstantinopolda olan Rusiya səfiri M.Qirs Rusiya Xarici işlər nazirinə verdiyi məlumatda bildirirdi ki, Türkiyədə olan erməni əhalisinin Rusiyaya olan meyli və cəhdi gündən-günə artır və belə meyil hətta erməni burjuaziyası və ziyalısı arasında da vardır.[120]

Qərbi Ermənistan yazıçısı, hüquqşünas Qriqor Zoqrab 1913-cü ilin yanvarında erməni xalqının taleyində Rusiyanın rolundan bəhs edərək Qərb ermənilərinin fikrini belə ifadə etmişdi: erməni məsələsində bizim əsas dayağımız Rusiyadır.[121] 1913-cü ilin oktyabrında patriarx Zaven Ərzurumda olan Rusiya səfiri Adamovla görüşündə hansı dövlətin ermənilərə yaxın və əhəmiyyətli olması haqda səfirin sualına Zaven cavabında demişdi: Qərbi avropa ölkələrindən heç biri Rusiya kimi erməni xalqının varlığı ilə maraqlı deyildi. Rusiya nə qədər tez köməyə gəlsə bizim üçün o qədər yaxşı olar və Türkiyə imperiyasında biz sıxışdırılıb çıxmarıq. Bunun naminə bizdən asılı olan hər işi görməyə hazırıq.[122]

«Mşak» qəzetinin redaktoru A.Arakelyan bildirirdi ki, artıq elə şərait yaranmışdı ki, Rusiya Türkiyə ermənilərinin azad olması üçün II Aleksandrın proqramını əlinə alıb San-Stefan müqaviləsinin 16-cı maddəsini həyata keçirə bilər.[123]

Qərb ölkələrində ermənilərin vəziyyətlərinin yaxşılaşması işinə Rusiyanın fəal qarışmasına tək Cənubi Qafqaz erməniləri deyil, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan ermənilər də böyük ümidlər bəsləyirdilər. Katalikos və Rusiya hökuməti ermənilərə köməklik edilməsi haqda Bolqarıstandan, Rumıniyadan, Hindistandan, Misirdən, ABŞ-dan və başqa ölkələrdən yüzlərlə ərizələr, müraciətlər almışdılar.[124]

Ermənilər dövrünün olduqca dövlətli bir şəxsi olan Poqos Nubar-Paşanın nüfuzundan da istifadə etmişdilər. Onun işə qarışmasında əsas məqsəd Avropa diplomatiyasını inandırmaq idi ki, erməni məsələsi tək erməni deyil, o eyni zamanda Avropa məsələsidir.[125]

Belə bir şəraitdə Milli büro Qafqaz canişini Voronsov-Daşkovla əlaqəyə girmiş və ermənilərin müharibədə iştirak etmək məsələsini danışmışdı. Hətta 1913-cü il aprelin 27-də Qafqaz ermənilərinin nümayəndə heyəti – yepiskop Mesrop, Tiflis şəhər başçısı Xatisov, Dövlət Dumasının üzvü Papadcanov və başqaları Rusiya hökumətindən Qərb dövlətlərinin ermənilərə köməklik etməyi – o cümlədən silah verməyi xahiş etdilər. Voronsov-Daşkov buna öz razılığını bildirmişdi.[126] Bununla bərabər 1913-cü ildə Rusiyanın Xarici işlər naziri Sazanov Türkiyə ilə fəal danışıqlar aparmışdı. Onun məqsədi Türkiyəni Balkan ölkələri blokuna cəlb etmək və ermənilərə muxtariyyət verilməsinə nail olmaq idi. O, bununla Türkiyənin şərq əyalətlərində yaşayan ermənilərdən öz mənafeyi xeyrinə istifadə etmək istəyirdi. Almaniya dövləti buna qəti etirazını bildirdi. Almaniyanın hakim dairələri yaxşı başa düşürdülər ki, ermənilərə Türkiyədə muxtariyyət verilməsi təklifi ermənilərin mənafeyinə olan bir təşəbbüs idi və həm də bu Rusiyanın həmin yerdə mövqeyini möhkəmləndirə bilərdi. Buna görə də Almaniya ermənilərin oradan çıxarılıb onların yerinə Şərqi Anadoluya türk əhalisinin köçürülməsini irəli sürdü. Almaniyanın Türkiyəni müdafiə etməsinə baxmayaraq Türkiyə dövləti 1914-cü il yanvarın 26-da islahatlar haqqında müqaviləni imzaladı və hansı ki, buna görə ermənilər geniş muxtariyyət almalı idi.

Rusiyaya böyük ümidlər bəsləyən ermənilər belə şəraitdə yenidən «Böyük Ermənistan» şüarını irəli sürdülər və Türkiyədən qaçan ermənilər hesabına könüllü dəstələr yaratmaq işinə başladılar. Ermənilər öz düşmənçiliklərini təşkil etdikləri könüllü dəstələrlə daha da fəallaşdılar. I Dünya müharibəsi dövründə «Daşnaksütyun» partiyası «Türkiyə ermənilərinin müstəqilliyi», «Türkiyədə öz qardaşlarının azadlığı» və s. şüarları ilə özünün əsas məqsədini xalq kütlələrindən gizlətməyə çalışırdı. Bununla da o, Türkiyə və ermənilər arasında milli ziddiyyətləri daha da qızışdıraraq ermənilərə türklərin məhv edilməsinə səsləmişdi.

Belə bir şəraitdə Antanta dövlətləri iki istiqamətdə ermənilərdən istifadə etməyi planlaşdırdılar. Birincisi, Antanta dövlətlərinin Türkiyə ermənilərinə «muxtariyyət» vəd etməklə onların Türkiyə dövlətinə qarşı mübarizələrinə nail olmaq idi. İkincisi isə Türkiyənin yeddi vilayətinin və Kilikiyanın[127] Rusiya ermənilərinə vəd edilməsi idi. Bunda məqsəd çar ordusunda onlardan Türkiyəyə qarşı cəbhə döyüşlərində istifadə etmək idi.[128]

Maraqlıdır ki, Almaniya blokuna daxil olan ölkələr də bəzən ermənipərəst siyasət yeridirdilər. Almaniya-Türkiyə layihəsində Rusiya ermənilərinə «muxtariyyat» verilməsi və Türkiyə ermənilərinə isə onların vəziyyətlərinin yaxşılaşdırılması vəd edilirdi. Belə bir aldadıcı vədi verməklə Almaniya və Türkiyənin məqsədi Rusiya və Türkiyə ərazilərində yaşayan bütün ermənilər öz tərəflərinə çəkməyə nail olmaq idi. Bununla da Almaniyanın başçılıq etdiyi Üçlər İttifaqı və Rusiyanın daxil olduğu Antanta arasında ermənilər özlərinə tərəf cəlb etmək istiqamətində çox kəskin mübarizə getmişdi. Beləliklə, «Daşnaksütyun» iki blok arasında hansı bloka xidmət etmək çətinliyi qarşısında qalmışdı. Hər halda Antanta blokuna üstünlük verilirdi, çünki Çar mütləqiyyəti ermənilərə Anadoluda «muxtariyyat» Rusiya ermənilərinə isə «manifestlər» vəd edirdi. Burda çarizmin əsas məqsədi öz imperialist planlarını həyata keçirməkdə ermənilərdən bir vasitə kimi istifadə etmək idi. Konstantinopolda olan Rusiya səfiri Qirsin 1914-cü il avqustun 19-da Vana göndərdiyi teleqramında onun razılığı olmadan hər hansı bir erməni çıxışını qadağan etməsi[129] həmin məqsədi təsdiq edir.

I Dünya müharibəsinin əvvəllərində bir çox erməni xadimləri də rus hökumətinə ərizələrlə müraciət edərək bildirdilər ki, onlar da vuruşmağa hazırdırlar. Hətta bu məqsədlə Tiflisdə ermənilər öz hərbi drujinalarını yaratdılar. Onlar başlanmaqda olan I Dünya müharibəsini «Erməni məsələsi»ni həll etməyin mühüm vasitəsi hesab edirdilər. Katalikos V Gevorq 1914-cü ilin 5 avqustunda Qafqaz cani-

şini Voronsov-Daşkova etdiyi müraciətində xahiş etmişdi ki, Rusiya dövləti müharibə qurtarandan sonra Rusiyanın himayəsi altında Türkiyə ermənilərinə muxtariyyat verilməsinə zəmanət versin.[130] O, 2 sentyabr tarixli cavab məktubunda erməni katalikosuna bildirdi ki, Rusiya ermənilərin tələblərini müdafiə edir. Belə münasibətlər şəraitində Daşnak partiyasının ayrı-ayrı nümayəndələri müharibəyə böyük ümidlə, erməni məsələsinin həlli ümidi ilə yanaşırdılar. Bu bəzi insanların və təşkilatların mövqeyində də əks olunmuşdu.

1914-cü ilin oktyabrında Tiflisdə erməni mətbuatında çıxış edən Ovanes Tumanyan Rusiyanın erməni xalqının həyatında 1827-1829, 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibələrində böyük rol oynadığını göstərərək bildirdi ki, hazırkı müharibədə də erməni xalqı özünün bütün ümidlərini Rusiyaya bağlamaq əzmindədir.[131] «Mşak» qəzeti öz səhifələrində açıq şəkildə yazırdı ki, bizim Qərb erməni qardaşlarımızın məsələsi o halda həll olunacaqdır ki, hazırkı müharibədə Rusiya silahı qələbə çalsın. Biz həmin qələbənin əldə edilməsi naminə bütün varlığımızla çalışmalıyıq.[132]

«Daşnaksütyun» partiyasının liderlərindən biri, partiyanın xarici işlər müdiri Zavriyev 1915-ci ildə Rus imperiyasının Paris və London səfirlərinə göndərdiyi məktubunda ümidvar olduğunu bildirmişdi ki, başlanan müharibə «erməni məsələsi»ni nəhayət həll edəcəkdir.[133]

«Daşnaksütyun» partiyasının çar II Nikolaya müraciətində deyilirdi ki, ermənilər arzu edirlər ki, rus bayrağı Bosfor və Dardaneldə dalğalansın, qoy sizin iradənizlə Türkiyənin zülmü altında olan xalqlar azad olsunlar.[134]

«Daşnaksütyun» partiyasının liderlərindən biri Kaçaznuni yazmışdır ki, biz Çar Rusiyasının Türkiyə ərazisində ermənilərə muxtariyyət verəcəyinə əmin idik.[135] Bütün bu məlumatlardan aydın olur ki, I Dünya müharibəsinin ilk günlərindən daşnaklarla Çar Rusiyası arasında əməkdaşlıq var idi. Deməli, I Dünya müharibəsindən əvvəl Daşnak partiyası Türkiyənin bir hissəsinin tutulması və «dənizdən-dənizə

Böyük Ermənistan» yaradılması planı ilə hərəkət edirdi.[136] Müharibə başlandıqda daşnaklar fəaliyyəti genişləndirmişdilər. «Daşnaksütyun» partiyasının xarici işlər bölməsinin rəisi Zavriyev 1915-ci ildə Londonda və Parisdə rus səfirlərinə məktublarında bildirirdi ki, müharibənin ilk günlərindən ermənilər Türkiyənin müharibəyə qoşulacağını gözləyirdilər və bu «erməni məsələsi»nin həllinə ümid yaradırdı. Ona görə də ermənilər Antanta tərəfində müharibədən kənarda qala bilməzdilər.[137] Həqiqətdə də Antanta dövlətləri Üçlər İttifaqının üzvü olan Türkiyəyə qarşı müharibədə ermənilərdən istifadə etməyə başlamışdılar.

Almaniya-Türkiyə ittifaqı da erməniləri tərəfinə çəkmək üçün çalışırdılar və bu məqsədlə ermənilərə müharibədən sonra muxtariyyət vəd edirdilər. Lakin daşnak partiyası Antanta tərəfində durdu, çünki daşnakların məqsədi Şərqi Türkiyəni Zaqafqaziya Ermənistanı ilə birləşdirərək böyük erməni dövləti yaratmaqdan ibarət idi. Rusiya daşnak partiyasına Şərqi Anadoluda 6 vilayətdə (Van, Baqeş, Diyarbəkr, Xarbəd, Sebastia, Karin və Trapezund) və Kilikiyanın 4 sancağında (Maraş Sis, Cəlal, Bərəkət, Adana) muxtar özünüidarə yaradacağına söz verirdi.[138]

Konstantinopolda rus səfirliyinin müşaviri Qulkeviç Qafqaz canişininə yazırdı ki, Rusiyanın Aralıq dənizinə çıxması üçün Şərqi Anadoluda gələcək Ermənistan yaratmaq ideyasının tərəfində durmalıyıq.[139] Ona görə Çar Rusiyası «erməni məsələsi»ni Rusiyanın monopoliyası hesab edir və Şərqi Anadoluda muxtariyyət hüquqlu Ermənistan yaratmaq planını irəli sürürdü.[140]

Göründüyü kimi ermənilər məhz Rusiyanın əli ilə Böyük Ermənistan yaratmaq istəyirdilər. Rusiya da ermənilərin Şərqi Türkiyədə Türkiyəyə qarşı çıxmasının tərəfdarı idi. Erməni millətçi təşkilatları I Dünya müharibəsində Rusiya ilə Türkiyə arasında toqquşmanı məhz Şərqi Türkiyəni Ermənistanla birləşdirmək üçün əlverişli şərait kimi qarşılamışdı. Ona görə Qafqaz canişini Vorontsov-Daşkov Petroq-

rada yazmışdı ki, ermənilərin rus ordusuna yardımına görə «müharibədən sonra ilkin rus proqramı əsasında və Rusiyanın nəzarəti altında» Türkiyədə erməni islahatlarına başlamaq lazımdır.

Qafqaz canişinliyi Türkiyə ermənilərinə çağırış da hazırlamışdı: «Türkiyə ermənilərinə! Türkiyə əvvəldən xristian xalqlarının zülmkarıdır və xaincəsinə Rusiyaya basqın etmişdir. Buna cavab olaraq biz əlimizdə silah ən qədim vaxtlardan erməni xalqının beşiyi olan ölkəyə daxil oluruq.

Ermənilər! Dözülməz türk zülmü altında siz uzun müddət əziyyət çəkmisiniz, amma indi rəşadətli rus ordularının müzəffər yürüşü, Allahın köməyilə sizə azadlıq gətirir. Rus torpağının dövlət başçısı erməni xalqına altı erməni vilayəti daxilində və onlarla qırılmaz surətdə bağlı Kilikiyada Böyük Rusiyanın protektorluğu altında Muxtar Ermənistan yaradılmasına çalışır. Qonşu xalqlarla azad qonşuluqda, onların hüquqlarını gözləməklə erməni xalqı milli dirçəlişin yeni erasına daxil olur.

Ermənilər! Siz əmin ola bilərsiniz ki, əminamanlığın və azadlığın şəfəqləndirəcəyi saat yaxındır.[141]

Rusiyanın canfəşanlıqla göstərdiyi yaxınlıq və verdiyi vədlər, o cümlədən Türkiyə ermənilərinə islahatlar keçiriləcəyi vədləri erməni xalqında belə bir inam oyatmışdır ki, Türkiyə ermənilərinin fiziki və mədəni inkişafını ancaq Rusiya təmin edə bilər. Göstərilən çağırış inamı daha da artırmışdır. Həmin çağırış Peterburqa göndərilmiş və çar ona imza atmışdı. Lakin sarayda bu çağırışa bəzi iradlar tutulmuşdu: çünki belə hesab edilirdi ki, altı vilayətdə və Kilikiyada ermənilərə muxtariyyət vəd etmək və xüsusi dövlət yaratmaq müttəfiqlərlə razılıq olmadan həyata keçirilə bilməzdi. Bununla bərabər qeyd edilmişdi ki, bu çağırış həm də Türkiyə ermənilərinin rus ordusuna köməklik etməsini daha da fəallaşdıra bilər. Həqiqətən də Rusiyanın təhriki ilə Dünya müharibəsinin əvvəllərində erməni könüllüləri getdikcə artmışdı. Qafqaz cəbhəsində I Dünya müharibəsi işti-

rakçısı, Rusiya ordusunun general-mayoru Q.Korqanyan təsdiq etmişdi ki, müharibənin başlanğıcında erməni könüllülərinin sayı 2500 nəfər idisə, sonralar bu rəqəm 6000 nəfərə qədər artmışdı. Hətta bəzi müəlliflər bu rəqəmi 9000 nəfər hesab edirdilər.[142]

Qeyd edilməlidir ki, XIX əsrdə olan Rusiya-İran və Rusiya-Türkiyə müharibələrində ermənilər ruslar tərəfində döyüşlərdə iştirak etməyə özlərinin azadlığa çıxması vasitəsi kimi baxırdılar. Ona görə də gələcəyə böyük ümidlərlə yanaşıb vuruşurdular. Həmçinin ermənilər o vaxtlarda Rusiya generallarına, zabitlərinə və Rusiya diplomatı Qriboyedova erməni xalqının əvəzsiz dostu, xilaskarı kimi baxırdılar. I Dünya müharibəsi gedişi dövründə isə ermənilərin məqsədi daha böyük idi və buna görə də təsadüfi deyildir ki, erməni könüllüləri Türkiyəyə qarşı döyüşlərdə iştirak etmək üçün hətta xarici ölkələrdən, o cümlədən də Misirdən, Fransadan, Amerika və başqa ölkələrdən gəlməyə hazır olduqlarını bildirmişdilər.

Erməni könüllülərinin Qafqaza gəlməsi məsələsi ilə əlaqədar olaraq Misirdə Rusiya nümayəndəsi olan Smirnov 22 fevral 1915-ci il tarixdə Petroqrada göndərdiyi teleqramda göstərmişdi: Erməni «qnçaklılar»ın Partiya Komitəsi mənə müraciət edərək bildirirlər ki, Fransadan, ABŞ-dan və başqa ölkələrdən Misirə min nəfərə qədər erməni könüllüləri gəlmişlər. Onlar Rusiyaya xidmət etmək naminə Qafqaza getməyə hazırdırlar.[143]

Hətta ABŞ-dan M.Panduxt və S.Şaqenin başçılığı altında gəmi ilə erməni könüllü dəstələri gəlmişdi. Ermənilər həmin könüllülərə vəsait toplanması işini də unutmamışlar və bu məqsədlə 1915-ci ildə erməni könüllüləri üçün 1 milyon 444 min manat pul toplamışdılar. Qafqaz cəbhəsində ermənilərdən 4 drujina yaradılmışdı və onların hər biri üçün Şərqi Türkiyədə hərbi marşrutlar müəyyən edilmişdi. Birinci drujinanın başçısı Andranik idi. Rus ordusu erməni hərbi

hissələrinin köməyi ilə həqiqətdə də Şərqi Türkiyədə bir sıra vilayətləri tutmuşdu.

Türkiyənin müharibəyə girməsi ərəfəsində Qafqazın erməni burjuaziyasının nümayəndələri erməni könüllüləri hərəkatının təşkili məsələsini həll etmək məqsədilə xüsusi müşavirə keçirmişdilər. Müşavirədə Qafqaz hərbi dairəsinin rəisi general Yudeniç, yepiskop Mesrop, A.Xatisov, Zavriyev və başqaları iştirak etmişdilər. Müşavirədə təklif olunmuşdu ki, ermənilərdən ibarət xüsusi drujina və qruplar yaradılsın və bunlar Qafqazda rus ordusunun tərkibinə daxil edilsinlər.[144]

1914-cü ilin payızında könüllülər hərəkatının təşkili canlandı. Qafqazda yaşayan ermənilərdən əlavə Rusiyanın müxtəlif yerlərindən və eləcə də Bolqarıstandan, Rumıniyadan, Misirdən, ABŞ-dan gələn erməni könüllüləri durmadan artdı. A.Yeramyan yazırdı: Görünməmiş həvəslə öz evlərini, işini, kolleci, yaxud universiteti buraxıb cəbhədə olmaq üçün Ermənistana can atanlar az olmadılar.[145]

Belə şəraitdə 1914-cü ilin noyabrında çar II Nikolay Tiflisə gəldi. O, burada olarkən erməni katalikosu V Georqi onun görüşünə gəldi. Katalikos görüşdə etdiyi çıxışında erməni xalqının Rusiyaya olan hədsiz və tükənməz sədaqətindən danışdı. II Nikolay cavabında bildirdi ki, mən erməni xalqının sədaqətinə, səmimiliyinə inanıram. Siz nə arzu edirsinizsə müharibədən sonra yerinə yetiriləcəkdir. Katalikos yenə ermənilərin məqsədlərindən biri olan Türkiyənin altı vilayətinin və Kilikiyanın ermənilərə verilməsini və burada özlərinə məxsus yeni idarə üsulu tətbiq etmək istədiklərini bildirdi. Çarın - həmin rayonlarda nə qədər erməni var? Çoxdurmu onlar? – sorğusuna katalikos böyük ali həzrət Sizin himayəniz nəticəsində Əbdül-Həmidin zülmündən qaçıb dağılan ermənilər, Amerikadan, Misirdən və başqa ölkələrdən öz vətənlərinə qayıdanlar çox olacaqlar – cavabını vermişdir.[146] Buna cavabında çar bildirmişdi ki, ermənilər

xoşbəxt gələcək gözləyir və erməni məsələsi ermənilərin gözlədiyi kimi həll ediləcəkdir.

İmperator özünün bu mövqeyini 1914-cü il noyabrın 21-də Fransanın Rusiyadakı səfiri M.Paleoqla görüşündə də erməni məsələsini nəzərə alacağını və onlar üçün müstəqil dövlət yaradacağını bildirmişdir.[147] Belə bir mövqedən və Rusiya ilə Türkiyə arasında müharibənin başlanmasından şad olan katalikos Qafqaz canişini Vorontsov-Daşkova ermənilərin imperiyaya və çara sadiq olduğunu yazmışdı.[148] Buna uyğun olaraq Rusiyada olan hər 100 nəfər ermənidən 13 nəfəri orduya çağırıldı. Bununla da Rusiyada olan 2 milyonluq erməni əhalisi Rusiya ordusuna 250 mindən çox əsgər verdi.[149]

İmperator Tiflisdə olarkən daşnaklardan olan A.Xatisyan və S.Arutunyanın başçılığı altında bir qrup erməni də onun qəbulunda olmuşdur. A.Xatisyan qəbulda nitq söyləmişdi və onun məzmunu hətta «Mşak» (Zəhmətkeş) qəzetinin 1914-cü il 29 noyabr tarixli nömrəsində dərc edilmişdi. Burada göstərilirdi: Almaniyanın köməyi ilə Türkiyənin Rusiyaya qarşı çıxmağa cəsarət etdiyi indiki vaxtda ermənilər bir nəfər kimi ayağa qalxmışlar və özlərinin bütün əmlaklarını, canlarını böyük taxt-tacın yolunda qurban verməyə hazırdırlar.[150]

1915-ci ilin fevralın axırlarında Tiflisdə ermənilərin ümumdünya konqresi keçirildi. Konqresdə bəyanatla çıxış edən bolşeviklər könüllülər hərəkatının təşkilatçılarını kəskin tənqid etdilər və bildirdilər ki, bu taktika hər şeydən əvvəl Türkiyə ermənilərinin ziyanınadır. Buna görə də həmin qrupu buraxmaq lazımdır. Burada əksinə Daşnaksütyun kömək üçün Rusiyaya müraciət edilməsini irəli sürdü və hətta Türkiyə ermənilərini silahlandırmaq üçün 200 min manat alınması təklif edildi[151]. Bununla da könüllülər hərəkatı davam etdi və onların sayı getdikcə artdı. 1915-ci ilin əvvəllərində təkcə Zeytun vilayətinin ermənilərindən 15 min nəfərlik qoşun bölməsi təşkil edildi. Bu haqda Qafqaz canişini

Vorontsov-Daşkovun Xarici İşlər Naziri Sazonova 20 fevral 1915-ci il tarixli teleqramında deyilirdi: Hazırda Qafqaz ordusunun qərargahına gəlmiş Zeytun ermənilərinin nümayəndəsi göstərir ki, 15 min nəfərlik erməni qüvvələri türk birləşmələrinə hücuma hazırdır[152].

Xəyanət yolunu özlərinin amalına çevirmiş olan ermənilər müharibəyə böyük ümidlər bəsləyirdilər. Lakin bəzən uğursuzluqlar da olurdu. Belə halda ermənilər rusları təqsirləndirirdilər. A.O.Arutyunyan «1914-1917-ci illərdə Qafqaz cəbhəsi» adlı kitabında yazmışdı ki, 24 minlik türk əsgərinə qarşı 8 generalın (Nazarbekov, Truxin, Nikolayev və b.) başçılığı altında 4-cü korpusun 64 minlik əsgəri geri çəkilmişdi. Bu məsələ ilə əlaqədar olaraq 2-ci Qafqaz atıcı diviziyasının komandiri, general-mayor F.Nazarbekov öz gündəliyində belə yazmışdı: 1915-ci il iyulun 17-də mən Andranikin otağına daxil olarkən onun çox qəzəbli halda gəzişdiyini gördüm. O qışqırırdı, biz geri çəkilirik, səhvlərə yol veririk, onlar artıq xidmət etmək, vuruşmaq istəmirlər – deyərək döşündəki georgevski kresti qoparıb yerə çırpdı.[153]

Ermənilərin bütün cəhdi Türkiyənin müharibədə məğlub olması və onun bölüşdürülməsində özlərinin fəal iştirak etməsinə nail olmaq idi. Daşnakların məqsədi daha böyük idi. Onların fikrincə erməni əhalisinin olduğu Şərqi Anadolu və Kilikiyanı ələ keçirməkdən əlavə buraya Azərbaycanın və Gürcüstanın müəyyən hissələrini də daxil etməklə «dənizdən-dənizə böyük Ermənistan» imperiyasını yaratmaq olardı. Buna isə Antanta ölkələrinin Türkiyəyə qarşı müharibə aparması və Zaqafqaziyada yerli azərbaycanlılara qarşı kəskin mübarizə tətbiq edilməsi şəraitində nail olmaq olardı. Məhz belə şəraitdə 1 noyabr 1914-cü ildə Türkiyə dövləti müharibəyə qoşuldu. Lakin hələ Türkiyə müharibəyə başlamamışdan əvvəl 1914-cü ilin avqustunda Zeytun ermənilər hərbi çağırış əleyhinə üsyan qaldırdılar. Bütün Şərqi Anadoluda olan məxfi erməni təşkilatları açıq işə keçdilər və yaxşı silahlanmış ermənilər Osmanlı əsgərlərinə qarşı dayan-

dılar. Müharibə vəziyyəti ilə əlaqədar olaraq Şərq əyalətlərində olan türk əsgərləri, hətta polis əməkdaşları cəbhəyə göndərildiklərinə görə kəndlərdə qalanlar qocalar, qadınlar və uşaqlar idilər. 10 minlərlə erməni gənc türk ordusunda olmaq əvəzinə qaçaraq Rusiya ordusuna və yaxud onlara köməklik edən erməni hissələrinə daxil olmuşdular.[154]

1915-ci ilin əvvəllərində Rusiya ordusu manevr edərək Araratı keçib Cənubi İran sərhədinə daxil oldu. Məhz həmin vaxtda Van erməni əhalisi üsyan qaldırdı. Üsyan haqqında Van qubernatorunun 20 mart 1915-ci il tarixli teleqramında bildirilirdi: əldə olan məlumata görə qiyamçılar iki mindən çoxdur.[155] Çalışırıq ki, həmin üsyanı yatıraq. 24 aprel tarixli teleqramda isə bildirilirdi ki, vəziyyət ağırdır, artıq regionda dörd min qiyamçı vardır və türklərin çoxu evsiz qalmışdır.[156]

Bu faciələri törədən ermənilər Rusiyaya böyük ümidlər bəsləyirdilər. 1915-ci ilin 30 sentyabrında erməni «Mşak» qəzeti gələcək Ermənistanın perspektivlərini açıqlamış və yazmışdı ki, rus ordusu tədricən Türkiyə Ermənistanının əsas rayonlarını tutmaqdadır və ona görə Qərbi Ermənistanda gələcək quruluş məsələsi gündəlikdə durur. Qəzet həm Şərqi Türkiyədə, həm Rusiya tərkibindəki Ermənistanda vahid Ermənistan yaradılması vəzifəsini irəli sürmüşdü. Lakin «Qnçak» partiyasının çap olunmuş çağırışında isə deyilirdi ki, əvvəlcə müttəfiq dövlətlərin himayəsi altında Ermənistan üçün muxtariyyət tələb edilməlidir və müttəfiqlər bu hüququ Rusiyaya verəcəklərinə əmin idilər.

Çar Rusiyasının sarayında rus ordusu tərəfindən tutulacaq Türkiyənin Şərqində yaradılacaq Ermənistanda müvəqqəti idarə üsulu barədə də mülahizələr hazırlanmışdı. Layihəyə görə orada özünüidarədə ermənilərin ziyalı qüvvəsi əsas yer tutmalı idi.

Rusiya imperiyasının ermənilər haqda mövqeyini 1916-cı il iyulun 3-də II Nikolay belə açıqlamışdı: Türkiyənin rus ordusu tərəfindən işğal olunmuş bölgələri Rusiyaya

birləşdirilməli və erməni məsələsi həll edilməlidir. Lakin çar Rusiyada yaşayan ermənilər içərisində «erməni məsələsi»nin yayılmasının əleyhinə idi, çünki Rusiya İrəvan quberniyası ilə Şərqi Türkiyənin vahid Ermeniyyə dövləti formasında yaradılması tərəfdarı deyildi. Ona görə çar «erməni məsələsi»ni yalnız Türkiyədəki ermənilərə aid edirdi. Bu məqsədlə də 8 iyul 1916-cı ildə çar işğal olunmuş əyalətlərdə hərbi general-qubernatorluq yaradılması haqqında əsasnaməni imzalamışdı.

I Dünya müharibəsinin gedişində ermənilər Türkiyə ərazisində türkləri qırmaq siyasəti yürüdürdülər. Buna görə də onların məqsədlərindən biri Osmanlı imperiyasının hərbi əməliyyatlarını nəyin bahasına olursa-olsun pozmaqdan ibarət idi. Bu məqsədlə onlar Rusiyanın yüksək rütbəli adamları ilə əməkdaşlıq etməyə çalışırdılar. Elə həmin vaxtda çar II Nikolayın Qafqaza gəlişində məqsəd Türkiyəyə qarşı ermənilərlə əməkdaşlıq sahəsində birgə plan hazırlamaq idi.[157] Bu vaxt «Erməni Milli Bürosu» Tiflisdə ermənilərə xüsusi çağırış qəbul etdi. Həmin çağırışda deyilirdi: Bütün ölkələrdə olan ermənilər, rus ordusu sıralarına daxil olun, öz həyatınızı rus ordusunun qələbəsi naminə qurban verin. Qoy rus bayrağı Bosfor və Dardanel boğazlarında dalğalansın. Ali həzrət, Sizin razılığınızla qoy Türkiyə zülmü altında yaşayan ermənilər azadlığa çıxsınlar. Qoy Türkiyədə əziyyət içərisində yaşayan erməni xalqı Rusiyanın müdafiəsi altında yeni həyatda azad yaşasınlar.[158]

I Dünya müharibəsi illərində fəallaşan daşnak partiyası Türkiyəyə qarşı mübarizəni daha da gücləndirdi. O, erməni könüllülərini təşkil edib Türkiyəyə qarşı yönəltməkdə az iş görmədi. Andranik Nazarbekov və başqalarının başçılığı altında 50 minə yaxın erməni könüllüləri 4 il Antanta ölkələri tərəfində müharibədə iştirak etdilər.[159] Müvəqqəti hökumət dövründə isə Türkiyə əleyhinə tək könüllü dəstələr deyil, eyni zamanda korpuslar tətbiq etdilər.

Beləliklə, ermənilər I Dünya müharibəsi dövründə türklərə qarşı mübarizədə fəal iştirak etdilər. Bu barədə bir sıra

tarixi sənədlərdə, Qərbin, Türkiyənin, Azərbaycanın tədqiqatçılarının əsərlərində həmin fakt haqqında geniş məlumatlar verilir. Eyni zamanda erməni müəlliflərinin yazdıqları əsərlərlə erməni lobbisinin məqsədlərinin açılıb ifşa edilməsi də çox maraq doğurur (Bax: A.Lalayanın, Ov.Kaçaznuninin, A.O.Arutyunyanın, B.Boryanın və b. əsərləri ilə yanaşı «Qərbi Ermənistan I Dünya müharibəsi illərində». Yerevan, 1971 kitabına və b.).

Amerika tarixçisi Stenford Co Şou bildirir ki, Rusiyanın Qafqaz ordusu Van istiqamətində hücuma başladı. Bu ordunun tərkibində çoxlu miqdarda erməni könüllüləri var idi.[160] 28 apreldə (1915-ci ildə) İrəvandan hərəkət edən ordu mayın 14-də Vana daxil oldular və yerli müsəlman əhalisinin buradan kütləvi şəkildə qoyulmasını həyata keçirdilər. Bununla da Vanda rusların müdafiəsi altında erməni dövləti yaradıldı. Bu faciəli hadisəyə qədər Vanda erməni əhalisi 33 min 789 nəfər idi ki, bu da orada yaşayanların cəmi 42 faizini təşkil edirdi.[161]

Başqa bir tarixçi Valiy yazır: 1915-ci ilin aprelində ermənilər Vanı ələ keçirib burada «Daşnak» partiyasının liderlərindən Aram və Yarelunun komandanlığı altında erməni qərargahı yaratdılar.[162] Şəhəri müsəlmanlardan tamamilə təmizlədikdən sonra Vanda məşhur erməni lideri türk parlamentinin keçmiş üzvi, türklər və ruslar arasında toqquşma olarkən erməni könüllülərinə başçılıq edən Qarro adı ilə məşhur olan Pasdermadcyan mayın 6-da şəhəri rus ordusu üçün açıq elan etdi. Rusiya imperatoru Van ermənilərinin bu sədaqətinə görə mayın 18-də (1915-ci ildə) onlara öz minnətdarlığını bildirdi və Aram Manukyan rus qubernatoru təyin edildi. Türkiyənin müxtəlif Şərq rayonlarından yeni erməni dövlətinə gələnlər xeyli çoxaldı. İyulun ortalarında Van şəhəri rayonlarına 250 minə qədər erməni toplandı.[163] Lakin bu vəziyyət çox davam etmədi. Rus ordusu iyul ayından sıxışdırılmağa başlandı. Geri çəkilən rus ordusunu

minlərlə ermənilər yola saldılar və onlarla Zaqafqaziyaya qaçan ermənilər də az olmadı.

Ermənilərin ən böyük xəyanətindən biri də Türkiyənin müharibəyə qoşulması ilə əlaqədar olaraq ölkənin ordu hissələrinə edilən xəyanət oldu. Belə ki, orduya cəlb olunmuş ermənilər döyüşdə ruslara qarşı boş patronlardan istifadə edir, silahları götürüb döyüş yerlərindən qaçırdılar. Buna görə də Türkiyə ordusu baş qərargahının 25 fevral 1915-ci il tarixli sərəncamında göstərildi ki, ermənilər heç bir şəraitdə hərbi xidmətə cəlb olunmamalıdır.[164]

Sivasın qubernatoru 22 aprel 1915-ci il tarixdə göndərdiyi teleqramda bildirirdi ki, 30 min erməni silahlanıb və bundan 15 mini rus ordusu tərəfi keçib, qalan 15 mini isə əldə olan dəqiq məlumata görə arxadan türk ordusuna qarşı hücuma keçəcək.[165] Tarixçi Rafael de Noqales yazır ki: hərbi əməliyyatlar genişlənərkən Pasdermadcyan xəyanət edib öz erməni əsgər və zabitləri ilə birlikdə Rusiya tərəfinə keçdi. Tezliklə geri qayıdaraq öz dəstəsilə kəndləri yandırdı, əllərinə düşən müsəlmanları qəddarcasına qırıb məhv etdilər. Türkiyənin beş əyalətində – Trabzonda, Ərzincanda, Ərzurumda, Vanda və Bitlisdə 1914-cü ildə yaşayan 3 mln. 300 min müsəlmandan müharibənin sonuna 600 mini qaçqına çevrildi.[166]

Qısa olaraq bu göstərilənlərdən aydın olur ki, ermənilər müsəlmanlara qarşı nə qədər qəddarlıqla mübarizə aparmışlar. I Dünya müharibəsi başlanan vaxt Fransa və İtaliya öz qoşunlarını Türkiyənin qərb torpaqlarına çıxartdı. Yunanıstan İzmiri zəbt etdi. Rusiya da Türkiyə əleyhinə müharibəyə başladı. 1914-cü il noyabrın 4-də Rusiyanın I Qafqaz ordusu Türkiyə sərhədini keçdi və 1915-ci il yanvarın əvvəllərində Sarıqamış yaxınlığında qələbə qazandı. Rusların qələbəsi ilə Türkiyə ərazisində yaşayan ermənilər daşnakların təhriki ilə müdafiəsiz türk kəndlərinə hücum edərək çoxlu qadın, uşaq və qocaları məhv etdilər. Türkiyə dinc əhalini qorumaq məqsədilə cəbhədən hərbi hissələr gətirməyə məc-

bur oldu. Müdafiəsiz insanları qıran, evləri yandırıb külə çevirən çox dəhşətli düşmənlə – ermənilərlə türk əsgərləri vuruşmalı oldu.

Ermənilərin fasiləsiz olaraq törətdikləri cinayəti nəzərə alan Türkiyə hökuməti 1915-ci ilin yazında erməni əhalisini Şərqi Anadoluya, Suriya və Mesopotamiyanın dağlıq hissəsinə (buralar Türkiyənin ərazisi idi) köçürməyi qərara aldı. Məhz «Daşnaksütyun» və «Qnçak» təşkilatları rəhbərlərinin təqsiri üzündən ermənilərin türklərə qarşı törətdikləri faciələr türk dövlətini belə bir qərar qəbul etməyə sövq etmişdi. 600 min erməni Misirə, İngiltərəyə, Fransaya, ABŞ-a, Kanadaya, Kiprə, İtaliyaya və başqa yerlərə getdilər.[167]

24 aprel 1915-ci ildə ölkənin daxili işlər nazirinin İstanbulda və başqa böyük şəhərlərdə erməni komitələrinin bağlanması, onun rəhbərlərinin həbs edilməsi və onların sənədlərinin götürülməsi haqqında əmri elan edildi. Həmin gün 600 nəfər müxtəlif peşə sahibləri həbs olundu.[168] Onlardan bəziləri məhkəməyə verildi, qalanlar isə azad edildi. Ermənilər sonralar bütün dünyaya car çəkərək Türkiyə hökumətinin bu tədbirlərini «genosid» adlandırdılar. 1915-ci il faciəsi haqda jurnalistlərin sualına cavab verən Fransada hüquq təhsili almış A.Nazaryan bildirmişdi ki, türklər və ermənilər yüz illər ərzində dostcasına birgə yaşamışlar. Erməni kəndlisinin türklə bölməyə bir şeyi yox idi. I Dünya müharibəsində Rusiyanın təsiri altına düşüb Rusiya və Qərbin komandası ilə biz türklərə qarşı müharibə apardıq.[169] Nəticədə erməni xalqı «genosid»ə məruz qaldı və Türkiyədən qovuldu.[170] Əlbəttə, bu genosid deyildi, ermənilərin uzun illər Türkiyədə törətdikləri faciələrə göz yumub, onların müqəssir olmamalarına necə inanmaq olar? Hələ onlar həbs edilməmişdən iki gün qabaq, yəni aprelin 22-də Eçmiədzin katalikosu Birləşmiş Ştatların prezidentinə göndərdiyi teleqramda yazırdı: Məndə olan məlumata görə erməni xalqını təşkil edilmiş terror təhlükəsi gözləyir. Xahiş edirəm bu məsələyə qarışıb Türkiyə fanatizminə məruz qalan

mənim xalqımı xilas edəsiniz.[171] Aprelin 24-də prezidentin adına göndərilən teleqram alındı. Lakin heç kəs məhz aprelin 24-ü «genosid» günü kimi qəbul etmədi. Katalikosun teleqramından bir daha məlum oldu ki, o, Türkiyə ermənilər və onların təşkilatları ilə sıx əlaqə saxlayırmış. Biz burada ermənilərin bütün dünyada car çəkdikləri «genosid» hayküyü məsələsi üzərində dayanmayacağıq. Məsələnin bu cəhəti maraqlıdır ki, əgər Şərqi Türkiyə, yəni ermənilərin də məskun olduqları Ərzurum, Ərzincan və b. əyalətlər rus ordusu tərəfindən işğal edilmişdisə, türklər bu əyalətlərdəki ermənilərə qarşı necə qırğın törədə bilərdilər?

Müəyyən edilmişdir ki, məhz erməni milli təşkilatlarının günahı ucbatından Şərqi Anadoluda 1912-1922-ci illərdə 600 min nəfər erməni qırılmışdır, halbuki ermənilər bu rəqəmi 1,5 milyon nəfər hesab edirlər. Lakin burası da var ki, həmin ərazidə 2,5 milyon nəfər Anadolu müsəlmanı da qırılmışdır.[172]

Erməni könüllü dəstələri Şərqi Anadoluda yerli türkdilli əhalinin qırılması siyasətini yürüdürdülər. Erməni milli təşkilatlarının fəaliyyəti və rus ordusunun 1916-cı ildə Ərzurum, Muş, Ərzincan və Trabzonu işğalı nəticəsində bu əyalətlərdən 600 min türk qaçqını əmələ gəlmişdi.[173] Məhz bunun nəticəsində Türkiyənin hakim dairələri Şərqi Anadoludan ermənilərin deportasiya olunması siyasətinə keçməyə məcbur olmuşdular.

Akademik Ziya Bünyadov yazmışdı ki, I Dünya müharibəsində Türkiyənin Balkanlarda məğlubiyyəti, rus ordusunun Kars, Ərdəhar, Ərzurum, Bitlis və Van əyalətlərini işğal etməsi erməni millətçi təşkilatlarının Türkiyə ərazisində fəaliyyətinin genişlənməsinə və Türkiyəyə qarşı ərazi iddialarına səbəb olmuşdu.[174] 1917-ci ildə rus ordusu Trabzonu tərk etməyə başlayanda daşnaklar türk əhalisini qırmağa başlamışdı. Türk ordusu bu vəhşiliklərə qarşı çıxdıqda daşnaklar «genosid» adı ilə dünyaya səs salmışlar.[175]

I Dünya müharibəsi gedişində Türkiyədə «erməni soyqırımı»nın saxtalığını Qərb tədqiqatçılarından Çastin və Karolin Makkartilər, Stanbord, Bernard Levisin, Jorj de Malevil və başqaları öz əsərlərində tarixi dəlillərlə ifşa etmişlər. Lakin tarixi obyektivlikdən uzaq olan erməni müəllifləri nəinki «erməni soyqırımı»nın olmasını və hətta soyqırıma məruz qalan ermənilərin sayını saxtalıqla artırmaqdan belə çəkinmirlər. Məsələn, erməni jurnalistlərindən C.Kirokosyan yazır ki, XIX əsrin axırlarında və I Dünya müharibəsi dövründə guya Türkiyənin 6 vilayətində 1 milyon 500 minə yaxın erməni yaşamış və hamısı məhv edilmişdi.[176] A.Lalayan «əksinqilabçı «Daşnaksütyun» və 1914-1918-ci illərdə imperialist müharibəsi» məqaləsində 1,5 milyon olan ermənidən bir milyonunun məhv edildiyini bildirir.[177]

Bu saxtalıq məşhur fransız jurnalisti və alimi Jorj de Malevilin «1915-ci ildə erməni faciəsi» adlı kitabında da öz əksini tapmışdı. O, göstərir ki, «erməni genosidi»nin qurbanları ildən-ilə artır və bu saxta alver xarakteri daşıyır. Yəni onlar bu yalan fikri təbliğ etməklə beynəlxalq aləmdə özlərinə havadarlar axtarırlar. Buna görə də təsadüfi deyildir ki, 1930-cu ildə çap olunmuş «Birinci Böyük Sovet Ensiklopediyası»nın 3-cü cildinin 437-ci səhifəsində göstərilir ki, «erməni genosidi» qurbanlarının sayı 300 mindən 600 minə qədər (300 mini öldürülmüş və bir o qədər də xəstəlikdən və deportasiyadan) həlak olmuşdu. Lakin bu say sonralar 1 milyona, 1,5 və nəhayət 2 milyona çatdırılmışdı.

Belə saxta iddialar 1896-cı ildə Qərb dövlətlərinin İstanbulda keçirilən konqresindən əvvəl beynəlxalq müşahidəçilərin iştirakı ilə əhalinin milli tərkibi siyahıya alınarkən də ifşa olunmuşdur. Belə ki, siyahıya alınma nəticəsində məlum olmuşdur ki, ermənilərin muxtariyyət istədikləri 6 vilayətdə əhalinin cəmi 30 faizi erməni idi. Lakin tarixi həqiqətlə razılaşmayan ermənilər təbliğ edirlər ki, Türkiyənin 6 vilayətində o zaman yaşayan əhalinin 80 faizi erməni olmuşdur. Tədqiqatçı alim Yusif Qazıyev «Qondarma «erməni soy-

qırımı» mifi «Böyük Ermənistan» xülyasına xidmət edir» adlı məqaləsində haqlı olaraq yazır ki, «Bu yalançı rəqəmlər vasitəsilə dünyanı inandırmağa çalışan ermənilər yazırlar ki, 1915-1917-ci illərdə 1,5 milyon nəfər erməni soyqırıma məruz qalmışdır. Bu rəqəm müxtəlif dövrlərdə müxtəlif miqdarda göstərilir: keçən əsrin 40-cı illərində 300 min, 50-ci illərdə 600 min, 60-cı illərin əvvəllərində 800 min, 60-cı illərin ortalarında 1 milyon, sonralar isə 1,5 milyon olduğu bildirilir.[178]

1915-ci ildə Peterburqda nəşr edilmiş N.M.Laqovun «Ermənistan» kitabında göstərilir ki, 1913-cü ildə Türkiyə Ermənistanında ermənilərin sayı 1 milyon 18 min idi. Fransa alimi Strasburqda tədqiqat institutunun direktoru Pyer Dyumon təsdiq edir ki, Osmanlı Türkiyəsinin və Rusiya imperiyasının daxilində cəmi 1,4 milyon erməni yaşayırdı. Belə olan halda sual meydana gəlir? Necə ola bilər ki, 2 milyon erməni soyqırıma məruz qalmış olsun.[179] P.Dyumon 1989-cu ilin noyabrında Amerika Senatına ünvanlanmış bəyanatda nəinki erməni soyqırımını inkar edir, hətta hesab edir ki, erməni boyeviklərinin terrorist fəaliyyəti nəticəsində 60 min kürd və türk öldürülmüşdür.[180]

Faktlar təsdiq edir ki, qırğınların törədilməsinin başlıca günahkarı ermənilər olmuşdur. Bunu hətta Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevski də təsdiq etmişdir. O, öz xatirələrində yazmışdı: Türkiyənin müxtəlif şəhərlərində ermənilərlə müsəlmanlar arasında toqquşmalar məni belə bir qənaətə gətirir ki, qanlı işlər hər yerdə ermənilərin özlərinin təşəbbüsü ilə başlanmışdır.[181]

Erməni soyqırımının saxtalığı məsələsi bir sıra başqa tədqiqatçıların da əsərlərində öz əksini tapmışdır. Bu saxta məsələyə münasibətini bildirən fransız müəllifi Jorj de Malevil yazmışdı: erməni irqini məhv etmək üçün cinayətkar qəsd olması barəsində tezis Osmanlı hökumətinin ən yuxarı dairələrində hazırlanan sənədlərlə tanış olarkən sabun köpüyü kimi puç olur.[182]

Bu tarixi faktlarla bərabər Osmanlı dövlətində erməni millətindən 29 paşa, 22 nazir, 23 deputat, 7 səfir, 11 baş konsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli dövlət məmuru kimi fəaliyyət göstərməsi.[183] bir daha Türkiyədə ermənilərə olan münasibəti açıqlayır.

Amerika professoru Castin Makkarti yazır: Doğrudur, ermənilər qırğına məruz qalmışlar. Lakin həlak olanlar tək ermənilər yox, eyni zamanda müsəlmanlar da olmuşlar. Statistika göstərir ki, 2,5 milyon nəfər Anadolu müsəlmanı qəddarlıqla qətlə yetirilmiş, şəhər və kəndləri yandırılmışdı. Əgər bu soyqırımdırsa, o halda çox qəribə soyqırımdır, belə ki, öldürənlər daha çox məhv olmuşlar, nəinki məhvə məruz qalanlar.[184]

Erməni saxtalığının ifşası baxımından ABŞ-nın Türkiyədə səfiri olmuş kontr-admiral Bristolun fikri də diqqəti cəlb edir. O, 1921-ci il martın 28-də ABŞ Senatının kollegiyasında erməni məsələsinin müzakirəyə çıxarılması ilə əlaqədar olaraq yazmışdı: Görürəm ki, Qafqazda türklərin minlərlə erməni öldürmələri haqqında tamamilə yalan məlumatlar ABŞ-da sərbəst yayılır. Nə qədər ki, ermənilərin yaydıqları yalan məlumatları təkzib etməmişik, o halda yalan məlumat verməkdə şərik kimi ittiham oluna bilərik.

Bristol fikrini davam etdirərək göstərmişdi: ermənilər müsəlmanlar üzərinə hücum edib evləri dağıdaraq insanları məhv etmələrinə görə türklər cavab tədbirlərinə əl atanda ermənilər hər şeyi buraxıb qaçdılar. Elə qaçdılar ki, hətta dayanıb öz arvad və uşaqlarını qorumadılar. Analoji fikir göstərilən müəlliflərdən başqa bir sıra tədqiqatçıların, o cümlədən «Erməni işi» kitabının müəllifi Kamran Qyurul, «Müasir Türkiyə və Osmanlı imperiyasının tarixi» kitabının müəllifi Stenford Şou və digərləri tərəfindən də söylənilmişdi. Bu cəhətdən C.Aslanoğlunun tədqiqatları da diqqəti cəlb edir. Sarıqamışda 500 türk əsgərinin, Ahılkələkdə 10 min müsəlmanın öldürüldüyünü, İrəvandakı 40 azərbaycanlı kəndinin yandırıldığını və əhalinin evsiz-eşiksiz qalıb məhv

edildiyini, habelə Leninakanda 500 araba ilə başqa yerə daşınan üç minə qədər azərbaycanlı köçkünün ermənilər tərəfindən zülmlə öldürüldüyünü açıqlayan tədqiqatçı haqlı olaraq bu vəhşiliklərin əsl soyqırım olduğunu söyləyir.[185] Erməni millətçilərinə bunu da xatırlatmaq yerinə düşər ki, 1905-1907-ci və 1918-1920-ci illərdə Ermənistan ərazisində 500 min azərbaycanlının qətlə yetirilməsi soyqırım deyildimi? Əlbəttə, soyqırımdır. Nəhayət, tarixi faktlarla razılaşmayan erməni millətçilərinin «genosid» saxtalığına cavab olaraq 1985-ci il dekabrın 12-də Amerika konqresinin nümayəndəsi konqresmen Stefan Zolyarst çıxışında bildirmişdi ki, mən çox öyrənəndən sonra belə bir qənaətə gəldim ki, I Dünya müharibəsində ermənilər türklərin genosid qurbanı olmamışlar.[186] Çox qəribədir, bütün faciələri törədən bunlar, genosid deyib dünyaya səs salan da bunlardır. Hətta ermənilər BMT nəzdində azlıqda qalan millətlərin hüququnun müdafiə edilməsi komitəsində «Erməni genosidi»ni bir fakt kimi təsdiq etdirmək təşəbbüsü də göstərmişdilər. Ancaq 1973-cü ildə irəli sürülmüş «Erməni genosidi» təklifi 1978-ci ildə komitədə səsvermə yolu ilə rədd edilmişdir.

Burası da qəribədir ki, müharibənin gedişində döyüş ərazisindən 100 kilometrlərlə uzaqda olan Sivas əyalətində sakit bir şəraitdə yaşayan 200 minə yaxın müsəlman amansızcasına məhv edilmişdi.[187]

Zeynal Vəfa «Kökündən bixəbərlər» məqaləsində göstərir ki, küçələrdə qan gölməçələrindən keçmək belə olmurdu. Yollar, həyətlər, əkin sahələri insan cəsədləri sərgisinə dönmüşdü. Ölüləri dəfn etmək imkan xaricində idi. Əsl soyqırım ermənilərin türklərə, azərbaycanlılara qarşı törətdiyi qanlı faciələr olmuşdu. Lakin təəssüf ki, ermənilərin həyasızcasına 24 apreli (1915-ci ildə) «Türklərin ermənilərə qarşı genosid günü» kimi təbliğ etmələri hal-hazırda da davam edir. Ancaq görkəmli alimlər, tarixi mənbələr həmin əsassız iddianı rədd etmişlər. Hətta 75 nəfər Amerika alimi 1915-ci ildə ermənilərə qarşı heç bir genosid (soyqırım) olmadığını

tarixi sənədlər əsasında sübuta yetirmişdilər[188] və buna görə də ermənilərin böyük canfəşanlıqla etdikləri bütün cəhdlər haqlı olaraq Amerika dövləti tərəfindən qəbul olunmamışdı.

Buna baxmayaraq erməni millətçiləri saxta «genosid»i dünya ictimaiyyəti arasında yaymaqda hər vasitədən istifadə edirlər. 1991-ci ildə Yerevanda 16 ölkənin iştirakı ilə «Erməni genosidi – tarix, nəzəriyyə və siyasi məsuliyyət» mövzusunda keçirilən beynəlxalq elmi konfransda da həmin məsələ geniş müzakirə edilmiş və SSRİ Ali Sovetinə müraciət göndərilmişdi. Müraciətdə Osmanlı Türkiyəsində erməni genosidi pislənilmiş və bu məsələdə ermənilər yenə də türkləri günahlandırmışlar.

Hətta erməni lobbisi xarici ölkələrdə parlament seçkilərindən də bir vasitə kimi istifadə edir və həmin seçkilər zamanı səs verəcəklərini bir şərt kimi qəbul etdirməyə və bununla da «dənizdən-dənizə Böyük Ermənistan» yaratmaq planını reallaşdırmağa çalışırlar. Ona görə də hər vasitədən istifadə edib soyqırıma məruz qalan bir xalq olmaları haqda dünya ictimaiyyətində fikir yaratmaq siyasətlərini davam etdirirlər. Bu məqsədlə hətta 1986-cı il aprelin 22-də Kölndə (AFR) «Erməni məsələsi unudulub» adlı 45 dəqiqəlik filmin göstərilməsinə nail olmuşlar. Həmin filmdə erməni soyqırımını təsdiqedici bir fakt kimi hələ 1871-ci ildə rus rəssamı Verşaginin «müharibənin dəhşətləri»ni təsvir edən kartinasından həyasızcasına istifadə edilmişdi. Ancaq bu fakt Dyüsseldorfda rus kilsəsinin mitropoliti Paulus tərəfindən qəti surətdə rədd edilmiş və bu haqlı olaraq Gobbols təbliğatı adlandırılmışdır.[189]

Çox təəssüflər ki, XIX və XX əsrlərin müxtəlif illərində xüsusi qəddarlıqla türklərə və azərbaycanlılara qarşı mübarizə aparan ermənilər törətdikləri dəhşətli faciələrlə soyqırım törədən hesab edilmədi. Əksinə, ermənilər soyqırıma məruz qalmış xalq kimi tanımaq və hətta bu saxta fikri hazırda öz parlamentində tanıyan dövlətlər də mövcud oldu. Bütün ermənilərin katalikosu II Qaregenin Vatikana səfəri zamanı

Roma Papası II Pavel ilə qəbul edilmiş birgə sənəddə ermənilərin «genosidi»nin etiraf edilməsindən sonra Fransa Senatında erməni «genosidi»nin qəbul edilməsi açıq şəkildə saxta ideyanın müdafiəsi, obyektivliyin inkar edilməsi oldu. Fransa Parlamentinin Osmanlı Türkiyəsində «erməni genosidi»ni qəbul etməsi bir növ təəccüb doğurur. Çünki hələ 1986-cı il iyunun 28-də Avropa Assambleyası səs çoxluğu ilə «erməni genosidi»nin olmasını rədd etmişdi.[190] Hətta bu fakt fransız qəzeti «Yumanite»də (№ 13018, səh. 12) öz əksini tapmışdı.

Türkiyənin «Millət» qəzetində Roma Papasının bu səhvi onun yaşının çoxluğu ilə əlaqələndirilmişdi. Fransa Senatının «erməni genosidi»ni etiraf etməsi məsələsinə gəldikdə Türkiyə prezidenti Əhməd Necdət bildirmişdir ki, Türkiyənin tarixində heç bir «genosid» olmayıb. Fransanın bu şəkildə Ermənistanı müdafiə etməsi və onunla bu şəkildə dostluq etməsi Fransa üçün baha başa gələ bilər. Belə ki, Fransa-Türkiyə arasında 240 milyon dollar həcmində olan kontrakt zərbə altında qala bilər.[191]

Türkiyə dövləti Fransa Senatının saxta «genosid» haqqında qəbul etdiyi qərarla əlaqədar olaraq Avropa İnsan Haqları Məhkəməsinə müraciətlə (AİHM) şikayət etmiş və müraciətdə Fransanın belə bir qərar qəbul etməsinə görə maddi təzminat ödəməsi də tələb olunmuşdu.

Vəkil Sedat Vural AİHM-ə göndərilən müraciətdə Fransanın qəbul etdiyi qərarın beynəlxalq qanuna zidd olduğunu və hətta Fransa Konstitusiyasına görə, ölkə parlamentinin belə bir qərar qəbul etməsini qeyri-mümkün hesab etmişdi. Həmçinin də müraciətdə nə I Dünya müharibəsindən sonra yaradılan Millətlər Cəmiyyətinin və nə də II Dünya müharibəsindən sonra BMT-nin yazılı və şifahi qərarlarında «erməni genosid»i haqqında heç bir bənd olmadığı diqqətə çatdırılmışdı.[192]

Fransa Senatının mövqeyi Azərbaycan xalqını da çox narahat etmişdir. Fransa Senatının qəbul etdiyi qondarma

«erməni genosidi» məsələsi Milli Məclisin 2 fevral (2001-ci il) tarixli iclasında müzakirə edilmişdi. Burada çıxış edənlər göstərmişlər ki, əslində ermənilər türklərə, azərbaycanlılara qarşı genosid – soyqırım törətmişlər. Ermənilər «genosid»lə əlaqədar 26 min kitab çap etdirməklə dünya ictimaiyyətində saxta fikirlərinə inam yaratmağa çalışırlar. Lakin onlar bilməlidirlər ki, genosid bir xalqın kütləvi qırğını deməkdir. Türkiyədə isə ermənilərə qarşı bu cür hadisə törədilməyib. Belə olan halda Fransa Senatının mövqeyi təəccüb doğurur. Digər tərəfdən ATƏT-in həmsədrlərindən biri kimi Fransa Senatının saxta fikri təsdiq etməsi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məhz Fransanın səmimiliyinə şübhələr yaradır.

Respublika Milli Məclisinin iclasında haqlı olaraq Fransa Senatının «erməni genosidi»ni tanıması ilə əlaqədar bəyanat qəbul edildi və bunu bütün dünya dövlətləri parlamentlərinə göndərmək səsləndi.

Beləliklə, I Dünya müharibəsində məğlub olmuş Türkiyə 1918-ci ilin 30 oktyabrında Mudros limanında Böyük Britaniya ilə bağladığı müqavilə əsasında Cənubi Qafqazdan öz qoşunlarını çıxarmalı oldu. Bu müqaviləyə görə Antanta dövlətlərinin birinin protektorluğu altında Şərqi Türkiyə ərazisində «Müstəqil Ermənistan» dövlətinin yaradılması da nəzərdə tutulurdu.[193] Maraqlıdır ki, oktyabr çevrilişi nəticəsində hakimiyyətə gəlmiş bolşeviklər də bu məsələdə imperialist dövlətlərlə eyni mövqedə durdular.

29 dekabr 1917-ci ildə Rusiya XKS-i «Türkiyə Ermənistanı» adlı dekret qəbul etmişdi. V.İ.Lenin və İ.V.Stalin tərəfindən imzalanmış bu dekretdə qeyd olunurdu ki, Rusiya tərəfindən tutulmuş «Türkiyə Ermənistanı»na tam müstəqillik hüququ veriləcəkdir.[194] Təsadüfi deyildir ki, 1918-ci ilin əvvəllərində Andronik Ərzurumda türk ordusuna qarşı vuruşduqda türk ordusunun komandanı Vahab Paşanın tabe olmaq təklifinə Andronik demişdi ki, Rusiya dövləti «Türkiyə Ermənistanı» dekreti ilə bizə öz müqəddəratımızı

təyin etmək hüququ vermişdi.[195] Hətta 1918-ci ilin 13 aprelində Q.V.Çiçerin Almaniyaya müraciət edərək müttəfiqi Türkiyəyə təsir etməyi və Şərqi Türkiyədə ermənilərə muxtariyyət verilməsini təklif etmişdi.[196] Lakin Brest-Litovsk müqaviləsinə görə Qars, Batum, Ərdahanın Türkiyəyə keçməsi və Rusiyada vətəndaş müharibəsi başlandığına görə ermənilər bu niyyətlərinə nail ola bilmədikdə Azərbaycana qarşı ərazi iddiasına keçdilər. Daşnak siyasətinin həyata keçməsində Sovet Rusiyası XKS-nin 16 dekabr 1917-ci il tarixli qərarı ilə Qafqazın fövqəladə komissarı təyin edilmiş S.Şaumyanın böyük rolu oldu.[197]

Millətçi erməni təbliğatının təsiri altında hətta bir sıra dövlət xadimləri ermənilərin mənafeyini müdafiə edirdilər. Məhz erməni təbliğatının təsiri altında S.K.Orconikidze Q.V.Çiçerinə yazmışdı ki, Türkiyədən İrəvan quberniyasına gəlmiş 600 min qaçqın erməni vardır, Şuşa və Zəngəzur qəzalarında əhali Türkiyədən gəlmə ermənilərə şiddətli müqavimət göstərir.[198] Beləliklə, Qars və Ərzurum vilayətlərinin Brest müqaviləsinin şərtləri əsasında Türkiyəyə keçməsi ermənilərin Türkiyə hesabına «Böyük Ermənistan» yaradılması planlarını puç etdi.

Qərbi Avropa dövlətlərinin hökumətləri də bu məsələdə erməni millətçi təşkilatlarının planlarının tərəfində durmadılar və Versal sülh konfransında ermənilərin Türkiyənin 6 vilayəti (Van, Bitlis, Diyarbəkr, Sivaş, Ərzurum və Trabzon) ilə bərabər İrəvan quberniyası, Tiflis quberniyasının cənub hissəsi və Yelizavetpol quberniyasının bir hissəsi, Qars və Ərdəhan da daxil olmaqla Ermənistan dövləti yaratmaq arzuları dəf edildi.

Beləliklə, Qərb ölkələrinin və Rusiyanın köməyinə böyük ümidlər bəsləyən erməni millətçiləri XX əsrin əvvəllərindən başlayaraq Türkiyədə törətdikləri cinayət xarakterli mübarizələrini Azərbaycana keçirdilər. «Böyük Ermənistan» yaratmaq naminə Azərbaycan xalqına qarşı mübarizələrini müharibə həddinə çatdırıb dəhşətli faciələr törətdilər.

İFƏSİL

1. Namiq Fərəc Sığırlıgöy. «Böyük Ermənistan» xülyası və böyük Pyotr. «Azərbaycan» qəz., 22 iyun 1990.

2. Yenə orada.

3. П.Г.Бутков. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. I ч., С.Петербург, 1869, səh. 48.

4. S.M.Solovyov. «Rusiya tarixi üzrə mühazirə və hekayələr» əsəri, Moskva, 1989, səh. 717.

5. M.M.Bala. Ermənilər və İran. Ankara, 1994, səh. 19.

6. «Xalq» qəz., 27 fevral 1911.

7. Azərbaycan tarixi, Bakı, 1996, səh. 17.

8. Həbib Rəhimoğlu. Fiziki varlığımızı saxlamaq üçün mənəviyyatı itirdik. «Xalq» qəz., 2 aprel 1998.

9. F.Əsədov, S.Kərimova. Çarizmi Azərbaycana gətirənlər. Bakı, 1993, səh. 70.

10. Yenə orada, səh. 75.

11. История армянского народа. Ереван, 1980, səh. 190.

12. «Azərbaycan» qəz., 2 iyul 1998.

13. «Vışkar» qəz., 6 fevral 1993.

14. «525-ci qəzet» 28 mart, 1998.

15. И.Шопен. Исторический памятникь состояния армянской области в эпоху ее присоединения к Российской империи. С.Петербург, 1852, səh. 468.

16. T.Köçərli. Mənbələrə doğru geriyə. «Bakı» qəz., 18 iyul 1997.

17. Manuq Abeqyan. Erməni ədəbiyyatı tarixi. Yerevan, 1975, səh. 11.

18. Əziz Ələkbərli. Qərbi Azərbaycan / Vedibasar mahalı. Bakı, 2000, səh. 57.

19. История армянского народа. Ереван, 1980, səh. 183.

20. S.Əsədov. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh. 9.

21. З.Коркодян. Насиление Советский Армения. Ереван, 1932, səh. 162.

22. «Təzadlar» qəz., 20 fevral 1999.
23. В.А.Парсамян. История армянского народа 1801-1900, Ереван, 1977, səh. 88.
24. İ.Şopen. Göstərilən əsər, səh. 18.
25. Yenə orada.
26. Əziz Ələkbərli. Göstərilən əsər, səh. 60.
27. T.Köçərli. Qarabağ. Bakı, 2002, səh. 421.
28. Əziz Ələkbərli. Göstərilən əsər, səh. 67.
29. F.Əsədov, S.Kərimova. Göstərilən əsər, səh. 32.
30. С.Н.Глинка. Описание переселения армян аддербиджанских в пределы России. Москва, 1831, səh. 103.
31. Yenə orada, səh. 127.
32. T.Köçərli. Bir daha Moskva mətbuatında Qarabağın tarixinin saxtalaşdırılması haqqında. «İqtisadiyyat» qəz., 20 sentyabr – 3 oktyabr, 1989.
33. В.Л.Величко. Кавказ. Русское дело и междуплеменные вопросы. С.Петербург, 1904, səh. 23.
34. А.С.Грибоедов. Записка о переселении армян из Персии в наши области. Соч. т. 2, М., 1971, səh. 314.
35. S.N.Qlinka. Göstərilən əsər, səh. 40.
36. Yenə orada, səh. 108.
37. В.А.Парсамян. Göstərilən əsər, səh. 75.
38. Т.Кючярли. Эюстярилян ясяр, сящ. 215.
39. Fuad Əliyev, Urfan Həsənov. «İrəvan xanlığı». Bakı, 1997, səh. 122.
40. Qarabağ XIX-XX əsrlərdə separatizmin xronologiyası. «Xalq» qəz., 3 aprel, 1998.
41. Kamran İmanov. Siyasi saxtakarlıq edən kimdi? «Xalq» qəz., 15 oktyabr, 1998.
42. P.Q.Butkov. Göstərilən əsər, səh. 169-170.
43. В.И.Левиатов. Очерки по истории Азербайджана в XVIII века. Баку, 1948, səh. 147.
44. T.Köçərli. Göstərilən əsər, səh. 153.
45. F.Şuşinski. Şuşa. Bakı, 1968, səh. 69.

46. Колониальная политика Российского царизма в Азербайджане. II ч., М.-Л., 1937, səh. 20-22.
47. T.Köçərli. Göstərilən əsər, səh. 252.
48. İ.Əliyev. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, 1989, səh. 85.
49. Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), Bakı, № 4, 1989, səh. 33.
50. Vidadi İsayev. Haradan gəlir köç. Bakı, 1995, səh. 16.
51. T.Köçərli. Göstərilən məqalə. «Bakı» qəz., 18 iyul 1997.
52. Салех Бей. «Армянство», Баку, 1994, səh. 83.
53. A.S.Qriboedov. Göstərilən əsər, M., 1971, səh. 340.
54. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, səh. 27.
55. Н.Н.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа мугани инородцам. С.Петербург, 1911, səh. 63.
56. Vidadi İsayev. Göstərilən əsər, səh. 17.
57. T.Köçərli. Göstərilən əsər, səh. 240.
58. N.N.Şavrov. Göstərilən əsər, səh. 63.
59. Azərbaycan SSR EA Xəbərləri. Bakı, № 4, 1989, səh. 32.
60. N.N.Şavrov. Göstərilən əsər, səh. 59-61.
61. Qiyasəddin Qeybullayev. Qədim türklər və Ermənistan. Bakı, 1992, səh. 3.
62. В.Гурко-Кряжин. Армянский вопрос. Баку, 1990, səh.7.
63. Siyasi tarix. I hissə, Bakı, 1991, səh. 72.
64. Д.Маккарти, К.Маккарти. Тюрки и армяне руководство по армянского вопросу. Баку, 1995, səh. 48.
65. Б.Наджафов. «Лицо врага» история армянского национализма в Закавказье в конца XIX-начало XX в. ч. I, Баку, 1993, səh. 51.
66. Veliçko V.L. Göstərilən əsəri, səh. 98.
67. Siyasi tarix, I hissə, Bakı, 1991, səh. 72.
68. C.Makkarki., K.Makkarti. Göstərilən əsər, səh. 48.
69. Мансуров А. Белые пятна истории и перестройки. Баку, 1990, səh. 98.

70. Бакунц А. Идейно-политический крах партии дашнакцутюн. Ереван, 1979, səh. 26.
71. Yenə orada, səh. 32.
72. Лалаян А. Контрреволюционный «Дашнакцутюн» и империалитическая война 1914-1918 гг. Известия АН Азерб.ССР. Серия истории философии и права, № 4, 1989, səh. 36.
73. Yenə orada, səh. 37.
74. Siyasi tarix, I hissə, Bakı, 1991, səh. 72.
75. Маевский В.Ф. Армяне-татарская смута на кавказе как одна из фазилов армянского вопроса. Баку, 1915, səh. 10.
76. Мамедова Л. Новая фаза подьема армянского политического экстремизма в Азербайджане. Баку, səh. 6.
77. Nəcəfov B.İ. Göstərilən əsəri, I hissə, səh. 67.
78. Yenə orada, səh. 68.
79. Yenə orada, səh. 70-72.
80. C.Makkarti., K.Makkarti. Göstərilən əsər, səh. 57.
81. Şavrov N.N. Göstərilən əsəri, səh. 90.
82. Жорж де Малевил. Армянская трагедия 1915 года. Баку, 1990, səh. 82.
83. Yenə orada.
84. Şavrov N.N. Göstərilən əsəri, səh. 108.
85. Məmmədov Ş., Cəfərov H., Hacıyev İ. Burjua demokratik inqilabları dövründə «Daşnaksütyun»un fəaliyyəti. «Azərbaycan kommunisti» jurnalı, avqust-sentyabr, № 8-9, 1990, səh. 171.
86. Yenə orada, səh. 172.
87. Hüseyn Baykara. Göstərilən əsəri, səh. 20.
88. Кариби. Красная книга. Тифлис, 1920, səh. 49.
89. Mayevski V.F. Göstərilən əsəri, səh. 92.
90. Nəcəfov B.İ. Göstərilən əsəri, I hissə, səh. 180-182.
91. Yenə orada.
92. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi. Fond 484, siyahı I, qovluq 30, vər. 3.
93. Yenə orada, vər. 4.

94. Yenə orada, vər. 173 a.
95. Свияттоховский Т. Русский Азербайджан 1905-1920. «Хазар» jurnalı, № 1, 1990, səh. 101.
96. Yenə orada, səh. 100.
97. Azərbaycan Respublikası DTA, fond, 484, s. I, qov. 30, vər. 178-181.
98. Yenə orada, vər. 85 a.
99. Ordubadi M.S. Qanlı illər, Bakı, 1991, səh. 18-23.
100. Sani Hacıyev. «Erməni məsələsi» faktların dili ilə. «Azərbaycan» qəz., 27 aprel 2001.
101. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, 1993, səh. 31.
102. Yenə orada, səh. 51.
103. Yenə orada, səh. 4.
104. Yenə orada, səh. 122.
105. Siyasi tarix. I hissə, Bakı, 1993, səh. 78.
106. Axundov Y., Həbibov İ. Əhmədbəy Ağayevin məşhur nitqi. «Dialoq» jurnalı, № 17, 1990, səh. 38.
107. Yenə orada, səh. 39.
108. Siyasi tarix, I hissə, Bakı, 1993, səh. 79.
109. Məmmədov Ş., Cəfərov H., Hacıyev İ. Burjua demokratik inqilabları dövründə «Daşnaksütyun»un fəaliyyəti. «Azərbaycan kommunisti» jurnalı, avqust-sentyabr, № 8-9, 1990, səh. 172.
110. Siyasi tarix, I hissə, Bakı, 1993, səh. 79.
111. Nəcəfov B.İ. Göstərilən əsəri, I hissə, səh. 211.
112. Siyasi tarix, I hissə, Bakı, 1993, səh. 80.
113. Yenə orada, səh. 80-81.
114. Yenə orada, Bakı, 1991, səh. 133.
115. V.Qurko-Krəjin. Göstərilən əsəri, səh. 9.
116. Yenə orada.
117. Lalayan A. Göstərilən əsəri, səh. 45.
118. Западная Армения в годы Первой мировой войны. Ереван, 1971, səh. 118.

119.Yenə orada, səh. 70.
120.Yenə orada, səh. 69.
121.Yenə orada, səh. 73.
122.Yenə orada, səh. 118.
123.Yenə orada, səh. 121.
124.Yenə orada, səh. 125.
125.Yenə orada, səh. 133.
126.Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, səh. 88.
127.Yenə orada.
128.Yenə orada, səh. 91.
129.Yenə orada, səh. 92.
130.Западная Армения в годы Первой мировой войны. Ереван, 1971, səh. 182.
131.Yenə orada.
132.Məmmədov Ş., Cəfərov H., Hacıyev İ. Burjua demokratik inqilabları dövründə «Daşnaksütyun»un fəaliyyəti. «Azərbaycan kommunisti» jurnalı, avqust-sentyabr, № 8-9, 1990, səh. 173.
133.Lalayan A. Göstərilən əsəri, səh. 48.
134.Kaçaznuni Ov. Göstərilən əsəri, səh. 12.
135.Lalayan A. Göstərilən əsəri, səh. 39.
136.Nəcəfov B.İ. Göstərilən əsəri, I hissə, səh. 55, 58.
137.Lalayan A. Göstərilən əsəri, səh. 41.
138.Yenə orada, səh. 42.
139.Yenə orada, səh. 42-43.
140.Арутюнян А.О. Göstərilən əsəri, səh. 295.
141. Yenə orada, səh 297.
142.Yenə orada.
143.Западная Армения в годы Первой мировой войны. Ереван, 1971, səh. 200-201.
144.Yenə orada, səh. 200-201.
145.Арутюнян А.О. Göstərilən əsəri, səh. 345.

146.Палеолог М. Царская Россия во время Первой мировой войны. М., 1923, səh. 169.

147.Борьян Б. Армения, международная дипломатия и СССР. ч. Ы, М.-Л., 1928, səh. 297.

148.Западная Армения в годы Первой мировой войны. Ереван, 1971, səh. 204.

149. Арутюнян О. «Воспоминания», Ереван, 1956, səh.68.

150.Салех Бей. Göstərilən əsəri, səh. 292.

151.Məmmədov Ş., Cəfərov H., Hacıyev İ. Burjua demokratik inqilabları dövründə «Daşnaksütyun»un fəaliyyəti. «Azərbaycan kommunisti» jurnalı, avqust-sentyabr, № 8-9, 1990, səh. 174.

152.Арутюнян А.О. Göstərilən əsəri, səh. 185.

153.Jorj de Malevil. Göstərilən əsəri, səh. 22.

154.Yenə orada.

155.Арутюнян А.О. Göstərilən əsəri, səh. 343.

156.«Армянский геноцид» миф и реальность. Баку, 1992, səh. 70.

157.Yenə orada.

158.Jorj de Malevil. Göstərilən əsəri, səh. 23.

159.Yenə orada.

160.Yenə orada.

161.Yenə orada, səh. 23.

162.Yenə orada.

163.Yenə orada.

164.Yenə orada, səh. 45-46.

165.Yenə orada, səh. 26.

166.Mansurov A. Göstərilən əsəri, səh. 115.

167.Jorj de Malevil. Göstərilən əsəri, səh. 331.

168.Pompeev Y. Göstərilən əsəri, 1992, səh. 15.

169.Yenə orada.

170.Жорж де Малевил. Göstərilən əsəri, səh. 35.

171.«Армянский геноцид» миф и реальность. Баку, 1992, səh. 71.

172.Nəcəfov B.İ. Göstərilən əsəri, II hissə, səh. 335.
173.Буниятов З.М. Почему Сумгаит? Известия АН Азерб.ССР. Серия истории, философии и права, № 2, 1989, səh. 117.
174.Yenə orada.
175.Yusif Qazıyev. Qondarma «erməni soyqırımı» mifi «Böyük Ermənistan» xülyasına xidmət edir. «Azərbaycan» qəz., 14 iyun 2001.
176.«Революционный Восток» jurnalı, № 2-3, Moskva, 1938, səh. 94.
177.Yusif Qazıyev. Göstərilən məqalə. «Azərbaycan» qəz., 14 iyun 2001.
178.Н.М.Лагов. «Армения», С.Петербург, 1915, səh. 27.
179.«Vışka» qəz., 4 may 2001.
180.Rusiyanın Van və Ərzurumda baş konsulu Mayevskinin xatirələri, Bakı, 1994, səh. 17.
181.Жорж де Малевил. «Армянская трагедия 1915 года». Баку, 1990, səh. 49.
182.Həsən Hüseynov. «Erməni soyqırımı»? Bəs tarixi həqiqət nə deyir? «Respublika» qəz., 24 aprel 2001.
183.«Армянский геноцид» миф и реальность. Баку, 1992, səh. 71.
184.«Армянский геноцид» миф и реальность. Баку, 1992, səh. 244.
185.C.Aslanoğlu. Erməni zülmü 1919-1920-ci illərdə. «Xəzər» jurnalı, № 3, 1990, səh. 67-68.
186.«Армянский геноцид» миф и реальность. Баку, 1992, səh. 61.
187.Zeynal Vəfa. Kökündən bixəbərlər. «Azərbaycan» qəz. 24 aprel 2001.
188.Yenə orada.
189.«Vışka» qəz., 4 may 2001.
190.Yenə orada.
191.«Zerkalo» qəz. 16 noyabr, 2000.
192.«Müsavat» qəz., 19-23 mart, 2001.

193. A.N.Hacıyev. Qars və Araz-türk respublikalarının tarixindən. Bakı, 1994, səh. 14.
194. Агаян Ц.П. Веховая Дружба народов Закавказья. Ереван, 1972, səh. 32.
195. Yenə orada, səh. 89.
196. Yenə orada, səh. 61.
197. Yenə orada, səh. 66.
198. Yenə orada, səh. 62.

II FƏSİL

RUSİYA İMPERİYASININ SÜQUTU VƏ ERMƏNİLƏRİN AZƏRBAYCANA TƏCAVÜZÜ

I Dünya müharibəsindən sonra ermənilərin Cənubi Qafqazda planlarını həyata keçirmələri üçün əlverişli şərait yarandı. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük miqdarda erməni köçüb gəlmişdi. Bununla da İrəvan quberniyasının ərazisində erməni dövlətinin yaradılması, sonra da Azərbaycana qarşı ərazi iddiaları mərhələsi başlanmışdı.[1]

Avropa ölkələrində «erməni məsələsi»nin siyasət aləminə daxil olunmasını təmin edə bilmiş erməni daşnakları Cənubi Qafqaza, xüsusilə Bakıya yığılmış və onlar «Böyük Ermənistan» yaradılması üçün yeni taktikaya keçmişdilər.

Səciyyəvi cəhət odur ki, fevral burjua inqilabından sonra Bakıda bolşeviklərlə daşnaklar birgə hərəkət etməyə başladılar. Bu yaxınlıq hər şeydən əvvəl «Müsavat» partiyasının hakimiyyətə keçməsinin qarşısını almaq niyyəti ilə əlaqədar idi. Təsadüfi deyil ki, daşnakların şəxsində bolşeviklər burada azərbaycanlılara qarşı istifadə oluna biləcək qüvvəyə malik idilər.

1917-ci ilin oktyabrında Tiflisdə daşnak başçılarının erməni milli konqresi toplandı. Burada Ermənistanla əlaqə, eləcə də Rusiyanın Türkiyə erməniləri ilə əlaqə saxlamaq məsələsi müzakirə olundu. Konqresdə erməni «Milli mərkəz»i və 15 üzvdən ibarət Milli Şura seçildi.[2] Belə bir şəraitdə ermənilərin təqsiri üzündən Cənubi Qafqazda, xüsusilə Azərbaycanda ictimai-siyasi vəziyyət yeni istiqamət aldı. Bu vəziyyət 1917-ci il fevral-burjua demokratik inqilabından sonra millətçi «Daşnaksütyun» partiyasının fəaliyyətinin güclənməsi ilə əlaqədar idi. Rus, eləcə də ingilis, fransız imperializmi ilə bağlı olan və onlara xidmət edən «Daşnaksütyun» partiyası «Böyük Ermənistan» xəritəsini əllərində

gəzdirərək millətlər arasında, xüsusilə Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqazda gərginlik yaradaraq azərbaycanlılara qarşı düşmənçiliyi daha da qızışdırdı və bu da haqlı olaraq bütün siyasi partiyaların Cənubi Qafqazda narazılığına səbəb oldu. RSDFP (menşevik) Zaqafqaziya ölkə komitəsinin «Tiflis əhalisinə» müraciətində deyilirdi ki, Qafqazdakı bütün millətçi partiyalardan ən qüvvətlisi və ən zərərlisi daşnak partiyasıdır. Yalnız bu partiyanın dağıdılması zəhmətkeşlərin həqiqi beynəlmiləl həmrəyliyinə nail olmaq üçün möhkəm zəmin yaradar. Bu partiyanın fəaliyyətinə qədər Zaqafqaziyada sakitlik idi. Burada millətlərarası ziddiyyətlər nəzərə çarpmırdı. Azərbaycan, gürcü və erməni millətləri əsrlərlə birgə dinc yaşamışlar. Lakin daşnakların meydana gəlməsi ilə münasibətlər dəyişildi, ziddiyyətlər əmələ gəldi. Daşnak partiyasının qatı millətçilik mahiyyətini daha aydın təsvir edən Arsen Amiryan (sonralar 26 Bakı komissarlarından biri oldu) «Cinayətkar siyasət» adlı məqaləsində yazırdı ki, bu partiya öz varlığının 25 ili ərzində ancaq qəddarlıq siyasəti aparmışdır.[3]

Erməni millətçilərinin digər partiyaları ilə yanaşı «Daşnaksütyun» partiyası imperialist müharibəsində Antanta ölkələri hökumətlərinin və çarizmin tərəfini saxlayaraq türklərə ədavəti daha da qızışdırdı. «Böyük Ermənistan» şüarı ilə ermənilərin şüurunu zəhərləyən bu partiya Ermənistanın ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək kimi avantürist ideya ətrafına erməni ekstremistlərini toplaya bildi.

Digər tərəfdən Oktyabr inqilabının qələbəsindən sonra Sovet hökumətinin ermənilərə, Ermənistana havadarlığının yeni təzahürləri ustalıqla həyata keçirildi. Bir sıra tədbirlər ermənilərin fəallığını artırdı. 1917-ci il dekabrın əvvəllərində Ərzincan müqaviləsi ilə rus hərbiçiləri Ərzurum və Qarsı tərk etdikdən az sonra dekabrın 19-da (1917-ci ildə) Qafqazdakı rus hərbiçilərinin buraxılması haqqında sərəncamın imzalanması, dekabrın 26-da isə rus ordusu tərkibində türklərə

qarşı vuruşan erməni dəstələrinin buraxılması haqqında əmrin verilməsi ilə erməni millətçiləri müstəqil fəaliyyətə başladılar. Belə ki, general Andronikin quldur dəstəsi Naxçıvan, Zəngəzur, Qarabağ ərazisini, general Arişyanın və general Dronun komandanlıq etdiyi hərbi hissə İrəvan, Üçkilsə, Zəngibasar, Vedibasar ərazilərini, polkovnik Silikiyanın ordusu isə Göyçə gölünün ətrafındakı rayonları işğal etməli idi.[4] Belə şəraitdə 1917-ci il dekabrın 16-da (29-da) RSFSR XKS tərəfindən məhz S.Şaumyanın Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilməsi və onun yaxın silahdaşları olan sağ eser S.Saakyan, daşnaklardan Nuricanyan, Arakelyan və başqalarının birliyi Bakıda olan vəziyyətə öz təsirini göstərdi.[5]

Bu zaman Şaumyana və başqa bolşeviklərə Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək və həmçinin də Türkiyədə rus ordularının işğalı altında olan yerlərdə Ermənistan yaratmaq səlahiyyəti verilmişdi. Buna görə də o, Tiflisə gəldi və 1918-ci il yanvarın 22-də etdiyi çıxışında Qafqazı, habelə Zaqafqaziyanı sovetləşməyə çağırdı. Belə bir vaxtda Zaqafqaziyada milli-demokratik hərəkatın yüksəlməsi, Zaqafqaziya Seyminin çağırılması baş verdi. Seym 1918-ci il fevralın 10-da toplandı. Bunun tərkibi Zaqafqaziyadan Müəssisələr Məclisinə seçilmiş müsavat, ittihad, eser-menşevik və daşnak deputatlarından ibarət idi. Seymin sədri menşevik İ.Çxeidze seçilmişdi. S.Şaumyan bu zaman seymin yaradılmasının təşəbbüsçülərini ifşa etmək məqsədilə çox ciddi səy göstərdi və hətta seymin açılışı günü mitinqlər təşkil etməyə nail oldu. Buna görə də Zaqafqaziya komissarlığı onun həbs edilməsi haqqında qərar qəbul etdi. O, bu halda özünün yaxın silahdaşları ilə Bakıya gəldi. Seym 1918-ci il aprelin 22-də Zaqafqaziyanı «Müstəqil Federativ Respublika» elan etdi.

Belə bir şəraitdə Brest-Litovsk (mart 1918-ci ildə) sülh müqaviləsi bağlandı və həmin müqaviləyə görə Qars, Ərdahan və Batumi Türkiyəyə verildi. Buna görə də Türkiyə dövləti həmin vilayətlərin boşaldılmasını tələb etdi. Qarsın

türklərə verilməsi erməni qüvvələrini xeyli dərəcədə qəzəbləndirdi və buna müqavimət göstərdilərsə də bir nəticə alınmadı. Qarsın müdafiəsinə rəhbərlik edən general Nazarbekyan daşnak liderlərindən olan Kaçaznuniyə bildirdi ki, qüvvələr çatışmırdı və Qarsı müdafiə etmək mümkün deyildir.[6] Ermənilərin müqavimətinə baxmayaraq türklər göstərilən yerləri tutdular. Yaranmış həmin şəraitdə erməni millətçilərinin təqsiri üzündən Seym 1918-ci il mayın axırlarında dağıldı.

Belə bir şəraitdə İran və Türkiyə cəbhəsindən geri dönən rus və erməni əsgərlərinin bir qismi Bakıda yerləşmişdi. Artıq 1918-ci ilin əvvəllərində Bakıda 8 mindən artıq erməni hərbi qüvvələri yaradılmışdı. Digər tərəfdən də Qafqaz cəbhəsindən geri qayıdan rus əsgərlərinin bir hissəsi də həmin dəstəyə qoşulmuşdu. Bununla da mart qırğını ərəfəsində yaxşı silahlanmış erməni silahlı qüvvələri 20 min nəfərdən artıq olmuşdu.[7]

Rus və erməni əsgərlərinin Bakıda toplanmasından istifadə edən S.Şaumyan erməni hiyləgərliyi ilə həmin qüvvələrdən azərbaycanlılara qarşı istifadə etmək qərarına gəlmiş və buna nail olmuşdu. Həm də o vaxt Bakıda könüllü müsəlman əsgərlərinin çox az miqdarda olması şəraitindən qatı millətçi siyasətini həyata keçirməsi üçün də Şaumyan əlverişli bir məqam kimi istifadə etmişdi. Bununla da Bakıda olduqca mürəkkəb və ziddiyyətli şərait yaranmışdı. Bu vəziyyəti daha da ağırlaşdıran cəhətlərdən biri də Bakı Sovetinə keçirilən seçkilərdə «Müsavat»ın qələbə qazanması və bundan Şaumyan qüvvələrinin narahat olması idi. Həmin dövrdə xalq arasında böyük nüfuza malik olan «Müsavat»ın Azərbaycanın müstəqilliyi və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparması ilə heç cürə razılaşmayan Şaumyanın rəhbərliyi altında olan bolşevik qüvvələri, Erməni Milli Şurası və həmçinin də «Daşnaksütyun» partiyası rəhbərliyinin birlikdə «Müsavat»a qarşı mübarizə aparmaları da vəziyyəti olduqca kəskinləşdirmişdi.

Belə bir şəraitdə Şaumyan mübarizəni başlamaq üçün bəhanə axtarırdı. Nəhayət bəhanə tapıldı. Bu da müsəlman döyüşçülərin Lənkəranda olan könüllülərə silah göndərmək istəmələri oldu. Şaumyan bundan istifadə edib silahların göndərilməməsi əmrini verdi. Lakin könüllü ordunun zabitləri bu əmrə məhəl qoymayaraq silahları gəmiyə yüklədilər. Buna matroslar və ermənilər mane olduğundan atışma baş verdi və nəticədə ölən, yaralananlar oldu. Şaumyan bunu bəhanə edib ruslarla ermənilərı azərbaycanlılara qarşı mübarizəyə sövq etdi və bununla da hamıya yaxşı məlum olan mart hadisələri baş verdi. 1918-ci ilin martında Bakıda törədilən qırğın nəticəsində 15 min nəfərdən artıq azərbaycanlı məhv edildi.[8]

Bu qırğın belə baş vermişdi. Martın əvvəllərində Bakıya «Vəhşi diviziya» hissələrini daşıyan «Evelina» gəmisi gəldi. Onlara başçılıq edən general Talışinski həbs edildi və hərbi hissə Bakı Sovetinin əmri ilə tərksilah edildi.

Azərbaycan qoşun hissələrinə belə münasibət Bakının azərbaycanlı əhalisinin etirazına səbəb oldu, çünki onlar şəhərdə yalnız ermənilərin və sovetlərin hərbi qüvvələrinin saxlanmasına qarşı çıxdılar və Talışinskinin azad olunmasını tələb etdilər. Çaparidzeyə bu tələbi bildirdilər. Çaparidze bu təklifi rədd etdikdə müsəlman əsgərləri ilə sovet qoşunları arasında toqquşma baş verdi və ermənilər isə bundan istifadə etdilər. Beləliklə, sovet qoşunları və ermənilər Bakı əhalisinə divan tutdular.

Qırğının başlanması üçün ermənilər bir bəhanə irəli atmışdılar. Şaiyə yaymışdılar ki, H.Z.Tağıyevin Lənkəranda xidmət edərkən aldığı yaradan həlak olan oğlunun dəfnində iştirak edən azərbaycanlı əsgərlər guya oradakı ruslara (malakanlara) hücum edib onları qıracaqlar. Martın 30-da səhər tezdən rus-erməni birləşmələri gəmilərdən şəhəri atəşə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq onları vəhşiliklə qətlə yetirdilər. Qırğını dayandırmaq üçün aprelin 1-də daşnaklarla «atəşkəs mü-

qaviləsi» bağlandısa[10] da bu elə bir nəticə vermədi. Bununla da ermənilər Bakıda 3 gün davam edən dəhşətli qırğın zamanı azərbaycanlıları kütləvi halda qırmaqla dəhşətli soyqırım törətmişdilər. Nikolayev küçəsində xüsusi qəddarlıqla məhv edilmiş insan meyidləri içərisində qılıncla doğranmış, süngülərlə deşik-deşik edilmiş müxtəlif peşə sahibləri olan 67 nəfər azərbaycanlı qətlə yetirilmişdi. «Vulkan» cəmiyyətinin köhnə yanalma körpüsünə 6748 qadın, kişi, uşaq meyidi gətirilmişdi. Anar İsgəndərovun yazdığına görə təkcə bir yerdə qulaqları, burunları kəsilmiş və qarınları yırtılmış 57 müsəlman qadın və qızın meyidi tapılmışdı.[11]

Dəhşətli faciələr hətta ayrı-ayrı evlərdə də təkrar edilmişdi. Təkcə bir evdə 22-23 yaşlı bir qadının, iki nəfər yaşlı qadının, 8 yaşlı oğlanın, 9 yaşlı qızın və südəmər körpənin meyidləri aşkar edilmişdi. Stepan Lalayev öz dəstəsi ilə Vorontsov küçəsində yaşayan həkim Bəybala bəy Sultanovu öz evində qətlə yetirmişdi. Saysız-hesabsız sayda azərbaycanlını xüsusi qəddarlıqla qətlə yetirməklə bərabər erməni caniləri həm də talançılıq əməllərini də unutmamışlar. Belə ki, 30-dək silahlı erməni Məşədi Əhməd Rəhim oğlunun evinə soxularaq ev sahibinin dəyəri 34 min manatdan artıq olan qiymətli əşyasını mənimsəmişlər.[12] Ermənilərin belə qarətçilik əməlləri kütləvi hal almışdı. Həmin əməllərin nəticəsində təkcə Bakının şəhər əhalisindən 400 milyon manatlıq daşqaş və əmlak qarət olunmuşdu.[13] Belə qəddarlıq və soyğunçuluq edən ermənilər həm də Azərbaycanın mədəni, siyasi mərkəzlərini də dağıtmağı qarşılarına məqsəd qoymuşdular. Ona görə də Müsəlman Xeyriyyə Cəmiyyəti, Xalq evi, «Baku», «Kaspi», «Açıq söz» qəzet və jurnallarının redaksiyaları dağıdılmış və həm də Bakının məscidləri bombalanmış, Təzə Pir məscidinin minarələri isə ciddi zədələr almışdı.

Martın30-da komissar Tatevos Əmiryan bir qrup daşnakla H.Z.Tağıyevin teatr binasını və İsmailiyyəni yandırmış, ağır və dəhşətli faciələr törətmişlər. Həmin faciənin 15 illiyi münasibətilə 1933-cü il aprel ayının 1-də Münhen

şəhərində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan «İstiqlal» qəzetində yazılmışdı: «1918-ci il 22 martda Bakının «İsmailiyyə» binasının möhtəşəm salonunda milli musiqi, tans, sevinc və gülüş qəhqəhələri şəraitində «Novruz» bayramı qarşılanmışdı. Bir həftə sonra 31 martda isə o tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatları ilə, kitabxana, qiraətxana Yetimlər yurdunun yerləşmiş olduğu bu qoca saray quru bir kabus halında matəm içərisində idi.[14]

Ataxan Paşayev haqlı olaraq yazmışdı: 31 martda tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və sair təşkilatların yerləşmiş olduğu bu qoca saray yandırılmışdı. Yandırılan bir tək «İsmailiyyə» deyildi. Türklərə məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatro binaları, məktəblər, xəstəxanalar, milli-mədəni müəssisələr yerlə-yeksan edilmişdi.[15]

Bunlarla bərabər «İsmailiyyə»də Anar İsgəndərovun yazdığı kimi Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi. Burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılırdı. Eyni zamanda müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. «Kaspi» qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə döndərilmişdi.[16] Belə bir şəraitdə daşnaklarla sıx əlaqədə olan Şaumyan «Zaqafqaziyanın gələcək inzibati-ərazi bölgüsü haqqında düşünərkən, ilk növbədə erməni xalqının gələcəyi, onun payına düşə biləcək torpaqlar barədə daha çox narahat olurdu». Təsadüfi deyil ki, Şaumyan Zaqafqaziyada inzibati bölgü yaratdıqda bu vahidlərin birinə «İrəvan quberniyasına Tiflis quberniyasının bir hissəsini, Qars və Yelizavetpol quberniyaları ərazilərini daxil etməyi yazmışdı.[17] Bu niyyəti pisləyən Lenin 1914-cü il iyul ayında Şaumyana yazdığı məktubda göstərirdi: «Rusiya marksistinə erməni dini nöqteyi-nəzərində durmaq eyib deyilmi?.. Siz «erməni»

korluğundan keçib purişkeviçlərin və onların millətçiliyinin əlaltısı olursunuz» .[18]

Deməli, Şaumyan açıq-açığına daşnakların Azərbaycana qarşı ərazi iddiasının tərəfdarı idi. Odur ki, Bakıda mart qırğınında daşnakların başçısı S.Lalayanı həbs etmək istəyən quberniya komissiyasının sədri Koksemyakoya Şaumyan icazə verməmişdi. S.M.Əfəndiyev yazmışdır ki, Şaumyan, Çaparidze və başqaları daşnakların əsirinə çevrilmişdilər.[19]

Deməli gələcək Ermənistanın yaradılması naminə azərbaycanlıları öz torpaqlarında kütləvi şəkildə qırmaq Şaumyan siyasətinin əsas prinsipi olmuşdu. Dəhşətli Bakı hadisələrinin canlı şahidi olmuş Mir Cəfər Pişəvəri yazmışdı: - «Mən 1918-ci il mart ayında daşnakların vəhşiliklərini, günahsız adamların, xüsusilə bitərəf insanların öldürülüb, karvansaralarda meyidlərinin yandırılmasını öz gözümlə görmüşəm. Bu çox faciəli və nifrətəlayiq bir hərəkət idi».[21]

N.Nərimanov mart hadisələri barədə sonralar yazmışdı ki, ermənilər hətta bolşevik olan müsəlmanları da öldürürdülər və deyirdilər: - «Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir» .[22]

1918-ci il martın 30, 31 və aprelin 1-də gecəli-gündüzlü azərbaycanlılar kütləvi şəkildə silahlı basqınlar zamanı amansızlıqla məhv edilmişdi. Onlara məxsus evlər, dükanlar qarət edilmiş, atəşə tutulmuşdu. Qadınlar saç-saça bağlanıb çılpaq gəzdirildikdən sonra öldürülmüşdülər. Mart qırğını Bakıda azərbaycanlılara qarşı «sinfi mübarizə», «vətəndaş müharibəsi» pərdəsi altında Şaumyanın rəhbərliyi ilə aparılan millət qırğını, soyqırım idi. «Qruziya» qəzeti 1918-ci il 25 noyabr sayında yazmışdı: «Erməni əsgərlərinin hamilə qadınların qarnını yırtaraq ana bətnində artıq formalaşmış uşağı çıxarıb onun başını kəsmələrinə bənzər vəhşilikləri daşnak «Aşxator» qəzetindəki fotoşəkillər də təsdiq etmişdir.[23]

Tarixi mənbələr, hətta bir sıra Qərb tarixçiləri də bu qırğının ermənilər tərəfindən həm müsavatçılara və həm də

əhaliyə qarşı çevrildiyini qeyd etmişlər. Məsələn, Amerika tarixçisi S.Süni (mənşəcə yarıerməni) yazmışdı: «Daşnaklar müsəlman məhəllələrini talan edir, yandırır, əhalini qırırdılar, hətta bolşevikpərəst əhval-ruhiyyəli müsəlmanları belə ağına-bozuna baxmadan qətlə yetirmişlər.[24]

Məşhur alimlərdən Riçard Paypsın fikrincə talanlarda ermənilərlə bərabər rus əsgərləri də iştirak etmişlər. Onlar hətta şəhərdən əlavə kəndlərə də basqın etmişlər. Müasir Qərb qafqazşünaslığının banisi hesab edilən F.Kazımzadə göstərmişdi ki, erməni daşnaklarının hücumları eyni dərəcədə həm Müsavatın hərbi bölmələrinə və həm də mülki əhaliyə qarşı yönəldilmişdir.[25] Çox sayda gənc qadınları diri-diri divara mıxlamışdılar.[26]

Kulna adlı bir xarici turist Bakıda gördüklərini belə deyir: Ancaq azərbaycanlılar yaşayan məhəllələrə hücum edən ermənilər adamları öldürür, qılıncla parçalayır, süngülərlə dəlik-deşik edir, evləri yandırır, uşaqları yanan evlərə atır, diri-diri yandırırdılar. Üç-dörd günlük südəmər uşaqları süngülərinə taxırdılar. Onlarda bir sözlə nə uşağa, nə qadına, nə qocaya və nə də gənc azərbaycanlıya rəhm etmək yox idi.[27] Erməni qəddarlığından, qətlə yetirilməkdən çox çətinliklə xilas olan azərbaycanlılar qaçqına çevrilmiş və bununla da onlar yeni bir faciə yaşamalı olmuşlar.

Ümummilli liderimiz H.Əliyev dediyi kimi mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğına məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.[28]

Tarixçi alim Ataxan Paşayev «Bakıda 1918-ci il mart faciəsi» adlı geniş məzmunlu elmi məqaləsində yazır ki, ermənilər öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq üryan bir halda küçələrdə qabaqlarına qatıb qovur və onları tüfəng qundağı ilə vururdular. Kimsəyə rəhm edilmirdi. Cocuqlara rəhm edilmədiyi kimi, heç kəsə aman yox idi.

Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası, 60-70 yaşında qadınlar öldürülmüş və 25 yaşında təzə gəlini diri-diri divara mıxlamışlar.[29]

Elşad Abdullayev yazmışdı ki, N.Nərimanov qırğının qarşısını almaq üçün işə qarışmalı olmuşdu. Martın 30-da saat 2-də öz evində müşavirə çağırmış və hətta müşavirəyə S.Şaumyanı da dəvət etmiş və hadisələrin qarşısını almaq üçün ona müraciət etmişdi. Şaumyan həmin müşavirədə hiyləgərcəsinə qırğının dayandırılmasına söz vermişdi. Bununla kifayətlənməyən N.Nərimanov hətta telefonla A.Çaparidzeyə zəng vurmuş və necə olursa-olsun qırğının dayandırılmasını ondan da xahiş etmişdi.[30] Ancaq N.Nərimanovun bu cəhdləri heç bir nəticə verməmiş və əksinə qırğının miqyasını daha da genişləndirmişdilər.

Bakının məşhur milyonçularından olan Şəmsi Əsədullayevin nəvəsi, sonralar Fransada yaşadığı illərdə bir yazıçı kimi böyük şöhrət qazanmış Ümbülbanu 1918-ci ilin mart hadisələrini belə xatırlayır: Bakı şəhərində siyasi canlanma gücləndi. Yaranmış müxtəlif siyasi təşkilatların fəaliyyəti nəticəsində ziddiyyət artdı, dağıntı və döyüşlər baş verdi. Sosialist təmayüllü bir erməni təşkilatı ölkəni kommunist dağıntısından qurtarmaq adı ilə hərbi diktatura quruluşu yaratdı. Onlar müsəlmanları qırmağa başladılar.[31]

İnsanları sarsıdan və dəhşətə gətirən amillərdən biri də o idi ki, mart faciəsində Bakıda xeyli sayda qətlə yetirilən azərbaycanlıların meyidinin tapılmaması idi. Ana, bacı və yaxın qohumlar üçün bu hal daha ağır olmuş və insanların fəryadı bütün küçələri bürüyərək kədər üzərinə yeni kədər gətirmişdi. Bununla da Şaumyanın rəhbərliyi altında təpədən-dırnağadək silahlanmış ermənilər silahsız azərbaycanlılara qarşı soyqırım törətməklə milləti öz doğma yurdlarında yox etməyə çalışmışlar. Şaumyan başda olmaqla daşnakların törətdikləri mart soyqırım hadisələri həm də ciddi siyasi nəticələrə səbəb olmuşdu. Həmin siyasi nəticələr ondan ibarət olmuşdur ki, əvvəla hadisənin gedişində Şaumyanın

azərbaycanlılara qarşı olan düşmənçilik siyasəti açıq şəkildə özünü göstərmişdi. Digər tərəfdən də Azərbaycan milli demokratiyasının yenidən qurulacaq Rusiyanın tərkibində muxtariyyət əldə edilməsinin mümkünlüyü fikrini dəf etmiş, həm də Azərbaycanda Sovetlər ideyasına ciddi zərbə vurmuşdu.

Hətta bu vəziyyət N.Nərimanovun 1918-ci il aprelin 3-də Şaumyana və Çaparidzeyə göndərdiyi məktubda da səslənmişdi. O, yazmışdı: Bu hadisələr Şura hökumətinə ləkə salıb, onu qara örtüklə bürüyübdür və əgər siz tezliklə həmin qara örtüyü cırıb bu ləkəni təmizləməsəniz bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir. Mübarizə ilk əvvəl siyasi xarakter daşısa da, sonra milli qırğın xarakteri almağa başlamışdı. N.Nərimanov qətiyyətlə bildirmişdi ki, əgər Şura hakimiyyəti qaranlıq qüvvələri üzə çıxarmasa, mən və mənim ideya dostlarım hökumətdən gedəcəyik.

Bununla bərabər N.Nərimanov təklif etmişdi ki, Azərbaycan əhalisinin qırğınına səbəb olan bir təşkilat kimi erməni milli komitəsini buraxmaq və eləcə də həmin komitənin tabeliyində olan milli ordunu ya çıxartmaq və yaxud Sovet hökumətinin tabeliyinə vermək lazımdır. Hansı ki, bu qüvvələr (5 minə yaxın döyüşçü) Azərbaycan əhalisinə yaxşı məlum olan daşnak banditi Amazaspın (A.Mikoyanın keçmiş komandiri) komandanlığı altında olmuşdu.[32]

Bu vəziyyətlə əlaqədar olaraq N.Nərimanov V.İ.Leninə yazdığı məktubda açıq şəkildə qeyd etmişdi ki, Bakıda və onun rayonlarında vətəndaş müharibəsi bizim ümumi müqəddəs işimizə ölümcül zərbə vurmuşdu.[33]

1918-ci ilin mart hadisələri həqiqətən də xalqın haqlı olaraq böyük narazılığına və qəzəbinə səbəb olmuşdu. Bu vəziyyəti, hətta daşnakların qatı millətçi siyasətini xüsusi hiyləgərliklə yeritməkdə və müdafiə etməkdə heç də Şaumyandan geri qalmayan Mikoyan 1922-ci ildə Azərbaycan K(b)P-nın V qurultayında etdiyi çıxışında etiraf edərək bildirmişdi ki, mart hadisələrinin bir nəticəsi də azərbaycanlı

zəhmətkeş kütlələrin Sovet hakimiyyətindən daha da uzaqlaşmasından ibarət olması idi.[34]

1918-ci ilin mart faciəsini başdan-başa siyasi-milli amil kimi səciyyələndirən M.Ə.Rəsulzadə faciənin ildönümü münasibətilə yazmışdı: Şaumyan və onun icraçılarının Bakıda törətdikləri hadisələr Moskva və Petroqrad hərəkətlərinə qəti surətdə oxşamırdı. Göstərilən yerlərdə sinfi bir hərb, burada isə sinfi hərb adı ilə milli qətl icra edilmişdi. Daşnaklar intiqam alırdılar. Martın 18-dən 20-ə qədər Bakı türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyət və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi.[35]

Bakıda mart hadisələri zamanı dinc, silahsız azərbaycanlılara qarşı dəhşətli soyqırım həyata keçirildikdən sonra şəhərdə vəziyyət xeyli dərəcədə dəyişmişdi. Şəhərin demək olar ki, azərbaycanlı əhalisi baş vermiş olduqca faciəli və kütləvi qırğının təsirindən müxtəlif yerlərə qaçmış, bununla da onların sayının şəhərdə müəyyən miqdarda azalması baş vermişdi. Bu səbəbdən də ermənilər mart hadisələrindən sentyabr ayına qədər olan müddətdə şəhərin idarə olunmasında həlledici qüvvə kimi hərəkət etmişlər. Belə bir şəraitdən istifadə edən Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarlığı Soveti ermənilərə daha çox arxalanmışdı. Buna görə də mart soyqırımında xüsusi rol oynamış hərbi hissələri aprelin axırlarında beynəlmiləl hissələr adı altında qırmızı qvardiyaya daxil edilməsi haqqında hətta qərar qəbul olunmuşdu. Bununla da mayın axırlarına qədər Bakıda Sovet ordusunun ermənileşdirilməsi işi də başa çatdırılmışdı. Mayın 22-də Q.Korqanov Moskvaya XKS-nə verdiyi məlumatda bildirmişdi ki, «Kommuna ordusunun sayı 18 min nəfərdir. Əsgərlərin böyük hissəsi, 13 minə qədəri, zabitlərin isə demək olar ki, hamısı ermənilərdir» .[36]

Ordunun ermənileşdirilməsi də gələcək münaqişələrdə üstünlüyü saxlamaq üçün əvvəlcədən hazırlanmış mürtəce siyasətin bir hissəsi idi.

Çox təəssüflər ki, uzun illər tarixşünaslığımızda «vətəndaş müharibəsi», «müsavatçıların əksinqilabi qiyamı» kimi saxtalaşdırılaraq bizə çatdırılan mart hadisələri əslində daşnaklar tərəfindən sinfi-siyasi mübarizə pərdəsi altında həyata keçirilən milli qırğın idi. Bu qırğının təşkilatçısı Şaumyan hətta özü RSFSR XKS-ə 13 aprel 1918-ci il tarixli məktubunda etiraf edərək yazmışdı: Bizim süvari dəstəyə edilən silahlı hücumdan biz bir bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik… biz artıq 6 min nəfərlik silahlı qüvvəyə malik idik. Daşnakların da 3-4 min nəfərlik silahlı milli hissələri vardı ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik. Əgər azərbaycanlılar üstün gəlsəydilər, onda Bakı Azərbaycanın paytaxtı elan edilə bilərdi.[37]

Belə bir fikrin ifadə edilməsi bir daha onu təsdiq edir ki, 1918-ci ilin mart ayından başlayaraq Şaumyanın rəhbərliyi altında Bakı Kommunası əksinqilabçı ünsürlərə qarşı mübarizə pərdəsi altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək kimi olduqca mənfur və olduqca təhlükəli planı həyata keçirməyə başlamışdı. Şaumyanın qarşısına qoyduğu qatı düşmənçilik məqsədi mart qırğınında özünü tam aydınlığı ilə büruzə vermişdi.

Bakı faciəsinə toxunan Azərbaycan Prezidenti 26 mart (1998-ci ildə) tarixli fərmanında yazmışdı: «1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilmişdi. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər» .[38]

Beləliklə, mart hadisələri zamanı 17 min nəfərədək azərbaycanlı xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, şəhər əhalisinin mülkü dağıdılaraq onlardan 400 milyon manatlıq əmlak oğurlanmışdır.[39] Həmin hadisələrdə A.Mikoyan T.Əmirovla birlikdə Bakıdan 20 milyon qızıl pul oğurlayıb aparmışlar.[40]

Bununla da mart hadisələrində azərbaycanlılara qarşı olduqca ağır, dəhşətli genosid – soyqırım siyasəti tətbiq edilmiş, unudulması qeyri-mümkün olan kütləvi insan qırğını törədilmişdi. 1918-ci ilin mart faciəsindən sonrakı aylarda da – Bakı 1918-ci ilin sentyabrın 15-ə qədər azərbaycanlı və türk hərbi qüvvələri tərəfindən azad edilənə qədər də ermənilər şəhərin küçələrində və ətraf kəndlərə gedən yollarda da azərbaycanlılara qarşı soyqırım siyasətini davam etdirmiş, meyidləri quyulara, dənizə, od-alov içində yanan evlərə atmış, bununla da öz cinayətlərinin izini itirmək istəmişlər.

Bakıdakı mart hadisəsindən sonra Şaumyanın növbəti təcavüzü Gəncə oldu. Onun qüvvələri Qarabağ ermənilərı ilə birləşərək Gəncəyə qarşı böyük təhlükə yaratdılar. Lakin o burada məqsədinə tam nail ola bilmədi. Gəncədə Nəsib bəy Yusifbəylinin böyük səyi nəticəsində 118-119-cu rus alayları tərksilah olunaraq şəhərdən qovulduğu üçün və eləcə də Şəmkirdəki rus ordusundan ələ keçirilən silahlar vaxtında gəncəlilərə paylandığına görə ermənilər bura hücuma cəsarət etmədilər.[41] Məhz belə bir şəraitdə Azərbaycan Milli Şurası tərəfindən Tiflisdə 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalı elan oldu. Ancaq Şaumyan Azərbaycanın qəzalarında Sovet hakimiyyətinin qurulmasına kömək etmək pərdəsi altında azərbaycanlıların kütləvi qırğınlarını təşkil etmək siyasətini davam etdirmişdir. Məsələn, 1918-ci ilin əvvəllərində Şaumyan Tiflisə gedərkən Şamxor rayonunun Çardaqlı kəndində olmuş və Aşot Babacanyanın köməyi ilə guya bolşevik təşkilatı yaratmaq bəhanəsi ilə daşnak ünsürləri ilə əlaqə yaratmışdı.[42]

Deməli Şaumyanın mart faciəsini təşkil etməkdə əsas məqsədi Azərbaycanın ərazi bütövlüyünə toxunmaq və onu parçalamaq idi. Buna görə də Bakı şəhərində törədilən qətllərdən, talanlardan sonra Şaumyanın planı Şamaxıda, Qubada, Qarabağda və digər yerlərdə qırğınlar törətmək idi. Şamaxı qəzasında ermənilərin həyata keçirdikləri soyqırım Bakıda olan mart qırğınından heç də az faciəli olmamışdır. Demək olar ki, Şamaxı qırğını Bakı faciəsinin davamı olmuşdu.

Şamaxıda ermənilərin azərbaycanlılara qarşı düşmənçilik mövqeyi və hərəkətləri hələ I Dünya müharibəsi başlandığı dövrdən özünü göstərmişdi. 1905-ci il hadisələrindən fərqli olaraq 1917-ci il fevral inqilabından sonra ermənilər Şamaxıda bir qədər də fəallaşmışlar. Şamaxıda və onun ermənilər yaşayan kəndlərində ermənilərin silahlandırılması çox ustalıqla təmin edilmişdi. Babaxan Niyazlının yazdığına görə mülkədar Lələyevin, baqqal Petrosyanın, dəllək Omansenin və başqa ermənilərin zirzəmiləri böyük bir silah arsenalına çevrilmişdir.

Şamaxının təxminən 4-5 km-də olan Mədrəsə, Zarxı, Xilmilli kimi malakan kəndlərində ot tayalarının altında toplar gizlədilmişdi.[43] Bundan əlavə Şamaxı qəza rəisinin keçmiş köməkçisi Qaraoğlanov, poçt rəisi Gülbəndov, keçmiş pristav Xaçanov, qəza icraiyyə komitəsinin üzvü Saturyan, ərzaq komitəsinin sədri və başqaları gizli olaraq yerli əhaliyə qarşı olduqca təhlükəli olan plan da hazırlamışdılar.[44] Şəhərin azərbaycanlı əhalisi hazırlanan təhlükəni hiss etmiş və bu haqda dəfələrlə hökumət orqanlarına bildirsələr də, onları şayiə yaymamağa dəvət edərək, heç bir lazımi tədbir görməmişlər. Hətta 1918-ci il martın əvvəllərində erməni din xadimi Baqrat və malakan din xadimi Karabanov azərbaycanlılar qarşısında çıxış etmiş, xaça və «İncil»ə əl basaraq onlara qarşı çıxmayacaqlarına and içərək azərbaycanlıları arxayınlaşdırmışlar. Belə təhlükəli şəraitdə Mədrəsə kəndinə gizli olaraq müxtəlif qəzalardan erməni əsgərləri toplaşmağa başlamışlar. Həmçinin də martın əvvəllərində

Bakıdan Şamaxıya top, pulemyotlarla yaxşı silahlanmış erməni hərbi dəstəsinin gəlməsi təmin edilmişdi.

Həmin dəstənin qabağına azərbaycanlı və ermənilərdən ibarət nümayəndə heyəti göndərilmiş və dəstəyə silahları təhvil vermək təklif olunmuşdu. Ancaq silahı təhvil verməkdən imtina edən dəstə rəhbərləri Şamaxıda quldur dəstələri ləğv etmək, anarxiyaya son qoymaq məqsədilə gəldiklərini bildirmiş və Şamaxıdan yan keçərək Mədrəsə kəndinə gedəcəklərini bəyan etmişlər.

Ataxan Paşayev yazmışdı ki, martın 15-də həmin dəstə Şamaxının yanından keçərkən şəhərin kənarında öz evlərini qoruyan azərbaycanlılar dəstənin şəhərə hücum etdiyini güman edib atəş açmışlar. Dəstə də cavab atəşi açmış və bununla da atışma şəhəri bürümüş və hər iki tərəfdən tələfat olmuşdu. Elə həmin gün Şamaxının bütün əhalisi bir yerə toplaşıb and içmişlər ki, onlar dinc, əmin-amanlıq şəraitində yaşayacaq və heç bir qanun pozğunluğuna yol verməyəcək.

Ancaq azərbaycanlıların düşündükləri əmin-amanlıq çox çəkməmişdi. Şamaxıya divan tutmaq planını həyata keçirmək məqsədi ilə Şaumyan özünün sadiq cəlladlarından olan Lalayevin və Tatevos Əmirovun komandanlığı altında böyük bir dəstə yaratmışdı. Şəhərdə törədiləcək faciənin hazırlanması ilə isə Babaxan Niyazxlının yazdığına görə Qavril Qaraoğlanov, Arşak Gülbəndov və başqalarından ibarət bir qrup erməni məşğul olmuşdu. Onların hazırladığı silahlı erməni və malakan dəstələri Bakıdan göndəriləcək T.Əmirovun dəstəsinə qoşulmalı və birlikdə azərbaycanlılara qarşı vuruşmalı idilər. Tarixi mənbələr təsdiq edir ki, belə də olmuşdu. T.Əmirovun dəstəsi Şamaxıya doğru hərəkət edən vaxt yol boyu Novxanlı, Ağdərə, Qarxunlu və digər kəndləri qarət etmiş, kənd sakinlərini isə qətlə yetirmiş və şəhərə yaxınlaşmışlar.

1918-ci il mart ayının 18-də səhərə yaxın şəhərin əhalisi top, tüfəng səslərinə oyanmışdı. Şamaxı çıxılmaz vəziyyətə salınmışdı. Şəhər silahlı erməni və malakanlar tərəfindən

mühasirəyə alınmaqla silahsız dinc azərbaycanlıların məhv və qarət olunmasına başlanılmışdı. Şəhər əhalisinin faciədən xilas olması üçün ancaq Şamaxının cənub hissəsindən çox məhdud bir yer qalmışdı. Din xadimlərinin xaç və «İncil» qarşısında «azərbaycanlılara toxunulmayacaqdır» andı sadəcə olaraq azərbaycanlıları arxayınlaşdırmaq olmuş və möhkəm silahlanmış düşmən xüsusi amansızlıqla onları qətlə yetirmişlər. Dəhşətli faciəyə məruz qalan dinc əhali yarıçılpaq vəziyyətdə şəhərin aşağı hissəsinə qaçaraq burada birbirinə qarışmışlar. Qışqıran kim, övladını axtaran ana, anasını axtarıb qışqıran və ağlayan uşaqların naləsi hər tərəfə yayılmışdı. Qəfil hücumdan vahimələnən, dəhşətli bir şəraitdə hər tərəfə qaçan saysız-hesabsız insanların çoxu Sərdar və Hacı Xəlil bağına pənah gətirmiş və oradan da Pirsaat, Sellixana çaylarının sahili ilə cənuba tərəf qaçmışlar. Ermənilər Şamaxıya od vurmuş, azərbaycanlıların yaşadıqları mülklərin, dükanların, məscidlərin alovu, tüstüsü hər yeri bürümüşdü. Bu işdə şəhərin yuxarı hissəsində yaşayan və şəhərə yaxşı bələd olan erməni və malakan talançıları daşnak quldurları ilə birlikdə azərbaycanlıların yaşadığı ərazilərə gələrək evləri, mülkləri qarət edib yandırmaqda fəal iştirak etmişlər. Ələ keçən şəhər əhalisi küçələrdə dəhşətli əzablarla qətlə yetirilmişlər. Cəsədləri tanınmaz hala salınmış, döşləri kəsilmiş, qarınları yırtılmış qadın meyidləri, diri-diri yerə mıxlanmış uşaq meyidləri və s. ilə müşahidə olunan erməni vəhşiliyi bir neçə gün davam etmişdi.

Ancaq Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxıya köməyə gəlməsindən sonra qorxuya düşən ermənilər və malakanlar Qozluçay malakan kəndinə çəkilmişlər. Lakin Gəncədən olan silahlı dəstələr Şamaxını tərk etdikdən bir neçə gün sonra düşmən qüvvələr – erməni və malakanlar ikinci dəfə şəhərə daxil olmuşlar. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə qarşı edilən qəddarlıq əvvəlkindən də qatqat ağır olmuşdu. Ermənilər tərəfindən vəhşiliklə qətlə yetirilənlərdən biri də axund Hacı Cəfərqulu olmuşdu. Erməni

vəhşiləri əvvəlcə onun saqqalını yolmuş, gözlərini çıxartmış, dişlərini sındırmış, burun və qulaqlarını kəsmişlər. Erməni təhlükəsindən qorunmaq üçün axundun evinə pənah gətirmiş qadın və uşaqlara da güzəşt edilməmiş, onlar da öldürülmüş və axundun evi isə yandırılmışdı. Bununla da ermənilər şəhərin ən adlı-sanlı mötəbər insanlarına belə aman verməmiş və onları qətlə yetirmişlər.

Erməni caniləri tərəfindən xüsusi amansızlıqla qətlə yetirilənlərdən Hacıbaba Abbasovu, Məmməd Əliyevi, Hacı Əbdül Xəlil Əhmədovu, Hacı İsrafil Məmmədovu, Hacı İbrahim Salamovu, Hacı Əbdülqasım Qasımovu, Ələkbər Qədirbəyovu, Zirəddin Abdullayevi[45] və bir çox digərlərini göstərmək olar. Bu göstərilənlərlə bərabər erməni vəhşiləri Hacı Molla Həsən Zeynalovu və həyat yoldaşını, Mahmud Hacıağa oğlunu, həyat yoldaşını və oğlunu, Zeynəb xanım Veysovanı amansızlıqla qətlə yetirmiş və uzun illər Lahıc qəsəbəsində müəllimlik etmiş, böyük ehtiram və hörmətə malik görkəmli maarifçi Bədəlbəy Yolçuyevi dar ağacından asmışdılar.[46]

Qocaya, qadına, uşağa baxmadan azərbaycanlıları qətlə yetirməkdən və evləri, mülkləri qarət etməkdən kifayətlənməyən erməni caniləri Şamaxının varlılara məxsus böyük və yaxşı tikilmiş evlərinin tamamilə yandırılıb külə döndərilməsində də çox fəal və amansız olmuşlar. Bu haqda «Şirvan» qəzetinin 1992-ci il nömrələrindən birində yazılmışdı ki, şəhərin varlılarından olan Cəbrayılovun, Həsənovun, Əfəndiyevin, Babayevin, Məhərrəmovun, Böyük bəy Hüseynovun, Şıxıyevin və digərlərinin malikanələri yandırılmışdı.[47] Bir sözlə azərbaycanlıların yaşadıqları bütün ərazilər yandırılmış və Şamaxı şəhəri xarabazara, viranəyə çevrilmişdi.

Şəhərdə bütün tarixi-mədəni abidələr məhv edilmiş, 13 məhəllə məscidi, 800 ildən artıq tarixi olan məşhur Cümə məscidi və digər müqəddəs yerlər hamısı yandırılmışdı və dağıdılmışdır. Mart qırğınında şəhərlə bərabər qəzanın 58 kəndi ermənilər tərəfindən qarət edilib dağıdılmışdı. Erməni cəlladları Şamaxıdan təxminən 22 km cənubda yer-

ləşən Birinci Çaylı kəndində də az faciələr törətməmişlər. Ermənilər həmin kəndin 8 azərbaycanlı sakinini ağacdan asaraq onların bədənlərini xəncərlə deşik-deşik edəndən sonra güllələmişdilər.[48] Erməni vəhşiləri həmin kəndin əksəriyyəti qoca və qadın olan 40 nəfər sakinini əsir aparmış və onlardan bir neçə nəfərini, o cümlədən 70 yaşlı Molla Mürsəl Hacı Adıgözəl oğlunu güllələmişdilər.

Ermənilərin belə vəhşiliklərindən bəhs edən «Azərbaycan» qəzeti 21 oktyabr 1918-ci il tarixli sayında Şamaxı hadisələri və Lalayev başda olmaqla ermənilərin dinc əhaliyə qarşı törətdiyi vəhşiliyin olduqca dəhşətli və qəddar olması, azərbaycanlıları kütləvi halda qətlə yetirmək hərəkətləri, qızların təhqir olunması, hamilə qadınların qarnının cırılması, qocaların, qadınların və uşaqların məscidlərə doldurulub diri-diri yandırılması və s. öz əksini tapmışdı.

Ermənilər Nəvahi, Yəhyalı, Kalva, Tircan, Bağırlı və digər kəndlərdə də ağır faciələr törətmişlər. Nəvahi kəndində qadın, kişi və uşaq olmaqla 995 nəfər, Yəhyalı kəndində 922 nəfər, Qubalı Baloğlan kəndində 533 nəfər, Kalva kəndində 500 nəfər, Tircan kəndində 360 nəfər, Bağırlı kəndində 370 nəfər azərbaycanlı xüsusi qəddarlıqla məhv edilmişdi. Əngəxaran kəndində isə 237 nəfər kənd sakini ağır işgəncələrlə qətlə yetirilmişdi. Ermənilər həmin kəndin uşaqlarını Məlhəmə kəndinə aparmış, 88 nəfər kişini isə Çuxuryurda çatmamış bir neçəsini güllələmişlər. Mədrəsə kəndinə gə-tirilən 74 nəfər azərbaycanlı isə elə oradaca qətlə yetirilMişdi.[49] Şamaxı qəzasının 53 kəndində erməni cəlladları 8 mindən artıq azərbaycanlını məhv etmişlər. Onlardan da 4 mindən artığı kişi, 2 mindən artığı qadın və min nəfərdən artığı uşaqlar olmuşdu.[50]

Azğınlaşmış ermənilər azərbaycanlıları amansızlıqla qətlə yetirməklə kifayətlənməmiş və sərvət toplamaq naminə qarətçilikdən də istifadə etmişlər. Belə ki, onlar ev əşyalarını qarət etməklə bərabər, həm də qadınların, qızların ziynət əşyalarını, habelə azərbaycanlılara məxsus dükanların malları-

nı acgözlüklə qarət etmişlər. Onlar həmçinin də kəndlərdən çoxlu miqdarda mal-qara, qoyun-keçi, öküz və at toplayıb aparmışlar. Belə talanlar nəticəsində Şamaxının Nəvahi kəndinə 60 milyon manat, Yəhyalı kəndinə 22 milyon manat, Qubalı Baloğlan kəndinə 90 milyon manata yaxın, Kalva kəndinə 24 milyon manat, Ağsu kəndinə 36,5 milyon manat, Tircan kəndinə 21 milyon manat ziyan vurulmuşdu.[51] Bununla da Şamaxının azərbaycanlı əhalisinə dəyən maddi zərər o vaxtkı qiymətlə bir milyard manatdan çox olmuşdu.[52] Şübhəsiz, indiki pulla həmin məbləğ bir neçə yüz milyard manata bərabər olmuşdur.

Beləliklə, erməni cəlladlarının əli ilə təxminən 10 minə yaxın azərbaycanlı qanına qəltan edilmişdi. Ermənilər tərəfindən törədilən amansız faciə və təzyiqin nəticəsində 1918-ci ildə Şamaxıda yaşayan əhalinin sayı 15 mindən, 1921-ci ildə həmin rəqəm 1700-ə enmişdi.[53]

Öz vəhşiliklərini davam etdirən ermənilər Göyçay qəzasının Kürdəmir kəndində 56 evi və dükanı, iki məscidi, 127 malikanəni yandırmış və yerli İmamın mənzilini talan etmişlər.[54] Dəhşətli faciələr həmçinin Göyçay qəzasının Cəngi, Qarabucaq, Qaravəlli, Ərəb-Mehdibəyli və başqa kəndlərində də törədilmişdi. Şübhəsiz, həmin illərdə erməni quldurları tərəfindən azərbaycanlı əhalinin kütləvi surətdə məhv edilməsi əsl genosid, soyqırım olmuşdu. Şaumyan azərbaycanlılara qarşı törətdiyi qanlı faciələrdə Saakyan, Arakelyan, Nuricanyan, daşnak ordusunun zabitləri Avetisov, Kazarov, Amazasp və başqalarının qüvvələrindən də istifadə etmişdi.[55]

Şaumyanın azərbaycanlılara qarşı apardığı qatı millətçilik, soyqırım siyasəti ermənilər tərəfindən Quba qəzasında da xüsusi qəddarlıqla davam etdirilmişdi. Şamaxı hadisələrində olduğu kimi, Quba qəzasında da törədiləcək faciələr haqqında ermənilər əvvəlcədən düşünülmüş plan əsasında xüsusi hazırlıq işləri aparmışdılar. Gələcəkdə öz çirkin əməllərinə haqq qazandırmaq üçün, əvvəlcədən hazırlanmış ssenariyə uyğun olaraq erməni millətçiləri dünyanın müxtəlif

yerlərinə saxta teleqramlar vuraraq bildirmişlər ki, guya ermənilər müsəlmanlar tərəfindən sıxışdırılırlar. Həmin dövrdə Qubada yaşayan A.Boqdanov, H.Hayrapetov, M.Kasparov və başqaları göndərdikləri əsassız teleqramlarında göstərmişlər ki, guya Qubada müsəlmanlar milli ədavəti qızışdıraraq qırğın törədir, rus və erməni kəndlərini dağıdır, kilsələrə isə od vurub yandırırlar. Belə saxta və yanlış teleqramlarla özlərinə bəraət qazandıran ermənilər Qubada az faciələr törətməmişlər.

David Gelovani və Struanın başçılıq etdikləri dəstələrdən əvvəl Muradyanın rəhbərlik etdiyi 2 min erməni döyüşçüsü Quba qəzasında ağır qırğın törətmişdir.[56] Belə bir vəziyyətlə əlaqədar olaraq vaxtilə Türkiyədə təhsil almış Qusar rayonunun Kuzun kəndinin sakini, böyük hörmətə malik din xadimi Möhübəli Əfəndi, həmçinin də Cağar kəndinin sakini Hətəm Sərkarov yerli əhalini erməni qüvvələrinə qarşı mübarizəyə səfərbər etmişlər. Onlara həm də Dağıstan ləzgiləri köməklik etmiş və nəticədə ermənilər darmadağın edilmişdi. Muradyan 100 nəfər döyüşçüsü ilə qaçmış, əsir düşənlər olmuşdu. 200-ə yaxın erməni Möhübəli Əfəndinin göstərişi ilə Quba həbsxanasına salınmışdı.[57] Ancaq az sonra Qubaya gələn D.Gelovani həbsxanada olan 200-ə qədər erməni əsirini azad etdirmişdi. Lakin onun Qubada meydan oxuması da çox çəkməmişdir. Belə ki, 1918-ci ildə Şaumyanın təkidi ilə Qubaya göndərildikdən bir neçə gün sonra David Gelovani əhali tərəfindən qovulmuşdu. Bundan bir məqam kimi istifadə edən Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti növbəti dəfə daşnak Amazaspın başçılığı altında Quba qəzasına əksəriyyəti ermənilərdən ibarət olan hərbi hissə göndərmişdi. Həmin dəstə Quba və onun kəndlərində görünməmiş vəhşiliklər törətmişdilər. 4 top, 8 pulemyotla və hərbiçilərlə[58] təchiz olunan Amazasp Qubaya daxil olar-olmaz açıq şəkildə bildirmişdi ki, mən erməni xalqının qəhrəmanıyam və onun mənafeyini müdafiə edirəm. Mən hərbi hissə ilə bura gəlmişəm ki, iki həftə bundan qabaq öldürülmüş üç

ermənin intiqamını alam. Bunun üçün Xəzər sahilindən başlamış Şahdağa qədər olan yerdə bütün azərbaycanlıları qırıb mənzillərini dağıdacağam.[59]

Belə bir vəhşilik iddiasında olan Amazasp öz dəstəsi ilə Qubaya girən andan şəhəri yandırmağa başlamışdı. Onlar qarşılarına çıxan bütün insanları amansızlıqla qətlə yetirmişlər. Öz insanlıq mənəviyyatını itirən Amazasp Quba əhalisini meydana yığdırıb demişdi: mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. Uzun müddət erməni xalqının mənafeyini müdafiə edərək 200-dən çox türk kəndini yandırıb viran qoymuşam. Bura da o məqsədlə gəlmişəm. Əgər müqavimət göstərsəniz, o halda hamınızı bir nəfərə kimi qıracağam.[60] Belə şəraitdə Qubada bir yerli erməni Harun Hayrapetov Amazaspa bələdçilik etmiş və hətta cibindən bir vərəq çıxardıb Amazaspa oxumuşdu. Burada 26 nəfər varlı qubalının adını eşidən Amazasp həmin adamların dalınca silahlı dəstə göndərmişdi. Həmin varlı ailələrdən cəmi 6 nəfərin gətirildiyini görən Amazasp bundan çox qəzəblənmiş və gətirilənlərdən 2 nəfər gəncin başını kəsdirmiş, 4 nəfər qadını isə öldürülmüş uşaqlarının qanını içməyə məcbur etmişdir.[61] Qadınlar buna dözməyib canilərin üstünə atılanda qarınları süngülərlə deşilmiş və sonra qılıncla onları iki yerə bölüb amansızlıqla məhv etmişlər. Ermənilər insanları qətlə yetirməklə bərabər digər alçaqlığa da əl atmışlar. Onlar 50-dən artıq qadını harasa aparmaq istəyərkən birinin qardaşı onlara etirazını bildirdiyinə görə həmin an onu güllələyib gözlərini çıxardıb əhalinin üzərinə atmışlar. Bunlardan əlavə qatı düşmən Şaumyandan Quba qəzasının bütün müsəlmanlarını məhv etmək və sonra həmin qırğını sünni və şiə toqquşması kimi qələmə vermək tapşırığı alan Amazasp Anar İsgəndərovun yazdığına görə əhalinin yaxşı tanıdığı Quba ermənisi Haruna bildirmişdi ki, sünnilər və şiələr qarşı-qarşıya dayansınlar. Harunun göstərişi ilə erməni caniləri ləzgi Məhəmmədə və şiələrin ağsaqqalı Məşədi Mirsadığa silah verərək bir-birilərinə atəş açmalarını təkid etmişlər.

Ancaq Məhəmməd gözlənilmədən cəld geri dönüb bir ermə-niyə atəş açmışdı. Belə bir qarışıqlıqdan istifadə edən Məşə-di Mirsadıq da bir ermənini öldürmüşdü. Bunun müqabi-lində erməni vəhşiləri çoxu qadın və uşaqlardan ibarət olan yüzlərlə insanları pulemyotlarla məhv etmişlər. Ləzgi Mə-həmmədə daha ağır işgəncələr verən daşnaklar əvvəlcə onun qollarını, sonra ayaqlarını və başını kəsmişlər. Məşədi Mirsa-dığın isə gözlərini çıxartmış, qollarını və boynunu qırmışlar.[62]

Bunlarla kifayətlənməyən daşnak caniləri məscidi da-ğıtmış və 20-dən çox günahsız din xadimini qətlə yetirmiş-lər.[63] Dəhşətli vəhşiliklərini davam etdirən ermənilər Kərbə-layi Məhəmmədin 14 ailə üzvünün hamısını məhv etmişlər. Məmmədrəsul Mahmud oğlunun gözü qarşısında 3 körpə uşağının və həyat yoldaşının başını kəsmişlər. Kişinin isə qarnını süngi ilə deşik-deşik edərək çox ağır işgəncə ilə öldürmüşlər. Hacı Dadaşbalanı, arvadını və oğlunu öz evlə-rində diri-diri yandırmışlar. Kərbəlayi Abuzərin iki körpə qızını xəncərlə doğramışlar.[64] Ermənilər insanlıqdan kənar vəhşiliklərini davam etdirərək Məhəmməd Rəsul oğlunun 5 nəfər ailəsinin, Kərbəlayi Məmməd Tağı oğlunun isə 14 nəfərdən ibarət ailəsinin başlarını kəsmişlər. Hacı Dadaş-bala Qasım oğlunun arvadı Bibixanımı və oğlu Əbdül Qası-mı diri-diri yandırmışlar. Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun arvadını və beş körpə uşağını aman-sızcasına parçalamışlar.[65]

Xəqani Məmmədovun və Nuru Məmmədovun yazdı-ğına görə hər cürə vəhşilik və talanlarla yanaşı, ermənilər ən alçaq və rəzil hərəkətlərə də əl atmaqdan çəkinməmişlər. Be-lə ki, şərəfsiz ermənilər şəhərin hörmətli ağsaqqallarına əmr etmişdilər ki, onlara əylənmək üçün müsəlman qadın və qızları gətirsinlər. Belə bir şərəfsizliklə qəti şəkildə razılaş-madıqlarına görə Əlipaşa Kərbəlayi Məhərrəm oğlu və onun oğlu həmin anda vəhşiliklə qətlə yetirilmişlər.[66] Ermə-nilərin bu şərəfsiz hərəkətlərinə etirazlara baxmayaraq onlar 100-ə qədər qızı zorlamışlar.[67] Beləliklə, insanlığa xas olma-

yan xüsusi amansızlıqla öldürülənlər saysız-hesabsız miqdarda çox olmuşdu. Qubadan Qusara gedən yolun solunda olan dərələrdən birini əhali haqlı olaraq «Qanlı dərə» adlandırırlar. Belə vəhşiliyə malik olan ermənilər Quba qəzasında 122 kəndi, 26 məscidi viran qoymuş və 16 min dinc əhalini məhv etmişlər.[68]

Erməni vəhşiləri Şamaxıda olduğu kimi Qubada da insanları qətlə yetirmək, kəndləri dağıtmaqla kifayətlənməmiş və həm də qarət, talan etmək xarakterlərini də nümayiş etdirmişlər. Belə ki, Amazasp Qubadan 4 milyon manat pul, 4 milyon yarım manatlıq ziynət əşyaları və 25 milyon manatlıq ərzaq məhsulları qarət edib aparmışdı.[69] Hətta bu yaxınlarda Quba şəhərinin stadionunun ərazisində tapılmış çoxsaylı insan skletlərinin (müxtəlif bədən üzvlərindən ibarət sümüklərin) qalıqlarının tapılması da 1918-ci ilin mart-aprel aylarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri bir daha təsdiqləyir.

Ermənilərin qaniçici quldur dəstələri Bakı, Şamaxı, Quba, Göyçayla bərabər Salyan, Lənkəran, Qarabağ və başqa yerlərdə də qanlı cinayətlər törətmişlər. Erməni quldur dəstələri silahsız insanları – qocaları, qadınları və uşaqları qırmaq vəhşiliklərini Salyanda da təkrar etmişlər. Onlar yerli əhaliyə qarşı törətdikləri cinayətləri ilə azərbaycanlıların burada kökünü kəsməyə çalışmışdılar. Belə məqsədlə hərəkət edən erməni-daşnak qüvvələri Seyidlər, Bankə, Uzunbabalı, Tatar, Qaralı, Qarabucaq, Surra, Çəndən və digər yerlərdə yerli əhaliyə divan tutmuşlar.[70]

Erməni vəhşiliyi Lənkərandan da yan keçməmişdir. Burada da qadınlara, uşaqlara belə rəhm edilməmişdir. Qaynar samovarı insanların belinə bağlayaraq, onları yerimməyə məcbur etmişlər. Təkcə Gərmətükdə iki gündə 7 nəfəri qətlə yetirmişdilər. Həmin kənddə törədilən ağır faciələr hələ də xatirələrdən silinməmişdir. Kərgəlan kəndindən isə 70 nəfər kişini çayın qırağında güllələmişlər.[71]

Lənkəran hadisələrini xatırlayan, pedaqoji məktəbin ilk direktoru işləmiş Teymur Şahverdiyev demişdi: - 1918-ci ilin mart ayı idi. «Kolaz»da Sütəmurdova gedirdim, su qırmızı rəngə çalırdı, diqqət verib gördüm ki, insan qanıdır. Həm də suda xeyli miqdarda insan cəsədi var idi. Suyun üzərində olan papaqlardan müəyyən etdim ki, öldürülənlər dağ kəndlərindən olan sakinlər idi.

Tədqiqatçılardan Hacı Mirhaşım Talışlı və Hacı Etibar Əhədovun yazdığına görə Lənkəranda meydan sürən Avetisov və Makarovun qoşun hissələri 1918-ci ilin maartında Lənkəran qəzasında 40-a yaxın kəndi yandırmış, yüzlərlə günahsız insanları məhv etmişlər. Kəndlərlə bərabər Lənkəran şəhərinin özündə Mayakın ətrafında yüzlərlə insanlar qəddarlıqla məhv edilmişlər.[72]

Bütün bölgələrdə azərbaycanlıların kütləvi halda öz doğma torpaqlarında dəhşətli faciələrə məruz qalmasında Şaumyanın və onun rəhbərlik etdiyi kommunanın tərkibinin erməniləşdirilmiş olmasının da böyük rolu olmuşdu. Belə ki, Bakı Kommunasının tərkibində əsas yeri erməni millətinin nümayəndələri tutmuşdular. Şaumyan – sədr və Xarici İşlər Komissarı, Karqanov (Korqanyan) – Xalq hərbi və dəniz komissarı, A.B.Korenyan (Qabrielyan) – Ədliyyə komissarı və b. idilər.

Bunlarla bərabər Bakı Xalq Komissarları Sovetinin rəhbərliyi tərkibinə Kostanyan, Ter-Qabrielyan, Osipyan, Ter-Saakyan, Əmiryan, Nuricanyan və b. daxil idilər. Buna görə də təsadüfi deyildir ki, azərbaycanlılara qarşı öz doğma torpaqlarında soyqırım törədilmiş və həm də daşnak Ermənistanın liderlərindən olan A.Xatisov (Xatisyan) Bakı XKS-ni «erməni sovet hökuməti» adlandırmışdı. Buna görə də məqsədli olaraq Bakı Kommunasının 18 minlik hərbi hissəsinin 60-70 faizini ermənilər təşkil etmişdi. Qan yaddaşında türklərə – azərbaycanlılara nifrət, türk-Azərbaycan ərazilərinə sahiblik xülyası olan, mənəviyyatı xəstə erməni «xalqı» bu mübarizədə birləşərək əllərindən gələni əsirgəmirdilər.

Belə şəraitdən istifadə edən azərbaycanlıların qatı düşməni cəllad Andronik də Şaumyana kömək etməyə hazır olduğunu bildirmişdi. O, 4 iyun (1918-ci ildə) tarixdə Şaumyana göndərdiyi teleqramda özünün dəstəsi ilə Bakı Kommunasına kömək etməyə hazır olduğunu bildirmişdir. Buna cavab olaraq Şaumyan qaniçən Androniki «xalq qəhrəmanı» adlandırmışdı.

Azərbaycanda dəhşətli qırğınların genişləndiyi bir şəraitdə Gəncəyə olan hücum əməliyyatının da müvəffəqiyyətli başa çatması üçün Şaumyanın təkidi ilə Rusiyanın Bakıya 4 zirehli avtomobil, 13 aeroplan və digər hərbi ləvazimatlar[73] göndərməsi də faciələrin daha da artmasına öz təsirini göstərmişdi. Bununla da Bakı quberniyasında ermənilərin fasiləsiz olaraq törətdikləri qanlı və dəhşətli faciələr, azərbaycanlılara qarşı tətbiq edilən soyqırım siyasəti 1918-ci il sentyabrın 15-ə qədər, yəni Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu tərəfindən Bakı azad edilənə qədər davam etmişdi. Erməni daşnaklarının törətdikləri bu soyqırımında 50 mindən artıq azərbaycanlı qəddarlıqla qətlə yetirilmiş, on minlərlə dinc sakin doğma yerlərindən didərgin salınmışlar.

1918-ci il mart soyqırımı azərbaycanlılar üçün olduqca dəhşətli olsa da bu faciə azərbaycanlıların milli müstəqillik qazanmaq hərəkatının qarşısını ala bilməmişdir. Azərbaycanlılar arasında birlik ideyası daha da güclənmiş və reallaşmışdır. Artıq Azərbaycan xalqı dərk etmişdir ki, onun xilası özünə arxalanaraq öz milli təşkilatının ətrafında sıx toplamaq və tərəddüd etmədən onun arxasınca getməkdədir. Şübhəsiz, bu mövqe Azərbaycanda müstəqil milli dövlətin yaranmasında öz təsirli rolunu oynadı – 28 may 1918-ci ildə müstəqil Azərbaycan dövləti yarandı. Bundan bir qədər sonra 1918-ci ilin iyulun axırlarında Şaumyanın başçılıq etdiyi Bakı Kommunası süqut etdi. Bakı Sovetinin eser-menşevik-daşnak nümayəndələrindən ibarət «Sentrokaspi diktaturası» Bakıda hakimiyyəti ələ keçirdi. Onlar Bakıda cəmi ay yarım

hakimiyyətdə oldular. 1918-ci ilin sentyabrın 15-də Türkiyə və Azərbaycan qoşun hissələri Bakıya daxil oldu. Gəncədən Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamanı dekabrın 7-də açıldı. Parlament çox mürəkkəb bir şəraitdə fəaliyyətə başlamışdı.

Qanlı hadisələrin miqyasını genişləndirən erməni daşnakları öz cinayətlərini İrəvan quberniyasında da törətməyə başladılar. Hətta Zaqafqaziya Seyminin müsəlman fraksiyasının aprel ayının 10-da keçirilən iclasında Seymin üzvü M.N.Seyidov etdiyi məruzəsində İrəvan quberniyasında hələ iki ay bundan əvvəl müsəlmanlara qarşı başlanmış qanlı hadisələrin fasiləsiz olaraq davam etdirildiyini və bunun son günlərdə daha kəskin hal aldığını diqqətə çatdırmışdı. Seymdə edilən çıxışlardan məlum olmuşdur ki, 80 min nəfərdən artıq müsəlman qaçqına çevrilmişdir.[74]

Ermənilərin bunda məqsədi bir tərəfdən azərbaycanlılara qarşı olan düşmənçilikdən irəli gəlirdisə, digər tərəfdən də azərbaycanlıların doğma çıxarıldığı yerlərdə ermənilərin yerləşdirilib kompakt yaşamalarına şərait yaratmaq və bununla da müstəqil Ermənistan yaratmağa nail olmaq idi. Belə məqsədlə 1918-1920-ci illərdə yaratdıqları erməni daşnak hökuməti amansız qırğınlar törətmişdi.

«Azərbaycan» qəzetinin 1918-ci il noyabr tarixli saylarında qaçqınların faciəli taleyindən, uşaqlarının əzab içərisində ölməsinə dözə bilməyən anaların öz doğma övladlarını boğub öldürmələrindən, yaxud da çaya atmaq məcbu-riyyətində qalmalarından bəhs edən ürək ağrıdıcı məlumatlar verilmişdi.

Erməni barbarlığı digər bölgələrdə də davam etdirilmişdi. Belə ki, Vedidə 118 azərbaycanlı kəndinin əhalisi qətlə yetirilmiş, kəndlər yandırılmışdı.[75] 1918-ci ilin yazında Eçmiədzin və İqdır qəzalarının müsəlman kəndlərində də qırğınlar törədilmişdir. Dronun göstərişi ilə 60 kənd viran edilmişdi. Həmin kəndlərin kişiləri qətlə yetirilmiş, gözəl qadınlar işgəncələrə məruz qalmışdılar.

«Azərbaycan» qəzetinin 1919-cu il 205-ci sayında yazılmışdı: ermənilər Eçmiədzin qəzasının azərbaycanlılar yaşayan kəndlərində uşaqları valideynlərinin gözləri qarşısında tonqalda yandırmış, kişiləri Araz çayının sahilinə aparıb öldürmüşdülər. Qadınları isə Purtqulu kəndinə doğru aparıb orada vəhşiliklə namuslarına təcavüz etdikdən sonra qətlə yetirmişdilər. Göyçə mahalında 22 kənd, Bəyaziddə 84 kənd, Sürməli qəzasında 96 kənd viran edilmiş, yandırılmışdı. Təkcə Göyçə bölgəsində 10 min nəfər adam, Zəngəzur qəzasında isə 10 mindən artıq adam – qadın və uşaqlar məhv edilMişdi.[76]

Göstərilən vəhşiliklərlə kifayətlənməyən erməni caniləri hətta azərbaycanlılara Novruz bayramı tonqallarının yandırılmasına belə imkan verməmişlər. Onlar Basarkeçərə bir neçə istiqamətdə hücum edərək Yarpızlı, Alçalı, Qanlı, Çaxırlı, Çamırlı və digər kəndlərin bütün varidatlarını talan etmiş və yandırmışlar. A.Lalayan kimi qaniçən vəhşi Basarkeçərdə törətdiyi əməllərindən bəhs edərək göstərmişdi ki, mən heç bir şeyə fərq qoymadın əhalini məhv etdim. O azərbaycanlıları məhv etməyin ən yaxşı yolu salamat qalanları bir yerə toplayıb quyulara doldurmaq və sonra bura doldurulan bütün kişi, qadın və uşaqların üstünü daşla doldurmağı vacib hesab etmiş və onu qəddarlıqla icra etmişdi.[77] Deməli, yaradılan daşnak hökuməti öz fəaliyyətini belə davam etdirmişdi.

Bu qatı millətçi daşnak hökumətinin yaranmasında Antanta dövlətlərinin də az rolu olmadı. Fransız ermənişünas alimi Jorj de Molevil 1988-ci ildə Parisdə nəşr etdirdiyi «1915-ci il erməni faciəsi» əsərində erməni daşnak respublikasının yaranmasını Antantanın köməyi ilə əlaqələndirərək qeyd etmişdi ki, erməni respublikası İngiltərənin iradəsilə çar imperiyasının xarabalıqları üzərində yaradılıb. Qısa bir ömür sürən (1918-1920-ci illər) həmin daşnak erməni respublikası «bütün tarix boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi» .[78] Belə bir hökumətin yaranması ilə isə azərbaycanlıların kütləvi qırğını başlandı.

1918-ci ilin noyabrında cənub-qərbi Qafqazın azərbaycanlı əhalisi daşnak qırğınlarından xilas olmaq üçün Azərbaycan Demokratik Respublikasına müraciət etmişdi, çünki müharibədə məğlub olmuş Türkiyə İrəvan quberniyasının azərbaycanlılarını qoruya bilmirdi.[79] «Azerbaydjan» qəzeti (№ 26, 1918 tarixli sayında) bu münasibətlə yazmışdı ki, «İrəvan müsəlmanlarının səsini bütün Azərbaycan xalqı eşitməlidir». Azərbaycan Demokratik Respublikasının Nazirlər Şurası diplomatik nümayəndəliyini İrəvan quberniyasına göndərsə də bu missiya nəticəsiz qalmışdır.[80]

1918-1920-ci illərdə daşnak hökuməti öz təcavüz siyasətini daha da genişləndirərək Türkiyəyə, Azərbaycana və Gürcüstana qarşı ədalətsiz müharibələr aparmaq mövqeyindən çıxış etdi. Gürcü Karibi 1919-cu ildə yazmışdı: daşnaklar gəldilər – milli ədavət gətirdilər. Erməni-müsəlman ziddiyyətini daha da kəskinləşdirdilər.[81] Ermənilər Gürcüstana məxsus olan Axalkala və Borçalı mahallarını Ermənistana qatmaq istədilər və buna görə də 1918-ci ilin dekabrında Gürcüstana qarşı müharibəyə başladılar. Daşnaklar eyni zamanda Azərbaycan ərazisi olan Qarabağ və Naxçıvan vilayətlərini də öz ərazilərinə qatmaq iddialarını irəli sürdülər.

V.İ.Lenin daşnak hökumətinin böyük dövlətçilik iddiasından bəhs edərək yazırdı: «Türkiyəni Sovet Rusiyasına qarşı qaldırmağa, dostluq münasibətləri yaratmaq haqqında danışıqları pozmağa çalışan Antanta rəhbərləri fitnəkarlıqla daşnak Ermənistanının Türkiyəyə hücumunu təşkil etmişdilər. Daşnaklar Türkiyəyə qarşı təcavüzkar mövqe tutaraq Kiçik Asiyanın təqribən yarısı daxil olmaqla «Böyük Ermənistan» yaratmağa can atırdılar» .[82]

Azərbaycanlılara qarşı qatı düşmən mövqeyində duran daşnaklar qəzalarda azərbaycanlılara qarşı mübarizəni gücləndirdilər. Həmin dövrdə açıq şəkildə Ermənistanda öz doğma ata-baba torpaqlarında yaşayan azərbaycanlılara qarşı mübarizə daha da gücləndi. Onların kütləvi surətdə vəhşiliklə evlərindən çıxarılaraq didərgin salınması vəziyyəti

olduqca ağırlaşdırmışdı. Belə bir vəziyyətlə əlaqədar olaraq İrəvan (sonralar dəyişdirilib Yerevan adlandırıldı) quberniyasının türk (yəni azərbaycanlı – Ə.A.) əhalisi Azərbaycan hökuməti adına göndərdiyi bəyanatında bildirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına qədər olan müddətdə İrəvan quberniyasında ermənilər 200-dən çox azərbaycanlı kəndini yandırıb darmadağın etmişlər.[83]

«Azərbaycan» qəzeti 1919-cu il 27 yanvar tarixli nömrəsində yazmışdı: daşnak hökumətinin törətdiyi vəhşilik dözülməzdir. Ermənilər Zağalı, Subasan və Qızıl Vəng kəndlərini viran qoydular. Çamurlu kəndində 4 kişini və 6 qadını vəhşicəsinə öldürdülər. Ermənilərin qanlı cinayətləri Göyçədə də davam etdirildi. Bura basqın edən ermənilər kütləvi qırğın törətmiş və hətta başları kəsilmiş qocaları, döşləri kəsilmiş qadınları tonqallarda, körpə uşaqları isə nizələrə keçirib diri-diri təndirlərdə yandırmışlar. Göyçədə Zodlu Səməd ağa, aşıq Nəcəf xüsusi amansızlıqla qətlə yetirilmişlər. Hətta aşıq Nəcəfin belinə qaynar samovar bağlamışlar.[84]

Vidadi İsayevin yazdığına görə Zəngəzur qəzasında da törədilən qətllər və talanlar çox faciəli olmuşdu. Qəzanın Şəki, Ağüdü, Qarakilsə kəndlərində ermənilər qolubağlı kişilərin gözü qabağında qadınların namusuna təcavüz etmiş, Buğud kəndində isə 400 adamı məscidə yığıb yandırmışlar.[85] Bağırbəyli kəndində isə 7 kişi və qadını bir evə yığıb yandırmışlar.[86]

Sabir Rüstəmxanlı yazır ki, 7 kənddə daha ağır qanlı cinayətlər törədilmiş, 500 kişi, qadın və uşaqlar məhv edilmişdi.[87]

1918-ci ilin yayında Eçmiədzin və İkdir qəzalarının müsəlman kəndlərində törədilən qırğınlar davam etdirildi. Dronun göstərişi ilə 60 kənd viran edildi. Həmin kəndlərin kişiləri məhv olundu, gözəl qadınlar isə aparıldı.[88] 1919-cu ilin son iki ayında Sürməli və Eçmiədzin qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.[89]

Ermənilər soyqırım siyasətini Cənubi Azərbaycan ərazisində də həyata keçirməklə burada da azərbaycanlılara qarşı xüsusi qəddarlıq və zorakılıq tətbiq etmişlər. Bakı

Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri olmuş professor Seyidağa Onullahi 2003-cü il aprelin 1-də «Cənubi Azərbaycanda türk-müsəlman əhalisinə qarşı soyqırımlar» mövzusunda etdiyi məruzəsində 1918-ci ildə ermənilərin Urmiya, Xoy, Səlmas və Makuda törətdikləri faciələrdən danışmışdı. Professor məruzəsində Təbrizli Seyid Əhməd Kəsrəvinin yazdıqlarına istinad edərək göstərmişdi ki, 1918-ci ilin martında Urmiyada 500 evə od vurulub yandırılmış və bir gecədə şəhərin 1500 azərbaycanlı sakini qətlə yetirilmişdi. Ermənilərin başçısı Petros jandarm rəisi, Qafqazdan Urmiyaya qaçmış erməni İbrahim isə polis rəisi təyin olunmuşlar. Şəhər əhalisindən 48 saat ərzində silahları təhvil vermək tələb olunmuş və verilən vaxt qurtardıqdan sonra ermənilər silah axtarmaq bəhanəsi ilə evləri qarət edib yandırmış, əhalini isə öldürmüşlər. Ermənilər 6 ay ərzində Urmiyada 20 min nəfərdən artıq günahsız insanları və ümumiyyətlə Urmiya, Xoy, Səlmas şəhərlərində 130 min azərbaycanlını məhv etmiş, şəhərləri isə xarabalığa çevirmişlər.[90]

Zaqafqaziya Seyminin müsəlman fraksiyasının 1918-ci ildə keçirilən iclaslarında ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında apardıqları müzakirələrin tədqiqatçı alim Ataxan Paşayevin gərgin əməyinin nəticəsi olaraq «Respublika» qəzetinin 30 mart 2007-ci il sayında «Tarixin ibrətamiz səhifələri» başlığı altında geniş və diqqəti cəlb edən materialı verilmişdi. Burada müsəlman fraksiyasının 1918-ci il aprelin 15-də keçirilən iclasında hətta Qars vilayətində ermənilərin təsvirə gəlməyəcək dərəcədə azğınlıq, südəmər uşaqların süngüyə keçirilməsi kimi vəhşilikləri haqqında danışılmışdı. Olduqca dəhşətli şəraitdə Murad bəy Xanmirzəyev həlak olmuşdu. Qars vilayətində yaxşı tanınan Şamil ağa faciəli surətdə əvvəlcə öz arvadını və uşaqlarını öldürmüş və sonra ermənilərə təslim olmuşdur.[91]

Bir sözlə erməni vəhşiliyinin, qəddarlığının qurbanı olan uşaqların ürək parçalayan nərələri, «kömək edin» – deyib qışqıran, haray salan köməksiz və ümidsiz qadınların

yanıqlı səsi, qocaların hönkürtüsü və özünü azərbaycanlı sayan hər bir kəsin qəlbində səslənməli, qan yaddaşına həkk olunmalıdır. Ermənistanın azərbaycanlılara qarşı bütün bölgələrdə apardığı soyqırım siyasətində əsas məqsədi Rusiyanın yardımı ilə Azərbaycanın müəyyən torpaqlarını ələ keçirmək olmuşdu. Buna tam əmin olan Ermiənistan Azərbaycana qarşı ərazi iddiasını irəli sürmüş və Dağlıq Qarabağın ermənilərə məxsusluğu haqda saxta ideyanı bir əsrdən artıqdır ki, dəridən-qabıqdan çıxaraq canfəşanlıqla təbliğ edirlər. Bununla da Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi üçün birinci böyük və təhlükəli cəhdin başlanğıcı qoyulmuşdu. Bu əsassız ideyanı irəli sürən erməni millətçiləri tarixi və tarixi hadisələrin gedişində Azərbaycan dövlətinin onlara etdikləri güzəştləri tez bir anda unudub qatı düşmənə çevrildilər. Buna görə də erməni millətçilərinin diqqətinə bəzi tarixi məqamları xatırlatmaq lazım gəlir.

Ermənilər əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etməsinə baxmayaraq İrəvan şəhərini dövlətin paytaxtı etməyə çalışırdılar. Geniş və gərgin müzakirələrdən sonra Azərbaycan Milli Şurası həmin məsələdə ermənilərə güzəştə getdi. Eyni zamanda Batumidə olan Azərbaycan və Ermənistan nümayəndələri arasında sərhəd məsələsi barədə danışıqlar aparıldı və bu danışıqlarda belə bir razılıq əldə edildi ki, Azərbaycan Aleksandropol qəzası ərazisində erməni dövlətinin yaradılmasına etiraz etmir. İrəvan şəhəri məsələsinə gəldikdə isə ermənilərə belə bir şərtlə güzəştə gedildi ki, onlar İrəvan şəhəri əvəzinə Dağlıq Qarabağa olan ədalətsiz iddialarına son qoysunlar və bir daha heç vaxt belə fikrə düşməsinlər. Şübhəsiz, bu güzəşt Azərbaycan dövlətinin ilk səhvlərindən biri kimi sayılmalıdır. Azərbaycanlılara məxsus torpaqlarda yaranan Ermənistan dövləti 10 min km^2 ərazidən ibarət kiçik bir dövlət oldu.[92]

Ermənistan dövləti Batum müqaviləsində onun ərazisində yaşayan azərbaycanlıların təhlükəsizliyi, azad yaşamaları, ana dilində təhsil almaları və s. barədə tərəddüdlər gö-

türdü. Nə qədər ki, türk hərbi hissələri Cənubi Qafqazda idi ermənilər göstərilən şərtlərə az-çox riayət edirdilər. Lakin Dünya müharibəsində türklərin məğlubiyyətindən sonra ermənilər vədlərini unudub yenidən fəallaşdılar. Onlar «Böyük Ermənistan» yaratmaq iddiaları ilə ermənilərə böyük güzəştlərə getmiş Azərbaycana qarşı müharibəyə başladılar.

Azərbaycan Demokratik Respublikası isə mehriban qonşuluq siyasətini yürüdürdü. 1918-ci il mayın 28-də elan edilən Azərbaycan Demokratik Respublikası hökumətinin baş naziri Fətəli xan Xoyski mayın 29-da yazırdı: «Biz ermənilərlə bütün mübahisələri həll etdik, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik.

Lakin ermənilərin iştahı böyük idi, buna görə də 1918-ci ilin axırlarına yaxın Andranik Gorusa gəlib burada məskən saldı və bununla da Zəngəzurun, bütün Qarabağın dəhşətli və faciəli günləri başlandı. Andranik kim idi? O, Türkiyə paşası idi. Türkiyə vətəninə sədaqətlə xidmət edəcəyinə and içmişdi. Lakin o heç vaxt türkiyəli olmayıb. Sonralar o, quldurluq etdiyinə görə Türkiyə hökuməti tərəfindən ölüm cəzasına məhkum olundu və buna görə də oradan qaçıb rus generalı formasında orden, medallarla Zaqafqaziyada böyük qırğınlar törətdi. Zəngəzur qəzası ağır işgəncələrə məruz qaldı.

Zəngəzur qəza rəisi M.Namazəliyevin ADR-in Daxili İşlər Nazirliyinə göndərdiyi 1918-ci ilin 11 və 12-si sentyabr tarixli sənəddə həmin qəzanın müxtəlif kəndlərinin Andranikin başçılığı altında ermənilər tərəfindən qəddarcasına dağıdıldığı bildirilirdi. Belə ki, Andranikin quldur dəstələri tərəfindən buranın 115 kəndi viran edildi.[93] Həmin 115 kənddə 3 mindən artıq kişi, 2 mindən artıq qadın və 2 mindən artıq uşaq öldürüldü. Mindən çox kişi, 794 qadın və 485 uşaq şikəst edildi, yaralandı. Ümumiyyətlə, Zəngəzur qəzasında 10 mindən artıq adam öldürüldü və şikəst edildi.[94]

Daşnak hökumətinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər haqqında Daxili İşlər Nazirliyi dəftərxanasının qovluğundan çıxarışa nəzər saldıqda bu bir daha aydın olur. Belə ki, Zəngəzur qəza rəisinin 1918-ci ilin sentyabrında 8 nömrəli məlumatında göstərilir: Andranik öz dəstəsi ilə dörd kəndi dağıtmış, Arıqlı, Şükür, Qızılcıq, Məlikli və başqa kəndləri yandırmışdı.[95]

Zəngəzur qəza rəisinin 1918-ci il 11 dekabr tarixli teleqramında göstərilir: ingilis-fransız nümayəndəliyinin iştirakı ilə əldə edilmiş razılıqla azərbaycanlıların tərk etdikləri kəndlərə Andranik qəflətən hücum etmiş, dəhşətli qırğın törətmiş, dekabrın 9-da 12-dən artıq kəndi yandırmış, 10 qadını əsir aparmışdı.[96] Bu vəhşiliklər, faciələr hətta 1919-cu il yanvarın 7-də «Azərbaycan» qəzetində «Qarabağ-İrəvan faciəsi» adı ilə dərc olunmuşdu. Azərbaycan hökumətinin Ermənistana göndərilən Notasından da bu aydın olur. Notada göstərilir: Məlumat çatıb ki, İrəvan quberniyasında yaşayan müsəlmanlar (yəni azərbaycanlılar – Ə.A.) çoxsaylı erməni qüvvələrinin zorakılığına məruz qalır, öldürülür, qarət edilir, şəhər və kəndlərdə azərbaycanlıların silahları əlindən alınır, onlar zorla tabe etdirilirdilər. Əhali bu zorakılığa qarşı kömək xahiş edir. Əldə olan məlumata görə təqib edilən və Arazı keçərkən boğulub ölən müsəlmanların sayı 300 nəfərə qədərdir.[97]

1993-cü ilin axırlarında Zəngilan rayonunun ermənilər tərəfindən qarət edilib yandırılması, əhalinin Araz çayını keçmək məcburiyyətində qalıb boğularaq ölməsi faktı bir daha onu göstərir ki, indiki ermənilər babalarının cəlladlığını təkrar edirlər. Andranikin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər 1919-cu il 28 fevral tarixində Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna verdiyi məlumatdan da aydın olur. Məlumatda göstərilir: Qana həris olan və dağıtmağa adət etmiş general Andranik Həkərədən Araza, Minkənddət Bazarçaya, Naxçıvan qəzasının sərhədinədək ərazidə ən qatı vəhşiliklərdən belə iyrənmirdi.

Azərbaycanın başqa diyarlarında Andranik başda olmaqla ermənilərin törətdiyi vəhşiliyi A.Lalayan belə təsvir etmişdi: «Andranikin, Amazaspın və başqalarının başçılığı altında daşnak dəstələri türk (yəni azərbaycanlı – Ə.A.) qadınlarının və uşaqlarının, qocaların və cavanların məhv edilməsi işində maksimum «cəsurluq» göstərmişlər. Daşnak dəstələri tərəfindən tutulmuş kəndlər canlı adamlardan «azad» edilmiş və eybəcər hala salınmış meyidlərlə dolu xarabazarlığa çevrilmişdir.[98]

Bu arxiv sənədlərini oxuduqda hal-hazırda Qarabağda Malıbəyli, Qaradağlı, Xocalı və başqa yerlərdə ermənilərin törətdikləri vəhşiliklər xatırlanır. Andranik göstərdiyi vəhşiliyinə görə xalq qəhrəmanı kimi tərifləmir və təbrik edilir. Onu təbrik edənlərdən biri də S.Şaumyan olmuşdu. O, 1918-ci il iyul ayında göndərdiyi teleqramda yazırdı: Xalq qəhrəmanı Andranikə: Sizin 577 №-li teleqramınızı aldım. Tam mətnini Moskvaya Mərkəzi hökumətə göndərdim. Öz tərəfimdən Sizin şəxsinizdə həqiqi xalq qəhrəmanını təbrik edirəm.[99]

Sovet marşalı İ.X.Baqramyan yazmışdı ki, ermənilərin geniş təbəqələri Andranik haqqında inkaredilməz belə bir fikirdədirlər ki, o, öz həyatını doğma Qərbi Ermənistanın mürtəce şovinizm və dini dözməməzlik zəhəri ilə zəhərlənmiş Osmanlı Türkiyəsinin hakim dairələrinin əsarətindən azad etməyə həsr etmişdir. Bu müqəddəs mübarizə onun əsas siyasi amalı olmuşdur. Məhz bu xeyirxah əməldə Andranik əfsanəvi xalq qəhrəmanı kimi şöhrət qazanmışdı.[100] Azərbaycanın göstərilən bir sıra qəzalarında və onun kəndlərində etdikləri vəhşiliklərdən çəkinməyən Andranik öz dəstəsi ilə Qarabağda – Cavanşir, Şuşa, Cəbrayıl qəzalarında da öz vəhşiliklərini davam etdirdi. Cavanşir qəzasının Dəmirlər, Umudlu, Qaralar, Sırxavənd, Çıraxlı və başqa kəndləri erməni canilərinin hücumlarına məruz qaldılar. Böyük çətinliklərə məruz qalmış bir sıra kəndlərin, o cümlədən Umudlu, İmarat-Qaravəndin əhalisinin xeyli hissəsi Murov dağının

qarlı-boranlı zirvələrini keçərək Zəyəm yolu ilə Gəncə quberniyasına gəldilər. Çox qəribədir! Bunu düşündükdə 1989-cu ilin qışı xatırlanır. O vaxt öz isti ocaqlarını, doğma ata-baba torpaqlarını tərk etmək məcburiyyətində qalıb, qışın şaxtalı-boranlı günlərində yarı çılpaq vəziyyətdə Azərbaycanın bir sıra yerlərinə pənah gətirənlərin sayı az olmamışdır. Sanki tarix təkrar olunur.

Cəbrayıl qəzasının kəndlərinə 1918-ci ilin dekabrından başlanan erməni basqınları nəticəsində evlər dağıdılıb yandırıldı, əmlak, mal-qara talan edildi, insanlar öldürüldü, təkcə Sirik kəndində 11 kişi, 10 qadın və 14 uşaq məhv edildi. Bu vəhşiliklər şübhəsiz böyük maddi ziyanlar da törətdi, təkcə Cəbrayıl qəzası əhalisinə on milyon manatlarla ziyan vuruldu.[101] Bunlar vəziyyəti olduqca ağırlaşdırdı. Bununla əlaqədar olaraq Qarabağdan (Şuşadan) parlamentin üzvü Qarabəy Əliverdiyev 1918-ci il dekabrın 19-da Azərbaycan Milli parlamentinə göndərdiyi teleqramda bildirdi: Mən Qarabağın nümayəndəsi, Qarabağdakı vəziyyət haqqında məlumat verirəm. Andranik Zəngəzuru top atəşinə tutdu və bu bütün Qarabağda qorxulu vəziyyət yaratdı. O, hesaba gəlməyən miqdarda müsəlman kəndlərini dağıtmış və talan etmişdi, köməksiz əhalini qırmış, onları doğma yerlərindən qovmuşdur.[102] Erməni banditlərinin Cəbrayılda, Zəngəzurda və Şuşada törətdikləri vəhşiliklər haqqında məsələ Azərbaycan parlamentinin 1918-ci il 20 dekabr iclasında müzakirə edildi. Hökumətin başçısı Fətəli xan Xoyski bildirdi ki, Zəngəzur hadisələri heç də yeni deyildir. Bu hadisələr çoxdan başlanmışdır. Sizin hamınıza, parlamentin üzvlərinə məlumdur ki, nə vaxtsa bir qrup erməni Qarabağ haqqında məsələ qaldırmışdı. Hələ iyulda (1918-ci ildə) Andranik ətrafında dəstə toplayaraq İrəvan tərəfdən bizim sərhədlərimizə yaxınlaşmışdı. Burada onu da sizin yadınıza salmalıyam ki, Andranik Türk təbəəsidir.[103]

Azərbaycan hökuməti Ermənistan hökumətinə müraciət edəndə ki, bu işdə Andranik Ermənistan hökuməti ilə

əlaqədardır, yoxsa bu onun şəxsi təşəbbüsüdür? – sualına Ermənistan hökuməti cavab vermişdi ki, onun Andraniklə heç bir əlaqəsi yoxdur. Bu məsələ ilə əlaqədar Azərbaycan diplomatik nümayəndəsinin sorğusuna cavab olaraq Camalyan (Ermənistanın Gürcüstanda səlahiyyətli nümayəndəsi) demişdir: Andranikin dəstəsinin Azərbaycan Respublikasının sərhədlərinə daxil olması haqda 461 nömrəli 15 avqust tarixli məktubunuza cavab olaraq bildirirəm ki, general Andranik və onun dəstəsi artıq çoxdan erməni qoşunlarının tərkibindən çıxarılmışdır. Andranik və onun dəstəsinin Ermənistanın milli qoşunları və dövlət orqanları ilə heç bir əlaqəsi yoxdur və Ermənistan hökuməti onların məsuliyyətsiz hərəkətlərinə cavabdeh deyildir.[104] Ermənistan hökuməti də onu məhv etmək istəyir, lakin buna onun gücü çatmır.[105]

Burada da böyük bir qəribəlik var, təkrar var. Ermənistanın prezidenti Ter-Petrosyana dedikdə ki, hücumları dayandırın, danışıqlar aparaq, o bildirir ki, mən də bunun tərəfdarıyam, ancaq Dağlıq Qarabağ hərbiçiləri bizi eşitmirlər. Doğrudan da riyakarlığın ifrat dərəcəsi də olurmuş.

1918-ci ildə «Şeypur» jurnalı yazırdı: «Doğrudan da həya bir yaxşı şeydir. İnsan ki, həyasız oldu, heç nə, həyasız adamlardan hər nə desən baş verər…

Bu həyasızlardan biri də Ermənistan hökumətinin baş komandanı Andranik kirvədir ki, o, yenə Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır. Ermənistan hökuməti də gözlərini yumub əli ilə işarə eləyir. Ermənistan hökumətinin nə siyasət yeritdiyini və nə fikirdə olduğunu təsvir etmək artıqdır. Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun» .[106]

Beləliklə, Andranikin başçılığı altında olan erməni qüvvələrinin Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərə basqın etməkdə məqsədi «Böyük Ermənistan» yaratmaq iddiasının həyata keçirilməsinə əsaslı köməklik göstərmək-

dən ibarət idi. Batum müqaviləsi ilə (1918-ci il, 4 iyun) razılaşmayan Andranikin erməni qüvvələrinin həmin bölgələrə, xüsusilə Naxçıvan ərazisinə doğru irəliləməsinə və burada törədilən zorakılıq hərəkətlərinə erməni müəllifləri (İ.Ağayan, Q.Qəribcanyan) saxtakarlıqla yanaşaraq bunu türklərin bu yerləri tutaraq Bakıya doğru irəliləmələrinin qarşısını almaq cəhdi kimi qiymətləndirmişlər. Erməni tədqiqatçılarının yazdığı kimi, Andranikin məqsədi Naxçıvanda möhkəmləndikdən sonra Qarabağa keçərək oradan Bakıya doğru hərəkət etmək və Bakıda Şaumyanın rəhbərlik etdiyi hökumətə köməklik etmək idi. Buna görə də Andranik təsadüfi deyildir ki, iyunun 4-də Şaumyana göndərdiyi teleqramda Bakı Kommunasına kömək etməyə hazır olduğunu bildirmişdir.[107]

1918-1919-cu illərdə Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 2060 kişi, 794 qadın və 48 uşaq yaralanmışdı.[108] Qəzada ermənilərin azərbaycanlılara qarşı aşağıdakı vəhşilikləri müəyyən olunmuşdu: Vaqudi kəndindən 15 gözəl qız erməni əsgərlərinə paylanmış və onlar zorlanmadan ölmüşdülər. Həmin kənddən hamilə qadın Qədəmə Tahir qızının qarnını xəncərlə yırtmış, başı kəsilmiş, sonra döşünü kəsərək başı kəsilmiş körpəsinin ağzına qoyulmuşdu. Həmin kəndin yaxınlığında Gülməstə Qasım qızı öldürülmüş, döşləri kəsilmiş və kürəyinə nal mıxlanmışdır; Nüvədi kəndində 100 yaşlı Əsəd bəy Məlik Abbasovun bədənini süngü ilə deşik-deşik etmişlər; Şəki kəndində bir neçə qadının döşləri kəsilmiş və qucaqlarındakı körpələr qılıncla iki yerə bölünmüşdür; Aqudi kəndində bir neçə qadının döşləri kəsilərək körpələrin ağızlarına qoyulmuşdur; Çullu kəndində yataqda yatan 9 xəstə adamı xəncərlə doğramışlar; Bağırbəyli kəndində bir evə yeddi kişini basıb qapını bağlamış və yandırmışlar; Müsəlmanlar kəndində bir neçə kişinin həm əlləri, həm başları, həm ayaqları kəsilmişdi.[109]

Zəngəzurda belə törədilən qanlı cinayətlərin təsiri ilə 1918-ci ilin yayında və payızında 50 min azərbaycanlı öz yerlərindən didərgin salınmışdır.[110]

1918-1919-cu illərdə erməni daşnak silahlı qüvvələrinin İrəvan quberniyasında, Zəngəzurda, Naxçıvanda və başqa bölgələrdə etdikləri vəhşiliklər azərbaycanlılara qarşı soyqırım siyasəti idi. Müəyyən edilmişdir ki, İrəvan quberniyasının Zəngibasar, Sürməli, Göyçə, Eçmiədzin, İrəvan və b. bölgələrində 100 mindən artıq azərbaycanlı qətlə yetirilmişdi. Bu soyqırım həm də Ermənistanda dövlət hakimiyyəti səviyyəsinə qaldırılmışdı.[111] Erməni soyqırımı əhalinin varidatının və mal-qarasının qarət olunması ilə də müşayiət olunurdu.

Ermənilərin öz çirkin arzularını həyata keçirmək işində xarici ölkələrdə apardıqları təbliğatlar da az rol oynamamışdı. Bu münasibətlə ermənilər Norveç və İsveçin paytaxtlarında, ABŞ, İngiltərə və Fransanın diplomatik nümayəndələri ilə qeyri-rəsmi əlaqələr yaratmışdılar. Osloda Z.Avalov İngiltərə və Fransa səfirləri ilə görüşmüşdü. Osloda olan erməni nümayəndəsi ABŞ-ın səlahiyyətli nümayəndəsi Q.F.Artur Şoupfeld ilə görüşmüş və ona istiqlaliyyətin elan edilməsi haqqında memorandum təqdim etmişdir. Bu görüşlər nəticəsiz qalmadı. ABŞ-ın nüfuzlu siyasi xadimlərindən olan keçmiş prezident Teodor Ruzvelt və Respublikaçı senator Henri Loc azad Ermənistan dövlətinin yaradılması haqqında çıxış etdilər. Senator H.Locun hazırladığı qətnaməyə görə müstəqil Ermənistan dövləti tərkibinə Rusiya və Türkiyə ərazilərinin bir hissəsi ilə yanaşı Kilikiya, Cənubi Azərbaycanın bir hissəsi və başqa ərazilər də daxil edilməli idi. Ermənilərin bu cür məkrli məqsədlərini həyata keçirməyə başladıqları bir şəraitdə 1918-ci il noyabrın 17-də general Tomsonun komandanlığı altında ingilis hərbi hissələri Ənzəlidən Bakıya gəldilər. Generalı Amerika və Fransa hərbi missiyası müşayiət etmişdir. Onların Bakıya daxil olmasında öz maraqları var idi. Hər şeydən əvvəl, onları cəlb edən neft məsələsi idi. Bunu hətta Zaqafqaziyada İtaliya hərbi missiyasının rəisi, polkovnik N.R.Qabba etiraf edərək bildirmişdir ki, özləri üçün neft alan amerikalılar və ingilislər

birinci növbədə başqa ölkələrə neft buraxılmasına maneçilik törədirdilər.[112]

Onların Bakıya gəlişi ilə əlaqədar olaraq Azərbaycan Demokratik Respublikasının Milli Şurasının sədri M.Ə.Rəsulzadə demişdi: Amerika, İngiltərə, Fransa və İtaliya qoşunlarının Bakıya girməsinə Türkiyə hökuməti məcburiyyət qarşısında razı olmuşdur. Qoşunların başçısı general Tomson Azərbaycan Demokratik Respublikasının Xarici İşlər Nazirinə demişdi ki, Bakıda olan Türkiyə qoşunlarını biz əvəz edəcəyik.[113] Məmməd Əmin Rəsulzadə xalqa müraciət edərək bildirmişdi ki, Türkiyə öz yerini İttifaq (Antanta) qoşunlarına vermişdir.[114]

İngilislərin Bakıya daxil olmasından istifadə edən ermənilər fəallaşdılar. Erməni Milli Şurasının üzvləri noyabrın 23-də Tomson tərəfindən qəbul edildilər. Bakı ermənilərı adından yepiskop Baqrat mart hadisələri və o zaman 20 min ermənilərin öldürülməsi haqqında saxta məlumat verdi.[115] O, ermənilərin əvvəlki vəziyyətini bərpa etmək məqsədilə Tomsona bir sıra təkliflər etdi. Həmin təkliflərdən biri 1918-ci ilin mart hadisələri vaxtı həbs olunmuş üç min ermənin (onların həqiqi sayı min nəfər idi) azad edilməsi barədə idi. Buna cavab olaraq Daxili İşlər Naziri Behbud ağa Cavanşir bildirmişdi ki, əgər günahsız olduqları sübuta yetərsə, ermənilər həbsdən azad olunacaqlar. Yepiskopun digər təklifi ondan ibarət idi ki, Bakı hadisələri vaxtı müxtəlif yerlərə getmiş ermənilər Bakıya qaytarılsın və onların təhlükəsizliyi təmin edilsin. Bu vaxt Erməni Milli Şurası, daşnaklar Azərbaycanın erməni əhalisi arasında ciddi şovinist-millətçi təbliğat aparırdılar. Bu məqsədlə qəzet və kitabça nəşr edirdilər. Onlar bunu açıq şəkildə etməsələr də bu fəaliyyət Ermənistanın daşnak hökumətinin siyasətinə tam uyğun idi.[116]

Ermənilər 1918-ci ilin dekabrında Zəngibasar və qismən də Vedibasar ərazilərini ələ keçirdilər. İrəvan quberniyası ərazilərində yaşayan azərbaycanlılara qarşı dəhşətli faciələr törətdilər və bu yerlərdən azərbaycanlıların müəyyən

hissəsini didərgin saldılar. Bundan sonra indiki Ermənistanın başqa bölgələrində də azərbaycanlıların kütləvi qətli baş vermişdi. Bütünlükdə 1918-1919-cu illərdə İrəvan quberniiyasının kəndlərində 131970 nəfər azərbaycanlı öldürülmüşdü.[117] Ermənilərin belə dəhşətli hücumları Naxçıvanda, Şərur-Dərələyəzdə, Ordubadda da təkrar edilmişdir.[118] Həmin bölgələrdə Dro, Dəli Qazar və Aram Paşanın başçılığı altında hücuma keçən erməni daşnakları 350-dən artıq azərbaycanlıların yaşadığı kəndi çox hallarda əhalisi ilə birlikdə məhv etmişdilər.[119]

Daşnakların göstərilən yerlərdə törətdikləri faciələrdə növbəti məqsədi Naxçıvanı, Şərur-Dərələyəzi, İrəvan quberniyasını, Zəngəzuru, Qarabağı azərbaycanlılardan tamamilə təmizləmək və həmin bölgələrə ermənilər köçürüb buraları erməni vilayətləri elan etmək və Paris sülh konfransında isə həmin ərazilərin Ermənistana mənsub ərazilər kimi böyük dövlətlər tərəfindən tanınmasına nail olmaqdan ibarət idi.

Ermənilərin belə riyakar məqsədləri o zamankı mətbuat səhifələrində də öz əksini tapmışdı. 1919-cu il 27 fevral tarixind «TEMPS» qəzetində «Sülh konfransında erməni məsələsi» adlı məqalədə (məqalə həmin qəzetdən götürülüb «Borba» qəzetində 1919-cu il 9 apreldə dərc edilmişdi).

Erməni nümayəndə heyətinin məramı ifadə edilərək göstərilmişdi: «Hər tərəfdən düşmən və Qərb mədəniyyətinə yad ünsürlərlə əhatə olunmuş bir xalq kimi biz, dənizə çıxış olmadan, nə öz təhlükəsizliyimizi, nə də öz iqtisadi və mədəni inkişafımızı təmin edə bilərik.[120]

Bu faktlar da onu göstərir ki, azərbaycanlıların yaşadıqları ərazilərdə ermənileşdirmə siyasəti «Böyük Ermənistan» yaratmaq iddialarının tərkib hissəsi olmaqla, erməni millətçiləri həmin iddianı zorakılıq vasitələrlə, həyasızcasına həyata keçirməyə çalışırdılar. Onlar öz məqsədlərinə nail olmaq xatirinə heç bir qeyri-insani vasitələrdən çəkinməmiş, fəaliyyətlərini davam etdirmişlər. 1918-ci ilin axırlarında Zəngəzurda 30-dan artıq azərbaycanlı kəndi dağıdılmışdı.

Andranik erməni qüvvələri ilə Ordubadın 10-dan artıq kəndini – Bucakər, Əldərə, Kilit, Nüvədi, Tuğut və başqa kəndləri böyük təhlükə qarşısında qoymuşdur.[121] Andranik və başqa erməni birləşmələrinin Zəngəzur və digər qəzalarda törətdikləri qırğınlar, talanlar həddini aşmışdı. Bu vəziyyət Gəncə qubernatorunun Azərbaycan hökumətinin Daxili İşlər Nazirliyi ünvanına vurduğu 1918-ci il 8, 11, 13, 14, 19 dekabr tarixli teleqramlarında tamamilə əks olunmuşdu.[122]

Azərbaycan Demokratik Respublikasının Ermənistanda 1918-ci ilin 22 oktyabrındakı diplomatik nümayəndəsi Teymur bəy Makinski məlumatında yazırdı ki, daşnak partiyasının gizli niyyəti İrəvan quberniyasında və Türkiyənin Qars vilayətində yekcins etnik tərkib yaratmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün azərbaycanlılara qarşı hər cür zorakılıqdan, hətta fiziki cəhətdən məhv etməkdən istifadə olunması nəzərdə tutulurdu. Deməli, 1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlıların qovulması və onların əvəzinə Türkiyədən gəlmə ermənilərin yerləşdirilməsi siyasəti aparılmışdır. Müəllif yazırdı: «İrəvanda olduğum elə ilk günlərdən müsəlmanlara qarşı törədilən zorakılıqlar barədə yüzlərlə şikayət alırdım. Məlum oldu ki, dinc əhalinin evlərinə basqınlar edilir, adamları öldürür, səbəbsiz yerə axtarışlar aparılır, həbslər edilirdi[123], danışan adamın əmlakının müsadirəsi adi hala çevrilirdi. Belə zorakılıq edənlər isə cəzalandırılmırdı. Teymur bəy ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərinə toxunaraq yazmışdır: «Müsəlmanlara edilən zorakılığın xarakteri və ölçüsünü elə ondan görmək olur ki, Zaqafqaziya respublikaları konfransının nümayəndələri İrəvana gələn gün səkkiz ailə tamamilə qarət olunmuş, bu zaman qadınlar və 14 yaşlı qız valideynlərinin gözü qarşısında zorlanmışdı». Onlar Azərbaycan uşaqlarını tonqalda yandırır, boylu qadınların qarnına xəncər soxur, adamların başlarına mismar çaxır, kürəyinə qaynar samovar bağlayır, qız və qadınların üzlərinə süngü və xəncərlə xaç şəkilləri çəkir, cavanların ayaqlarını nallayırdılar.[124]

Bu vəhşiliklər azərbaycanlı əhalinin öz doğma yurd-yuvalarından qaçqın düşməsinə səbəb olurdu. 1919-cu ildə oktyabrın 9-da Mərkəzi Komissiya həmin məsələ ilə əlaqədar olaraq hazırladığı sənəddə göstərirdi ki, alınmış məlumata görə İrəvan quberniyasının Eçmiədzin qəzasından ermənilərin vəhşiliyi təsiri altında Qazax qəzasına qaçqınlar axını olmuşdu. Həmin ilin avqust-sentyabr aylarında İrəvan quberniyasının 70-ə yaxın azərbaycanlı kəndi qarət edilib dağıdılmışdı. Göstərilən quberniyadan 1919-cu il 1 oktyabrda 30741 azərbaycanlı Azərbaycan ərazisinə qaçaraq Gəncədə, Gədəbəydə, Qazaxda, Şamaxı və başqa qəzalarda yerləşdirilmişlər. Erməni təzyiqi nəticəsində 5848 ev tərk edilmişdi.[125]

Mərkəzi Tədqiqat Komissiyası özünə borc bilərək Azərbaycan hökumətinin diqqətini Ermənistanda müsəlman əhalisinə qarşı törədilən vəhşiliklərə cəlb edib ona son qoyulması üçün qəti tədbirlər görülməsini hökumətdən tələb etmişdi.

Dəhşətli vəziyyətlə əlaqədar olaraq İrəvan Müsəlman Soveti məcbur olub kömək haqqında hətta ABŞ və Avropanın böyük dövlətlərinə müraciət etmişdi. Lakin ermənilər həyasızcasına ABŞ prezidentinə və həmin ştatın senatorlarına müraciət edərək Ermənistanın xilası naminə tədbir görülməsini xahiş etmişlər. Hətta 1919-cu ildə ABŞ-da Ermənistanın müstəqilliyi haqqında Komitə yaradılmasına nail olmuşlar. Onun tərkibinə ABŞ prezidentliyinə namizəd Çarlz E.Xyudcest, Vilyam Cenniqs Braman və Altan B.Narkere daxil edilmişdi.[126] Həmin komitənin qalan üzvləri konqres üzvlərindən, Universitet nümayəndələrindən, qubernatorlardan ibarət olmuşdur.

Beləliklə, daşnak hökuməti İrəvan quberniyasında özlərinə məxsus məkrli təmizləmə siyasətlərini, yəni oradan azərbaycanlıların tamamilə çıxarılması siyasətlərini ardıcıl tətbiq etdilər. Kütləvi qırğın və kəndlərin dağıdılması azərbaycanlıları məcbur etdi ki, öz doğma tarixi yerlərini tərk etsinlər. Nəticədə İrəvan quberniyasının 180 min, yaxud $^2/_3$-dən çox azərbaycanlı əhalisi məhv edildi və ya qaçqına çevrildi.[127]

Belə bir mürəkkəb şəraitdə Milli Şuranın noyabr ayının 20-də keçirilmiş iclasında qəbul edilmiş qərarında Azərbaycanda yaşayan bütün xalqların və siyasi partiyaların təmsil olunması nəzərdə tutulurdu. Azərbaycanda yaşayan ermənilərə 21 deputat yeri verilmişdi.[128] Erməni deputatları Azərbaycan parlamentində birinci dəfə 1919-cu il fevralın 18-də iştirak etdilər. Parlamentin sədr müavini Həsən bəy Ağayev onları Parlamentə təqdim etdi. Bu Azərbaycan ərazisində azlıqda yaşayan millətlərin hüquq bərabərliyinə malik olmasını göstərirdi. Bu milli ədavətə son qoymaq arzusundan irəli gəlirdi. Lakin daşnaklar Azərbaycan xalqına qarşı qırğını qəzalarda davam etdirdilər, çünki məqsədləri Azərbaycan ərazisi hesabına Ermənistan dövləti yaratmaqdan ibarət idi.

Azərbaycanın müstəqilliyi elan edildikdən sonra mühüm vəzifələrdən biri ərazi bütövlüyünü təmin etməkdən ibarət idi. Azərbaycan hökumətinin Xarici İşlər Nazirliyinin məlumatına görə 1920-ci ilin əvvəllərində Respublikanın ərazisi 113.896 kv. km bərabər idi. Bunun 97. 298 kv. km-i mübahisəsiz, 16. 599 kv. kilometri isə mübahisəli ərazi idi. Mübahisəsiz ərazilərə Bakı quberniyası (39.075 kv. km.), Gəncə quberniyası (44.371 kv. km), Zaqatala quberniyası (3.993 kv. km), Naxçıvan və Şərur-Dərələyəz qəzaları (9.859 kv. km) daxil idi. Mübahisəli ərazilərə isə İrəvan quberniyasının İrəvan, Sürməli, Yeni Bəyazid və Eçmiədzin qəzalarının, Tiflis quberniyasının Tiflis, Siqnax, Axalsixi və Borçalı qəzalarının azərbaycanlılar yaşayan rayonları aid idi. Aşağıdakı ərazilər Zaqafqaziya respublikaları arasında uzun sürən mübahisələrin, toqquşmaların obyekti olmuşdur:

- Zaqatala mahalı Azərbaycanın inzibati tabeliyində idi. Mahal əhalisinin 85 min nəfəri, yaxud onun bütün sakinlərinin 92%-i müsəlmanlar idi. Gürcüstan bu mahal barəsində ərazi iddiası irəli sürürdü.

- Siqnax qəzasının qərb hissəsində gürcülər, şərq hissəsində isə azərbaycanlılar məskunlaşmışdılar. Gürcülər azərbaycanlılar yaşayan şərq hissəyə göz dikib, əslində oranı tutmuşdular.

- Qarayazı düzü, Gəncə, Qazax düzənliyinin davamı olaraq, sakinlərinin 90 faizi azərbaycanlılar olmasına baxmayaraq Gürcüstan tərəfindən qəsb olunmuşdu. Səbəb onun Tiflis qəzasının ərazisində olması idi. Bunun qaytarılması uğrunda Azərbaycan çalışırdı.

- Borçalı qəzası. Onun Axaltsixi qəzasının sərhədlərinədək mərkəzi hissəsində azərbaycanlılar (38 min nəfər), cənub hissəsində ermənilər (34 min nəfər), şimal hissəsində isə gürcülər (4 min) məskunlaşmışdılar.

Azərbaycan qəzanın bütün mərkəzi hissəsinin iddiasında idi. Çünki əhalinin 93 faizini azərbaycanlılar təşkil edirdi. Ermənistan qəzanın cənub hissəsinə göz dikmişdi. Gürcüstan isə qəzanın bütün ərazisinə yiyələnməyə çalışırdı.

- Gəncə qurberniyasının Qazax qəzası. Qəzanın aran hissəsində azərbaycanlılar (bütün əh. 50,9 faizini təşkil edirdilər), dağlıq hissəsində isə ermənilər (45,7 faiz) yaşayırdılar. Ermənilər qəzanın bütün ərazisini öz torpaqlarına qatmağa cəhd edirdilər.

- Qarabağın dağətəyi hissəsində əsasən ermənilər məskunlaşmışdılar. Ermənistan bu torpağın iddiasında idi. Bütün Qarabağda 170 min erməni, 415 min azərbaycanlı və kürd yaşayırdı. Qarabağda erməni əhalisinin sayının xeyli artması ermənilərin buraya Türkiyə və İrandan elliklə köçürülüb gətirilməsi ilə, habelə çar hökumətinin köçürmə siyasəti ilə bağlı idi.

- Axaltsixi qəzası. Burada 52 min nəfərdən çox azərbaycanlı (bütün qəza əhalisinin 73,5 faizi), 23 min erməni (12,5 faizi), 10 min gürgü (8,8 faizi) yaşayırdı. Türklər çıxıb getdikdən sonra qəza gürcülər tərəfindən tutulmuşdu. Azərbaycan Respublikası bu qəza ilə bağlı iddia irəli sürürdü.

- Naxçıvan və Şərur-Dərələyəz qəzaları. Azərbaycanlılar məskunlaşmışdılar. Tək-tük ermənilər də vardı. Ermənistan bu qəzaların da iddiasında idi.

- Zəngəzur qəzası. Bu istər əhali, istər ərazi cəhətdən Azərbaycanın ən böyük qəzası idi. Burada 123 min nəfərdən çox azərbaycanlı və 99,2 min erməni yaşayırdı. Qəzanın azərbaycanlı əhalisi daşnaklar tərəfindən dəhşətli soyqırımına məruz qalmış, öz ata-baba yerlərindən qovulub didərgin salınmışdı. 1921-ci ilin əvvəlinədək qəza Ermənistanın inzibati tabeliyinə verilmişdi.[129]

Regiondakı mübahisəli sərhəd məsələlərini həll etmək üçün Azərbaycan hökuməti 1918-ci il iyunun 20-də qonşulara danışıqlar aparmağı təklif etdi və iki gündən sonra Gürcüstan və Ermənistana həmin məsələ haqqında təklif verildi. Belə bir razılıq əldə edildi ki, mübahisəli ərazi məsələləri danışıqlar yolu ilə həll edilsin. Bu cəhətdən Zaqatala məsələsi dinc yolla həll edildi. Əhalisinin 91,9 faizi müsəlmanlardan ibarət olan Zaqatalanın əhalisi Azərbaycan Demokratik Respublikası hakimiyyətini tanıdı və Azərbaycanın tərkibində olmaq əzmini bildirdi. Zaqatala, Qax və Balakən ərazilərini əhatə edən Zaqatala quberniyası təşkil edildi. Məmmədağa Şahmalıyev qubernator təyin edilməklə quberniya və yerli idarə orqanları yaradıldı.[130]

Ermənistana gəldikdə o, Azərbaycanın qədim torpaqları olan Naxçıvan, Qarabağ və Zəngəzur mahallarına qarşı ərazi iddiaları irəli sürdü. Daşnak generalları Andranikin, Dro və Njdenin (2 axırıncılar sonralar faşistlərə xidmət etdilər) quldur dəstələri həmin mahallarda azərbaycanlılara divan tutdular. Andranik Şuşanı «Kiçik Ermənistan»ın paytaxtına çevirməyə çalışarkən Qarabağda dəhşətli qırğınlar törətdi.

Ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi işində ən çətin məsələ Dağlıq Qarabağ ətrafında yarandı. Vaxtı ilə Cavanşir, Qaryagin və Şuşa qəzaları birlikdə Qarabağ adlanırdı. Sonralar bu adın mahiyyəti tədricən itdi

və əvvəllərdən olan Qarabağ üç qəzaya parçalandı. 1917-ci ilə kimi burada vahid vilayət yox idi. Ancaq Zaqafqaziyanın üç müstəqil respublikaya bölünməsindən sonra həmin ifadə – yəni Qarabağ ifadəsi irəli sürüldü.[131] Hələ Qarabağda Müsavat hökuməti yaranana qədər Türkiyə hökuməti bura Qarabağ general-qubernatoru təyin etmişdi və bu dövrdən daşnaklar tərəfindən yaradılan yeni bir ifadə – Dağlıq Qarabağ ifadəsi meydana gəldi. Türkiyə ermənilərinin kütləvi qırğın törətmələrindən hələ də kifayətlənməyən «Daşnaksütyun» partiyası tərəfdarları ermənilərin yaşadıqları dağlıq yerlərə çəkilərək azərbaycanlılara qarşı mübarizə üçün hazırlaşdılar.

1918-ci ilin aprelində İrəvanda ingilis missiyasının nümayəndəsi polkovnik Temterley erməni dövlətinə müraciət edərək 1914-cü ildə rus dövlətinin ərazisi daxilində hansı əraziləri Ermənistan özünün torpağı hesab etdiyini soruşduqda erməni hökuməti belə cavab vermişdir:

1. Bütün İrəvan quberniyası.
2. Bütün Qars vilayəti.
3. Tiflis quberniyasının dairələri. Axalkalak qəzasının iki hissəsi.
4. Yelizavetpol quberniyasının bir hissəsi.[132]

Bu cavabda hələ o zaman Ermənistanın Azərbaycana qarşı ərazi iddiası aydın nəzərə çarpırdı.

Daşnaklar elə həmin yerdə ilk dəfə olaraq özlərini beynəlmiləlçi adlandıran sosial-demokratlarla birgə Dağlıq Qarabağ hökumətini təşkil etdilər. Lakin onlar tezliklə Dağlıq Qarabağ kəndlilərinin təzyiqi ilə həmin yeri aşağı Qarabağla birləşdirib bütün Qarabağı Azərbaycan hökumətinə tabe etmək məcburiyyətində qaldılar. Bu vəziyyət Ermənistanda daşnak hakimiyyətinin ilk təşkili vaxtlarında belə oldu. Ancaq Ermənistanda hakimiyyət gücləndiyi vaxtdan etibarən Qarabağda geniş iş başlandı. Daşnak hakimiyyəti Dağlıq Qarabağa öz xüsusi adamlarını gizli şəkildə göndərərək, məhz Dağlıq Qarabağı Ermənistanla birləşdirmək təbliğatı

apardılar. Daşnakların bu işinə əsasən kommunistlər mane olaraq bildirdilər ki, Qarabağ iqtisadi cəhətdən Azərbaycanla sıx bağlıdır və buna görə də Dağlıq Qarabağı aşağı Qarabağdan ayırmaq, əlaqəsini kəsmək olmaz.

Məhz 1918-ci ildə ermənilər-azərbaycanlılar arasında münaqişə ermənilərin əsassız iddiaları üzündən Dağlıq Qarabağ üstündə başlandı. Osmanlılar gedəndən sonra Andranik bu göstərilən ərazidə erməni hakimiyyəti yaratmağa cəhd göstərdi. Yerevanın təzyiqi ilə hətta Qarabağdakı erməni əhalisinin müəyyən təbəqələri Azərbaycanın hakimiyyətini tanımaqdan imtina etdilər. 1918-ci ilin iyulunda Şuşada Dağlıq Qarabağ ermənilərinin birinci qurultayı keçirildi və bura müstəqil elan edildi. Doğrudur, Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi açıq elan edilməsə də lakin Ermənistan hökuməti bura haqqında olan işğalçı planlarını həyata keçirmək üçün Dağlıq Qarabağa silahlı qüvvələr göndərdi. Buranın zəngin torpaqlarını ələ keçirməyə çalışan Ermənistan hökuməti kütləvi qırğından belə çəkinmədi.

Ümumiyyətlə, bu dövrdə Zaqafqaziya respublikaları arasında çox kəskin ziddiyyətlər əmələ gəlmişdi. Ermənistan Azərbaycana qarşı ərazi iddiaları irəli sürdüyü kimi Gürcüstana qarşı da kəskin mövqedə idi. Mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək üçün Azərbaycan hökuməti Ermənistan və Gürcüstan hökumətinə üç respublika nümayəndələrinin iştirakı ilə müşavirə keçirməyi təklif etdi. Bu təklif general-qubernatorluğunu yaratdı. 1919-cu il fevralın 12-də Xosrovbəy Sultanov olundu və həmin məqsədlə 1918-ci ilin noyabrında Tiflisdə konfrans keçirilməli idi. Lakin Ermənistan hökumətinin nümayəndəsi gəlmədiyinə görə konfrans baş tutmadı. Ermənistan hökuməti konfransa gəlmədiyinin səbəbini özünün təcavüz siyasəti ilə nümayiş etdirdi. Belə ki, 1919-cu ilin yanvarında Ermənistan Azərbaycana qarşı ərazi iddiasını açıq şəkildə irəli sürdü. Bu əsassız hərəkətin qarşısını almaq üçün Azərbaycan hökuməti Şuşa,

Cəbrayıl, Cavanşir, Cəbrayıl, Cavanşir, Zəngəzur qəzalarından ibarət Qarabağ general-qubernator təyin edildi. Azərbaycan hökuməti ona tapşırdı ki, Dağlıq Qarabağda münaqişələr törədən qüvvələri ləğv edib orada qayda-qanun yaratsın və yerli hakimiyyət təşkil etsin. Xosrov bəyin general-qubernator təyin edilməsi Qarabağda və Zəngəzurda ermənilərin basqınlarının qarşısının alınmasında mühüm rol oynadı.[133]

Beləliklə, 1919-cu ilin yazında Azərbaycan hökumətinin məqsədyönlü xarici siyasəti nəticəsində Azərbaycan dövlətinin suveren hüquqları bərpa edildi. Dağlıq Qarabağda, Zəngəzurda və başqa bölgələrdə bunun əldə edilməsində X.Sultanovun xidmətlərinin böyük əhəmiyyəti oldu.

Lakin X.Sultanovun fəaliyyəti ilə heç cürə razılaşmayan ermənilər buna öz etirazını bildirdilər. Hətta Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Xarici İşlər Nazirliyinə 1919-cu il 26 yanvar tarixli 123 nömrəli göndərdiyi sənəddə Azərbaycan hökumətinin Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları üzrə general-qubernatorluq yaradılması haqqında olan qərara erməni hökumətinin etirazını bildirdi. Xarici İşlər Naziri S.Tiqranyan bunu hətta «Ermənistanın ərazi hüquqlarına qəsd» kimi qiymətləndirdi. Buna cavab olaraq 1919-cu il 31 yanvar tarixli 176 nömrəli teleqramda Ermənistan Xarici İşlər Nazirliyinə Azərbaycan Xarici İşlər Naziri Ədilxan Ziyadxanov bildirdi ki, müvəqqəti general-qubernatorluğun təşkili Azərbaycanın öz daxili işidir. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Sizin bizim daxili işimizə qarışmaq təşəbbüsünüz respublikanın suverenliyinə qarışmaq cəhdidir.[134]

Ermənistan hökuməti hətta Xosrov bəy Sultanovun general-qubernator təyin olunmasına da razı deyildi. Bu məsələ ilə əlaqədar olaraq Ermənistan Tiflisə Zaqafqaziyada Britaniya qoşunları komandanı general-mayor Forest Uokkerə və Bakıya general Tomsona da məlumat vermişdi. 1919-cu il 24 fevral tarixli F.Uokkerdən Yerevana Xarici İşlər Nazirinə daxil olan radioqrammada göstərilirdi ki, Ba-

kıdan general Tomson bildirir ki, doktor Sultanov Şuşaya Qarabağın general-qubernatoru kimi göndərilir. O, həmin yerə göndərilir ki, qanun və intizamı qorusun. Millətlərarası münasibətləri tənzim etsin. Doktor Sultanov çox bacarıqlı, siyasi cəhətdən hazırlıqlı və oraları yaxşı tanıyan siyasətçidir.[135]

Zaqafqaziyada Britaniya qoşunları komandanı general-mayor Forest Uokker Ermənistan Xarici İşlər Naziri Tiqranyanın 1919-cu il 28 fevral tarixli məktubuna 1919-cu il 5 mart tarixli cavabında Ermənistan Xarici İşlər Nazirinə bildirirdi ki, doktor Sultanovun general-qubernator təyin edilməsi Azərbaycan Respublikasının daxili işidir. General-mayor Tomsonun həmin məsələyə razılığının əsas məqsədi sülh konfransının qərar qəbul etməsinə qədər həmin yerlərdə qanun və qaydanı qorumaqdır.[136]

Bu vəziyyətdən nəticə çıxartmaq istəməyən Ermənistan hökuməti yeni bir məsələni irəli sürdü. Ermənistanın Xarici İşlər Nazirliyi 1919-cu il 11 mart tarixli müraciəti ilə Azərbaycanda Britaniya qüvvələrinin komandanı general Tomsona bildirdilər ki, Vilayətin erməni hissəsində Qarabağ general-qubernatorluğunun buranı idarə etmək səlahiyyətini dayandırsın. Bununla bərabər Tomson İrəvana dəvət olundu. 1919-cu ildə martın 28-də Ermənistan respublikasının Baş naziri ilə general Tomson arasında uzun sürən söhbət oldu. Söhbətdə Ermənistan hökuməti general Tomsona təklif etdi ki, Qarabağın ermənilər yaşayan hissəsinin idarə olunması əhalinin arzusuna uyğun olaraq Erməni Milli Sovetinin ixtiyarında qalsın. Çünki Ermənistan hökuməti bu vilayəti Ermənistanın ayrılmaz hissəsi hesab edir.[137]

Ermənistan hökuməti, qısaca olaraq, göstərilən sənədlərdən də məlum olur ki, özləri üçün bir nəticə çıxartmadılar. Qarabağ qubernatorluğunun yaradılmasına olan etirazlarını ermənilər hətta müttəfiq dövlətlərin Zaqafqaziya Baş Komissarı polkovnik Hiskelə də bildirdilər. Ancaq onlar ermənilərin cəhdlərinə məhəl qoymadılar. Azərbaycanın həmin tədbirlərini şübhə altına almadılar və əksinə onu müdafiə et-

dilər. General Tomson ermənilərin etirazına cavab olaraq bildirdi ki, məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, sülh konfransı həll edəcəkdir.[138]

1919-cu ilin aprelində ingilis hərbi qüvvələrinin nümayəndəsi Şattelvort Bakıda Şuşaya getdi və orada ermənilərin qurultayında (23 aprel) çıxış edərək onları Azərbaycanın hakimiyyətini tanımağa çağırdı.[139] («Azərbaycan» qəzetinin (rusca) mayın 4-də verdiyi məlumata görə Qarabağın əhalisi ingilis nümayəndəsinin çıxışını son dərəcə razılıqla qarşıladı.).

Akademik T.Köçərli yazır ki, Şattelvortun qurultayda iştirakı haqda general A.İ.Denikin məlumat vermişdi ki, o Qarabağ ermənilərinin qurultayına təklif etmişdir ki, sülh konfransının qərarına qədər qubernator təyin edilmiş X.Sultanovun şəxsində Azərbaycan hökumətinə tabe olsunlar. Lakin erməni lobbisinin təsiri altında qurultay general-qubernatorluğa tabe olmağın yolverilməzliyi qətnaməsini qəbul etdi və Qarabağa ingilis qubernatorunun təyin edilməsini xahiş etdi. Şattelvort bu təkliflə razılaşmadı və Sultanovun qanuni hakimiyyətinin tanınması haqqında əmr verdi. Aprelin 25-də Şuşada Britaniya hərbi missiyasının rəisi Monk-Meson Qarabağ general-qubernatorluğu ərazisində hər hansı bir tərəfin hərbi güc tətbiq etməsinin qadağan olunduğunu elan etdi.[140]

Lakin erməni separatçıları sakitləşmədilər, öz pozuculuq və ədavət yaymaq fəaliyyətlərini davam etdirdilər. Belə olduqda, millətlər arasında nifaq salmağa cəhd göstərən bir neçə millətçilər Azərbaycandan qovuldular. Şuşada general-qubernator Sultanovla bir neçə yüz ermənin görüşü oldu və onlar Azərbaycanın hakimiyyətini qəbul etdilər. Bununla da Qarabağda yaşayan erməni zəhmətkeşlərinin əksəriyyəti həmişə olduğu kimi yenə də Dağlıq Qarabağın Azərbayca-

nın tərkibində qalması tərəfdarı olduqlarını bildirdilər. Hətta 1919-cu ildə rəy sorğusu keçirilən zaman da bunu açıq ifadə etdilər. Ermənilərin Qarabağda əsassız olaraq irəli sürdükləri ərazi iddialarını etiraf edən A.Mikoyan 1919-cu il mayın 22-də Leninə verdiyi məlumatda bildirdi: Ermənistan hökumətinin casusları olan daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar. Lakin bu, Qarabağın əhalisi üçün Bakıda öz yaşayış mənbələrindən məhrum olmaq və heç bir zaman və heç nə ilə bağlı olmadıqları Erivanla taleləri bağlamaq demək olardı. Erməni kəndliləri beşinci qurultayda Azərbaycanı tanımaq və ona qoşulmaq qərarına gəlmişlər.[141]

Belə bir şəraitdə Azərbaycan hökumətinin nümayəndəsi 1919-cu il iyulun 30-da Şuşaya gəldi. Respublika Baş Nazirinin rəhbərliyi altında nümayəndə heyəti şəhər məscidində oldu. O, buradakı çıxışında müsəlmanlarla başqa millətlər arasında sülh şəraitində yaşamağın zəruriliyindən danışdı. Sonra onlar erməni kilsəsinə getdilər və burada çörəklə-duzla qarşılandılar. Yepiskop Azərbaycan dilində çıxış etdi. O iki millətin tarixi dostluq şəraitində yaşamasının əhəmiyyətindən danışdı və çoxlu faktlara istinad etdi. Bundan az sonra 1919-cu il avqustun 15-də Qarabağın dağlıq hissəsi ermənilərinin qurultayı oldu və qurultay Sülh konfransı qərar çıxardana qədər Azərbaycan hökuməti ilə müvəqqəti razılaşma haqqında qərar qəbul etdi. Burada qeyd edildi ki, Qarabağın Dağlıq hissəsinin – Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının (Dizaq, Veranda, Xaqen və Carabert) erməni əhalisi Azərbaycan Respublikasının tərkibində qalırlar.[142]

Beləliklə, erməni millətçilərinin diplomatik yolla Dağlıq Qarabağı Ermənistana tabe etmək və onu ora qatmaq cəhdləri boşa çıxdı. Belə olan halda Ermənistan hökuməti yenidən hərbi vasitələrə əl atdı. «Böyük Ermənistan» yaratmaq xəyalı ilə yaşayan daşnaklar İrəvan quberniyasında azərbaycanlıların yaşadıqları bölgələrin əhalisini qırmaq siyasətini daha da gücləndirdilər. Dağlıq Qarabağın müvəkki-

li İsmayıl Sultanov Gəncə qəza rəisinə yazmışdı ki, Göyçə gölünün şimal və şərq tərəflərinin müsəlmanları qırğına məruz qalmışdır; hazırda 60 min əhalisi olan 22 kənd dağıdılmış və əhalisi qırılmışdır. Demək olar ki, Göyçə rayonunda azərbaycanlı qalmayıb. Yeni Bəyazid qəzasında da böyük faciələr törədilmişdi. Erməni caniləri buranın 8 azərbaycanlı kəndini dağıtmış və qarət etmişlər. Qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlarla ölçülürdü.[143]

Andranik öz quldur dəstəsi ilə Azərbaycan kəndlərini talan edə-edə Qarabağa doğru hərəkət etdi. Azərbaycan hökuməti buna özünün qəti etirazını bildirdi. Bunun müqabilində Ermənistan hökuməti Azərbaycan hökumətinə rəsmi şəkildə bildirdi ki, general Andranik və onun hissələri erməni ordusunun tərkibinən çıxarılmışdır. Buna görə də Ermənistan hökuməti onun məsuliyyətsiz fəaliyyətinə cavabdehlik daşımır. Ancaq Ermənistan hökuməti yenə də səmimi olmadı. Yerevanda çıxan qəzetlərin birində 1919-cu il aprelin 27-də yazılmışdı: «Srağagün Andranik və onunla birlikdə min nəfərə yaxın süvari Zəngəzurdan qayıtmışdır. Hökumət Andraniki qarşılamağa Dronu göndərmişdi ki, onlara əsgəri ehtiram göstərilsin.[144] Bu fakt bir daha Ermənistan hökumətinin ikiüzlü siyasətini ifşa edir.

Ermənilər narahat edən mühüm məsələlərdən biri də Qarabağ qubernatorluğunun fəaliyyətinə mane olmaq cəhdlərinin boşa çıxması oldu. Xosrov bəyin general-qubernator təyin edilməsi Qarabağda və Zəngəzurda erməni basqınlarının qarşısının alınmasında mühüm rol oynadı. Bu vəziyyət Erməni Milli Şurasını qane etmədiyindən yeni bir vasitəyə əl atıldı, Şuşada münaqişə törətmək istədilər. Bu münasibətlə Şuşanın erməni hissəsinə gizli silahlar gətirilməsini təşkil etdilər. Erməni Milli Şurası həm də bu tədbiri ilə Zəngəzur yaylaqlarına gedən azərbaycanlıların qarşısını almaq istədi. Xosrov bəy köç gedən yollara Azərbaycan əsgərlərini yerləşdirdi. Milli Şuranın üzvlərinin isə həbs edilib Qarabağdan çıxarılması üçün göstəriş verdi. Buna cavab olaraq silahlan-

mış ermənilər iyun ayının 4-də Azərbaycan əsgərlərinə atəş açdılar və hər iki tərəfdən xeyli itki oldu. Bundan sonra Xosrov bəy Şuşada və ətraf kəndlərdə qayda-qanun yaratmaq üçün fəaliyyətə başladı və Erməni Milli Şurasının üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Baş vermiş hadisə ilə bağlı Şuşa ermənіləri X.Sultanova üzrxahlıq məktubu yazaraq bildirdilər ki, hörmətli Xosrov bəy, icazə verin Sizin şəxsinizdə Şuşa şəhərinin müsəlman əhalisindən törədilmiş hadisə ilə bağlı üzr istəyək. Biz adını erməni qoymuş xuliqanların Sizin əsgərlərə qarşı törətdiyi zorakılıq hərəkətindən çox həcəyanlanmışıq. Biz Sizin əsgərlərin və zabitlərin etirazını, qəzəbini haqlı hesab edirik.[145]

İyun hadisələrini yerli ermənilər belə qiymətləndirdiyi halda, Ermənistan hökuməti Azərbaycan hökumətinə göndərdiyi Notada X.Sultanovun və Azərbaycan ordusunun Qarabağdan çıxarılmasını tələb etmişdir. Lakin bu tələb rədd edildi. Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinski vasitəsilə İrəvan hökumətinə iyun ayının 18-də göndərilmiş teleqramda göstərilirdi: «Ermənistan hökumətinə bildirin ki, Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il qərarı ilə Sultanov Azərbaycanın ayrılmaz hissəsi olan Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarına Azərbaycan Respublikası tərəfindən general-qubernator təyin edilmişdir. Müttəfiq komandanlığı aprel ayının 3-də rəsmi şəkildə bu adamı tanımışdır. Buna görə də Ermənistan hökumətinin Sultanovun fəaliyyəti, Qarabağda Azərbaycan ordusunun olması haqda bütün etirazları Azərbaycan Respublikasının daxili işlərinə qarışması kimi qəbul edilir.[146]

O zamankı həyəcanlı hadisələrin şahidi olan Skotland Liddel «Müsəlmanlarla müharibə, ermənilər yenə hücum edirlər» (30 yanvar 1919-cu il, Tiflis) məqaləsində yazırdı ki, ermənilər həmişə dava-dalaş axtarır və ona nail olanda həmişə öz təbliğatlarında deyirlər ki, amandı qoymayın qırdılar bizi. Daşnak üçün öldürülmüş erməni daha əzizdir. Bun-

dan istifadə edərək, ermənin ölüsü qalxıb haray salır ki, mən özüm ölməmişəm, məni öldürüblər.[147]

Azərbaycan hökuməti erməni canilərinin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətə öz etirazını bildirdi və bunun tezliklə dayandırılmasını tələb etdi. Ermənistan hökuməti təklifi qəbul etmək əvəzinə təcavüzkarlığını daha da genişləndirdi və onu «əsaslandırmağa» çalışdı. 1919-cu il iyulun 4-də polkovnik Aprosimovun komandanlığı altında erməni ordusu Vedi kəndinə doğru hərəkət etdi. Onlar kəndin müdafiəçilərinə danışıqlar aparmaq üçün nümayəndə göndərmələrini bildirdilər. Buna cavab olaraq vedililər iki nümayəndə göndərdilər.[148] Ermənilər nümayəndələrə üç maddədən ibarət tələb təqdim etdilər. Birincisi, silahları təhvil vermək, ikincisi, başçıları ermənilərə ələ vermək, üçüncüsü, ermənilərin sərəncamı olmayana qədər məhsulları yığmamaq. Belə məzmunda danışıqların gedişi vaxtı ermənilərin atlı dəstələri Vedi kəndinə doğru hərəkət edib özləri üçün əlverişli mövqe tutdular. Vedililər bunu görüb qəti şəkildə bildirdilər ki, ermənilər öz hərəkətlərini dayandırıb əvvəlki yerlərinə geri çəkilsinlər. Daşnaklardan heç bir cavab almayan kəndin müdafiəçiləri ermənilərə atəş açdılar və onlar 42 süvari döyüşçü və bir zabit itirib geri çəkildilər. Ermənilər kəndi top atəşinə tutdular və piyada hissələr hücuma keçdilər. Kənd əhalisi əks hücuma keçdi və döyüşdə onlar 4 pulemyot, 400-ə yaxın tüfəng və s. ələ keçirdilər.[149]

Bu məğlubiyyətdən sonra Ermənistanın hərbi nazir köməkçisi olan Droya tapşırıldı ki, Vediyə yeni hücum (4-cü hücum) təşkil edilsin. Böyük hazırlıqdan sonra ermənilər kənd istiqamətində hücuma keçdilər. Bunu bilən kəndin müdafiəçilərinin başçısı, o zaman xalq arasında xüsusi hörməti olan Abbasqulu Şadlinski qərara aldı ki, döyüşü böyük hərbi strateji əhəmiyyətə malik olan kəndin özündə keçirsin. Buna görə də heç bir müqavimətə rast gəlməyən erməni bandası kəndin boşaldığını güman edib irəlilədilər. Lakin onlar kəndə daxil olan anda böyük müqavimətə rast gəldi-

lər. Hətta döyüşdə kənd əhalisi yaba, balta və s. istifadə etdilər. Üç saatdan artıq davam edən döyüşdə düşmən məğlub oldu, mindən artıq canlı qüvvə və silah itirdi.[150] Bu vaxt İngiltərə komandanlığı tərəfindən hərbi əməliyyatların dayandırılması təklifi daxil oldu və bununla da müvəqqəti sakitlik yarandı.

Benlə şəraitdə 1919-cu ilin iyulunda Dağlıq Qarabağ ermənilər nümayəndələrinin VI qurultayı keçirildi. Burada məqsəd Azərbaycan hökumətinə tabe olmaq və ya olmamaq məsələsini aydınlaşdırmaq idi. Qarabağın erməni kəndliləri özlərinin qurultayında Azərbaycanla tam birliyə səs verdilər və Azərbaycana qoşulmağı qərara aldılar.[151]

Qurultayda Azərbaycan parlamentinin üzvü Ş.B.Rüstəmbəyov hökumət nümayəndəsi kimi iştirak etdi. Digər tərəfdən 1919-cu ilin avqustunda Azərbaycan hökumətinin Qarabağın dağlıq hissəsində yaşayan erməni əhalisi ilə razılığa əsasən ADR-in həmin ərazi üzərindəki suverenliyi onlar tərəfindən tanındı. Azərbaycan hökumətinin gərgin səyi nəticəsində 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında müqavilə imzalandı. İmzalanan müqaviləyə görə toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən də sərhəd məsələləri danışıqlar yolu ilə həll edilməli idi. Bu müqaviləyə sadiq qalmaq əlaməti olaraq Azərbaycan hökuməti öz hərbi hissələrini Zəngəzurdan geri qaytardı. Ermənistan isə bu müqaviləni kobud surətdə pozub öz hücumlarını davam etdirdi. Erməni banda dəstələri Zəngəzura hücum edib 40-a qədər azərbaycanlıların yaşadıqları kəndləri darmadağın etdilər.[152]

Ümumiyyətlə, Zəngəzurda olan vəziyyəti öyrənmək, ermənilər və müsəlmanlar arasında barışıq yaratmaq məqsədilə general Tomson mayor Hibbonun başçılığı altında hələ 1918-ci ilin axırlarında Gorusa nümayəndəlik göndərmişdi.[153] Hibbon nümayəndələrlə görüşündə elan etmişdi ki, Tomsonun qərarına görə Yevlaxdan başlayaraq Həkəri çayına qədər olan yerlər Azərbaycan hökumətinin, Həkəri

çayından isə Gorusadək uzanan yerlər, eləcə də Türkiyədən qaçan ermənilərin yerləşdiyi Zəngəzur qəzasının bütün bölgələri Andranikin idarəçiliyində olmalıdır. Andranikə tabe edilən bölgələr böyük bir ərazini – Minkənd kəndindən başlamış Araz çayı boyu İrəvan quberniyasının sərhədinədək, eləcə də Minkənddən başlamış Bazarçayadək və oradan da Naxçıvan qəzasının sərhədinə qədər olan əraziləri əhatə edirdi. Bu azmış kimi Tomson F.Xoyskiyə göndərdiyi məktubda Gəncə quberniyasının bəzi bölgələrinin mühafizəsinin də İngiltərə komandanlığı tərəfindən Andranikə tapşırılmasını bildirmişdi.[154]

Belə bir münasibətin nəticəsi idi ki, Andranik Zəngəzur qəzası ərazisində sərbəst hərəkət edərək azərbaycanlılara qarşı öz qəddarlığını davam etdirmişdi. Ermənilərin həmin ərazidə törətdikləri hadisələr haqqında Azərbaycanın Daxili İşlər Nazirliyinə Zəngəzur qəza rəisinin 11 dekabr (1918-ci il), Gəncə qubernatorunun 6 yanvar (1919-cu il) tarixli teleqramlarında aydın məlumatlar verilmişdi. Bu sənədlərdə göstərilirdi ki, ingilis-fransız nümayəndəliyinin Gorusa gəlməsinə baxmayaraq erməni silahlı qüvvələri azərbaycanlı kəndlərini dağıdır, əhalini öldürür və kütləvi şəkildə qovurlar. İngilis nümayəndəliyi erməni zorakılığına qarşı heç bir qəti tədbir görmür.[155]

Buna görə də ermənilər göstərilən bölgələrdə sərbəst hərəkət edirdilər. Belə şəraitdə ən təhlükəli vəziyyət yenidən Qarabağda yarandı. Təhlükənin səbəblərindən biri ermənilərin Yevlaxdan Zəngəzura, Sisyana və İrəvana gedən yolu ələ keçirmək cəhdləri idi. Həmin yol ermənilərin əlinə keçərdisə, bütün Qarabağ üçün böyük təhlükə yarana bilərdi. Bu zaman Qarabağ daşnaklarının rəhbəri xaricdən gəlmiş yüksək rütbəli Teyvan idi. Ermənilər Şuşaya daxil olmağa can atırdılar. Daşnakların orada hərbi cəbbəxanası var idi. Buna görə də general Njde (ona Njde paşa deyirdilər) Gorus şəhərindən Sultan bəyə nota yazıb tələb etmişdi ki, daşnak qoşunlarının Şuşaya getməsinə mane olmasın. Sultan bəy

onun tələbini rədd edib Şuşaya gedən yolun ətrafında güclü qoşun toplamışdı.

Bu vəziyyət ermənilər yenidən narahat etmişdi. Çünki ermənilər Zaqafqaziyaya ingilislərin gəlişi ilə öz məsələlərinin tam həll olunmasına nail olacaqlarına böyük ümidlə yanaşmışdılar. Hətta bunu Daşnak hökumətinin başçısı Ov.Kaçaznuni 1919-cu il martın 7-də ingilis generalı Uokkerlə olan söhbətində də açıqlayaraq demişdi: Ermənilər tam əmin idilər ki, müttəfiqlərin qələbəsi və Qafqaza gəlmələri ilə onların vəziyyəti yaxşılığa doğru qəti şəkildə dəyişəcəkdir.[156] Belə xarakterli söhbətlər Qarabağ Erməni Milli Şurasının sədri A.Şahnəzərovun ingilis polkovniki Şattelvort ilə görüşündə də eşidilmişdi. O Azərbaycan hökuməti və xalqı haqqında müxtəlif böhtanlar yağdıraraq demişdi: Azərbaycan hökuməti öz ərazisində belə qayda-qanun yaratmağa qadir deyildir, onların xalqına gəldikdə, bizə nisbətən mədəniyyətsizdirlər. Buna görə də mədəni olan xalqı mədəniyyətsizlərə tabe etmək etmək olmaz. Şattelvort Şahnəzərova cavabında demişdi: Razı deyiləm, ermənilərin və azərbaycanlıların mədəni səviyyəsi eynidir, xəbərdarlıq edirəm: Azərbaycana və onun general-qubernatorluğuna hər hansı zorakılıqlar İngiltərə əleyhinə çıxışlardır. Biz o dərəcədə güclüyük ki, Sizi tabe olmağa məcbur edə bilərik.[157] Buna baxmayaraq ingilislərin mövqeyi ermənilərə meyil etmə xarakteri daşıyırdı.

1919-cu il iyunun 25-də general Şattelvortla X.Sultanov arasında Qarabağ məsələsi haqqında söhbət olmuşdu. Söhbətdə ingilislərin Qarabağ məsələsində üzərlərinə götürdükləri öhdəliklər və onlara əməl edilməməsi məsələlərinə toxunulmuşdu. Qarabağ məsələsinin həllinin ləngidilməsi, Zəngəzur idarəçiliyinin müvəqqəti olaraq erməni Milli Şurasına verilməsi (halbuki bu bölgə Qarabağ general-qubernatorluğuna tabe idi), Dağlıq Qarabağda Azərbaycanın hakimiyyətinin bərqərar edilməməsi kimi məsələlər millətlərarası münaqişənin hələ də davam etməsinə öz mənfi təsirini

göstərən amillər kimi qeyd olunmuşdur. Bu isə ingilis nümayəndəliyinin daşnaklara havadarlıq etməsini aydın göstərirdi və millətlərarası ədavəti qızışdırırdı. Zəngəzur qəza rəisi M.Namazəliyev Azərbaycan hökumətinə göndərdiyi teleqramda bildirmişdi ki, böyük dövlətlərin nümayəndələrinin gözləri qarşısında azərbaycanlıları vəhşicəsinə qırırlar.[158]

Məhz belə şəraitdən istifadə edən və özünü «Zəngəzur kralı» elan edən Njde qoşun hissələrini basıb Şuşaya getmək qərarına gəldi. Bu məqsədlə Andranik Abdallar kəndindən Şuşaya getmək üçün Sultan bəydən yol istəmişdi. Yüksəl Özgür «Zəngəzur hadisələri» haqqında (Bax: Türk dünyası tarix dərgisi. № 119, 1996) dövrün hadisələrini şərh edərək yazmışdır ki, Andranik elçiləri vasitəsilə Sultan bəyə çatdırmışdır ki, əgər Qarabağa keçmək üçün təhlükəsizliyimiz təmin edilərsə Sənə istədiyin qədər qızıl verərəm. Sultan bəy «bu ölkənin igidləri vətən, torpaq namusunu pula satmazlar» – cavabını vermişdir.

Ancaq xalqı ağır vəziyyətdən qurtarmaq üçün Sultan bəy Şuşada çalışan çox ağıllı və tədbirli qardaşı general Xosrov bəylə görüşüb-məsləhətləşdikdən sonra Andranikə bildirmişdi ki, onun Qarabağa hərəkətinin təhlükəsizliyini təmin etmək üçün müəyyən qədər silah lazımdır. Buna cavab olaraq Andranik Sultan bəyə 20 qatır yükü silah göndərmişdi. Sultan bəy həmin silahlarla süvarilərini silahlandırıb Qala dərəsindən Şuşaya gedən yolda pusqu təşkil etdikdən sonra Andranikə xəbər göndərmişdir ki, yolda şübhə doğurmamaq üçün topları sökdürsün və onun işarəsini gözləsin. Andranik belə edib topları sökdürmüş və yükləri hazırlatdırmışdır. Bundan üç gün sonra Sultan bəy Andranikə xəbər göndərmişdir ki, gecə gəlib keçsin. Andranik xəbəri alandan az sonra silah yüklənmiş 170 qatır karvanını Şuşaya doğru yola çıxarır və özü isə həmin günün səhəri ordu ilə getməyi qərara alır. Həmin gecə Sultan bəy xeyli atlıya neftlə dolu tuluqlar verdirərək Sisyan, Gorus istiqamətində Andranikin keçəcəyi yollarda erməni kəndlərini atəşə tutmaq

tapşırığını verir. Gecə Andranikin silahlı karvanı pusqu yerinə çatdıqda Sultan bəyin adamları həmin yerdən çıxıb karvanın yolunu Kürdhacı kəndinə doğru yönəltmişdilər və bununla da silahlar Andranikin əlindən çıxmışdır.

Abdallar kəndi məsələsinə gəldikdə, Abdallar kəndi yaxınlığında şosse yolu iki dağ arasından keçirdi. Ermənilər həmin yolu keçərkən Sultan bəyin qoşunu hər tərəfdən onların üzərinə güllə yağdırmışdı və bununla da Şuşaya gedən düşmən darmadağın edilmişdi.[159]

Buna baxmayaraq 1919-cu ilin ikinci yarısında daşnaklar başqa yollarla Şuşa şəhərinə böyük qüvvə topladılar. Onların məqsədi şəhərdə olan azərbaycanlıları qırmaq və şəhəri tamamilə ələ keçirmək idi. Ona görə də daşnaklar çox ciddi hazırlıq işlərini görüb hücum vaxtını müəyyənləşdirdilər. Sultan bəy isə onları hər an izləyir və hətta hücum edəcəkləri saatların da vaxtını öyrənirdi. Nəhayət ermənilər müəyyən etdikləri vaxt gecə Şuşanın müsəlman hissəsini mühasirəyə alıb oranı atəşə tutdular. Elə həmin anda Sultan bəyin qoşunu köməyə gəldi və düşmən hissələrinin arxasını kəsdi. Sultan bəyin ordusu dağ tərəfdən ermənilərin mühasirəsini yardı və üç gün davam edən döyüşdən sonra düşmən darmadağın edildi. Bununla Şuşanı Sultan bəy ələ keçirib daşnak qüvvələri üzərində tarixi qələbəni təmin etdi. Lakin çox təəssüf ki, 1992-ci ilin mayında Şuşanın taleyi həll olunarkən Sultan bəy kimi xalqının qeyrətli qəhrəman oğlu tapılmadı. Əksinə bir qrup mənəm-mənəm deyənlərin tarixi xəyanətindən Şuşa ermənilərə təslim edildi. Xalq keçmiş nəslin gözəl və vətənpərvər amallarından bəhrələnmək əvəzinə, xəyanətlə aldadıldı.

1919-cu ilin axırlarında milli münasibətlərin kəskin hal aldığı bir dövrdə Qarabağ mühacirləri və İrəvan daşnakları daşnak hökuməti qarşısında Dağlıq Qarabağın «azad edilməsi» məsələsini kəskinliyi ilə qoydular. Bu tədbirin həyata keçirilməsi üçün Qarabağ kəndlilərini öz avantürist hərəkətlərinə cəlb etmək təşəbbüsü göstərdilər. Bu münasibətlə

Qarabağda bir neçə kənddə müşavirə keçirmək cəhdi göstərdilərsə də bir nəticə verməmdi. İki dəfə müvəffəqiyyətsizlikdən sonra ermənilər nəhayət Ağdərədə özlərinə tərəfdarlar tapdılar. Burada öz bazalarını yaradıb təcavüzü davam etdirməyə çalışdılar.

Azərbaycan hökuməti yenə də münaqişəni nizama salmaq və mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək məqsədilə 1919-cu il dekabrın 14-də Bakıda erməni-Azərbaycan konfransının keçirilməsinin təşəbbüsçüsü oldu. Konfransı Azərbaycanın Xarici İşlər Naziri M.Cəfərov açdı. Konfransın gündəliyində sərhədləri dəqiqləşdirmək, dəmiryolu və ticarət haqqında müqavilələr bağlamaq, qaçqınlar məsələsi və s. dururdu. Əlbəttə, qaçqınlar məsələsi ən vacib məsələlərdən idi. Çünki bu cəhətdən Azərbaycanda vəziyyət olduqca ağır idi. Təkcə 1919-cu ilin yanvarından Cavanşir, Şuşa, Cəbrayıl qəzalarına 40 minə qədər, Gəncə mahalına 21 mindən çox, Şamaxı mahalına 25,8 min, Nuxa mahalına 5,1 min qaçqın gəlmişdi. Ümumiyyətlə, qaçqınların sayı 100 minə çatırdı.[160]

Buna baxmayaraq konfransın qərarları Ermənistan nümayəndələri tərəfindən əsassız şəkildə rədd edildi. Qaçqınlar məsələsi Azərbaycan hökumətinin diqqətindən yayınmadı. Onların vəziyyəti ilə tanış olmaq və yardım göstərmək haqqında respublika hökumətinin 17 fevral (1919-cu il) tarixli qərarı qəbul edilmişdi. Eyni zamanda qaçqınların vəziyyətini öyrənmək və onlara yardım etmək sahəsində Azərbaycan Respublikası Dövlət Himayədarlıq Nazirliyinin fəaliyyətinin də əhəmiyyətli rolu olmuşdu. Nazirliyin Qarabağa xüsusi komissiya göndərməsi, komissiya qaçqınların vəziyyətlərinin öyrənilməsində və ehtiyaclarının ödənilməsində az iş görmədi. Bununla bərabər hökumətin Respublika Ticarət və Sənaye Nazirliyinə 20 min pud məhsul, Ərzaq Nazirliyinə təkcə Şamaxı qəzasının qaçqınları üçün üç min pud buğda buraxılması haqda sərəncamları, habelə qaçqınların ehtiyacları üçün 1919-cu ilin martında 10 milyon manat[161] pul ayırması qaçqınlara olan qayğının ifadəsi idi.

Ermənistan hökuməti təcavüz siyasətini heç bir təşəbbüsə, danışıqlara məhəl qoymadan davam etdirirdi. Özgə sümükləri hesabına «birləşmiş Ermənistan» yaratmaq daşnakların əsas proqramı idi. Hətta onlar müharibə dövründə (birinci dünya müharibəsi nəzərdə tutulur) müttəfiqlərin işinə yaradıqlarına görə böyük dövlət yaratmaqla mükafatlandırılmalarını istəyirdilər. Layihəsi çəkilən «Böyük Ermənistan»ın sərhədləri Qərbdə Aralıq dənizindəki İsgəndəriyyə limanına çatırdı. Həmin dövlətin tərkibinə Şərqi Anadolunun 7 vilayəti, İrəvan quberniyası, Tiflis quberniyasının cənub hissələri, həmçinin Azərbaycanın Zəngəzur, Cavanşir, Qazax, habelə Gəncə qəzasının ayrı-ayrı hissələri daxil olmalı idi.[162]

Buna görə də Ermənistan hökuməti Qarabağda, Zəngəzurda, Naxçıvan və Qarsda dəhşətli faciələr törətdi. Bütün bunlara baxmayaraq Ermənistanın Dağlıq Qarabağı diplomatik və hərbi yollarla ələ keçirmək cəhdlərinin qarşısı alındı.

Qarabağda təcavüz siyasətlərinə kəskin cavab aldıqdan sonra Ermənistan hökuməti və erməni lobbisi tez bir anda dünya ictimaiyyətinin diqqətini özlərinə cəlb etməyə çalışdılar. Fransanın, İngiltərənin ali komissarlıqlarından və polkovnik Qabbadan Azərbaycan hökumətinin ünvanına daxil olan sənəddə təcili olaraq Zaqafqaziya xalqları arasında bütün məsələləri sülh yolu ilə həll etmək tələb olundu.[163] Buna cavab olaraq Azərbaycan Demokratik Respublikasının Xarici İşlər Naziri Fətəli xan Xoyski Fransanın, İngiltərənin ali komissarlıqlarına və polkovnik Qabba 5 aprel 1920-ci il tarixli teleqramda bildirdi: Azərbaycan hökuməti həmişə Zaqafqaziya xalqları arasında bütün məsələlərin sülh yolu ilə həll edilməsi mövqeyində dayanmış və dayanır. Özünün sülhsevər siyasətini dəfələrlə də sübut etmişdir. Ancaq Azərbaycanın təsiri olmadan sülhün pozulmasına az cəhdlər də olmamışdır. Misal olaraq Naxçıvan, Sürməli, Zəngəzur bölgələrində azərbaycanlılara qarşı törədilən cinayətləri misal göstərmək olar. Lakin Azərbaycan hökuməti münaqişəni həmişə danışıqlar vasitəsilə aradan qaldırmağa çalışmışdır.[164]

Bununla bərabər 1919-cu ildə Tiflisdə Zaqafqaziya Respublikalarının konfransında da Azərbaycan hökuməti yenə də bütün mübahisəli məsələləri sülh yolu ilə həll etmək təklifini müdafiə etmişdi. Bunun müqabilində ermənilər yenə də saxtakarlıq etmişdilər. Bunu təsdiq edən arxiv sənədlərindən aşağıdakı faktı göstərmək erməni millətçilərinin mövqeyinin ifşası üçün dəyərli sübutdur. Gərginliklə əlaqədar olaraq Bakıda konfrans keçirilməsi razılığı əldə edilmişdi. Hətta T.Bekzadyan noyabrın 12-də (1919-cu ildə) M.Cəfərova Ermənistan hökumətinin noyabrın 20-də konfransın Bakıda keçirilməsinə razı olduğu məlumatını çatdırmışdır. Lakin elə həmin gün Ermənistan hökuməti Azərbaycana göndərdiyi 4889 saylı Notasında öz nümayəndəsini konfransa göndərməyəcəyini bildirmişdir.[165]

Azərbaycanın müxtəlif bölgələrində törətdikləri qanlı cinayətləri dünya ictimaiyyətindən gizlətmək və onu tamamilə saxta məzmunda ictimaiyyətə çatdırmaq işində erməni lobbisi də gərgin əmək sərf etmişdir.

Bu şəraitdə I Dünya müharibəsindən sonrakı vəziyyəti tənzimləmək və mübahisəli məsələləri həll etməli olan Beynəlxalq Paris Sülh konfransına nümayəndə göndərməyi Azərbaycan hökuməti zəruri hesab etmişdi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentində sədr Ə.Topçubaşov olmaqla Sülh konfransına gedəcək nümayəndə heyəti təsdiq edildi. 1919-cu il yanvarın 8-də Parisə gedən nümayəndə heyəti yanvarın 20-də İstanbula gəldi. Həmin gündən başlayaraq nümayəndə heyəti Parisə getmək üçün Fransadan 3 ay icazə gözlədi. Belə bir şəraitin yaranmasında erməni lobbisinin Amerika və Avropada Azərbaycan əleyhinə apardığı təbliğat da az rol oynamadı. Bunu təsdiq edən xarici jurnalistlərdən S.Liddel verdiyi məlumatda bildirirdi ki, ermənilər yaxşı təbliğatçıdırlar. Onların təbliğatının təsiri ilə demək olar ki, Avropa, bütün dünya ermənilərin tərəfində idi.

Ermənilər saxta təbliğatla müttəfiqlərin başçılarına Azərbaycan haqqında böhtançı, qərəzli məlumatlar vermiş-

dilər. Əlimərdan Topçubaşov yazırdı: «Biz qonşularımızla birgə işə can atırıq. Lakin qorxuruq ki, sonsuz iştaha malik, öz muradına başqaları, yəni bizim hesabımıza çatmaq istəyən ermənilərlə dil tapa bilməyək. Onlar bəlkə də bütün ölkələrin paytaxtlarında bizim əleyhimizə iş aparır, bizi dövlət həyatına, başqa xalqlarla yanaşı yaşamağa qadir olmayan millət kimi qələmə verirlər.[166]

Erməni təbliğatının təsiri altına düşən fransız və ingilis nümayəndələri Ə.Ağayev haqqında kəskin mövqedə idilər. Onlar açıq şəkildə bildirirdilər ki, həmin jurnalist bizim əleyhimizə yazmışdı və ona görə də onu Parisə aparmaq lazım deyil. Bununla kifayətlənməyən erməni lobbisi hətta 1919-cu il yanvarın 22-də Parisdə çıxan «Renonsanse» qəzetində Azərbaycan nümayəndə heyətinin üzvü Ə.Ağayev haqqında böhtanla dolu bir məqalənin verilməsinə də nail olmuşdu. Həmin məqalədə Ə.Ağayev müttəfiqlər əleyhinə yazan bir türk jurnalisti kimi səciyyələndirilirdi. Ə.Ağayev general Tomsondan zəmanət məktubu almasına baxmayaraq o həbs olundu və ingilislərin nəzarəti altında olan Malta adasına sürgün edildi.

T.Svyatoxovski bu hadisəni haqlı olaraq Azərbaycan nümayəndə heyətinə müttəfiqlərin birinci hörmətsizliyi kimi qiymətləndirmişdir. Ermənilər Azərbaycandan əlavə Gürcüstan və Dağlılar Respublikalarına qarşı da mübarizə aparırdılar. «Renonsanse» qəzeti Parisə gedən Çxeidze və Sereteli haqqında yazırdı ki, onlar Fransaya ona görə gedirlər ki, Petroqrad Sovetinin nümayəndələri kimi bolşevizmi sosializm ruhunda Avropada təbliğ etsinlər.

Fransa hökuməti Azərbaycan nümayəndələrini Parisə buraxmaq istəmirdi, lakin ABŞ-ın yardımı ilə ermənilərin hətta iki nümayəndə heyəti artıq Parisdə idi. Birinci nümayəndə heyəti Avetis Aqranyanın başçılığı altında Ermənistan respublikasını təmsil edirdi, ikinci nümayəndəlik «Türkiyə Ermənistanı»nı və erməni diasporunu təmsil edirdi və buna da Poqos Nubaryan başçılıq edirdi.[167] Hər iki nümayən-

dəlik Qara dənizdən Xəzər dənizinə kimi əraziləri əhatə edəcək «Böyük Ermənistan» planı ilə Parisə gəlmişdilər. Onlar haray salıb tələb edirdilər ki, onlara Antantanın üzvü kimi baxsınlar.

Konfransda erməni nümayəndəliyinin başçısı kimi çıxış edən Poqos Nubaryan demişdi: Müharibənin başlanmasının ilk anlarından ermənilər bütün cəbhələrdə müttəfiqlər tərəfində vuruşdular. 50 minə yaxın erməni könüllüləri Andranikin, Nazarbəyovun və başqalarının rəhbərliyi altında nəinki dörd il ərzində Antanta tərəfində döyüşmüşlər və eləcə də Rusiyada olan dəyişikliklərdən sonra da Qafqazda yeganə qüvvə olaraq mübarizəni davam etdirmişlər.[168] Buna görə də ermənilər qonşu dövlətlərin 19 milyard frank təzminat vermələrini tələb edirdilər.[169]

Azərbaycanda dəhşətli cinayətlər törətmiş Andranik də Fransaya gəldi və 1919-cu il iyunun 15-də Poqos Nubaryanın vasitəçiliyi ilə Fransa prezidenti J.Klemanso bu cəlladı qəbul etdi. O illərdə ABŞ-da və Avropada erməni və onlara xidmət edən mətbuat orqanlarında «Erməni haribaldisi» kimi təbliğ edilən Andranik qəbul zamanı bildirdi ki, bizim erməni xalqı dünya müharibəsi dövründə həm Almaniyaya qarşı, həm də Türkiyəyə qarşı Antanta qüvvələri ilə birlikdə vuruşmuşdur. Qafqazdakı rus ordusunun tərkibində 180 min, Avropada isə 15 min erməni könüllüləri müttəfiqlərin qələbəsi uğrunda vuruşlarda fəal iştirak etmişdir.[170]

Andranik sözünə davam edərək bildirmişdi ki, biz ermənilər bununla Fransanın və onun müttəfiqlərinin ədalətli işinə öz töhfəmizi vermişik. Bütün bunlarla bərabər Andranik söhbətdə Qarabağın müttəfiqlər tərəfindən Azərbaycanın ərazisi kimi tanımalarından olduqca təəccübləndiyini və bu məsələdə ermənilərin tamamilə müttəfiqlərə arxalandıqlarını bildirdi. Andranik ABŞ-a göndərdiyi teleqramda isə erməni məsələsinin həllinə onun müdaxilə etməsini arzu edərək yazırdı: «Biz çox qədim xalqıq. Azadlıq işi naminə millətin sayı nisbətində ermənilər vuruşan ölkələrin hər

birindən çox itkilər vermişdir, ümid edirik ki, müttəfiqlərə görə verdiyimiz itkilər hədər getməyəcəkdir» .[171]

Andranik eyni zamanda Rusiyaya da böyük ümidlə yanaşırdı və belə hesab edirdi ki, konkret şəraitdə erməni məsələsinin taleyi Rusiyadan asılıdır. Hətta 1920-ci ilin iyununda öz dostuna yazdığı məktubda qeyd etmişdi ki, «Belə hesab edirəm ki, Qafqaz və Ermənistan haqqında özünün son sözünü ruslar deməlidir».[172] 1924-cü il aprelin 28-də Moskvada Azərbaycan KP-nin və Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 4 illiyinə həsr olunmuş təntənəli yığıncaqda Q.V.Çiçerin öz məruzəsində Andraniki «Antantanın agenti» adlandırmışdı.[173] Bu məlumat «Bakinski raboçi» qəzetində də çap olunmuşdu: Antanta agenti Andranik Qafqazdan keçib Urmiyaya getməyə, orada Denstervilin ingilis ekspedisiyasının dəstələri ilə görüşməyə can atırdı.[174] Bunu Andranikin özü də təsdiqləmişdir: «Mən İrana keçib ingilis dəstələri ilə birləşmək qərarına gəldim».[175] Lakin türklər Urmiya və Təbrizi Denstervildən tez tutdular və bunun nəticəsində Andranikin bu cəhdi baş tutmadı.

Deyilənlərdən aydın olur ki, Azərbaycan nümayəndələri hələ Parisə çatmamış onları böyük çətinliklər gözləyirdi. Ermənilərin göstərdikləri bütün cəhdlərə baxmayaraq general Tomsonun vasitəsilə İngiltərənin baş naziri Lloyd Corcun və xarici işlər naziri Corc Kerzonun köməkliyi ilə Azərbaycan nümayəndələrinə Parisə gəlməyə icazə verildi və nəhayət onlar mayın ortalarında gəlib Parisə çatdılar. Nümayəndəlik Parisə çatan kimi Sülh konfransının sədri J.Klemansonun adına Azərbaycan Respublikasının tələblərini təqdim etdi. Bu tələbnamədə Azərbaycan Demokratik Respublikasının müstəqil dövlət kimi tanınması, nümayəndə heyətinin konfransın və onun komissiyalarının işinə cəlb olunması, Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilməsi təklif edilmişdi. Eyni zamanda Azərbaycan nümayəndə heyəti erməni lobbisinin Azərbaycan haqqında olan riyakar təbliğatını təbii ki, cavabsız

qoymamış və Parisdə Azərbaycan haqqında düzgün təsəvvür yaratmaq məqsədilə fransız və ingilis dillərində Azərbaycan tarixinə, ADR-in daxili və xarici siyasətinə dair; «Qafqaz Azərbaycanı Respublikası», Ə.Topçubaşovun «Azərbaycan təşəkkülü», C.Hacıbəylinin «İlk müsəlman respublikası – Azərbaycan» və s. kimi kitablar, bülletenlər, xəritələr nəşr etdirib yaymışdılar.[176]

1919-cu ilin mayın 28-də Azərbaycan nümayəndə heyəti ilə ABŞ prezidenti V.Vilson arasında görüş oldu və bir sıra məsələlər haqqında fikir mübadiləsi aparıldı.

Ümumiyyətlə, Parisdə Azərbaycanın və eləcə də Gürcüstanın nümayəndə heyətlərinin işinə erməni nümayəndələri böyük maneələr törədirdilər. Onlar danışıqlarda ərazi-sərhəd məsələsinə digər məsələlərdən daha çox yer verərək Qafqazdakı real vəziyyət haqqında ABŞ-ı və Avropa ictimaiyyətində düzgün olmayan yanlış təsəvvür yaratmağa çalışırdılar. Ermənilər Paris konfransına böyük ümidlər bəsləyirdilər və güman edirdilər ki, onların bütün məsələləri həll ediləcəkdir. Buna görə də həmin konfransa ciddi hazırlıq işi aparmışdılar. Ermənilər özlərini böyük müttəfiqlərin kiçik müttəfiqi hesab edirdilər və buna görə də Aralıq dənizindən Qara dənizə, Qara dənizdən isə Xəzər dənizinə qədər olan ərazidə «Böyük Ermənistan» yaratmaq xülyasında idilər. Müharibədə İranın iştirak etməməsinə baxmayaraq ermənilər hətta İran Azərbaycanının müəyyən hissəsini də tələb edirdilər. Bu zaman Qərb ölkələrinin, o cümlədən Amerikanın, İngiltərənin, Fransanın yardımına arxalanan ermənilər bir sıra ərazi tələblərini Paris konfransına təqdim etmişlər.

ABŞ və Avropa ölkələrinin köməyinə tam əmin olan A.Ağaronyan hər iki erməni nümayəndəliyi adından konfransın sədrinə memorandumla müraciət etdi. Bu sənəd Türkiyə ilə bərabər Azərbaycana qarşı da yönəldilmiş sənəd idi. Ermənilər hətta bunu fransız jurnalında çap etdirməyə də nail olmuşdular. Həmin memorandumla əlaqədar olaraq Parisdəki Azərbaycan nümayəndəliyi Bəyanatla çıxış etdi.

Məqsəd konfrans nümayəndələrinə, geniş ictimaiyyətə Ermənistan hökumətinin, erməni lobbisinin əsl cinayətkar mahiyyəti haqqında həqiqəti çatdırmaq idi. Ermənistan respublikasındakı diplomatik nümayəndə M.Təkinskinin köməyi ilə İrəvan quberniyasında yaşayan azərbaycanlıların ağır vəziyyəti haqqında məlumat da Parisdə olan Azərbaycan nümayəndələri vasitəsilə Avropa və Amerika dövlətlərinin nümayəndələrinə çatdırılmışdı. Bu sənəddə mübahisəli əraziləri nəzərə almadan azərbaycanlıların Ermənistan əhalisinin yarısını təşkil etməsi, onların hüquqsuzluğu, erməni silahlı dəstələrinin qəzalarda, kəndlərdə və hətta İrəvan şəhərində müsəlman evlərini müntəzəm olaraq dağıtması, talan etməsi, insanların məhv edilməsi faktları göstərilirdi.

Ermənilər yenə də Türkiyənin Şərq vilayətini, o cümlədən Ərzurum, Van, Sivas, Diyarbəkr və başqa əraziləri, habelə Tiflis və Yelizavetpol quberniyalarının cənubunu, eləcə də Qars torpaqlarını tələb etdilər. Ermənilərin haqsız tələbləri haqlı olaraq nəticəsiz qaldı. Burada Kerzonun təklifi ilə Paris konfransının Ali Şurası 1920-ci il yanvarın 11-də Azərbaycanın istiqlaliyyətinin tanınması haqda yekdilliklə qərar qəbul etdi.[177] Bu qərar Azərbaycan demokratik hökumətinin, onun konfransda Ə.M.Topçubaşov başda olmaqla iştirak edən nümayəndə heyətinin böyük qələbəsi oldu.

1920-ci il yanvarın 19-da Azərbaycan və Gürcüstan nümayəndələri Ali Şurasının iclasına dəvət olundular. Burada müzakirə edilən məsələlər içərisində Zaqafqaziyanın müdafiəsi ilə əlaqədar məsələ xüsusilə əhəmiyyətli idi. İclasda Antanta Zaqafqaziya ölkələrini rəsmi olaraq tanımaqla bərabər, həm də həmin ölkələr üçün təhlükə yarandığı şəraitdə onlara köməklik edəcəyi öhdəliyi qəbul edildi.

Beləliklə, bütün manea və çətinliklərə baxmayaraq müstəqil Azərbaycan Demokratik Respublikası 1919-cu ilin sonlarında dünyanın bir sıra ölkələri ilə rəsmi diplomatik əlaqələr yaratdı. Bununla bərabər Bakıda Fransanın, İtaliyanın, İngiltərənin, ABŞ-ın, Hollandiyanın, Belçikanın, Pol-

şanın, Ukraynanın, Litvanın və s. ölkələrin nümayəndəliklərinin iqamətgahları təşkil olundu. Yaponiya hökuməti Azərbaycanla diplomatik əlaqələr yaratmaq istədiyini bildirdi.[178]

Paris sülh konfransına getmiş Azərbaycanın nümayəndə heyəti Versal Ali Şurasının fevral-mart aylarında keçirilən London və aprel ayında isə San-Remo konfranslarında iştirak etdi. Hətta Azərbaycan nümayəndəliyi San-Remo konfransına memorandum təqdim etdi və burada göstərilirdi ki, Azərbaycan dövləti Qərb ölkələri ilə ticarət əlaqələrini inkişaf etdirməlidir. Bunun üçün Gürcüstan ərazisindən istifadə edilməlidir və bu isə Versal müqaviləsi ilə tənzimlənməlidir. Azərbaycanın dənizə çıxış yolu Batumdan olmalıdır. Gərgin müzakirələrdən sonra Versal Ali Şurası Batumini azad liman elan etdi və bununla Azərbaycanın Batumi limanından azad surətdə istifadə etmək hüququ təmin edildi.[179] Ermənistan hökuməti öz məqsədinə nail olmaq naminə Ali Şuranın London konfransında özünün gələcək sərhədlərini müəyyən etmək üçün İngiltərə, Fransa, İtaliya və Yaponiyadan ibarət komissiyanın yaradılmasına nail olmuşdur. Ermənilər bütün Trabzon vilayətinin, ümumilikdə Kiçik Asiyanın şərq vilayətlərinin onlara verilməsini irəli sürmüşdülər.

Xarici işlər nazirlərinin müşavirəsi isə Ərzurumun Ermənistana verilməsi məsələsinə Ali Şurada baxılmasını irəli sürmüşdür. Məsələ London konfransının müzakirəsinə çıxarıldıqda Lloyd Corc onu avantürist bir təklif hesab etmişdir. Lloyd Corc bildirmişdi ki, ermənilər bir tərəfdən azərbaycanlılarla, digər tərəfdən Anadolu türkləri və kürdlərlə əhatə olunmuşlar. Ermənilərə böyük əraziləri tutmağı təklif etmək sadəlövhlük olardı, halbuki indi bir parça torpaqlarını onlar çətinliklə saxlayırlar. L.Corcun fikrincə Ermənistanın ərazisinin genişləndirilməsi uğrunda təbliğatın ən təhlükəli cəhəti ondadır ki, bu, müttəfiqləri ağılsız addım atmağa, türklərdən intiqam almağa təhrik edə bilər.

L.Corcun fikrini İtaliyanın Baş naziri F.Nitti də müdafiə edib bildirmişdi ki, Ərzurum ermənilər üçün çox təhlü-

kəli hədiyyədir. Həm də belə bir fikir vurğulanmışdı ki, Ərzurumda heç vaxt erməni əhalisi çoxluq təşkil etməyib, ona görə onun ermənilərə verilməsini heç cür əsaslandırmaq olmaz.[180]

Ermənilər türklərə qarşı düşməncəsinə əsassız ərazi iddialarında olduqları halda, Türkiyə dövləti onlara Türkiyə vətəndaşı mövqeyindən yanaşmışdı. Ç.Arslanoğlu «Erməni zülmü (1919-1920)» məqaləsində yazmışdı: 1919-cu il iyunun 20-də Sivasda general Harbortla Mustafa Kamal Paşa (Atatürk) arasında üç saata qədər çəkən gizli görüş keçirilmişdi. 24 iyun 1919-cu il tarixli raportunda da Mustafa Kamal Paşa general Harborta ermənilər də daxil olmaqla Türkiyədə azlıqda qalan xalqlar haqqında bunları demişdi: «Çox uzun zaman bir yerdə yaşadığımız müsəlman olmayan vətəndaşlarımız ermənilərə, rumlara, yəhudilərə və başqalarına ən gözəl niyyətlərlə səmimi duyğular bəsləyirik və onların da bizimlə tam bir şəkildə düşünməsindən savayı heç bir şey istəmirik».[181]

Ermənistanın bütün cəhdlərinə baxmayaraq Azərbaycan dövləti müstəqil bir dövlət kimi tanındı və onun beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlandı. Lakin bu müstəqillik çox çəkmədi, az sonra Azərbaycan Demokratik Respublikası süqut etdi. Ancaq özünün qısa, lakin çox şərəfli və ziddiyyətli fəaliyyəti dövründə Azərbaycan dövləti öz ərazisini, sərhədini qorumaqda mümkün olan hər şeyi etmişdir. Azərbaycan Demokratik Respublikası rəhbərliyi ərazi bütövlüyünün qorunmasında yekdillik, çeviklik, prinsipiallıq göstərmiş və ardıcıl siyasət yeritmiş, akademik T.Köçərlinin yazdığı kimi «heç kəsə satılmamış, bir qarış da olsun torpaq güzəştə getməmiş və ərazi bütövlüyünə edilən qəsdləri dəf etməyə nail olmuşdur».[182]

Azərbaycan Demokratik Respublikasının süqutunda daşnakların az rolu olmadı. Ermənilər 1920-ci ilin əvvəlində Moskvaya xüsusi nümayəndə heyəti göndərdilər və orada bildirdilər ki, ermənilərə müəyyən ərazi güzəştləri müqabilində Azərbaycan hökumətinin yıxılmasında Rusiyaya yaxın-

dan köməklik göstərməyə hazırdılar. Hətta 1920-ci ilin əvvəllərində daşnaklar Qarabağda, Gəncə, Qazax qəzalarının ermənilər yaşayan yerlərində qiyam təşkil etdilər.

Olduqca ağır vəziyyət yarandı. Bu vəziyyət Zəngəzur qəzasında daha acınacaqlı oldu. Parlamentin üzvü Cəlil Sultanov tərəfindən parlamentin sədrinə 1920-ci il 21 yanvar tarixli teleqramda göstərilirdi: dörd gündür erməni hərbiçilərinin və banditlərinin hücumları, artileriya atəşləri davam edir. Məhv edilənlər çoxdur, əhali təlaş içərisindədir. Təcili tədbir görülməsini xahiş edirəm. Azərbaycanın ən gözəl guşələrindən olan Zəngəzuru xilas etmək lazımdır. Zəngəzurdan sonra növbəti faciə Qarabağı gözləyir.[183]

Cəbrayıldan parlamentin ünvanına daxil olan 1920-ci il 22 yanvar tarixli teleqramda göstərilirdi: yanvarın 19-da erməni hərbi hissələri hücuma keçdilər. 6 kənd məhv edildi, 9 kəndi yandırdılar. Onlar azərbaycanlılara qarşı qəddarcasına hərəkət edib uşaqları, qadınları məhv edir, əmlakı qarət edirlər[184] və s.

Akademik C.Quliyev yazır ki, 1920-ci il yanvarın 23-də Cəbrayıldan olan deputatdan ADR parlamentinin sədrinə göndərilən sənəddə göstərilirdi ki, İrəvandan gətirilən yaxşı silahlandırılmış ordu Zəngəzur qəzasını tamamilə dağıtdı. On minlərlə qaçqın uşaq, qadın çılpaq və ac halda Zəngəzurdan bura gəldilər. Döyüşdə iştirak edən ermənilərin sayı on minə çatır. Döyüşlərdə öldürülən erməni meyidlərinin arasında ingilis əsgərləri də var.[185]

Belə məzmunlu xəbərlər 23 yanvar tarixində də parlamentə daxil oldu. Beləliklə, Qarabağ general-qubernatorluğundan Azərbaycan Daxili İşlər Nazirliyinə təqdim edilən məlumatda 1920-ci il yanvarın 19-dan 25-dək Zəngəzur qəzasında 51 kəndin yandırıldığı və əhalinin qismən qırıldığı göstərilmişdi.[186] Bu vəziyyətlə əlaqədar olaraq 1920-ci il fevralın 20-də AK(b)P MK Bürosu prezidiumunun iclasında A.N.Karakozovun məruzəsində Qarabağda Yerevan emis-

sarlarının millətçi avanturalar törətmələrindən də geniş bəhs edilmişdir.[187]

AK(b)P MK-ə Qaryagin qəzasından daxil olan 10 mart (1920-ci il) tarixli sənəddə Dağlıq Qarabağda daşnakların yeni fəaliyyətinin millətlərarası qan axıdılmasına gətirib çıxartması və bunun Bakıya da təsir edə bilməsi açıqlanmışdı.

1920-ci il martın 16-da RK(b)P Qafqaz ölkə komitəsinin azərbaycanlılara və ermənilərə daşnakların hiylələrinə aldanmamaq çağırışı ilə müraciət edilmişdi. Müraciətdə qeyd edilirdi ki, daşnaklar ingilis hakimiyyət orqanlarının təsiri altında Zaqafqaziyada qan axıtmaq istəyirlər. Buna qəti yol vermək olmaz. Bununla bərabər müraciətdə Qarabağın kəndli-ermənilərinin daşnak təbliğatçılarını rədd etmələrir və onların Azərbaycana məxsus olmalarını bildirmələri ağıllı addım kimi qiymətləndirilmişdir.

Daşnaklar əhali arasında belə bir şaiyə yayırdılar ki, müsəlmanlar denikinçilərlə birlikdə Ermənistana hərəkət edirlər və Azərbaycanda olan inqilaba gəldikdə guya o bolşevik inqilabı deyil, panislamist xarakteri daşıyır.[188]

Belə şaiyələr pərdəsi altında 1920-ci ilin mart ayında erməni millətçilərinin Azərbaycanın müxtəlif bölgələrində təşkil etdikləri yeni-yeni hücumlar xalqa az bəlalar gətirmədi. Martın axırlarında «Azərbaycan» qəzetində dərc edilmiş hökumət məlumatında göstərilirdi: martın 22-dən 23-ə keçən gecə erməni hərbi dəstələri Şuşa, Xankəndi, Tərtər və Zəngəzur qəzaları ərazilərinə yenidən hücum etdilər. Həmin gecə Əsgəran qalasının ermənilər tərəfindən tutulması nəticəsində Şuşa və Xankəndi ilə Ağdam və başqa yerlərin əlaqəsi kəsildi.

Akademik P.Əzizbəyova yazırdı ki, Qarabağ hadisələri haqqında mühüm tarixi sənədlərdən biri 1919-cu ilin payızına dair 1922-ci ildə Azərbaycanın hərbi və hərbi dəniz komissarlığının hərbi-tarix şöbəsinin hazırladığı sənəddir. Həmin sənəddə göstərilir ki, 20 mart gecəsi 2 erməni pristavı özləri ilə Şuşaya polis işçisi adı altında 20 nəfər silahlı adam

gətirdilər və onlar şəhərdə 400 silahlı ermənilərlə birləşərək raket və top atəşi siqnalı ilə Cavanşir polkunun qərargahına hücum edib hərbi rəisi və digər zabitləri həbs etdilər. Lakin martın 23-də ermənilər öz yerlərindən çıxarıldılar.[189]

Üsyan etmiş ermənilər Şuşanı tərk etməli olarkən öz ziyalılarından onlarla birlikdə getməyi tələb etdilər. Minə qədər erməni ziyalısı daşnaklarla getməkdən imtina edib şəhərdə qaldılar.

Şuşaya, Xankəndinə, Əsgəranа hücumla bərabər ermənilər eyni vaxtda Tərtərə də hücum etdilər. Onların hücumunun qarşısı Şəkinin 3-cü atlı polku tərəfindən alındı və əks-hücuma keçən polk martın 26-da Çaylı kəndini tutdu və erməniləri qərbə doğru sıxışdırdı.[190] Ermənilər Ordubad qəzasına da təcavüz etdilər.

1920-ci ilin martın 21-də 10 min nəfərlik erməni ordusu qəfildən Ordubad qəzasına da basqın edib bir sıra kəndləri yandırmışdılar. Naxçıvandan Əbdibəyin başçılığı ilə 800 nəfərlik könüllü dəstə köməyə gəlib erməni ordusuna qarşı mərdliklə vuruşmuşdu. Lakin erməni basqını nəticəsində 16 azərbaycanlı kəndi yandırılmışdı.[191]

Belə ağır şəraitdə Azərbaycan hökuməti xarici təşkilatlarla əlaqə saxlamaq və erməni təcavüzünü ifşa etmək sahəsində də az iş görmədi. Bu cəhətdən «Azərbaycan» qəzetinin 1920-ci il 28 mart tarixli nömrəsində verilmiş məlumat diqqəti cəlb edir.

Qarabağda ermənilərin törətdiyi hadisələr Azərbaycan dövləti ilə yanaşı ayrı-ayrı təşkilatların da diqqət mərkəzində olan məsələ idi. Bu cəhətdən «Müsavat» partiyasının 1920-ci il martın 30-da rayon fəhlə təşkilatları nümayəndələrinin (təxminən min nəfər) iştirakı ilə keçirdiyi iclası diqqəti cəlb edir. İclasda Qarabağda hazırkı vəziyyət məsələsi müzakirə olundu. Burada iki qətnamə – Qarabağ məsələsi və Rusiya ilə münasibət məsələləri üzrə qətnamələr qəbul edildi. Birinci qətnamədə Azərbaycan hökumətindən tələb olundu ki, təcili tədbirlər görüb Qarabağ haqqında məsələyə son

qoysun, erməni lobbisinin, erməni casuslarının bütün hərəkətlərinin qarşısının alınmasına nail olsun. Rusiya ilə münasibət məsələsinə gəldikdə qətnamədə göstərildi ki, Rusiya ilə əlaqələr saxlanılsın, dostluq münasibətləri yaradılıb genişləndirilsin.[192]

Azərbaycan parlamentində olan erməni deputatları da millətçi-şovinist mövqelərini yeri gəldikcə açıq şəkildə büruzə verirdilər. Buna misal olaraq 1920-ci il aprelin 1-də olan parlamentin iclasında erməni deputatlarının mövqeyini göstərmək olar. Parlament Qarabağda gedən hadisələrlə əlaqədar məsələni müzakirə edib qətnamə qəbul etdi. Lakin həmin məsələ üzrə qətnaməyə səs vermə olarkən erməni deputatları bir-bir iclas zalını tərk etdilər və bununla da səsverm ədə iştirak etmədilər.[193]

Azərbaycan Demokratik Respublikası ermənilərin qəzalarda azərbaycanlılara qarşı vəhşiliklərinin qarşısını almaq üçün mümkün olan tədbirləri gördü. Qəzalardan parlamentə göndərilən teleqramlarda ermənilərə qarşı mübarizə üçün hərbi dəstələr təşkil edilərək Qarabağa göndərilmələri xahiş olundu. 1920-ci ilin aprelin əvvəllərində Ağdaşdan Hacı Əziz Əfəndizadə, Mustafa Mustafazadə və Yusif Nəbi oğlunun parlamentə göndərdikləri teleqramda Ağdaş qəzasından 100 min nəfərlik ordu təşkil olunaraq Qarabağa göndərilməsi təklif edilmişdi.[194]

1920-ci il aprelin 5-də ermənilər Qazax qəzasının Yaradulla kəndini dağıdaraq Tatlı kəndinə tərəf hərəkət etdikdə ətraf kəndləri azərbaycanlı kişiləri silahlanaraq ermənilərı qovub çıxarmışdılar. Döyüşdə azərbaycanlılardan 6 nəfər öldürülmüş və 40 nəfər yaralanmışdı.[195]

Azərbaycanın erməni nizami ordusuna qarşı dura biləcək ordusu yox idi. Yalnız könüllü hissələr vardı. Odur ki, ermənilər Azərbaycan kəndlərini dağıtmaqda davam edirdilər. 1920-ci ilin 8 aprelində Azərbaycan könüllü dəstələrindən birinin əsir tutduğu erməni əsgəri bildirmişdi ki, erməni hökumətinin 5 min nəfər əsgər general Voronsovun başçılığı

altında Qarabağı və Cəbrayıl qəzasını zəbt etmək qərarı vardır. Öldürülmüş bir erməni zabitinin cibindən Dronun əmri tapılmışdı. Burada göstərilirdi ki, 1920-ci ilin martın 23-də erməni ordusu Lisoqordda (Şuşa yaxınlığında) yemək yeməli, martın 24-də isə Şuşada klubda dəstəyə yemək verilməli və martın 25-də Xankəndi tutulmalıdır.[196]

Erməni hərbi dəstələrinin hücumlarının davam etməsində erməni millətçi təşkilatlarının başqa yerlərlə saxladıqları əlaqələrin də az təsiri olmamışdı. Bu cəhətdən 1919-1920-ci illərdə Ermənistan hökumətinin Azərbaycana qarşı təcavüz siyasətinin davam etməsi işində Antanta dövlətlərinin, habelə Şimali Qafqazı tutan Denikin komandanlığının daşnak Ermənistanına köməklik etməsi öz rolunu oynamışdı.

İngilis müəllifi Mak Donell yazmışdı: Biz həmişə ermənilərı müdafiə edirdik və eyni zamanda həm də onların daimi düşməni olan müsəlmanlara güzəşt edirdik.

İngilis kəşfiyyat idarəsi Zaqafqaziyaya, xüsusilə Azərbaycana diqqət verərək bura haqqında ən dəqiq məlumatlar əldə etməyə çalışmışdı.

Akademik C.Quliyev yazır: İngilis kəşfiyyatının kapitanı, Bağdadda olan ingilis Baş qərargahının 9 aprel 1920-ci il tarixli tapşırığı ilə Bakıda olan kəşfiyyat zabitindən tələb etmişdir ki, Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının hərbiçilərinin yerləşdirilməsi və miqdarı, habelə müxtəlif silah növləri haqqında məlumat versin. Yazıda kəşfiyyatçı xüsusi olaraq qeyd etmişdi ki, siz bacardıqca Azərbaycan haqqında mənə ən vacib məlumatları verərsiniz.[197]

Həmin dövrə aid 8 №-li agentlə razılaşma sənədi də xüsusi maraq doğurur. Həmin sənəddə göstərilirdi (tarixini müəyyən etmək mümkün olmadı) Bakıda Britaniya nəzarət zabiti ilə əlaqə yaranan kimi 8 №-li agent Konstantinopoldan yola düşdü. Agent fransız, türk, erməni dillərini bilən qadın olacaqdır. Onun erməni məhəlləsində evi olmalıdır. Əlaqə yaratmaq üçün o, erməni kilsəsinə yaxın olan parkda

gəzəcək. Məlumatı erməni dilində təqdim edəcək. Yerli agentin parolu «Batum» olacaqdır.[198]

Bu faktlar bir daha onu təsdiq edir ki, erməni millətçiləri Azərbaycana qarşı hər vasitədən istifadə etmişdirlər.

1920-ci ilin mart-aprel aylarında da erməni hərbi dəstələri Ermənistanla həmsərhəd rayonlarında basqınları davam etdirməkdə idilər. Azərbaycan Demokratik Respublikası diplomatik yollarla bu basqınların qarşısını almaq üçün fəaliyyət göstərirdi. 1920-ci ilin aprelin 12-də Azərbaycan Xarici İşlər Naziri F.Xoyskinin imzası ilə Ermənistan Xarici İşlər nazirliyinə göndərilmiş teleqramda deyilirdi: Bu gün Qazax general-qubernatorluğundan daxil olan məlumatda göstərilir ki, aprelin 9-da Ermənistanla Azərbaycan arasında müqavilə bağlanmasına baxmayaraq erməni tərəfi bu müqaviləni pozur və sərhədlərdə toqquşmalar törədərək bir sıra kəndləri yandırmışlar.[199]

Yalnız 1920-ci ilin 30 aprelində Azərbaycan Sovet hökumətinin Ermənistan hökumətinə Notasından sonra Qarabağ və Zəngəzur erməni quldur dəstələrindən azad edildi. Notada tələb olunurdu ki, əgər erməni hərbi hissələri adları çəkilən bölgələrdən çəkilməsələr, Azərbaycan Sovet Sosialist Respublikasının İnqilab Komitəsi özünü Ermənistan respublikası ilə müharibə vəziyyətində hesab edəcəkdir.[200]

Daşnak Ermənistanı bu Notaya da məhəl qoymadı və öz təcavüz hərəkətlərini davam etdirdi. Bu Qarabağ və Zəngəzur ərazisində daha aydın nəzərə çarpmışdır. Qəribə burasıdır ki, həmin vaxtda göstərilən yerlərdə XI Qırmızı ordu hissələri və onların tərkibində ermənilər olmuşdur.

Ümumiyyətlə, 1918-1920-ci illərdə Şimali Qafqazda erməni hərbi birləşmələri yaradılmışdır. Onlar Antanta və Denikinin köməyi ilə Gürcüstan vasitəsilə Ermənistana keçməyə nail olmuşdular. Bu da ermənilərin təcavüzünə öz təsirini göstərmişdir. Qırmızı ordu kəşfiyyatının 16 iyun 1920-ci il məlumatında bildirilirdi: Qazax rayonunda erməni polku fəaliyyətdədir. Bu istiqamətdə hücum edən daşnakların

məqsədi görünür Qazaxı tutmaqdır. Bizim polk komandirinə əmr olunmuşdur ki, nəyin bahasına olursa-olsun Qazaxı müdafiə etmək lazımdır.[201]

Beləliklə, erməni daşnak hökuməti özünün 30 ayrıq hakimiyyəti dövründə (may 1918 – noyabr 1920) azərbaycanlıların 60 faizinin məhvinə nail olmaqla bəşər qanunlarına tamamilə zidd vəhşiliklər törətmişlər.[202] Ermənilərin vəhşiliyi hətta onların özləri tərəfindən etiraf edilərək göstərilmişdi: Mən Basarkeçərdə heç kimə fərq qoymadan türk (azərbaycanlı) əhalisini məhv etdim… Bütün kişi, qadın və uşaqları bir yerə yığdım və onları öldürdüm.[203] Onları quyuya tullayaraq üzərini daşlarla örtdüm. Belə kütləvi qırğının nəticəsində 1920-ci ildə Ermənistanda cəmi 10 min nəfərdən bir qədər artıq azərbaycanlı əhali qalmış oldu.[204]

Ermənilər tərəfindən İrəvan quberniyası ərazisində və Azərbaycanın müxtəlif bölgələrində azərbaycanlılara qarşı kütləvi halda xüsusi amansızlıqla törədilən qanlı cinayəti – soyqırımı təhqiq etmək məqsədilə Azərbaycan hökuməti 1918-ci ilin yayında X.Xasməmmədovun başçılığı altında Fövqəladə Tədqiqat Komissiyası yaratmalı olmuşdu. Xarici İşlər Naziri M.N.Hacınski hökumətin iclasında həmin məsələ ilə əlaqədar olaraq etdiyi çıxışında göstərmişdi ki, 4 aydan artıqdır ki, erməni vəhşiləri yerli müsəlman sakinlərinə qarşı və həm də onların əmlakına qarşı barbarlıq nümayiş etdirmişlər.

Ermənilər həm də törətdikləri faciə və talanlar haqqında tamamilə yalan xəbərlər yayaraq Avropa ictimaiyyətində əks əhvali-ruhiyyə yaratmağa çalışmışlar. Buna görə də Təhqiqat Komissiyasının yaradılmasına mütləq zərurət olmuşdur. Bununla da tərkibi X.Xasməmmədov başda olmaqla N.Səfikürdski, A.Novatski, İ.Şahmalıyev, S.Axundzadə və başqalarından ibarət olan istintaq komissiyası yaradılmışdı. Bir ildən artıq komissiyanın apardığı gərgin işin nəticəsində ermənilərin Bakı ilə bərabər İrəvanda, Zəngəzurda, Cəbrayılda, Şuşada, Salyanda, Şamaxıda, Qubada və digər Azərbaycan ərazilərində, habelə onların kəndlərində dinc əhaliyə

qarşı törətdikləri dəhşətli qırğınların, qarətlərin nəticələri təfsilatı ilə araşdırılmışdı.

Təhqiqat Komissiyasının üzvləri Azərbaycanın müxtəlif yerlərində ermənilərin törətdikləri amansız cinayətlər haqqında yetərli sayda şahid ifadələri, fotomateriallar, ayrı-ayrı mülklərin qarət edilib yandırılması və ölüm hadisələri haqqında geniş təhqiqat materialları toplamışdılar. Təhqiqat Komissiyasının həmin materialları toplamaqda digər bir məqsədi də erməni vəhşiliyini tamamilə sübuta yetirən toplanmış materialları alman, rus, fransız, ingilis və başqa dillərə tərcümə edib Avropa ölkələrində və Amerikada yaymaqla ermənilərin nə dərəcədə təhlükəli, qəddar və vəhşi millət olduğunu ifşa etmək olmuşdu. Onların vəhşiliyini ayrı-ayrı şahid ifadələri də təsdiq etmişdi. Bakı şəhərinin sakini A.N.Kvasniki istintaq komissiyasına verdiyi ifadəsində göstərmişdi ki, müsəlmanların əvvəlcə Bakıda və sonra isə digər yerlərdə məhv edilməsi, onların bütün əmlakının qarət olunması və həm də siyasi üstünlüyün ermənilərin əlinə keçməsinə edilən cəhd məhz ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı cinayət idi.[205]

Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge komissiyanın sədrinə yazdığı sənəddə bildirmişdi ki, yaxşı silahlanmış və təlim keçmiş ermənilər müsəlmanların evlərinə soxularaq, sakinləri xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik etmiş, uşaqları yanan evin alovları içərisinə atmış, üç-dörd günlük körpələri süngünün ucunda oynadıb heç kimə rəhm etmədən hamını qırmışlar.[206] Komisssiyanın gərgin əməyi nəticəsində ermənilərin törətdikləri dəhşətli cinayət hadisələrini təsdiqləyən 36 cildlik material hazırlanmışdı. Toplanmış materiallarda müxtəlif yerlərdə azərbaycanlılara qarşı törədilmiş vəhşilik, barbarlıq genişliyi ilə öz təsdiqini tapmışdı.

Toplanmış sənədlərdə həm də göstərilmişdi ki, Zəngəzurda 109, Qarabağda 117 kənd, 5140 ev dağıdılmışdı. Zəngəzurda dağıdılan 58 kəndin hər biri haqqında olan işdən və

toplanan ifadələrdən məlum olmuşdu ki, burada 1507 ev dağıdılmış, 2254 nəfər qətlə yetirilmiş və 304 nəfər yandırılmışdı.[207]

Şamaxıda və onun kəndlərində də kütləvi qırğın, insanları dəhşətə gətirən talanlar, yanğınlar törədilmişdi. Burada aparılan hesablamalar və arxiv sənədləri təsdiq edir ki, Şamaxı qəzasının 53 kəndində ermənilər 8 mindən artıq azərbaycanlını qətlə yetirmişlər. Onlardan da 4 mindən artığı kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamalara görə, bu kəndlərə dəyən ümumi maddi zərər 339 milyon manatdan artıq olmuşdur.[208]

Fövqəladə Tədqiqat Komissiyası sədrinin hesabatında göstərilmişdi ki, Şamaxı kəndlərinin bəzilərində erməni canilərinin cinayətləri daha amansızlıqla törədilmişdi. Belə ki, kişiləri ayaqlarından asaraq onları doğramışlar. Digərlərini taxta çarpayıya bağlayaraq yandırmışlar. Bəzən də xalçaya büküb üstünə neft töküb yandırmışlar. Əksər insanları diridiri qapıya, stola və bəzən də döşəməyə mıxlamışlar. Erməni cəlladları insanların əlini, ayağını kəsib, süngülərlə bədənlərini deşik-deşik edərək belə hala salınmış insanları öz bədən hissələrini yeməyə məcbur etmək kimi insanlıqdan kənar vasitələrdən də istifadə etmişlər.[209]

Bunlardan əlavə qarət etmək, kəndlərdən mal-qaranı aparmaq, malikanələri yandırıb külə döndərməklə kifayətlənməyən ermənilər hətta üzüm bağlarını, tut və digər meyvə bağlarını qəddarcasına doğrayıb məhv etməyi də unutmamışlar. Bir sözlə insanlar üçün yararlı heç nə qoymamışlar. Hər şeydən məhrum edilib salamat qalmış insanlar dilənçi vəziyyətinə düşmüş və müxtəlif yerlərə getmək məcburiyyətində qalmışlar. Şamaxı şəhərinin və kəndlərinin faciəli vəziyyətə düşməsində həmin yerin havası ilə yaşamış, oranın suyunu içib, çörəyini yemiş və müxtəlif vəzifələrdə işləməklə firavan həyat tərzi keçirmiş bir qrup yerli ermənilərin də az təqsiri olmamışdır. Belə ermənilərdən Şamaxıda apteklər mağazasının sahibi M.Arzumanovu, Şamaxıda xırda alverçi, tacir K.Karamovu, Şamaxıda gön-dəri mağazasının sahi-

bi Suren İvanovu, Şamaxıda keçmiş pristav Xaçanov[210] və başqalarını göstərmək olar. Ermənilərin törətdikləri cinayət işində şahid kimi dindirilən yerli sakinlər də az olmamışdır. Onlardan bir neçəsinin adını xatırlatmaq olar – o cümlədən, Abdulla Abdullayev, Ağasəlim Hacıəliyev, Əliheydər Tağıyev, Əbdülhüseyn Əliyev, Mövsüm bəy Sadıqbəyov, Siracəddin Əfəndiyev, Hyseyn Baba Məşədi Əbdüləli oğlu, Hacı Kərim Əziz oğlu, Sadıq bəy Ağalarov, Süleyman Məşədi Rəhim oğlu[211] və xeyli sayda başqaları olmuşdu.

Fövqəladə Tədqiqat Komissiyası İrəvan quberniyası ərazisində də azərbaycanlılara qarşı soyqırım törədildiyini təsdiq edən çoxlu sayda sənədlər toplamışdır. Aparılan gərgin əməyin nəticəsində müəyyən edilmişdir ki, İrəvan quberniyasında 211 kənd, Qars vilayətində 92 azərbaycanlı kəndi amansızlıqla talan edilib yandırılmışdı. Azərbaycanlıların yaşadığı təkcə İrəvan bölgəsinin 88 kəndi dağıdılmış, 1920 ev yandırılmış və 132 min azərbaycanlı məhv edilmişdi. Daşnak erməni hakimiyyətinin «Türksüz Ermənistan» yaratmaq siyasətinin nəticəsi olaraq, İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdi.[212]

Azərbaycanın müxtəlif bölgələrində törədilən soyqırımdan əlavə Zəngəzurun idarəçiliyinin müvəqqəti olaraq erməni Milli Şurasına, Naxçıvan bölgəsinin Ermənistan daşnak hökumətinin müvəqqəti idarəçiliyinə verilməsi haqqında ingilis generalı Devi ilə İrəvan hərbi hissəsinin rəisi Dro arasında birgə əmrin imzalanması da həmin bölgələrdə vəziyyəti daha da ağırlaşdırmışdı. Ermənilərin qısamüddətli «idarəçiliyi» ərzində Naxçıvan şəhərində 100-150 nəfər azərbaycanlıya işgəncə verilmiş, 300-dən artıq axtarış aparılmış və 600 nəfər adam həbs edilmişdi.[213] Məhz belə ağır şəraitdə Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə vəziyyətdə müəyyən dəyişiklik yaranmağa başlamışdı.

II FƏSİL

1. B.Nəcəfov. Göstərilən əsəri. Bakı, II hissə, 1994, səh. 43.
2. Гурко-Кряжин. Göstərilən əsəri, səh. 11.
3. «Бакинский-Рабочий» qəz. 6 dekabr, 1917.
4. Əziz Ələkbərli. Göstərilən əsəri, səh. 73.
5. «Vışka» qəz. 12 oktyabr, 1991.
6. Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920-ci illər, Bakı, 1993, səh. 70.
7. Xəqani Məmmədov, Nuru Məmmədov. Bakıda 1918-ci ildə ermənilərin törətdikləri mart soyqırımı. «Respublika» qəz. 31 mart 2007.
8. Ə.Rəhimov. Tarixi hadisələrin bədii ədəbiyyatda əksi. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, № 2, 1990, səh. 138.
9. B.Nəcəfov. Göstərilən əsər, II hissə, 1994, səh. 54.
10. X.İbrahimli. 1918-ci ilin mart qırğını – ermənilərin türklərə qarşı soyqırımı. «Müsavat» qəz. 29 mart, 1996.
11. Anar İsgəndərov. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırım. «Xalq» qəz. 28 mart 2007.
12. Yenə orada.
13. «Azərbaycan» qəz. 28 fevral, 1998.
14. Ataxan Paşayev. Bakıda 1918-ci il mart faciəsi. «Azərbaycan» qəz. 28 fevral, 1998.
15. Anar İsgəndərov. Göstərilən məqalə. «Xalq» qəz. 28 mart, 2007.
16. X.İbrahimli. Göstərilən məqalə. «Müsavat» qəz. 29 mart 1996.
17. İ.Hüseynov. Millətlər öz müqəddəratlarını təyin edirlər. «Kommunist» qəz. 15 aprel 1991.
18. V.İ.Lenin. ƏTK, ç. 48, səh. 346.
19. Azərbaycan tarixi. III c., I hissə, səh. 106.
20. İ.Hüseynov. Göstərilən məqalə. «Kommunist» qəz. 15 aprel 1991.
21. Mir Cəfər Pişəvəri. Seçilmiş əsərləri, 1965, səh. 398.

22. Н.Нариманов. Статьи и письма. Москва, 1925, səh. 6.
23. «525-ci qəzet», 28 mart 1998.
24. R.Əsədov. 1918-ci il mart faciəsi: bu gün üçün dərs. «Ayna» qəz. 6 aprel, 1996.
25. Yenə orada.
26. R.Rəsulov. Milli faciəmiz. «Respublika» qəz. 3 aprel 2007.
27. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992, səh. 227-228.
28. «Respublika» qəz. 31 mart 2007.
29. Ataxan Paşayev. Göstərilən məqalə. «Azərbaycan» qəz. 28 fevral, 1998.
30. Elşad Abdullayev. Göstərilən məqalə. «Azərbaycan» qəz. 11 aprel, 1998.
31. Yenə orada.
32. Салех Бей. Армянство. Баку, 1994, səh. 329.
33. Н.Нариманов. Избранное произведения. Т. 2, Баку, 1989, səh. 23.
34. «Бакинский рабочий» qəz. 14 mart, 1923.
35. Xəqani Məmmədov., Nuru Məmmədov. Göstərilən məqalə. «Respublika» qəz. 31 mart, 2007.
36. E.İsmayılov., C.Həsənov., T.Qafarov. Azərbaycan tarixi. Bakı, 1995, səh. 20.
37. S.Şaumyan. Seçilmiş əsərləri, II cild, səh. 246.
38. «Azərbaycan» qəz. 27 mart, 1998.
39. D.P.Quliyev. Tarix şahiddir ki… 1918-1920-ci illərin hadisələri bu günün gözü ilə: faktlar və şərhlər. «Həyat» qəz. 22 may, 1992.
40. А.Мансуров. Белые пятна истории и перестройки. Баку, 1990, səh. 99.
41. X.İbrahimli. Göstərilən məqalə. «Müsavat» qəz. 29 mart, 1996.
42. Ц.П.Агаян. Великая дружба народов Закавказья. Ереван, 1972, səh. 103.

43. Babaxan Niyazlı. Faciə tariximizdən bir səhnə. «Azərbaycan mədəniyyəti və incəsənəti» qəz. 18 may, 2006.
44. Yenə orada.
45. Ataxan Paşayev. Şamaxı faciələri. «Azərbaycan» qəz. 15 mart, 1998.
46. Babaxan Niyazlı. Göstərilən məqalə.
47. Yenə orada.
48. Yenə orada.
49. Ataxan Paşayev. Göstərilən məqalə, «Azərbaycan» qəz. 15 mart, 1998.
50. Azərbaycan Respublikası Dövlət Arxivi, f. 1051, c. 2, iş 85-87.
51. Ataxan Paşayev. Göstərilən məqalə, «Azərbaycan» qəz. 15 mart, 1998.
52. Babaxan Niyazlı. Göstərilən məqalə.
53. Elşad Abdullayev. Göstərilən məqalə. «Azərbaycan» qəz. 11 aprel, 1998.
54. D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz. 22 may, 1992.
55. Салех Бей. Göstərilən əsər. Bakı, 1994, səh. 329.
56. Anar İsgəndərov. Göstərilən məqalə. «Xalq» qəz. 23 mart 2007.
57. Yenə orada.
58. «Azərbaycan» qəz. 27 mart 2003.
59. Салех Бей. Göstərilən əsər, səh. 329.
60. «Xalq» qəz. 29 mart 2007.
61. Yenə orada.
62. Anar İsgəndərov. Göstərilən məqalə. «Xalq» qəz. 29 mart, 2007.
63. Yenə orada.
64. Elza Orucova. Al qana boyanmış bahar günləri. «Azərbaycan» qəz. 27 mart, 2003.
65. Xəqani Məmmədov., Nuru Məmmədov. Göstərilən məqalə. «Respublika» qəz. 31 mart, 2007.
66. Yenə orada.

67. Azərbaycan Respublikası Dövlət Arxivi. F. 1016, c. I, qov. 95, vər. 5-6.
68. Elza Orucova. Göstərilən məqalə. «Azərbaycan» qəz. 27 mart, 2003.
69. Azərbaycan Respublikası Dövlət Arxivi. F. 1061, c. I, qov. 95, vər. 5-6.
70. Sahib Həsənov. Salyanda erməni terroru. «Azərbaycan» qəz. 2 aprel, 2003.
71. Hacı Mirhaşım Talışlı., Hacı Etibar Əhədov. Lənkəranda 1918-ci il soyqırımı. «Respublika» qəz. 29 mart, 2007.
72. Yenə orada.
73. T.Köçərli. Qarabağ. Bakı, 2002, səh. 279.
74. «Respublika» qəz. 31 mart 2007.
75. Əziz Ələkbərli. Göstərilən əsər. Bakı, 2000, səh. 75.
76. Elşad Abdullayev. Göstərilən məqalə. «Azərbaycan» qəz. 11 aprel, 1998.
77. «Respublika» qəz. 3 aprel, 2007.
78. C.Həsənov. Göstərilən əsər. Bakı, 1993, səh. 70.
79. A.N.Hacıyev. Göstərilən əsər, səh. 14.
80. Yenə orada, səh. 15.
81. Салех Бей. Göstərilən əsər, səh. 19.
82. V.İ.Lenin. ƏTK, c. 54, səh. 803-804.
83. B.Nəcəfov. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992, səh. 40.
84. «Respublika» qəz. 3 aprel 2007.
85. Vidadi İsayev. Göstərilən əsər. Bakı, 1995, səh. 55.
86. «Azərbaycan kommunisti» jurnalı, № 7, iyul, 1990, səh. 52.
87. Sabir Rüstəmxanlı. Ömür kitabı. Bakı, 1989, səh. 90.
88. Лиддел. Erməni qəsbkarlarına qarşı İrəvan müsəlmanlarının mübarizəsi. Az. EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, № 4, 1989, səh. 120.
89. S.Əsədov. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995, səh. 47.
90. «Azərbaycan» qəz. 2 aprel 2003.

91. «Respublika» qəz. 30 mart 2007.
92. E.İsmayılov., C.Həsənov., T.Qaffarov. Göstərilən əsər, səh. 51.
93. K.Rəhimov. Bir məsələyə üç baxış: Andranik kimdir? «Azərbaycan kommunisti» jurnalı. № 7, iyul 1990, səh. 52.
94. Салех Бей. Göstərilən əsər, səh. 218.
95. Rüstəmxanlı S. Göstərilən əsəri, səh. 90.
96. Yenə orada, səh. 91.
97. Yenə orada, səh. 92-93.
98. «Революционный Восток» jurnalı, № 2-3, 1936, səh. 36-37.
99. «Бакинский рабочий» qəz., 18 iyul 1918.
100.K.Rəhimov. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 7, iyul 1990, səh. 48-49.
101.Yenə orada, səh. 56.
102.Yenə orada.
103.Yenə orada, səh. 57.
104.«Azərbaycan» qəz., 17 may 1919.
105.K.Rəhimov. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 7, iyul, 1990, səh. 48-49.
106.«Şeypur» jurnalı, № 8, 1918.
107.İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996, səh. 42.
108.Доклад члена Азербайджанской Чрезвычайной следственной комиссии Михайлова по обследованию им мусульманских селений Джеванширского, Шушинского, Джебраилского и Зангезурского уездов Ганджинской губернии, пострадавших от погромов и других насильственных действий со стороны армян. «Известия» АН Азерб. ССР, серия истории, философии и права, № 3, 1989, səh. 138.
109.Yenə orada.
110.A.Balayev. 1917-1920-ci illərdə Azərbaycanda milli demokratik hərəkat. Bakı, 1990, səh. 50.
111.«Azərbaycan» qəz., № 205, 1919.

112.Дж.Б.Гулиев. Борьба коммунистической партии за осуществление ленинской национальной палитики в Азербайджане. Баку, 1970, səh. 108.
113.«Azərbaycan» qəz., № 38, 1918.
114.Yenə orada, № 48, 1918.
115.C.Həsənov. Göstərilən əsəri, 1993, səh. 150.
116.C.B.Quliyev. Göstərilən əsəri, 1970, səh. 92.
117.N.Orucov. İrəvan, Naxçıvan və Zəngəzur soyqırımı. Bakı, 1994, səh. 21-45.
118.«Азербайджан» qəz., № 21, 1919.
119.İ.Musayev. Göstərilən əsəri, səh. 87.
120.D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz. 23 may, 1992.
121.«Азербайджан» qəz., 10 dekabr 1918.
122.Azərbaycan Respublikası DTA. f. 894, s. 4, qov. 65, vər. 129-130.
123.N.Kəsəmənli. Silahlar danışanda mahnı oxumaq sadəlövhlükdür. «Panorama» qəz., № 5, 1996.
124.Səbahəddin Eloğlu. Zəngəzur hadisələri. Bakı, 1993, səh. 7.
125.P.Əzizbəyova. Азербайджанская Демократиическая Республика и межнациональные отношения (1919-1920 гг.). Azərbaycan Respublikası EA Xəbərləri. Tarif, fəlsəfə və hüquq seriyası, № 1, 1991, səh. 19.
126.T.K.Köçərli. Göstərilən məqalə. «Respublika» qəz., 13 may 1994.
127.C.Makkarti., K.Makkarti. Göstərilən əsər, səh. 80.
128.C.Həsənov. Göstərilən əsəri, 1991, səh. 33.
129.D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz., 23 may 1992.
130.T.K.Köçərli. Göstərilən məqalə. «Kommunist» qəz., 30 sentyabr 1990.
131.«Бакинский рабочий» qəz., 21 dekabr 1992.

132.К истории образования Нагорного Карабахской Автономной области Азербайджанской ССР, 1918-1925 гг. Баку, 1989, səh. 15.

133.Azərbaycan Respublikası DSPİHA, f. 270, s. 1, qov. 65, vər. 71.

134.Yenə orada, f. 276, s. 9, qov. 4, vər. 1.

135.Yenə orada, vər. 2-3.

136.Yenə orada, vər. 14.

137.T.K.Köçərli. Göstərilən məqalə. «Respublika» qəz., 27 may 1994.

138.«Azərbaycan kommunisti» jurnalı, № 11, noyabr 1989, səh. 137.

139.Yenə orada.

140.T.K.Köçərli. Göstərilən məqalə. «Kommunist» qəz., 30 sentyabr 1990.

141.К истории образования НКАО Азербайджанской ССР. 1918-1925 гг. səh. 16.

142.C.B.Quliyev. Göstərilən məqalə. «Бакинский рабочий» qəz., 26 aprel 1994.

143.«Azərbaycan» qəz., 17 may 1919.

144.B.İ.Nəcəfov. Göstərilən əsəri, 1992, səh. 43.

145. Azərbaycan Respublikası DTA, f. 970, s. 1, qov. 65, vər. 71.

146.C.Həsənov. Göstərilən əsəri, 1993, səh. 236.

147.S.Liddel. Müsəlmanlarla müharibə. Ermənilər yenə hücum edirlər. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, № 4, 1989, sh. 84.

148.Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, səh. 210-211.

149.Yenə orada, səh. 111.

150.Yenə orada.

151.Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 1, qov. II, vər. 92.

152.«Azərbaycan» qəz., 6 mart 1920.

153.Azərbaycan Respublikası DTA. f. 894, s. 4, qov. 65, vər. 44.
154.«Azərbaycan» qəz., 4 yanvar 1919.
155.Azərbaycan Respublikası DTA. f. 894, s. 1, qov. 16, vər. 142.
156.Победа Советской власти в Закавказье. Тбилиси, 1971, səh. 373.
157.Azərbaycan Respublikası DSPİHA, f. 276, s. 9, qov. 40, vər. 13.
158.D.P.Quliyev. Göstərilən məqaləsi. «Həyat» qəz., 26 may 1992.
159.«Azərbaycan» qəz., 16 mart 1993.
160.B.İ.Nəcəfov. Göstərilən əsəri, 1992, səh. 45.
161.D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz., 26 may 1992.
162.«Azərbaycan kommunisti» jurnalı, № 11, noyabr 1989, səh. 144.
163.П.А.Азизбекова., М.Азизбеков. «История агрессии: Документы и свидетельства». «Бакинский рабочий» qəz., 28 aprel 1992.
164.Yenə orada.
165.Azərbaycan Respublikası DSPİHA, f. 276, s. 2, qov. 58, vər. 122.
166.B.İ.Nəcəfov. Göstərilən əsəri, 1992, səh. 57.
167.«Elm» qəz., 26 avqust 1989.
168.Салех Бей. Göstərilən əsəri, səh. 223.
169.«Elm» qəz., 26 avqust 1989.
170.«Azərbaycan» qəz., 28 may 1990.
171.Yenə orada.
172.C.B.Quliyev. Göstərilən məqalə. «Bakinskiy raboçiy» qəz., 7 yanvar 1992.
173.M.Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1989, s. 226.
174.«Бакинский рабочий» qəz., 19 may 1924.
175.S.Rüstəmxanlı. Göstərilən əsəri, səh. 89.

176.«Elm» qəzeti, 26 avqust 1989.
177.Yenə orada.
178.Yenə orada.
179.E.İsmayılov., C.Həsənov., T.Qaffarov. Göstərilən əsər, səh. 71.
180.C.Həsənov. Göstərilən əsəri, Bakı, 1993, s. 341.
181.C.Aslanoğlu. Göstərilən məqaləsi. «Xəzər» Jurnalı, № 3, 1990, səh. 69.
182.T.K.Köçərli. Göstərilən məqaləsi. «Kommunist» qəz., 30 sentyabr 1990.
183.Azərbaycan Respublikası DSPİHA, f. 276, s. 9, qov. 54, vər. 29-30.
184.Yenə orada, vər. Vər. 31.
185.C.B.Quliyev. Göstərilən məqalə. «Bakinskiy raboçiy», 7 yanvar, 1992.
186.«Азербайджан» jurnalı, № 77, 1920.
187.Azərbaycan Respublikası DSPİHA, f. 276, s. 3, qov. 192, vər. 5.
188.C.B.Quliyev. Göstərilən əsəri, Bakı, 1970, səh. 353.
189.P.Əzizbəyova. Göstərilən məqaləsi. Azərbaycan EA Xəbərləri, № 1, 1991, səh. 20.
190.Yenə orada, səh. 21.
191.«Азербайджан» jurnalı, № 73, 1920.
192.P.Əzizbəyova., M.Əzizbəyov. Göstərilən məqalə. «Бакинский рабочий» qəz., 25 aprel 1992.
193.Yenə orada.
194.«Азербайджан» jurnalı, № 66, 1920.
195.Yenə orada, № 71.
196.Yenə orada, № 72.
197.C.B.Quliyev. Göstərilən məqalə. «Бакинский рабочий» qəz., 7 yanvar 1992.
198.Yenə orada.
199.«Азербайджан» jurnalı, № 77, 1920.

200.К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР 1918-1925 г. səh. 41.

201.C.B.Quliyev. Göstərilən məqalə. «Bakinskiy Raboçiy» qəz., 8 yanvar 1992.

202.Исторические записки. т. 2, M., 1938, səh. 79-80.

203.Yenə orada.

204.З.Коркодян. Насиление Советской Армении. Ираван, 1932, səh. 167.

205.Azərbaycan Respublikası Dövlət Arxivi. F. 1061, s.1, iş 95, vər. 2.

206.«Xalq» qəz., 28 mart 2007.

207.V.İsmayılova. İnsan faciəsi üzərində qurulmuş Ermənistan. «Azərbaycan» qəz., 19 mart 2001.

208.Ataxan Paşayev. Göstərilən məqalə. «Azərbaycan» qəz., 15 mart 1998.

209.«Xalq» qəz., 31 mart 2007.

210.Babaxan Niyazlı. Göstərilən məqalə. «Azərbaycan mədəniyyəti və incəsənəti» qəz., 18 may 2006.

211.Yenə orada.

212.«Xalq» qəz., 2 aprel 1998.

213.«Azərbaycan» qəz., 18 oktyabr 1919.

III FƏSİL

SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCANA QARŞI MƏKRLİ SİYASƏTİ

1920-ci il aprelin 28-də Sovet döyüşçülərinin Azərbaycana daxil olması ilə Sovet Rusiyası beynəlxalq hüquq normalarını pozdu və dünyanın bir sıra dövlətləri tərəfindən tanınmış Azərbaycan Cümhuriyyətini devirdi. Ertəsi gün rus ordusu Azərbaycan məmurlarının bir neçəsini həbs etdi, polis işçilərini isə tərksilah edib rus və ermənilərə payladı. Onlar tərəfindən tam nəzarətə götürülənlərin bütün hüquqları məhdudlaşdırıldı. Ölkənin idarəçiliyi əsasən ermənilərə, rus, gürcü və yəhudilərə həvalə edildi. O cümlədən Mikoyan – erməni, Xaçiyan – erməni, Qabrilyan – erməni, Orconikidze – gürcü, Levandovski – yəhudi, Liberman – yəhudi, Şevelyev – rus və b.[1] Burası da qəribədir ki, ilk günlərdən başlayaraq Azərbaycanın sevimli övladları bir-birinin ardınca aradan götürüldü. Əhməd İsayevin yazdığı kimi Cümhuriyyətin liderlərindən İsmayılxan Ziyadxanov Gəncədə öldürüldü. Xudadat bəy Rəfibəyov Nargin arasında güllələndi. Nəsib bəy Yusifbəyov Yevlax-Kürdəmir yolunda qətlə yetirildi. 19 iyun 1920-ci ildə Fətəlixan Xoyski, 19 iyulda isə Həsən bəy Ağayev qətlə yetirildilər.[2]

Belə şəraitdə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ermənilər bir müddət sanki sakit davransalar da əslində Qarabağa yiyələnmək iştahasını saxlamaqda davam edirdilər. Azərbaycanda Sovet hakimiyyətinin elə birinci günündən Qazax qəzasında daşnak hissələri peyda oldular. Qarabağda və Zəngəzurda hərəkətlərini gücləndirdilər. Azərbaycan hökuməti 30 aprel 1920-ci il tarixli notası ilə daşnak Ermənistanından tələb etdi ki, onların döyüşçüləri

Azərbaycan ərazisindən çıxarılsın, öz sərhədlərinə çəkilsinlər, millətlərarası ədavətə son qoysunlar.

Azərbaycan hökuməti millətlərarası münasibətləri nizama salmaq üçün mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək siyasəti yeridirdi. Bu məqsədlə 1920-ci il mayın 9-da Bakıda yaşayan Zəngəzur və Qarabağ ermənilərinin, azərbaycanlıların Vağzalətrafı fəhlə klubunda həmrəylik mitinqi keçirilmiş və burada 700-dən çox adam iştirak etmişdi.[3]

Azərbaycanlılar burada nisbətən az olmuşdu. Bu onunla izah olunurdu ki, mitinqin keçirilməsi haqqında elan rus dilində çap olunmuşdu və həm də azərbaycanlıların işlədikləri mədən rayonlarında keçiriləcək tədbir elan olunmamışdı. Mitinqdə Zəngəzur və Qarabağ hadisələri haqqında Karakozyan və Məmmədxan məruzə etdilər.[4] Hər iki məruzəçi ən çox daşnakların azərbaycanlılara qarşı erməniləri təhrik etmələri və millətlər arasında nifaq salmalarından danışdılar. Mitinqdə çıxış edən erməni və azərbaycanlı fəhlələr bildirdilər ki, bu münaqişə və narazılıqlara son qoymaq və daşnak qalıqlarına qarşı birgə mübarizə aparmaq lazımdır. Mitinqdə edilən çıxışlar əsasında qətnamə qəbul edildi. Buna baxmayaraq daşnaklar Ermənistanda azərbaycanlılara qarşı fitnəkarlıqlarını davam etdirməkdə idilər.

Bu vəziyyətlə əlaqədar Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov 1920-ci ildə Qafqaz ölkə komitəsinin üzvü Mdivaninin, AK(b)P MK üzvü A.Mikoyanın, Ermənistan K(b)P MK üzvü Nuridcanyanın imzası ilə Çiçerinə və surəti Orconikidzeyə teleqram vurdu. Teleqramda göstərilirdi ki, daşnak hökuməti Azərbaycana qarşı hücumunu davam etdirir və onlar hətta artıq bir sıra rayonlarda üstünlük əldə etmişlər. Bu gün onların hərbiçiləri Qazax və Gədəbəyə yaxınlaşırlar. Yaxın vaxtlarda dəmir yolunu təhlükə qarşısında qoymaq istəyirlər. Azərbaycana geri çəkilən erməni zəhmətkeşləri müsəlmanlarla birlikdə daşnaklara qarşı mübarizə aparırlar. General Dronun başçılığı altında Ermənistan qüvvələri – daşnaklar onlarla erməni kəndlərini

məhv etmişlər.[5] Həbs edilənlər, güllələnənlər var. İki mindən artıq qaçqın erməni Azərbaycanda sığınacaq tapmışdır, başqaları dağlarda gizlənmişlər. Ermənistan Azərbaycanla müharibə vəziyyətindədir.

Ermənistan Xarici İşlər Naziri Oqacanyandan 1920-ci il 29 aprel tarixində alınan sənədə cavab olaraq mayın 1-də Azərbaycan XİN müavini bildirirdi: Qarabağ və Zəngəzur ərazisindən erməni hərbiçilərini çıxardın və öz sərhədinizə çəkilin, millətlərarası faciələrə son qoyun. Əks-təqdirdə Azərbaycan Respublikası özünü Ermənistan hökumətilə müharibə vəziyyətində sayacaq. Hətta mayın 1-də Orconikidzenin, Kirovun və Levandovskinin imzaları ilə Ermənistan hökumətinə göndərilən radioqramda göstərilirdi: 24 saat ərzində öz qoşununuzu Sovet Azərbaycanı ərazisindən çıxardın. Bu tələbi yerinə yetirmədiyiniz halda bu Ermənistan hökumətinin RSFSR-ə çağırışı kimi qəbul olunacaq və o halda təklif Rusiyanın Qızıl Ordusu tərəfindən yerinə yetiriləcəkdir.[6]

Bu xəbərdarlıqlara baxmayaraq daşnaklar Azərbaycana qarşı təcavüzkar əməllərini davam etdirmişlər. Sərhədyanı ərazilərdə əhalinin Qızıl Ordu hissələri tərəfindən tərksilah olunması da daşnaklara kömək olmuşdur. Azərbaycan XTŞ-nin sədri Nikolay İvanoviç Solovyov Moskvaya göndərdiyi məktubda yazırdı: Ermənistanla sərhədboyu müsəlman kəndlərində silahların yığılması onlara ağır təsir etmişdir. Çünki bu müsəlmanları ermənilər tərəfindən qırılmağa məhkum etmək demək idi.[7]

Bu vəziyyətlə əlaqədar RSFSR hökuməti yanında Azərbaycanın səlahiyyətli nümayəndəsi Behbud bəy Şahtaxtinski V.İ.Leninə yazmışdı: (20 sentyabr 1920-ci ildə) Qızıl Ordu müsəlman əhalisini hətta Ermənistanla sərhədyanı bölgələrdə silahsızlaşdırmağa çalışır. Daşnakların silahlı dəstələri isə müsəlmanları qəddarcasına asıb-kəsir və müsəlman kəndlərini amansızcasına dağıdırlar.[8]

1920-ci ilin may ayında Qızıl Ordu hissələri Qarabağa daxil olan vaxtda Moskvada Sovet Rusiyasının Daşnak

hökumətilə danışıqlar aparması və Ermənistanda Sovet hakimiyyəti qurulmamışdan əvvəl RSFSR nümayəndəsi B.V.Leqranın burada olması nə demək idi?! [9] Deməli, erməni daşnaklarının geniş əl-qol açıb Azərbaycana qarşı təcavüzünü həm Qərb imperialistlərinin, həm də Moskva siyasətçilərinin ikili siyasəti kimi qəbul etmək lazımdır.

Bu dövrdə Zaqafqaziyada ərazi məsələsini tam həll etmək kimi çətin proses gedirdi. Bunu Mərkəz və Zaqafqaziyada sözü keçən nümayəndələr həll edirdilər. Bu məsələlərlə mərkəzdə İ.Stalin, G.Çiçerin və onun müavini L.Qaraxan məşğul olurdular. Zaqafqaziyada – Azərbaycanda mərkəzin xəttini Q.Orconikidze, L.Mirzoyan və başqaları həyata keçirirdilər. Belə şəraitdə Ermənistan daşnak hökuməti Azərbaycan Demokratik Respublikası dövründə silahlı yolla həyata keçirə bilmədiyi planlarını sovet hakimiyyəti şəraitində yenidən ortaya atmışdı.

1920-ci ilin iyununda Nəriman Nərimanov və A.Mikoyan Qarabağ məsələsi üzrə Xarici İşlər Komissarlığına göndərdikləri məlumatda bildirmişdilər ki, Zəngəzur və Qarabağ artıq Sovet Azərbaycanının tərkibinə daxil olmuşdur. Qəti bildiririk ki, bu yerlər mübahisəsiz olaraq Azərbaycanın tərkibində olmalıdır.[10]

Q.K.Orconikidze bu məsələ ilə tam həmrəy olaraq Q.Çiçerinə bildirmişdi ki, Azərbaycan Qarabağın və Zəngəzurun dərhal və qeyd-şərtsiz birləşdirilməsi üzərində israr edir; məncə, bunu etmək lazımdır, belə ki, hər iki qəza iqtisadi cəhətdən Bakıya meyil edir və Erivandan tamamilə ayrı düşmüşdür.[11] Q.K.Orconikidze özünün fikrini yekunlaşdıraraq yazırdı: Mənim fikrim budur – Qarabağ və Zəngəzur dərhal Azərbaycana birləşdirilsin və bu vilayətlərə muxtariyyət verilsin...[12] Q.K.Orconikidze həmin fikri üzərində dayandı, 1920-ci il iyunun 19-da V.İ.Leninə və Q.V.Çiçerinə göndərdiyi teleqramda bildirdi ki, Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edilmişdir və adı çəkilən hər iki ərazi özünü Azərbaycan Sovet Respublikasının ayrılmaz

tərkib hissəsi hesab edir. Azərbaycan Qarabağsız və Zəngəzursuz heç bir halda keçinə bilməz.[13]

Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın sədrini Moskvaya çağırmaq və onunla birlikdə Azərbaycana və Ermənistana aid olan məsələləri həll etmək lazımdır. Və bunu Ermənistanla müqavilə bağlanana qədər etmək lazımdır.[14]

Orconikidzenin həmin fikri 1920-ci il iyulun 16-da Leninə, Stalinə və Çiçerinə göndərilən teleqramda da təkrar edildi. Ümumiyyətlə, Dağlıq Qarabağ məsələsi dəfələrlə RK(b)P MK-nın Qafqaz bürosunda, RK(b)P Zaqafqaziya Ölkə Komitəsində, Azərbaycan K(b)P MK-da müzakirə edilmişdi. Azərbaycan K(b)P MK-nın 1920-ci il iyulun 10-da keçirilən bürosu Qarabağda vəziyyət haqqında məsələni müzakirə edərək göstərmişdi ki, hələ Sovet hakimiyyətinin qələbəsinə qədər Qarabağın kommunistləri Qarabağı Azərbaycanla sıx bağlayan iqtisadi şəraitə görə onun Azərbaycanın tərkibində saxlanmasını zəruri hesab etmişlər.[15] Həmin büronun iclasında eyni zamanda qeyd edilmişdi ki, Qarabağın erməni kəndliləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər.[16] Bu məsələyə Qarabağ kommunistləri də öz münasibətlərini açıq bildirdilər. Onlar belə qənaətə gəlmişlər ki, Qarabağ iqtisadi cəhətdən Azərbaycanla sıx bağlıdır və bu qərar 1919-cu il avqust müqaviləsində qəbul edilmişdir.[17] Buna görə də erməni zəhmətkeşlərinin arzusuna uyğun hərəkət etmək, millətlərarası münasibətləri əmin-amanlıq şəraitində saxlamağa çalışmaq daha faydalı bir zəruriyyət idi.

Lakin hadisələrin gedişi, tarixi faktlar da təsdiq edir ki, Mərkəzin, Orconikidzenin və başqalarının mövqeyi ermənilərə meyilli idi. Bunu hətta Orconikidze və Kirovun 16 may 1920-ci ildə Leninə göndərdikləri teleqramdan da müəyyən etmək olur. Onlar həmin tarixi sənəddə Lenindən N.Nərimanova siyasi etimad göstərməməyi xahiş etmişlər. 1920-ci il iyun ayının axırlarında Rostovda erməni nümayəndələrinin Orconikidze ilə görüşü və bu görüşdə onlar tərəfindən əgər Azərbaycan hökuməti ermənilərin xeyrinə Şərur-Də-

rələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə o halda erməni nümayəndə heyəti Dağlıq Qarabağla Zəngəzurun dərhal Azərbaycana birləşdirilməsinə razı olar[18] fikrinin səslənməsi də təəccüb doğurmurmu?

Burası da qəribədir ki, əgər Nərimanov ermənilərin dediyi kimi Zəngəzurun və Dağlıq Qarabağın Azərbaycana birləşdirilməsi naminə Naxçıvan kimi bir diyardan əl çəkməyə razılıq vermiş olsaydı, o halda şübhəsiz Naxçıvan birdəfəlik itirilə bilərdi. Hadisələrin gedişi onu göstərirdi ki, Sovet Rusiyası Qarabağ və Zəngəzur məsələsində qeyri-obyektiv siyasət yürüdürdü.

Bu, RSFSR Xarici İşlər Komissarı Çiçerinin də mövqeyindən aydın olurdu. Onun Leninə göndərdiyi 29 iyun tarixli məktubuna istinad edən akademik T.Köçərli yazır ki: «Çiçerin «mübahisəli ərazilər» adlandırılan məsələdə Azərbaycan rəhbərliyinin mövqeyi ilə hesablaşmamışdır». Şübhəsiz, belə bir mövqeyin yaranmasında RSFSR Xarici İşlər Komissarının müavini Qaraxanın (Qaraxanyan) da az təsiri olmamışdır. Çiçerin tərəfindən Azərbaycan hökumətinin Qarabağa, Zəngəzura və Naxçıvan, Ordubad, Culfa ilə birlikdə Şərur-Dərələyəz qəzasına iddia edir fikrinin səslənməsi məhz onun ədalətsiz, ermənipərəst mövqeyini açıq şəkildə bir daha təsdiq edir.[19]

Mərkəzin siyasətinin mahiyyətini dərk edən Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov, RK(b)P Qafqaz bürosunun üzvü və başqaları 1920-ci il iyulun 10-da RK(b)P MK-ya etdikləri müraciətdə bildirmişlər: Azərbaycanı möhkəm və Şərqdə sinfi inqilab mənbəyinə çevirmək əvəzinə, Qızıl Ordunun himayəsində duran, ərazisini ermənilərə və gürcülərə paylaşdırılan rəzilə çevirməmək naminə biz Mərkəzi Qarabağ və Zəngəzur məsələsində tərəddüd etməkdən çəkindiririk.[20]

Belə qətiyyətli fikrin Moskvaya bildirilməsinə baxmayaraq Orconikidzenin Leqran ilə birlikdə iyulun 14-də Çiçerinə göndərdiyi teleqram yenə də ermənilərin mövqeyini

müdafiə etmək idi. Sənəddə bildirilirdi: «Məsələni Azərbaycanı qismən təmin edə biləcək bir qaydada həll etməyi zəruri sayırıq: Qarabağ tamamilə və danışıqsız Azərbaycana birləşdirilir. Zəngəzur mübahisəli elan olunur. Qalan vilayətlər (Naxçıvan) Ermənistana qalır».[21]

Orconikidze Çiçerinə göndərdiyi teleqramın təkrarı məzmununda N.Nərimanova telefonla danışıqda bildirir ki, Qarabağ və Zəngəzur haqqında Çiçerinlə danışdım, təklif edirəm göstərilən vilayətlər dərhal və danışıqsız Azərbaycana birləşdirilsin. Siz başqa vilayətlərə (yəni Naxçıvana – Ə.A.) iddialarınızdan əl çəkin, Dağlıq Qarabağa və Zəngəzura muxtariyyət verin.[22]

Orconikidzenin həmin fikrinə cavab olaraq N.nərimanov, Mdivani və digərləri ona və Çiçerinə göndərdikləri teleqramda bildirmişlər: Qəti bəyan edirik ki, Zəngəzur və Qarabağ mübahisəsiz Azərbaycan ərazisidir və bundan sonra da Azərbaycan hüdudlarında olmalıdır.[23]

Çox qəribədir! Qarabağ tarixən Azərbaycanın ayrılmaz hissəsi olduğu halda «Azərbaycana birləşdirilir» fikri, Naxçıvan ta qədimdən əsrlərlə azərbaycanlıların yaşadığı və Azərbaycana məxsus bir diyar olduğu halda, onun «Ermənistana qalır» fikrinin Orconikidze tərəfindən səslənməsi və eləcə də onun tərəfindən 1920-ci il iyunun 19-da Leninə və Çiçerinə göndərdiyi teleqramda «Azərbaycan Qarabağsız və Zəngəzursuz heç bir halda keçinə bilməz» fikrinin deyilməsi və bundan bir az sonra məhz Orconikidzenin Zəngəzuru «mübahisəli» ərazi hesab etməsi bir daha onun ermənipərəstliyini təsdiq edir. Belə bir mövqe hər halda Zəngəzurun həllində öz təsirli rolunu oynamışdı.

Belə ki, 1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətləri bir daha silaha əl atmamaları öhdəliyi götürdülər və Zəngəzura gedən yollarda sərbəst hərəkətin təmin edilməsi haqqında razılıq əldə edildi. Azərbaycan öz hərbi hissələrini hətta Zəngəzurdan çıxartdı. Lakin Ermənistan bütün razılaşmaları pozaraq Zəngəzura qoşun yeritdi.

Belə bir vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökuməti Ali Komissar Haskelə ABŞ zabitlərindən ibarət Zəngəzura komissiya göndərilməsini və ermənilərin tərksilah edilməsini bildirdi.[24]

Haskel avqustun axırlarında (1919-cu ildə) Bakıda Baş nazir N.Yusifbəyovla görüşündə «Qarabağın, o cümlədən Zəngəzurun qəti olaraq Azərbaycana keçməsini zəruri hesab etdiyini» bildirməsinə baxmayaraq Azərbaycan hökumətinin ona müraciəti cavabsız qaldı. Haskel Zəngəzura komissiya göndərmədi və bundan istifadə edən Ermənistan həmin bölgədə öz mövqelərini daha da möhkəmləndirdi.

Bununla bərabər Ermənistan Daşnak hökuməti Dağlıq Qarabağda olan marağından da əl çəkmədi və erməni hiyləgərliyi ilə təxribatını burada bir qədər də artırdı. Həmin hökumət akademik T.Köçərlinin haqlı olaraq yazdığı kimi Dağlıq Qarabağ separatçılarına «mümkün qədər böyük pul vəsaiti» göndərmək, orada erməni hakimiyyəti yaratmaq, «səssiz-küysüz» iş görmək və iş görərkən Ermənistan Respublikasının «adını» belə dilə gətirməmək, Ermənistanın Dağlıq Qarabağda təxribatçılığını maksimum gizli şəkildə aparmaq tapşırığı vermişdi.[25] Deməli, bununla da onlar dünya ictimaiyyətində elə bir təsəvvür yaradılmasına nail olmaq istəyirdilər ki, guya Dağlıq Qarabağda baş verən hadisələrdə Ermənistanın iştirakı yoxdur və həmin yerdə gedən bütün proseslər məhz Qarabağın yerli əhalisinin öz təşəbbüsüdür. Qəribədir! Bunları düşündükcə XX əsrin əvvəllərində Ermənistan dövlətinin separatçı proqramı əsrin axırlarında eyni ilə təkrar edilir. Sanki tarix təkrar olunur.

Belə bir separatçı proqramın həyata keçirilməsi naminə 1920-ci il martın 22-i Novruz bayramı gecəsi Azərbaycan hökumətinə qarşı Dağlıq Qarabağda ermənilərin silahlı qiyamı oldu. Erməni silahlı qüvvələri Xankəndində, Şuşada və başqa yerlərdə olan Azərbaycanın hərbi dəstələrinə qəflətən hücum etdilər və hətta Əsgəran qalasının işğalına nail oldular. Təşkil olunmuş qiyama İrəvandan

gələn daşnak generalı Dro Kanayan və Qafandan Njde öz qoşun hissələri ilə köməklik etdilər.[26]

1920-ci il aprelin 16-da İrəvanın yaxınlığında Haçaparak kəndinə ermənilərin top atəşi və hücumu ilə əhalini qırdılar. Qadın və qızların namusu ləkələndikdən sonra öldürüldü, evlər qarət edildi.

1920-ci il may ayının 23-24-də 300-dən artıq erməni süvarisi Qərbi Azərbaycanda Cebeçalı kəndinə hücumla əli silah tutan adamların hamısını süngüdən keçirdilər. Həmin ilin may ayının axırlarında Qaradağlı kəndinin sakinlərini zorla oradan çıxartdılar, əşyalarını qarət etdilər. Türk professoru Dr.Fahçettin M.Kirzioğlunun məlumatına görə 500 soydaşımız Yerevandan Gəncəyə gedərkən ermənilər qatarı Gümrü yaxınlığında saxlamış və onları vaqondan düşürərək hamısını güllələmişlər. Bunlar hamısı Sovet hökumətinin varlığı şəraitində daşnak Ermənistanı tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırım fəlakətləri olmuşdu.

Belə şəraitdə Zəngəzur və Qarabağ məsələsi ciddi məsələyə çevrilmişdi. Ermənistan həmin ərazilərə yiyələnməyə çox cəhd göstərirdi. Bu vəziyyət nəzərə alındığından 1920-ci ildə V.Yeqorov, A.Mikoyan, Ə.H.Qarayev, M.D.Hüseynov, N.Nərimanov, D.Bünyadzadə, Q.Orconikidze və Ermənistan nümayəndəsi Leqranın iştirak etdikləri Azərbaycan K(b)P MK-nın 15 iyul tarixli bürosunda qərara alındı ki, Qarabağ və Zəngəzur Azərbaycanın tərkibində saxlanılmalıdır.[29] Bununla yanaşı Azərbaycan hökuməti Ermənistanla münasibətləri nizama salmaq səylərini davam etdirdi. Hətta N.Nərimanovun təşəbbüsü ilə 1920-ci ilin avqustunda Sülh konfransı keçirilməsi fikri irəli sürüldü. Bu barədə Ermənistana məlumat verilməsi məqsədi ilə Azərbaycan hökumətinin fövqəladə nümayəndəsi kimi İ.Dövlətovun Ermənistana göndərilməsi qərara alındı.

Qərara uyğun olaraq İ.Dövlətov öz katibi ilə avqustun 12-də Bakıdan yola düşmüş və bu səfərdə onu Ermənistanın diplomatik nümayəndəsi müşayiət etmişdi.[30] O, Bakıya av-

qust ayının 21-də qayıtmış və verdiyi məlumatdan aydın olmuşdu ki, orada onu hər an izləyiblər, hətta evdən heç yerə çıxa bilməyib, yanına isə heç kimi buraxmayıblar. İ.Dövlətovun verdiyi məlumatdan bir daha aydın olmuşdu ki, erməni daşnakları Azərbaycana qarşı ciddi surətdə müharibəyə hazırlaşırlar. Ermənistanda 18 yaşından 45 yaşına qədər olanların səfərbərliyi elan edilmişdi.[31] Hələ bundan bir az əvvəl Ermənistan məqsədinə çatmaq üçün Denikinin hərbi qüvvələrinə arxalanaraq Gürcüstan və Azərbaycana qarşı müharibə aparmışdı. Hətta bunu İrəvanın siyasi xadimlərindən biri etiraf edərək açıq surətdə demişdi: Ermənistan Respublikası öz qüvvələri ilə Denikin ordusunun 7-ci korpusunu təşkil etmişdir.[32] Ermənilər hətta öz məqsədlərinə çatmaq naminə Sovet Rusiyası əleyhinə Antantaya kömək etmək məqsədilə Denikinlə gizli müqavilə də bağlamışdılar. Buna görə də Amerikadan Ermənistana lazımi miqdarda silahlar gətirilmişdi.

Denikindən sonra isə Ermənistan məqsədinə nail olmaq üçün ümidini Vrangelə bağlamış və ondan hərbi sursat almışdı. Daşnak Ermənistanı eyni zamanda bir qədər əvvəl Fransaya arxalanıb Türkiyəyə qarşı ərazi iddiasında olmuşdu. 1919-cu ildə ermənilərin çoxluq təşkil etdiyi Kilikiya fransız ordusu tərəfindən tutulduqdan sonra Fransa müstəqil erməni dövləti yaratmağı vəd etmişdi. Erməni terrorçu dəstələri isə türklərə qarşı mübarizəni genişləndirMişdilər.[33]

C.Arslanoğlu Türkiyədə ermənilərin fəaliyyətini belə xarakterizə edir: Səkkiz yüz ilə yaxın bir dövrdə türk aləmi içində yaşayan, onun sahib olduğu bütün hüquqlara malik olan erməni xalqı türkün zəiflədiyi və vəziyyətinin pisləşdiyi anlarda rusların, ingilislərin, fransızların təhrikləri ilə kilsə monastrlarında Osmanlı dövlətinin yıxılması üçün hər cür işlər görmüşlər. Erməni zülmü 1920-ci ilin payızında daha dözülməz olmuşdu. 3-cü ordu komandanı Vehib Mehmet paşa tərəfindən Baş qərargaha yazılan məlumatda ermənilərin

türklərin hamısını yox etməyə qərar verdikləri, başları kəsilmiş, silahsız adamları yandırdıqları və s. bildirilmişdir.[34]

Belə bir vəziyyətlə əlaqədar olaraq 1920-ci ildə Türkiyə Kilikiyaya öz nizami ordu hissələrini göndərdi, fransızları sıxışdırdı və erməni bandalarının yuva saldığı bir neçə kəndi dağıtdı. 1921-ci ildə Fransa Türkiyə ilə müqavilə bağladı və bununla da Kilikiyadan imtina etdi. Tarix boyu başqalarına ümid bəsləyib xəyanətkarlıq yolu tutmuş daşnaklar çətin vəziyyətdə qalaraq Suriyaya, Kiprə və Misirə çəkilməli oldular.[35]

Fitnəkar ermənilər 1920-ci ildə Vrangellə əlbir olmaqla yanaşı İngiltərə dövlətinə də böyük ümidlər bəslədilər. Odur ki, İngiltərədən silah və başqa yardım almış daşnaklar 1920-ci ilin sentyabrında yenidən fəallaşdılar.

1920-ci ilin yayında Zəngəzurun bir hissəsini zəbt etməklə kifayətlənməyən ermənilər eyni zamanda Qaryagin qəzasında və Qarabağın digər bölgələrində daşnak qiyamı qaldırdılar. Məqsəd Qarabağı Azərbaycandan ayırmaqdan ibarət idi. Ermənilər həmçinin 1920-ci ilin sentyabr ayının sonlarında Şərqi Türkiyə ərazisini işğal etmək məqsədilə ona müharibə elan etdilər. Kazım Qarabəkir Paşanın başçılığı altında türk ordusu erməni daşnak ordusunu darmadağın etdi və Ermənistanın ərazisinin xeyli hissəsini nəzarət altında saxladı. Belə olduqda Ermənistan dövləti Türkiyə ilə müqavilə bağlamaq məcburiyyətində qaldı və bununla da 1920-ci ilin sonlarına yaxın Aleksandropolda müqavilə imzalandı. Müqaviləyə görə Ermənistanın ərazisi təxminən 10 min km^2 həcmində müəyyənləşdirildi.[36]

Bu əslində Ermənistanın real dövlətçiliyə malik olmadığı demək idi. Vəziyyəti belə görən Sovet Rusiyası erməni «inqilabçılarına» köməklik etmək pərdəsi altında XI Ordu hissələrini Ermənistana yeritdi və bununla da Ermənistanda 29 noyabr 1920-ci ildə Sovet hakimiyyəti quruldu.

Noyabrın 30-da (1920-ci ildə) AK(b)P MK Siyasi və Təşkilat Bürosunun birgə iclasında (Nərimanov, Orconikidze, Kamenski, Qarayev, Hüseynov, Sərkis və b. iştirak etdi)

qəbul edilmiş qərarda Sovet və İnqilab Komitəsi adından Ermənistan hökumətinə müraciət edilib göstərildi ki, Azərbaycanla Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. Qərarda Zəngəzur, Qarabağın dağlıq hissəsi məsələsinə də toxunulmaqla bərabər eyni zamanda hərbi və təsərrüfat ittifaqına girmək zərurəti göstərilmişdi.[37] Buna uyğun olaraq Ermənistanda Sovet hökumətinin qurulmasının ilk günlərindən Azərbaycan hökuməti onlara xeyirxahlıqla yanaşdı və hətta elə bir dövrdə maddi yardım göstərməyi belə əsirgəmədi. Belə ki, dekabrın əvvəlində (1920-ci ildə) Azərbaycan İnqilab Komitəsi Ermənistana 40 sistern neft və avtomaşın yağı göndərməyi qərara aldı. Bir neçə gündən sonra 5 vaqon neft, 35 vaqon çörək məhsulu göndərildi.[38] 1921-ci ilin iyununda isə Ermənistana 70 sistern neft məhsulları göndərildi. Azərbaycanın bu maddi köməyini hətta erməni tarixçiləri S.Vartanyan, A.Akopyan və başqaları da etiraf etmişlər. A.Akopyanın verdiyi məlumatda qeyd edilmişdi ki, 1921-ci ilin aprelin 10-dan noyabrın 10-dək olan müddətdə Azərbaycan Ermənistana əvəzi ödənilmədən 36 min pud yanacaq göndərmişdir.[39]

Azərbaycan Ermənistana sonrakı illərdə də köməkliyini müvəffəqiyyətlə davam etdirmişdi. Hətta Ermənistan-Azərbaycan münaqişəsinin başlanması ərəfəsində – 1987-ci ildə bizim Respublika Ermənistanı bütün ehtiyaclarını ödəyəcək dərəcədə neft məhsulları ilə təmin etmişdi. Belə ki, Azərbaycandan Ermənistana 388 min ton avtomobil Benzini, 375 min ton dizel yanacağı, 1 mln. 860 min ton yanacaq mazutu, 30 min ton yağ və sürtkü yağları göndərilMişdi.[40]

Mərkəzin Ermənistana himayədarlığı Sovet hakimiyyətinin qurulmasının ilk günlərindən özünü daha aydın şəkildə göstərmişdi. Belə ki, V.İ.Lenin 13 dekabr (1920-ci il) tarixli sərəncamı ilə Sovet hökumətinin Ermənistana yardım göstərmək haqqında qəbul etdiyi qərara uyğun olaraq Ermənistana 1921-ci ildən 1922-ci ilədək olan müddətdə 35 milyon rubl qızıl pul, 426 min pud taxıl, un, xeyli miqdarda düyü,

şəkər, balıq, parça, yanacaq və başqa şeylər göndərildi. Rusiyanın Ermənistana göstərdiyi himayədarlığın nəticəsi olaraq Ermənistana hər ay 166 min rubl qızıl pulla yardım edildi. 110 vaqondan çox taxıl, 11 vaqon şəkər, 7 vaqon dava-dərman göndərildi. Bununla bərabər V.İ.Leninin Ermənistan XKS-nin sədri ilə söhbətində «Biz Sizə yardım göstərəcəyik. Əgər pula ehtiyacınız olsa pul verərik, əgər materiallara ehtiyacınız olsa material alarsınız»[41] fikrinin səslənməsi də bir daha Sovet hökumətinin Ermənistana olan mövqeyini açıqlayır. Çox qəribədir, Rusiyada həmin illərdə acından ölənlər, ağır cəhalət və ehtiyac içərisində yaşayanların olması bir şəraitində Ermənistana edilən yardım təəccüb doğurmaya bilmir.

Zaqafqaziyada ərazi sahəsində olan mübahisəli məsələlərlə məşğul olmaq məqsədilə 1921-ci ilin mayında RK(b)P MK Qafqaz Bürosu S.M.Kirovun sədrliyi ilə həmin respublikaların nümayəndələrindən ibarət komissiya yaratdı.[42] Lakin bu komissiyanın təşkilinə məhəl qoymayan erməni millətçiləri 1921-ci ilin iyununda Azərbaycanın sərhəd bölgələrində qiyamlar təşkil etdilər. Onlar Sovet hakimiyyətini möhkəmləndirmək pərdəsi altında, «Yaşasın Ermənistanın ayrılmaz hissəsi olan Sovet Zəngəzuru» şüarı deyərək Zəngəzurun bir sıra kəndlərini tutdular. Bu, vəziyyəti daha da ağırlaşdırdı. Bu vəziyyətin yaranmasında N.Nərimanovun hələ 1921-ci il 5 fevral tarixli AK(b)A MK plenumundakı çıxışında açıq şəkildə dediyi kimi 1200 nəfər erməni kommunistlərinin xəyanət yolunu tutaraq onlara verilmiş silahlarla daşnaklara köməklik etməsi öz mənfur rolunu oynamışdır. Münaqişəni aradan qaldırmaq üçün Azərbaycan hökuməti bir sıra mühüm təşəbbüslər irəli sürmüşdü. Bu cəhətdən Azərbaycan İnqilab Komitəsinin 7 mart 1921-ci ildə keçirilən Plenumunda N.Nərimanovun çıxışını və həm də Azərbaycan hökumətinin təkidi ilə (3 iyun 1921-ci ildə) RK(b)P MK Qafqaz Bürosunun Plenumunun daşnakların Zəngəzur

qruplaşmasının tezliklə ləğv edilməsi haqqında qəbul edilmiş qərarını[43] və b. qeyd etmək olar.

Belə mürəkkəb şəraitdə Zəngəzurda çox ağır vəziyyət yarandı. Bura daşnakların, erməni silahlı qüvvələrinin və eləcə də Türkiyədən olan erməni qaçqınlarının yuvasına çevrildi. Yaranmış şəraitdən istifadə edən Ermənistanın Zəngəzura aid iddiaları daha da qüvvətləndi. Digər tərəfdən də onun Sovet Rusiyası vasitəsilə buranı ələ keçirmək siyasəti fəallaşdı. Bununla da Zəngəzur ətrafında yaranmış çox çətin siyasi şərait nəticəsində Azərbaycan dövləti Zəngəzurun bütün ərazisini özündə saxlaya bilmədi və onun qərb hissəsi Ermənistana qaldı.

Burası qəribədir ki, Oktyabr inqilabına qədər əhalisinin 80-85 faizi Azərbaycanlılardan ibarət olan Oxçuçay və Gığı dərəsi əhalisinin isə hamısının tamamilə azərbaycanlılardan ibarət olması və eyni zamanda Qafan şəhərinin yeri – Qatar adlı yer azərbaycanlıların yaşadığı kənd olduğu halda Zəngəzur mahalı necə ola bilərdi ki, ermənilərə məxsus ərazi olmuş olsun. Həmin mahal ərazisində Acağu, Gilətağ, Şotalı, Zeyvə, Tünütəpə, Əfsəri, Buğacıq, Həcəri, Quşculu, Pir Davidan, Oxçu, Qarababalı, Baharlı, Acubağ, Kirs və b. kəndlərin, Saqqarsu, Oxçuçay, Əcili çayı, Əfsəri çayı, Qarpsu çayı və s. çayların, Qapıcıq, Gəzbel, Novruzyurd, Kəndirli, Kotan şumu, Bərgüşad və digər dağların adlarından göründüyü kimi Zəngəzur ərazisi bütünlükdə azərbaycanlılara məxsus olan bölgə olmuşdur.

Lakin Sovet rəhbərliyində Mikoyan, Mirzoyan, Orconikidze, Kirov və başqaları kimi ermənipərəst şəxslərin üzündən Zəngəzur kimi böyük bir ərazinin Ermənistana birləşdirilməsi 1921-ci ilin ortalarında başa çatdı. Bununla da həmin ilin iyulun 20-də Ermənistanda 9-cu qəza – Zəngəzur qəzası təşkil olundu.[44] Bununla da Azərbaycanın qədim torpağı olan Zəngəzurun «Sovet rəhbərliyi» tərəfindən qanunsuz olaraq Ermənistana verilməsi nəticəsində 44-45 km. enində

zolaq Araza doğru uzanaraq Naxçıvan MR-nı Azərbaycanın qalan ərazisindən ayırdı.[45]

Bununla da professor Maqsud Cəlilovun haqlı olaraq yazdığı kimi 1918-1922-ci illərdə Şaumyan, Mikoyan, Mirzoyan və bir çox başqa millətçilərin təhriki ilə erməni daşnaklarına kömək edilərək onlara tarixi ərazilərimizin, Zəngəzur kimi böyük bir ərazimiz də daxil olmaqla 28 min kvadrat kilometr sahənin işğal etməsinə imkan yaradılmış oldu (Bax: Suverenliyimizi düşünərkən. «Bakı» qəz. 12 dekabr 1991.).

Lakin ermənilər bununla da kifayətlənmək istəmədilər. Dağlıq Qarabağın bir hissəsini də özlərinə qatmaq məsələsində israr etdilər. V.İ.Leninin Ermənistan İnqilab Komitəsinin sədri S.Kasyana 2 dekabr 1920-ci ildə göndərdiyi teleqramında da bu məram öz əksini tapmışdı. Teleqramda göstərilirdi: Sizin şəxsinizdə imperializm zülmündən azad olan zəhmətkeş Sovet Ermənistanını salamlayıram. Şübhə etmirəm ki, siz bütün gücünüzü Ermənistan, Türkiyə, Azərbaycan zəhmətkeşləri arasında qardaşlıq həmrəyliyinin bərpasına sərf edəcəksiniz.

Azərbaycan Sovet hökumətinin rəhbəri Nəriman Nərimanov da Ermənistan-Azərbaycan münasibətlərinin dəyişməsinə böyük ümidlər bəsləyirdi. Onun 1 dekabr 1920-ci il bəyanatında deyilirdi: İndən belə heç bir ərazi məsələsi əsrlərlə bir-birinə qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların qarşılıqlı surətdə bir-birinin qanını axıtmasına səbəb ola bilməz.[46]

Lakin daşnaklar millətçi şovinist siyasətlərini davam etdirməkdə idilər. 1921-ci il yanvarın 12-də G.Çiçerin Stalinə bildirdi ki, daşnaklar türklərlə çox fəal danışıqlar aparırlar və bu yenidən daşnakların hakimiyyətə gəlməsinə səbəb ola bilər. Bundan narazı olan A.Mikoyan Çiçerindən şikayətlənərək həmin ilin yanvarında Leninə bildirmişdi ki, Simon Vrasiyan «inamlı kommunist»dir. O tamamilə bizim ideyanı müdafiə edir, Sovet hakimiyyətinin taleyi inamlı

əllərdədir.[47] Lakin «Böyük Ermənistan vətənpərvəri» Mikoyan fakt qarşısında qaldı: onun «inamlı kommunist» kimi səciyyələndirdiyi Simon Vrasiyan Ermənistanda 1921-ci il yanvarın 15-də antisovet qiyamına başçılıq etdi.

Sovet hakimiyyətinin qələbəsindən cəmi bir neçə ay sonra başlanmış həmin qiyamda məqsəd Dağlıq Qarabağı, Zəngəzuru və Naxçıvanı Azərbaycandan qoparmaq idi. Simon Vrasiyanın başçılığı altında yaradılan «Milli hökumət» görünməmiş qəddarlıq siyasəti həyata keçirdi. 1921-ci ilin fevral-aprel ayları ərzində Ermənistan ərazisində gürcü və azərbaycanlı kommunistlərinin qırğını təşkil edildi, habelə Naxçıvan və Dağlıq Qarabağın on minlərlə müdafiəsiz əhalisi erməni cəlladlarının əli ilə məhv edildi.

1921-ci ilin martın 1-də riyakar Vrasiyan Türkiyə hökumətinə müraciət edərək Sovet hakimiyyətinə qarşı mübarizədə ona köməklik göstərməyi xahiş etdi. Həmin ilin martın 9-da isə Təbrizdə erməni arxiyepiskopu Nerses Melik-Tanqyana göndərdiyi məktubda (məktub Təbrizdə çıxan «Minat» qəzetində 14 aprel 1921-ci ildə nəşr edilmişdi) yazırdı: «Bizim Türkiyə ilə münasibətimiz yaxşıdır, əminəm ki, səmimi dostluq yaranacaq, bizim yeganə təhlükəmiz Şimaldandır. Buna görə də bütün cənub xalqları birləşməlidir».[48]

Görülən tədbirlər nəticəsində qiyam yatırıldı və Daşnaklar Ermənistan ərazisindən qovuldular. Bundan sonra onlar fəaliyyətlərini xaricdəki daşnak təşkilatlarına və erməni icmalarına keçirdilər. Ancaq daşnaklar silahı yerə qoymadılar və türklərə qarşı mübarizəni davam etdirdilər. 1921-ci ilin 14 iyulunda daşnak lideri Riqada Xalq Xarici İşlər Komissarlığının məsul işçisi İoffe ilə müqavilə imzalamağa nail oldu. Müqavilədə ermənilərin yaşadığı Türkiyə ərazisinin Sovet Rusiyasının yardımı ilə Ermənistan Respublika-sına birləşdirilməsi, «müstəqil Ermənistan» yaradılması nəzərdə tutulurdu. Müqavilənin bağlanmasından 12 gün sonra 26 iyulda RK(b)P MK-nın Siyasi Bürosu V.İ.Leninin təklifi ilə müqa-

vilə layihəsini ləğv etdi və bundan sonra daşnak qruplaşmalarının müxtəlif ölkələrdə mühacirlik fəaliyyəti başlandı.[49]

Erməni millətçilərinin «Böyük Ermənistan» yaratmaq iddiası uğrunda apardıqları mübarizə Ermənistana səadət gətirmədi, əksinə, erməni əhalisinin, eləcə də azərbaycanlıların miqdarının azalmasına səbəb oldu. Belə ki, daşnak hakimiyyəti dövründə Ermənistanda əhalinin sayı 1918-ci ildə 1 milyon 200 min nəfərdən 1920-ci ildə 774 min nəfərə endi. 300 mindən artıq daşnak xaricə getdi. Bununla bərabər 200 min azərbaycanlı, 20 min kürd Ermənistanı tərk etmək məcburiyyətində qaldı.[50]

Daşnakların millətçilik siyasəti Ermənistanın iqtisadiyyatına da öz mənfi təsirini göstərdi. Ermənistanda bir sıra kəndlərdən azərbaycanlıların çıxarılması nəticəsində buğda, arpa, kartof və digər məhsulların istehsalı xeyli dərəcədə azaldı. Belə ki, 1913-cü ildə Ermənistanda bütün əkin sahələri 345,7 min hektardan 1919-cu ildə 72,7 min hektara endi. 1913-cü ildə Ermənistanda 15,3 min hektar pambıq əkildiyi halda daşnak hökuməti dövründə həmin rəqəm 1919-cu ildə 0,6 min hektara endi.[51] Daşnak hökuməti dövründə erməni qaçqınları da az olmadı. 1920-ci ilin may-iyun aylarında Qazax və Şamxor qəzalarında daşnakların özbaşınalıqlarından narazı olan 20 minə qədər erməni qaçqınları azərbaycanlılar arasında özlərinə sığınacaq tapdılar.[52] Erməni qaçqınlarına köməklik göstərmək məqsədilə Azərbaycan hökuməti N.Nərimanovun başçılığı altında xüsusi komissiya yaratdı. Bütün bunlara baxmayaraq Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ məsələsi mübahisəli məsələ kimi qalmaqda idi. Ermənilər Sovet hökumətinin qələbəsindən sonra da Qarabağın iki yerə bölünməsi məsələsini ortaya atdılar.

Respublikalar arasında sərhədləri müəyyən edən komissiyanın 1921-ci il iyunun 25-27-də Tiflisdə iclası oldu. Həmin iclasda çıxış edən erməni nümayəndəsi Bekzadyan xahiş etdi ki, «Ümumi həmrəylik, səmimi və mehriban münasibətlərin olması naminə ermənilərin yığcam yaşadıqları

rayonlarda onlara ərazi güzəştləri edilsin». Buna cavab olaraq Azərbaycan və Gürcüstan nümayəndələri «ərazilərin hər hansı cür kəsilib qatılmasının yol verilməz» olduğunu söylədilər.

Buna baxmayaraq Ermənistan hökuməti A.Mravyanı Dağlıq Qarabağa özünün fövqəladə müvəkkili təyin etdi. O, iyunun 25-də Tiflisdən Qarabağa yola düşdü. N.Nərimanov A.Mravyandan Ə.H.Qarayev vasitəsilə Bakıya gəlməsini tələb etdi. O gəlməyə razılıq vermədi və Qarabağ məsələsinə tezliklə baxılması barədə Orconikidzeyə məktubla müraciət etdi. G.K.Orconikidze iyunun 26-da N.Nərimanova teleqram göndərərək Qarabağ məsələsi haqqında AK(b)P MK və Azərbaycan SSR XKS-nin iclasının çağırılmasını xahiş etdi və bununla bərabər o, öz mövqeyini bildirərək göstərmişdir ki, həmin məsələnin həllində bir erməni kəndi Azərbaycana və bir müsəlman kəndi Ermənistana birləşdirilməməlidir prinsipi rəhbər tutulmalıdır.[53]

N.Nərimanov iyunun 27-də Orconikidze və A.F.Myasnikova göndərdiyi teleqrafda Mravyanın Ermənistan müvəkkili kimi Qarabağda peyda olmasını siyasi və taktiki səhv hesab edərək onun geri çağırılmasını xahiş etdi və həmin gün buna nail oldu. Mravyan Qarabağdan geri çağırıldı.

Dağlıq Qarabağ haqqında məsələ 1921-ci il iyunun 27-də AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosunda nəzərdən keçirildi. Həmin büroda Sovet Ermənistanının nümayəndəsi A.Bekzadyan Qarabağın Ermənistanla birləşdirilməsi təklifi ilə razılaşmadı. Burada göstərildi ki, bu məsələ Dağlıq Qarabağın Azərbaycana qəti iqtisadi meylinin nəzərə alınması ilə həll edilə bilər. Eyni zamanda qeyd edildi ki, erməni və azərbaycanlı əhalisi olan ərazilərin ayrılıb Ermənistana və Azərbaycana verilməsi təklifi inzibati və iqtisadi cəhətdən əlverişli olmadığı üçün qəbul edilə bilməz.[54]

Rəhbər vəzifəlilər içərisində Qarabağ məsələsi müzakirə olunarkən müxtəlif fikirlər də aşkar edildi. Hətta azərbaycanlı və erməni əhalisinə görə əraziləri müəyyənləşdirib

Azərbaycanın və Ermənistanın tərkibinə qatmaq təklifləri irəli sürüldü. Bu təklif AK(b)P MK Siyasi və Təşkilat Bürosunun 27 iyun (1921-ci il) tarixli qərarı ilə rədd edildi.[55] N.Nərimanov rabitə vasitəsilə Tiflisə M.D.Hüseynova bildirdi ki, «məsələ yalnız bu şəkildə həll oluna bilər, əks təqdirdə Xalq Komissarları Soveti məsuliyyəti öz üzərindən götürür».

Bununla da iki Sovet respublikası arasında milli-ərazi zəminində ixtilaf yenidən meydana çıxdı. Dağlıq Qarabağ məsələsinin həllində əmələ gəlmiş düyünü nəzərə alaraq RK(B)P MK-nın Qafqaz bürosunun plenumu həmin məsələni müzakirə etməli oldu. Plenum 1921-ci il iyulun 4 və 5-də keçirildi.

İyulun 4-də 8 büro üzvünün – Nərimanov, Maxaradze, Orconikidze, Kirov, Myasnikov, Oraxelaşvili, Nazaretyan, Fiqatner və komsomolun Qafqaz bürosunun katibi Breytman və Gürcüstan KP MK-nin üç üzvünün iştirakı ilə keçirilmiş plenumda «Qarabağ məsələsi» müzakirə olunarkən iki fikir meydana çıxdı. Qarabağın Azərbaycanın tərkibində saxlanması lehinə Nərimanov, Nazaretyan, Maxaradze, əleyhinə isə Orconikidze, Kirov, Myasnikov və Fiqatner səs verdilər. Oraxelaşvili səsvermədə iştirak etmirdi. Qarabağda bütün əhalinin – azərbaycanlıların və ermənilərin iştirakı ilə referendum keçirilməsi məsələsi müzakirə edildikdə isə onun lehinə yalnız Nərimanov və Maxaradze səs verdilər. Burada daha bir təklif də – referendumun Qarabağın yalnız dağlıq hissəsində, yəni əsasən ermənilər arasında keçirilməsi təklifi də verildi. Bu təklifin lehinə Kirov, Orconikidze, Nazaretyan, Myasnikov və Fiqatner səs verdilər.[56] Bununla da Plenum qərara aldı ki: Dağlıq Qarabağ Ermənistan SSR-ə daxil edilsin və referendum yalnız Dağlıq Qarabağda keçirilsin. Həmin iclasda səsvermədə İ.Stalin iştirak etməmişdir. Belə bir ədalətsiz qərarla heç cürə razılaşmayan N.Nərimanov Bəyanatla çıxış edərək bildirdi ki, Qarabağ məsələsi Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb etdiyindən, onun haqqında daha obyektiv qərar çıxarmaq üçün həmin

məsələnin RK(b)P MK-da keçirilməsini zəruri hesab edirəm. Nərimanovun bəyanatını Plenum nəzərə alaraq Qarabağ məsələsində ciddi fikir ayrılığına görə həmin məsələnin həllini RK(b)P MK keçirməyi qərara aldı.[57]

Nərimanovun ciddi müqaviməti və prinsipial qəti mövqeyi nəticəsində Orconikidze və Nazaretyanın təklifinə əsasən iyulun 5-də plenum həmin məsələni yenidən müzakirə etdi. Bu dəfə Plenum tam heyətdə – Stalinin və Azərbaycan Xarici İşlər Komissarı M.D.Hüseynovun iştirakı ilə keçirildi. Burada iyulun 4-də qəbul edilmiş qərardan fərqli olaraq yeni qərar qəbul edildi və göstərildi ki, «azərbaycanlılar və ermənilər arasında milli barışığın zəruriliyini, Qarabağın yuxarı və aşağı hissələri arasında iqtisadi əlaqələri, onun daim Azərbaycanla bağlı olduğunu nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, inzibati mərkəz muxtar vilayətə daxil olan Şuşa olmaqla ona geniş vilayət muxtariyyatı verilsin…»[58]

Ancaq muxtar vilayətin yaradılması haqqında qəbul edilmiş qərar heç də hər yerdə, Azərbaycan ictimaiyyəti tərəfindən razılıqla qarşılanmadı. Qərarda, həmçinin göstərilirdi ki, Azərbaycan K(b)P MK-ə tapşırılsın ki, muxtar vilayətin sərhədini, ərazisinin həcmini müəyyən etsin və onu RK(b)P Qafqaz bürosunun təsdiqinə təqdim etsin.[59] Beləliklə, Dağlıq Qarabağ məsələsi geniş müzakirə olundu və onun Azərbaycanın ayrılmaz hissəsi kimi tərkibində saxlanması qərarı qəbul edildi.

Göründüyü kimi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini israr edən ermənilər 1918-1920-ci illərdə yeritdikləri siyasətə qayıtmışlar. Hələ xanlıqlar vaxtında Dağlıq Qarabağ mərkəz Şuşa olmaqla Qarabağ xanlığı (1747-1822) tərkibində olmuşdu. Qarabağ xanlığı Rusiya tərkibinə daxil edildikdən və orada komendant idarəsi yaradıldıqdan sonra da Dağlıq Qarabağ Azərbaycanın tərkibində Qarabağ əyalətinə daxil olmuşdu. 1868-ci ildən 1920-ci ilə qədər Yeliza-

vetpol quberniyası dövründə də Dağlıq Qarabağ İrəvan quberniyası tərkibində olmamışdır.[60]

Tarixi həqiqəti inkar edən ermənilər etiraf etmək istəmirdilər ki, nəinki Dağlıq Qarabağ və eləcə də İrəvan quberniyası əhalisinin çoxluğunu azərbaycanlılar təşkil etmişlər. Hətta bunu erməni müəlliflərindən olan V.A.Parsamyan, S.A.Poqosyan, Ş.R.Arutunyan da etiraf edərək yazırlar ki, Çar Rusiyası müstəmləkəçilik siyasətini həyata keçirərkən müsəlman torpaqlarında ermənilərin məskunlaşmasına xüsusi diqqət verirdi. Həmin dövrdə İrəvan şəhərində demək olar ki, erməni yaşamırdı. Ancaq köçürmə siyasətindən sonra burada 1850-ci ildə ermənilər əhalinin 8 faizini, 1879-cu ildə 9 faizini və 1897-ci ildə isə 10 faizini təşkil etmişlər.[61] Belə olan halda Dağlıq Qarabağa yiyələnmək iddiası olduqca təəccüblüdür, tarixi həqiqəti inkar etməkdir. 1918-ci ilə gəldikdə həmin ilin mayın axırlarından başlayaraq Azərbaycan Demokratik Respublikası dövründə Azərbaycanın və Ermənistanın sərhədlərində dəyişiklik olmamış, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalmışdı.

Hətta 1920-ci il 7 iyulda RK(b)P MK-nın adına Nərimanov, Mdivani, Mikoyan, Naneyşvili, Levandovskinin yazdıqları qeyddə bildirilmişdi ki, Müsavat hökuməti dövründə də Qarabağ bütünlüklə Azərbaycanın tərkibində idi.[62] «Qarabağ məsələsi» Ermənistan daşnak hökumətinin iddiası ilə yenidən başlanmışdı. Daşnaklar Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi məsələsini ortaya atmaqla millətlərarası münasibətləri daha da kəskinləşdirdi. Məhz 1921-ci il 5 iyul tarixli qərar belə gərgin bir şəraitdə qəbul edildi.

Deməli, RK(b)P MK Qafqaz bürosunun Dağlıq Qarabağı Ermənistanın tərkibinə daxil etmək haqqında 4 iyul 1921-ci il tarixli qərarın ləğv edilməsinə Nərimanov qüdrəti nail olmuşdu. Akademik T.Köçərli yazır: «Məhz Nərimanov və yalnız Nərimanov 1921-ci il iyulun 5-də Qafqaz bürosunun Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar çıxarmasına nail olmuşdur. Bu, Nəri-

manovun əvəzsiz xidməti və böyük qələbəsi idi» (Bax: «İqtisadiyyat» qəz. 2-8 fevral 2000).

1921-ci il iyulun 19-da Azərbaycan MİK rəyasət heyətinin iclası oldu. Burada Rəyasət Heyətinin üzvlərindən Qasımov, Qarayev, Pleşakov, Nərimanov, Bakı Sovetinin sədri Kaminski, Azərbaycan K(b)P MK katibi Kirov və başqaları iştirak etdilər. Qarabağda vəziyyət haqqında Qarayev məlumat verdi. N.Nərimanov isə həmin dövrdə Tiflisdə olarkən Azərbaycan, Gürcüstan və Ermənistan sərhədlərinin müəyyən edilməsi məsələsi üzrə etdiyi məruzəsində göstərmişdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalır. Buna görə də Dağlıq Qarabağda görüləcək işlərə xüsusi diqqət vermək lazımdır. N.Nərimanov sözünə davam edərək bildirmişdi ki, burada görülən işin əhəmiyyəti azərbaycanlı və erməni zəhmətkeşlərinə eyni dərəcədə yanaşmaqdan asılıdır və bu münasibəti hər iki millətin nümayəndəsi hiss etməlidir.[63]

N.Nərimanov həmçinin göstərdi ki, Şuşada kifayət qədər fəhlələrin olması ilə əlaqədar olaraq vilayət İcraiyyə Komitəsi ilə yanaşı, Şuşa şəhər İcraiyyə Komitəsini də yaratmaq vəzifəsi qarşıda durur. Partiya təşkilatı məsələsinə gəldikdə Azərbaycan K(b)P MK-sı Dağlıq Qarabağ Vilayət Partiya Komitəsi hüququna bərabər şəhər partiya komitəsi yaratmağı vacibdir.[64]

RK(b)P MK Qafqaz bürosunun qərarına uyğun olaraq AK(b)P-nın rəhbər işçilərindən Ə.H.Qarayev, LD.Mirzoyan və başqaları Qarabağa göndərildilər. Bakıya qayıtdıqdan sonra L.Mirzoyan AK(b)P MK-də və RK(b)P MK Qafqaz bürosunda məruzə etdi. O, göstərdi ki, Qarabağ məsələsində elə bir anlaşılmamazlıq yoxdur, görüşdə və söhbətlərdə erməni kəndliləri bildirdilər ki, onlar Bakı və Ağdamla sıx əlaqə olmadan yaşaya bilməzlər.[65] O, həmçinin mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağın Azərbaycana tabe olması şərti ilə müstəqil inzibati vahidə ayrılması mümkünlüyünü bildirdi. Bütün bunlara baxmayaraq Dağlıq Qarabağ

Muxtar Vilayətinin yaradılması prosesi çox mürəkkəb şəraitdə həyata keçirilirdi. Qarabağın özündə və eləcə də Ermənistanda erməni ziyalılarının müəyyən hissəsi bu qərara qarşı çıxdılar.

1921-ci ilin avqustun 1-də Şuşa qəzasının fövqəladə Sovetlər qurultayı oldu. Burada kəndlilərin mövqeyini öyrənmək məqsədilə Qarabağ məsələsi müzakirə edildi. Qurultayda iştirak edən Levon Mirzoyan demişdi: iqtisadi, siyasi, mənəvi və milli nöqteyi-nəzərdən Qarabağ Azərbaycanın mərkəzi Bakı ilə sıx bağlıdır.[66] O, eyni zamanda RK(b)P MK Qafqaz Bürosu plenumunun Azərbaycanın tərkibində Muxtar Vilayətin yaradılması haqqında qərarının da düzgünlüyünü və məqsədyönlü olduğunu qeyd etmişdir.[67]

AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosunun 26 sentyabr 1921-ci il tarixli iclasında həmin məsələyə baxıldı və səs çoxluğu ilə qərara alındı ki, Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın Muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın və buna qədər muxtariyyət elan edilməsin.[68]

1922-ci il oktyabrın 27-də RK(b)P Zaqafqaziya diyar komitəsi rəyasət heyətinin iclası oldu. Burada rəyasət heyətinin üzvlərindən Myasnikov, Oraxelaşvili, Orconikidze, Kirov və başqaları iştirak etdilər. Qərara alındı ki, RK(b)P MK Qafqaz bürosunun Qarabağa muxtariyyət verilməsi haqqında 5 iyul 1921-ci il tarixli qərarı Azərbaycan K(b)P MK-sı tərəfindən həyata keçirilsin. Həmçinin qərara alındı ki, Karakozov Qarabağ İcraiyyə Komitəsinin sədri təyin edilsin. Şaduns isə Qarabağda məsul vəzifəyə təyin edilməsi üçün Azərbaycan K(b)P MK-nin sərəncamına göndərilsin.[69]

Buna uyğun olaraq 1922-ci il oktyabrın 30-da Azərbaycan K(b)P MK Rəyasət Heyəti Qarabağa Muxtariyyət verilməsi məsələsi üzrə komissiyanın seçilməsi haqqında məsələyə baxdı və qərara aldı ki, Ağamalıoğlu sədr olmaqla Karakozov və Sviridovdan ibarət komissiya tərkibi təsdiq edilsin.[70] Qarabağ muxtariyyatının yaradılması haqqında

məsələyə RK(b)P Zaqafqaziya ölkə komitəsinin 1922-ci il dekabrın 14-də keçirilən plenumunda da baxıldı. Bir sıra nümayəndələrin etirazına baxmayaraq Zaqafqaziya ölkə komitəsi RK(b)P MK Qafqaz bürosunun 5 iyul 1921-ci il qərarına əsasən Azərbaycan XKS nəzdində Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə yaradılmasını qərara aldı. Eyni zamanda Dağlıq Qarabağ işləri üzrə komitənin Şuşada da yaradılması nəzərdə tutuldu.[71]

Buna uyğun olaraq AK(b)P MK Rəyasət Heyətinin 15 dekabr 1922-ci il tarixli qərarı ilə Azərbaycan XKS nəzdində Dağlıq Qarabağ işləri üzrə mərkəzi komissiya yaradıldı. Dağlıq Qarabağ işləri üzrə komissiya A.Karakozovun sədrliyi ilə yerlərdə vəziyyəti hərtərəfli öyrəndikdən sonra Qarabağ məsələsinin həlli layihəsini təsdiq etdi.[72]

Azərbaycan SSR XKS-nin 1922-ci il 17 dekabr tarixli iclasında Dağlıq Qarabağ haqqında Azərbaycan MİK-nin və XKS-nin qərarının layihəsi dinlənildi və qərara alındı ki, komissiyaya təklif olunsun ki, iki həftə ərzində smetanı hazırlayıb Azərbaycan SSR XKS-ə təqdim etsin.[73] Bunlardan sonra AK(b)P MK-nin Rəyasət Heyəti Kirovun sədrliyi ilə təqdim olunmuş sənədləri nəzərdən keçirərək 20 iyunda (1923-cü ildə) qərara aldı ki, istər Dağlıq və istərsə də düzən olsun, Qarabağın bir inzibati vahid şəklində ayrılması zəruri sayılsın.

1923-cü il iyunun axırlarında RK(b)P Zakafqazi Ölkə Komitəsinin plenumunda tərkibi Ə.H.Qarayev (sədr), İ.Dövlətov, L.Mirzoyan və b. ibarət olan komissiyanın rəyi əsasında Qarabağ məsələsi yenidən müzakirə olundu və Dağlıq Qarabağın Muxtar Vilayətə ayrılması haqqında qərar qəbul edildi. AK(b)P MK Rəyasət Heyətinin 1 iyul 1923-cü il qərarı (artıq N.Nərimanovun iştirakı olmadan) bunu təsdiq etdi. Qəbul edilmiş qərarda göstərilirdi ki, Azərbaycan MİK-ə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi haqda Rəyasət Heyəti adından dekret versin. Eyni zamanda Ə.H.Qarayev sədr olmaqla tərkibi

A.N.Karakozov, İ.A.Sviridov, Ç.İ.İldırım və D.X.Bünyadzadədən ibarət olan komissiya yaradıldı və ona tapşırıldı ki, Dağlıq Qarabağ Vilayətinin sərhədini müəyyən etsin və 7 gündən gec olmayaraq görülən işin nəticəsini AK(b)P MK Rəyasət Heyətinə təqdim etsin. Qərarda həmçinin deyilirdi ki, Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsi yaradılana qədər bu vilayəti idarə etmək üçün 5 nəfər üzvdən ibarət İnqilab Komitəsi və Vilayət Partiya Komitəsi yaradılsın.[74] Buna uyğun olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Azərbaycan MİK-nin 7 iyul 1923-cü il tarixli dekreti verildi. Bu məsələ ilə əlaqədar olaraq Dağlıq Qarabağda zəhmətkeşlərin bir sıra yığıncaqları və mitinqləri keçirildi və xalq kütlələri həmin dekreti hərarətlə qarşıladı, muxtariyyatı erməni və azərbaycanlı zəhmətkeşlərinin dostluğunun təminatı kimi qiymətləndirdi. 1923-cü il iyulun 21-də Azərbaycan MİK-in Rəyasət Heyəti Şuşa şəhərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edilməsini qərara aldı.

Muxtar Vilayətin yaradılması və xüsusilə Şuşanın onun tərkibinə daxil edilməsi Azərbaycan ictimaiyyəti tərəfindən razılıqla qarşılanmadı. Bu qərar Azərbaycan xalqının tarixinə, onun mənəviyyatına xəyanət oldu. Bu, Şuşanı yaradanlara xəyanət, xalqımızın tarixi abidəsi olan Şuşanın tarixinə biganəlik və onun müstəqilliyinin itirilməsi oldu. 7 iyul (1923-cü ildə) tarixli dekretdə Vilayətin mərkəzinin Xankəndi olması göstərildi. Ancaq az keçmiş həmin ilin sentyabrında Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndi Stepanakert adlandırıldı. Bununla da Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kəndlərinin adlarının dəyişdirilməsinin təməli qoyuldu.

Bununla da ermənilər öz dövlətləri – Ermənistan dövləti ola-ola, Mərkəzdə ermənipərəstlərin və Zaqafqaziyada Orconikidzenin, Kirovun, Myasnikovun, Mirzoyanın və qeyrilərinin köməyi ilə DQMV-nin yaradılmasına nail oldular. Deməli, ermənilər öz dövlətlərinin olmasına baxmaya-

raq, ora ilə heç bir ərazi əlaqəsi olmayan başqa bir xalqın – Azərbaycanın ərazisində muxtariyyət aldılar. Əgər Azərbaycanın tərkibində Muxtar Vilayətin yaradılması torpaqlarımızın qorunması baxımından müəyyən müvəffəqiyyət idisə, digər tərəfdən də bu Azərbaycan hökumətinin həmin ərazinin ermənilərə məxsus olmasını qismən də olsa etiraf etməsi demək idi.

Qarabağın qalan hissələri – Ağdam, Cəbrayıl və Kürdüstan müstəqil Qarabağ qəzaları kimi dəyişməz qaldı.[75] Qarabağ məsələsi üzrə komissiya sədri Karakozov bildirdi ki, DQMV-nin təşkili haqqında Azərbaycan MİK-nin dekreti Zaqafqaziya xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin yaradılmasında böyük əhəmiyyətə malik olan sənəddir; Qarabağ iqtisadi cəhətdən Azərbaycanla sıx əlaqədardır. Ona görə də ora Muxtar Vilayətə ayrılsa da Azərbaycanın tərkibində qalır.[76]

7 iyul 1923-cü il tarixli dekretini həyata keçirmək məqsədi ilə Azərbaycan MİK və Azərbaycan XKS-nin DQMV-i idarə etmək üçün vilayətin birinci sovetlər qurultayını çağırana qədər A.M.Karakozovun sədrliyi altında müvəqqəti İnqilabi Komitə yaradılması haqqında 24 iyul 1923-cü il tarixli qərarı qəbul edildi.

Bununla bərabər Vilayət Partiya Komitəsi seçildi. Bunun Rəyasət Heyəti tərkibinə S.V.Manusiyan (vilayət katibi), M.T.Arzanyan, A.M.Karakozov, B.N.Biniatov, M.M.Çalyan daxil oldular. Azərbaycan hökuməti lazımi tədbirləri həyata keçirmək məqsədilə 1923-cü ilin noyabrında DQMV-nin birinci Sovetlər qurultayını keçirməyi lazım bildi. Qurultayda bütün nümayəndələr Muxtar Vilayətin yaradılmasını milli məsələnin düzgün həlli yolu hesab etdilər. Qurultayda Muxtar Vilayətin MİK-i seçildi.[77]

1924-cü ilin noyabrında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti DQMV-i haqqında «Əsasnamə»ni təsdiq etdi və sənəddə göstərildi ki, DQMV Azərbaycan SSR-in tərkib hissəsidir. DQMV-i haqqında həmin

«Əsasnamə» 1924-cü il noyabrın 26-da mətbuatda dərc edildi. Həmin dövrdəki rəhbərliyin təqsiri üzündən «Əsasnamə»yə görə Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagindən (Füzuli) 30 kənd, Qubadlıdan isə Qaladərəsi DQMV-nə verilməklə süni yolla həmin Muxtar Vilayət belə yaradıldı.[78] Lakin yaxşı məlumdur ki, Muxtar vilayətlər SSRİ ərazisində milli dövlət qurumları olmayan xırda xalqlara onların sərbəst inkişaf etməsi üçün yaRadılmışdı. Ancaq Azərbaycan SSR-də isə DQMV-nin özünəməxsus xüsusiyyəti vardı. Azərbaycan ərazisində yaşayan az miqdarda ermənilərin yaşadığı ərazi Muxtar Vilayət statusu aldı. Halbuki Ermənistandan kənarda başqa respublikaların ərazisində də sayı Qarabağdakı ermənilərdən bir qədər də çox olan ermənilər yaşayırlar, lakin onlar üçün milli dövlət qurumu yaratmaq söhbəti olmamışdır.

Deməli, Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının özü elə əvvəldən düzgün deyildi. Bu, yalnız Azərbaycan xalqının qonşuluqda xeyirxahlığından irəli gəlmişdi. Ermənistanda yaşayan azərbaycanlıların Dağlıq Qarabağda yaşayan ermənilərdən xeyli çox olmasına baxmayaraq Azərbaycan dövləti onlar üçün Ermənistandan milli dövlət qurumları yaradılmasını heç vaxt tələb etməmişdir. Beləliklə, Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Qarabağ erməni əhalisinin və ümumiyyətlə, ermənilərin xeyrinə olan qərar idi. Buna baxmayaraq son illərdə Azərbaycana qarşı hərbi təcavüzə keçmiş ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin 1923-cü ildə Azərbaycanın tərkibinə daxil edilməsini İ.Stalinin iradəsinin nəticəsi kimi qələmə verirlər. Halbuki, bu məsələ prinsip etibarilə İ.Stalin hələ Baş katib olmamışdan əvvəl 1921-ci ildə həll edilmişdi.

Ümumiyyətlə, DQMV-i XX əsr boyu ermənilərin Azərbaycana qarşı məkrli ərazi iddiası siyasətinin mənbəyi və xəyanətkarlıq, nankor qonşuluq nümunəsi olmuşdur. Arxiv sənədləri əsasında akademik C.B.Quliyev DQMV-nin

yaradılmasında indi erməni tarixçiləri tərəfindən ciddi təhrif olunan İ.Stalinin mövqeyini xarakterizə edərək göstərir ki, İ.Stalin plenumda (4 iyul 1921-ci ildə) iştirak etməmişdir. Zaqafqaziya Sovet Respublikaları arasında sərhədlərin müəyyən edilməsi məsələsinə dair isə çıxışlarında Stalin ikifikirli mövqedə olmuş, ermənilərin kompakt yaşadıqları bir sıra ərazilərin Ermənistana birləşdirilməsi və eləcə də Dağlıq Qarabağın Ermənistana verilməsi mövqeyini müdafiə etmişdir. O, yazır ki, erməni lobbisinin guya «Stalin Dağlıq Qarabağı Azərbaycana bağışladı» fikri tarixi həqiqətə heç bir uyğunluğu olmayan iftiradan başqa bir şey deyildir.[79]

Ərazi məsələləri, xüsusilə «Dağlıq Qarabağ» məsələsi ilə əlaqədar görkəmli dövlət xadimi N.Nərimanova qarşı son vaxtlarda mətbuatda dərc edilmiş məqalələrdə də ziddiyyətli mövqelər özünü göstərir. O, əsassız olaraq Azərbaycan ərazilərindən qonşu respublikalara «pay» verməkdə təqsirləndirilir.

Bu məsələdə yanlışlığa və təhriflərə yol verməmək üçün böyük obyektivliklə 1918-1922-ci illərin son dərəcə mürəkkəb, ziddiyyətli tarixi şəraiti, siyasi təlatümlər, hakimiyyət dəyişiklikləri çox dəqiqliklə nəzərə alınmalıdır. 1917-ci ildən sonra Zaqafqaziyada yaranan milli münaqişələr probleminin və ərazi ziddiyyətlərinin həll edilməsi dövründəki kəskin mübahisələr özünün bütün mürəkkəbliyi ilə təhlil edilməlidir. Bölgədə ərazi mübahisələri, onların həlli vasitələrinin axtarılması və həyata keçirilməsi olduqca çətin şəraitdə baş vermişdi. Buna görə də elmi tədqiqatçılardan, tarixçilərdən baş verən həmin proseslərə, hadisələrə, tarixi şəxsiyyətlərə və onların hadisələrin həllində iştirakına, roluna tarixilik, obyektivlik baxımından yanaşmaq və qiymət vermək lazımdır. N.Nərimanovun ərazi məsələlərindəki mövqeyinə gəldikdə isə o, həmişə Azərbaycan torpaqlarının bir qarışının da başqa ölkələrə, xüsusilə Ermənistana verilməsi əleyhinə çıxmış və onu «düzəldilməsi mümkün olmayan səhv» hesab etmişdir.

Lakin bir cəhəti də nəzərə almaq lazımdır ki, N.Nərimanov Mərkəzin və Zaqafqaziya rəhbərliyinin təzyiqinə məruz qaldığından və eləcə də Respublika partiya rəhbərliyindən lazımi kömək görmədiyindən bəzi ədalətsiz sənədlərin qəbul edilməsinə tam mane ola bilməmişdir. Bəzən hətta Azərbaycan hökumətinin mövqeyi nəzərə alınmadan müəyyən qərarlar da qəbul edilmişdir. Bunu bir sıra tarixi sənədlər tam təsdiq edir.

N.Nərimanov V.İ.Leninə göndərdiyi teleqramlarından birində soruşurdu: Mən bilmək istərdim ki, Mərkəz bizə – müsəlmanlara necə baxır. O, bu cür mühüm məsələləri bizsiz necə həll edə bildi. Rusiya eyni zamanda Ermənistanın müstəqilliyini tanıyır və nədənsə Azərbaycanda Sovet hakimiyyəti qurulanadək mübahisəsiz sayılan vilayətləri indi mübahisəli hesab edir.[80]

N.Nərimanov V.İ.Leninə göndərdiyi başqa bir teleqramda yazırdı: Çiçerin yoldaşın teleqramından görünür ki, Sizin məlumatınız birtərəflidir, yaxud Mərkəz o kəslərin felinə uymuşdur ki, onlar denikinçilərlə əl-ələ verib Azərbaycanda Sovet hakimiyyətinə qarşı indi də fəaliyyət göstərirlər. Başqa teleqramda isə öz qəti mövqeyini belə ifadə edirdi: Vladimir İliç! Çoxmilyonlu əhalinin hüququ və hissləri ilə belə zarafat etmək olmaz. Mən qəti şəkildə bildirirəm: əgər bizim dəlillərimizə Siz də diqqət yetirməsəniz, onda biz Mərkəz qarşısında bizi geri çağırmaq barədə məsələ qaldırmalı olacağıq.[81] N.Nərimanov açıq şəkildə göstərirdi ki, qeyri-normal vəziyyətin yaranmasının başlıca səbəblərindən biri Mərkəzdə oturan erməni-daşnak kommunistlərin alçaq əməlləridir.

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması məsələsinə gəldikdə isə N.Nərimanovun bu məsələdəki mövqeyi 1923-cü ilin yayında Partiyanın Mərkəzi Komitəsinə, İ.V.Stalinə «Ucqarlardakı inqilabımızın tarixinə dair» adlı məşhur məruzəsinə əlavələrdə (1923-cü il dekabrın 24 və 1924-cü il mayın 27) tam aydın olur. Həmin tarixi sənəddə

deyilir ki, Serqoya (G.K.Orconikidzeyə) məni Azərbaycandan uzaqlaşdırmaq lazım idi ki, özünün «Qafqaz» siyasətini inkişaf etdirmək yolundakı hər cür maneəni öldürsün. O, məsləhət üçün Mirzoyana müraciət etdi, Mirzoyan dedi: Biz yalnız Sənin razılığını gözləyirik və Nərimanov burada olmayacaqdır. Moskvada yüksək vəzifə vermək adı ilə məni işdən götürdülər. Və SSRİ MİK-in sədri seçdilər. Nəhayət, Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi altında Muxtar Vilayət elan edildi. Ancaq mənim vaxtımda bu mümkün olmamışdı.[82]

Azərbaycan hökuməti üçün çətin məsələlərdən biri də 1918-1921-ci illərdə Naxçıvan mahalı məsələsi idi. Buranı özlərinə məxsus bölgə hesab edən ermənilər Naxçıvan, Ordubad və Şərur qəzalarında faciələr törətmiş, azərbaycanlı kəndlərini dağıtmışdılar. Belə ziddiyyətli bir dövrdə N.Nərimanov 1920-ci ildə RK(b)P MK Qafqaz bürosu üzvü Mdivani, AK(b)P MK üzvü Mikoyan və Ermənistan K(b)P MK üzvü Nuricanyan ilə birlikdə Çiçerinə və Orconikidzeyə yazdığı sənəddə Naxçıvanın müsəlmanlar məskunlaşdığı və tarixən onlara məxsus yer olmasını və bir ildən artıq daşnak hökumətindən qəhrəmanlıqla müdafiə olunmalarını göstərMişlər…

Ancaq bəzi erməni müəllifləri iddia edirlər ki, 1920-ci ilədək Naxçıvan da Qarabağ kimi Ermənistanın tərkibində olmuşdur. Naxçıvan məsələsində erməni müəlliflərinin fikrini ifşa edən N.Yusifbəyov Azərbaycan Parlamentinin 22 dekabr (1919-cu il) tarixli iclasında etdiyi çıxışında demişdir: «Cəsur naxçıvanlılar həyatlarını, ailələrinin şərəfini və əmlaklarına risk edərək, doğma torpağa – Vətənə birləşmək üçün özləri ayağa qalxdılar (Bax: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlamenti: II cild, Bakı, 1998, səh. 810). Belə bir mürəkkəb şəraitdə Naxçıvan mahalı Ermənistana tabe olmamaq məqsədilə Araz-Türk Respublikası adı ilə özünü müstəqil elan etdi.

1918-ci ilin iyul-avqust aylarında yaranmış Araz-Türk Respublikasının ərazisinə Naxçıvan, Şərur, Qəmərli, Vedi-

basar, Sərdarabad, Ordubad və b. bölgələr daxil olmuşdu. Şübhəsiz, Araz-Türk Respublikası öz əhalisini erməni Daşnaklarının hücumlarından qorumaqda müəyyən rol oynadı. 1918-ci ilin noyabrında Daşnak hökuməti Eçmiədzin, Şərur-Dərələyəz, Naxçıvan qəzalarını azərbaycanlılardan təmizləyib burada öz hakimiyyətliyini yaratmaq istədi. Ancaq həmin yerlərin Azərbaycan əhalisinin dəyanətli və kəskin müqaviməti Daşnak hökumətinin bu niyyətini alt-üst etdi və bununla da ermənilər məqsədlərinə nail ola bilmədilər. O zaman ingilis komandanlığı Naxçıvanın idarə olunmasını müvəqqəti olaraq Ermənistana verilməsi qərarına gəldi.

Azərbaycan hökuməti ingilis komandanlığının həmin qərarına öz etirazını bildirdi. 1919-cu ilin yazında Azərbaycanın Xarici İşlər Naziri F.Xoyski general Tomsonla görüşündə Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq Ermənistana verilməsi qərarına qəti etirazını bildirdi və göstərdi ki, Şərur-Dərələyəz, Ordubad və Naxçıvan qədim Azərbaycan torpaqlarıdır.[83]

Göstərilən bölgə əhalisinin müqaviməti həmin qərarın həyata keçirilməsinə mane oldu. Müxtəlif yollarla burada öz məqsədinə nail ola bilməyən Daşnak hökuməti yeni bir fitnəyə əl atdı: 1919-cu ilin yayında Amerika layihəsi üzrə göstərilən ərazilərdə bitərəf zona yaradılmasına səy göstərdi. Əlbəttə, Amerika nümayəndəsinin idarə edəcəyi Naxçıvan, Şərur-Şərələyəz general-qubernatorluğu gələcəkdə bu bölgələrin Ermənistana keçməsi üçün əlverişli şərait yaratmalı idi. Lakin Azərbaycan hökumətinin səyi və naxçıvanlıların göstərdikləri müqavimətin nəticəsi olaraq amerikalılar vasitəsilə erməni daşnaklarının Naxçıvan ərazilərinə yiyələnmək planları da nəticəsiz qaldı.

Belə mürəkkəb və çətin bir şəraitdə Azərbaycan Demokratik Respublikası Naxçıvana müvəqqəti general-qubernator təyin edərək onun Azərbaycanın ayrılmaz hissəsi olduğunu bildirdi. Ümumiyyətlə, Naxçıvan məsələsi dəfələrlə 1918-ci ildə Zaqafqaziya Seymində, 1918-1920-ci illərdə

Azərbaycan Demokratik Respublikasının və Türkiyə dövlətinin parlamentlərində, 1920-ci ildə Moskvada və Qars şəhərlərində keçirilən konfranslarda, habelə 1920-1921-ci illərdə Azərbaycan Sovet Respublikası və Ermənistan Sovet Respublikasının İnqilab Komitələrində müzakirə edilmişdi.

1920-ci il noyabrın axırlarında Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat Bürosunun iclası Ermənistanla hərbi, təsərrüfat ittifaqına girmək haqqında qərar qəbul etmişdi. Həmin qərarda Naxçıvanın statusu haqqında heç bir şərtləşmə olmamışdı. Eyni zamanda həmin məsələ barədə istər Nərimanovun çıxışında, istərsə də dekabrın 1-də (1920-ci ildə) Bakı Sovetinin iclasında Nərimanovun bəyan etdiyi deklorasiyada da heç nə deyilməmişdi. Lakin bir gün sonra dərc olunmuş qəzetlərdə deklorasiyaya rüsvayçı yeni ifadə: «Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının ayrılmaz hissəsidir» ifadəsi artırılmışdır. Bu ifadə N.Nərimanovun iradəsinin əleyhinə olmaqla onunla razılaşdırılmadan, bəlkə də taktiki məqsədlərlə G.K.Orconikidze, S.M.Kirov və onlarla həmrəy olanlar tərəfindən artırılmışdır.[84]

Bu da təsadüfi deyildir ki, elə həmin günün səhəri (dekabrın 2-də) Orconikidze Moskvaya Leninə və Stalinə «Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir» xəbərini vermişdir.[85] Eyni zamanda Orconikidze həmin sənədi bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi sənəd kimi qiymətləndirmişdir.[86]

Mərkəzin himayədarlığına arxalanan Ermənistanın millətçi dairələri Naxçıvanı ələ keçirmək üçün var qüvvə ilə çalışmışdılar. Bütün bunlara baxmayaraq, N.Nərimanovun rəhbərliyi altında Azərbaycan hökuməti qəti şəkildə Naxçıvan qəzasının Ermənistana verilməsi əleyhinə çıxmışdı.

Behbud bəy Şahtaxtinski (13 avqust 1920-ci ildə) V.İ.Leninə məktubla müraciətində bildirmişdi: Naxçıvanın

əməkçi xalqı silaha sarılaraq üç illik qanlı mübarizədən sonra daşnaklardan xilas olmağa və Azərbaycanla birləşməyə nail olmuşdur. Odur ki, buranın daşnaklara verilməsi Sovet Azərbaycanının hüquqlarını açıq-aşkar pozur. Müraciətdə belə bir ümid ifadə olunurdu ki, biz inanırıq ki, Sovet Rusiyası hökuməti bu müraciəti diqqətsiz qoymayacaq və Sovet Azərbaycanının hüquq və mənafelərinin aşkar surətdə pozulmasına yol verməyəcəkdir.[87]

Beləliklə, N.Nərimanov və onun həmfikirlərinin dəyanəti və prinsipiallığı nəticəsində Naxçıvanı Ermənistana birləşdirmək barədə məkrli təşəbbüslər puça çıxdı. Lakin erməni müəllifləri tarixi saxtalaşdıraraq, Naxçıvanın qədim erməni diyarı olması haqqında da məsuliyyətsiz və saxta fikirlər söyləyirlər. Hətta o dövrdə və ondan çox əvvəllər Naxçıvanın tarixi haqqında mənbələri və qəbul olunan rəsmi sənədləri bilərəkdən təhrif edir, «qatıq qaradır» deyərək Naxçıvanın «Ermənistan ərazisi olması» haqqında uydurmAlarını bəzən indi də təkrarlayırlar və bununla da tarixi həqiqətləri saxtalaşdırmağa can atırlar.

Məhz belə ziddiyyətli şəraitdə 1920-ci ilin 28 iyulunda Naxçıvanda Sovet hakimiyyəti quruldu. Avqustun sonunda daşnaklar Şahtaxtıdan, sentyabr-oktyabr aylarında isə Ordubad qəzasından qovuldular. Şərur qəzası isə 1920-ci ilin dekabrında daşnaklardan təmizləndi.[88]

Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi Ermənistanı çox narahat etdi. Lakin İnqilab Komitəsinin 28 dekabr (1920-ci il) tarixli bəyanatı ilə Ermənistan Naxçıvanı müstəqil Sovet Respublikası kimi tanındığını və ərazi iddialarından imtina etdiyini bildirdi. Ancaq buna baxmayaraq işdə Ermənistan öz düşmənçiliyindən əl çəkmədi və Azərbaycan kəndlərinin çoxu darmadağın edildi. Naxçıvanda yaranmış ağır vəziyyətlə əlaqədar olaraq Bahadur Vəlibəyov (1920-ci ilin oktyabrından fövqəladə komissarlığa başçılıq etmiş, böyük xidmətləri olmuş və 1937-1938-ci il repressiyasının qurbanı olmuşdu) 1921-ci ilin martında G.Çiçerinə yazdığı

məktubda bildirirdi: Naxçıvanın 1920-ci ildəki dəhşətli mənzərəsi insanın xatirində həmişəlik qalacaqdır. Şəhər və kəndlərdən insanların nalə səsləri gəlir, hər yerdə insan meyidləri ilə qarşılaşırsan. Erməni vəhşiliyi nəticəsində Vedidən 118, Dərələyəzdən 74, Zəngibasardan 48 kəndin əhalisinə divan tutulmuş evlər yandırılmışdı və s. həmin vəhşiliyin nəticəsi olaraq Vedidən, Zəngəzurdan, Dərələyəzdən və başqa yerlərdən 500 mindən çox əhali öz doğma torpaqlarından qovularaq qaçqına çevrilmişdilər.[89]

Lakin böyük çətinliklərə baxmayaraq Naxçıvanın Muxtar Respublika kimi Azərbaycanın tərkibində olması bütün azərbaycanlıların arzusunun həyata keçməsi oldu. Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikasının təşkilində Moskvada RSFSR hökuməti yanında respublikanın ilk səlahiyyətli nümayəndəsi Behbud bəy Şahtaxtinskinin böyük xidməti vardı. O, kiçik xalqların milli mənafeyini nəzərə almaq təklifi ilə bağlı olaraq Naxçıvan haqqında fikrini 1921-ci il martın 1-də Leninə yazdığı məktubda bildirmişdi. Məktub martın 7-də Leninin imzası ilə RK(b)P MK Siyasi Bürosuna göndərilmişdi. MK Siyasi Bürosu martın 16-da Stalinin, Çiçerinin və Vladimirskinin iştirakı ilə həmin məktuba baxmış, bəyənmiş və Azərbaycan Sovet Respublikasının himayəsində Naxçıvan Sovet Respublikası təşkil edilməsi haqqında qərar qəbul etmişdi.

Elə həmin gün Moskvada RSFSR, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə müqavilə imzalandı. Müqavilənin 3-cü maddəsində göstərilirdi ki, bu müqavilə Naxçıvan SSR-nin Azərbaycanın himayəsində muxtariyyət hüququnda təşkil edilməsi, Azərbaycanın bu ərazisinin 3-cü dövlətin himayəsinə verilməməsi (burada Ermənistan nəzərdə tutulurdu) şərti ilə bağlanır.[90] Müqaviləyə görə Türkiyənin razılığı olmadan Azərbaycan SSR-in Naxçıvan ərazisindən 3-cü tərəfə pay verməyə hüququ olmurdu. Əks təqdirdə Naxçıvanın ərazisi Türkiyə dövləti tərəfindən götürülə bilərdi. Bu müqavilənin böyük

əhəmiyyəti onda idi ki, ermənilərin Naxçıvanı ələ keçirmək səylərinə son qoydu. Bu həm də Zaqafqaziya, İran, Rusiya və Türkiyə əhalisinin mənafeyinə uyğun idi. Belə bir əhəmiyyətli sənədi RSFSR Xarici İşlər Komissarı G.Çiçerin, RSFSR MİK-nin üzvü Cəlil Korkmasov, Türkiyə hökuməti tərəfindən Riza Nuri, Yusif Kamal imzaladılar.[91]

1921-ci il oktyabrın 13-də Qars şəhərində Türkiyə, Rusiya, Azərbaycan və Ermənistanın iştirakı ilə bu məsələ bir daha nəzərdən keçirildi. Qars danışıqlarında sənədləri Türkiyə tərəfindən Vəli bəy, Muxtar bəy və başqaları, Azərbaycan SSR-dən Behbud bəy Şahtaxtinski, Azərbaycan SSR MİK-nin sədri Muxtar Hacıyev, Ermənistan SSR-dən Xarici İşlər Komissarı A.Mravyan, Xalq Daxili İşlər Komissarı P.Pikinzyan və RSFSR-in Latviyadakı səlahiyyətli səfiri Y.S.Qanaçevski imzaladılar.[92] Burada həmçinin Naxçıvanın Ermənistan və qonşu dövlətlərlə sərhədlərini müəyyən etmək üçün komissiya təşkil edildi. Görülən tədbirlərin, xüsusilə o zamankı Azərbaycan rəhbərliyinin prinsipial mövqeyi nəticəsində Sovet Ermənistanı Naxçıvanın suverenliyini tanımalı oldu. Araz-Türk respublikasının ərazisində Azərbaycanın tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (1924-cü ildə) yaradıldı. Naxçıvan MSSR Azərbaycan vasitəsilə RSFSR-lə sıx hərbi-iqtisadi əlaqə yaratdı.

Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvanın müstəqil Sovet Respublikası elan edilməsi işinə böyük əhəmiyyət verən Mustafa Kamal demişdi: «İki il bundan əvvəl Azərbaycan Demokratik Respublikasının və bu gün Azərbaycan Sovet Respublikasının bayrağını sancmaq mənə nəsib olduğu üçün özümü türk dünyasında ən xoşbəxt adam sayıram. Azərbaycanın və Naxçıvanın istiqlaliyyət qazanmasına türk dünyasının başlanğıcında böyük bir hadisə kimi baxmaq lazımdır». Lakin Qars müqaviləsinin bağlanmasından az sonra Şərur qəzasının ayrılmaz hissəsi olan Dərələyəz əhalisinin müxtəlif yerlərdə qaçqın olmasından istifadə edən

Ermənistan həmin yerin Şərurdan alınıb onlara verilməsinə nail oldu.

Azərbaycan hökuməti Muxtar Respublikanın təşkil edilməsinin ilk günlərindən bu bölgəyə qayğı və diqqəti artırdı və bu istiqamətdə xeyli işlər gördü. Nəticədə buranın iqtisadi, mədəni və sosial məsələlərinin tədriclə həllinə keçdi. Azərbaycanın torpaq fondundan Muxtar Respublikaya 16 min desyatin (1.092 hektar) torpaq sahəsi kəndlilərin sərəncamına verildi. Burada sənayenin bərpası zəruriyyəti ilə əlaqədar olaraq 7 ipəkəyirən zavod işə salındı.[93] Səhiyyə və Xalq təhsili sahəsində də xeyli iş görüldü. Bakıdan Muxtar Respublikaya həkimlər dəvət olundu. Apteklər açıldı, xəstəxanalar və doğum evləri avadanlıqlarla təchiz edildi. Xalq təhsili məsələsinə xüsusi diqqət yetirildi, texnikum yaradıldı. Məktəblərin sayı xeyli dərəcədə artırıldı. Sanki dinc həyat təmin olunmuşdu. Lakin «Böyük Ermənistan» yaratmaq xəyalı ilə yaşayanlar millətçiliyi qızışdırmaq əməllərini davam etdirdilər və bu da iki xalq arasında münasibətlərə öz mənfi təsirini göstərirdi. Belə bir vəziyyətdən istifadə edən xaricdə olan daşnak millətçi liderləri də çirkin əməllərini bir qədər artırdılar. Belə millətçilərdən biri Poqos-Nubaryan idi. Bütün ermənilərin katalikosu V Gevorq onu «Böyük Ermənistan» məsələləri üzrə erməni milli nümayəndəsinin başçısı təyin etmişdi. O, 1926-cı ilin iyununda İzmirdə Türkiyə Respublikası prezidenti Atatürkə qarşı təşkil edilmiş sui-qəsdin iştirakçılarından biri olmuşdu. Lakin o dar ayaqda yoldaşlarını ələ verdi. Onlardan 15 nəfər ölüm cəzasına məhkum edildi. Özü isə ömrünün qalan günlərini ev dustağı kimi başa vurdu.

Millətçiliyi qızışdıranlardan biri də Aqranyan Avetis idi. Burjua millətçi daşnaksütyun partiyasının başçılarından biri olmaq etibarilə o, 1917-ci ildə Ermənistan Milli Şurasının, 1919-cu ildə Ermənistan Respublikası parlamentinin sədri olmuşdu. Sonralar o, qəddar daşnak Mikoyanın köməyinə arxalanaraq fəal anti-sovet fəaliyyətini davam etdirmişdir.

«Daşnaksütyun» partiyasının qatı ideoloqlarından biri Vrasiyan Simon 1921-ci ilin əvvəllərində Sovet Ermənistanı hökumətinin başçısı olsa da əvvəllər Zəngəzurda, Qarabağda və başqa yerlərdə azərbaycanlı qırğınlarının təşkilatçısı idi. Sonra o, xaricə qaçmış və 1926-cı ildən Yaxın Şərq məsələləri üzrə Amerika dövlət departamentinin gizli məsləhətçisi olmuşdu. Qeyd edilməlidir ki, bu cani 1942-ci ildə Krım tatarlarının, 1942-1943-cü illərdə çeçenlərin və inquşların, 1943-1944-cü illərdə Mesxet türklərinin və nəhayət 1947-1948-ci illərdə Ermənistandan azərbaycanlıların sürgün olunmaları ideyasının müəllifi olmuşdu.

Qatı erməni millətçilərindən biri də Andreisyan Andronik idi. O, 1928-ci ildə Türkiyədən ABŞ-a getmiş, orada millətçi qəzetlərdə çalışmış və dəfələrlə Sovet Ermənistanına gəlmişdi. Onun təşkil etdiyi «Gənc erməni yazıçıları» məktəbinin dinləyiciləri Şaginyan, Sero Xanzadyan, Zori Balayan, Silva Kaputikyan, Şatiryan və başqaları kimi qatı millətçilər olmuşlar.[94] Belə millətçilərin geniş fəaliyyətinin nəticəsi idi ki, 1922-ci ildə təşkil edilmiş Zaqafqaziya FedeRasiyası Azərbaycana qarşı Ermənistanın ərazi iddialarına son qoya bilmədi və əksinə Azərbaycan torpaqları hissə-hissə onlara verildi.[95]

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1 yanvar (1927-ci il) tarixli iclasında Mehri-Cəbrayıl qəzasından 24 kəndin həmin ilin 20 iyununda keçirilən iclasında isə Zəngəzur-Kürdüstan qəzasının min desyatindən artıq torpaq sahələrinin Ermənistana verilməsinin müzakirə olunması[96] və yenə də həmin təşkilatın 1929-cu il fevralın 18-də TürKiyənin, Azərbaycanın və Naxçıvanın xəbəri olmadan Naxçıvan Respublikasının 9 kəndinin – Şərur qəzasının Horadiz, Quroqulan, Xəçik kəndlərinin, Şahbuz nahiyəsindən Sultanbəy, Ağxaç, Ağbinə, Almalı, İtqıran kəndlərinin, Ordubad qəzasından Qarçevan yaşayış məntəqəsinin və həmçinin də Qarçevan Sovetliyinin tərkibində olan Mehri və başqa yerlərin Ermənistanla birləşdirilməsi haqqında qəbul etdiyi qərarla[97] bun-

lar Ermənistana verildi. 9 kəndin Ermənistana verilməsi, «Azərbaycan» qəzetinin 3 oktyabr (1996-cı ildə) tarixli nömrəsində yazıldığı kimi, Naxçıvan Muxtar Respublikası ərazisindən 625 kvadrat kilometr torpaq sahəsinin itirilməsi idi. Bu da kənd təsərrüfatında 62 min hektar yararlı torpaq sahəsi demək idi.

Qəribədir! Zaqafqaziya MİK-nin Moskva müqaviləsi (mart 1921) və Qars müqaviləsi (oktyabr 1921) sənədlərini imzalayan tərəflərin iştirakı olmadan məhz Naxçıvanın göstərilən ərazilərinin Ermənistana verilməsi haqqında qəbul etdiyi qərar açıq şəkildə Ermənistana havadarlıq idi. Bu eyni zamanda beynəlxalq hüquq normalarının pozulması, Azərbaycan xalqına qarşı isə xəyanət olmuşdu. Bundan bir qədər sonra Zəngilan nahiyəsi tabeliyində azərbaycanlıların yaşadığı Nügədi, Layhvaz, Əldərə və başqa kəndlərin sakinlərinin rayon mərkəzindən uzaq olmaları haqqında olan söhbətlərindən məharətlə istifadə edən ermənilər burada yeni rayon yaradaraq həmin kəndləri Ermənistanla birləşdirdilər.[98] Lakin həmin kəndlərin Ermənistana verilməsinə dair Azərbaycan KP MK-nin qərarı isə böyük fasilədən sonra, yalnız 1968-ci il noyabrın 26-da qəbul edilmişdir.[99]

Sonralar da Ordubad və İliç (Şərur) rayonlarının torpaqlarından müəyyən hissə Ermənistana verildi. Belə bir addımın atılması ilə Moskva və Qars müqavilələri şərtləri pozulmuş oldu, çünki müqavilələri imzalayan RSFSR, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri həmin müqavilələrin şərtlərinə əməl olunmasına nəzarət etməmişlər və bundan istifadə edən Ermənistan göstərilən yerlərin ona keçməsinə nail olmuşdu.

Bunlarla kifayətlənməyən erməni millətçiləri Naxçıvanı yenə də ermənilərin yaşadığı ərazi kimi təbliğ edirdilər. Lakin tarixi mənbələr göstərir ki, həmin yer heç vaxt ermənilərin çoxluq təşkil etməklə yaşadıqları ərazi olmayıb. 1926-cı ilin statistik məlumatına görə Naxçıvan Respublikasında yaşayan əhalinin cəmi 10,8 faizini ermənilər təşkil etmişlər.

Ərzurum, Qars və Ağrıdağı (onu nə üçün Ararat adlandırırlar, bəlli deyil?) əraziləri də ermənilərin çoxluq təşkil etdiyi ərazi olmamışdır.[100]

Beləliklə, gizli və açıq vasitələrlə ermənilərin ərazi iddiaları əsasında 1930-1931-ci illərdə Ermənistanın tərkibində Meqri rayonu təşkil edildi və bununla da ərazi cəhətdən Naxçıvanın Azərbaycanla əlaqəsi kəsildi. Bunun acı nəticələri indi özünü aydın göstərir; Naxçıvan blokadaya məruz qalmış, naxçıvanlıların azərbaycanlılarla əlaqələri çətinləşmişdir.

Bunlarla kifayətlənməyən Ermənistan 1938-1939-cu illərdə Tuğut kəndinin ermənilər yaşayan Astazurla, Ernəzir kəndinin isə Nügədi kəndinə birləşdirilməsinə nail olmaqla hər iki kəndin əhalisi doğma torpaqlarından çıxarılıb Astazur və Nüvədiyə köçürüldülər.[101]

Azərbaycan xalqının iradəsi ziddinə olan ərazi dəyişikliyi digər bölgələrdə, eləcə də Qazax qəzasında da baş vermişdi. Belə ki, bu qəzanın dağlıq hissəsi ondan alınıb Ermənistana verilməklə Ermənistan tərkibində Dilican qəzası yaradılmışdır.

Bu göstərilən ərazi məsələlərinin tamamilə ermənilərin xeyrinə həll edilməsi prosesində Mərkəzlə bərabər ermənilərin və ermənipərəst kadrların az rolu olmamışdı. Həmçinin də Sovet rəhbərliyinin Azərbaycanda həyata keçirdiyi kadr siyasəti də ermənilərin xeyrinə olmuşdu. Azərbaycan partiya təşkilatına S.M.Kirovun 1921-1926-cı illərdə rəhbərlik etməsi, Kirovdan sonra 1926-cı ilin əvvəllərində L.Mirzoyan, Ə.H.Qarayev, H.A.Ağaverdiyevdən ibarət yeni katibliyin seçilməsi və respublika rəhbərliyinin faktiki olaraq L.Mirzoyanın əlində olması, 1929-cu ildə respublikaya rəhbərliyin N.Giqaloya, sonra V.Polanskiyə və sonra isə 1933-cü ildə Rubenə həvalə edilməsi faktları[102] məhz sovet rəhbərliyinin respublikada həyata keçirdiyi kadr siyasətinin mahiyyətini göstərir. Bununla bərabər təcrübəli siyasətçilərin Azərbaycandan uzaqlaşdırılması – N.Nərimanovun Moskvaya, Q.Musabəyovun Zaqafqaziyaya, M.D.Hüseynovun Tacikis-

tana göndərilməsi nəticəsi olaraq respublikada rəhbər vəzifələr məhz əsasən ermənilərin əlində toplandı və bu da özünün acı nəticələrini verdi.

Eyni zamanda Andronik, Dro, Avetisov, Amazasp və başqa erməni cəlladlarının azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər Sovet quruluşu illərində Beriya, Abakumov, Mikoyan, Qriqoryan və b. tərəfindən məharətlə davam etdirildi. Belə bir faktı etiraf etmək lazımdır ki, X.Qriqoryanın, Markaryanın Respublikanın Daxili İşlər Nazirliyində məsul vəzifədə işləmələri ermənilərin Azərbaycan Xalq Daxili İşlər Komissarlığının rayon şöbələrində rəis işləmələrinə öz təsirini göstərmişdi. Belə ki, həmin dövrdə 51 rayon şöbəsinin 31-də rəis erməni[103] idi və bu da ümumən repressiya qurbanlarının çox olmasında öz rolunu oynamışdı.

Bu xüsusilə 30-40-cı illərdə Ermənistanda yaşayan azərbaycanlılara qarşı daha kəskin tətbiq edilmiş qanlı cinayətlərlə müşahidə edilmişdi. Belə ki, on minlərlə azərbaycanlılar müxtəlif bəhanələrlə ağır işgəncələrə məruz qalldılar. 30-cu illərin repressiyası vaxtı Qarakilsə (Sisyan) rayonunda Ağkənd, Təzəkənd, Bazarçay, Şam və digər kəndlərin əhalisi Vidadi İsayevin yazdığı kimi elliklə «xalq düşməni» hesab edilərək məhv edildi və həmin yerlərə ermənilər köçürüldü.[104]

Bununla da XX əsrin 30-cu illərində Ermənistanda Azərbaycana qarşı ərazi iddiasının yeni mərhələsi başlandı. Bu mərhələ ermənilərin azərbaycanlı kadrları məhv etməsi siyasətindən başlandı. Açıq mübarizə etməyin mümkün olmadığını hiss edən daşnak siyasətçiləri, sovet hakimiyyətinin möhkəmləndiyi şəraitdə gizli fəaliyyətə keçmiş, müxtəlif vasitələrdən istifadə etmişlər. Onlar müxtəlif yollarla Azərbaycan hakimiyyət orqanlarında yüksək dövlət vəzifələrinə soxulmuş, xüsusilə dövlət təhlükəsizliyi, prokurorluq və s. vasitəsilə xalqımızın ən ləyaqətli oğul və qızlarını – dövlət və ictimai xadimləri, ziyalıları məhv etmişlər. Bu cəhətdən Mikoyanın, Qriqoryanın, Markaryanın və b. bədnam fəaliyyəti daha mənfi nəticələr vermişdir.

X.Qriqoryan 1936-1939-cu illərdə çoxlu azərbaycanlı kadrın məhvini təşkil etmişdi. O, Şamaxı rayon İcraiyyə sədri Novruzovun, kolxozçu Zərbəliyevin və başqa kolxozçuların işi ilə əlaqədar 41 nəfərin, məhsul hazırlığı komitəsinin nümayəndəsi Babayevin və başqalarının işi ilə əlaqədar 50 nəfərin, Şamaxı rayon İcraiyyə Komitəsinin sədri Lütorullayevin və b. işi ilə əlaqədar 23 nəfəri həbs etdirmişdi. İstintaqda müəyyən edilmişdi ki, Qriqoryan 100 nəfərə qədər günahsız azərbaycanlının məhvinə bais olmuşdur.[105] Ümumiyyətlə, Qriqoryanın, Borşevin və Markaryanın cinayətkara fəaliyyəti nəticəsində Şamaxı rayonundan 1937-ci ildə 300 nəfər azərbaycanlı həbs olunmuşdur.[106]

Qriqoryan uzun müddət öz simasını gizlədə bilmişdi. Doldurduğu anketdə yazmışdı ki, guya o, 1919-cu ildə Bakı şəhərində qızıl əsgərlərin ailələrinə yardım edən komissiyanın üzvü olmuşdur. Halbuki, görkəmli tarixçi alim, professor Cəmil Həsənovun aşkarladığına görə, o zaman Azərbaycanda qızıl əsgər ailələrinə qayğı göstərən heç bir komissiya yox idi. Əslində o, valyuta alverçisi kimi dəfələrlə Müsavat hökuməti tərəfindən həbs olunmuşdu. Qriqoryan 1937-ci ildə atasına göndərdiyi məktubda yüz nəfər azərbaycanlını güllələdiyini, beş yüz nəfər azərbaycanlının isə növbədə gözlədiyini yazmışdı.[107]

Azərbaycana qarşı dövlət səviyyəsində aparılan mübarizə ilə kifayətlənməyən erməni millətçiləri, yazıçılar içərisində də şovinist-millətçiliyi təbliğ etmişlər.

Bunu hətta erməni yazarları da etiraf etmişlər. «Kommunist» (ermənicə) qəzetinin redaktoru A.Bablumyan 21 avqust 1936-cı ildə AK(b)P MK katibi Akopova yazdığı sənəddə bildirirdi ki, Azərbaycan Yazıçılar İttifaqının erməni şöbəsində millətçilik əhval-ruhiyyəsi vardır. Yerevan yazıçıları Aksel Bakuns, Yeqiş Çarens və b. Bakı erməni yazıçıları arasında millətçilik sahəsində iş aparırlar. Yeqiş Çarens yaxınlarda Bakıda olarkən M.Davtyana öz şəklini bağışla-

mış və arxasında yazmışdı: «Sizin axırınızdır, ya axırınızdır, ya Yerevan».[108]

1936-cı ilin 28 avqustunda Abeqyan, Kolmanyan və Xaranyanın imzası ilə AK(b)P BK-nin katibi Nərimanovun adına yazılmış məktubda «Kommunist» (ermənicə) qəzetinin redaksiyasında daşnak faktları haqqında yazılmışdı.[109] M.Davtyan 1936-cı il 29 avqustda AK(b)P MK-a göndərdiyi məktubda yazırdı ki, Abovyan erməni milli daşnak ədəbiyyatının banisi idi.[110]

1936-cı ilin ortalarında Leninakandan Qaribov Ruben M.C.Bağırovun adına yazdığı məktubda göstərirdi ki, Daşnak bandit Njdenin dostu Sərkis Şahgəldyan indi «Kommunist» (ermənicə) qəzetində redaktor müavini işləyir. Mən onu daşnakların casusu hesab edirəm.[111] Azərbaycan SSR-nin Milli Təhlükəsizlik orqanlarında çalışan Markaryan 1936-1937-ci illərdə Azərbaycanın Əli-Bayramlı, Şamaxı, İsmayıllı və b. rayonlarında günahsız azərbaycanlıların məhvinə nail olmuşdu.[112]

Beləliklə, Abakumov SSRİ Dövlət Təhlükəsizliyi naziri, Apresyan Özbəkistanda, Kobılyan Ukraynada, Maarkaryan, Qriqoryan və başqaları Azərbaycanda istədiklərini etdilər. Mikoyana arxalanan Markaryan və Qriqoryan Azərbaycanda daha çox qanlı cinayətlər törədilməsinə nail oldular, ən layaqətli azərbaycanlı ziyalılarını «Xalq düşməni» adı ilə ləkələyərək kütləvi halda onların məhv edilməsini təşkil etdilər. Belə məhv edilənlərdən biri də xalqımızın ləyaqətli oğlu Çingiz İldırım oldu. O, vaxtı ilə Daşkəsən filizinin Gürcüstana daşınıb əridilməsinin tərəfdarı olmamışdı.

Buna görə də Ç.İldırım Goranboy rayonunun ərazisində filizsaflaşdırma zavodunun layihəsini işləyib hazırlamışdı. Bundan xəbərdar olan Mikoyan S.Orconikidzeyə, Beriyaya və nəhayət Stalinə çatdırıb bildirmişdi ki, mühəndis Ç.İldırım Sovet dövləti əleyhinə təxribatla məşğuldur. Daşkəsən filizinin Gürcüstanda əridilməsi əleyhinədir. İ.Stalin Ç.İldırımın bacarıqlı bir mühəndis olduğunu nəzərə alıb onu o zaman Maqnitoqorsk zavodunun tikintisinə rəis gön-

dərmişdi. Ç.İldırım burada özünün qabiliyyəti və bacarığı ilə yaxşı bir təşkilatçı kimi seçilmiş və Maqnitoqorsk zavodunun tikintisini vaxtından əvvəl başa çatdırıb istifadəyə vermişdi. Bu onun şöhrətini daha da artırmışdı. Bundan narahat olan Mikoyan Ç.İldırıma qarşı təxribat hazırlatdı. Onu Krivoy-Roqda zəhərlətmək yolu ilə aradan götürmək istədi. Lakin buna nail ola bilmədi və nəhayət bir qədər sonra böhtanla Ç.İldırımın həbs və məhv edilməsinə nail oldu. S.Orconikidze isə Mikoyanın böhtançı düşmən xidmətini cavabsız qoymadı. Həmin xidmətin müqabilində Azərbaycanın Gürcüstan ərazisindəki qədim Borçalı torpaqlarından iki rayon Mikoyana - Ermənistana verildi.[113]

İkinci Dünya müharibəsi illərində də Mikoyan Azərbaycan xalqına qarşı düşmənçiliyini ustalıqla davam etdirmişdi. Belə ki, onun təşəbbüsü ilə bir sıra xalqların sürgün edilməsi siyasətinin azərbaycanlılara da tətbiq edilməsi cəhdi olmuşdu. SSRİ-nin müdafiə qabiliyyətini yüksəltmək pərdəsi altında azərbaycanlıların Qazaxıstan və Orta Asiyaya köçürülməsi planı hazırlanmışdı. Hətta bu haqda ölkə Müdafiə Komitəsinin məxfi olaraq 1942-ci il yanvar tarixli qərar layihəsi olmuşdu.[114] Bu qərar layihəsinin həyata keçirilməsinin qarşısının alınmasında M.C.Bağırovun misilsiz xidməti olmuşdu.

Bu da bir həqiqətdir ki, Azərbaycanda xalqlar dostluğuna sadiq qalmaq əlaməti olaraq bütün millətlərə və xüsusilə də ermənilərə hər cürə şərait yaradıldığı halda Ermənistanda isə belə münasibət müşkül hal idi. Orada hətta Böyük Vətən müharibəsinin ağır illərində də azərbaycanlılara qarşı münasibət tamamilə başqa cür olmuşdu. Buna misal olaraq bir faktı göstərmək kifayət edər ki, 1942-ci ildə Ermənistanda ordudan gizlənənlər içərisində 24 nəfər erməni və 40 nəfər azərbaycanlı bəhanə ilə həbs edilmişdi. O zaman həmin ermənilər cərimə batalyonuna göndərilmiş, azərbaycanlıların isə 18 nəfərini Basarkeçərin kolxoz bazarında qanunsuz, məhkəməsiz güllələmişlər. Qalan 22 nəfər haqqında məlu-

mat alan Azərbaycan rəhbərliyi (M.C.Bağırov) onların güllələnməsinin qarşısını almışdı.[115]

II Dünya müharibəsi illərində ermənilərin fitvası ilə Stalində azərbaycanlıları köçürmək niyyəti yaranmışdı. Naxçıvan MR-nın Şərur rayonunun Axura kəndində yaşayan C.H.Hüseynov müharibə vaxtı Nazirlər Sovetinin sədri işləmiş Teymur Quliyevin vaxtilə ona danışdığı bir məsələni belə xatırlayır: «Müharibə vaxtı idi. Gecə yarısı işdən evə yenicə qayıtmışdım ki, telefon zəng vurdu. Dəstəyi götürdüm, M.C.Bağırov idi. Məni təcili yanına çağırdı. Mən Bağırovun yanına qayıtdım. Dedi ki, məni Stalin çağırıb, məndə şübhələr var. Azərbaycanın başı üstünü qara buludlar alıb. Sən təcili mənim adımdan bütün rayonlara tapşırıq ver ki, raykom katibləri xalqımızın Stalinqradın müdafiəsi üçün əlindən gələni edəcəyi barədə Moskvaya teleqramlar vursunnlar. Bir sözlə bu işi nəzarətə götür. Mənsə təcili Moskvaya uçuram».

M.C.Bağırov Moskvadan qayıtdıqdan sonra bunları demişdi: «Məni Stalinin qəbul otağında yarım saat gözlətdilər. Adətən onun yanına birbaşa keçirdim. Yarım saatdan sonra mən içəri keçəndə Stalin arxası qapıya tərəf dayanmışdı. O, ağır-ağır mənə tərəf çevriləndən sonra dedi:

- Dost-dostu arxadan vurarmı? Türkiyədə alman kəşfiyyatı fəallıq göstərir. Mənə verilən məlumata görə Azərbaycanda onlara çoxlu köməklik edirlər.

Stalin bu barədə bir xeyli danışıb dedi – Mən çox mühüm bir qərara gəlmişəm. Sonra əlinə bir sənəd götürdü. Elə bu zaman Stalinin köməkçisi qucağında xeyli teleqram içəri girib Stalinə bildirdi ki, bunların hamısı Azərbaycandan gələn teleqramlardır. Bütün azərbaycanlılar Stalinqradın müdafiəsinə köməyə can atır.

Köməkçinin məlumatından sonra Stalin azərbaycanlıları Qazaxıstana köçürmək haqqındakı sənədi imzalamadı. Bir xeyli fikirləşib: bu yenə Mikoyanın hiyləsinə oxşa-

yır – dedi və əlindəki sənədin üstündən xətt çəkib bir tərəfə atdı».[116]

C.H.Hüseynovun M.C.Bağırov haqqında söylədiyi başqa bir fakt da diqqəti cəlb edir. O, M.C.Bağırovla olan görüşü belə xatırlayır: 1942-ci il idi. Şərur rayonunun Baş Noraşen (indiki Cəlilkənd) kəndinin yaxınlığındakı hərbi toplanış məntəqəsinə (təxminən 200 oğlan, 50 nəfər qız var idi) toplanmışdıq. M.C.Bağırov gəlib bura çıxdı və o, görüşdə bildirdi ki, mən Moskvadan gəlirəm, İ.Stalindən xahiş etdim ki, azərbaycanlı qız-gəlinlərin müharibəyə çağırılmasını dayandırsın. O, mənim xahişimi eşitdi. M.C.Bağırov üzünü qızlara tutub dedi: Sizləri xalqımızın oğlan övladları ləyaqətlə əvəz edəcəklər, mən buna əminəm. Ona görə də gedin evinizə, arxa cəbhədə çalışın, döyüşən atalarınıza, qardaş-larınıza isti paltar, sovqat göndərin.[117]

Çox təəssüflər ki, M.C.Bağırovun mübariz fəaliyyəti düzgün qiymətləndirilmir, əvəzində «cəllad» ifadəsi işlədilir. Ancaq bu ifadəni işlədənlər onu dərk etmirlər ki, o vaxtlar M.C.Bağırov olmasaydı, yəqin ki, həmin şəxslər də Azərbaycanda rahat yaşaya bilməzdilər. Şübhəsiz tarix obyektivlik tələb edir. Hər bir hadisə olduğu kimi yazılmalı və təbliğ edilməlidir. Onu yaddan çıxartmaq olmaz ki, M.C.Bağırov respublikaya rəhbərlik etdiyi 20 il ərzində yerlibazlığa, qohumbazlığa, tayfabazlığa və s. yol verməmişdir. Bu da bir həqiqətdir ki, müharibə vaxtı oğlu Cahangiri cəbhəyə göndərmişdi. O, 1943-cü il iyunun 5-də hava döyüşündə misilsiz qəhrəmanlıq göstərərək öz təyyarəsini düşmən təyyarəsinə vurmuş və bununla da 24 yaşı tamam olmamış həlak olmuşdur.[118] Belə bir cəsarətli igidliyə baxmayaraq Bakıda adi döyüşçü kimi dəfn edilmişdi. M.C.Bağırov ona heç bir heykəl, abidə qoyulmasına yol verməmişdir.

M.C.Bağırov haqqında deyilən böhtançı fikirlərdən biri də Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın birləşməsinə mane olduğu haqqında uydurmadır. Belə əsassız böhtanlar söyləyənlərin görünür tarixi həqiqətlərdən xəbər-

ləri yoxdur və yaxud da M.C.Bağırova böhtanlar yağdırmaqla özlərini xalq «fədaisi» kimi göstərməyə çalışırlar. Ancaq onlar yanılır və nadanlıqlarını göstərirlər.

Bu bir həqiqətdir ki, M.C.Bağırov bütün varlığı ilə Cənubi Azərbaycanın Sovet Azərbaycanı ilə birləşməsinə çalışmışdı. Teyyub Qurbanı «Mircəfər Bağırov haqqında gizlədilmiş həqiqətlər» adlı arxiv sənədləri əsasında yazılmış məqaləsində göstərmişdi: Bağırov Cənubi Azərbaycana bütöv Azərbaycanın böyük hissəsi kimi baxmış və buna görə də ora ilə daima əlaqə saxlamağa ciddi səy göstərmişdi. O birləşməni namus, qeyrət məsələsi hesab etmişdi. Teyyub Qurbanın yazdığı məqalədə M.C.Bağırovun Cənubi Azərbaycana göndərilən işçilərlə görüşlərindən birində demiş olduğu fikir məhz böhtançılara tutarlı cavabdır. Bağırov demişdi: «Sizin vəzifəniz olduqca məsul və olduqca şərəflidir. Siz bu şərəfli vəzifəni yerinə yetirməklə yüz illərlə ikiyə bölünmüş qardaşların arzusunu yerinə yetirmiş olacaqsınız. Siz uzun müddətdən bəri bir-birindən ayrılan qəlbi, məhəbbəti, duyğunu birləşdirmiş olacaqsınız. Bu, namus, qeyrət, sədaqət və məhəbbət məsələsidir».[119]

Bunu da unutmaq olmaz ki, Mikoyan və onun havadarları heç zaman Cənubi Azərbaycanın Sovet Azərbaycanı ilə birləşməsinə razı ola bilməzdilər. Belə birləşmə Azərbaycanın Sovet İttifaqında Ukraynadan sonra üçüncü respublikaya çevrilməsi demək idi. Həm də bu «Böyük Ermənistan» yaradılması planına ən böyük zərbə ola bilərdi. Buna görə də Mikoyan başda olmaqla erməni daşnakları bütün varlıqları ilə həmin birləşməyə mane olmuşdular. Deməli, həmin məsələdə Bağırovu təqsirləndirmək böyük ədalətsizlik, tarixi faktları saxtalaşdırmaqdır.

Teyyub Qurban haqlı olaraq yazır: «Mircəfər Bağırovu «lənət damğası» ilə xatırlayanlar, onu «alçaq və milli xain, rus və erməni nökəri kimi» qiymətləndirənlər zəhmət çəkib arxivlərə baş vursunlar… Bağırovun dövründə nə res-

publika rəhbərinin özünün, ailəsinin və qohumlarının, nə də vəzifə sahiblərinin süfrəsində haram tikə olmamışdır».[120]

Həm də İkinci Dünya müharibəsinin ağır illərində Azərbaycan xalqının nə dərəcədə yüksək əzmkarlıqla işlədiyi danılmazdır. Cəbhəyə hər sahədə və xüsusilə yanacaq sahəsində göstərilən fasiləsiz köməklik, şübhəsiz qələbənin təmin edilməsində öz təsirli rolunu oynamışdı. O vaxt bütün cəbhəni neftlə təmin edən respublika neftçiləri həm də maşın sürtgü yağlarının 90 faizini vermişlər.[121] Qələbənin təmin edilməsində Azərbaycan neftçilərinin fədakar əməyi dəfələrlə dövlət tərəfindən və eləcə də bir sıra görkəmli marşallar – Jukov, Yakov və b. tərəfindən yüksək qiymətləndirilmişdi.

Ancaq qəribədir ki, Moskvada müharibə tarixinə dair çap olunmuş 6 böyük cildlik kitabda Azərbaycan bir və ya iki yerdə xatırlandığı halda, Ermənistan və Gürcüstan haqqında elə yazılıb ki, guya həmin respublikalar müharibənin qələbə ilə başa çatmasında həlledici rol oynayıblar. Faktların saxtalaşdırılaraq yazılması, Ermənistanın fəaliyyətinin hədsiz dərəcədə şişirdilməsi bir daha Mərkəzin ermənilərə olan havadarlıq münasibətini təsdiqləyir.

Saxta mövqeyin yazılıb təbliğ edilməsi hətta 1983-cü ildə açılışı olan «Stalinqrad döyüşünün panoraması» abidəsində də öz əksini tapmışdı. Panoramada Zaqafqaziya respublikalarının xəritəsi göstərilmişdi. Lakin Ermənistanın təsvirində verilənlər təəccüb doğurur və guya buradan tanklar, təyyarələr cəbhəyə yola salınır. Azərbaycan isə Zaqafqaziya respublikaları arasında olduqca sönük və hətta müharibə dövründə Bakının yanacaq sahəsində misilsiz xidmətini təsvir edən heç bir məlumat verilmir. Burası da qəribədir ki, xəritənin altında Hitlerin «Biz nəyin bahasına olursa-olsun Zaqafqaziyanı ələ keçirməliyik. Bizə Ermənistanın, Gürcüstanın və Azərbaycanın nefti lazımdır» ifadəsinin yazılması gülünc doğurur.

Nə qədər saxtalıq, nə qədər ağ yalan! Nə vaxtdan Ermənistan və Gürcüstan neft ölkəsi olmuşdur? Bu, dünyada

heç kimə məlum deyil. Panoramanın açılışında iştirak edən bir sıra hərbiçilər, akademiklər çox təəccüblənirlər və belə saxtalığa görə panoramanın rəhbərinə öz iradlarını bildirirlər. Bu saxtalığa etiraz edənlərə cavab olaraq – pannoramanın rəhbəri deyir ki, abidə hazırlananda burada iki alim və iki hərbiçi – marşal Çuykov və marşal Baqramyan olublar və Zaqafqaziyanın əks olunduğu hissəyə rəhbərlik Baqramyana tapşırılmışdı (Bax: «Yeni Azərbaycan» qəzeti, 6 aprel 2003).

Şübhəsiz, Baqramyanın qatı millətçilik xarakteri hətta tarixi həqiqətin saxtalaşdırılmasına da səbəb olmuşdu. Ermənistanda nəinki tank, hətta heç avtomat da istehsal olunmamışdır. Ancaq bu bir həqiqətdir ki, Bakıda zavodların çoxu cəbhəyə işləmişdi. Burada hətta cəbhədə zədə almış təyyarələr bərpa olunmuş, tank istehsal edilmişdi. Buna görə də Azərbaycan xalqı Stalinin təşəkkürünü almışdı.[122]

Azərbaycan dəmiryolçuları da müharibə dövründə misilsiz əmək qəhrəmanlığı göstərmişlər. Zaqafqaziya dəmir yolunun xidmətinin 80 faizdən artığı respublika dəmiryolçularının payına düşmüşdü. Azərbaycan xalqının müharibə illərində göstərdiyi vətənpərvərlik, qəhrəmanlıq hər bir sahədə öz bəhrəsini vermişdi. Faktlar bir daha təsdiq edir ki, Azərbaycana qarşı erməni düşmənçiliyi hətta Böyük Vətən müharibəsinin ağır illərində də unudulmamışdı. Bu, baqramyanla bərabər Mikoyanın və digərlərinin fəaliyyətində də öz əksini tapmışdı. Mikoyan 1941-ci ilin oktyabrın axırlarında yaradılmış köçürmə məsələsi üzrə Dövlət Komissiyasına rəhbərlik etmək məqamından istifadə edərək Azərbaycana qarşı yeni bir təhlükəli cəhdin təşkilatçısı olmuşdu. Stalinin məxfi əmri ilə iri şəhərlərdə köçürülməsi mümkün olmayan obyektlərin – hərbi obyektlərin, körpülərin, fabrik-zavodların partladılması həyata keçirilirdi. Məsələn, Kiyev şəhəri Stalinin planı əsasında 1941-ci ilin sentyabrında, almanlar şəhərə girəndən bir sonra partladılmışdı. Bu qayda digər şəhərlərdə də tətbiq edilmişdi. Ancaq Bakı haqqında olan

tapşırıq digərlərindən fərqli olan məna kəsb etmişdi. Belə ki, Mikoyan erməni hiyləgərliyi ilə anası erməni olan Savçenkonu yanına çağırıb Bakının partladılmasını ona tapşırır. Savçenko Bakıda partladılacaq obyektlərin planını hazırlayır. Qəribədir ki, bu plana şəhərin ən qədim tarixi binalarının hamısı – o cümlədən Opera və Balet Teatrının binası, Dəniz vağzalı, bir sözlə binaların 60 faizi daxil edilmişdi. Savçenko bir nəfər inanılmış adamla Bakı qarnizonunun rəisi general Beskravaynının yanına gəlir və planla onu tanış edir. Lakin qarnizon rəisi Savçenkoya bildirir ki, bunu mütləq M.C.Bağırov bilməlidir. Onlar M.C.Bağırova planı deyəndə o, qətiyyətlə cavab verərək bildirir ki, lazım olan anda şəhəri biz özümüz partladarıq. Sizə ehtiyac yoxdur.[123] Bununla da ermənilərin çox təhlükəli və növbəti planının qarşısı yenə də M.C.Bağırov tərəfindən alınmışdı.

II Dünya müharibəsinin qurtarmasından az sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. 1945-ci il noyabrın 28-də Ermənistan K(b)P MK-nin birinci katibi T.A.Arutyunov Dağlıq Qarabağın Ermənistan SSR tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nın sərəncamına göndərmişdi. Mikoyan və onun havadarlarına böyük ümidlər bəsləyən ermənilər əmin idilər ki, məsələ onların xeyrinə həll ediləcəkdir. Arutyunov yazdığı məktubda bildirirdi ki, Dağlıq Qarabağ Ermənistanın ərazisi ilə qovuşur. Onun Ermənistanın tərkibinə daxil edilməsi məhz vilayətin inkişafına xeyli dərəcədə təsir göstərə bilər və bütün təsərrüfat sahələrinin idarə edilməsi asanlaşar; vilayətin Ermənistanın tərkibinə daxil edilməsi yerli kadrlara öz ali təhsillərini Ermənistanın ali məktəblərində ana dilində almağa imkan vermiş olardı. Guya vilayət gənclərinin istər Ermənistanın və istərsə də ölkənin digər respublikalarının ali məktəblərində oxumalarına mane olan varmış.[124] Onsuz da gənclər istədikdə gedib Ermənistanda ali təhsil alırdılar. Arutyunovun «dəlillərindən» biri də ondan ibarət idi ki, guya vilayətin Ermənistanın tərkibinə daxil edilməsi onun

təsərrüfat vəziyyətini bir qədər yaxşılaşdıra bilər və həm də bu birləşmə Dağlıq Qarabağ əhalisinin böyük arzusudur. Əlbəttə, bütün bunlar üstü pərdələnmiş qondarma fikirlər idi. Heç olmasa ona görə ki, həmin məsələ ilə əlaqədar əhali arasında sorğu aparılmamışdı. Arutyunovun məktubu alınandan sonra ÜİK(b)P MK-nın katibi G.M.Malenkov o zaman Azərbaycan K(b)P MK-nın birinci katibi işləyən M.C.Bağırova bildirmişdi ki, Ermənistan K(b)P MK-nın təklifi haqqında öz rəyini bildirsin.[125]

Belə bir vəziyyətlə əlaqədar olaraq Azərbaycan hökuməti 1945-ci ilin dekabrın 10-da 330 №-li sənədlə cavab rəyində Ermənistan rəhbərliyi tərəfindən irəli sürülmüş bütün iddiaların əsassız olduğunu göstərmişdi. M.C.Bağırov qeyd etmişdi ki, Dağlıq Qarabağın ərazisi Qarabağ xanlığının tərkibində olmuşdur və xanlığın mərkəzi də Pənahabad (Şuşa) idi. Bu qala Qarabağ xanı Pənahxan tərəfindən tikilmişdir. 1826-cı ildə Qarabağ xanlığı Çar Rusiyasına birləşdirildikdən sonra indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində idi. 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində Mərkəz Şuşa olmaqla Qarabağ general-qubernatorluğu yaradılmışdı. Daşnaklar tərəfindən təşkil edilən millətlərarası münaqişə nəticəsində Şuşa, eləcə də Azərbaycanın digər şəhərləri dağıdılıb dəhşətli vəziyyətə salınmışdı. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra ilk vaxtlarda bütün Qarabağın təsərrüfat və siyasi həyatına rəhbərlik vahid Vilayət Revkomu tərəfindən həyata keçirilmişdi. 1923-cü ildə Qarabağın dağlıq hissəsini – ermənilərin çox olduğu yeri Ermənistana birləşdirmək məsələsi ortaya atılmış[126] və bu ərazinin Ermənistanla elə bir ümumi ərazi əlaqəsi olmadığına görə və həm də bura Qubadlı, Laçın, Kəlbəcər, Dəstəfur rayonlarından ayrı olduğuna görə və eləcə də burada əhalinin azərbaycanlılardan ibarət olmasına görə Azərbaycan MİK-nin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəz Xankəndi (indiki Stepanakert)

olmaqla DQMV-i yaradılmışdı. Dağlıq Qarabağ ərazi cəhətdən Ermənistanla heç vaxt yaxın olmayıb. Vilayətin mərkəzi Stepanakert ən gözəl mədəni şəhərlərdən birinə çevrilmişdi. Azərbaycan SSR-nin müxtəlif ali məktəblərində və texnikumlarında oxuyanların 20,5 faizini ermənilər, çoxunu isə DQMV-dən olan ermənilər təşkil edir.

Dağlıq Qarabağdan olan ermənilərdən MK-də və Bakı PK-də, müxtəlif partiya və sovet işlərində, Xalq Komissarı və Xalq Komissarı müavinləri və s. vəzifələrdə işləyənlər respublikada az deyil. Buna baxmayaraq biz DQMV-nin Ermənistan SSR-i tərkibinə daxil edilməsinə etiraz etmirik. Ancaq Şuşanın DQMV-i tərkibində Ermənistana verilməsinə tərəfdar deyilik. Şuşa şəhəri özünün təməli qoyulandan bəri Qarabağın idarəedici siyasi mərkəzi olmaqla bərabər, həm də Qarabağın mədəniyyət mərkəzi olmuşdu. O, eyni zamanda Azərbaycan xalqının İran qəsbkarlarına qarşı mübarizəsində mühüm rol oynamış və məhz Şuşada Zaqafqazi-ya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar öldürülmüşdü.[127]

Həmin şəhərdə Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti formalaşmışdır. Burada Vaqif, Natəvan və başqaları kimi görkəmli şəxslər yaşamışlar. Bununla bərabər ÜİK(b) MK-nin nəzərinə çatdırmaq istəyirəm ki, DQMV-nin Ermənistan SSR tərkibinə daxil edilməsi məsələsinə baxarkən eyni zamanda əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan və Ermənistanın tabeliyində olan və eyni zamanda Azərbaycan Respublikası sərhədi ilə qovuşan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR tərkibinə qatılması məsələsinə də baxılsın.[128] Həmin rayonların mədəni və iqtisadi geriliyini nəzərə alıb Azərbaycana verilməsilə göstərilən rayonların maddi-mədəni və siyasi həyatında yaxşılaşma gedə bilər.

Yuxarıda göstərilənlərdən əlavə ÜİK(b)P MK-dən xahiş olunur ki, aşağıda qeyd olunan məsələlərə də baxılsın: Gürcüstandan yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR tərkibinə qatıl-

ması məsələsini qaldırmışlar. Baxmayaraq ki, göstərilən həmin rayonlarda 79 min nəfər əhalidən cəmi 9 mini gürcüinqiloylardır, biz həmin məsələyə baxılmasına etiraz etmirik o halda ki, Gürcüstan SSR tərkibində olan Borçalı rayonunun Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsinə də baxılsın. Burada yaşayanlar demək olar ki, azərbaycanlılardır və bura tamamilə Azərbaycan ərazisi ilə tam qovuşan yerdir.[129] Nəhayət, xahiş edirik keçmişdə Azərbaycanın tərkib hissəsi olub Bakı quberniyasına daxil olan Dərbənd və Qasımkənd rayonlarının Azərbaycanın tərkibinə daxil edilməsi məsələsinə baxasınız. Həmin rayonların əksər əhalisi azərbaycanlılardır və çoxu heyvandarlıqla məşğul olur. Onlar ilin 9 ayını Azərbaycan ərazisində keçirirlər. Qalldırılan məsələləri hazırlamaq üçün ÜİK(b)P MK komissiyasının yaradılmasını və tərkibə marağı olan Respublikalardan nümayəndələr daxil etməyi məqsədəuyğun hesab edirəm.[130]

M.C.Bağırovun bu əsaslı cavabı çoxlarını susdurdu. Göstərilən cəhd baş tutmadığından Ermənistan rəhbərliyi 1945-ci ilin axırlarına yaxın yeni bir cəhdə əl ataraq respublikaya xaricdən 450-500 min ermənin köçürülməsi qərarını qəbul etdi. Hətta bu məqsədlə İrana, Fransaya və ermənilər yaşayan digər ölkələrə nümayəndələr göndərdi. Bu onu göstərirdi ki, Ermənistan Mərkəzi hökumətin havadarlığına tam əmindir. Bu, 1946-cı ilin əvvəllərində keçirilən Ermənistan Respublikası fəalları yığıncağında T.A.Arutyunova 500 min ermənini yerləşdirmək çətin deyilmi? – suala cavabdan da aydın olur. Hansı ki, Ermənistan K(b)P MK-nin birinci katibi T.A.Arutyunov verilən suala cavabında bildirmişdi ki, bu haqda Beriya, Mikoyan və SSRİ Xarici İşlər Nazirinin müavini Deqonazov söz veriblər (Bax: «Xalq» qəz. 3 iyul 1997).

Mərkəzin razılığı ilə 500 min ermənin Ermənistana köçürülməsi ideyasının meydana atılmasında məqsəd burada ermənilərin çoxluğuna nail olmaq və yer sıxlığı pərdəsi altında gələcəkdə azərbaycanlıların Ermənistandan çıxarıl-

masına nail olmaq idi. Bu az sonralar Mərkəzin qəbul etdiyi qərarlarda öz ifadəsini tapdı.

Bununla bərabər erməni millətçiləri qəzetlərdə, jurnallarda və kütləvi nəşr etdikləri kitablarda tarixi həqiqətləri kobud şəkildə təhrif edərək Azərbaycana qarşı ərazi iddialarını təbliğ etməkdə davam edirdilər. Azərbaycan K(b)P MK-nin Birinci katibi M.C.Bağırov belə hallara qarşı barışmaz olmuş və dəfələrlə Sovet rəhbərliyinə öz etirazını bildirmişdir. Buna misal olaraq M.C.Bağırovun 1946-cı ildə ÜK(b)P-nin katibi A.A.Jdanovun, 1947-ci ildə ÜK(b)P MK-nın katibi Q.M.Malinkovun və 1948-ci ildə İ.V.Stalinin adına göndərdiyi məktubları göstərmək olar.

ÜK(b)P MK-nın katibi A.A.Jdanova göndərdiyi məktubda göstərilirdi ki, 1946-cı ildə Yerevan «Ermənnəşriyyat»ı Marietta Şaginyanın «Sovet Zaqafqaziyası» kitabını nəşr etmişdi. Bunu bildirməyi vacib sayırıq ki, bu kitab çoxlu sayda kobud siyasi səhvlərdən ibarətdir; tarixi həqiqətləri təhrif edir və mahiyyət etibarilə Sovet Zaqafqaziyası xalqlarına atılan böhtanları özündə ifadə edir. 1927-ci ildə yazılmış «Sevan gölü» oçerkində müəllif Sovet Zaqafqaziyası xalqlarını ölümə məhkum edilmiş, tarixən köhnəlmiş xalq kimi təsvir edir. M.Şaginyanın fikrincə 1926-cı ildə Dağlıq Qarabağ torpağı əhəmiyyətsiz, kənd təsərrüfatı rentabelli olmayan və kəndliləri acından ölməmək üçün şəhərlərə qaçan, atılmış, dağılmış, dilənçi ölkədir. Ancaq M.Şaginyan erməni təhkimçi məlikləri dövründə Dağlıq Qarabağın keçmişini xüsusi həvəs və məhəbbətlə təsvir etmişdi.

M.Şaginyan Dağlıq Qarabağda azərbaycanlılarla ermənilərin qarşılıqlı münasibətlərini təsvir edərək, onları birbirinə qarşı qoyur, tarixi həqiqəti təhrif edir.

M.Şaginyanın kitabında çoxlu buna bənzər hiddətləndirici sitatları misal göstərmək olar – deyə M.C.Bağırov A.A.Jdanova yazdığı məktubunda onu da qeyd edirdi ki, bircə bunu başa düşmək olmur ki, 20-25 il bundan əvvəl

yazılmış oçerki 1946-cı ildə yenidən nəşr etdirmək «Ermən-nəşriyyat»ın nəyinə gərəkdir?

M.C.Bağırov yazdığı məktubda bu kitabın ləğv edilməsini təklif etmişdir.

ÜK(b)P MK-nin katibi Q.M.Malinkova ünvanladığı məktubda isə M.C.Bağırov daha bir kitaba öz etirazını bildirərək yazmışdı ki, 1947-ci ildə «Sovet yazıçısı» nəşriyyatında buraxılmış Q.Xolopovun «Buxtada işıqlar» romanında (əvvəllər «Zvezda» jurnalı, № 11-12, 1945-ci ildə çap olunub) S.M.Kirovun Bakının neft sənayesinin bərpa edilməsində fəaliyyətinin bədii təsviri iddia edilir. Həmçinin burada müəllif Xolopov – əslində Xalapyan Georgi Konstantinoviç göstərmişdir ki, Azərbaycanda Sovet hakimiyyətinin bərpası günü 28 apreldə şəhərin ermənilər yaşayan dağlıq hissəsində belə bir şaiyə yaymışlar ki, guya müsəlmanlar Bakıda yaşayan erməniləri qıracaqlar. Əlbəttə, bu tamamilə yalan bir fikir idi. Xalapyanın ana nəsli məşhur dövlətli Lalayevlər nəslindən olmuşdur. Hansı ki, Lalayevlər 1918-ci ilin martında müsəlman qırğını iştirakçısı olmuşlar. Lalayev qardaşlarının axırıncısı 1937-ci ildə həbs edilmiş və ən yüksək cəzaya məhkum edilmişdir.

«Buxtada işıqlar» romanı haqlı olaraq respublika ictimaiyyətini çox təəccübləndirmişdi. Hətta bir sıra tənqidi məqalələr yazılmışdı. O cümlədən məşhur ədəbiyyatşünas alim Mikayıl Rəfili yazdığı rəyi 1947-ci ilin mayında «Literaturnaya qazeta» qəzetinə göndərmişdi. Rəy isə çap olunmamışdı. Sorğuya cavabında redaksiya müəllifə bildirmişdir ki, guya rəy itib, ikincisini göndərin. Müəllif ikinci dəfə rəy göndərsə də çap olunmamışdır.

Tehranda nəşr edilən «Alik» erməni qəzetində 1948-ci il 14 apreldə «İmmiqrasiya və biz», 25-26 avqustda isə «Naxçıvanın Ermənistan üçün əhəmiyyəti» adlı fitnəkar məqalələr çap olunmuşdu. Orada Azərbaycanın Dağlıq Qarabağ, Naxçıvan MSSR, Kirovabad (indiki Gəncə) və s. Gürcüstanın Axaltsix, Axalkalaki, Borçalı və s. əraziləri he-

sabına Sovet Ermənistanı ərazilərinin genişləndirilməsi tələbləri təbliğ olunmuşdur. Hətta, M.C.Bağırov 1948-ci ildə məktubla İ.Stalinə müraciət edərək bu məsələ ilə əlaqədar öz kəskin mövqeyini bildirmişdir (Bax: «Zerkalo» qəz. 6 və 13 mart 2004).

Azərbaycana qarşı kəskin münasibət Ermənistan və Dağlıq Qarabağ Vilayətində də davam etdirilirdi. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyinin 24 avqust 1946-cı il tarixli tam məxfi sənədində göstərilirdi ki, Yazıçılar İdtifaqının Dağlıq Qarabağ filialının məsul katibi Canyan Dağlıq Qarabağın Ermənistanla birləşməsinə can ataraq demişdir: əgər DQMV-i Ermənistanın tərkibinə daxil olardısa, o zaman bizim mədəniyyətimiz yenidən çiçəklənərdi. Biz Ermənistandan ayrı yaşayanda erməni mədəniyyətindən geri qalırıq, erməni Operasını və ümumi nailiyyətləri görmürük. Belə millətçi çağırışlar, əhval-ruhiyyə Vilayətin Pedaqoji İnstitutunun müəllimlərinin tərkibində də hiss olunurdu. Məsələn, institutun dosenti Voskerçyan Sərkis İvanoviç demişdir: Heç bir xalq bu zülmə dözməz, biz bunun üçünmü qalib gəlmişik? Bu nə qələbədir? İngiltərə erməni məsələsinin tam həllinə razılıq vermir. Bunun bütün günahı Qarabağın keçmiş rəhbərliyindədir. Buna görə də hazırda DQMV-i Ermənistanın tərkibində deyil. Yerevan Dövlət Universitetinin tələbəsi Xaçaturyan Qayk Stepanakert qiyabi Pedaqoji institutunun müəllimi Arutyunov Karo ilə söhbətində demişdir: Ermənistanda Qarabağın Ermənistan SSR ilə birləşdirilməsi haqqında məsələ qoyulmuşdu. Biz tələbələrdə elə məsələ qoyduq və tələb etdik ki, bizə məruzə etsinlər görək nə üçün Qarabağı Ermənistanla birləşdirmirlər. Bu suala professor cavab vermişdir ki, bu mümkün deyil. Bu məsələni tələb edən ancaq Qarabağın ziyalılarıdır, bütün xalq deyil. Belə xarakterli fikirlər çoxdur.[131]

Dağlıq Qarabağın iqtisadiyyatının inkişafı məsələsinə gəldikdə, rəsmi sənədlər təsdiq edir ki, Azərbaycan hökuməti Dağlıq Qarabağın iqtisadiyyatının inkişafı və əhali-

nin maddi, mədəni vəziyyətinin yaxşılaşdırılması məsələsinə daima qayğı ilə yanaşmışdı. Hətta göstərilən sahələrdə Vilayət respublikanın azərbaycanlılar yaşayan bölgələrindən üstün təmin olunmuşdur.

Bunu 1947-ci ilin əvvəlində Azərbaycan SSR Ali Sovetinə 35 nəfər ermənin deputat seçilməsi faktı da təsdiq edir. Bunu, Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkil edilməsinin 25 illiyi münasibəti ilə «Xalqların Lenin-Stalin dostluğu bayrağı altında» DQMV-i Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri E.Akopovun yazdığı məqalədə göstərdiyi faktlar da təsdiq edir (Bax: «Kommunist» qəz. 24 iyul 1948-ci il).

Bunu eyni zamanda Vilayətin 25 illiyi ilə əlaqədar olaraq, Vilayət Partiya Komitəsinin katibi M.S.Manukyan və İcraiyyə Komitəsinin sədri E.S.Akopovun 25 dekabrda (1947-ci ildə) AK(b)P MK katibi M.C.Bağırovun və Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevin adına göndərdikləri məktub da təsdiq edir. Məktubda yazmışlar: 25 il ərzində AK(b)P MK rəhbərliyi altında Dağlıq Qarabağ Respublikanın gözəl diyarına çevrilmiş, vilayətin mədəni-maarif, səhiyyə, incəsənət sahələri inkişaf etmiş, əhalinin rifah halı yüksəlmişdir. Vilayətdə 200 məktəb, Müəllimlər İnstitutu, Kənd Təsərrüfatı Texnikumu, Pedaqoji və musiqi məktəbi, Elmlər Akademiyasının bazası yaradılmışdır. Vilayətdə 140 mədəni müəssisə fəaliyyət göstərir. 1946-1947-ci illərdə vilayətin 30 kolxozu elektrikləşdirilmişdir.[132]

Z.Balayan və onun özü kimi millətçi silahdaşlarına xatırlatmaq lazımdır ki, DQMV-i Azərbaycanın ayrılmaz hissəsi kimi Respublika rəhbərliyinin daima diqqət mərkəzində olub və inkişaf edib. Bunu tarixi sənədlərlə yanaşı keçirilən tədbirlərdə deyilənlər də dönə-dönə təsdiq edir. 1948-ci il iyulun 24-də Stepanakertdə DQMV-nin 25 illiyi ilə əlaqədar olaraq Vilayət Sovetinin təntənəli iclası olmuşdu. Bayram şənliklərində iştirak etmək üçün Bakıdan, Dağıstan, Naxçıvan MSSR, Kirovabad, Nuxa, Ağdam və respublika-

nın digər şəhər və rayonlarından nümayəndələr gəlmişdi. Balayanlara o da məlum olsun ki, Dağlıq Qarabağın Ermənistana məxsus olması haqqında dünyaya saxta uydurmalar yayan Ermənistandan Vilayətin yubileyində bir nəfər belə iştirak etməmişdir. Yubiley sessiyasında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev, AK(b)P MK ikinci katibi H.Seyidov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Cəfərov, Naxçıvan MSSR Ali Soveti Rəyasət heyətinin sədri Məmmədov, Sosialist Əməyi qəhrəmanları Gülbala Əliyev və Adamyan, AK(b)P DQV Komitəsinin katibi Qriqoryan, DQV Soveti İcraiyyə Komitəsinin sədri Akopov və digərləri Rəyasət Heyətində əyləşmişdilər. Bu respublika rəhbərliyinin Vilayətə olan diqqəti idi. 25 illik haqqında məruzə edən Akopov demişdi: Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti elan edildiyi gününün 25-ci ildönümü bayram edilir. Akopov etdiyi məruzəsində keçən müddət ərzində böyük nailiyyətlər əldə edilməsindən və Vilayət əməkçilərinə həmişə qayğı göstərən AK(b)P MK-nin və Azərbaycan SSR hökumətinin yardım və rəhbərliyindən minnətdarlıqla danışmışdı.

Burada çıxış edən T.Quliyev 25 il ərzində sənaye, kənd təsərrüfatı, elm, mədəniyyət sahələrində Vilayətdə əldə edilən nailiyyətlərə toxunaraq demişdi: azad və xoşbəxt Sovet Dağlıq Qarabağımız Azərbaycan zəhmətkeşlərinin doğma ailəsində yaşasın və çiçəklənsin.[133] Sessiyada çıxış edənlər Vilayətin inkişaf etdirilməsi naminə göstərilən qayğıdan danışmaqla bərabər Azərbaycan rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndirmişlər. Həmçinin də ermənilərin Azərbaycanın tərkibində yaxşı yaşamaları və elə çətin bir problemləri olmaması məsələləri 1949-cu ilin yanvarında keçirilən Azərbaycan K(b)P-nın XVII qurultayında çıxış edən erməni nümayəndələrinin fikirlərində də aydın surətdə səslənmişdi. Məsələn, Martuni (Xocavənd) rayonundan çıxış edən A.Baxşiyan bildirmişdi ki, Martuni rayonu əməkçilərinin maddi və mənəvi vəziyyətində böyük irəliləyiş olmuş, Adam-

yan və Sarkisyan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər. Rayonun 39 kolxozundan 11-i milyonçu kolxoza çevrilmişdi.[134] Qurultayda çıxış edən S.Abramyan deMişdi: Azərbaycan Partiya təşkilatının rəhbərliyi altında DQMV-da yaradılmış sənaye müəssisələri hazırda 140-dan çoxdur.

1948-ci ildə Vilayətin sənayesi müharibədən əvvəlki 1940-cı ilə nisbətən 45 faiz artıq məhsul vermişdi.[135] Qurultayda çıxış edən H.Əmirxanyan Azərbaycan və onun paytaxtı Bakı şəhərinin xalqlar dostluğu beşiyi olmasından, Respublikanın məktəblərində erməni zəhmətkeşlərinin 80 min uşağının oxumasından və məcburi təhsil qanununu həyata keçirməkdə DQ rayonlarının respublikada mühüm yer tutduğunu qeyd edərək bildirmişdi ki, bütün bunlarla bərabər Azərbaycanda erməni dilində «Kommunist» qəzeti çıxır. Bu qəzetin 25 minlik tirajı, inqilabdan əvvəl Rusiyada erməni dilində çıxan bütün qəzetlərin tirajından xeyli artıqdır. Vilayətdə erməni dilində bir vilayət və 7 rayon qəzeti nəşr edilir.[136] Bakıda və vilayətdə erməni teatrları fəaliyyət göstərir. Bütün bunlar Azərbaycan hökuməti tərəfindən həyata keçirilən siyasətin və qayğının nəticəsi idi. Ermənilərə olan qayğı digər sahələrdə də olmuşdu.

1949-cu ilin martında Azərbaycandan 2.887 nəfər müəllim SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdu. Lenin ordeni ilə təltif olunan 253 nəfərdən 65 nəfəri erməni, qalanları müxtəlif millətlərin nümayəndələri olmuşlar.[137] Lakin bunlara baxmayaraq erməni diasporu azərbaycanlılara qarşı olan düşmənçiliyindən əl çəkmədi və Mikoyanın havadarlığı ilə azərbaycanlılara qarşı yeni bir dövlət səviyyəli qərarın qəbul edilməsinə nail oldu. Hələ 1943-cü ildə üç dövlət başçısının iştirak etdikləri Tehran konfransında (28 noyabr – 1 dekabr) Sovet-İran münasibətləri müzakirə edilən zaman belə bir əlverişli məqamdan istifadə edən erməni diasporu konfrans iştirakçısı V.M.Molotova (SSRİ Xarici İşlər Naziri) müraciət edərək İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə verilməsini xahiş

etmişdir. İ.Stalinlə elə Tehranda danışıqdan sonra V.M.Molotov ermənilərin köçürülməsinə icazə vermişdir.[138]

Həmin icazədən – Sovet rəhbərliyinin rəğbətindən istifadə edən Ermənistan 1945-ci ilin axırlarında Dağlıq Qarabağın Ermənistana verilməsinə nail olmadığından məhz növbəti cəhdlə yeni bir təşəbbüsə əl atmışdır. Bu təşəbbüs xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi bəhanəsi altında azərbaycanlıların əsrlərlə yaşadıqları torpaqlardan çıxarılması təşəbbüsü olmuşdu. Onunla da Ermənistan Mərkəzin havadarlığı ilə SSRİ Nazirlər Sovetinin 23 dekabr (1947-ci il) və 10 mart (1948-ci il) tarixli qərarları əsasında yüz mindən artıq azərbaycanlıların öz doğma atababa yurd-yuvaları olan Qərbi Azərbaycandan (Ermənistandan) çıxarılmasına nail oldu. Bununla da azərbaycanlılar əsrlər boyu yaşadıqları Zəngibasar, Göyçə, Vedibasar, Zəngəzur kimi doğma diyarlarından Azərbaycanın aran Rayonlarına köçməli idilər. Bu, ermənilərin azərbaycanlılara qarşı apardıqları mübarizənin yeni forması, əsil soyqırımı siyasəti idi.

1948-ci ilin 10 martında SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən azərbaycanlı kolxozçu və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR Kür-Araz ovalığına köçürülməsi haqqında» qərarı qəbul edildi. Buna uyğun olaraq AK(b)P MK bürosunun 19 mart 1948-ci il tarixli qərarı ilə Azərbaycan Nazirlər Soveti sədrinin müavini Əzizbəyova tapşırıldı ki, on gün ərzində SSRİ Nazirlər Sovetinin köçürmə haqqında olan 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarının həyata keçirilməsi barədə əməli tədbirlər görülməsi sahəsində iş planı hazırlasın və Azərbaycan SSR Nazirlər Sovetinin təsdiqinə versin.[139] Bundan əlavə H.Həsənov və Abdullayevə tapşırılmışdı ki, Ermənistandan köçürülən azərbaycanlılar arasında və eləcə də onların köçürüləcəyi yerlərin əhalisi arasında siyasi-kütləvi iş aparmaq sahəsində tədbirlər planı hazırlayıb qısa vaxtda təqdim etsinlər. Qərarda köçürmənin müddəti və qaydasını Ermənis-

tan SSR rəhbərliyi ilə razılaşma məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin və Azərbaycan K(b)P MK-nin ikinci katibi H.Seyidovun Ermənistana getmələri də göstərilirdi.

AK(b)P MK bürosunun 13 aprel 1948-ci il tarixli iclasında Ermənistan ərazisindən Azərbaycana köçürülənlər arasında kütləvi-izahat işlərinin aparılması haqqında məsələ müzakirə olunmuşdu. İclasın qərarında deyilirdi ki, «Ermənistan SSR-dən azərbaycanlıların Azərbaycana köçürülməsi haqqında» 23 dekabr 1947-ci il tarixli qərarı ilə Mingəçevir SES-in tikilməsi ilə əlaqədar olaraq onlara torpaq sahələrindən istifadə etmək üçün geniş şərait yaranır.[140]

Beləliklə, 1948-ci ildə Ermənistandan Azərbaycana 4674 təsərrüfat, yaxud 20 min adam köçürülmüşdü. Ermənistandan köçürülənlər Salyan, Əli-Bayramlı, Sabirabad, Puşkin, Saatlı, İmişli, Jdanov, Ağcabədi, Bərdə, Yevlax, Mirbəşir, Göyçay, Ucar, Zərdab, Kürdəmir və b. rayonlarda yerləşdirilmişdi. Onu da xatırlatmaq lazımdır ki, çoxlu sayda insanlar, o cümlədən körpələr, qadınlar, qocalar köçürülmə şəraitinə, olduqca ağır və kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olanların da sayı az olmamışdır.

1950-ci ildə Ermənistandan 3500 təsərrüfat köçürülmüşdü. Diqqəti bu cəhət cəlb edir ki, köçürülmə haqqında olan qərara görə Ermənistandan köçürülənlər yalnız Kür-Araz ovalığında yerləşdirilə bilərdi. Buna görə də 1988-ci ildə olduğu kimi, o vaxt da bir nəfər də olsun ailə Dağlıq Qarabağa buraxılmamışdı.

1947-ci ilin dekabrın 23-də SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərarı ilə 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min nəfərin köçürülməsi planlaşdırılmışdı.[141] Bununla da 1952-ci ildə köçürülmə planı 125,7 faiz yerinə yetirilmişdi. Bu köçürülmə Ermənistanın illərlə işləyib

hazırladığı və məharətlə həyata keçirdiyi planın tərkib hissəsi idi. Həmin planı həyata keçirmək naminə müxtəlif manevrlər etməyi də bacarırdılar. N.Nərimanov daşnakların belə riyakar xarakterini açıqlayaraq hələ 1919-cu ildə yazmışdı: Daşnaklar özlərinin otuz illik siyasi həyatı müddətində göstərdilər ki, «Böyük Ermənistan» haqqında arzularını həyata keçirmək xatirinə hər cür cildə girməyə hazırdırlar.[142]

Azərbaycanlıların köçürülməsi sahəsində erməni lobbisinin hiyləgər siyasəti bir daha bunu təsdiq etdi. 1948-ci ildə köçürülmə haqqında qərara uyğun olaraq əhali arasında izahat işlərinin aparılması məqsədi ilə Ermənistana şairlər, yazıçılar, mühaziräçilər, artistlər göndərilirdi və hətta ora gedəcək şəxslərin siyahısı əvvəlcədən hazırlanmalı idi.[143] Qərara uyğun olaraq köçənlərə xüsusi qayğı göstərilir və güzəştlər edilirdi. Köçürmənin gedişi AK(b)P MK-nin büro iclaslarında da müzakirə edilirdi. 1948-ci il 23 noyabr tarixli AK(b)P MK büro iclasında Ermənistandan Qasım-İsmayılov rayonuna köçürülənlər haqqında məsələ müzakirə edilərkən göstərilmişdi ki, 1948-ci ilin sentyabr ayında rayonun 10 kolxozuna Ermənistandan köçürülən 810 nəfər adam qəbul edilmişdi. Bunlardan 193 nəfəri yaşayış sahəsi ilə, 164 nəfəri isə təsərrüfat sahələri ilə təmin edilmişlər.[144] Köçürülən kadrlardan 21 nəfəri müəllimliyə, 8 nəfəri isə partiya-sovet və təsərrüfat işlərinə cəlb olunmuşdular.

Bununla bərabər büroda göstərilmişdi ki, bu işdə bəzi nöqsanlar da vardır. Belə ki, köçürülən 13 kolxozçu hələ yaşayış evləri ilə təmin olunmayıblar, 42 təsərrüfatçıya torpaq sahəsi verilməyib. Köçürülən azərbaycanlılara ev tikilişi üçün materialların verilməsi də qənaətbəxş deyil, yaşayış evlərinin tikilişi üçün ayrılmış 1.570 min manatdan cəmi 218 min manat xərclənmişdir. 11 vaqon meşə materialından 8 vaqon işlədilib. Bu rayonda köçkünlərə lazımi dərəcədə mənzil şəraiti yaradılmadığına görə 65 nəfər köçkün respublikanın başqa rayonlarına getməli olmuşdur.[145]

Büronun qərarında həmçinin göstərilmişdi ki, Qasım-İsmayılov rayon Partiya Komitəsinə və rayon İcraiyyə Komitəsinə tapşırılsın ki, Respublika Nazirlər Sovetinin və AK(b)P MK-nin qərarının yerinə yetirilməsi haqqında 1 fevral 1949-cu ildə hesabat versinlər. Bu dövrdə Ermənistan ərazisindən Azərbaycanın müxtəlif yerlərinə özbaşına köçənlər də olmuşdu. Belə ki, Kür-Araz ovalığına daxil olmayan Şamxor, Kirovabad, Qazax, Gədəbəy, Quba, Xanlar və b. rayonlara köçənlər az olmamışdı. Belə özbaşına köçənlərə 1947-ci il 23 dekabr tarixli qərara görə güzəştli şərtlərdən istifadə etmək hüququ verilmirdi. Lakin onların güzəştli şərtlərdən istifadə etmələri haqqında Respublika hökumətinin xahişinə baxmayaraq İttifaq hökuməti buna razılıq verməmişdi. 1949-cu il aprel ayının 27-də Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin birinci katibi Yusif Niftalı oğlu Yusifov Azərbaycan K(b)P Mərkəzi Komitəsinə yazdığı məktubla birlikdə Ermənistan SSR Zəngibasar rayonu Elyas kəndi kolxozçularının ümumi iclasının protokolunu da göndərmişdi. Məktubda göstərilirdi ki, 220 nəfər kolxoz üzvünün iştirakı ilə keçən iclas Naxçıvan MSSR rəhbər orqanlarına üz tutub bu kolxoza daxil olan 150 təsərrüfatı Naxçıvan Muxtar Respublikasında yerləşdirməyi xahiş edir.[146]

Kolxozçuların qəbul etdikləri qərarda deyilirdi: «Kolxozumuz varlı kolxozdur. Belə bir kolxozu kəndlərə dağıtmaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi təsərrüfatımızın iqtisadiyyatını pozmaz. Noraşen rayonunun iqlimi və suyu da bizə düşür. Orada tezliklə əkin əkə bilərik. Qoşqu qüvvəmiz və toxumumuz var. Naxçıvan MSSR Ali Sovetindən və Nazirlər Sovetindən xahiş edilsin ki, bizim kolxozun üzvlərinin Noraşen rayonunun Şəngiley və Dərəkənd kəndlərinə köçməsinə icazə versinlər».

Y.Yusifov AK(b)P MK-dan xahiş etmişdir ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda qəbuluna icazə verilsin.[147] Y.Yusifovun bu qayğısına və təşəbbüsünə cavab olaraq Köçürmə

İdarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar etdi ki, gələcəkdə bir daha belə hallara yol verməsin.

1950-ci il 10 yanvar tarixli AK(b)P MK bürosunda Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ətrafı rayonlarına köçürülənlərin təsərrüfat işlərinə cəlb edilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında məsələyə baxıldı. Burada göstərildi ki, Ermənistandan köçürülən azərbaycanlıların respublikanın müxtəlif rayonlarında yerləşdirilməsi sahəsində xeyli iş görülmüşdü. 1948-1949-cu illərdə 20 min nəfər adam köçürülmüş və onlar kolxozlarda işlə təmin edilmişlər. Köçürülənlərin evlə təmin edilməsində də müəyyən iş görülmüşdü. Belə ki, onlardan 1410 nəfər yerli sovetlərin və kolxozların binalarında yerləşdirilmişlər. 3264 nəfər isə kolxozçu evində yaşayış evləri ilə təmin olunmuşlar. 1284 təsərrüfat sahəsi ayrılıb qaçqınlara verilmişdi. Şəxsi istifadə üçün 2211 təsərrüfat heyvanla təmin edilmişdi.[148] Bununla bərabər bəzi nöqsanlara da yol verilmişdi. Səhiyyə nazirliyi qaçqınlar yerləşdirilən rayonlarda lazımi dərəcədə iş aparmamış və buna görə də qızdırma (malareya) xəstəliyinə qarşı mübarizə zəif olmuşdu.

1949-cu ildə Azərittifaq isə köçkünlər olan rayonlara tikinti materiallarının daşınıb satılmasını tam təmin etməmişdir. 2 il ərzində qaçqınlara cəmi 80 ev tikilib verilmişdi.[149] Buna görə də köçkünlərin təsərrüfat quruculuğunu təcili təmin etmək üçün Respublika Nazirlər Soveti və AK(b)P MK qərara alır: Salyan, Əli-Bayramlı, Sabirabad, Puşkin, Saatlı, İmişli, Jdanov, Ağcabədi, Bərdə, Yevlax və b. rayon Partiya Komitələri və Rayon İcraiyyə Komitələri 1950-ci il yanvarın 25-ə kimi köçkünlər yerləşdirilən kolxozlarda dəqiq yoxlamalar aparsınlar, nəzərə çarpan çatışmazlığın ləğvi üçün təcili tədbirlər görsünlər və onlar qış üçün yanacaqla təmin edilsinlər. Eyni zamanda Respublika Kənd Təsərrüfatı Nazirliyinə tapşırıldı ki, 1950-ci il 1 marta köçkünlərin şəxsi istifadəsi üçün iribuynuzlu mal-qara satışını və onlara həyətyanı sahələr verilməsini təmin etsin. 1950-ci il üçün

Ermənistandan Azərbaycanın müxtəlif rayonlarına 15 min nəfər adamın köçürülməsi və yerləşdirilməsi təmin edilsin.[150]

Bununla da erməni lobbisinin, millətçilərinin xeyrinə həyata keçirilən köçürmə siyasəti nəticəsində 180 minə yaxın[151] azərbaycanlı respublikanın müxtəlif rayonlarında, onlar üçün qeyri-münasib iqlim şəraitində yaşamalı oldular. Bununla əlaqədar Azərbaycanın xeyli miqdarda yaylaq torpaqları ermənilərə qaldı. Bu köçürülmənin günahı mətbuatımızda M.C.Bağırovun böyük səhvi kimi mənalandırılır. Lakin əvvəllərdə göstərilənlərdən aydın olur ki, 1948-ci ildə həyata keçirilən köçürülmə məsələsi heç də Bağırovdan asılı məsələ olmamışdı. O vaxt xaricdən Ermənistana ermənilərin axınından erməni millətçiləri məharətlə istifadə edərək yer darlığını ortaya ataraq hətta azərbaycanlıların Qazaxıstan və Orta Asiyaya köçürülmələrini həyata keçirmək istədilər. Məsələ qəti qoyulmuşdu. Ya Dağlıq Qarabağ Ermənistana verilməli, ya da azərbaycanlılar oradan çıxarılıb uzaqlara sürgün edilməli idilər. Belə halda M.C.Bağırov onların çıxarılıb Azərbaycanda yerləşdirilməsinə nail oldu və bununla da azərbaycanlıların uzaq yerlərə köçürülməsinin qarşısını aldı.[152] Beləliklə, ermənilərin xeyrinə həyata keçirilmiş köçürmə siyasəti Azərbaycan xalqına ən böyük zərbə və xəyanət olmuşdu.

Ümummilli liderimiz H.Əliyev Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar olaraq mayın 27-də (1997-ci il) etdiyi nitqində demişdir: «Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, bizim tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusən dövlət müstəqilliyimizi əldə etdikdən sonra da doğru-düzgün qiymət verə bilməmişik».

Mərkəzin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli ədalətsiz qərarlarının azərbaycanlılar üçün nə dərəcədə ağır nəticələr verdiyini təhlil edib dünya ictimaiyyətinə

çatdırılması baxımından Respublika Prezidentinin 18 dekabr 1997-ci il tarixli fərmanı xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin 18 dekabr 1997-ci il tarixli fərmanında həm də son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımızın faciələrə, məşəqqətlərə məruz qalması, doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq qırğınlara məruz qalması və xalqımıza məxsus minlərlə tarixi-mədəni abidələrin, yaşayış məskənlərinin dağıdılıb viran edilməsi göstərilmişdir.

Beləliklə, Sovet hökumətinin qərarları əsasında azərbaycanlıların Ermənistandan qəddarlıqla çıxarılması erməni millətçilərinin azərbaycanlılara qarşı tətbiq edilmiş yeni təcavüzü idi. Lakin buna nail olmaq naminə hələ qərarlardan əvvəl ermənilər Ermənistanda azərbaycanlıların sayını azaltmaq və ermənilərin sayını isə hər vasitə ilə artırmaqla, nəhayət azərbaycanlıların mövqelərinin tamamilə zəifləməsinə nail olmaq istəmişlər. Buna görə də erməni millətçiləri 1946-cı ildə Livan, Bolqarıstan, İran, Suriya və Rumıniyadan 60 minə yaxın, 1947-ci ildə Fransa, Fələstin, ABŞ, Misir və digər ölkələrdən 35 mindən artıq erməninin köçürülərək Ermənistanda yerləşdirilməsinə nail olmuşlar.[153]

Ədalətsiz məqsədlərinə çatmalarına baxmayaraq Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi yenə də ermənilərin siyasətinin gündəliyində qalmaqda davam etmişdi. Hətta 1948-ci ilin martında DQMV-nin Ermənistana verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernikin imzası ilə qərar layihəsi olmuşdu. Bu sənədə həmçinin Azərbaycan sərhədinin dəyişdirilmiş xəritəsi də əlavə edilmişdi.[154]

Respublika rəhbərliyi tərəfindən bu cəhdin də qarşısı qətiyyətlə alınmışdı. Ancaq Sovet hökumətinin göstərilən qərarlarının təsiri altında daha da fəallaşan Ermənistan hökuməti azərbaycanlılara qarşı millətçilik siyasətini gücləndirmiş və azərbaycanlı kadrları tutduqları vəzifələrdən uzaq-

laşdırmağa başlamışdı. Belə ki, azərbaycanlıların yaşadıqları rayonlarda birinci katib işləyən 2 nəfər, ikinci-üçüncü katib işləyən 6 nəfər, rayon İcraiyyə Komitəsi sədri işləyən 6 nəfər və mərkəzi aparatda işləyən bir çox azərbaycanlılar müxtəlif bəhanələrlə işdən azad olunmuşlar. Elə həmin dövrdə Qarabağlar rayonu Vedi rayonu ilə birləşdirilərək R.Azgəldiyan birinci katib təyin edilmişdi.[155]

Vaxtilə azərbaycanlılar yaşayan rayonlardan 13-də iki dildə qəzet nəşr olunurdu. Lakin 1948-ci ildə 9 qəzetin nəşri dayandırılmış, 4 qəzetdə isə azərbaycanca yazıya olduqca az yer verilmişdi. 1948-ci ildən başlayaraq Ermənistanda Azərbaycan dilində fəaliyyət göstərən ticarət, kənd təsərrüfatı texnikumları bağlanmışdı.[156] Qəribə burasıdır ki, azərbaycanlılara qarşı bu kəskin siyasət məhz Sovet hökumətinin dekabr (1947-ci il) və mart (1948-ci il) tarixli qərarlarından sonra həyata keçirilmişdi.

Qısaca olaraq göstərilən bütün bunlar 1918-1920-ci il hadisələrinin davamı, azərbaycanlılarsız Ermənistan, «Böyük Ermənistan» yaratmaq planının tərkib hissəsi idi. Ermənistan hökuməti köçürülmədən sonrakı illərdə azərbaycanlılara qarşı düşmənçilik siyasətlərini müntəzəm olaraq davam etdirmişdi.

Belə ki, hələ 1930-cu illərdə yaradılmış X.Abovyan adına Yerevan Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, fizika, riyaziyyat ixtisasları üzrə Azərbaycan bölməsinin əyani və qiyabi şöbələri bağlanmış və bunların əvəzində 1955-ci ildə 25 nəfərlik bir azərbaycanlı qrupu yaradılmışdı. Yerevanda 1925-ci ildən fəaliyyət göstərən Azərbaycan Pedaqoji Texnikumu Xanlar rayonuna köçürüldü. 1928-ci ildən İrəvanda fəaliyyət göstərən C.Cabbarlı adına Azərbaycan Dram Teatrı bağlandı. Hansı ki, həmin teatr SSRİ-də məşhur incəsənət ocaqlarından biri olmuşdu. Hətta 1944-cü ildə SSRİ üzrə keçirilən «Şekspir festivalı»nda həmin kollektiv yüksək sənətkarlıq nümayiş etdirib birinci yeri qazanmışdı.[157] Ermənistan məhz belə bir mədə-

niyyət mərkəzini bağlamışdı. Ermənistan hökuməti bunlarla bərabər Sisyan, Mehri, Qafan, Vedi, Qarabağlar, Zəngibasar rayonlarında Azərbaycan dilində çıxan qəzetləri, müxtəlif nazirliklər və idarələr nəzdində olan bir sıra nəşrlərin bağlanmasına da nail olmuşdu.[158]

Köçürülmədə diqqəti cəlb edən hallardan biri də odur ki, boşaldılmış yerlərdə heç kim yerləşdirilməmişdir, bununla da yüzlərlə kəndlər xarabalığa çevrilmişdir. Bunu hətta erməni mənbələri də təsdiq etmişdir. Məsələn, 1975-ci il Ermənistan KP MK-nin yanvar plenumunda göstərilmişdi ki, 476-dan artıq boşaldılmış kənd istifadəsiz qalmışdır (Bax: «Kommunist» qəz. (Yerevan), 20 yanvar 1975.).

Hətta erməni şovinistlərinin özləri də etiraf edirlər ki, azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılmış torpaqlardan və evlərdən xaricdən gələn ermənilərin yerləşdirilməsi üçün istifadə edilməmişdi.

50-ci illərin ortalarında ermənilər Mikoyanın köməyi ilə yenidən Dağlıq Qarabağ məsələsini qaldırdılar və 60-cı illərdən Ermənistanda «Qarabağ Komitəsi» açıq fəaliyyətə başladı. Belə şəraitdə ermənilər 1960-cı ilin noyabrında Mikoyanın təşəbbüsü ilə DQMV-nin Ermənistana birləşdirilməsi haqqında hazırlanmış yeni bir sənədin Sov.İKP MK Rəyasət heyətində müzakirə edilməsinə çalışdılar. Ona görə də bu məsələ ilə əlaqədar yenə də ciddi hazırlıq işi apardılar. Lakin Rəyasət Heyətindən qabaq keçirilən müşavirədə Azərbaycan KP MK katibi N.M.Hacıyevin məruzəsindən sonra Xruşov hazırlanmış qərar layihəsini bir kənara atıb ermənilərin bütün cəhdlərini rədd etmişdi.[159]

1960-cı ildə Xruşov Ermənistan SSR-in 40 illiyinə həsr olunmuş yubiley şənliklərində iştirak etmək üçün Yerevana gəlmişdi. Ermənistan rəhbərliyi belə bir gündə də Azərbaycana qarşı olan düşmənçiliklərini unutmamış və Xruşşovun gəlişindən istifadə edərək öz planlarının tərkib hissələrindən olan Naxçıvanın ələ keçirilməsinə nail olmaq istəmişlər. Görkəmli tədqiqatçı-tarixçi alim Əli Əliyev yazır: Təriflər-

dən və Leninakan arağından məst olmuş başsız katib kefli halda iki cinayətlə dolu məsələyə:

1 – Naxçıvan Muxtar Respublikasının (Azərbaycanın qədim Naxçıvan güşəsi, Atabəylər ocağı) Ermənistan SSR-ə verilməsinə; 2 – Şərura axan Arpaçayın (başlanğıcını Türkiyə ərazisindən götürür) Sevan gölünə axıdılması məsələsinə razılıq verir. Ertəsi gün, «paxmeldən» (boyat keflilik) sonra katibi müşayiət edən «başbilənlər» və diplomatlar onu başa salırlar ki, Nikita Sergeyeviç, Naxçıvan problemi – tarixi, beynəlxalq problemdir, vaz keçin. Elə həmin gün xaricdən gəlmiş erməni diasporunun nümayəndələri və jurnalistlərlə görüşdə «Naxçıvan məsələsi»nə toxunulanda lobbilərə Xruşşov müraciətlə bildirir: «Hə, siz torpaq istəyirsiniz. Qazaxıstanda ürəyiniz istədiyi qədər boş torpaq sahələri var, gedin məskunlaşın, əkin-becərin, dirinizə də bəsdir, ölünüzə də».[160]

Dağlıq Qarabağ məsələsi 1964-ci ildə yenə də irəli sürülür. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Mikoyan 1964-cü ilin əvvəllərində Krımın Ukraynaya verilməsindən istifadə edərək Dağlıq Qarabağın da Ermənistanla birləşdirilməsi təklifini verir. Xruşov onun təklifinə cavab olaraq deyir: Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün mən 12 min hərbi yük maşınları ayrılmasını təqdim etməyə hazıram.[161]

Ermənistan hökuməti bunlarla da kifayətlənmədi və həyata keçirdiyi bir sıra tədbirləri ilə millətçilik əhval-ruhiyyəsini artırmaq siyasətini davam etdirdi. Erməni millətinin bədbəxt bir millət kimi böyük faciələrə məruz qaldığını beynəlxalq aləmdə yenidən hay-küylə meydana atdılar. Onlar bilavasitə Mikoyanın köməyi ilə 1965-ci ildə Yerevanda saxta «genosid» hadisəsinin 50 illiyi münasibətilə abidə qoyulmasına nail oldular və bununla da yenidən «genosid» məsələsini əldə bayraq etdilər. Əlbəttə, qondarma «genosid» məsələsinə abidə qoyulması və onun 50 illiyinin qeyd edilməsinə Sovet rəhbərliyinin yol verməsi, məhz Mərkəzin ermənilərə olan havadarlığının yeni ifadəsi idi. Belə bir mü-

nasibətin təsiri ilə ermənilər həmin «genosid» gününün qeyd edilməsinə xüsusi hazırlıq tədbirləri gördülər.

Uydurma genosidin 50 illiyinin keçirilməsinə hazırlıq dövründə «Böyük Ermənistan» uğrunda görülən tədbirlərdən biri də 40 milyard dollar dəyərində pulun toplanması oldu. Həmin pula 70-ci illərdə terrorçu erməni təşkilatı ASALA yaradıldı. Yerevanda genosid gününün böyük izdiham şəklində keçirilməsi ərəfəsində Ermənistan hökuməti rayon və kənd rəhbərliyinə belə bir göstəriş vermişdi ki, aprelin 15-dən 30-a qədər azərbaycanlılar ermənilərlə bir yerdə işləməsinlər. Aprelin 22-dən 27-ə kimi azərbaycanlılar heç bir yerdə işə çıxmasınlar. Şənlik-toy keçirmək məsələsinə gəldikdə isə bunlar qəti olaraq qadağan edilmişdi.[163]

Ermənilər bütün insanlığını itirərək hətta 1983-cü il aprelin 23-də Masis rayonunda keçirilən bir azərbaycanlı toyunun məclisinə hücum edib toyu dağıtmışlar. Bəy və gəlini təhqir etməklə bərabər bir neçə nəfəri ağır yaralamış və iki nəfəri isə öldürmüşlər.[164] Bundan əlavə erməni millətçiləri 1965-ci il aprelin 23-də «genosid»in 50 illiyi ilə əlaqədar Yerevan şəhərində 400 minlik nümayiş keçirilməsinə nail olmuşlar. Nümayişdə «Qərbi Ermənistan – yəni Anadolu Ermənistanın olmalıdır!», «Ermənilər, 1915-ci ilin qisasını almaq vaxtıdır, birləşin!» və s. plakatlarla, şüarlarla təşkil edilən çıxışlar nümayişin əsl məqsədini açıqlayırdı. Bu əsassız və qatı millətçi hərəkatın ilhamçıları V.Ambarsumyan, O.Badalyan, S.Kaputikyan və başqaları idi. Doğrudur bu hadisənin qeyd edilməsindən sonra Ermənistan KP MK-nin birinci katibi S.Zarobyan A.Koçinyanla əvəz edildisə də millətçilik yenə də davam etdirildi. Ondan sonra Dəmirçiyan dövründə daha kəskin anti-Azərbaycan siyasəti yeridildi. Bunlardan əlavə Ermənistanın bütün kilsələrində xüsusi mərasimlər keçirilir, qəmli dualar oxunur və məktəblərdə keçirilən matəm dərslərində «genosid»lə bərabər, həm də «Qarabağ»la bağlı yaxın keçmişdə baş verən hadisələr haqqında təfsilatı ilə uşaqlara söhbətlər edirdilər.

Erməni millətçiləri «genosid» məsələsini nəinki Ermənistanda və eləcə də xaricdəki erməni icmalarında, keçmiş SSRİ-nin ərazisindəki bir sıra yerlərdə və hətta Qarabağda da qeyd etmişlər. Əslində bu uydurma «genosid»in təbliğatında məqsəd dünya ictimaiyyətində ermənilərə rəğbət oyatmaq və buna nail olmaqla Qarabağ məsələsini öz xeyirlərinə həll etmək idi.

Dünya ictimaiyyətinin fikrini tarixi həqiqətlərdən yayındırmaq məqsədilə ermənilər 1986-cı il aprelin 22-də Köln (AFR) televiziyasında 45 dəqiqəlik «Erməni məsələsi unudulub» adlı film göstərməyə nail olmuşlar. Vaxtı ilə Polşada Hitler düşərgələrində məhbus olmuş tarixçi Paulyus həmin verilişə qarşı öz etirazını bildirərək bunu Gebbels təbliğatına oxşatmışdı.[165]

Çox qəribədir, bütün faciələri törədən bunlar, genosid deyib dünyaya səs salan da bunlardır. Hətta ermənilər BMT nəzdində azlıqda qalan millətlərin hüququnun müdafiə edilməsi komitəsində «Erməni genosidi»ni bir fakt kimi təsdiq etdirmək təşəbbüsü də göstərmişdilər. Ancaq 1973-cü ildə irəli sürülmüş «Erməni genosidi» təklifi 1978-ci ildə komitədə səsvermə yolu ilə rədd edilmişdi.

1983-cü ildə BMT Komitəsi tərəfindən Londonda ictimai birlik direktoru Bendcamin Uiteykerə tapşırıldı ki, müxtəlif hadisələrdə genosid məsələləri üzrə məruzə hazırlayıb XXXVIII sessiyaya müzakirə üçün təqdim etsin. BMT-nin sessiyası 1985-ci ilin avqustunda toplandı və bir sıra məsələlərin müzakirəsindən sonra Uiteykerin məruzəsi dinlənildi. O, bir neçə məlum genosid və «erməni genosidi» hadisələrini sadaladı. Lakin edilən tənqidlər nəzərə alındığından bunu insan hüquqları üzrə olan komissiyaya verməkdən imtina edildi və bununla da material arxivə verildi.

Bununla bərabər Amerikanın Türkiyə tarixi üzrə mütəxəssisləri də türklərin ermənilərə qarşı genosid siyasət yürütmələri haqqında ermənilərin fikrinin həqiqətə uyğun olmadığını dəfələrlə bildirmişdilər. «Genosid» məsələsinin

uydurma olması və onun saxtalığı dünyanın bir sıra tədqiqatçıları tərəfindən elmi dəlillərlə dönə-dönə ifşa edilməsi işin əvvəlində verildiyinə görə təkrara ehtiyac yoxdur. O da qəribədir ki, genosidin 50 illiyi türk dünyasının – Azərbaycan xalqının qatı düşməni Andronikin anadan olmasının 100 illiyi ilə bir vaxta düşmüşdü. O vaxtlar Ermənistan MK-nin Birinci katibi işləyən Y.Zorabyan yenə də Mikoyanın vasitəçiliyi ilə həmin cəlladın – Andronikin yubileyinin qeyd edilməsinə icazə almış və bütün respublika qəzetləri onun erməni xalqının qəhrəmanı kimi anadan olmasının 100 illiyi yubileyini təntənəli şəkildə qeyd etmişdilər.

Erməni millətçiləri hətta Dağlıq Qarabağ Vilayətində də «genosid»in 50 illiyi və Azərbaycan xalqının qatı düşməni Andronikin anadan olmasının 100 illiyi məsələsini hallandırmağa çalışmışlar. Dağlıq Qarabağı ələ keçirməyə fasiləsiz olaraq cəhd göstərən Ermənistan 1967-ci ildə Moskvadan Azərbaycana bir sənəd göndərilməsinə nail olmuşdu. Azərbaycan KP MK-nin Birinci katibi V.Axundov Respublikanın Təhlükəsizlik Komitəsinin rəhbəri Heydər Əliyevi yanına dəvət edib onu Moskvadan göndərilən sənədlə tanış etmişdi. Sənəddə göstərilirdi ki, Azərbaycan KP MK-ya, V.Axundova, Ermənistan KP MK-ya Koçinyana tapşırılsın ki, sənəddə göstərilən məsələni müzakirə edib məruzə etsinlər. Bu nə demək idi?

Deməli, Azərbaycanın məsələsini həll etməyi Ermənistana tapşırırdılar, yəni Siz gedin Ermənistanla məsələni həll edin. Bu böyük ədalətsizlik idi. Sənədlə yaxından tanış olan H.Əliyev V.Axundova bildirmişdi ki, buna qəti şəkildə yol vermək olmaz. Siz Moskvaya getməli və Brejnevlə görüşməlisiniz. H.Əliyevin müdrik məsləhətilə V.Axundov Moskvaya getmiş, Brejnevlə görüşüb söhbət aparmış və bununla da ermənilərin növbəti cəhdinin də qarşısı alınmışdı.

H.Əliyev 1969-1982-ci illərdə Respublikaya rəhbərlik etdiyi dövrdə həmişə Ermənistanın millətçilik siyasətinin, ərazi qoparmaq siyasətinin qarşısını almaq uğrunda cəsarət-

lə mübarizə aparmışdı. O, Azərbaycan KP MK-nın Birinci katibi seçiləndən az sonra – 1969-cu ilin sentyabrında Ermənistan KP MK-nin Birinci katibi Anton Koçinyana zəng edib onunla görüşmək istədiyini bildirmişdi. Bununla da görüş az sonra Qazax rayonu ilə İcevan rayonunun sərhədində keçirildi. H.Əliyev görüşdə ona açıq şəkildə bildirdi ki, Ermənistandakı millətçi adamları ərazi iddialarından çəkindirmək üçün əməli tədbirlər görüb, onun qarşısını alsın. Eyni zamanda həmin dövrdə DQMV-də də millətçilik ruhu ilə yaşayan və Ermənistandakı həmfikirliləri ilə əlaqə saxlayaraq Vilayətin Ermənistana verilməsi haqqında öz baxışlarını həyata keçirməyə cəhd göstərənlər də az olmadı. Hələlik gizli olan belə hallarla əlaqədar olaraq 1973-cü ildə DQVM-nin rəhbərliyi dəyişildi. 1975-ci ildə DQVM-nin Plenumunda Vilayət Partiya Komitəsinin Katibi Kevorkov beynəlmiləlçilik tərbiyəsinə həsr etdiyi məruzəsində haqlı olaraq bəzi millətçi ünsürləri tənqid etdi, konkret faktlarla Z.Balayanın adını çəkdi, Azərbaycan xalqının qatı düşməni, cəllad Andronikin xalq qəhrəmanı kimi təbliğ olunması faktlarını kəskin tənqid etdi. Bundan bir bəhanə kimi istifadə edən millətçilər fəallaşdılar. Moskvaya, başqa yerlərə teleqramlar vurdular, vəziyyət gərginləşdi. Belə şəraitdə H.Əliyev Moskvada Ermənistan KP MK katibi Dəmirçiyanla görüşdü və 4 saatlıq söhbətində bildirdi ki, DQMV-nin problemlərini Azərbaycanın öz rəhbərliyi həll etməlidir. Qarabağın işlərinə ayrı-ayrı şəxslərin qarışması ümumi münasibətimizə ancaq ziyan vurar və biz buna yol verməyik. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunarkən də Ermənistandan Konstitusiya komissiyasına «Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxardıb Ermənistana vermək» haqqında ərizələr daxil olmuşdu. Konstitusiya komissiyasının sədri Brejnev olmasına baxmayaraq adətən komissiyada müzakirə iclaslarını o vaxt MK-nin katibi işləyən akademik Ponomaryov aparırdı. Həmin dövrün hadisələrini xatırladan H.Əliyev deyir: Mən də komissiyanın üzvü idim. Burada

iştirak edərkən Ponomaryov Dağlıq Qarabağ haqqında komissiyaya daxil olmuş ərizələri müzakirəyə qoymağı lazım bildi. Bu məsələnin Azərbaycan üçün nə dərəcədə ağırlığını çox düzgün qiymətləndirən H.Əliyev komissiyanın iclasından bir gün qabaq həmin məsələnin müzakirəsinə qəti etirazını bildirdi. Lakin o, lazımi cavab almadığına görə Brejnevlə görüşməyi və onunla danışmağı lazım bildi və bununla da öz məqsədinə nail oldu, yəni «Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək» məsələsi komissiyada müzakirə olunmaqdan çıxarıldı. Bununla da H.Əliyev tərəfindən Ermənistanın növbəti cəhdinin də qarşısı alındı.

Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirib «Böyük Ermənistan» yaratmağa çalışan ermənilərin həyata keçirdiyi tədbirlərdən biri də Ermənistan ərazisində olan qədim Azərbaycan şəhər və kəndlərin adlarının dəyişdirilməsi olmuşdu. Belə ki, Göyçə mahalı (Basarkeçər) – Vardenis, Qəmərli – Artaşat, Vedi – Ararat, Hacı Nəzər – Kamo, Molla Dursun – Şaumyan, Karvansaray – İcivan, Allahverdi – Tumanyan, Hamamlı – Spitak, Üçkilsə – Eçmiədzin, Uluxanlı – Masis, Göyçə – Sevan və s. adlandırıldı. Bunlarla bərabər Böyük Qaraqoyunlu – Əzizli, Alaçıq qaya – Alaçıq – Dilican, Baş Gərni – Gərni – Abovyan, Əzizbəyov 1939-cu ildən Amasiya adlandırıldı.[166]

Tarixi mənbələrdən aydın olur ki, vaxtı ilə indiki Ermənistanın ərazisinin 82 faizi Azərbaycan torpaqları olub. Bu torpaqlar Türkmənçay müqaviləsindən (1828-ci il) sonra müxtəlif vaxtlarda hissə-hissə Azərbaycandan alınıb ermənilərə verilmiş və nəticədə 15-dən çox rayonun, 10 şəhərin, 11 şəhər tipli qəsəbənin və yüzlərlə kəndlərin adı dəyişdirilibdir.[167]

1976-cı il üçün Ermənistanda 319 azərbaycanlı kəndinin adları müntəzəm olaraq dəyişdirildiyindən 1988-ci il üçün cəmi 22 rayonda 185 azərbaycanlı kəndi adı qalmışdır.[168] Vidadi İsayevin yazdığına görə Ermənistan SSR Ali

Sovetinin 1978-ci il yanvarın 25-də verdiyi bir fərmanla azərbaycanlılar yaşayan və türk mənşəli olan 94 kəndin adı dəyişdirildi. Həmin fərmanla təkcə Üçkilsə (Eçmiədzin) rayonunda 15 azərbaycanlı kəndinin adı ermənileşdirildi (Bax: Vidadi İsayev. Göstərilən əsər, səh. 113-114.).

Azərbaycan adlarının dəyişdirilməsi ilə bərabər ermənilər Ermənistanda azərbaycanlılara məxsus tarixi abidələri məhv etmək kimi ləyaqətsiz vasitələrə də əl atmışlar. Tarixi və mədəni abidələrin qorunması və istifadə edilməsi haqqında SSRİ Ali Sovetinin 18 oktyabr 1976-cı il tarixli qanununa zidd olaraq erməni millətçiləri bir çox abidələri, habelə İrəvanda VII əsrə aid olan «Ozan» abidəsini dağıtdığı halda, Azərbaycan xalqı erməni xalqına hörmət əlaməti olaraq Şuşada XIX əsrə aid olan erməni kilsəsini əsaslı şəkildə təmir etdirmişdi.

Bütün bunlardan belə bir qənaətə gəlmək olur ki, Azərbaycan mənşəli tarixi adların: rayonların, kəndlərin, abidələrin tədricən dəyişdirilməsində erməni millətçilərinin məqsədi azərbaycanlılıq izini itirmək və bununla da azərbaycanlıların çıxarılmasına şərait yaratmaq olmuşdur. Buna görə də Ermənistanda öz ata-baba torpaqlarında yaşayan azərbaycanlılara münasib şərait yaradılmadı, onlar təhqir olundular, sıxışdırıldılar və bununla da ermənilər azərbaycanlıların tədricən öz doğma torpaqlarından çıxarılmasına nail oldular.

Sovet dövlətinin varlığı şəraitində qatı millətçi Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri işlərkən Zaqafqaziya kartoqrafiya idarəsinin müdiri Qabrielyanın dövründə hazırlanmış «Böyük Ermənistan» xəritəsində Azərbaycanın bir çox ərazisi saxtalaşdırılaraq Ermənistan ərazisi kimi göstərilmiş və ermənilər həmin saxta xəritənin Azərbaycan SSR Ali Sovetinin sessiyasında təsdiq edilməsinə cəhd göstərmişdilər. Lakin ermənilər buna nail ola bilməmişdilər.

Ancaq Sovet rəhbərliyinin təsiri ilə Respublika Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi 7 may (1969-cu il) tarixli qərarı əsasında ermənilər sərhəd rayonlarında 2 min hektardan artıq Azərbaycan torpağının – Laçında Qaragöl yaylağının, Qubadlıda Çayzəmin adlanan sahənin, Kəlbəcərdə Zod qızıl mədəninin, Qazaxın Kəmərli kəndi torpaqlarının bir hissəsinin və b. yerlərin ələ keçirilməsinə nail olmuşlar (Bax: Azərbaycan tarixi, 1995, səh. 250.).

Deməli, həmin yerlərin Ermənistana keçməsi üçün ermənilərin etdikləri cəhdlər yavaş-yavaş öz həllini tapdı. Bununla da Laçın rayonuna məxsus olan Qaragöl və Qaragöl yaylağı tarixən Quşçu, Hacılar, Soyuqbulaq, Qılışlı və digər kəndlərə aid olan səfalı yerlər tədricən unuduldu. Göstərilən kəndlərin əhalisi Qaragölü müqəddəs bir ziyarət yeri hesab edirdi. Sarı dağ, Keçəl dağ, Boz dağ, Göy dağ və başqaları isə yerli sakinlərin fərəhi olmuşdur. Bunu da xatırladaq ki, kolxoz quruculuğuna keçiddən sonra Qaragöl yaylağı Laçın rayonuna məxsus ərazi olmaqla Qarıqışlaq kəndində Telman adına kolxozun istifadəsinə verilmişdi.[169]

Azərbaycan SSR Nazirlər Sovetinin 1951-ci il 3 may tarixli qərarında da Qaragöl yay otlaq sahəsi Laçın rayonunun inzibati ərazisində yerləşdiyinə görə bir daha həmin rayonun istifadəsinə verildiyi təsdiq edilmişdi və 1960-cı ilə qədər həmin yerlər Laçın rayonu sakinlərinin istifadə etdiyi çox əlverişli ərazi olmuşdu. Lakin 1960-cı illərdən etibarən həmin yaylağa Ermənistanın Gorus rayonunun təsərrüfatlarının nümayəndələri də gəlməyə başladılar. Hətta 1964-cü ildə Gorus rayonu nümayəndələri heç bir kəslə hesablaşmadan Qaragölün sahilində nəhəng su-nasos stansiyası qurub erməni fermalarına su vermək bəhanəsilə gölün suyunu qurutmağa başlamış və bu yolla həmin ərazini ələ keçirməyə çalışmışlar. Ancaq 1969-cu il 7 may tarixli qərarla Qaragöl və digər yerlərin ermənilərə verilməsi tam yerinə yetirilmədi, onun qarşısı alındı. 1973-cü il avqustun 29-30-da Respublika rəhbərliyinə daxil olan şikayətlər əsasında Qara-

gölə komissiya göndərildi. Komissiya 1927-1929-cu ilin sənədlərinə əsasən Qaragölün Azərbaycana məxsus olduğunu bildirdi. Lakin komissiya 1964-cü ildən ermənilərin qurmuş olduğu nasos qurğusunun ləğv edilməsi haqqında qəti qərar qəbul etmək əvəzinə belə qərara gəldi ki, Azərbaycan da bir nasos qursun.[170] Xeyli keçəndən sonra 1986-cı il avqustun 7-də Ermənistan və Azərbaycanın yaradılmış birgə komissiyası Qaragöldə oldu. Komissiya qərara aldı ki, göldə qurulmuş su-nasos stansiyaları götürülsün və bura respublikalararası Qaragöl dövlət qoruğuna çevrilsin.

Çox təəssüflər ki, ermənilərə edilən güzəştlər sonrakı illərdə də təkrar edildi. Azərbaycan və Ermənistan Nazirlər Sovetlərinin 1987-ci il 17 noyabr tarixli qərarı ilə Qaragöl («Sevlic») dövlət qoruğu yaradıldı və Qaragölün demək olar ki, 90 faizi Ermənistanın «Sevlic» qoruğuna tabe edildi. Azərbaycana qalan gölün daşlı, çınqıllı az bir hissəsində isə 1988-ci ilin yanvarından «Qaragöl» qoruğu yaradıldı.[171]

Sovet hakimiyyəti rəhbərliyində ermənilərin mövqeyinin müdafiə olunmasına əmin olan Ermənistan 60-cı illərin axırlarına yaxın Gədəbəy rayonu ərazisindən də müəyyən yerlərin ələ keçirilməsinə çalışdılar. Ona görə də Gədəbəyə məxsus olan kəndlərə tez-tez basqınlar təşkil edildi. Hətta öz məqsədlərinə nail olmağa çalışan ermənilər 700 hektar Azərbaycan torpağının onlara verilməsi haqqında Sovet rəhbərliyi qarşısında tələblər qoydular. Bu məsələ Gədəbəy əhalisini və xüsusilə də Hacılar və Tağılar kəndlərinin əhalisini çox narahat etdi. Həmin kəndlərin sakinlərindən 56 nəfər 1968-ci ilin dekabrında Moskvaya getmək məcburiyyətində qaldı. Gedənlərin içərisində 1915-ci ildə Andronikin vəhşiləri tərəfindən döşləri kəsilmiş bir qadın da olmuşdur. Lenin Movzoleyi qarşısında toplaşan gədəbəylilərin haqlı tələblərinin dinlənilib qərar qəbul edilməsi əvəzinə ermənilərin ədalətsiz iddiaları yenə də müdafiə olundu. Hətta 1969-cu ilin yayında Moskvanın göstərişi ilə Tağılar kəndinin sakinləri ciddi təzyiqlə Saratovka kəndi ərazisinə köçürüldü və

bununla da Gədəbəyə məxsus 700 hektar sahə Ermənistana verilmiş oldu.[172]

Bunlardan əlavə ermənilər 1969-cu ildə Tovuz rayonu ərazisindən 760 hektar torpaq sahəsini ələ keçirdilər. Azərbaycan ərazilərinin belə hissə-hissə itirilməsi prosesi Ermənistanda yaşayan azərbaycanlıların sayının ildən-ilə azalmasına öz təsirini göstərdi. 1979-cu ildə Ermənistanda azərbaycanlılar ümumi əhalinin 5,3 faizini, Azərbaycanda ermənilər isə 7,9 faizi təşkil etdilər (Bax: «Azərbaycan» qəz. 24 aprel 2001.).

Bütün bunlara baxmayaraq Ermənistan Dağlıq Qarabağa olan iddialarından yenə də əl çəkmədi. Hətta 1970-ci ildə Ermənistanda Sovet hakimiyyətinin qurulmasının 50 illiyi münasibətilə Yerevana getmiş Azərbaycan nümayəndə heyətinin verdiyi hədiyyəyə cavab olaraq Yerevandan alınan teleqramda göstərildi ki, erməni xalqına ən yaxşı hədiyyə Dağlıq Qarabağın bizə verilməsi olardı.[173]

Ermənilər yenə də sakitləşmir və öz məqsədlərinə nail olmaq naminə planlı iş görürdülər. Bu cəhətdən Qarabağ Komitəsi və erməni lobbisi fəal idi. Onlar münasibətləri bir qədər də gərginləşdirmək üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Belə vasitələrdən biri Xocavənd rayonunun Kuropatkin qəsəbəsində törədilən hadisə oldu.

Erməni millətçiləri 1967-ci ilin yayında həmin qəsəbənin sakini Benikinin 9 yaşlı oğlunu ağır işgəncə ilə qətlə yetirdilər. Öldürülmüş uşağın meyidini qəsəbə kənd sovetinin sədri və həm də orta məktəbin direktoru işləyən Ərşad müəllimin evinin yaxınlığına atdılar. Hadisənin törədilməsində Ərşad müəllimi və onunla bərabər Zöhrab və Ələmşadı təqsirləndirərək hər üçünü həbs etdilər. Onları bir il Xankəndində ağır işgəncələrlə həbsdə saxladılar. Nəhayət 1968-ci ilin iyul ayında məhkəmə oldu və onlardan biri bəraət aldı. Digər iki nəfərə haqsız olaraq iş gəsildi. Belə bir qərarla razılaşmamaq bəhanəsi ilə məhkəmə zalından çıxan kimi bir qrup erməni milis işçiləri ilə əlbir olaraq elə Xankəndində Ərşad müəllimin başını kəsdilər. Vəziyyəti belə görən Zöh-

rab və Ələmşad qaçıb milis maşınına mindilər. Ermənilər maşına od vurub hər ikisini diri-diri yandırdılar. Təəssüf ki, bu vəhşi hərəkət – qatı millətçilik və terrorçuluq hərəkəti Sovet rəhbərliyi tərəfindən lazımi dərəcədə öz kəskin qərarını tapmadı. Yenə də ermənilərə güzəştlər təkrar olundu.

Bu məsələdə Respublikanın inzibati orqanları rəhbərlərinin də az günahı olmadı. Belə ki, günahsız olaraq böhtanla həbs edilmiş azərbaycanlıların məhkəməsini Bakıda, yaxud da başqa şəhərlərin birində keçirmək olardı və yaxud da həmin məhkəmə respublikanın müvafiq orqanlarının ciddi nəzarəti altında aparıla bilərdi. O halda qanlı cinayətin qarşısı da alınardı. Çox əfsus ki, belə olmadı.

Erməni diasporu, erməni millətçiləri terrorçuluq vasitəsindən də fəal iştirak etmişlər. Təşkil olunan beynəlxalq erməni terrorçuları türklərə və azərbaycanlılara qarşı Amansız olmuşlar. Bu cəhətdən erməni terrorçularının törətdikləri faciələrin iki dövrünü – birinci dünya müharibəsindən sonrakı və 1973-cü ildən hal-hazıra qədər davam edən dövrləri xatırlamaq kifayətdir.

Birinci dünya müharibəsindən sonra daşnaklar bir sıra türk xadimlərinin sui-qəsd yolu ilə məhv edilməsinə nail oldular. Birinci qurban 1921-ci il martın 15-də keçmiş Daxili İşlər Naziri Tələt paşa oldu. O, həmin gün Berlin küçələrində gəzinti vaxtı erməni Soqomon Teliryan tərəfindən öldürüldü. Bu hadisədən 9 ay sonra Romada erməni Arşavir Şirakyan Türkiyənin keçmiş Xarici İşlər Naziri Səid Həlim paşanı öldürdü.[174]

Bu cinayəti törədənlər haqda xaricdəki erməni icmalarının mövqeyi birmənalı oldu. Teliryan Tələt paşanı öldürdüyünə görə Berlində həbs edildi. Onun həbsi ilə əlaqədar olaraq Berlində «Soqomon Teliryanı müdafiə fondu» təşkil edildi və tez bir vaxtda bir sıra ölkələrdə, xüsusilə Amerika Birləşmiş Ştatlarında olan ermənilərin fonda maliyyə köməyi artdı. Bu yardımın nəticəsində Teliryan azad edildi. Sonrakı yaşadığı 40 il ərzində – 1960-cı ildə ölü-

münə qədər o, San-Fransiskoda «Erməni milli qəhrəmanı» hesab edildi. Hətta 1968-ci ildə Cems Nazerin «XX əsrin birinci genosidi» adı ilə nəşr edilən kitabında Teliryanın şəkli verilmiş oldu.

1922-ci il aprelin 17-də Berlində Türkiyədə mühüm vəzifələrdə işləmiş Bahəddin Şakir bəy və Kamal Əzmi bəy öldürüldülər. Bundan bir neçə ay sonra isə iki erməni Kamal paşaya sui-qəsd təşkil etdilər. Erməni terrorçuları həm də türklər haqqında az da olsa obyektiv mövqe tutan ermənilərı belə öldürürdülər. Buna misal olaraq 1933-cü il sentyabrın 24-də erməni terrorçuları tərəfindən Amerikada erməni kilsəsinin başçısı Turanyanın öldürülməsini göstərmək olar.[175]

Erməni terrorçuluğu 1973-cü ildən etibarən beynəlxalq aləmdə daha geniş miqyas aldı. Belə ki, həmin il yanvarın 27-də ABŞ-ın Kaliforniya ştatında 78 yaşlı mühacir erməni Qurgen Yanikyan Türkiyənin Los-Anjelosda baş səfiri Məhmət Baydarı və səfir Bahadir Dəmiri öldürdü. 1973-cü il aprelin 4-də Parisdə Türkiyə səfirliyi binası qarşısında iki bomba partladıldı.[176]

Kolman Makkarti «Türklərin təhrif olunmuş tələfat tarixi» əsərində göstərir ki, 1973-cü il ərzində 25 türk səfiri və onların ailə üzvləri, həmin ilin iyulunda Brüsseldə səfir öldürülmüşdür. Bundan bir gün sonra Parisdə bomba partladılması nəticəsində təyyarəyə miniyi gözləyən 7 nəfər ölmüş, 56 nəfər yaralanmışdı. Dörd nəfər türk diplomatı isə ABŞ-da öldürülmüşdü.[177] 1975-ci il oktyabrın 22-də Venada 3 nəfər silahlı cani Türkiyə səfirliyinin binasına daxil olaraq səfir Daniş Turalidcanı, oktyabrın 24-də Fransada Türkiyə səfiri İsmail Erəzi və onun sürücüsü Qalip Enəri səfirlik binasına yaxın məsafədə maşında öldürmüşdülər.[178] 1976-cı il fevralın 16-da Beyrutda (Livanda) Türkiyə səfirliyinin birinci katibi Oktar Sirit qətlə yetirildi, 1976-cı il mayın 17-də Almaniya Federativ Respublikasının 3 şəhərində, mayın 28-də İsveçrədə Türkiyə səfirliklərində partlayışlar törədildi. Belə

partlayışların ən dəhşətlisi 1977-ci il mayın 29-da İstanbulda aeroportda təşkil edildi. Nəticədə 5 nəfər həlak oldu, 42 nəfər yaralandı. Həmin gün İstanbul vağzalında da partlayış törədildi. Nəticədə burada bir nəfər həlak oldu və 10 nəfər yaralandı. Həmin vaxtda Afinaya telefonla daxil olan ünvansız məlumata görə özlərini «28 may adına erməni təşkilatı» adlandıranlar göstərilən partlayışların məsuliyyətini öz üzərlərinə götürdülər.[179]

Erməni terrorçuluğunun artmasında, qisasçılığı əsas platforma kimi qəbul etmiş ASALA («Ermənistanın azad edilməsi uğrunda erməni gizli ordusu») təşkilatı xüsusi rol oynamışdır. 1975-ci ildə yaranan bu təşkilat ABŞ, Türkiyə və Livanda terror aktları törətmişdi. Bu təşkilat 1979-cu ilin noyabrında Madriddə, həmin ilin dekabrında Londonda partlayışlar törətmiş, həmin il Parisdə isə iki nəfər türk vətəndaşını qətlə yetirmişdi. 1982-ci ilin iyul ayında Los-Ancelos aeroportunda Kanada Hava Yolları şirkətinin binasında partlayış törətmək cəhdi, avqust ayında Ankara aeroportunda 7 nəfərin öldürülməsi, 1983-cü ilin iyulunda Parisdə Türkiyə Hava Yolları şirkətinin binasında partlayış hadisələri məhz bu təşkilatın fəaliyyəti nəticəsidir. ASALA-nın mühüm vəzifələrindən biri Avropada bir sıra terrorçuluq aktlarını həyata keçirmək yolu ilə Türkiyə ilə onun müttəfiqləri arasında gərginliyi artırmaq və Türkiyəni iflic vəziyyətinə salmaqdan ibarət olmuşdur. Təşkilatın yaradıcılarından olan Akop Akopyan göstərirdi ki, biz Türkiyəyə iqtisadi və hərbi cəhətdən yardım göstərən dövlətlərin hamısını özümüzə düşmən hesab edirik.

ASALA-nın ziddiyyətli platforması onun 1983-cü ildə parçalanmasına səbəb oldu. Akopyana qarşı çıxan «ASALA» – «İnqilabi hərəkat» və Avropa qrupuna parçalandı. Yeni qrup fəaliyyətinin əsasını türklərə qarşı mübarizəyə yönəltdi. Bununla bərabər hər iki qrup arasında daha kəskin ziddiyyətlər əmələ gəldi. Erməni hərəkatının bəzi üzvləri Suriyanı ASALA – inqilabi hərəkatına – yəni Mont-Melkonyanın

başçılıq etdiyi yeni qrupa köməklik göstərməkdə və eləcə də 1988-ci ildə Afinada A.Akopyanın öldürülməsində təqsirləndirdilər.[180]

Lakin ASALA yeganə erməni terror təşkilatı deyildir. O, öz sıralarına daşnak partiyasından xeyli gənci cəlb edərək özünün bütövlüyünü saxlamaqdan ötrü «Erməni İnqilabi Ordu»suna daxil olan «İntiqam» qrupunu yaratdı. Lakin bu qrup bir sıra terror aktları həyata keçirdisə də «İntiqam Erməni İnqilab Ordusu (EİO)» daşnak partiyasının gizli qanadı olduğuna görə ASALA kimi geniş fəaliyyət göstərə bilmədi. Bütün terrorçu erməni təşkilatlarının fəaliyyətinin əsas məqsədi Ermənistana xidmət, «Böyük Ermənistan»ın yaradılması ideyasını reallaşdırmaq idi.

Terrorizm erməni caniləri tərəfindən sonrakı illərdə də müntəzəm olaraq həyata keçirilmişdir. Belə bir vəziyyətlə əlaqədar olaraq ABŞ prezidenti Reyqan 1983-cü ilin 28 iyulunda verdiyi bəyanatında bildirmişdi ki, dünən (yəni 27 iyulda) Lissabonda (Portuqaliyada) Türkiyə səfirinə edilən suiqəsd növbəti qəddarlıq, cəlladlıqdır. Bu qəsdə görə «Erməni İnqilabi Ordusu» təşkilatı böyük məsuliyyət daşıyır. Törədilən qəsdin nəticəsində səfirin arvadı ölmüş, uşağı isə ağır yaralanmışdı. Prezident bildirmişdi ki, bu hadisədən iki həftə qabaq Türkiyə səfiri evdən çıxarkən Brüsseldə öldürülmüşdü. Bir gün əvvəl isə Parisdə aeroportda təyyarəyə minik gözlənilən vaxt 7 nəfər türk öldürülmüşdü. Bu gün heç bir inciklik belə vəhşiliyə bəraət qazandıra bilməz. ABŞ hökuməti və xalqı adından günahsız olaraq öldürülənlərə görə Türkiyə hökumətinə və onların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Ancaq başsağlığı kifayət deyil. Bu mənasız qəddarlıq dayandırılmalıdır. Mən bu günlərdə başqa dövlət rəhbərləri ilə təcili tədbirlər görülməsi haqqında söhbət aparacağam ki, insanlıqdan kənar vəhşiliklərə son qoyulsun.[181]

Lakin vəhşiliyi özlərinin amalına çevirmiş erməni terrorçuları üçün dövlət xadimlərinin rəyi təsiredici amil

deyildi. Qəddarlıq onlar üçün adi hal idi. Günahsız insanların məhv edilməsi kimi ən dəhşətli hərəkətdən çəkinmək əvəzinə, hətta buna bəraət qazandıran erməni liderləri də var idi. Buna misal olaraq Mister Paşayanı göstərmək olar. 1985-ci il 12 dekabr tarixli ABŞ palatasının iclasının stenoqramından məlum olur ki, burada çıxış edən Paşayan bildirmişdi ki, 50 il ərzində terrorizm olmamışdır. Nə üçün uzun müddətdən sonra bu yenidən meydana çıxdı. Çünki ədalət bu günə kimi inkar olunur. Ona görə də 1922-1923-cü illərdə Türkiyə respublika elan olunduqdan sonra Türkiyə hökuməti əvvəlki hökumətin etdiyini etiraf etməkdən imtina etdi. Mən hər cürə terrorizmi və xüsusilə erməni terrorizmini məzəmmət edirəm. Lakin bununla bərabər mən deməliyəm ki, nə qədər ki, bunun səbəbi inkar edilir, yenə də alov üçün yanacaq olacaq.

Terrorçuluğun təhlükəli hərəkət olduğunu bildirən ABŞ Dövlət katibi Corc Şults 4 avqust 1987-ci il tarixli məktubunda ABŞ Konqresi Palatasının bütün nümayəndələrinə yazmışdı: Erməni terrorçuları 1975-ci ildən bəri 45 nəfərdən artıq türk səfirini öldürmüşlər. Mən əminəm ki, biz hamımız beynəlxalq terrorçuluqla mübarizə aparmalıyıq.[182]

Təəssüf ki, beynəlxalq aləmdə erməni canilərinin bu qanlı cinayətlərinin qarşısı alınmadı. Onlar öz terrorçuluqlarını indi də davam etdirməkdədirlər.

Daşnak partiyasının liderlərindən biri Kaçaznuni hələ 1923-cü ildə yazmışdır ki, bundan sonra daşnaklar səhnədən çəkilməlidir. Onların əməllərini erməni bolşevikləri həyata keçirəcəklər.[183] Kaçaznuninin bu sözü sonrakı illərdə – Sovet quruluşu şəraitində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə təsdiq olundu.

III FƏSİL

1. Əhməd İsayev. Qeyrət və hünər tarixi. «Azərbaycan» qəz. 22 may 2003.
2. Yenə orada.
3. «Kommunist» qəz. 12 may 1920.
4. Yenə orada.
5. Azərbaycan Respublikası Dövlət Tarixi Arxivi (DTA), f. 410, s. 2, qov. 69, vər. 187.
6. Azərbaycan Respublikası DSPİHA. f. 276, s. 9, qov. 38, vər. 8.
7. D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz. 26 may 1992.
8. Yenə orada.
9. C.B.Quliyev. Göstərilən məqalə. «Respublika» qəz. 1 may, 1996.
10. Azərbaycan Respublikası DSPİHA. f. 276, s. 7, qov. 130, vər. 31.
11. İ.Əliyev. Göstərilən əsəri, səh. 90.
12. Yenə orada.
13. Azərbaycan Respublikası DSPİHA. f. 276, s. 7, qov. 130, vər. 131.
14. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР 1918-1925 г. səh. 50.
15. Azərbaycan Respublikası DSPİHA. f. 1, s. 74, qov. 10, vər. 13.
16. Yenə orada, f. 276, s. 7, qov. 130, vər. 48.
17. C.B.Quliyev. Göstərilən məqalə. «Respublika» qəzeti, 1 may 1996.
18. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989, səh. 32.
19. T.Köçərli. Göstərilən məqalə. «İqtisadiyyat» qəz. 5-14 dekabr 1999.

20. C.Quliyev. Tariximizin N.Nərimanov həqiqəti. «Respublika» qəz. 1 may 1996.

21. T.Köçərli. Göstərilən məqalə. «İqtisadiyyat» qəz. 16-23 dekabr 1999.

22. К истории НКАО Азербайджанской ССР. Документы и материалы. Баку, 1989, səh. 33-34.

23. Yenə orada, səh. 35.

24. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (Документы и материалы). Баку, 1998, səh. 384.

25. T.Köçərli. Göstərilən məqalə. «Bakı» qəz. 18 iyul 1997.

26. Л.Хуршудян. Истина – единственный критерий исторической науки. Ереван, 1989, səh. 18.

27. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlamenti. II cild, Bakı 1998, səh. 810.

28. Naxçıvan Muxtar Respublikası, Bakı, 2001, səh. 93.

29. Azərbaycan Respublikası DSPİHA. f. 276, s.7, qov. 120, vər. 46.

30. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР 1918-1925 гг. səh. 29.

31. Yenə orada.

32. V.Qurko-Krəjin. Göstərilən əsəri, səh. 12.

33. Yenə orada, səh. 13.

34. C.Arslanoğlu. Göstərilən məqalə. «Xəzər» jurnalı, № 3, 1990, səh. 67.

35. В.Гурко-Кряжин. Göstərilən əsəri, səh. 14.

36. E.İsmayılov, C.Həsənov, T.Qaffarov. Göstərilən əsər, səh. 127.

37. C.B.Quliyev. Göstərilən əsəri, Bakı, 1972, səh. 123.

38. «Бакинский рабочий» qəz. 20 dekabr 1920.

39. А.Акопян. Göstərilən əsəri, səh. 172.

40. «Ayna» qəz. 26 dekabr 1998.

41. Примения в единой семье народов СССР. Ереван, 1972, səh. 13.

42. C.B.Quliyev. Göstərilən məqalə. «Respublika» qəz. 1 may 1996.
43. Yenə orada.
44. Собрание декретов и Приказов Армении. Вып. II, Ереван, 1923, səh. 62.
45. Naxçıvan Muxtar Respublikası. Bakı, 2001, səh. 10.
46. «Kommunist» qəzeti, 2 dekabr 1920.
47. A.Mansurov. Göstərilən əsəri, səh. 138.
48. Западная Армения в годы Первой Мировой войны. Ереван, 1971, səh. 451.
49. Ş.Məmmədov, H.Cəfərov. İ.Hacıyev. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 8-9, avqust-sentyabr, 1990, səh. 175.
50. A.Mansurov. Göstərilən əsəri, səh. 157.
51. Yenə orada, s. 172.
52. İ.Əliyev. Göstərilən əsəri, səh. 38.
53. C.B.Quliyev. Göstərilən məqalə, «Бакинский Рабочий», 26 aprel 1994.
54. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 74, qov. 123, vər. 88.
55. Yenə orada, vər. 64.
56. C.B.Quliyev. Göstərilən məqalə. «Respublika» qəz. 1 may 1996.
57. C.B.Quliyev. Göstərilən məqalə. «Бакинский Рабочий», qəz. 26 aprel 1994.
58. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 125, qov. 107, vər. 107.
59. Yenə orada.
60. Конфликт в Нагорном Карабахе. Баку, 1990, səh. 38.
61. В.А.Парсамян, С.А.Погосян, Ш.Р.Арутюнян. История армянского народа. Армугпедгиз, 1962, səh. 158.
62. Конфликт в Нагорном Карабахе. Баку, 1990, səh. 38.
63. Azərbaycan Respublika DTA, f. 379, s. 1, qov. 7481, vər. 14.
64. Yenə orada.

65. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 74, qov. 123, vər. 110.
66. Yenə orada, f. 276, s. 7, qov. 130, vər. 29.
67. Yenə orada, f. 1, s. 74, qov. 123, vər. 90.
68. Yenə orada, vər. 100.
69. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР 1918-1925 гг, s. 127.
70. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 74, qov. 129, vər. 40.
71. Yenə orada, s. 85, qov. 215, vər. 141.
72. Yenə orada, s. 74, qov. 129 və 164.
73. Azərbaycan Respublikası DTA, f. 379, s. 3, qov. 87, vər. 10.
74. İ.Əliyev. Göstərilən əsəri, səh. 97.
75. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 331, qov. 22, vər. 29.
76. «Бакинский рабочий» qəz. 19 iyul 1923.
77. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР 1918-1925 гг, səh. 16.
78. C.B.Quliyev. Göstərilən məqalə, «Бакинский рабочий» qəz. 26 aprel 1994.
79. Yenə orada.
80. C.B.Quliyev.Göstərilən məqalə, «Respublika» qəz. 1 may 1996.
81. D.P.Quliyev.Göstərilən məqalə, «Həyat» qəz. 26 may 1992.
82. C.B.Quliyev.Göstərilən məqalə, «Respublika» qəz. 1 may 1996.
83. E.İsmayılov, C.Həsənov, T.Qaffarov. Göstərilən əsər, səh. 55.
84. C.B.Quliyev.Göstərilən məqalə, «Respublika» qəz. 24 aprel 1996.
85. «Pravda» qəz. 4 dekabr 1920.
86. Г.К.Орджоникидзе. Статьи и речи. М., т. 1, 1956, səh. 140-141.

87. D.P.Quliyev. Göstərilən məqalə. «Həyat» qəz. 26 may 1992.
88. A.N.Hacıyev. 1918-1920-ci illər Araz-Türk Respublikası, «Ayna» qəz. 15 iyun 1996.
89. S.Sadıqov. Həqiqəti bilməli. «Azərbaycan kommunisti» jurnalı, № 11, 1990, səh. 74.
90. Yenə orada.
91. Yenə orada.
92. Yenə orada.
93. «Бакинский рабочий» qəz. 9 avqust 1925.
94. A.Mansurov. Göstərilən əsəri, s. 90-94.
95. Azərbaycan Respublikası DTA. f. 379, s. 1, qov. 2176, vər. 90.
96. Yenə orada.
97. S.Sadıqov. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 11, noyabr 1990, səh. 78.
98. K.Rəhimov. Bir daha yaşamaq strategiyası haqqında. «Azərbaycan kommunisti» jurnalı, № 5, may 1991, səh. 20.
99. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 55, qov. 68, vər. 18-19.
100. K.Rəhimov. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 5, 1991, səh. 19.
101. İ.Musayev. Göstərilən əsəri, səh. 296.
102. E.İsmayılov, C.Həsənov, T.Qaffarov. Azərbaycan tarixi, 11-ci sinif üçün dərslik, Bakı, 1995, səh. 160.
103. Əli Əliyev. Göstərilən əsər. Bakı, 1997, səh. 42.
104. Vidadi İsayev. Göstərilən əsər, səh. 85.
105. Azərbaycan Dövlət DSPİHA, f. 1, s. 169, qov. 249, vər. 16.
106. Yenə orada, vər. 204.
107. C.Həsənov. Göstərilən əsəri, 1991, səh. 132.
108. Azərbaycan DSPİHA, f. 1, s. 169, qov. 249, vər. 3.
109. Yenə orada, vər. 4-17.
110. Yenə orada, vər. 321.

111. Yenə orada vər. 45-46.
112. Yenə orada, vər. 14.
113. S.Sadıqov. Göstərilən məqalə. «Azərbaycan kommunisti» jurnalı, № 11, noyabr 1990, səh. 79.
114. Ю.Помпеев. Юдельные дни. С.Петербург, 1993, səh. 90.
115. Talıb Musayev. Ermənistan türklərinin odisseyası. «Xalq» qəz. 3 iyul, 1997.
116. «Yeni səda» qəz. 6 aprel 1996.
117. Yenə orada.
118. Teyyub Qurban. Mircəfər Bağırov haqqında gizlədilmiş həqiqətlər. «Həftə» qəz. № 39, 1999.
119. Yenə orada, № 40.
120. Yenə orada.
121. Azərbaycanın süqutuna üç cəhd olub. «Yeni Azərbaycan» qəz. 6 aprel, 2003.
122. Yenə orada.
123. Yenə orada.
124. Azərbaycan Respublikası DSPİHA, f. 276, s. 7, qov. 130, vər. 2.
125. Yenə orada.
126. Yenə orada, vər. 3-4.
127. Yenə orada, vər. 4.
128. Yenə orada, vər. 5.
129. Yenə orada, vər. 6.
130. Yenə orada.
131. Yenə orada, vər. 14.
132. Yenə orada, f. 1, s. 85, qov. 489, vər. 269.
133. «Kommunist» qəz. 25 iyul 1948.
134. Yenə orada, 28 yanvar 1949.
135. Yenə orada, 29 yanvar 1949.
136. Yenə orada, 30 yanvar 1949.
137. Yenə orada, 5 mart 1949.
138. S.Əsədov. Göstərilən əsər, Bakı, 1995, səh. 51.
139. Azərbaycan Respublikası DSPİHA. f. 1, s. 85, qov. 489, vər. 93.

140. Yenə orada, s. 206, qov. 99, vər. 5.
141. A.Paşayev. Arxivlərimiz: «məxfi» qrifi götürülmüşdür. «Azərbaycan kommunisti» jurnalı, 1990, № 4-5, səh. 167.
142. F.Köçərli. Görkəmli humanist və beynəlmiləlçi. «Azərbaycan kommunisti» jurnalı, № 4-5, 1990, səh. 91.
143. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 206, qov. 100, vər. 7.
144. A.Paşayev. Göstərilən əsəri, səh. 8.
145. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 206, qov. 130, vər. 23.
146. A.Paşayev. Göstərilən əsəri, səh. 30.
147. Yenə orada.
148. Azərbaycan Respublikası DSPİHA, f. 1, s. 233, qov. 4, vər. 12.
149. Yenə orada, vər. 13.
150. Yenə orada, vər. 14-15.
151. «Bakı» qəz. 15 noyabr 1990.
152. Ю.Помпеев. Göstərilən əsəri, 1993, səh. 90.
153. Flora Xəlilzadə. Bəşər tarixində rolu olmayan Ermənistan. «Azərbaycan» qəz. 31 mart 2001.
154. Ю.Помпеев. Göstərilən əsər. S.Peterburq, 1993, səh. 90.
155. T.Musayev. Göstərilən məqalə. «Xalq» qəz. 3 iyul.
156. Yenə orada.
157. «Azərbaycan» qəz. 2 iyul 1998.
158. S.Əsədov. Göstərilən əsəri, səh. 54.
159. Ю.Помпеев. Göstərilən əsər. S.Peterburq, 1993, səh. 91.
160. Əli Əliyev. Göstərilən əsər, səh. 182-183.
161. Ю.Помпеев. Göstərilən əsəri, 1992, səh. 17.
162. Yusif Qazıyev. Qondarma «erməni soyqırımı» mifi «Böyük Ermənistan» xülyasına xidmət edir. «Azərbaycan» qəz. 14 iyun 2001.
163. Əziz Ələkbərli. Göstərilən əsər, səh. 97.
164. Vidadi İsayev. Göstərilən əsər, səh. 117.
165. F.Yusifzadə. Bəs həqiqət haradadır? «Azərbaycan kommunisti» jurnalı, № 10, oktyabr 1990, səh. 85.
166. S.Əsədov. Göstərilən əsəri, səh. 395.

167. Səbahəddin Eloğlu. Göstərilən əsəri, səh. 3.
168. S.Əsədov. Göstərilən əsəri, səh. 57.
169. Rəşad Məcidov. Qaragöl, yoxsa Sevlic? «Elm və həyat» jurnalı, № 12, 1989, səh. 10.
170. Yenə orada, səh. 11.
171. Yenə orada, səh. 12.
172. Telman Haqverdiyev. Erməni təcavüzkarlığının bir epizodu. «525-ci qəzet», 25 may 2001.
173. Ю.Помпеев. Göstərilən əsər. 1992, səh. 92.
174. Армянский геноцид: Миф и реальность. Баку, 1992, səh. 115.
175. Yenə orada, səh. 113.
176. Yenə orada, səh. 144.
177. Yenə orada, səh. 209.
178. Yenə orada, səh. 146.
179. Yenə orada, səh. 147.
180. «Erməni siyasi zorakılığı», «Ayna» qəz. 30 dekabr, 1995.
181. Армянский геноцид: Миф и реальность. Баку, 1992, səh. 187.
182. Yenə orada, səh. 316.
183. Ов. Качазнуни. Göstərilən əsəri, səh. 82.

IV FƏSİL

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI HƏRBİ TƏCAVÜZÜ VƏ ONUN ACI NƏTİCƏLƏRİ

Yuxarıdakı fəsillərdə qeyd edildiyi kimi, türk xalqlarına, o cümlədən azərbaycanlılara qarşı genlə keçən məkrli erməni kin və ədavət münasibəti, düşmənçiliyi, hətta Sovet hakimiyyətinin müvəffəqiyyətli inkişaf etdiyi illərdə də, açıq və ya gizli şəkildə davam etmiş və həmişə müəyyən əlverişli zaman, şərait gözləmişdir. Ermənipərəst M.Qorbaçovun Sovet İttifaqında hakimiyyətə gəlməsi, onun «yenidənqurma, aşkarlıq» siyasəti Azərbaycana qarşı erməni qərəzçiliyi kompaniyasının yenidən başlanması üçün sanki bir siqnal oldu.

1985-ci ilin yazında M.S.Qorbaçovun Sov.İKP MK Baş katibi seçilməsindən sonra onun və ölkənin bir sıra rəhbər vəzifələrində çalışanların rəğbətindən istifadə edən ermənilər «Böyük Ermənistan» yaratmaq iddialarını yenidən fəallaşdırdılar. Həmçinin də başdan-başa millətçilik ruhlu Z.Balayanın «Ocaq», «Yol» və başqa yazıları, akademik Aqambekyanın mövqeyi Qarabağ məsələsinin alovlanmasında mənfur rolunu oynadı. Zori Balayan «Ocaq» Kitabında yazırdı: «Məsafələrimiz necə də qısadır, yerimiz necə də darısqaldır. Dünyanın heç yerində bizim vəziyyətdə olanı yoxdur. Cəmi iki min kvadrat kilometrlik münbit torpağımız var, vur-tut bircə ovuc».

Balayan millətlərarası münasibətləri qızışdıran mövqeyi və çıxışları ilə Dağlıq Qarabağın Ermənistana məxsus olması haqqında əfsanəvi-saxtakar fikrini təbliğ edir. Ermənilərə kömək edilməsində Qorbaçovdan sonra B.Yeltsinə böyük ümidlər bəsləyir. Hətta ona yazdığı məktubda («Qolos Armenii» qəzetində, 16 fevral, 1991-ci ildə çap edilmişdi) bütün tarixi həqiqətləri inkar edən Balayan Dağlıq Qarabağın Ermənistan ərazisi olmasını bir daha bildirirdi.

A.Aqambekyan, Z.Balayan, S.Xanzadyan, S.Kaputikyan, Ambarsumyan və başqalarının Qarabağın ermənilərə məxsus olması haqqında uydurmalarını və «yazıq ermənilər»in ərazicə «çox sıx bir şəraitdə yaşadıqları» barədə göz yaşı tökmələrini gördükcə, istər-istəməz İ.Çavçavadzenin «Daşnakların fəryadı» əsərində (Bax: «Ulduz» jurnalı, № 10, 1989, səh. 16.) erməni ekstremist «alim»ləri haqqında dediyi fikirlər yada düşür. O, yazırdı ki, onların həyasızlığı gündən-günə artır, özlərini daha çox öyürlər, bizə qarşı ədəbsiz hərəkət edirlər. Onların özlərini şan-şöhrətli, şərəfli etmək, bizi birdəfəlik məhv etmək barədə proqramı heç yerdə bir Avropa qəzetində olduğu kimi aydın təsvir olunmamışdır. Burada o cənablar heç şeydən utanmamış, heç şeydən iyrənməmişlər. Onlar açıq-aydın elə fırıldaq və yaramazlıqları işə salmışlar ki, təkcə o fikrin özü (torpaqların Ermənistana məxsus olması – Ə.A.) istər erməni olsun, istərsə də başqası, insanı utandırıb qızartmalıdır.

Çox qəribədir ki, Dağlıq Qarabağ məsələsində keçmişdə olduğu kimi, müasir erməni tarixçilərinin tədqiqatlarında da Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olması daha böyük canfəşanlıqla «əsaslandırılmağa çalışılır».

Bu məsələdə hətta Amerika tədqiqatçısı R.Ovanesyanın və Sankt-Peterburqdan olan professor K.Qriqoryanın fikirləri biri-digərini tamamlayır. K.Qriqoryan «Rus dostlarına məktub» məqaləsində nəinki Dağlıq Qarabağı, eləcə də Naxçıvanı Azərbaycanın tərkibinə daxil edilmiş erməni torpaqları hesab edir. R.Ovanesyan həmkarını təkrar edərək yazır ki, Dağlıq Qarabağ «Böyük Ermənistan»ın şərq sahilini təşkil etmişdir və onun tərkib hissəsidir.

Azərbaycanın bir sıra vətənpərvər ziyalıları və xüsusilə tarixçi alimləri, naqis təbiətli, saxtakar erməni tarixçilərinin və Balayan, Aqambekyan və başqaları kimi ədavət hissləri ilə yaşayan ziyalılarının Dağlıq Qarabağ məsələsindəki fikirlərinə, onların saxtakar mövqeyinin ifşa edilməsinə xüsusi əmək sərf etmişlər.

Z.Bünyadov yazır: IV əsrdə öz dövlətçiliyini itirmiş ermənilər nəhayət Sovet hakimiyyətinin hədiyyə etdiyi torpaqlar hesabına Ermənistan dövlətinin yaranmasına nail oldular.[1] Deməli, göstərilən tarixi faktları inkar edən Balayan fitnəkar çağırışları ilə ermənilərı azərbaycanlıların üstünə sövq etmiş və edir. 1987-ci ildən Ermənistanın Qarabağa yiyələnmək marağı daha da artdı. Yerevandan Qarabağa müntəzəm olaraq gələn nümayəndələr ermənilər arasında geniş və fəal təbliğat işi apardılar. Onlar təşkil etdikləri yığıncaqlarda, iclaslarda söhbətlər aparıb imzalar topladılar və bununla da Qarabağ erməni əhalisini Ermənistanla birləşmək ideyası ilə zəhərlədilər.

Hətta, 1987-ci ilin oktyabr ayında Yerevanda Puşkin adına parkda «Qarabağ» Komitəsinin birinci mitinqi keçirildi. Komitənin liderləri Levon Ter-Petrosyan və İ.Muradyan olmaqla həmin mitinqdə cəmi 250 adam iştirak etmişdi.[2] Lakin iştirakçıların az olmasına baxmayaraq mitinq öz təsirini göstərdi. Burada bildirildi ki, «bizim Qarabağın» xilas edilməsi naminə ermənilər bütün çətinliklərə dözməyə hazır olmalıdır. Silva Kaputikyan bu hərəkatı kütlənin sosial fəallığı, yenidənqurmanın cücərtisi adlandırdı.

Ancaq həmin dövrdə görkəmli dövlət xadimi H.Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvü olmaqla mərkəzdə fəaliyyətini davam etdirməsi erməni millətçilərinə böyük maneə idi. Buna görə də H.Əliyevin varlığını özləri üçün tükənməz təhlükə hesab edən ermənilər onun haqqında nəinki Moskvaya və eləcə də beynəlxalq təşkilatlara, dünya birliklərinə fasiləsiz olaraq böhtanla dolu çoxlu miqdarda şikayət məktubları yazıb göndərmişlər.

Bütün erməni millətçilərinin rəyini ifadə edən İqor Muradyanın «Əliyev aradan götürülməsə, Qafqaz bizə vətən yox, məhbəs olacaq» fikrinin səslənməsi məhz ermənilərin H.Əliyevə qarşı apardıqları mübarizəni gücləndirdi və bununla da onlar H.Əliyevin Sov.İKP MK-nin 21 oktyabr tarixli (1987-ci il) plenumunda vəzifədən kənar edilməsinə

nail olduqdan sonra daha da fəallaşdılar və Dağlıq Qarabağ məsələsini açıq şəkildə irəli sürdülər. Bu məsələdə A.Aqambekyanın mövqeyi daha aydın səsləndi. Belə ki, Qarabağ hadisələri başlanmamışdan hələ üç ay əvvəl 1987-ci ilin noyabrında Parisdə «Humanite» qəzetinin 18 noyabr tarixli nömrəsində çap olunmuş A.Aqambekyanın çıxışında deyilirdi ki, DQMV Ermənistan SSR tərkibində olmalıdır. Bu haqda məsələ qaldırılıb və güman edirəm ki, yenidənqurma dövründə bu müsbət həll olunacaqdır.[4]

A.Aqambekyan Parisdə onun şərəfinə Fransa ermənilərinin təşkil etdiyi qəbuldakı çıxışında Qarabağın Ermənistanın olduğunu açıq şəkildə bildirdi və bununla da qatı erməni millətçisi olduğunu bir daha sübut etdi. O, bununla eyni zamanda tarixi həqiqətlərə yanaşmaq baxımından özünün qeyri-obyektivliyini, qərəzli mövqeyini də göstərdi. Bunu da unutmaq olmaz ki, Qarabağ ərazisinin tarixi mənbələr əsasında azərbaycanlılara məxsusluğunu sübut etməyə belə heç bir ehtiyac olmadığı halda, ermənilərə cavab vermək üçün bunu yenidən əsaslı dəlillər üzrə sübut edən Azərbaycan və dünya tarixçiləri çox olmuşdur. Lakin bütün bunları biləbilə Aqambekyan tarixi mənbələri inkar edərək saxtakarlıq mövqeyindən Qarabağın erməni ərazisi olmasını yenidən bildirmişdir.

A.Aqambekyan Parisdə yığıncaqda Qarabağ və hətta Naxçıvan haqqında verilmiş suallara cavabında məkrli halda demişdir ki, mən bu xəbəri eşidib şad olardım ki, respublikanın şimal-şərqində yerləşən Qarabağ ermənilərin olub və indi də onlara verilib. Bir iqtisadçı kimi mən belə hesab edirəm ki, Qarabağ Azərbaycana nisbətən Ermənistana daha artıq bağlıdır. Bu məsələ ilə əlaqədar mən bir təklif etmişəm. Ümid edirəm ki, yenidənqurma, demokratiya şəraitində bu problem özünün həllini tapacaqdır.[5] O, hətta çıxışının sonunda bildirmişdi ki, bu məsələ Qorbaçovla razılaşdırılıb. Əlbəttə, o vaxt bu fikrə inanmaq çətin idi. Lakin hadisələrin sonrakı gedişi və Qorbaçovun tutduğu mövqe,

1987-ci ilin noyabrında Raisa Maksimovanın ABŞ-da erməni diasporunun və «Daşnaksütyun» partiyasının nümayəndələri ilə görüşü və görüşdə ona erməni katolikosu tərəfindən bağışlanılan çox qiymətli – üstündə «Arsak» yazılmış 62 karatlı brilyant boyunbağı, sırğa, üzük və qalın kitab, həmin kitabda Muxtar Vilayət ərazisi də daxil olmaqla dənizdən-dənizə qədər əks olunmuş xəritə[6], Qorbaçovun ABŞ səfərindən yarımçıq Ermənistanda olan zəlzələ ilə əlaqədar olaraq Raisa ilə birlikdə birbaşa Yerevana gəlməsi, ardıcıllıqla ermənilərə edilən güzəştlər və s. Qorbaçovun xalqımıza xəyanətini təsdiqləyir.

Qorbaçovun ermənilərlə yaxın olmasını Balayanı, Kaputikyanı Kremldə öz köməkçisi Şahnəzərovun iştirakı ilə qəbul etməsi də təsdiq edir. Həmin görüşün təsiri ilə Qorbaçov Dağlıq Qarabağ məsələsində erməni separatçılarının saxta uydurmalarının təsiri altına düşdü. Belə münasibətlərin təsiri ilə erməni separatçıları Müstəqil Dağlıq Qarabağ Respublikası yaratmaq tələbi ilə mitinqlərə başladılar. Məsələnin həllinin uzandığını görən ermənilər «Qorbaçov-Raisa podarki! Qorbaçov-Raisa podarki! Raisa, verni podarki!» – deyə qışqırıq saldılar. Belə şəraitdə Raisa həmin qiymətli kitabı Moskvada muzeyə verməli oldu. Ancaq qara brilyantlı üzüyün taleyi açıqlanmadı və yəqin ki, üzük özündə qalmış oldu.

Belə bir münasibət erməni millətçilərinin Dağlıq Qarabağa olan ümidlərini bir qədər də artırdı. Bu vəziyyət həm də ABŞ-da olan erməni diasporunun fəallaşmasına, habelə «Daşnaksütyun» və başqa xarici siyasi partiyaların Ermənistanda Dağlıq Qarabağ məsələsinin qızışdırılmasına, xarici erməni diasporunun ABŞ-dan SSRİ hökumətinə müraciət edib ermənilərə yardım etməsini tələb etməsinə və s. öz ciddi təsirini göstərdi. Qarabağ məsələsinin qızışdırılmasında erməni kilsəsi, xüsusilə Eçmiədzin kilsəsi də böyük fəallıq göstərdi. Erməni müəlliflərindən olan Robert Arakelov yazır: Bu məqsədlə Eçmiədzin birinci növbədə xarici

erməni icmalarından, ikincisi ümumdünya Kilsə Şurasının üzvlüyündən, üçüncüsü isə Roma kilsəsinin təşəbbüsü ilə hələ 60-cı illərdə Papa XXIII İoannın dövründə birləşmə hərəkatında iştirak etməsi imkanından ətraflı istifadə etmişdi. Məhz belə imkanlar şəraitində Qarabağ məsələsi Ermənistan kilsəsinin nümayəndəsi tərəfindən Ümumdünya Kilsə şurasının Melburn (Avstraliyada) konqresində qaldırıldı və Eçmiədzinin cəhdi ilə dünya ictimaiyyətinin diqqəti ona cəlb edildi.[7] Belə imkanlar şəraitində A.Aqambekyanın açıq çıxışından erməni millətçiləri istifadə edib fəallaşdılar və bu istiqamətdə iş aparan bir sıra erməni təşkilatları, o cümlədən Moskvada olan təşkilatlar «Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi», «Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi» və s. olduqca fəallaşdılar.

Sovet quruluşunun artıq getdikcə zəiflədiyini hiss edən erməni millətçilərinin qərargahı tək Moskva deyildi və onlar dünyanın digər yerlərində də özlərinə yuva yaratmışdılar. 1985-ci ilin dekabrında Daşnaksütyun partiyasının Afinada keçirilən XXIII qurultayı «Böyük Ermənistan» uğrunda mübarizəni yenidən qüvvətləndirməyə və yaranmış əlverişli şəraitdən istifadə edərək qüvvələri birləşdirməyə səslədi. Göstərilən həmin millətçi təşkilatçıların köməyilə Dağlıq Qarabağda gizli olaraq fəaliyyət göstərən «Krunk» açıq işə başladı və bununla da Ermənistanla birləşmək hərəkatı geniş vüsət aldı və bu dəfə də iki millət arasında ədavətin ilk qurbanları Ermənistanda oldu və bununla da ziddiyyət getdikcə daha da kəskin hal aldı.

Deməli, ermənilərin əsas məqsədi erməni diasporunun, icmasının, kilsəsinin, partiya təşkilatlarının, ayrı-ayrı dövlətlərin yardımına arxalanaraq dünya ictimaiyyətində Dağlıq Qarabağ məsələsində Azərbaycan haqqında tam yanlış, təhrif olmuş rəy yaratmaq və onu geniş dairədə təbliğ etmək oldu. Buna nail olduqdan sonra isə tədricən azərbaycanlıları Ermənistandan və Dağlıq Qarabağdan çıxartmaq, Dağlıq Qarabağı zorla belə olsa da, Ermənistana birləşdirmək və

nəhayət «Böyük Ermənistan» yaratmaq haqqında niyyətlərini həyata keçirmək idi. Bunun üçün erməni liderləri hər cür fitnəkarlığa, təxribatlara, böhtana belə əl atmağa başladılar.

Ən dəhşətli təxribatların planı Sero Xanzadyanın bağ binasında hazırlanırdı. Xıdır Alovlu «Səs» qəzetinin 28 aprel 1993-cü il tarixli nömrəsində «Düşmən həqiqəti başa düşür. Amma biz...» adlı məqaləsində yazırdı: 1978-ci ildə Zori Balayanın «Ocaq» kitabının yazılması, azərbaycanlıların Ermənistandan qovulması planı da burada hazırlanmışdı. Bağda onun iki iş otağı vardır. Kiçik otaqda «Kiçik Ermənistan», böyük otaqda «Böyük Ermənistan» dövlətinin xəritələri asılmışdı. «Krunk» və «Qarabağ» təşkilatlarının üzvləri bu iblisə «hayrikcan» («atacan») deyirdilər. Deməli, Aqambekyanın Parisə gedişi də təsadüfi deyildi. Onun Parisdə Daşnakların əhatəsində verdiyi məlumat Qarabağ məsələsində planlı işin nəticəsi idi və bu tez bir zamanda xaricdə bir sıra erməni qəzetlərinin, jurnallarının əsas mövzusuna çevrildi. Bir sıra erməni təşkilatları, o cümlədən «Erməni inqilabçılarının ittifaqı», «Gənc erməni daşnakları», «Ermənistanın müdafiəsi» və s. fəallaşdılar.

O zaman ABŞ-da növbəti prezident seçkilərinə hazırlıq görülürdü. Belə bir vaxtda erməni lobbisi kənarda qalmadı. Murad Topalyan Maykl Dukakisin milli məsələ üzrə müşaviri oldu. ABŞ-da erməni icmasının rəhbəri Paryur Zorçyan Corc Buşun müdafiəçisi oldu. Digər tərəfdən Qorbaçovun köməkçisi Şaxnazarov, Nazirlər Soveti Sədrinin müavini Sitaryan və başqalarının birliyi erməni lobbisinin fəaliyyətini daha da gücləndirdi. Onlar Qarabağın guya iqtisadi çətinliyi pərdəsi altında Dağlıq Qarabağın zor tətbiq etməklə Ermənistana birləşdirilməsinə hazırlaşmağa başladılar. Bu da 1988-ci ilin əvvəlindən etibarən uzun müddətdən bəri hazırlanmış plan üzrə Stepanakertdə (Xankəndində) tətillər başlanması ilə nəticələndi.

Tətilçilərin tələbilə fevral ayının 20-də Muxtar Vilayət Sovetinin sessiyası Azərbaycanın Ali Sovetinə Vilayətin sta-

tusuna baxılması haqqında müraciət qəbul etdi.[8] Moskva bu məsələdə prinsipial mövqe tutmadı və əksinə münaqişəni daha da kəskinləşdirdi. Bu zaman Bakıya gəlmiş Sov.İKP MK siyasi bürosunun üzvü sərhədlərin dəyişdirilməsini qeyri-mümkün hesab etdiyi halda, Yerevana gedən Siyasi Büronun üzvü Yakovlev isə Vilayətdəki millətçiliyə, tətilçilərə haqq qazandırdı. O, Ermənistanda olduğu vaxtlarda «Qarabağ» alovu yeni başlanırdı. Yakovlev odu söndürməyə dair tədbirlərin görülməsi əvəzinə onu daha da alovlandırdı. Deməli, demokrat Yakovlevin də Qarabağda qan axıdılmasında tqsiri az olmamışdır.

Sovet rəhbərliyinin belə mövqeyini Sov.İKP-nin XXVIII qurultayında (1990-cı ildə) haqlı olaraq kəskin tənqid edən AKP MK-nin Birinci katibi A.Mütəllibov demişdi: «Regionumuzda yaranmış vəziyyətə gəldikdə, bir daha demək istəyirəm ki, ölkənin siyasi rəhbərliyi Muxtar Vilayət çərçivəsində öz müqəddəratını təyin etmək hərəkatı deyilən hərəkatda bütün dövlət üçün dağıdıcı separatizmin gizləndiyini görə bilməmişdir». Bununla da vilayətin mərkəzində olduqca təhlükəli və gərgin bir vəziyyət yaranmışdı. Belə vəziyyətin yaranmasında Qorbaçov rəhbərliyinin, Ermənistanın və eləcə də vilayətdə olan millətçi ermənilərin az rolu olmamışdır. Həmin millətçi ermənilərdən ictimai asayişin mühafizəsi şöbəsinin rəisi Koçaryanı, daxili işlər idarəsinin siyasi şöbəsinin rəisi Qrant Ayrapetyanı, istintaq şöbəsinin rəisi Mədətyanı, Vilayət Həmkarlar Komitəsinin sədri Sergey Dadamyanı, Daş Karxanasının direktoru Manuçarovu və başqalarını göstərmək olar (Bax: Əzim Piriyev. Yarımçıq qalmış «Ümid» əməliyyatı… Bakı, 2000, səh. 16.). Erməni separatçıları öz fəaliyyətlərini daha da genişləndirmək naminə həm də 1988-ci ilin martında DQMV-də «Krunk» cəmiyyətini yaratdılar.

Belə şəraitdə Z.Balayan və Q.Starovaytova Vilayətdə daha çox pozucu millətçilik fəaliyyəti aparırdılar. Onlar çox «ağ etdiklərinə görə» V.P.Polyaniçkonun göstərişi ilə general Safonovun hərbçiləri tərəfindən tutulub saxlanıldılar ki,

Stepanakertdən «sürgün edilsinlər». Lakin Moskvadan daxil olan əmrə əsasən general onları azad etdi və onlar öz ekstremist fəaliyyətlərini yenə də davam etdirdilər.

Lakin bu millətçi hərəkatın təşkilatçıları milli ədavətin qızışdırılmasına və ərazi iddialarını isə ört-basdır etməyə çalışdılar. Buna görə də tətillərdə gözə toz atmaq üçün iqtisadi-sosial problemlər ortaya atıldı. Guya Dağlıq Dağlıq Qarabağda yaşayan ermənilərin iqtisadi-sosial çətinlikləri var. Guya Muxtar Vilayət əməkçilərinin gündəlik tələbat malları ilə kifayət qədər təmin olunmamaları nəticəsində narazılıq başlanmışdır. Bu bir növ 1945-ci ildə Ermənistan rəhbərliyi tərəfindən əsassız olaraq irəli sürülmüş fikrin təkrarı idi.

Əlbəttə, bu, yenə də əsası olmayan böhtanlar, bəhanələr idi. Hamıya yaxşı məlum idi ki, DQMV-i Azərbaycan SSR-nin digər rayonları sırasında dinamik inkişaf edən bir diyar idi. Vilayət iqtisadi, sosial və mədəni cəhətdən müntəzəm olaraq inkişaf etdiyinə görə Sovetlər İttifaqının şəhərləri, habelə Azərbaycanın rayonları ilə sıx əməkdaşlıq edirdi. Buna misal olaraq Stepanakert və Şəki ipəkçilərinin, Stepanakert elektrotexnika zavodu ilə Kirovakan elektrik birliyi kollektivinin əlaqələrini göstərmək olar. Vilayətin Hadrut rayonu əməkçiləri uzun illərdən bəri idi ki, Ermənistan SSR-nin Gorus, Cermux, Qafan və Sisyan rayonlarının, eləcə də Riqa, Kostroma və Minsk şəhərlərinin əməkçiləri ilə Azərbaycanda Füzuli və Cəbrayıl rayonları zəhmətkeşləri ilə dostluq əlaqələri saxlayırdılar.

DQMV-nin ən böyük müəssisələrindən biri olan Qarabağ ipək kombinatı ölkənin bir çox rayonları ilə sıx əlaqə saxlayırdı. Kombinat Ukraynanın, Özbəkistanın, Tacikistanın və başqa respublikaların müxtəlif rayonlarından və vilayətlərindən xammal alırdı. Stepanakert ipəkçilərinə Çerkasssk şəhərinin ipək kombinatının əməkçiləri hər il 100 tondan artıq süni ipək göndərirdilər.

Qısaca olaraq göstərdiyimiz bu faktlar bir daha onu təsdiq edir ki, vilayətin iqtisadiyyatı müntəzəm olaraq inkişaf edirdi.

Muxtar Vilayətin əməkçilərinin gündəlik tələbat malları ilə təmin olunması məsələsinə gəldikdə bu da normal vəziyyətdə idi. Məsələn, Stepanakertdə hər sakinə ildə 12 kiloqramdan çox yağ düşürdü. Halbuki, bu rəqəm Əli-Bayramlı üzrə 10 kiloqram, Sumqayıt üzrə 10,6 kiloqram, Kirovabad üzrə 10,5 kiloqram idi. Adambaşına süd və ət istehsalı üzrə Stepanakert yalnız respublikanın paytaxtı Bakıdan geri qalırdı.[9] Bütün bunlardan əlavə dəmir yolu, elektrik xətləri, qaz kəmərləri və s. vilayət zəhmətkeşlərinin tələbatının yaxşılaşmasında xüsusi rol oynayırdı. Mühüm sosial sahələrdən biri olan səhiyyə sahəsində də vilayətin vəziyyəti pis deyildi. Məlum olduğu kimi DQMV-də respublika əhalisinin cəmi 2,7 faizi yaşayırdı. Lakin Azərbaycanda mövcud olan qadın məsləhətxana və xəstəxanaların 3,6 faizi bu vilayətdə fəaliyyət göstərirdi.[10] Muxtar vilayət orta pillə tibb işçiləri ilə təminat cəhətdən yüksək səviyyədə idi. Belə ki, respublika əhalisinin hər 10 min nəfərinə düşən orta pillə tibb işçilərinin sayı 93,5 nəfər olduğu halda, bu Dağlıq Qarabağda 122,7 nəfər idi. Əgər 1913-cü ildə bütün Dağlıq Qarabağda iki həkim var idisə, hazırda vilayətdə 200 müalicə-profilaktika müəssisəsi fəaliyyət göstərir. Adamların sağlamlığı keşiyində 2500-dən çox həkim və tibb işçiləri dururdu.[11]

Mənzil sahəsində də vilayətdə vəziyyət pis deyildi. SSRİ Nazirlər Sovetinin sosial inkişaf şurası üzrə Bürosu sədrinin birinci müavini Vladimir Laxtin «İzvestiya»nın 25 mart 1988-ci il tarixli nömrəsində bildirmişdi ki, Dağlıq Qarabağ Vilayəti mənzillə təchizat sahəsində Azərbaycanın digər yerlərini orta hesabla 1,4 dəfə geridə qoyur. Başqa sahələrdə də vilayətdə vəziyyət hər iki ittifaq respublikalarından yaxşıdır.[12]

Bu həqiqətə dözə bilməyən Z.Balayan və vilayətin yeni katibi Q.Poqosyan həmin anda redaksiyaya gəlib bildirmişdilər ki, köhnə metodlarla işləmək olmaz.

Həqiqətən də sosial-iqtisadi inkişafın bir sıra sahələrində DQMV-i nəinki Azərbaycanı, eləcə də Ermənistanı qabaqlayırdı. Ermənistan SSR ilə müqayisədə Dağlıq Qarabağda hər 10 min adama 15 xəstəxana çarpayısı, 9 kitabxana, 11 klub, 8 kino qurğusu düşürdü. Dağlıq Qarabağda adambaşına Ermənistandakından bir kvadratmetr çox mənzil sahəsi düşürdü.[13]

Bundan əlavə son üç beşillik ərzində Dağlıq Qarabağda Stepanakert dəmiryolu stansiyası, təyyarə limanı, su anbarı, elektrotexniki və kondesator zavodları tikilmiş, ayaqqabı və mebel fabrikləri, süd və ət kombinatları istifadəyə verilmişdi.[14] Vilayətin tikinti materialları kombinatının direktoru A.M.Manuçarov bu münasibətlə demişdi ki, son 10 il ərzində istehsal səviyyəsi 10 dfə artmış, əmək məhsuldarlığı 4,7 dəfə çoxalmış, fəhlələrin əmək haqqı 140 manatdan 340 manata qalxmışdır.[15] Bunlarla bərabər yeni mağazalar, pioner düşərgələri, sanatoriyalar, klub, idman meydançaları tikilib istifadəyə verilmişdi.

Faktlarla hesablaşmayan ermənilər bütün dünyada Azərbaycan xalqına qarşı böhtan kompaniyasına başladılar. Onlar uydurma iftiralardan ibarət hazırlanmış mətnlər toplayır, onlara çoxsaylı yalan, saxta imzalar əlavə edərək ölkənin ali orqanlarına məktublar, ərizələr, müraciətlər şəklində göndərmişdilər.

Həmin saxtalığı faktlarla ifşa edən akademik Z.Səmədzadənin təhlili maraq doğurur. Ölkənin ali orqanlarına göndərilən ərizədə göstərilən 216 imzadan yalnız 21 imzanın Vilayət ərazisində yaşayan adamlara məxsus olması müəyyən edilmişdi. Hadrut rayonunun Sakur kəndində 9 ev olduğu halda müraciətdə 16 imzanın, Arpaqyaduk kəndində 3 ev olduğu halda 25 imzanın olması[16] faktları erməni millətçilərinin saxtalığını ifşa edir. Bunu da etiraf etmək lazımdır ki, adambaşına düşən sənaye məhsullarının həcminə görə DQMV-i respublikanın digər regionları arasında birinci yerə çıxmışdı. Vilayət rəhbərliyinə gəldikdə isə onun sosial

ədalətsizliyi açıq şəkildə özünü göstərir. Erməni kəndlərinin 30 faizi məktəbəqədər uşaq müəssisələri ilə təmin edildiyi halda, azərbaycanlıların yaşadığı kəndlərin cəmi 12 faizində belə müəssisələr olmuşdur.

Azərbaycanlı və erməni kəndlərinin məktəb, mədəni-maarif müəssisələri, xəstəxana, bədən tərbiyəsi və idman obyektləri ilə təminatında da fərqlər vardır. Belə obyektlər azərbaycanlı kəndlərində 24 faiz, erməni kəndlərində 48 faiz, rabitə idarələri azərbaycanlı kəndlərində 39 faiz, erməni kəndlərində 66 faizi təşkil etmişdir.[17]

Faktlar təsdiq edir ki, DQMV Azərbaycan SSR-in digər rayonları sırasında dinamik inkişaf edən bir diyar idi. DQMV-nin 60 illiyi ilə əlaqədar olaraq Azərbaycan KP DQV Komitəsinin Birinci katibi B.S.Kevorkov 3 noyabr 1983-cü il tarixli «Kommunist» qəzetində yazmışdı: DQMV-nin təşkil edildiyi ilə nisbətən 1983-cü il yanvarın 1-dək sənaye istehsalının həcmi 912 dəfə artmışdı. Bu gün DQ-ın kənd təsərrüfatı muxtar vilayət iqtisadiyyatının yüksək dərəcədə inkişaf etmiş bölməsidir. Onuncu beşillikdə DQMV-də kənd təsərrüfatı istehsalının orta illik artımı planda nəzərdə tutulan 20,5 faiz əvəzinə 49,7 faiz olmuş, əmək məhsuldarlığı 15,6 faiz əvəzinə 47,3 faiz yüksəlmişdir.

Belə olan halda vilayətin iqtisadi-sosial problemləri vardır, demək nə qədər yalan və iftiradır. Bütün göstərilənlərlə bərabər erməni millətçilərinə onu da xatırlatmaq lazım gəlir ki, Azərbaycanda ermənilərə geniş imkan və hüquqlar verilmişdi. Onlar respublikanın iqtisadi və siyasi həyatının müxtəlif sahələrində yüksək vəzifələrlə təmin edilmişdilər. Azərbaycan Ali Sovetinin 29 deputatı erməni millətinin nümayəndəsi idi.[18] Azərbaycan KP MK-də 61 nəfər erməni müxtəlif vəzifələrdə çalışırdı. Minlərlə erməni Azərbaycan SSR Nazirlər Sovetində, Dövlət Plan Komitəsində, müxtəlif nazirliklərdə, Şəhər Partiya Komitəsində, Bakı Sovetində, Daxili İşlər Nazirliyində, Milli Təhlükəsizlik Nazirliyində və b.

yerlərdə işləyirdilər.[19] Halbuki Ermənistanda azərbaycanlılara belə vəzifələr verilməsindən söhbət gedə bilməzdi.

Bunlardan əlavə Stepanakertdə pedaqoji institut, sovxoz-texnikum, tibbi, musiqi, orta texniki məktəb, tarix muzeyi, dram teatrı, konsert zalı və s. ilə bərabər, Azərbaycanda yaşayan ermənilərdən 27 nəfərinə Sosialist Əməyi qəhrəmanı, 10 nəfərinə Azərbaycan xalq artisti, Atayan İvana isə SSRİ xalq müəllimi adı verilməsi faktları ermənilər üçün yaradılan şəraitdən xəbər verir.

1988-ci il hadisələrinə qədər Bakıda olan institutlarda erməni milləti gənclərinə də təhsil almaqda geniş imkanlar yaradılmışdı. Professor Tofiq Quliyevin haqlı olaraq yazdığı kimi Azərbaycan Dövlət Universitetində 800-ə qədər, Tibb İnstitutunda 600-ə qədər, keçmiş Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) 400-ə qədər, Neft-Kimya İnstitutunda 1000-ə qədər tələbə təhsil aldığı halda, həmin dövrdə Ermənistanda cəmi 70 nəfər azərbaycanlı tələbə oxuyurdu.[20]

Bütün bunlardan əlavə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında» qərarı vilayətdə sosial-iqtisadi vəziyyətin daha da yaxşılaşdırılmasına yönəldilMişdi.

Erməni kadrlarına olan faktlar və yaradılan şərait onu göstərir ki, belə münasibət şəraitində vilayətdə o qədər də çətin sosial-iqtisadi problem yox idi. Ancaq buna baxmayaraq ermənilər məhz həqiqəti gizlədib sosial-iqtisadi problem pərdəsi altında öz çirkin əməllərini davam etdirməyə və bununla da Qarabağda vəziyyəti gərginləşdirməyə başladılar. Hadisələr 1988-ci ilin yanvarında heç bir səbəb olmadan Mardakert (Ağdərə) rayonundakı Sırxavənd kəndində bir qrup azərbaycanlı gəncin rayon mərkəzində ermənilər tərəfindən döyülməsi ilə başlandı. Səbəbini onunla «izah» etmişdilər ki, bura erməni rayonudur, biz türklərə xidmət etmirik. 1988-ci ilin fevralında isə Stepanakertdə millətçilər

getdikcə fəallaşdılar və onların təsiri altında 1988-ci il fevralın 13-də Stepanakertdə birinci mitinq keçirildi. On minlərlə adamın iştirak etdiyi həmin mitinqdə vilayətin Ermənistanla birləşdirilməsi tələb edildi.[21] Mitinqdə Sovet hökuməti və partiya ünvanına çıxışlar oldu, partiya və komsomol biletləri cırılıb atıldı, küçələrdə faşist nişanları nümayiş etdirildi. Hadisələrin gedişinə nəzər saldıqda Sov.İKP MK yanvar (1987-ci il) plenumunda deyilənlər yada düşür. Plenumda deyilmişdi ki, müxtəlif respublikaların qonşu rayonları və ya vilayətləri arasında münasibətlərdə vaxtaşırı anlaşılmazlıqlar meydana çıxır. Bəzən onlar mübahisələrə çevrilir, mübahisələr də bir çox hallarda çəkişmələrə aparıb çıxarır. Partiya və sovet orqanlarının rəhbərləri isə ehtirasların qarşısını almaq və ya onları yatırtmaq əvəzinə prinsipial tədbirlər görməkdən yaxalarını kənara çəkirlər. Plenumda deyilmiş bu sözləri hər kəsdən qabaq Qorbaçova aid hesab etmək olardı.

Əgər həqiqətdə də münasibətlərdə təzahür edən ziddiyyətlərin qarşısı vaxtında alınmış olsaydı, Qarabağda faşist nişanları göstərənlər, partiya biletini cıranlar, kütləni mübarizəyə təhrik edənlər cəzalandırılsaydı, şübhəsiz, Qarabağ məsələsi uzanıb indiki faciələrə səbəb olmazdı. Deməli, bu məsələnin təhlükəli istiqaməti Qorbaçov tərəfindən cilovlanmadı. Buna görə də gündən-günə yeni tədbirlərə əl atan ermənilər öz avantürist siyasətlərini davam etdirməyə imkan tapdılar.

1988-ci il fevralın 20-də Vilayət sovetinin deputatları növbədənkənar sessiyada (azərbaycanlı deputatlar istisna olmaqla) Qarabağ vilayətinin Azərbaycan tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə daxil olmasına səs verdilər. Müvafiq müraciətnamə ilə birlikdə qərar Bakı, Yerevan və Moskvaya Ali Sovetə göndərildi. Lakin cavabı gözləmədən vilayətdə bayraqlar, təşkilatların adları və s. dəyişdirildi. Yenidən imzalar toplandı, Moskvaya təcili nümayəndələr göndərildi. Məqsəd Dağlıq Qarabağın Ermənistanla birləşməsinə nail olmaq idi. Hətta belə şaiyə yaydılar ki, Moskva

razıdır, ancaq cəsarətlə hərəkət etmək lazımdır. Yazıçı Sero Xanzadyan bildirdi ki, Qarabağ bizim olmasa, bizə heç bir yenidənqurma lazım deyil.

Muxtar Vilayətin növbədənkənar sessiyasında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qəbul edilmiş qərardan həyəcanlanan Azərbaycan xalqı, birinci növbədə ağdamlılar fevralın 22 və 23-də ayağa qalxdılar və Stepanakertə doğru hərəkət etdilər. Xalqın ədalətli hərəkatına kömək etmək əvəzinə, respublika rəhbərliyi bunun qarşısını almaq tədbiri gördü, hüquq mühafizə orqanlarının əməkdaşlarını Ağdam rayonuna göndərdi və ayağa qalxan xalqı susdurdu.

Erməni millətçilərinin təqsiri üzündən Dağlıq Qarabağda baş verən hadisələr ərazi iddiası millətlərarası münasibətləri, ziddiyyətləri daha da kəskinləşdirdi. Bunun yolverilməzliyi hətta Sov.İKP MK-nın plenumunun (fevral 1988-ci il) qərarında əksini tapmışdı. Qəbul edilmiş qərarda deyilirdi ki, Sov.İKP Mərkəzi Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətində hadisələr haqqında məlumatı nəzərdən keçirərək, belə hesab edir ki, mövcud milli ərazi quruluşunu dəyişdirmək məqsədi güdən hərəkətlər və tələblər Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə ziddir, millətlərarası münasibətlərə zərər vurur. Buna görə də Sov.İKP MK Azərbaycan və Ermənistan Kommunist partiyalarının MK-larına tapşırır ki, yaranmış şəraiti sağlamlaşdırmaq üçün lazımi tədbirlər görsünlər.

Bunun ardınca 1988-ci il fevralın 22-də Stepanakertdə vilayət partiya fəalları yığıncağı keçirildi. Burada vilayətdə baş vermiş mənfi halları aradan qaldırmaq sahəsində təxirəsalınmaz tədbirlər müzakirə edildi. Yığıncaqda Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov.İKP MK katibi K.P.Razumovski çıxış etdi. O demişdi: «Son vaxtlar Sov.İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və digər mərkəzi orqanların ünvanına DQMV-nin erməni əhalisinin göndərdiyi məktublarda, ərizələrdə vilayəti Ermənistan

SSR ilə birləşdirmək xahiş olunur. Dağlıq Qarabağda olan çıxışlarda da bu tələblər irəli sürülür. Deməliyəm ki, Sov.İKP MK mövcud milli-ərazi quruluşunu dəyişdirmək məqsədini güdən hərəkətləri və tələbləri Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə zidd hərəkətlər və tələblər kimi qiymətləndirir. Buna görə də Sov.İKP MK Azərbaycan KP MK bürosuna və Ermənistan KP MK bürosuna tapşırdı ki, vəziyyəti normallaşdırmaq üçün əlaqələndirilmiş lazımi tədbirlər görsünlər.[22]

1988-ci ilin fevralın 23-də DQMV PK-nin plenumu oldu. Plenum B.S.Kevorkovu guya işdə yol verdiyi nöqsanlara görə Vilayət PK-nin Birinci katibi vəzifəsindən azad etdi. H.A.Poqosyan DQMV-nin PK-nin birinci katibi seçildi. O kim idi? Ermənilər özləri deyirdilər ki, budur Kevorkovu götürdülər, yerinə isə milyoner-mafioz, Qarabağ çaxır trestinin keçmiş rəhbəri Q.Poqosyanı qoydular. O Poqosyan ki, böyük miqdarda çaxırı Rusiyaya satırdı. Yeni katib öz məramnaməsini qısa olaraq belə ifadə etmişdi: «Ola bilər ki, bir kommunist kimi Azərbaycan KP MK-ya tabe olum, lakin bir erməni kimi mən vilayətin sizin respublikadan ayrılması uğrunda mübarizə aparacağam».[23]

1988-ci il fevralın 24-də Azərbaycan Partiya fəallarının yığıncağı oldu. Yığıncaq DQMV-də vəziyyəti, yaranmış şəraitin sağlamlaşdırılması sahəsində təxirəsalınmaz tədbirləri müzakirə etdi və burada K.P.Razumovskinin çıxışı oldu. Fevralın 24-də eyni zamanda Yerevanda da respublika partiya fəallarının yığıncağı keçirildi. Burada Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq Yerevanda vəziyyəti normal hala salmaq və bu məsələ barəsində Sov.İKP MK-nın qərarını yerinə yetirmək üçün təxirəsalınmaz tədbirlər müzakirə edildi. Bakıda və Yerevanda keçirilən fəallar yığıncaqları Sov.İKP MK-nın qərarını yaranmış şəraitdə yeganə düzgün qərar kimi bəyəndilər və icra üçün qəbul etdilər.

Lakin bütün tədbirlərin erməni millətçiləri üçün heç bir əhəmiyyəti yox idi. Əksinə, ermənilərin din xadimi katolikos

Vazgen Ermənistan televiziyası ilə 25 fevral 1988-ci ildə çıxış edərək ermənilərı daha da qızışdırdı və dedi: «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini mən təbii və qanunauyğun hesab edirəm. Mən inanıram ki, Sovet hökuməti demokratikləşmə prosesində bu məsələyə çox ciddi yanaşacaq. Mən xaricdə yaşayan iki milyonluq ermənilərdən çox məktub və teleqramlar alıram, onlar bildirirlər ki, mən Sovet hökumətindən xahiş edim ki, Dağlıq Qarabağ məsələsi özünün düzgün həllini tapsın və bu həmçinin də DQMV XDS-nin qərarı əsasında demokratiya naminə həll edilsin. Mən Qorbaçova teleqram göndərərək xahiş etdim ki, həmin məsələnin həlli DQMV-də yaşayan ermənilərin xeyrinə həll edilsin. Mənim səsimi və atalıq məsləhətimi eşidin».[24]

Düzgünlükdən və ədalətdən dəm vuran Vazgenin avantürist xarakterli çıxışından bir gün sonra 26 fevral 1988-ci ildə M.S.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciəti oldu. Müraciətdə göstərilirdi: Sosialist beynəlmiləlçiliyi bizim çox böyük qüvvət mənbəyimizdir. Bizim yolumuz xalqların əsil qardaşlığı və birliyi yoludur. Azərbaycan və erməni xalqları arasındakı Sovet hakimiyyəti illəri ərzində təşəkkül tapmış dostluq ənənələrinin qədrini bilmək və onları hər vasitə ilə möhkəmləndirmək lazımdır. Yalnız bu yol SSRİ-nin bütün xalqlarının əsil mənafeyinə uyğundur.[25]

Bu müraciətin özündə də ermənilərə rəğbət duyulurdu. Ermənistan rəhbərliyinə Siz öz daxili problemlərinizlə məşğul olun, Dağlıq Qarabağ Vilayəti məsələsinə gəldikdə bu Azərbaycanın öz daxili işidir və o da həll etməlidir – cavabı daha düzgün olardı. Qorbaçovun Azərbaycana və Ermənistana həmin müraciəti bir növ Ermənistanın Vilayətin işinə qarışmaq kimi səsləndi. Deməli, Mərkəzdən ermənilərin iddiasına cavab olaraq qəti fikir söylənilmədi.

Buna baxmayaraq bu müraciət də ermənilər üçün əhəmiyyətsiz oldu. Çünki Azərbaycana qarşı ərazi iddiasından əvvəl ermənilərin azərbaycanlılara qarşı düşmənçilik ruhunda tərbiyəsi həyata keçirilmişdir. Ona görə də 1988-ci ilin

fevralında daxildə və xaricdə bütün qüvvələrini səfərbərliyə alan ermənilər təcavüz siyasətlərini fəallaşdırdılar. Bu məqsədlə yaradılmış «Krunk» («Durna») cəmiyyəti əhalini qızışdırmağa başladı. Eyni zamanda Dağlıq Qarabağda ermənilərin Ermənistanla «Miatsum» (Birləşmə) hərəkatı genişləndi. Ermənistanda isə azərbaycanlıların sıxışdırılması, təhqir olunması və təzyiqlər gündən-günə gecləndi. Belə şəraitdə 1986-cı ildə Mehri və Qafandan ilk azərbaycanlı qaçqınlar peyda oldular.

Ermənilər ölkə rəhbərinin onlara olan münasibətindən istifadə edərək Ermənistanda yaşayan azərbaycanlılar arasında geniş təbliğat işi apararaq bildirmişlər ki, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında hazırlanmış sənədə qol çəkin, bizim mövqeyimizi müdafiə edin. O halda siz burada qalıb yaşayarsınız. Lakin azərbaycanlılar onların dediklərini rədd etdilər. Bununla da daşnakların üzünə ağ olub etiraz etdiklərinə görə dəhşətli müsibətlərə düçar qalddılar. 1988-ci ilin əvvəllərində Ermənistanda azərbaycanlıların sıxışdırılması gücləndi və hətta Vedidə azərbaycanlıların qətlə yetirilməsi hadisələri baş verdi. Həmin ilin fevral ayının 19-da Yerevanda keçirilən mitinqdə «Ermənistanı türklərdən (yəni azərbaycanlılardan – Ə.A.) təmizləməli!», «Ermənistan təkcə ermənilərin olmalıdır!» şüarları səsləndi. Belə şüarların təsiri ilə azərbaycanlıların sıxışdırılması bir qədər də gücləndi, ayrı-ayrı kəndlərə basqınlar edildi. Vedi rayonunun kəndlərində ermənilərin törətdiyi vəhşiliklər tez bir anda digər bölgələrdə də təkrar edildi. 1988-ci ilin mayın əvvəlində Şirazlı kəndinə edilən hücumla 64 azərbaycanlının evi dağıdıldı, 80-dən artıq adam döyülərək bədən xəsarəti aldı, 330 ailənin əmlakı talan olundu.[26]

Şirazlı kənd sakini və hazırda Biləsuvar rayonunda yaşayan Əkbər Əliyev erməni faşizminin törətdiyi dəhşətli faciələri xatırlayaraq demişdi: Hələ 1919-cu ilin sonu, 1920-ci ilin əvvəlləri idi, ermənilər qəflətən Vedi rayonunun Şahablı zonasına hücum edib 8 kəndin körpə uşaqdan başlamış

qocaya qədər bütün əhalisini binalara doldurub yandırdılar, bir nəfər belə salamat qalmadı. Təkcə Çığın zonasında 22 kənd darmadağın edildi.

1988-ci il hadisələrini xatırladan Əkbər Əliyev söhbətinə davam edərək dedi: Həmin ilin mart ayının ortaları idi. Ermənilər 50-yə yaxın yük maşını ilə bizim Şirazlı kəndinə daxil oldular. Maşınlarda təxminən 600-a qədər erməni daşlarla pəncərə və qapıları dağıtdılar, əhaliyə ağır xətalar yetirdilər. Hətta bir qocanı və küçədə oynayan bir uşağı daşla vurub öldürdülər. «Rədd olun bizim torpağımızdan» – deyə qışqırdılar, söyüşlərlə təhqir etdilər. Elə həmin gün 700 ailə öz doğma yurdunu tərk etmək məcburiyyətində qaldı.[27] Ermənistan hadisələri Dağlıq Qarabağda münasibətləri daha da gərginləşdirdi.

1988-ci il fevralın 25-də Əsgəranda milis rəisinin müavini işləyən erməni açıq şəkildə iki azərbaycanlını öldürdü.[28] Bundan az sonra Bakıda Vorovski qəsəbəsində yaşayan bir erməni ov silahı ilə ermənilərin təhlükəsizliyini qoruyan azərbaycanlı milis işçisinə atəş açdı. Daha sonra erməni millətçiləri 1988-ci il fevralın axırlarında Sumqayıt faciəsini törətdilər. İndiyədək müəmmalıdır ki, necə oldu hadisənin ilk anından reportyorlar, kinoçəkənlər, jurnalistlər burada hazır vəziyyətdə peyda oldular. Hadisənin gedişində Eduard Qriqoryan adlı erməninin Sumqayıtda ermənilər öldürməsi faciə alovunu şiddətləndirdi. Lakin mərkəzi qəzetlər nədənsə onun haqqında susdular. Çox qəribədir ki, şəhərdə yaşayan ermənilərin ünvanlarını quldur Qriqoryana kimlər vermişdi? Sumqayıtda yaşayan ermənilərə hadisədən əvvəl əmanət kassalarında olan pullarını götürməyi, varlı sexovşiklərə şəhəri tərk etməyi məsləhət bilənlər kimlər idi? Bu faktlar təsdiq edir ki, Sumqayıt hadisəsi təsadüfi yox, vahid mərkəzdə əvvəlcədən düşünülmüş və planlı şəkildə həyata keçirilmiş ssenari əsasında baş vermişdi.

Erməni ekstremistləri Ermənistan ərazisində Sumqayıt hadisəsini hələ 1988-ci ilin fevralınadək olan müddətdə ha-

zırlamışdılar. Bu hazırlıqda əsas məqsəd Sumqayıtda faciəni törətmək və onun bütün günahını Azərbaycanın üstünə atmaq, bu yolla dünya ictimaiyyətində tam yanlış təsəvvür yaratmaq və sonra isə həmin hadisəyə cavab olaraq Ermənistandan azərbaycanlıların kütləvi şəkildə çıxarılmasına nail olmaq idi. Buna görə də hələ Sumqayıt hadisəsindən əvvəl Qafandan və Quqarkdan azərbaycanlılar zorla köçürüldü. Ermənistan ərazisində yaşayan azərbaycanlılar Sumqayıt hadisələrindən əvvəl hər cür təhqirlərə məruz qalırdılar, işlə lazımi səviyyədə təmin olunmurdular, onların şikayət və ərizələrinə məhəl qoymurdular, sıxışdırılırdılar və s.

Sumqayıt faciəsindən az əvvəl fevralın 25-26-da Yerevanda nümayiş keçirildi və burada Qarabağ məsələsinin qəti şəkildə qoyulması millətlərarası vəziyyəti olduqca ağırlaşdırdı. Bu vəziyyətlə əlaqədar olaraq xeyli miqdarda Ermənistan azərbaycanlısı Sumqayıta, Saray və Fatmayı kəndlərinə öz yerlilərinin, qohumlarının yanına köçüb gəldilər. Bu hal gərginliyə, şübhəsiz, müəyyən dərəcədə təsir göstərdi. Bundan əlavə erməni millətçilərinin DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxmaq haqda bəyanat verməsi, Stepanakertdə azərbaycanlılara edilən hücumlar, evlərinin yandırılması və onların hər cürə təhqir olunmaları, habelə Əsgəranda 16 və 23 yaşlı gənclərin ermənilər tərəfindən öldürülməsi xəbərləri də sözsüz Sumqayıtda yaşayan Qarabağlı azərbaycanlılara pis təsir etməyə bilməzdi. Ancaq bu vəziyyət erməni ekstremistlərini hələ təmin etmirdi. Onlara geniş partlayışlı bir bəhanə lazım idi ki, bundan istifadə edib Ermənistanda yaşayan bütün azərbaycanlıları qovub çıxarsınlar və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olsunlar. Belə əlverişli yer Sumqayıt oldu.

Məhz ehtirasların belə vəziyyətindən ermənilər istifadə etdilər və özləri Sumqayıt hadisəsini törədərək dünyaya səs saldılar ki, bu «genosiddir». Bu hadisənin ssenarisi ermənilər tərəfindən o dərəcədə dəqiq hazırlanmışdı ki, hətta hadisənin gedişini lentə alıb bir sıra ölkələrdə nümayiş etdirilmə-

sinə nail olmuşdular. Azərbaycan SSR Elmlər Akkademiyasının akademiki Maqsud Əliyev həmin günlərdə Parisdə ezamiyyətdə olmuş və ertəsi gün, yəni martın 1-də Fransa televiziyası ilə bu hadisələrin göstərildiyini öz gözü ilə görmüşdü.[29]

Məşhur jurnalistlərdən hesab edilən N.Borovik tərəfindən hazırlanmış «Pozisiya» verilişi ekstremist xarakter daşıyan, milli münasibətləri bir qədər də kəskinləşdirən və hadisələri tamamilə təhrif edən bir veriliş rolu oynamışdı. Azərbaycan EA müxbir üzvü Mahmud İsmayılov 1996-cı ildə nəşr edilən «Правда об армянской агрессии» kitabında Borovikə yazdığı məktubda (səh. 22, 68-69-da) həmin verilişin bütün mahiyyətini tarixi faktlarla ifşa etmişdir. «Pozisiya» verilişində Sumqayıtdan gedən ermənilərin yaşayış şəraiti göstərildiyi halda, on minlərlə Ermənistandan öz doğma yerlərindən zorakılıqla çıxarılmağa məcbur edilmiş azərbaycanlılar, onların acınacaqlı həyatı haqqında bir söz belə deyilməmiş, Ermənistanın ucqar rayonlarından olan Krasnoselskidən milli münaqişəni qızışdıran müəyyən məqamlar göstərildiyi halda, Yerevana daha yaxın, çox ağır vəziyyətdə yaşayan və əksəriyyəti azərbaycanlılardan ibarət olan Qəmərli, Zəngibasar, Vedi (hazırkı Masis), Artaşat, Ararat adlandırılan rayonlarda yaşayanların acınacaqlı həyatından verilişdə heç bir hadisə göstərilməməsi müəllifin qeyri-obyektiv, qərəzli mövqeyini sübut etmirmi?!

Çox ustalıqla əvvəlcədən düşünülmüş plan əsasında çəkilən veriliş İsveçrədə nümayiş etdirildi. Dəhşətli, haylıküylü təsvirlər göstərilməklə bərabər filmdə Mişa adlı birinin və arvadının başının kəsilməsi təsviri verilirdi. Bundan sonra guya öldürülənlərin cavan qızının üzərinə 30 nəfər azərbaycanlı gənc hücum edərək onu hissələrə doğrayıb mannqalda kabab hazırlayırlar və çox həvəslə insan kababı yeyirlər. Bunlar təsvir edildikdən sonra filmin sonunda Qabrielyan adlı birisi deyir: Siz təsəvvür edə bilməzsiniz ki, bu vəhşilərin hərəkətinə biz necə dözməli oluruq.[30]

Veriliş Avropanın bütün ölkələrində və Amerikada ermənilər olan yerlərdə də nümayiş etdirilmişdi. Əlbəttə, buna tamaşa edən hər bir kəsdə azərbaycanlılara qarşı hədsiz dərəcədə nifrət hissi oyana bilərdi və adamyeyənləri nəinki Dağlıq Qarabağdan, hətta Zaqafqaziyadan tamamilə qovmaq fikri yarana bilərdi. Belə uydurma təbliğatları ilə ermənilər dünya ictimaiyyətini çaşbaş salmağa çalışır və bu sahədə özlərinin tarixi vəhşiliklərini ört-basdır etmək, özlərinin əsil yırtıcı simalarını gizlətmək istəyirdilər. Halbuki, 1918-1919-cu illərdə Andronikin quldur dəstələri müsəlman uşaqlarını tonqalda yandırmışdılar, hamilə qadınların qarınlarını yırtmışdılar. Kişilərin başına mismar vurmuşdular, qadınların üzlərinə xəncərlə xaç çəkmişdilər və s.[31]

Ermənilər Sumqayıtda hadisə vaxtı ölənlərin sayını süni surətdə şişirtdilər. 1988-ci ilin yazında Pribaltika mətbuatında erməni daşnak yazıçısı S.Xanzadyanın belə bir məlumatını dərc etdilər ki, guya Sumqayıtda 450 erməni öldürülmüşdür. Moskvada Ermənistan səfirliyinə dəvət olunmuş moskvalı erməni nümayəndələrinə Sumqayıt hadisəsi haqqında daha dəhşətli uydurmalar söylənildi. Toplaşanlara bildirdilər ki, Sumqayıtda hərc-mərclikdir, orada müxtəlif millətlərin onlarla adamı deyil, minə qədər erməni öldürülmüşdür. Guya azərbaycanlılar doğum evində erməni hamilə qadınları doğramışlar. Körpə uşaqların başları ilə futbol oynamışlar.[32]

Mərkəzdən gedən məlumatlara əsasən «Qolos Ameriki», «Bi-Bi-Si» və Qərbin digər radiostansiyaları Sumqayıtda həlak olanların sayını bir qədər də çox olması fikrini yaydılar. Bütün bunlar ehtirasları daha da qızışdırmaq, ziddiyyətləri kəskinləşdirmək və ermənilərdə azərbaycanlılara qarşı nifrət oyatmaq məqsədi daşıyırdı. Bu, şübhəsiz, növbəti böhtan idi. Hansı ki, hadisə vaxtı 26 nəfər erməni həlak olmuşdu və bundan 5 nəfər ermənini Qriqoryan öldürmüşdü (Bax: «Azərbaycan kommunisti» jurnalı, № 7, 1989, səh. 55.). Burada eyni zamanda 6 nəfər azərbaycanlı həlak olmuşdu.

Hadisənin gedişində yaşayış evlərinə, 50-dən artıq mədəni-məişət müəssisəsinə böyük maddi ziyan dəymişdi.[33]

Bundan əlavə 40-dan çox avtomaşın sındırılmış və ya yandırılmışdı. 200-dən artıq mənzil talan edilmiş, 400-dən çox adam bədən xəsarəti almışdı. Şəhərə təxminən 10 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdu. Hadisələrə görə minə yaxın adam şübhəli şəxs qismində saxlanıldı, 500 nəfər həbs olundu, 94 nəfər mühakimə edildi. Dəstə başçısı E.Qriqoryana 12 il, dəstə üzvü Taleh İsmayılova isə 15 il həbs cəzası verildi. Əhməd Əhmədov erməni lobbisinin hay-küyü ilə güllələndi. İkinci qrup əlil olan Elçin Gəncəliyev istintaq dövründə işgəncələrə dözməyərək təcridxana kamerasında özünü asdı (Bax: «Xalq» qəzeti, 2 mart 2011.).

Hadisənin şahidlərindən biri olan Jora Tamrazyan bildirmişdi ki, hadisənin necə baş verdiyini mən başa düşə bilmədim. Onu bildirmək istəyirəm ki, bundan əvvəl azərbaycanlılarla çox yaxşı münasibət var idi. Hər iki millətin nümayəndələri xeyirdə, şərdə birgə iştirak edirdilər, bir ailə kimi dostcasına yaşayırdılar.

Deməli, erməni millətçiləri Sumqayıt hadisəsini azərbaycanlıların üzərinə yıxmaq istədilər. Bu vəziyyətdən bəhs edən Aleksandr Proxanov 10 avqust 1988-ci il tarixli «Literaturnaya qazeta»da yazırdı: Allah eləməsin Azərbaycan xalqını Sumqayıt faciəsinin təqsirkarı saysınlar. Bu cür iddialar uydurma, məsuliyyətsiz və mənasız iddiadır. Mən həmin dəhşətli gecədə həyatlarını təhlükəyə ataraq ermənilər öz evlərində gizlətmiş sumqayıtlı azərbaycanlılarla, erməni uşaqlarını və qadınlarını zirehli transportyora mindirib mühasirədən çıxaran azərbaycanlı əsgərlə söhbət etmişəm. Orada xalq yox, xuliqanlar, yırtıcılar əl-qol atırdılar.

Fransız jurnalisti Ariel Kiru yazırdı: «Ermənistan milli azadlıq hərəkatının nümayəndələri M.Yermakyan və M.Çurabyan Yerevanda qəti şəkildə bildirmişdilər ki, 1988-ci il fevralın 28-29-da baş vermiş hadisələrin təşkilatçıları azər-

baycanlılar deyil, bu haqda faktlar və təkzibedilməz sübutlar var.[34]

Erməni millətinin başqa bir nümayəndəsi Robert Arakelov Sumqayıt hadisəsinə toxunaraq yazırdı: Mən Stepanakertə gəlib çatanda ilk söhbətim bir nəfər qadınla oldu: Söhbətdə Qarabağ hadisələrindən bəhs edərkən həmin qadın dedi: - «Sumqayıt» – bu olduqca çox əlverişli bir hadisə idi. Lakin biz bundan axıra qədər istifadə edə bilmədik. Qadının bu sözü məni təəccübləndirdi, yəqin ruhi xəstədir – deyə ondan tez uzaqlaşdım.

Müəllif qeyd edir ki, hətta mən Yerevan qəzetlərindən birində də həmin mövzuya rast gəldim, orada deyilirdi ki, Qarabağ məsələsinin həlli üçün biz «Sumqayıt» hadisəsi kimi əlverişli faktordan istifadə edə bilmədik.[35]

Faktlardan göründüyü kimi, həmin hadisə məhz erməni millətçilərinin təhriki ilə təşkil edilmişdi. Belə ki, ermənilər Sumqayıt hadisəsini Qriqoryan Joranın vasitəsilə hazırlayıb həyata keçirmişlər. Qriqoryan hadisədən əvvəl tələbə və fəhlə yataqxanalarına gedərək orada yaşayanlara pul və güclü təsiredici dərmanlar paylamışdır. O, həm də Sumqayıtda yaşayan ermənilərin ünvanlarını onlara verərək xüsusi dəstələr təşkil edib müxtəlif ünvanlara göndərmişdi. Qriqoryan bu hazırlıq işlərini apardıqdan sonra hətta öyrətdiyi gənclərin qarşısında özü bir neçə ermənini öldürmək «nümunə»si göstərmişdi.[36]

Qriqoryan istintaq zamanı bütün bunları etiraf etdi. Həmin caniyə iş kəsildisə də, cani Moskvaya aparıldı və orada aradan çıxarıldı. Sumqayıt hadisəsi ermənilərin hazırladığı və qriqoryanların əli ilə həyata keçirilən bir faciə olmasına baxmayaraq cəza alanlar Sumqayıt şəhərinin partiya, sovet və hüquq-mühafizə orqanlarının rəhbərləri oldular. Onlar vəzifələrindən azad edildilər, partiyadan xaric olundular. Sumqayıt hadisəsi Moskvanın mətbuat səhifələrində də tamamilə yanlış, ermənilərin mövqeyinin müdafiəsi baxımından təbliğ edildi.

Həmin hadisədən 23 il keçməsinə baxmayaraq, ermənilər hələ də dünya ictimaiyyətini, beynəlxalq təşkilatları bu hadisələrin mahiyyəti ilə əlaqədar aldatmağa çalışmaqdan əl çəkmirlər. Onlar Sumqayıtda törədilmiş hadisələrin əsl mahiyyətini gizlədərək, Azərbaycan xalqını vəhşi, qaniçən və cinayətkar qismində dünyaya təqdim etmək üçün dəridən-qabıqdan çıxır, Sumqayıt hadisələrini soyqırım kimi təqdim etməyə çalışırlar və bu istiqamətdə xeyli fəal təbliğatla məşğuldurlar. Bu məqsədlə Ermənistan Baş Prokurorluğu Sumqayıt hadisələri ilə bağlı İnternetdə xüsusi sayt açaraq, həmin hadisəlr haqqında yalan məlumatlar yaymaqda davam edir (Bax: «Respublika» qəz. 1 mart 2011.).

Ancaq faktlar təsdiq edir ki, Sumqayıtda ermənilərə qarşı heç bir genosid olmamışdı. Qəribədir, hadisə ərəfəsində bir nəfər erməni generalı Sumqayıta nə üçün gəlmişdi? Ancaq erməni millətçilərinin hadisənin günahkarı Azərbaycandır demək və onun üzərinə yıxmaq təşəbbüsləri bir nəticə vermədi. Əksinə, məlum oldu ki, Sumqayıt hadisələri məhz erməni milli təşkilatlarının öz əli ilə təşkil olunmuşdu.

Z.M.Bünyadov «Poçemu Sumqait?» məqaləsində hadisənin xarakterini, məqsədini və erməni millətçilərinin tarixən törətdikləri cinayət və s. məsələləri aydın şərh etməklə hadisənin həqiqi mahiyyətini açıqlamışdı. Mahmud İsmayılovun «Sumqayıt haqqında daha bir yalan» məqaləsində bu ssenarinin halqaları təfsilatı ilə açılmış və Azərbaycan torpağında doğulmuş qatı millətçi Q.Ulubabyanın böhtançı baxışları alt-üst edilmişdi.

M.İsmayılov bundan əlavə «Obyektiv düşüncələrin zəruriliyi», «Y.Bonner-Əlixanyana açıq məktub», «S.Kaputikyana açıq məktub» və s. kimi məqalələrində Sumqayıt hadisəsinin ermənilərin özü tərəfindən əvvəlcədən hazırlanmış plan əsasında törədildiyini, bu hadisədə erməni havadarlarının məqsədlərini, törədilmiş faciənin milli ədavətdən daha çox, qarətçi-düşmənçilik olduğunu, bu faciə arxasında ərazi iddiaları gizlətdiyini, Azərbaycan ərazisinə soxulmaq üçün

Sumqayıt fəlakətindən istifadə edildiyini və s. konkret faktlar əsasında təhlil etmişdir.

Z.Balayan kimi qatı millətçilər belə hesab edirdilər ki, Sumqayıt hadisəsindən bir neçə saat sonra Moskva Qarabağ problemini, yəni Qarabağın Ermənistana verilməsini həll etməli olacaqdır. Doğrudan da Sumqayıtı törədən erməni millətçilərinin mənafeyi Mərkəz tərəfindən müdafiə edildi. Hadisədən sonra uzun müddət Mərkəzin bir sıra məlumat vasitələri və Ermənistanın bütün mətbuat orqanları azərbaycanlıları «vəhşi» bir xalq kimi dünya ictiMaiyyətinin diqqətinə çatdırmağa, «vəhşi azərbaycanlı obrazı» yaratmağa çalışdılar. Lakin milli qırğının başlanğıcı hesab edilən Əsgəranda iki nəfərin öldürülməsi, Ermənistanda azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi və oradan çıxarılması haqda Mərkəz nədənsə susmuş oldu.

Deyilənlərdən göründüyü kimi, həmin hadisə məhz erməni millətçilərinin təhriki ilə təşkil edilmişdi. Sumqayıt hadisəsi millətlərarası münasibətləri daha da gərginləşdirdi. Hadisələrə qədər olan dostluq məsələsinə toxunan Gorus rayon partiya komitəsinin birinci katibi Robert Aleksanyan demişdi: İllərdən bəridir ki, biz istəkli qonşular, dostlar kimi yaşayırıq. Bu istək qəlbdən gəlir, erməni və Azərbaycan xalqlarının mahnıları da bir-birinə yaxındır, ürəkləri də, sanki tale özü bizim birgə həyatımızı təmin etmişdir.[37]

Bakı Baş Tikinti idarəsi 2 nömrəli evtikmə kombinatının quraşdırıcılar briqadiri, Azərbaycan SSR Ali Sovetinin deputatı Qriqori Qasparyan demişdi: Doğulub boya-başa çatdığım Dağlıq Qarabağdakı hadisə, indiki vəziyyət məni çox narahat edir. Bununla əlaqədar Sumqayıtda yaranmış xoşagəlməz hadisələri heç cür ağlıma sığışdıra bilmirəm. Bunlar onu göstərir ki, xalqın taleyi ilə bağlı çox ciddi məsələləri qeyri-şüur hisslərin və emosiyaların ixtiyarına buraxmaq olmaz. Axı, bizim tariximiz də, taleyimiz də oxşardır.[38]

Sumqayıt hadisəsindən sonra Xankəndində, Maardakert (Ağdərə) və Hadrut rayonlarında tətillər oldu və bura-

da münasibətləri qızışdırıcı bəyanatlar səsləndi. SSRİ Müdafiə Nazirliyində mülki kursların rəisi, general-mayor Arutyunov millətçi, təhrikçi çağırışlarla bəyanatlar verərək bildirdi ki, bizim işimiz haqdır. O, Moskvada yaşayan 35 nəfər erməni millətinin nümayəndəsi ilə Sov.İKP MK-ə müraciət edərək Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi məsələsini həll etməyi xahiş etdilər.[39]

Sumqayıt hadisəsindən az sonra 1988-ci il martın 9-da Sov.İKP MK-də müşavirə keçirildi. Müşavirədə Azərbaycan KP MK-nın birinci katibi K.M.Bağırov və Ermənistan KP MK-nın birinci katibi G.S.Dəmirçiyanın Dağlıq Qarabağ hadisələri ilə əlaqədar olaraq həmin respublikalarda ya-ranan vəziyyət haqqında məlumatları dinlənildi.

Müşavirədə Qorbaçov dedi: Vəziyyətin hər hansı şəkildə kəskinləşməsi xalqlar dostluğu yolunda öz varlığının yetmiş ili ərzində ölkəmizin qazandığı böyük nailiyyətlərdən bizi geri ata bilər.[40] Siyasi Büronun qərarı ilə MK-ə katibliyinə tapşırıq verildi ki, DQMV-də yığılıb qalmış prob-lemlərin, onun ətrafında millətlərarası münasibətlərin kəskinləşməsi səbəblərinin hərtərəfli öyrənilməsini, müvafiq təkliflərin işlənib hazırlanmasını təşkil etsin və təkliflər hazır olduqda Sov.İKP MK-nın və SSRİ hökumətinin müzakirəsinə versin.

Lakin erməni millətçiləri mərkəzin göstərişini zərrə qədər də nəzərə almadılar. Əksinə martın 10-da (1988-ci ildə) Yerevanın cənubunda olan Mehmandan kəndindən olan 4 nəfər azərbaycanlı öldürüldü və martın 25-də isə Ararat rayonunun azərbaycanlılar yaşayan kəndlərində 100-dən artıq ev talan edilib yandırıldı. Şirazlı kəndinin 800-dən artıq sakini SSRİ-Türkiyə sərhədinə qaçmaq məcburiyyətində qaldılar. Ararat rayonundan 10 minə yaxın azərbaycanlı da ora qaçmalı oldu.[41]

1988-ci il martın 9-da Stepanakertdə Vilayət Partiya Komitəsinin büro iclası oldu. İclasda Şuşa rayon Partiya Komitəsinin birinci katibi büro üzvü olduğu halda ora dəvət

olunmadan vilayətin Ermənistana birləşdirilməsi haqqında məsələ müzakirə edildi. Büro iclasının müzakirə etdiyi məsələ Vilayətdə özbaşınalığı daha da artırdı. Yenə də partiya və komsomol üzvlüyündən imtina edənlər, hətta faşist nişanını nümayiş etdirənlər də az olmadı.

Belə bir şəraitdə 1988-ci il martın 23-də A.A.Qromıkonun sədrliyi ilə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası keçirildi. İclasda Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barədə müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi. Qərarda göstərilirdi: Qeyd edilsin ki, Dağlıq Qarabağda hadisələrlə əlaqədar Azərbaycan SSR-də və Ermənistan SSR-də yaranmış vəziyyət bu respublikaların xalqlarına və ümumən vahid çoxmillətli ittifaq dövləti kimi SSRİ-nin xalqları arasında dostluğun daha da möhkəmlənməsinə zərər vurur.[42] Qərarda göstərilirdi ki, ayrı-ayrı şəxslər və qruplar tərəfindən yol verilmiş və insan tələfatı ilə nəticələnmiş cinayətkar hərəkətlər qətiyyətlə pislənilməli, millətlərarası münasibətlərin kəskinləşməsinə gətirib çıxaran səbəblər dərindən və hərtərəfli təhlil olunmalı, onlar vaxtında aradan qaldırılmalı, hər cür millətçilik və ekstremist təzahürlərinə qarşı fəal çıxış edilməlidir.[43]

1988-ci il martın 24-də Respublika Ali Soveti Rəyasət Heyətinin iclası oldu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri S.B.Tatlıyev Moskvada martın 23-də keçirilən iclasın gedişi haqqında məlumat verdi. Burada «Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barəsində müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını yerinə yetirmək vəzifələri barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti müvafiq qərar qəbul etdi. Güman etmək olardı ki, ermənilər də SSRİ Ali Soveti Rəyasət Heyətinin 23 mart (1988-ci il) tarixli iclasının qərarından nəticələr çıxaracaq və bütün qüvvələri qərarın yerinə

yetirilməsinə yönəldəcəkdir. Lakin onlar qərarın əleyhinə getdilər və tam yanlış mövqe tutaraq bildirdilər ki, guya vəziyyəti nizama salmağın yolu Dağlıq Qarabağın Ermənistana verilməsidir. Əlbəttə belə mövqedən çıxış etmək millətlərarası münasibətləri daha da gərginləşdirmək təşəbbüsü oldu.

Sov.İKP XIX Ümumittifaq Konfransında deyilirdi ki, son vaxtlar millətlərarası münasibətlər problemi necə düyünə düşə bildiyini biz açıq yəqin etdik. Xalqlarımızın qardaşlığını və dostluğunu göz bəbəyi kimi qorumaq lazımdır. Başqa yol, ağıllı alternativ sadəcə olaraq yoxdur. Bunun əksini sübut etməyə çalışan isə həm özünü aldadır, həm də başqalarını. Üstəlik müxtəlif millətlərdən olan adamları toqquşdurmağa cəhd göstərmək, onların arasında ədavət və düşmənçilik toxumu səpmək öz xalqı qarşısında öz üzərinə ağır məsuliyyət götürmək deməkdir. Bu cür hərəkətlər demokRatikləşdirmə prosesində böyük əngəl törədir. Bu eyni zamanda respublikaların, habelə vilayətin iqtisadiyyatına böyük maneədir. Məhz məsuliyyətsiz çağırışlarla baş vermiş tətillərin nəticəsi olaraq vilayətdə iş ahəngi pozuldu, məhsuldarlıq aşağı düşdü. Belə ki, 1988-ci ilin martın ortalarına keçən ilə nisbətən ət hazırlığı 14 faiz, süd 11 faiz, yumurta 17 faiz azaldı.[44] 3 aprel 1988-ci ildə «Kommunist» qəzetində Qarabağ İpək kombinatı əməkçilərinə Şəki İstehsalat Birliyi əməkçilərinin dərc edilmiş məktubunda göstərilirdi ki, ilin əvvəlindən sizin kombinatdan birliyimizə nəzərdə tutulduğundan bir milyon 300 min metr az xam parça göndərilMişdir. Bu da 400 milyon manatlıq hazır parça deməkdir. Bu müddətdə Stepanakertdən 3.700 kiloqram əvəzinə cəmi 2280 kiloqram sap almışıq.[45] Buna görə də alıcı təşkilatlarla müəssisəmiz arasındakı müqavilə şərtləri pozulmuş, RSFSR, Ukrayna və Türkmənistana nəzərdə tutulduğu qədər hazır parça göndərilmədiyinə görə 2 milyon 119 min manat cərimə vermişik.[46] Bununla bərabər Qarabağ Kombinatı 1988-ci ilin birinci kvartalında ticarət təşkilatlarına planda nəzərdə tutulduğundan 1.600 min manatlıq az məhsul, Stepanakert

ayaqqabı fabriki planda nəzərdə tutulandan 1.100 manatlıq az ayaqqabı, tikiş fabriki isə yarım milyon manatlıq az tikiş məhsulları göndərmişdi.[47] Bu, respublikanın iqti-sadiyyatına vurulan zərbə oldu. Belə şəraitdə erməni ekstremistlərinin Rusiyadan əlavə Qərbdə, ABŞ-da havadarları tapıldı. Kaliforniya Ştatının qubernatoru Corc Dukmacyan onların müdafiəçisi kimi çıxış etdi. Eləcə də ABŞ-da erməni icma başçılarından biri Arutyunyan tələb etdi ki, Dağlıq Qarabağ probleminə BMT Təhlükəsizlik Şurasında baxılsın. Amerika konqresmeni Paşayan və başqaları ermənilər açıqdan-açığa müdafiə etdilər. ABŞ-da erməni icmasının rəhbəri Paruyr Zorçyan C.Buşu müdafiə edərkən bildirdi ki, respublikaçılar partiyasının qurultayında qəbul edilmiş proqramda Sovet İttifaqında öz müqəddəratını təyin etməyə çalışan xalqları müdafiəetmə maddəsi vardır. ABŞ-da erməni icmasının qurultayda iştirak edən 9 nümayəndəsi həmin maddənin respublikaçılar partiyasının proqramına daxil edilməsini bəyəndilər.[48] Belə bir dövrdə Dağlıq Qarabağ mövzusu xaricdə erməni qəzet və jurnallarının əsas mövzusuna çevrildi. Parisdə erməni radiostansiyası «Ayb», «Svoboda» radiostansiyasının erməni redaksiyası, eləcə də «Революционные Дашнаки», «Крестянская свобода», «Союз армянских революционеров», «Восточные армяне Соединенных Штатов», «Защита Армении» və s. təşkilatlar böyük iş apardılar.[49] Erməni lobbisi hətta təşkil etdikləri gecələrdə, konsertlərdə də Ermənistana yardım etdilər. «Qolos Ameriki»nin erməni redaksiyası 8 iyul 1988-ci ildə verdiyi məlumatda bildirdi ki, Bostonda Ruben Poqosyanın «Türk-erməni münaqişəsi» kitabına həsr edilmiş ədəbiyyat gecəsi keçirildi. Həmin gecədə çıxış edən hüquqşünas Tarıverdiyan qeyd etdi ki, ermənilər müstəqil erməni dövlətinin yaradılması üçün hər cür imkanlara malikdirlər. Los-Anjelosda fəaliyyət göstərən «Qarabağa yardım» təşkilatı 1988-ci ilin sentyabrın 25-də təşkil edilmiş konsertdən yığılan vəsait Qarabağlılara sərf olundu.[50]

Akademik C.Quliyev «Şücaət zəfərin açarıdır» elmi məqaləsində (Bax: «Respublika» qəz. 8 yanvar 1997-ci ildə) göstərir ki, hazırda dünyanın 70-dən artıq ölkəsində 8 milyona qədər erməni yaşayır və onların ən böyük diasporu Amerika qitəsidir. Almaniyada, Braziliyada, Livanda, Uruqvayda, ABŞ-da, Fransada, Rusiyada, Bolqarıstanda, Livanda, Türkiyədə və b. ölkələrdə yaşayan erməni icması güclü, sosial-siyasi, geniş əhatəli maddi qüvvəni təşkil edir. Lazımi qədər kapitalı olan erməni lobbisi ilə yanaşı erməni kilsəsinin xarakterini açıqlayan akademik göstərmişdi ki, Romadan da iyirmi il qabaq xristianlığı qəbul etmiş, 2001-ci ildə 1700 illiyinə hazırlaşan Erməni kilsəsinin səyləri sayəsində müasir beynəlxalq cəmiyyət üçün olduqca təhlükəli «ermənizm» cərəyanı yaradılmışdır. Ölkələrin çoxunda müxtəlif erməni təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə yanaşı 13-dən artıq dövlətdə yepiskopluğun mövcudluğunu və «Dağlıq Qarabağ» probleminin qızışdırılmasında erməni kilsəsinin başda katolikos I Vazgen və 1995-ci il aprelin 4-də seçilmiş yeni katolikos I Qareqin təsirinin böyük olması təhlükəlidir. Məhz erməni kilsəsi «aşkarlıq» şüarı pərdəsi altında erməni millətçilərinə başçılıq edərək Qarabağın Ermənistanın tərkibinə daxil edilməsini tələb etməyə başladı və bildirildi ki, əgər Qorbaçov həmin məsələni ermənilərin xeyrinə həll etməsə, o halda daha qəti tədbirlər görüləcəkdir. Hətta, 1988-ci il martın 13-də Nyu-Yorkda ermənilərin keçirdikləri mitinqdə keşiş Mesrop bəyan etmişdi ki, biz dünya ictimaiyyətinə göstərməliyik ki, erməni xalqı yekdildir və öz tələbinin həyata keçirilməsinə nail olacaqdır.[51]

Dağlıq Qarabağ məsələsinin alovlandırılmasında, milli-dini fanatizmi gücləndirməkdə erməni kilsəsinin təsirindən istifadə edən katolikos I Vazgen respublika mətbuatında iyulun 30-da (1990-cı ildə) dərc edilmiş müsahibə-sində demişdir: 1988-ci ilin fevralında başlanmış «Qarabağ hərəkatı»nda Erməni kilsəsi müəyyən rol oynamış və oynayır. İki ildən artıq müddətdə kilsə artsaxlıların tələblərini müda-

fiə ilə çıxış etmişdir. Dinlə dövləti möhkəm ittifaqda birləşdirən əsas halqalardan biri Artsax uğrunda mübarizədir.[52]

«Qolos Ameriki»nin 1 sentyabr 1988-ci ildə verdiyi erməni məlumatına görə erməni kilsəsinin yüksək vəzifəli rəhbərliyi Argentinada yaşayan ermənilərə göndərdiyi məktubda yazırdı: Sizin sualınıza cavab olaraq bildirilir ki, hazırda erməni xalqı matəm içərisindədir. Bütün ümidləri əllərindən alınıb. Lakin necə olsa da Allah böyükdür və həqiqət öz yerini tutmalıdır.[53]

Belə bir vaxtda Bi-Bi-Si radiostansiyası açıq şəkildə milli münasibətləri qızışdırmağı təbliğ edərək verdiyi məlumatda göstərdi ki, guya azərbaycanlılar deyiblər ki, əgər Qarabağ Ermənistana verilərsə, bu müharibəyə gətirib çıxaracaq və bizi o halda Türkiyə və İranda olan qardaşlarımız müdafiə edəcəkdir.[54]

Bu dövrdə millətlərarası münasibətləri kəskinləşdirməkdə, milli-dini ədavəti qızışdırmaqda və Azərbaycandan olan məlumatları baykot etməkdə «Sovetskiy Karabax» qəzeti xüsusi canfəşanlıq göstərirdi. Erməni müəlliflərindən olan R.Arakelov və başqaları həmin qəzetin səhifələrində kütlələr içərisində yerli millətçiliyi təbliğ edir, erməniləri, ümumiyyətlə, DQMV-in əhalisini Azərbaycan radiosunu dinləməməyə, televiziya verilişlərinə baxmamağa çağırır, onların qadağan edilməsini və s. tələb edirdilər.[55]

Akademik A.Saxarov «Moskovskie novosti» qəzetinin 3 aprel 1988-ci il tarixli nömrəsində «Zəka və sakitlik naminə» adlı məqaləsində yazırdı: Mən 21 martda (1988-ci ildə) Qorbaçova göndərdiyim məktubda milli məsələdə iki gərginlik yaradan problem – Krım tatarlarının Krıma qaytarılmasını və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi fikrimi bildirdim.[56] O, davam edərək yazırdı: 24 martda Dağlıq Qarabağda vəziyyət haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı dərc edildi. Lakin burada DQMV Xalq Deputatları Sovetinin qərarına münasibət haqqında məsələyə toxunulmamışdı. Güman edirəm ki, bu Ali Sovetin və

onun Rəyasət Heyətinin son sözü deyil. Mən belə hesab edirəm ki, DQMV Xalq Deputatları Sovetinin xahişinə Azərbaycan və Ermənistan Ali Sovetlərində baxılmalıdı. Lakin onların fikir ayrılığı şəraitində SSRİ Ali Soveti öz qərarını qəbul etməlidir.[57]

Belə açıq millətçi çıxışlar vəziyyəti daha da ağırlaşdırdı. Robert Arakelov yazır ki, bu çirkli və təhlükəli işin rəhbəri DQMV-nin vətəndaşı, sonralar Yerevana köçən İqor Muradyan oldu.[58] Həm də bu siyasətin həyata keçirilməsi məqamının seçilməsi təsadüfi olmadı. Ölkədə yenidənqurma prosesinin Qorbaçovun rəhbərliyi altında başlanmasından istifadə edən bir qrup millətçilər Qarabağ məsələsini ortaya atıb millətlərarası münasibətləri düşmənçiliyə çevirdilər.

Stepanakertdə 1988-ci il 1 may nümayişindən sonra mitinq keçirildi və burada Ermənistanla birləşmək söhbəti ilə yanaşı vilayət prokuroru müavininin azərbaycanlı təyin olunmasına qarşı öz etirazlarını bildirdilər. Stepanakertdəki Dövlət Pedaqoji İnstitutunda bir qrup azərbaycanlı tələbənin imtahan verməsinə maneçilik törətdilər, azərbaycanlı müəllimlər sıxışdırıldı. Vilayətdə azərbaycanlıların iş yerlərindən qovulması başlandı. Mayın 14-15-də Vilayətin mərkəzində yaşayan A.Məmmədov, A.Həsənov və başqaları döyülüb təhqir olundular.[59] Onlar məcbur olub Şuşaya qaçdılar. Belə şəraitdə şəhər meydanında mitinq keçirildi. Hadisələr vilayətin bütün rayon və kəndlərində gündən-günə geniş miqyas almağa başladı. Belə halların qarşısını almağa cəhd göstərmək əvəzinə erməni ziyalıları vəziyyəti daha da gərginləşdirmək mövqeyindən çıxış etdilər. «Novoe russkoe slovo» qəzetinin 24 may 1988-ci il tarixli nömrəsində S.Kaputikyanın yazdığı açıq məktubda deyilirdi: Yerevanda teatr meydanında keçirilən mitinqlərin birində mən çıxışımın sonunda ağıllı hərəkət etməyə, səbrli olmağa və məsələnin düzgün həllini gözləməyə çağırarkən birinci sırada durmuş gənc əsəbi halda «dördüncü əsrdən bəri dözürük! Bundan sonra hələ nə qədər dözməliyik» deyə mənim üzərimə

qışqırdı. S.Kaputikyan 1988-ci il sentyabrın 21-də Yerevan televiziyası ilə çıxışında öz millətçi-şovinist fikrini daha aydın ifadə edərək dedi: 5 iyul 1921-ci il tarixli qərar ədalətsiz qərar olub – Ermənistanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibinə daxil edilib. Dağlıq Qarabağ Sovet Ermənistanının doğma torpağı kimi özünə qaytarılmalıdır. Biz Qorbaçova dedik ki, əgər Dağlıq Qarabağ məsələsi həll edilməyib 60 ildə olduğu kimi qalacaqsa, o halda şərait olduqca pisləşər, iqtisadiyyata böyük zərbə vurula bilər.[60]

S.Kaputikyan tərəfindən 5 iyul 1921-ci il tarixli qərar haqqında deyilmiş ədalətsiz fikiri SSRİ Xalq deputatlarının qurultayında (2 iyun 1989-cu ildə) çıxış edən V.A.Ambarsumyan eynilə təkrar edərək bildirdi ki, 5 iyul qərarı ilə Dağlıq Qarabağ Ermənistanın tərkibindən qanunsuz olaraq çıxarılmışdır ki, bu da əslində konstitusiya əleyhinə olan hərəkət hesab edməlidir. Azərbaycandan SSRİ Xalq deputatı seçilmiş B.Dadamyan da həmin qurultayda etdiyi çıxışında 5 iyul 1921-ci il qərarı ilə razılaşmadığını qəti şəkildə bəyan edərək bildirdi ki, həmin qərar ilə erməni xalqı iki yerə parçalandı və Dağlıq Qarabağ Azərbaycanın tərkibinə verildi. Akademik Saxarov da belə məzmunda çıxış edənlərdən biri olmuşdur.

Bu dövrdə «Pravda», «İzvestiya», «Nedelya», «Krasnaya zvezda», «Literaturnaya qazeta» və başqa qəzetlərdə də tez-tez ermənilərin və digər müəlliflərin Dağlıq Qarabağ hadisələri haqqında saxta, qeyri-obyektiv mövqeyini müdafiə edən çoxlu materiallar çap edilmişdir.

Məhz belə şəraitdə erməni millətçiləri tərəfindən hədələr, saxtalaşdırmalar gündən-günə daha da artırdı. 1988-ci il iyunun 15-də Yerevanda çıxan «Kommunist» qəzetində professor X.Barseqyanın məqaləsi verildi. O, öz məqaləsində tarixin düzgün yazılması zərurətindən, tarixçilərin xalq qarşısında yüksək məsuliyyət daşıdıqlarından bəhs etdiyi halda 1988-ci ilin fevralında DQMV-də başlanmış hadisələr-

dən danışarkən iddia etdi ki, guya Vilayət Sovetinin sessiyası və Vilayət Partiya Komitəsi plenumu konstitusiya çərçivəsində «ədalətli» tələb irəli sürmüşlər.[61] Soruşan yox idi ki, bu necə ola bilər ki, Muxtar Vilayətin çoxmillətli əhalisinin yalnız bir hissəsinin tələbi «ədalətli» hesab edilməlidir? Ümumiyyətlə, erməni ziyalılarının bütün cəhdləri, çağırışları ancaq tarixi saxtalaşdırmaq çağırışları olmuşdur. Budur erməni «ədaləti».[62]

Belə mövqedən çıxışlar edən balayanlar, kaputikyanlar və b. ehtirasları daha da qızışdıraraq ziddiyyətləri durmadan kəskinləşdirdilər və bununla da Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixli qərarını qəbul etməsinə nail oldular. Bu məsələ on birinci çağırış Azərbaycan SSR Ali Sovetinin yeddinci sessiyasında (iyun 1988-ci il) geniş müzakirə olundu və qərar qəbul edildi. Azərbaycan SSR Ali Sovetinin 1988-ci il 17 iyun tarixli qərarında deyilirdi: Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin qərarına cavab olaraq, ölkənin təşəkkül tapmış və SSRİ konstitusiyası ilə təsbit edilmiş milli-ərazi quruluşunu qoruyub saxlamaq mənafeyini əsas götürərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsini mümkün hesab etmir.[63]

Müzakirələrdə çıxış edənlərdən İsmayıllı rayonundakı Kalinin adına kolxozun sədri, Azərbaycan SSR Ali Sovetinin deputatı N.V.Nikitin bildirdi ki, Dağlıq Qarabağdakı bəzi yoldaşlar Muxtar Vilayətin Ermənistan SSR-in tərkibinə daxil edilməsi barədə öz iddialarını millətlərin öz müqəddəratını təyin etmək hüququ haqqında Lenin prinsipi ilə əsaslandırırlar, halbuki erməni xalqı öz respublikasını təşkil edib, SSRİ tərkibinə daxil olmaqla öz yolunu müəyyənləşdirmişdir. Bununla da erməni xalqı öz milli müqəddəratını təyin etmək hüququnu həyata keçirmişdir. Odur ki, mən DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında DQMV-i Xalq Deputatları Soveti

deputatlarının xahişini ödəməyin qeyri-mümkünlüyü barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarını tamamilə müdafiə edir və bəyənirəm.[64]

«Kommunist» (ermənicə) qəzetinin redaktoru deputat E.Y.Qriqoryan öz nitqində demişdi: Mən DQMV-nin ərazi mənsubiyyətini dəyişdirməyin məqsədəuyğun olmadığı barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarını təsdiq etmək təklifinə tərəfdar çıxıram.[65] O, eyni zamanda Dağlıq Qarabağın deputatlarına, bütün zəhmətkeşlərinə müraciət edərək onları vəziyyətin normallaşdırılması işində yüksək mütəşəkkillik nümayiş etdirməyə çağırmışdı. Deputat İ.Ə.İbrahimov çıxışında qeyd etmişdi ki, DQMV-dən deputat olduğum müddətdə təkcə yetmişinci illərdə Ağdam-Stepanakert dəmiryolu tikilmiş, Stepanakert Pedaqoji İnstitutu açılmış, vilayətə qaz kəməri çəkilmişdir. Bundan başqa bir sıra sənaye, kənd təsərrüfatı və məişət obyektləri istifadəyə verilmişdir. İstər siyasi, istərsə də iqtisadi baxımdan, millətlərarası münasibətləri möhkəmləndirmək nöqteyi-nəzərindən Dağlıq Qarabağdan olan yoldaşların xahişini heç cür qəbul etmək olmaz.[66]

Bütün bunlara baxmayaraq 1988-ci il iyunun 21-də Stepanakertdə Vilayət Xalq Deputatları sovetinin sessiyası keçirildi və burada vilayətin Azərbaycan SSR tərkibindən Ermənistana verilməsi məsələsi yenə də müzakirə edildi. Hətta mərkəzi televiziya «Zaman» proqramında, habelə «Pravda» qəzetində həmin sessiya haqqında məlumatlar verildi. Sessiyanın işində iştirak edən S.B.Tatlıyev vilayət sovetinin deputatlarına müraciətlə demişdi ki, bu məsələni bir daha qaldırmaqla onlar öz üzərlərinə çox böyük məsuliyyət götürürlər, çünki zorla təzyiq göstərmək ciddi nəticələr verə bilər. Unutmaq olmaz ki, Dağlıq Qarabağdan başqa Azərbaycan SSR-də 300 min nəfərdən artıq erməni yaşayır. Ermənistanda da elə o qədər azərbaycanlı yaşayır.[67]

S.B.Tatlıyev sözünə davam edərək demişdi: Biz Bakıda və başqa şəhərlərdə yaşayan ermənilərdən hər gün yüzlərlə

məktub alırıq. Onlar məktublarında vilayətdə obyektiv amilləri nəzərə almaq istəməyən dairələrin mövqeyindən çox narahat olduqlarını bildirmişlər.[68] Lakin ermənilər deyilənlərdən müsbət nəticə çıxarmaq əvəzinə münasibətləri gərginləşdirməkdə davam etdilər və Ermənistanın bir sıra Rayonlarından azərbaycanlı əhalisinin çıxarılmasını sürətləndirdilər. Ermənistandan çıxarılanlar Azərbaycanın 42 şəhər və rayonunda yerləşdirildi.[69]

Erməni millətçilərinin təqsiri üzündən respublikaların hər ikisində yaranmış vəziyyəti müzakirə edib nizama salmaq məqsədilə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-ci il iyulun 18-də iclası keçirildi. İclasın materiallarında göstərilirdi: Dağlıq Qarabağda və onun ətrafında gedən hadisələr onu göstərir ki, millətlərarası münasibətlərin daha da gərginləşməsindən faydalanan qüvvələr vardır. İclasda qeyd edilmişdi ki, öz ciblərini doldurmuş rüşvətxor ünsürlər Qarabağın problemlərindən sui-istifadə edirlər. Onlar Dağlıq Qarabağdakı ermənilərin taleyinə saxta qayğı ilə diqqəti başqa tərəfə yönəldərək özlərindən yayındırmaq istəyirlər. İclasda göstərildi ki, bütün mürəkkəbliklərə və ziddiyyətlərə baxmayaraq, qarşılıqlı güzəştə əsaslanan elə bir qərar qəbul edilməlidir ki, nə Azərbaycan xalqına, nə erməni xalqına, nə də bizim bütün Sovet xalqının mənafeyinə xələl gətirməsin. Buna görə də SSRİ Ali Sovetinin Rəyasət Heyəti və Sov.İKP mövcud reallığı – Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində olmasını təsdiq etdi və Azərbaycanla Ermənistanın sərhədlərini və konstitusiya əsasında müəyyən edilmiş milli-ərazi bölgüsünü dəyişdirməyi qeyri-mümkün hesab etdi. Eyni zamanda Azərbaycanın tərkibində Dağlıq Qarabağın müvəffəqiyyətli inkişafı üçün, diyarın bütün millətlərdən olan sakinlərinin mənafeyinin qorunması üçün təminatların gücləndirilməsinə aid tədbirlər müəyyənləşdirildi.

SSRİ Ali Sovetinin 18 iyul (1988-ci il) tarixli iclasının Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində olmasını təsdiq etməsi və ərazi bölgüsünü dəyişdirməyi qeyri-mümkün

hesab etməsi düzgün qərar oldu. Bu obyektivlik həm azərbaycanlıların, həm də ermənilər içərisində obyektivlik tərəfdarlarının ürəyincə oldu. Məsələn, Şuşa çörək zavodunun texnoloqu Aşxen Qriqoryan bildirmişdi ki, Azərbaycan xalqının heç bir günahı yoxdur, bunların hamısının günahkarı erməni ekstremistləridir. Biz dinc yaşayır və işləyirdik. Erməni ekstremistləri Qarabağın Ermənistana verilməsi ideeyasını ortaya atdılar. Lakin biz yaxşı bilirik ki, Qarabağ Azərbaycanın olub və onun da olacaq. SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarını məmnuniyyətlə qəbul edib, ona dua edirəm və hətta üç kiloqram şokolad konfet alıb payladım.[70] Evə qayıdarkən yolda jurnalistlərə rast gəldim və öz fikrimi onlara da söylədim. Bu haqda tez bir zamanda mərkəzi televiziyada veriliş göstərildi. Çox təəssüf ki, mənim sevincim çox çəkmədi. Stepanakertdən mənə zəng edib bildirdilər ki, məni öldürəcəklər, nə üçün belə «konsertlər» verirəm. Mən cavab verib bildirdim ki, siz səkkiz ay konsertlər vermisiniz, mən isə cəmi beş dəqiqə.[71] Zori Balayan Yerevan «Kommunist» qəzetində təhqiredici məqaləsində yazdı ki, guya mənə bir kiloqram konfet veriblər, sonra döyüb öldürüblər. Mən Z.Balayana deyərdim ki, o, hər cür şaiyələr yaymasın. Z.Balayan ermənilərin də düşmənidir.[72]

1988-ci ilin iyulunda iclasda Qarabağda millətlərarası münasibətləri nizama salmaq və sabitləşdirmək məqsədi ilə vilayətdə müvəqqəti olaraq xüsusi idarə forması tətbiq etmək qərara alındı. Qərar əsasında Qarabağda yaradılan idarə forması Azərbaycan Respublikasının tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu saxlamaqla tətbiq edildi.

18 iyul 1988-ci il tarixli iclasın qərarına böyük ümidlər bəslənilirdi. Avqust ayının 2-də (1988-ci il) hər iki respublika başçılarının Xankəndində görüşü oldu. Burada DQMV-nin sosial-iqtisadi və mədəni inkişafını sürətləndirmək üçün hər iki respublikanın imkanlarından tam istifadə edilməsinə dair bir sıra əməli təkliflər hazırlandı.[73] 1988-ci ilin avqustunda SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası oldu və iclasın

gedişi televiziya ilə göstərildi. Burada çıxış edərkən akademik Ambarsumyanı dayandıran Qorbaçov dedi: Əsrin əvvəlində Yerevanda nə qədər azərbaycanlı əhalisi yaşayırdı? Ambarsumyan: deməyə çətinlik çəkirəm. Qorbaçov: Siz bilməyə borclusunuz. Mən sizə xatırladım: Yerevanda əsrin əvvəlində azərbaycanlılar 43 faiz olmuşlar.[74] Hazırda azərbaycanlılar neçə faizdir? Ambarsumyan: hazırda çox azdılar. Bəlkə də bir faizdilər. Hər halda Ambarsumyan ideoloji işçi kimi bilməli və etiraf etməli idi ki, bəli, 11 faiz erməni yaşamışdır.[75] Həmin iclasda yazıçı Vardeqos Petrosyanla da sual-cavab oldu.

Qorbaçov: Sizə də sualım var. Sizin və başqalarının çıxışında belə bir fikir səsləndi ki, Dağlıq Qarabağ problemi ancaq onun Ermənistana verilməsi yolu ilə həll edilə bilər (12 iyun 1988-ci ildə DQMV Sovetinin sessiyası Vilayətin Azərbaycanın tərkibindən çıxması haqqında qərar qəbul etmişdi). Deyin, başqa yol yoxdurmu? Petrosyan: Mixail Sergeyeviç, mən onu görmürəm. Qorbaçov: deyək ki, elə bir qərar qəbul edəydik, siz necə təklif edirsiniz? Bu günlərdə Qarabağda və Yerevanda mitinqlər keçirilir və burada «türklər Qarabağdan rədd olun» şüarları irəli sürülür. Ancaq 400 min erməni Azərbaycanda qalır və onun 207 mini Bakıdadır. 500 min erməni Gürcüstanda yaşayır.[76] Bunları necə həll etməli? Bunları da Ermənistana vermək lazımdır? Petrosyan: Qorbaçovun sualına iş başqa cürdür -– cavabını vermişdi. Burada ermənilərin bütün məqsədi aydın olduğu halda, çox təəssüf ki, belə bir iclasda obyektiv və qəti qərar qəbul olunmadı.

Bundan təxminən bir həftə sonra 1988-ci ilin sentyabrın 3-də Kərkicahan atəşə tutuldu. Kənddə vərəqələr yayıldı. Vərəqədə deyilirdi ki, «Azərbaycanlılar! Sizə Arsax torpağında yer yoxdur». Sentyabrın 21-də bir neçə basqından sonra axırıncı azərbaycanlı Xankəndini tərk etdi. Bununla bərabər 1988-ci ilin sentyabrında sənaye müəssisələrində, tikinti təşkilatlarında və ictimai nəqliyyatda tətillər

törədildi. Məktəblərdə dərslər kəsildi. Vilayət prokurorluğuna basqın təşkil edildi. İctimai asayişi təmin edən SSRİ Daxili İşlər Nazirliyinin hərbi qulluqçularına və milis işçilərinə cismani xəsarət yetirilməsi halları oldu.[77] Nəticədə əhalinin əmin-amanlığı pozuldu. Getdikcə vəziyyət daha da ağırlaşdı və gərginləşdi.

1988-ci ilin axırlarına yaxın hər iki respublikada xüsusi vəziyyət elan edildi. Hadisələrə mərkəzin birtərəfli yanaşması nəticəsində Ermənistanda yaşayan azərbaycanlılar öz doğma yurdlarından çıxarıldılar. Azərbaycana Ermənistandan və Dağlıq Qarabağdan ilk qaçqınlar hələ 1987-ci ilin payızında peyda olmuşdu.[78]

Lakin Azərbaycan dövləti bu haqda heç bir səs-küy qaldırmamış, dünyaya səs salmamışdı. Hadisəyə qonşuluq münasibəti göstərdi və qaçqınların əsas hissəsini avtobuslara mindirib öz yerlərinə qaytardılar. Lakin ermənilər onları yenidən qovdular. Bununla da 1988-ci ilin sonlarına yaxın azərbaycanlıların öz torpaqlarından çıxarılması kütləvi şəkil aldı. Onlar ata-baba yurdlarından könüllü surətdə deyil, zorakılıqla, ağır işgəncə ilə, təhqir və qarət olunmuş vəziyyətdə qışın ən şaxtalı günlərində çıxarıldılar. Çıxarılanlar içərisində kişilərlə bərabər qocalar, qadınlar, uşaqlar da çox idi.

1988-ci il noyabrın axırlarında ən dəhşətli hadisələrdən biri Quqark rayonunda baş verdi. Burada 70 nəfər azərbaycanlı məhv edildi. Onların içərisində güllə yarasından, işgəncədən ölənlərdən əlavə donub ölənlər də vardı. Beləliklə, 1988-ci ilin noyabrında Ermənistandan 160 minə yaxın azərbaycanlı çıxarıldı.[79] Bununla bərabər 1988-ci ildə Ermənistanda 213 azərbaycanlı öldürüldü. Onun təxminən 10 faizi 15 yaşına qədər, 36 faizi isə 60 yaşından yuxarı adamlar olmuşlar.[80] Bunlardan 2 nəfərin başı kəsilib, 11 nəfər diridiri basdırılıb, 2 nəfərin isə meyidi yandırılıb, 3 nəfər doğranıb, 29 nəfər maşınla basdırılıb, 41 nəfər döyülərək öldürülüb, 49 nəfər dağlarda donub, 8 nəfər itkin düşüb və s. Belə vəhşiliklə öldürülənlərin 57-i qadın, 23-ü uşaq olmuşdu.[81]

Ümumiyyətlə, XX əsrin son 90 ili ərzində Ermənistanda yaşayan azərbaycanlılar 86 dəfə soyqırıma məruz qallmışlar.[82]

Bununla bərabər 1988-ci ilin axırlarında öz doğma torpağında azərbaycanlılara qarşı tətbiq edilmiş soyqırım nəticəsi olaraq Qərbi Azərbaycan ərazisində 260 azərbaycanlı kəndi ermənilərə qaldı. Həmin kəndlərdən 187 min azərbaycanlı yurdundan didərgin salındı. 40 min ev boşaldıldı, 6 min ev yandırıldı, 40 min ailənin əmlakı talan edildi. Ermənilər tərəfindən azərbaycanlıların Qərbi Azərbaycandan çıxarılması ilə 25 min yaşayış evi, 35 min həyətyanı bağ-bağça ermənilər tərəfindən zəbt edildi. 32 min şəxsi mal-qara, 35 min qoyun, 800 şəxsi maşın azərbaycanlılardan alındı, 410 köç maşını qarət edildi. Bunlardan əlavə 216 azərbaycanlı kolxozçunun əmlakı, kolxozun 3.420 maşını, 4 mindən artıq traktoru, 43 min iri buynuzlu, 526 min xırda buynuzlu malqarası ermənilərə qaldı. Həmçinin də azərbaycanlı kəndlərində olan məktəblər, klublar, idarələr, uşaq bağçaları və s. ermənilərə qaldı. 120 tarixi abidə, 230 məscid, pir yerləyeksan edildi.[83] Bu dərəcədə göstərilən vəhşiliyin törədilməsinə də Mərkəz yenə susdu və bu susma onun mövqeyinin tam ermənipərəst olduğunu bir daha təsdiq etdi. Azərbaycan rəhbərliyi də həmin qəddarlığa cavab tədbiri görmədi, ermənіləri Dağlıq Qarabağdan çıxartmaq təşəbbüsü göstərmədi. Akademik T.Köçərli haqlı olaraq yazır ki, «O zaman Azərbaycan rəhbərliyi Ermənistanın hərəkətinə adekvat reaksiya versəydi, ermənilər elə o zaman Dağlıq Qarabağı tərk etməli olardılar. Bu, Azərbaycan tərəfindən Ermənistanın azərbaycanlılara qarşı qəddarlığına cavab kimi məcburiyyət qarşısında atılan ədalətli addım olardı» .[84] Çox təəssüf ki, Respublika rəhbərliyi nəinki belə bir addım atmadı və hətta Ermənistandan qovulan azərbaycanlıların Dağlıq Qarabağda yerləşdirilməsinə belə təşəbbüs göstərmədi.

Bu qanlı cinayətdən sonra müasir daşnaklar 1988-ci il dekabrın 10-da toplaşıb Ermənistanı türksüz respublika elan etdilər. Elə həmin vaxtda Ermənistan Elmlər Akademiyası-

nın müxbir üzvü Rəfail Qazaryan Yerevanda teatr meydanında keçirilən mitinqdə etdiyi çıxışında dedi: On illər boyu birinci dəfədir ki, Ermənistanı təmizləmək üçün əlimizə nadir imkan düşdü. Bununla da 1988-ci il fevralın 19-da Yerevanda keçirilən mitinqdə irəli sürülən «Ermənistanı türklərdən (azərbaycanlılardan) təmizləməli» şüarı əyani şəkildə həyata keçirildi.

Ermənilər Ermənistanda əsrlərlə öz ata-baba yurdlarında yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxartmaq naminə tarixi həqiqətlərə məhəl qoymayaraq öz millətçi siyasətlərinin bir hissəsini tam həyata keçirdilər. 1918-ci ildə Ermənistan respublikasında əhalinin 45 faizini azərbaycanlılar təşkil etməklə burada onlar 575 min nəfər olduqları halda Azərbaycanda 1922-ci ildə 240 min erməni əhalisi olmuşdur.[85]

1979-cu ildə isə Ermənistanda azərbaycanlıların sayı üç dəfədən çox azaldığı halda, Azərbaycanda ermənilərin sayı iki dəfədən çox artaraq 487 minə çatmışdır. 1988-ci il hadisələrindən sonra Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadığı halda, Azərbaycanda hələ də erməni yaşayır.[86]

Azərbaycanlıların Ermənistandan çıxarılması vaxtaşırı olaraq ermənilər tərəfindən həyata keçirilmişdi. Hansı ki, hamıya yaxşı məlumdur ki, tarixən Ermənistanda yaşayan əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etmişdi. Bu fikir N.N.Şavrovun Peterburqda nəşr olunmuş «Zaqafqaziyada rus işinə təhlükə» kitabında, V.L.Veliçkonun «Kavkaz» kitabında, ABŞ professoru Castin Makkartinin «Genosid olmuşdurmu?» kitabında, Yerevanda dərc olunmuş «Ermənistan və ətraf rayonların toponimləri lüğəti»ndə təsdiq edən faktlar kifayət qədərdir. Erməni müəlliflərindən Zaren Karkasyan yazır ki, 1920-ci ilədək indiki Ermənistan ərazisində olan 2.300 yaşayış məntəqəsindən 2.000-də azərbaycanlılar yaşayıb. Bu tarixi həqiqəti anlamaq istəməyən, açıq şəkildə bunu inkar edib ərazi iddiasına düşən ermənilər dünyaya səs salaraq özlərini yazıq və mədəni xalq olmalarından danışır-

lar. Əlbəttə, bu məsələdə əsas təqsirkarlar erməni millətçiləri və onların başabəla rəhbərləridir. İ.Çavçavadze yazmışdı: «Bütün bu fırıldaqların, uydurmaların baisləri kimlərdir? Bu nə bəladır ki, başımızın üzərində qara qarğa dövrə vurub qırıldayır?.. Bunun təqsiri ermənilərin məlum bir qrupu və onun kitab yazıb-pozan əlləmələridir».[87]

Beləliklə, XX əsrdə Ermənistandan azərbaycanlıların çıxarılması dörd mərhələdə – 1905, 1918-1920, 1948-1956 və 1988-ci ildə həyata keçirildi. Bununla da ermənilər bu məsələdə məqsədlərinə nail oldular. Deməli, minilliklər ərzində öz ata-baba torpaqlarında yaşayan azərbaycanlılar vəhşiliklə həmin yerlərdən qovuldular. Akademik Z.Bünyadov yazır ki, bu faktı sübut edən bütün tarixi yazılar, abidələr tez bir vaxtda daşnaklar tərfindən məhv edildi.[88] Bundan bir qədər sonra «Qarabağ hərəkatı» vasitəsilə «Demokratiya» bayrağı altında hakimiyyətə gəlmiş Levon Ter-Petrosyanın 9 aprel 1991-ci il tarixli fərmanı ilə yenidən azərbaycançılığı itirmək məqsədilə 91 azərbaycanlı yaşayış yerlərinin adı dəyişdirilib erməni adları ilə əvəz olundu.

Əslində isə azərbaycanlıların yaşadığı kəndlərin adlarının yaddaşlardan silinməsi siyasətinə rəsmən 1935-ci ildən başlanmış və 1978-ci ilədək 465 kəndə yeni ad verilmişdir.[89] Bunlarla bərabər dağların, çayların, bulaqların, göllərin adları da dəyişdirilmişdi.

Respublika Prezidentinin 22 avqust 2001-ci il tarixli fərmanında göstərir: «Tarixi saxtalaşdırmaq, təhrif etmək və Azərbaycan torpaqlarının tarixi adlarını dəyişdirmək, süni surətdə Ermənistanda, hətta yer adlarına qarşı qərəzli siyasət tətbiq edilmiş və minlərlə Azərbaycan toponimi xəritələrdən silinmişdir».

Burası da qəribədir ki, Ermənistan ərazisindəki türk mənşəli toponimlərin izahına Avropa tədqiqatçıları da maraq göstərmişlər. Mais Piriyevin yazdığına görə H.Hübşmanın 1904-cü ildə Strasburqda alman dilində çap olunmuş «Qədim erməni coğrafi adları» əsərində Ermənistan ərazi-

sində yerləşən toponimlərdən başqa, Azərbaycanın inzibati ərazisinə daxil olan Naxçıvan, Əlincə, Gəncə, Bərdə və s. toponimlər Ermənistan toponimləri kimi göstərilmişdi.

Lakin ermənilər bunlarla da kifayətlənmədilər (Bax: «Yeni Azərbaycan» qəz. 5 aprel 2003.).

Saxtalığı özlərinin amalına çevirmiş olan ermənilər Kəlbəcər rayonunun adını dəyişib Karvacar (daşsatan) adlandırdılar. Xanlar rayonundakı Çaykənd kəndi Gedaşen adlandırıldı. Ümumiyyətlə, erməni Sovet Ensiklopediyasında Azərbaycan mənşəli kənd adları dəyişdirilib ermənileşdirildi. «Oqonyok» jurnalı Dağlıq Qarabağı Ermənistanın ən gözəl yerlərindən biri adlandırmışdı. Rus ziyalılarının, erməni meyilliliyindən hiyləgərliklə istifadə edən erməni millətçiləri Azərbaycana qarşı təxribatlarını davam etdirirdilər. A.V.Voronovun «Монументальная скулптура» kitabında (1984), «Основы советского государственного права» (1987) dərsliyində Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsi kimi verilmişdi. Şahen Mkrtıçyanın «Dağlıq Qarabağın tarixi arxitektura abidələri» (1985), Arqam Ayvazyanın «Naxçıvanın memorial abidələri və relyefi» (1987) kitabları Yerevanda nəşr edilmişdir.[90] Bu kitablarda Dağlıq Qarabağın və Naxçıvanın Azərbaycana məxsus olması haqqında bir söz belə yazılmamışdır. Belə saxta, təxribat xarakterli kitablar, məqalələr, məruzələr, çıxışlar və s. çox olmuşdu və hal-hazırda da davam edir. Azərbaycan alimləri – tarixçiləri bu sahədə çox işləməli və erməni saxtakarlığını altüst etməlidirlər. Bu məsələ bütün Azərbaycan xalqının həmişə diqqət mərkəzində olmalıdır. Buna görə də nəinki Dağlıq Qarabağ, Naxçıvan və eləcə də Azərbaycanın hər bir rayonunda erməni canilərinin törətdiyi faciələri, saxtakar təhrifləri yazmaq, obyektiv təkzib etmək və gələcək nəslə çatdırmaq ziyalılarımızın təxirəsalınmaz vəzifəsi olaraq qalır.

Beləliklə, Dağlıq Qarabağı zorla Ermənistana qatmağa çalışan erməni millətçilərinin riyakar fəaliyyəti nəticəsində bir sıra rayonlarda kütləvi halda yaşayan azərbaycanlı

əhali arasında qanlı fəlakətlər törətdilər. Bunun qarşısını almaq üçün SSRİ DİN qüvvələrindən Ermənistan və Azərbaycan ərazisinə 13 minə qədər hərbi qüvvə gətirildi.[91] Fevral hadisələrindən sonra Ermənistan ərazisində ilk hərbi birləşmələr yaradıldı. Bu «Qarabağ» komitəsinin rəhbərliyinə tabe edildi. 1988-ci ilin noyabrın axırı, dekabrın əvvəlində erməni hərbi birləşmələri geniş ərazidə əməliyyatlarını həyata keçirdilər. Onlar yerli orqanların köməyi ilə daxili qoşun hissələrinin fəaliyyətsizliyi şəraitində azərbaycanlıları öz doğma yerlərindən çıxartdılar. Bu Azərbaycanda şəraiti daha da gərginləşdirdi. Bakıda, Gəncədə, Naxçıvanda, Lənkəranda və başqa yerlərdə kütləvi etiraz hərəkatları başlandı. SSRİ-də ümumi böhran, Moskvanın qəti fəaliyyətsizliyi erməni separatçı liderlərində belə bir inam yaratdı ki, artıq Qarabağı Azərbaycandan zorla almaq olar. 1989-cu ildən başlayaraq ermənilərin bütün cəhdi, siyasi tədbirləri İttifaq və beynəlxalq səviyyədə həmin vəzifənin yerinə yetirilməsinə yönəldildi. Belə bir şəraitdə erməni millətçiləri qarşılarına qoyduqları birinci vəzifə – Ermənistan ərazisində yaşayan azərbaycanlıları öz ata-baba torpaqlarından çıxartmaq idi və buna nail oldular. İkinci vəzifə Dağlıq Qarabağı Ermənistanla birləşdirmək idi və bunun üçün Azərbaycana qarşı açıq təcavüzə keçməyə başladılar.

Deməli, Ermənistan rəhbərliyinin Dağlıq Qarabağ məsələsində yeni taktiki xətt belə idi: Ermənistanla həmsərhəd olan bütün Azərbaycan ərazilərinə hücum etmək, həmin rayonları işğal etmək yolu ilə Azərbaycanı Dağlıq Qarabağın zorla ilhaqına razılıq verməyə məcbur etmək.

1988-ci ilin axırlarında Ermənistandan qovulan azərbaycanlılar əsasən Bakıya toplaşdılar. Azərbaycan KP MK-nin binası qarşısına gələn qaçqınlar öz dəhşətli vəziyyətləri haqqında şikayətlərini bildirərək, onların imkan dairəsində dağ rayonlarında, Qarabağda yerləşdirilmələrini xahiş etdilər. Bununla bərabər Ermənistandan həmin vaxtlarda Şuşaya təxminən min azərbaycanlı ailəsi gəlmişdi və onlar bura-

da yerləşdirilmişdi. Lakin bu vəziyyət çox davam etmədi. Vilayətin o vaxtkı rəhbəri Poqosyanın Moskvaya müraciətindən sonra respublika rəhbərliyi Şuşaya gələn qaçqınların təcili olaraq buradan köçürülməsini, aran rayonlarına aparılıb yerləşdirilməsini təşkil etdi. Şuşa və Laçının işğalının dördüncü ildönümü ilə əlaqədar Azərbaycan prezidenti H.Əliyevlə görüşdə Şuşa rayon İcra hakimiyyətinin başçısı Nizami Bəhmənov haqlı olaraq Ermənistandan gələn qaçqınlar «Dağlıq Qarabağda qalsaydılar bizə böyük qüvvə olardılar» fikrini vurğulamışdı (Bax: «Xalq» qəzeti, 8 may 1996-cı il). Çox təəssüf ki, respublika rəhbərliyi buna razılıq vermədi. Bəlkə də o zaman dəhşətli qəddarlıqla öz doğma torpaqlarından qovulmuş azərbaycanlılar Dağlıq Qarabağda saxlanılmış və yerləşdirilmiş olsaydılar, şübhəsiz, ermənilər Qarabağda sıxışdırıla bilərdi. Hadisələr öz məhvərindən dönərək başqa cür istiqamət alardı.

Hələ 1988-ci il iyunun 21-də DQMV Xalq Deputatları Sovetinin sessiyası SSRİ Ali Sovetindən xahiş etdi ki, yaranmış vəziyyətlə əlaqədar olaraq vilayət SSRİ hökumətinin tabeliyinə verilsin. Bununla bərabər Z.Balayanın belə bir fikri də bəyan edildi ki, 1813-cü ildə Rusiya və İran arasında bağlanmış Gülüstan müqaviləsinə görə Qarabağ xanlığının ərazisi Çar Rusiyasına tabe edilmişdi və hal-hazırda da keçmiş Şaumyan rayonu ərazisi də daxil olmaqla «Muxtar Respublika» Rusiya Federasiyasının tərkibində olmalıdır. Çox təəssüf ki, respublika rəhbərliyi yenə də səhv mövqe tutdu və buna ciddi etiraz etmədi. Bununla da 1988-ci ilin sentyabrında DQMV-i üzrə xüsusi idarəçilik forması yaRadıldı və DQMV-ə rəhbərlik Sov.İKP MK-nın, SSRİ Ali Sovetinin və SSRİ Nazirlər Sovetinin səlahiyyətli nümayəndəsi, tam ermənipərəst Arkadi İvanoviç Volskiyə tapşırıldı.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli qərarı ilə Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla A.İ.Volskinin sədrliyi ilə DQMV-nin Xüsusi İdarə Komitəsi yaRadıl-

dı.[92] Bu, əslində Azərbaycanın hüquqlarını pozmaq idi. Lakin buna baxmayaraq Azərbaycan xalqı bu komitəyə böyük ümidlər bəsləyirdi. A.Volskinin başçılığı altında yaradılan komitənin fəaliyyəti ümidləri doğrultmadı. Volskinin hakimiyyətə başladığı 10 gün ərzində (18-21 sentyabrda) Stepanakertdən 12 min nəfər azərbaycanlı qovuldu. Deməli, Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü.

A.Volski hakimiyyətə başladığı vaxtdan az sonra DQMV-nin 55 yaşayış məntəqəsində azərbaycanlıların silahlarını yığdırdı. Laçın-Gorus yolu ilə Ermənistandan gətirilən silahlar isə ermənilərə paylandı. 1989-cu ilin 26 ma-rtında Volski Azərbaycandan SSRİ Ali Sovetinə deputat seçildi.

Az müddət içərisində demək olar ki, vilayət Azərbaycan hökumətinin nəzarətindən çıxdı. Vilayət İcraiyyə Komitəsi binasının üzərində dalğalanan Azərbaycan bayrağını çıxardıb Ermənistanın bayrağını sancdılar. Bunu dəyişən adam həbs edilsə də tez bir vaxtda azad edildi. Dağlıq Qarabağda müəssisələr mərkəzin tabeçiliyinə keçirildi. Bütün sənədlərdə DQMV-i Azərbaycanın tərkibindən çıxarıldı. SSRİ Dövlət Plan Komitəsinin hesabat sənədlərində Dağlıq Qarabağ əslində on altıncı müttəfiq respublika kimi göstərildi. Hər gün Stepanakert-Yerevan marşrutu üzrə təyyarələr 22 dəfə reysə çıxdılar.[93]

Sentyabr və oktyabr aylarında Stepanakertdə azərbaycanlılara qarşı mübarizə daha da artdı. Onların evləri, maşınları yandırıldı. Ağdərə rayonundakı gizli təyyarə meydanına, Şaumyan, Xanlar rayonlarına silahlar daşındı. Azərbaycanlılar yaşayan kəndlərdə vəziyyət getdikcə ağırlaşdı. Belə şəraitdə 1988-ci il dekabrın 1-də Moskvada on birinci çağırış SSRİ Ali Sovetinin növbədənkənar on ikinci sessiyası toplandı. Sessiyada A.İ.Volski etdiyi çıxışında dedi ki, əhalinin bir çox təbəqələri vilayətin Azərbaycandan ayrılması uğrunda mübarizəyə o dərəcədə cəlb edilmişlər ki, emosiyalar kamala üstün gəlmişdir. Uzun-uzadı tətillər başlanmışdı.

Ehtiraslar istər rəsmi, istər də qeyri-rəsmi liderlər tərəfindən daim qızışdırılırdı. Biz külli məbləğdə rüşvət almaq üstündə bu günlərdə Dağlıq Qarabağda həbs edilmiş Manuçarov kimi korrupsiyaya qurşanmış qudurğan şəxslərin rolunun hər iki respublikada artdığını görürük. Bəzi partiya və sovet orqanları isə təəssüf ki, onların nazı ilə oturub-durur, prinsipial mövqelərdən geri çəkilirlər.[94]

Həmin sessiyada DQMV-də və onun ətrafında vəziyyət haqqında deputat qrupunun sorğusu üzrə SSRİ Ali Sovetinin 1 dekabr 1988-ci ildə qəbul etdiyi qərarda göstərilirdi: SSRİ Ali Sovetinin Rəyasət Heyətinə tapşırılsın ki, göstərilən regionda vəziyyti normal hala salmaq sahəsində təxirəsalınmaz tədbirlərin müzakirəsi azərbaycanlı və erməni vətəndaşlar arasında beynəlmiləl dostluğun bərpası üçün partiya, dövlət təşkilatlarının və ictimai təşkilatların nümayəndələri ilə birlikdə DQMV-dən, Azərbaycan SSR-dən və Ermənistan SSR-dən seçilmiş SSRİ Ali Soveti deputatlarının müşavirəsini keçirsin.[95]

Lakin göstərilən qərarlar heç bir müsbət nəticə vermədi və vəziyyət daha da ağırlaşdı. Qarabağda yaradılmış idarə və onun başçısı Volskiyə gəldikdə onun televiziya ilə, mərkəzi qəzetlərin səhifələrində etdiyi çaş-baş və dumanlı çıxışları ictimaiyyəti real vəziyyəti düzgün başa düşməkdən yayındırdı. Bir sözlə, Moskvanın göstərişi əsasında Ermənistanın iradəsi ilə fəaliyyətini davam etdirdi. Bu da nəhayət azərbaycanlıların vilayət ərazisindən tədricən çıxarılması ilə nəticələndi.

Bütün bu haqsızlıqlara cavab olaraq Azərbaycanın müxtəlif şəhər və rayonlarında mitinqlər oldu, azərbaycanlıların Ermənistandan və vilayətdən çıxarılmasına cavab olaraq ermənilərin sıxışdırılması başlandı. 1989-cu ilin martın sonuna 190 min ermənidən cəmi 23 min adam Azərbaycanı tərk etdi. Bu dövrdə hətta ermənilər Sovet İttifaqını tərk etməyə başladılar. Amerikanın «Filadelfiya İnkuayer» qəzetinin verdiyi mlumata görə 1988-ci ilin 7 ayı ərzində SSRİ-

dən xaricə, ABŞ-a daimi yaşamaq üçün 13 minə yaxın erməni getmişdi.[96]

Bakı ermənіləri əsasən Rusiyaya köçürdülər. Çox az adam «Böyük Ermənistan» adlandırılan yerə üz tuturdu. Çünki orada onları bir o qədər də yaxşı qarşılamadılar. Həm də onlar «Böyük Ermənistan» siyasəti ilə razı deyildilər. Ona görə də Bakıdan köçənlərin cəmi 7 mini Ermənistana, qalanı isə RSFSR-ə köçmüşdü.[97] Lakin Azərbaycandan gedən ermənilər sakit şəraitdə öz şəxsi evlərini, mülklərini sataraq ev əşyaları ilə sağ-salamat getmişlər. Azərbaycanlılara gəldikdə onlar Ermənistandan işgəncələrlə qovulmuşlar. Bu hal ermənilər tərəfindən sükutla qarşılandığı halda, ermənilərin Azərbaycandan getməsi böyük həyəcana səbəb olmuşdur. Hətta ayrı-ayrı şəxsiyyətlər tərəfindən həmin vəziyyət qeyri-obyektiv qiymətləndirilmişdi. Buna misal olaraq akademik Saxarovu göstərmək olar. O, 1988-ci ilin dekabr ayında Bakıya gəlməmişdən bir neçə gün əvvəl radio ilə verdiyi yalan məlumatında bütün dünyaya bildirmişdi ki, Azərbaycanda ermənіləri növbəti dəfə Kirovabadda (Gəncədə) qırırlar. Hansı ki, 193 nəfər öldürülmüş, 187 nəfər isə yaralanmışdı. Bununla əlaqədar olaraq o tələb etdi ki, Dağlıq Qarabağın erməni əhalisindən özünümüdafiə silahlı dəstələri yaradılsın.[98]

Saxarovla Bakıda görüş keçirilərkən yazıçı Maqsud İbrahimbəyov ona müraciət edərək demişdi: Sizə məlumdurmu ki, Kirovabadda (Gəncədə) 8 nəfər həlak olmuşdur. Bunların ikisi erməni, bir azərbaycanlı, azərbaycanlı qadın uşağıyla, ukraynalı, belorus və rus millətinin nümayəndələri – üçü əsgər olmuşlar. Bəs siz haradan 193 sayını götürmüsünüz. Saxarov etiraf edib bildirmişdi ki, səhv edib, rəqəm məsələsində diqqətli olmaq lazımdır.

Tarixi faktlarla hesablaşmayan ermənilər ərazi iddialarını daha da artıraraq hətta Şuşanın yaxınlığında olan Topxana məsələsini ortaya atdılar. Bu da Azərbaycanda, xüsusilə Bakıda ehtirasların daha da qızışmasına təkan verdi.

Azadlıq meydanında xalqın haqlı olaraq buna etiraz mitinqləri, yığıncaqları keçirildi və bu, tədricən müstəqillik yoluna keçməsi hərəkatının başlanğıcı oldu. Gündən-günə həmin xalq hərəkatı geniş vüsət aldı. Lakin bu xalq hərəkatı Qorbaçovun və onun havadarlarının xoşuna gəlmədi. Ona görə də meydana toplaşan dinc, vətənpərvər xalqın nümayəndələri 1988-ci il dekabrın 5-də işgəncə içərisində oradan çıxarıldılar.

Erməni lobbisi öz millətçi fəaliyyətlərini Qarabağda, Ermənistanda, habelə ölkənin ayrı-ayrı şəhər və vilayətlərində, mətbuat səhifələrində Azərbaycana qarşı apardıqları düşmənçilik təbliğatlarını hətta xaricdə öz havadarları arasında da geniş şəkildə yayırdılar. 1989-cu ilin fevralında ABŞ-da erməni lobbisi Dağlıq Qarabağda erməni-Azərbaycan münaqişəsinin bir illiyini qeyd etmək məqsədi ilə Kolumbiya Universitetində konfrans keçirdi. Bu konfransa bir sıra elm xadimləri ilə birlikdə Azərbaycan məsələləri üzrə görkəmli mütəxəssis Tadeuş Svyatoxovski də dəvət olunmuşdu. Konfransda T.Svyatoxovski etdiyi məruzəsində göstərdi ki, Zaqafqaziyada, eləcə də Azərbaycanda yaşayan ermənilər bura gəlmədilər. Onların çox hissəsi XIX əsrdə Türkiyə və İrandan köçürülən ermənilərdir. Onlar xristian mənsəbinə daxil olduqlarına görə çar Rusiyası ilə xüsusi əlaqələri olmuşdu. Ermənilər Osmanlı imperiyasında əsasən ölkənin şərq hissəsində yaşamış və Çar hökuməti özünün xarici siyasətində onlardan istifadə etmişdi. Qafqazda rus ordusunda xeyli miqdarda erməni xidmət etmişdi. Ermənilərin hazırkı vaxtda ərazi iddiasına gəldikdə demək lazımdır ki, bu ermənilərin böyük haqsızlığıdır. Əvvəla, hər şeydən əvvəl ermənilərin bura gəlmə xalq olduğunu unutmaq olmaz. Bununla bərabər mən demək istəmirəm ki, Qarabağda heç erməni yaşamayıb. Əlbəttə, Qarabağ xanlığı tərkibində ermənilər yaşayıblar. Lakin onlar hər cəhətdən Ermənistana nisbətən Azərbaycanla daha sıx əlaqəlidirlər. Eyni zamanda onu da unutmaq olmaz ki, ermənilər başqa bir respubli-

kanın daxilində yaşadıqlarına görə onlar tərəfindən irəli sürülən ərazi iddiası tamamilə haqsızlıqdır.

O, məruzəsinin sonunda bildirmişdi ki, indi hər şeydən əvvəl, iki xalq arasında dostluq münasibətlərinin yaradılması haqqında düşünmək lazımdır. Bu xalqlar arasında dostluq bərqərar olmalıdır. Qan axıdılmasına yol vermək olmaz, o halda dostluğu bərpa etmək çətin olar.

Şübhəsiz, professor T.Svyatoxovski tərəfindən obyektiv deyilmiş sözlər ermənilər tərəfindən həqiqətin qəbul edilməsi və münasibətlərin nizama salınması üçün yollar axtarılması əvəzinə qəzəblə qarşılandı. Burada müdrik atalar sözü xatırlanır: həqiqət həmişə acı olur. Dağlıq Qarabağın Ermənistana verilməsi ideyasını ortaya atanlar və buna nail olmaq naminə bütün vasitələrdən istifadə edən ermənilər içərisində özlərinin bu tələbləri ilə kifayətlənməyərək Naxçıvan məsələsini də irəli sürənlər az olmadı. Belələrindən biri «yazıq» ermənilərin böyük müdafiəçisi Q.Starovoytova oldu. O, seçkiqabağı tədbirlərdə Yerevandan İttifaq parlamentinə mandat almaq xatirinə bütün qüvvə və bacarığını sərf edərək ermənilər müdafiə etdi. Hətta 1989-cu ilin fevralında «Rodina» jurnalında Starovoytova Naxçıvan məsələsini açıq şəkildə irəli sürdü və göstərdi ki, Ermənistanın ürəyində yerləşən Naxçıvan MSSR heç bir ümumi sərhədi olmayan Azərbaycanın tabeliyindədir. Starovoytovanın iftiraçı çıxışı millətlərarası münasibətlərə kömək etmədi və əksinə daha da gərginləşdirdi. Bunun nəticəsində də Starovoytovanın dediyin az sonra Z.Balayan B.Yeltsinə yazdığı məktubda bildirdi ki, Naxçıvan MSSR-i mütləq ləğv edib onu ermənilərə vermək lazımdır. Ermənilər bu haqsız tələblərinə o dərəcədə əmin oldular ki, hətta «Sovetski Karabax» qəzetində 1989-cu il üçün hazırlanan medalın bir tərəfində Naxçıvan Muxtar Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti daxil olmaqla Ermənistanın xəritəsi həkk olundu. Bu da «Böyük Ermənistan»ın yaradılmasının simvolu oldu.

Starovoytovanın qeyri-obyektiv çıxışından sonra 1989-cu il iyunun 6-da SSRİ xalq deputatlarının qurultayında B.B.Dadamyan özünün saxta və məsuliyyətsiz çıxışında dedi ki, Ermənistanın qədim torpağı olan Naxçıvan 1921-ci ildə Rusiya-Türkiyə müqaviləsi və Türkiyənin tələbi nəticəsində Azərbaycana verildi.[99] O, bu haqsız fikri ilə RSFSR hökumətinə də böhtanlar yağdırdı. Bütün bunlara baxmayaraq Azərbaycan xalqı münasibətləri həmişə danışıqlar yolu ilə nizama salmaq tərəfdarı oldu. 1988-ci ilin 7 dekabrında Ermənistanda zəlzələ baş verərkən faciə ilə əlaqədar olaraq Azərbaycan hökuməti Ermənistan hökumətinə başsağlığı verdi və ona yardım etməyə hazır olduğunu bildirdi. Elə ilk gündən bədbəxtlik üz vermiş rayonlara yüzdən artıq ekskavator, buldozer, avtokran göndərildi. Azərbaycan 70 min ton avtomobil, dizel yanacağı, habelə su boruları, kabel, səhiyyə briqadaları və s. ilə bərabər 5 milyon manat pul toplayıb faciə yerinə yardım üçün göndərdi. Faciənin səhəri günü Azərbaycandan müxtəlif mütəxəssislərdən ibarət xüsusi dəstələr göndərildi. Orada onlar birinci iş günündə 63 adamı xilas etdilər, xeyli miqdarda torpağın altından meyid çıxartdılar, başqa bərpa işləri gördülər. Bunun əvəzində 1988-ci il dekabrın 9-da Bakıdan – «Azneft»dən gedən mexanikləşdirilmiş dəstələrə bir saat belə işləmələrinə yol vermədilər. Hətta Leninakan və Spitak arasındakı məsafədə avtomaşınlara hücum edərək bildirdilər ki, bizə sizin köməyiniz lazım deyil, rədd olun qayıdın Azərbaycana.

1988-ci il dekabrın 11-də Azərbaycandan Ermənistana köməyə gedən hərbi təyyarə qəzaya uğradı və nəticədə 74 nəfərin 73-ü həlak oldu. Bu, Azərbaycan xalqı üçün böyük faciə idi. Ermənilər belə məlumat verdilər ki, guya duman nəticəsində qəza baş vermişdi. Moskvadan televiziya və radio ilə həmin saxta məlumat təkrar edildi. Ancaq dörd il sonra hadisə haqqında düzgün və dəqiq məlumat alındı. Bunu bildirən Səbuhi Səmədov oldu. Onun 3 yanvar 1992-ci il tarixli «Səhər» qəzetində verdiyi məlumatda göstərilirdi ki,

11 dekabrda təyyarə qəzaya uğrayan gün günəşli və çox aydın bir gün idi. Heç bir duman əlaməti yox idi. Mən gördüm ki, təyyarə meydanı üzərində bir təyyarə necə fırlanır. Təyyarə meydanında çoxlu maşınlar var idi. Onun yerə enməsinə imkan yaradılmadı. Belə şəraitdə təyyarə 3-4 dəfə meydan üzərində dövr etdikdən sonra uzaqlaşdı və həmin anda güclü partlayış oldu. Leninakan üzərində həmin təyyarənin dumana görə qəzaya uğradığını eşidəndə təəccüb qaldım. Bu hadisədən bir gün qabaq 10 dekabrda Yuqoslaviya təyyarəsi diversiyanın qurbanı olmuşdu. Bu təyyarədə terrorçular səhv etmişlər. Təyyarə Belqrad-Anqara-Yerevan marşrutu ilə uçurdu. Ona görə də belə güman etmişlər ki, bu Türkiyə təyyarəsidir. Buna görə də partlatmışlar. Bundan peşiman olan ermənilər həlak olan yuqoslaviyalılara abidə qoydular.[100]

Zəlzələ hadisəsi ilə əlaqədar olaraq ölkənin hər yerindən, o cümlədən Moskvadan, Leninqraddan, Ukraynadan, Belorusiyadan və digər yerlərdən ermənilərə ardı-arası kəsilməz köməklik göstərildi. Hətta xarici dövlətlərdən də böyük köməklik edildi. Xarici dövlətlərdən edilən köməkliyi «Qarabağ» komitəsi öz əlinə aldı. Aşot Manuçaryan Koliforniya qubernatoru Corc Tokmadcyana və Parisə yardım haqqında müraciət etdi və həmin kanallar vasitəsilə Fransa və Amerikadan yardım alındı.

Lakin yardım pərdəsi altında Ermənistanın silahlandırılması sahəsində də az iş görülmədi. Parisdə çıxan qəzetlərdən birində belə bir məlumat verildi ki, son həftələrdə Livandan Yerevana gələn təyyarələrdə ağır silahlar – minamyotlar, avtomatlar gətirilir. Təyyarələrin boşaldılması gecələr erməni silahlılarının nəzarəti altında aparılır. Artıq neçə gündür ki, aeroportda bir nəfər belə rus əsgəri xidmət etmir. Nə vaxt ki, Dağlıq Qarabağda vəziyyət gərginləşir Yerevan və Azərbaycan sərhədində olan Ermənistan kəndlərində çoxlu adamlar görüşürlər. Bu banda dəstələrinin başında Beyrut və Dəməşqdən gələn ermənilər tez-tez gör-

mək olur. Belə şəraitdə ermənilər «Böyük Ermənistan» məsələsini irəli sürərək yeni yerlər ələ keçirmək istəyirdilər. Guya «Böyük Ermənistan» torpaqları köçəri vəhşilər tərəfindən tutulub, bədbəxt ermənilər məhv ediliblər. Ona görə də onlar dünyanın hər yerinə yayılıblar. Bu gün həmin ədalətsizliyi aradan qaldırmaq lazımdır. Bu işdə dünya ictimaiyyəti birgə qüvvə ilə ermənilərə kömək edib torpaqların qaytarılmasına nail olmalıdır. Bura bir sıra yerlər daxildir. O cümlədən Qərbi Ermənistan bura – təxminən bütün Türkiyə və Suriya daxildir. Şərqi Ermənistan – bura Azərbaycan, Gürcüstan və İranın bir hissəsi daxildir. Şimali Ermənistan - bura isə Stavropol, Krasnodar, Rostov vilayəti və Voronejə qədər olan yerlər daxil idi.[101] Bu torpaqları «XX əsr köçərilərindən» azad etdikdən sonra ermənilərə köməklik edib dənizdən-dənizə (Qara, Aralıq, Xəzər dənizləri nəzərdə tutulur) Böyük Ermənistan yaratmaq lazımdır.

Belə xülyalarla yaşayan ermənilər təsadüfi deyildir ki, zəlzələdən ziyan çəkənlərin taleyini həll etmək əvəzinə və hətta zəlzələ nəticəsində yaralıları xilas etmək uğrunda hakimlərin mübarizə apardığı çətin bir şəraitdə «Qarabağ» liderləri 1988-ci il dekabrın 10-da icazə almadan Yerevanda Yazıçılar evinin yaxınlığında mitinq təşkil etdilər. Bu hal vəziyyəti daha da gərginləşdirdi.

Hər iki respublikada yaranmış vəziyyəti bir daha öyrənmək və nizama salmaq məqsədi ilə 1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağda və onun ətrafında yaranmış vəziyyətlə əlaqədar məsələni ətraflı müzakirə etdi. Bu məsələ barəsində Azərbaycan və Ermənistan KP-nin MK-nın birinci katiblərinin məlumatları dinlənildi. Bununla bərabər Moskvada Azərbaycan SSR və Ermənistan SSR rəhbərlərinin görüşü keçirildi. Bu görüşdə regionda vəziyyətin normal hala salınması ilə bağlı olan bir çox məsələlər müzakirə edildi və göstərildi ki, vəziyyətin qeyri-sabitliyi hər iki tərəfin təcili tədbirlər görülməsini tələb edir. 1989-cu il yanvarın 13-də Azərbaycan par-

tiya fəallarının yığıncağı oldu. Burada Moskvada keçirilən görüş haqqında məlumat verildi. Münasibətləri normal hala salmaq vəzifələrindən danışıldı.[102]

Lakin «Qarabağ» və «Krunk» komitələrinin liderləri millətlərarası ədavəti daha da qızışdıraraq bundan ərazi iddiası məqsədləri üçün istifadə etdilər. Onlara Sov.İKP MK aprel (1989-cu il) plenumunun, SSRİ Xalq deputatları qurultayının qərarları, 1989-cu ilin avqust ayının 15-də aktyor evində keçirilmiş yığıncaqda Azərbaycan respublikası ziyalılarının müraciəti və s. də təsir etmədi. Müraciətdə göstərilirdi: Dağlıq Qarabağda xüsusi idarəetmə formasının tətbiqi vəziyyəti sabitləşdirə bilmədi. Xalqın güzəranı daha da ağırlaşdı. Camaat daim qorxu içində yaşayır. Doğma respublikada azərbaycanlılar yaşayan kəndlərlə əlaqə tez-tez pozulur, ərzaq göndərilməsi təmin olunmadı, işıq, rabitə xətləri tez-tez kəsildi, kəndlərə silahlı basqınlar təşkil edildi.[103] Biz, Azərbaycan ziyalıları, humanist hisslərdən çıxış edərək, xalqımızı təmkinli, səbrli olmağa, fitnə və şaiyələrə uymamağa çağırırıq, həmişə əmin-amanlıq, barışıq, ədalət yolu təklif etmişik. Dönə-dönə Ermənistan xalqına, ziyalılarına müraciətlə onları ağıla və müdrikliyə çağırırıq.[104]

Azərbaycan SSR EA-nın akademikləri SSRİ xalq deputatlarına müraciət qəbul etdilər.[105] Müraciətdə Ermənistanın Dağlıq Qarabağı özünə birləşdirməsi planı pislənir və vilayətdə muxtariyyət hüquqlarının Lenin ideyalarına uyğunluğu göstərilir, «Dağlıq Qarabağ problemi»nin ləğv edilməsi tələb olunur və Ermənistandan qovulan azərbaycanlıların geriyə qaytarılmasının təşkil olunması xahiş edilirdi. Aydındır ki, bütün bunlar ermənilər üçün zərrə qədər təsirli deyildi. Düşmənə prinsipial qiymət verilməli və ordu yaradıb vətən torpağını müdafiə etmək lazım idi.

Belə müraciətlərə məhəl qoymayan ermənilərin ədalətsiz ərazi iddiaları öz həddini aşdı və hətta erməni millətinin nümayəndələri içərisində də bunu qəbul etməyənlər oldu. Belələrindən biri Vətən müharibəsi iştirakçısı 70 yaşlı Bakı

sakini Qavril İvanoviç Petoyan oldu. O, 1989-cu il avqustun 30-da özünü 8-ci mərtəbədən yerə tulladı. Hadisə yerinə gələn müstəntiq onun cibindən yazdığı məktubu tapdı. 9 sentyabr (1989-cu ildə) tarixli «Azərbaycan gəncləri» qəzetində «Belə biabırçılığa dözə bilmirəm» başlığı ilə çap olunmuş Petoyanın yazısında göstərilirdi: Mən öz ölümümdə Ermənistan və Dağlıq Qarabağ erməni ekstremistlərini təqsirləndirirəm. Oxuduğum qəzetlərdə, televiziya, radio verilişlərində görürəm ki, onlar Azərbaycan xalqına qarşı nə qədər bədbəxtlik, faciələr törətmişlər. Mən bunları həmişə düşünürəm və bu biabırçılığa dözə bilmirəm. Buna etiraz əlaməti olaraq özümü qurban verirəm.

Münasibətləri nizama salmaq məqsədilə Sov.İKP MK-nın təşəbbüsü ilə 31 avqustda (1989-cu ildə) xüsusi görüş keçirildi. Görüşdə Azərbaycan və Ermənistan KP MK büroları üzvləri və üzvlüyə namizədlər iştirak etdilər. Burada regionda vəziyyətin gərginləşməsi müzakirə edildi. Hər iki respublikanın KP MK büro üzvləri yekdilliklə razılaşdılar ki, regionda millətlərarası münasibətlərin bütün mürəkkəbliyinə baxmayaraq qarşılıqlı dözüm, iki xalqın taleyinə göstərilən dərin maraq şəraitində istənilən məsələni həll etmək olar və lazımdır. Lakin erməni millətçiləri 1989-cu ilin sentyabrında yeni bir məsələni – dəmir yolunda blokada məsələsini ortaya atdılar. Sentyabrın axırlarında Ermənistan SSR-in Moskvadakı daimi nümayəndəliyi mətbuat konfransı keçirdi. Mətbuat konfransında Ermənistan SSR-dən SSRİ xalq deputatları S.Hambartsumyan, H.İgityan, S.Sarkisyan, L.Arutunyan, habelə mərkəzi orqanların ermənilərdən ibarət məsul işçiləri iştirak etdilər. Söhbətin mövzusu: Azərbaycan dəmir yolunda qoyulmuş blokadanın Ermənistan xalq təsərrüfatı üçün nəticələri məsələsi oldu.

Soruşulur blokadanın səbəbkarı kim idi? Şübhəsiz, erməni millətçiləri. Azərbaycan dəmir yolunun Ermənistan respublikasının Meğri rayonunun ərazisindən keçən sahəsində ermənilər dəmir yol qatarlarının hərəkətinə mane ol-

maq üçün hər cürə alçaqlığa əl atdılar. Belə ki, yolun yatağına daş-kəsək tökülür, yol qurğuları partladılır, qatarlara atəş açılır, dəmiryolçular, sərnişinlər döyülür və öldürülürdü. Təkcə 1989-cu il oktyabrın 7-də axşam saat 22.50 dəqiqədə 347-ci kilometrdə 2731 №-li qatar Kərcevan stansiyasına yaxın gülləbaran edilmişdi.[106] 23.50 dəqiqədə 2703 №-li qatar atəşə məruz qalmışdı. 00.55 dəqiqədə 2704 №-li qatarın üzərinə daş, qaya uçurulmuşdu. Qatarların hərəkətinə mane olmaq cəhdi 1-45 dəqiqədə 2766 №-li qatara və 1.50 dəqiqədə 2767 №-li qatara da olmuşdu. Oktyabrın 8-də Kərcevan stansiyasında dəmir yol xətlərini yoxlayarkən daxili qoşunlar polkovniki Uqolkov çox möhkəm partlayıcı qurğunu zərərsizləşdirmişdi.[107]

Beləliklə, erməni caniləri Bakı-Naxçıvan-Yerevan dəmiryol xəttinin Ermənistan SSR Meğri rayonundan keçən 42 kilometr sahəsini blokadaya aldılar. Atəş açmaq vasitəsilə qatarların hərəkəti ləngidi, yüklər yollarda qaldı, dəmiryolçu maşinistlər, minik vaqonları gülləbaran edildi. Buna cavab olaraq azərbaycanlılar etiraz tətili keçirdikdə erməni millətçiləri «Blokada!», «Blokada!» deyib şivən qopartdılar. SSRİ Yollar naziri N.S.Konarev belə faktlara göz yumdu. Bu dözülməz vəziyyət haqqında dəfələrlə Ermənistan hökumətinə, habelə Mərkəzə xəbərdarlıq edildi, mətbuat səhifələrində işıqlandırıldı. Lakin heç bir lazımi nəticə əldə edilmədi. Məhz buna görə də magistralda hərəkət dayandırıldı. Belə olan halda erməni millətçiləri Moskvada SSRİ Ali Sovetinin sessiyasında, mətbuat səhifələrində, mətbuat konfransında qara-qışqırıq salıb bildirdilər ki, Azərbaycan Ermənistanı blokadaya alıb. Bu haqsız böhtan Rusiyaya, Avropaya, ABŞ-a çatdırıldı.

Akademik C.Quliyev «Dağlıq Qarabağ: millətin tale məsələsi» məqaləsində (Bax: «Kommunist» qəzeti, 20 mart 1991-ci il) yazırdı ki, Vaşinqtonun erməni ümumi xeyriyyə ittifaqının məlumat xidməti «Si-En-En» televiziya şirkəti ilə «Ermənistan və Artsax» haqqında birgə proqram hazırla-

maq üçün müqavilə imzalanmışdır. Həmin müqaviləyə əsasən oktyabrın 9-da (1990-cı ildə) «Ermənistan blokadası» haqqında ermənilərin çəkdiyi böhtançı uydurma lent amerikalılara göstərilmişdir.

Qəribə məntiqdir. Ermənilər anlamaq istəmirdilər ki, qatarların dayanması ilə hər şeydən əvvəl Naxçıvan Muxtar Respublikası çətinliklər qarşısında qalırdı. Azərbaycan hökuməti bu vəziyyətə biganə qala bilməzdi. Deməli, Azərbaycanı qatarların hərəkətini dayandırmağa vadar edən elə ermənilərin düşmənçilik hərəkətləri idi. Yalnız Moskva işə qarışdıqdan sonra erməni tərəfi yol işçilərinin və sərnişinlərin təhlükəsizliyi üçün təminat verdi. Lakin az sonra bu təminata da məhəl qoyulmadı. Hətta ermənilər öz respublikalarında mənzil tikintisinin pozulmasının əsas səbəbini Azərbaycanda, blokadada gördülər. Yerevanda mətbuat konfransında deyilirdi: Real təhlükə var ki, üzümüzə gələn qışda da evsiz-eşiksiz qalmış minlərlə adamlar çadırlarda yaşamalı olsunlar.[108]

Ancaq mənzil tikintisində işlərin bərbad halda olmasının səbəbi başqa idi. Bunu tam yəqin etmək üçün Sov.İKP MK Siyasi Bürosunun Ermənistan SSR-də zəlzələnin nəticələrinin ləğvi üzrə komissiyanın iclasları haqqında olan məlumatlara nəzər salaq. Məsələn, 1989-cu il fevralın 9-da SSRİ Nazirlər Soveti sədrinin müavini L.A.Voroninin sədrliyi ilə keçən komissiyanın iclasında qeyd edilmişdi ki, ilin əvvəlindən bəri birinci kvartalın proqramı yalnız 13 faiz yerinə yetirilmişdi.[109] 1989-cu il fevralın 21-də L.A.Voroninin sədrliyi ilə keçən komissiyanın iclasında Ermənistan SSR Dövlət Tikinti Komitəsinin işi ciddi tənqid edilmişdi. 1989-cu il martın 20-də SSRİ Nazirlər Soveti sədrinin müavini İ.S.Silayevin sədrliyi ilə keçən komissiyanın iclasında yaşayış evlərinin, sosial və mədəni-məişət obyektlərinin tikintisi gedişi qeyri-qənaətbəxş hesab edilmişdir.[110]

1989-cu il mayın 7-də SSRİ Nazirlər Soveti sədrinin müavini B.L.Tolstıxın sədrliyi ilə keçirilən komissiyanın

iclasında göstərilmişdi ki, tikintilər yarıtmaz təmin edilir, vaqonların boşaldılması işi geri qalır. Həmin ilin mayın 14-də isə SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkovun sədrliyi ilə keçən iclasda tikintidə icra intizamının zəifliyi, məsuliyyətsizlik üzündən tikintinin geri qalması kəskin tənqid edilmişdi. Bütün bunlar göstərir ki, Ermənistan başçılarının zəlzələ olan yerlərdə inşaatçıları vaxtında işlə təmin etməyə mAraqları olmamışdır. Hətta bu məsələni Rusiyanın Leninakan şəhərində işləyən 4.157 nəfər inşaatçısı «Arqumentı i faktı» qəzetinin səhifələrində dərc etdirdikləri (№ 19, 1990-cı il) «Açıq məktub»da ətraflı təhlil etmişlər.[111]

Bütün göstərilən bu faktlar bir daha onu təsdiq edir ki, Ermənistan rəhbərliyi öz xalqı qarşısında məsuliyyətdən bir təhər yaxa qurtarmaq üçün özlərinin səhlənkarlığına dəmir yolundakı hadisələri səbəb gətirmək istədilər. Lakin onu anlamaq istəmədilər ki, dəmir yolundakı hadisələrin də səbəbkarları onlardır. Məhz erməni millətçilərinin təqsiri üzündən dəmir yollarında hərəkət olduqca çətinləşdi. Onlar yolları daşlardan təmizləməyə mane oldular. Belə ki, yolları təmizləməyə çalışanlara daş atır, ov silahları ilə atəş açırdılar. Nəticədə 19 nəfər hərbçi yaralanmışdı. Belə bir vaxtda Şuşa və Laçın rayonları ilə əlaqə çətinləşdi. Ağdamdan Şuşaya olan 37 kilometrlik məsafədə 8 nəzarət buraxılış məntəqəsi yaradıldı. Buna görə yerli azərbaycanlılar haqlı deyirdilər ki, biz guya Azərbaycanda deyil, Ermənistanda yaşayırıq, nə üçün Stepanakertdə qayda yaratmağa SSRİ DİN-nin nümayəndələri və Yerevandan gətirilmiş milis hissələri xidmət etməlidirlər? Əgər iş belədirsə, onda nə üçün Şuşaya Bakıdan və yaxud Ağdamdan milis işçiləri gətirilməsin?

Moskva nümayəndəsi A.Volskinin tabeliyində olan ordunun Dağlıq Qarabağda yaşayan azərbaycanlıları qorumadıqlarını hiss edən əhali öz uşaqlarını təhlükəsizlik naminə Şuşaya gətirməli oldular. Azərbaycan kəndlərində vəziyyət getdikcə ağırlaşdığından gecə, gündüz ehtiyatlı olmaq tələb olunurdu, çünki «saqqallı» silahlı ermənilər adətən

gecələr qəflətən hücum edirdilər və silah işlədirdilər. Onların məqsədi silahsız azərbaycanlıları qorxutmaq və onların öz torpaqlarından getmələrinə nail olmaq idi. Təsadüfi deyildi ki, azərbaycanlılar yaşayan kəndlərə işıq, yeyinti məhsulları verilmirdi, əlaqə tamam kəsilmişdi.

Bununla da A.İ.Volski hakimiyyətə başladığı andan azərbaycanlılar öz doğma yerlərində sıxışdırıldı və az müddət içərisində vilayət Azərbaycan hökumətinin nəzarətindən çıxdı. Qısa müddət içərisində Dağlıq Qarabağın 55 yaşayış məntəqəsində azərbaycanlıların silahları yığıldı. Ermənilərin isə silahlandırılaraq quldur dəstələrlə birləşdirilməsinə şərait yaradıldı və bu da vəziyyəti olduqca ağırlaşdırdı. Belə ağır bir vəziyyətlə əlaqədar olaraq A.Mütəllibov XXVIII qurultayda etdiyi çıxışında dedi: «Azərbaycan xalqının həyatı və təhlükəsizliyi real təhlükəyə məruz qoyulub. Lakin heç kəs bu qanunsuz terrorçu dəstələri tərksilah etməyə cəsarət göstərmir» (Bax: «Bakı» qəz. 6 iyul 1990). Mərkəzi hökumətin təqsiri üzündən Laçın-Gorus yolu ilə Ermənistandan gətirilən silahlarla Xanlar, Şaumyan, Laçın, DQMV ərazilərində təhlükəli sursat, silah cəbbəxanaları yaradıldı. Hətta Ermənistandan Mardakert (Ağdərə) rayonundakı gizli təyyarə meydanına müntəzəm olaraq silah daşındı. Həmçinin də Muxtar Vilayətdə ermənilərin xeyrinə fəaliyyət göstərən Xüsusi İdarəetmə Komitəsinin rəhbəri A.Volskinin tələbi və SSRİ Nazirlər Sovetinin sədri Rıjkovun göstərişilə vilayətin xalq təsərrüfatının Moskvaya və Yerevana tabe edilməsi irəli sürüldü. Bundan əlavə SSRİ və Azərbaycan SSR Konstitusiyasına zidd olaraq və Azərbaycan SSR Ali Sovetinin sədri E.Qafarovanın yazılı olan etirazına baxmayaraq, SSRİ Ali Sovetinin keçmiş sədri Lukyanovun köməyi ilə A.Volski Azərbaycan SSR Dövlət Bankına tabe olmayan «Qarabağ» Bankının yaradılmasına nail oldu. Bununla da o, ermənilərin arzularına uyğun olaraq vilayətin xalq təsərrüfatının Moskvanın və Yerevanın tabeçiliyinə keçməsini təmin etdi. Bütün bunlar azmış kimi Sovet hökumətinin 6 may (1989-cu

il) tarixli qərarı ilə vilayətdəki bütün idarə və müəssisələr Azərbaycanın tabeliyindən çıxarıldı (Bax: Əzim Piriyev. Göstərilən əsər. səh. 218).

Dağlıq Qarabağda vəziyyətin belə ziddiyyətli bir anında Ermənistan Ali Soveti 1989-cu il dekabrın 1-də Muxtar Vilayətin Ermənistanla birləşməsi haqqında 1990-cı il yanvarın 9-da isə DQMV-nin sosial-iqtisadi inkişaf planının Ermənistanın 1990-cı il üçün Dövlət planına daxil edilməsi haqqında Konstitusiyaya zidd qərarlar qəbul etdi. SSRİ Ali Sovetinin sədri Qorbaçovun imzası ilə Ermənistan Ali Sovetinin həmin qərarına qarşı 10 yanvar 1990-cı il tarixli qərar qəbul edildi.[112] Lakin bu qərar da ermənilərin əl-qolunu yığa bilmədi.

Deməli, Sovet rəhbərliyi, şəxsən Qorbaçov Ermənistan Ali Sovetinin Ermənistanla Dağlıq Qarabağı birləşdirmək haqqında qərarının olduqca güclü dağıdıcı dinamit olmasını və onun dəhşətli faciələr törədəcəyini anlamadılar. O halda SSRİ Ali Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağda və başqa rayonlarda 1990-cı il yanvarın 15-də fövqəladə vəziyyət elan etdi.[113] 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirliklərinin və idarələrinin tabeliyinə verildi.[114] Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bayraqları, gerbi, blankları və s. məhv edildi. DQMV-i ərazisində Ermənistanın bayraqları və gerbi qaldırıldı. DQMV-in Ermənistanla birləşməsinə həsr edilmiş «Artsax» medalı meydana çıxdı.[115]

Bununla bərabər Şuşaya gedən su xətti, Xocalı körpüsü partladıldı. 7 yanvarda (1990-cı ildə) dəmir yolunda partlayış törədildi.[116] Vilayət ərazisindən kənar yerlərə – Laçın və Qubadlıya hücumlar təşkil edildi.

Ermənilərin üstünlük əldə etməsində daxili səbəblərlə bərabər xarici ölkələrin ermənipərəst mövqeyinin də az rolu olmadı. Bu haqda akademik C.Quliyev «Dağlıq Qarabağ: millətin tale məsələsi» məqaləsində (20 mart 1991-ci il «Kommunist» qəzeti) yazmışdı: 1989-cu il iyulun 19-da ABŞ

Konqresi Dağlıq Qarabağ məsələsində ABŞ-ın Ermənistana tərəfdar olması barədə xüsusi qərar qəbul etmiş və həm də prezident Qorbaçova Dağlıq Qarabağ nümayəndələrinin Ermənistanla birləşmək haqqında tələbləri ilə əlaqədar müzakirə keçirməyi təklif etmişdir. Məqalədə ABŞ hökumətinin Ermənistan üçün ayırdığı 10 milyon dollara prezident Buşun fondundan da 5 milyon dollar əlavə edilməsi faktı da qeyd olunmuşdu. Məqalənin müəllifi eyni zamanda Fransa hökumətinin, habelə bir sıra dövlət adamlarının mövqeyini açıqlayaraq yazırdı: Parisin meri Jak Şirak sentyabrın 27-də (1990-cı ildə) L.Ter-Petrosyana göndərdiyi təbrikdə bildirmişdi: Erməni milli məsələsi naminə mübarizə Sizin qələbənizlə başa çatdı. Fransanın Klamaran şəhərinin vitse-prezidenti K.Keqyan (tez-tez Ermənistanda olurdu) elan etmişdir ki, Fransa ictimaiyyətinin hüsn-rəğbəti Dağlıq Qarabağın erməni əhalisi tərəfindədir. Belə münasibətlər şəraitində ermənilər azərbaycanlılara qarşı müxtəlif dəhşətli terror aktları törətməklə, azərbaycanlıların getdiyi sərnişin avtobuslarına hücumlar etmək, onları partlatmaq vasitəsilə azərbaycanlı əhalisinin iradəsini qırmağa çalışırdılar. Ermənis-tandan vilayətə tikinti materialları ilə birlikdə «Zemlya-Zemlya» raketi, avtomat və başqa silahlar gətirilirdi. A.Volskinin rəhbərliyi altında fəaliyyət göstərən xüsusi idarənin fəaliyyətinin məzmunu qısaca olaraq bundan ibarət oldu. Azərbaycan demokratik qüvvələrinin təkidi ilə SSRİ Ali Soveti 28 noyabrda (1989-cu il) Xüsusi İdarə Komitəsini ləğv etdi və Dağlıq Qarabağ Muxtar Vilayətinin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan Təşkilat Komitəsinə tapşırıldı. Bununla da A.Volski ermənilərin xeyrinə olaraq öz işini gördükdən sonra Moskvaya qayıtdı.

A.Volskinin xəyanətkar fəaliyyəti haqqında Azərbaycan tədqiqatçıları içərisində yazanlarla bərabər erməni nümayəndəsi R.Arakelovun həqiqəti yazması maraq doğurur. O, yazırdı: 1989-cu il ərzində Volskinin komitəsi vəziyyəti

nizama salmaqda nəinki əsaslı bir iş görmədi, əksinə, Dağlıq Qarabağda vəziyyəti daha da gərginləşdirdi və bura Azərbaycanın ayrılmaz bir hissəsi olmaqdan uzaqlaşdırıldı. Məhz həmin ildə «Культурного обмена» pərdəsi altında vilayətdə Ermənistanın millətçi təşkilatlarının emissarları öz işlərini gördülər. 40 nəfərdən ibarət «artistlər» qrupu Stepanakertə gəlib burada məktəbləri gəzərək uşaqları başa salırdılar ki, siz Azərbaycanda deyil, Ermənistanda yaşayırsınız. Onlar həmçinin də I Vazgenin şəklini uşaqlara paylayırdılar. Bütün bunlara isə Volski havadarlıq edir və şərait yaradırdı. Deməli, Volskinin fəaliyyəti tamamilə ermənilərə xidmətdən ibarət olmuşdur.[117]

1989-cu ilin qışında erməni millətçiləri çox fəallaşdılar. Ermənilər Dağlıq Qarabağ ərazisində hərbi əməliyyatların hazırlığına və onun həyata keçirilməsinə başladılar. Müntəzəm olaraq Yaxın Şərq, Qərbi Avropa, ABŞ ermənilərindən komandir-zabit kadrların toplanması təşkil edildi. SSRİ-nin müxtəlif regionlarından və başqa yerlərdən Ermənistana hərbi sursatlar gətirildi, ermənilərin hərbi anbarlardan «silah oğurlamaları» üçün şərait yaradıldı.

Ermənistandan Azərbaycan ərazisinə edilən silahlı basqınlar artdı. 1990-cı il yanvarın 12-də ermənilər bir neçə hərbi vertolyotlarla Xanlar rayonunun Quşçu kəndinə desant atdıqlarından dinc əhaliyə divan tutuldu, burada qadınlar, qocalar, uşaqlar qətlə yetirildilər.

Azərbaycanda vəziyyət getdikcə daha da ağırlaşdı. 1990-cı il yanvarın 8-də Bakıda partiya təsərrüfat fəallarının yığıncağı oldu və orada respublikada yaranmış ağır vəziyyət təhlil edildi. Artıq xalq hakimiyyətlə üz-üzə dayanmışdı. Mitinqlər dalğası Bakını, Azərbaycanın bir sıra rayonlarını bürümüşdü. «İstefa» şüarı qəti şəkildə səslənirdi. Şəhərdə böyük qarışıqlıq əmələ gəldi. Yanvarın 13-14-də vəziyyət daha da ağırlaşdı. Ermənilər şəhəri tərk edib Ermənistana deyil, əsasən Rusiyanın müxtəlif yerlərinə üz tutdular. Deməli, Ermənistana Bakı ermənilər lazım deyilmiş. Onlara

yalnız Dağlıq Qarabağ ərazisi və bir də genosid haqqında əfsanə lazım imiş, təki bütün dünyada «Böyük Ermənistan»ın halına yansınlar. Əvvəlcədən düşünülmüş bu hadisəni yaymaq üçün Ermənistan mətbuatı ilə bərabər mərkəzi mətbuat da ələ alınmışdı. Leninqrad fəhlələrinin SSRİ Ali Sovetinin deputatı S.S.Alekseyevə göndərdikləri məktubda bu aydın şərh edilmişdi. Həmin məktubun surəti 1990-cı il fevralın 20-də «Bakinski raboçi»nin səhifələrində çap olunmuşdu. Beləliklə, 1990-cı ilin yanvarında respublikada yaranmış mürəkkəb bir vəziyyətdə Siyasi büro üzvləri Girenko və Primakov, eləcə də Müdafiə Naziri Yazov və Daxili İşlər Naziri V.Bakatin Bakıya gəldilər.

Əvvəlcədən bildirildi ki, Bakıda komendant saatı elan edilməyəcək və buraya ordu gətirilməyəcəkdir. Lakin yanvarın 15-də gecə ağır texnika ilə təchiz olunmuş ordu hissələrinin hava, dəniz və dəmir yolu ilə Bakıya gətirilməsi məlumatı alındı. Yanvarın 16-dan 17-ə keçən günü şəhərdə nümayiş oldu və burada respublika rəhbərliyinin istefaya getməsi tələb olundu. Yanvarın 17-də axşam MK binası qarşısında çıxış edən E.Primakov bildirdi ki, ordu hissələri xalqı qorumaq üçün gəlmişdir.

Yanvarın 19-da Yazov, Bakatin və Primakov ordu qərargahında oldular. Yazov əməliyyata rəhbərlik etdi. Bu əməliyyatda Rusiyanın cənub vilayətlərindən – Stavropoldan, Krasnodardan və Rostov vilayətlərindən toplanmış ehtiyat qüvvələrindən istifadə edildi. Şübhəsiz, burada da erməni diasporunun fəaliyyəti az rol oynamadı.

Yanvarın 19-da axşam saat 19.15 dəqiqədə televiziyanın enerji bloku partladıldı. Xalqla əlaqə yaratmaq və onlara müəyyən məlumatlar vermək imkanı aradan götürüldü. Respublikadakı vəziyyətdən, Dağlıq Qarabağda törədilən faciələrdən cana gəlmiş gənclər gözləmədikləri vəhşiliyə, amansızlığa, qəddarlığa rast gəldilər. Bakının müxtəlif yerlərində toplaşmış silahsız adamlar, xüsusilə gənclər üzərinə tanklar yeridildi, atəşlər açıldı, günahsız qanlar axıdıldı.

Bununla da yanvarın 19-dan 20-nə keçən gecədə Bakıda dəhşətli vəhşiliyə əl atıldı, kütləvi insan qırğını baş verdi. Yanvarın 22-də (1990-cı ildə) Bakının dağlıq parkında 81 nəfər dəfn edildi.[118] Bununla da yeni qəbristanlıq – Şəhidlər qəbristanlığı əmələ gəldi. Ancaq şəhidlər hələ bu hadisədən qabaq az olmamışdır və bundan sonra da artdı. Məzarlarını şəhidlər xiyabanında görmədiyimiz görkəmli alim və olduqca təvazökar insan Xudu Mmmədov, oxucuların sevimlisi olan tarixçi-romançı Fərman Kərimzadə, şair Hafiz Baxış, müxtəlif xarakterli obrazların yaradıcısı Hamlet Xanızadə və başqaları azadlıq ideyalarının qurbanı oldular.

Dəhşətli faciə törətmiş olan ordunun şəhərə daxil olması təəccüb doğururdu. Daxili qoşun hissələri general leytenantı V.S.Dubinyaka dedikdə ki, nə üçün qoşun hissələri şəhərə gecə girdi, nə üçün ermənilər şəhərdən qovulanda qoşun hissələrini şəhərə yeritmədiniz, nə üçün qoşun hissələrinin şəhərə daxil olması 00-saat 20 dəqiqə başladı və qərar səhər saat 5.30 dəqiqədə radio ilə bildirildi? – O, cavab vermişdi ki, mən bu suallara cavab verməyəcəm, ona görə ki, qoşun hissələri şəhərə daxil olduqdan sonra mən hərbi komendant təyin edilmişəm.[119] Qəribə məntiqdir. Generalın guya heç bir göstərişdən, əmrdən xəbəri olmamışdır. Yanvar faciəsi nəticəsində çoxlu gənclər, qocalar, qadınlar, uşaqlar qətlə yetirildi. Onların içərisində 7-ci sinifdə oxuyan Larisa Məmmədova, 14 yaşlı İlqar İbrahimov və başqaları öldürüldülər. Bu faciənin əsas günahkarı Mixail Qorbaçov idi. Bu faciənin törədilməsilə o, hər şeydən əvvəl prezident andını pozdu. Halbuki, and içərkən o demişdi: Təntənə ilə and içirəm ki, ölkəmizin xalqlarına sədaqətlə xidmət edəcək, vətəndaşların hüquq və azadlıqlarına təminat verəcək və SSRİ prezidenti kimi öhdəmə qoyulmuş yüksək vəzifələri yerinə yetirəcəyəm.

Deməli, Qorbaçovun vətəndaşların hüquq və azadlıqlarına təminat verməsi nəticəsində Bakıda «Qanlı 20 yanvar» törədildi ki, bu da dünya tarixində misli-bərabəri olma-

yan bir fəlakət idi – «öz ölkəsinin ordusunun öz ölkəsinin dinc silahsız vətəndaşlarını qırması nümunəsi idi». Yanvar qırğınında Qorbaçovla bərabər Yazov, Kryuçkov, Bakatin, Primakov və Girenko da günahkar idilər. Bunların tərkibinə nəzər salanda adam istər-istəməz düşünür ki, bu qrup guya ən təhlükəli bir düşmən dövlətə qarşı birləşib hərbi əməliyyat aparmışdır.

Yanvarın 19-da Bakıya adi ordu hissələri deyil, tərkibində ermənilərin çoxluq təşkil etdiyi xüsusi təyinatlı qəddar dəstələr yeridilmişdi. Azərbaycan Respublikasının millisiyasət məsələləri üzrə dövlət müşaviri Hidayət Orucov «Şəxsiyyət haqqında söz demək məsuliyyəti» məqaləsində (Bax: «Azərbaycan» qəzeti, 15 fevral 1996-cı il) yazmışdı: azğın cəlladların nə uşağa yazıqları gəlirdi, nə qocaya, nə də qadına. Bakıya kənardan qoşun hissələrinin yeridilməsinin nə demək olduğunu bilən H.Ə.Əliyev Bakı faciəsinin səhərisi günü – 1990-cı il yanvarın 21-də Azərbaycanın bir parçası olan Moskvadakı Azərbaycan nümayəndəliyində verdiyi bəyanatında ölkə rəhbərliyindən soruşurdu: Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı məlumdur. Azərbaycanda kifayət qədər – 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava hücumundan müdafiə qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi! Əgər belə bir zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı.

Bununla Ümummilli liderimiz H.Əliyev Qorbaçov tərəfindən təqib olunduğu bir zamanda cəsarətlə etdiyi tarixi çıxışında Qorbaçovu bir cani kimi ittiham etmiş və həm də həmin faciəni dünya dövlətlərinə, habelə beynəlxalq təşkilatlara çatdırmışdı. Şübhəsiz, Qorbaçov özünün bu tarixi cinayəti ilə bir daha sübut etdi ki, arvadının Amerikada olarkən ermənilərdən aldığı rüşvət məsələsi fərziyyə deyil, həqiqət imiş.

Digər tərəfdən onu da unutmaq olmazdı ki, Qorbaçov o dövrdə başdan-başa ermənilərin əhatəsində idi. Buna görə də o, məhz bir dövlət xadimi kimi deyil, erməni lobbisinin əlində bir oyuncaq idi və nəticədə ifşa olunub vəzifəsindən uzaqlaşdırıldı.

Müharibələr tarixində görünməyib və eşidilməyib ki, yaralıları xilas etmək üçün təhlükəli sahəyə daxil olan təcili yardım maşınına atəş açılsın və həkimlər öldürülsün. Yanvarın 19-u gecəsi «Təcili yardım» məntəqəsində həkim Aleksandr Marxeyev növbətçi idi. Telefon zəng çaldı, çağırış Qala qəsəbəsindən idi. Bildirildi ki, ordu hissələri ilə onların yolunu kəsən adamlar arasında toqquşma baş verib, yaralılar var. Həkim Aleksandr yaralılara kömək etmək üçün təcili hadisə yerinə yola düşdü. Bu çağırış onun üçün axırıncı çağırış oldu və o, «Təcili yardım» maşınına açılan atəşlə öldürüldü.[120]

İnsanlıq normalarından tamamilə kənar olan bu cinayət Qorbaçov bandaları tərəfindən həyata keçirildi. Doğrudan da onlar xüsusi tapşırıqla yığılmış qəddar banditlər idi. Əgər belə deyildisə, bəs nə üçün gecə faciəsi başa çatan kimi Bakıya yeni hərbi hissələr gətirilib onlarla əvəz edildi. Deməli, onlar əsil insan deyilmişlər. Gənclərimizi də aldadan bu olmuşdur ki, sovet ordusu silahsız olan öz gənclərinə atəş açmaz. Lakin Sovet ordusu ilə Qorbaçovun ermənilərin təzyiqi ilə təşkil olunan banda qrupları arasında fərq vardı və bu özünü işdə sübuta yetirdi.

1990-cı ilin 20 yanvar «qanlı şənbəsi»ndən bəhs edərkən, onun təqsirkarlarının təkcə M.Qorbaçov və onun Bakıya göndərdiyi əlaltılarından ibarət olması ilə kifayətlənmək qeyri-mümkündür. Halbuki həmin faciədə o zamankı respublika rəhbərliyinin də böyük təqsiri olmuşdur. Onların laqeydliyi, cəsarətsizliyi, vəzifəpərəstliyi üzündən Bakıya və ətraf yerlərə qoşun yeridilməsinin nə dərəcədə ağır ola biləcəyi düzgün qiymətləndirilməmiş və faciənin qarşısını almaq üçün lazımi dərəcədə cəhd göstərilməmişdir.

Yanvar hadisələrində faciəyə məruz qalan gənclərimizin günahı nə idi? Onlar sadəcə olaraq respublikanın suverenliyini müdafiəyə qalxmışdılar. Etiraf edək ki, respublika rəhbərliyi onlardan ayrıldı və hərəkəti dayandırmağa çalışdı.

Onu da etiraf etmək lazımdır ki, hələ yanvar hadisəsindən əvvəl respublikada çox mürəkkəb vəziyyət – özbaşınalıq əmələ gəlmişdi. Buna misal olaraq Lənkəranda hakimiyyət orqanlarının ələ keçirilməsi, Cəlilabad rayonunda baş verən talanlar, Naxçıvan MSSR-nin sərhədində mühəndis qurğularının uçurulub dağıdılması, tətillərə çağırışlar, Respublika Ali Sovetinin iclaslarını pozmaq cəhdləri və s. göstərmək olar. Bütün bunlar respublikada sabit vəziyyətin yaranmasına az maneçilik törətmədi. Əlbəttə belə şəraitdə əsas diqqət Qarabağa – düşmənə qarşı mütəşəkkil mübarizəyə verilmədi.

Qanlı 20 yanvar faciəsinin baş verməsində Azərbaycan Xalq Cəbhəsinin də az günahı olmadı. Onun sıralarında vətənpərvər, savadlı ziyalılarla yanaşı, siyasi cəhətdən savadsız, müəyyən məqsəd güdən adamlar da toplaşmışdı. Buna görə də 19 yanvar gecəsi gəncləri təhlükəli yerlərdən çıxartmaq, onların təhlükəsizliyini təmin etməyə cəhd göstərmək əvəzinə Azərbaycan Xalq Cəbhəsinin liderləri göz-dən yayındılar.

Azərbaycan xalqının dəhşətli qırğınına həsr edilmiş «Faciəli yanvar» kitabında haqlı olaraq göstərilir ki, 98 kişi, 14 yaşlı iki gənc, 13 yaşlı qız, 6 nəfər qadın avtomat və pulemyot atəşinə məruz qaldılar. Cəmi 131 nəfər qətlə yetirildi. 700 nəfərdən çox adam yaralandı. İtkin düşənlər oldu. Ancaq küçələrdə piket təşkilatçılarından, «cəbhəçilərdən» bir nəfər belə onlarla yanaşı uzanmamışdı, onlardan heç kim ölməmişdi və yaralanmamışdı.[121] Bununla yanaşı Bakıda fövqəladə vəziyyət elan edildi.[122]

Belə bir faciə ilə əlaqədar olaraq Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.M.Qafarovanın bəyanatı oldu. O, Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları adından törədilən faciəyə öz qəti etirazını bildirdi. Respubli-

kanın paytaxtı Bakı şəhərində SSRİ Ali Soveti Rəyasət Heyətinin fövqəladə vəziyyət elan etməsini Azərbaycan SSR-in suverenliyinə toxunan bir aksiya, qeyri-qanuni bir cəhd hesab etdi.[123]

Yanvarın 20-ə keçən gecə Bakıda törədilən qanlı cinayətlə əlaqədar olaraq Azərbaycan KP MK, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və respublika Nazirlər Soveti bütün Azərbaycan xalqına, həlak olanların ailələrinə və yaxın qohumlarına dərin hüznlə başsağlığı verdi və bu yanvarın 20-də respublika radiosu ilə oxundu. Yanvarın 20-də Azərbaycan KP MK-nin büro iclası oldu. Burada respublikada yaranmış mürəkkəb vəziyyət məsələsinə baxıldı. Büro insan qırğını ilə əlaqədar olaraq respublikada üç günlük matəm elan etdi.

Yanvarın 21-də Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı. Sessiyanı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.M.Qafarova açdı və onun gündəliyi təsdiq edildi. Sessiyada SSRİ Ali Soveti Rəyasət Heyətinin Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərmanın həyata keçirilməsinin dayandırılması və ordunun şəhərdən çıxarılması haqqında qərar qəbul edildi. Bununla bərabər SSRİ xalqlarına, dünyanın bütün xalqlarına və parlamentlərinə müraciətnamə qəbul edildi. Öz işini bütün gecəni davam etdirən sessiya 22 yanvarda qurtardı.[124]

21 yanvarda Zaqafqaziya müsəlmanları ruhani idarəsinin sədri Allahşükür Paşazadənin Qorbaçova müraciəti oldu. Həmin müraciətin surəti BMT Baş katibinə, dünya ruhani və hökumət başçılarına göndərildi.

Yanvar hadisəsi ilə qətlə yetirilənlər və yaralananlar müxtəlif yaşlı və müxtəlif şəraitdə faciələrə məruz qaldılar. O zaman M.Topçubaşov adına Elmi-Tədqiqat Cərrahiyyə İnstitutunun direktoru işləmiş əməkdar elm xadimi Nurəddin Rzayev 31 yanvar 1990-cı ildə «Kommunist» qəzetində yazmışdı: Bizim instituta gətirilən 20 nəfər yaralıdan iki nəfəri – 32 yaşlı Rasçan Əşrəfovu və 47 yaşlı Boris Yesen-

çuku xilas etmək mümkün olmadı. Qalan 18 nəfərdən 15 yaşlı Vüsal və 16 yaşlı Rəşad öz evlərində yaralanmışlar. 43 yaşlı Praskovya Mixaylovna 6-cı mərtəbədə mənzilində yaralanmışdı. 22 yaşlı İslam Rəhmanov yanvarın 20-də saat 16.45 dəqiqədə Ramana qəsəbəsində öz evinin yanında, 28 yaşlı R.İsmayılov yanvarın 22-də saat 16-da evinin yanında, Əzimov Sultan iş yerində, Cavadov Araz gecə öz evində yaralanmışlar. Yanvar gecəsindən bir neçə gün sonra (24 yanvar 1990-cı ildə) Azərbaycan elm ictimaiyyətinə ağır itki üz verdi. Bakı-Sumqayıt yolunda «Jiquli» markalı maşında alimlər – professor Svetlana Həmid qızı Məmmədova və kimya elmləri doktoru İbrahim İsmayıl oğlu İbrahimov faciəli şəkildə həlak oldular.[125]

Bakıda yanvar hadisələrinin dəhşətli nəticələrini təsvir etməklə qurtarmaq çox çətindir. Çox təəssüf ki, belə bir qanlı cinayətə hələ də beynəlxalq aləmdə lazımi səviyyədə siyasi qiymət verilməmiş, cinayətkarlar tam aşkar edilməmişdir.

«Faciəli yanvar» hadisəsindən sonra iki respublika arasında olan münaqişəni nizama salmaq hər iki millətin mənafeyi üçün zəruri idi. Belə şəraitdə SSRİ Ali Sovetinin 5 mart (1990-cı il) tarixli qərarı qəbul edildi. Burada göstərilirdi: SSRİ Ali Soveti zərər çəkənlərə səmimi təsəlli verir, həlak olmuş dinc vətəndaşların və hərbi qulluqçuların qohum-əqrəbasının kədərinə şərik çıxır, Azərbaycan və Ermənistan xalqlarını əsil faciəyə məruz qoymuş ekstremist qüvvələrin hərəkətini qətiyyətlə pisləyir və qərara alır:

1. Xalqlar arasında həmrəyliyi bərpa etmək haqqında respublikalararası müqavilə bağlanması üçün dərhal danışıqlara başlasınlar.

2. Əhalidə olan silahı geri alsınlar, açıq-aşkar millətçiliyi təbliğ edən siyasi təşkilatların fəaliyyətini qadağan etmək zəruri hesab olunsun.

3. Azərbaycan SSR Ali Soveti komissiyasının çıxardığı nəticələri nəzərə almaqla 1990-cı ilin yanvarında olmuş

bütün cinayət faktlarının və hüquqa zidd hərəkətlərin ən qısa müddətlərdə təhqiqini təmin etsinlər. SSRİ Baş prokuroru və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi iki ay müddətində SSRİ Ali Sovetinə müvafiq məlumat təqdim etsinlər.[126]

Bundan əlavə SSRİ Nazirlər Soveti mayın 12-də (1990-cı il) DQMV-in dağıdılmış və viran edilmiş iqtisadiyyatını yenidən Azərbaycana qaytardı. Ancaq bu gecikdirilmiş bir təşəbbüs olsa da, respublika hökuməti, Azərbaycan xalqı göstərilən müddəalardan nəticə çıxararaq Dağlıq Qarabağ hadisələrinin doğurduğu millətlərarası qarşıdurmanı və təsərrüfat dağınıqlığını aradan qaldırmaq əzmilə mübarizə apardı. Ermənistana gəldikdə regionda sabitliyə riayət edilməsinə xidmət göstərmək əvəzinə həmin respublikada silahlı birləşmələrin artırılmasına yol verdilər. Onlar silahları yığmaq əvəzinə silahlı birləşmələri daha da artırdılar və bununla gərginliyi zəiflətmək deyil, əksinə daha da gücləndirdilər.

Sovet rəhbərliyinin siyasətindən bəhrələnən ermənilər fevral-may (1990-cı il) aylarında Azərbaycan ərazilərinə basqınlarını daha da artırdılar. Naxçıvanın Kərki kəndinə hücum edərək kəndi ələ keçirdilər və 320 kənd sakinini oradan zorakılıqla qovdular. 1990-cı il martın 24-də gecə üç erməni hərbi hissəsi Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum etdi. Kənd əhalisindən yeddi nəfər öldürüldü, 11 ev yandırıldı.[127] Qəribə burasıdır ki, bu göstərilən hücumlarda da Sovet ordusunun zabit və əsgərləri fəal iştirak etmişlər. Ona görə də ermənilər onlara yüksək səviyyədə xidmət göstərmişlər. Uzun müddət DİN məsul vəzifələrdə işləmiş, DİN-in «Əməkdar işçisi» fəxri adına layiq görülmüş, Azərbaycan Respublikasının müharibə veteranı olmaqla bərabər respublika hüquq-mühafizə işçiləri və Azərbaycan ictimaiyyəti arasında böyük hörmətə, dərin ehtirama malik olan və həm də müharibənin ən ağır və məsuliyyətli bir dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti və ona yaxın olan rayonlar üzrə fövqəladə rayonunun komendantının müavini

və eləcə də Dağlıq Qarabağın erməni canilərindən təmizlənməsi üçün aparılan hərbi-milis «Ümid» əməliyyatının qərargah rəisi vəzifəsində olmaqla, Vətən eşqi ilə yaşayan qeyrətli bir azərbaycanlı kimi, polkovnik kimi heç bir çətinlikdən və təhlükədən çəkinmədən cəsarətlə çalışmış Əzim Piriyev yazır: Evlərinə vaxtlı-vaxtında sovqat, ailə üzvlərinə hədiyyələr göndərmiş, özlərinə isə meşələrdə, bulaqların başında, xüsusi evlərdə rusların özlərinin heç təsəvvür etmədikləri «kef»ləri vermişdilər.[128]

Belə münasibətlərdən istifadə edən Ermənistan yaratdığı qanunsuz silahlı dəstələri – «boyeviklər»i ilə Laçın, Qubadlı, Zəngilan və b. rayonların kəndlərinə hücumlar edir və həmin yerlərdə etdikləri cinayətlərə görə cəzasız qaldıqlarından azərbaycanlılara qarşı hər cürə ağır cinayətlər törətməkdə davam etmişlər. Belə şəraitdə respublikada intizamsızlıq, özbaşınalıq həddini keçdi, hətta ayrı-ayrı hərbi hissələrə, o cümlədən də dəmiryol stansiyasında növbə çəkən daxili qoşun üzvləri üzərinə basqınlar təşkil edildi. Belə basqınlarda əsas məqsəd silah anbarlarından döyüş vəsaitlərini ələ keçirmək idi. Hansı ki, bu, Ermənistanda adi bir hala çevrildi. Təkcə 1990-cı il mayın 27-də Yerevanda 16 belə basqın qeydə alındı.[129]

Bu vəziyyət şübhəsiz, Dağlıq Qarabağ regionuna da öz təsirini göstərməli idi. Xalq silahlı quldurlar «saqqallılar»ın əlindən təngə gəldi. Onlar nəinki azərbaycanlılara, eləcə də erməni əhalisinə də işgəncələr verirdilər. Bunu hətta Sov.İKP XXVIII qurultayının (iyul 1990-cı il) nümayəndələri ilə görüşdə azərbaycanlılarla birlikdə Qarabağ ermənilərı etiraf etdilər. Erməni qadınları həyəcanlı şəkildə bildirdilər: Analar, atalar, bütün zəhmətkeş insanlar, söyləyin ki, bizi tezliklə "«saqqallı"»banditlərdən xilas etsinlər. Onlar birinci növbədə bizim düşmənlərimizdir, ermənilərin düşmənidir. Özlərini müdafiəçi adlandırırlar, ancaq onlar ağır zülm edirlər, qadın və qızlara sataşırlar. Gənclərimizi düşmənçiliyə təhrik edir və millətlərarası ziddiyyətləri daha da alovlan-

dırırlar. Qoy Allah onları cəzalandırsın. Belə özbaşınalığa son qoymaq, onun qəti şəkildə qarşısını almaq əvəzinə onlara daha geniş imkanlar yaradılması faktı bir daha onu göstərir ki, nə Ermənistan rəhbərliyi, nə də Qorbaçov regionda vəziyyəti normal hala salıb əminamanlıq yaratmaq fikrində olmadılar.

Belə gərgin şəraitdə Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km) sahədə fövqəladə vəziyyət elan etdi. Sərhədlər qurğularla xeyli dərəcədə möhkəmləndirildi. Buranı müdafiə etmək məqsədilə xüsusi milis dəstələri təşkil edildi. Belə bir vaxtda SSRİ-nin saxlanmasına dair martın 17-də keçirilən referendumda Ermənistan iştirak etmədi və ona görə də mərkəz ora olan köməyini xeyli dərəcədə azaltdı. Bunun nəticəsi olaraq Martunaşendə, Çaykənddə erməni hərbi birləşmələri ləğv edildi və bura ermənilərdən təmizləndi. Eyni zamanda Manaşid, Buzluq, Sarısu və başqa kəndlərdə olan erməni silahlı quldurlarının yuvası da ləğv edildi. Bununla bərabər Azərbaycan xalqı Sov.İKP-nin XXVIII qurultayına böyük ümidlər bəsləyirdi. Xalq ümid edirdi ki, gec də olsa respublikaya qarşı edilən təcavüzə siyasi qiymət veriləcək. Respublika nümayəndələri ilk gündən qurultay iştirakçılarına erməni qüvvələrinin quldurcasına hücumları, sərhəd rayonlarında yaranmış ağır vəziyyət haqqında məlumat verdilər. Eyni zamanda onlar SSRİ prezidentindən erməni milli ordusunun buraxılması haqqında fərman verməsini tələb etdilər. Nümayəndələr Moskvaya qurultaya gedərkən özləri ilə fotosənədlər, ədəbiyyat, kitab və broşüralar apardılar. Həmin kitablar içərisində «Faciəli yanvar» kitabı da var idi.

Qurultayda ermənilər yenə də özlərinin iç üzünü açıb göstərdilər. Belə ki, erməni nümayəndələri ilk gündən mandat komissiyası işə başlarkən DQMV-dən gəlmiş 3 nəfərin ayrıca nümayəndə kimi qeydə alınması məsələsini qoydular.[130] Azərbaycan nümayəndələri buna özlərinin qəti etirazlarını bildirdilər. Qurultayın digər nümayəndələri buna

tərəfdar oldular və bununla da ermənilərin növbəti təşəbbüsü baş tutmadı. Regionda yaranmış çox təhlükəli şəraiti və bu şəraitə ölkə rəhbərliyinin mövqeyi məsələsini təhlil edən AKP MK-nın birinci katibi A.Mütəllibov qurultayda etdiyi çıxışında demişdi: Regionumuzda yaranmış vəziyyətə gəldikdə bir daha demək istəyirəm ki, ölkənin siyasi rəhbərliyi muxtar vilayət çərçivəsində öz müqəddəratını təyin etmək hərəkatı deyilən hərəkatda bütün dövlət üçün dağıdıcı separatizmin gizləndiyini görə bilməmişdir. Partiya rəhbərliyinin yüksək təbəqəsində yekdilliyin olmadığını bu da sübut edir ki, məlum münaqişənin lap başlanğıcında Siyasi Büronun bir üzvü Bakıda çıxış edərkən sərhədləri dəyişdirməyin yolverilməzliyindən danışır, digəri isə həmin vaxt qonşu respublikada xalqın öz müqəddəratını təyin etmək hüququnu bəhanə edib separatizmə əslində tərəfdar çıxırdı. İş o yerə çatıb ki, ölkənin ərazisində iki respublika arasında sərhəd zonası yaradılıb. Ermənistanda respublikanın qeyri-formal hakimiyyət orqanlarının başçılıq etdikləri 140 min nəfərlik milli ordu təşkil olunub. Azərbaycan xalqının həyatı və təhlükəsizliyi real təhlükəyə məruz qoyulub. Lakin heç kəs bu qanunsuz terrorçu dəstələri tərksilah etməyə cəsarət göstərmir.[131]

Ermənistanda, Dağlıq Qarabağda qanunsuz olaraq fəaliyyət göstərən silahlı dəstələr çox təhlükəli olmaqla hər cürə özbaşınalıq edirdilər. Bunun nəticəsi idi ki, 1990-cı il avqustun 19-da səhər tezdən erməni yaraqlıları qəflətən Azərbaycanın Qazax rayonunun səkkiz sərhədyanı kəndini atəşə tutdular. Dinc əhaliyə doludağıdan toplardan, minamyotlardan və başqa odlu silahlardan atəş açdılar. Bağanis Ayrım kəndi yer üzündən silindi, çoxlu yaşayış evləri və təsərrüfat tikililəri dağıdıldı. Naxçıvan MSSR-in İliç rayonundakı Kərgi kəndi işğal edildi, sakinlər qovuldu və kəndə erməni adı verildi.[132]

Erməni silahlı dəstələrinin çoxalması ilə əlaqədar olaraq təhlükə gündən-günə daha da artdı. Vəziyyətin belə

təhlükəli olması məsələsi hələ 1989-cu ilin martında «Komsomolskaya pravda» qəzetində SSRİ prokurorluğunun Baş İstintaq İdarəsi rəisinin birinci müavini V.İ.İlyuxinin dərc olunmuş məlumatından da aydın idi. Məlumatda göstərilirdi: hələ də Ermənistanın yollarında silahlı qruplara rast gəlinir. Bunları tərksilah etmək lazımdır. Orada çoxlu miqdarda silah saxlanılır.

Nəhayət, təhlükəli vəziyyətlə əlaqədar olaraq qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqında prezidentin 25 iyul 1990-cı il tarixli fərmanı oldu. «SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələr yaradılmasını qadağan etmək və silah qanunsuz saxlanıldıqda onu geri almaq haqqında» SSRİ prezidentinin fərmanı bu məsələni həll etmək işində yaxşı zəmin yarada biləcəyinə ümid bəsləyən Azərbaycan xalqı sənədi razılıqla qarşıladı. Bu sənəd əslində erməni zəhmətkeşlərinin də milli mənafe-lərinə uyğun idi. Lakin Ermənistan rəhbərliyi əvvəldən həmin fərmana laqeyd münasibət bəslədi və sonra yeni seçilmiş parlament elan etdi ki, fərman Ermənistan ərazisində və hətta Dağlıq Qarabağ ərazisində tətbiq edilmir. Erməni quldurları hətta bildirdilər ki, gec-tez bu imperiya dağılacaq. Bizə lazımdır ki, öz torpaqlarımızı genişləndirək. Ermənistan rəhbərliyi Qorbaçovun fərmanına cavab olaraq bildirdi ki, erməni silahlı qüvvələri silahları təhvil verməyəcəkdir. Mərkəzin belə səhlənkarlığından istifadə edən erməni banditləri hərbi hissədən 1990-cı ilin yayında ən təhlükəli silahları oğurladılar. Hərbi hissənin bu məsələyə etiraz etməməsi onu göstərdi ki, həmin silahlar onlara satılmışdı. Hadisələr onu göstərdi ki, qanunsuz silahların yığılması fərmanı guya ancaq Azərbaycana aid imiş. Ermənistanda həmin fərmanın həyata keçirilməsi haqqında hətta əmr belə olmadı.

1990-cı ilin avqustunda Yerevan qarnizonunun siyasi şöbə rəisi, SSRİ xalq deputatı, general-mayor Mixail Surkov bildirdi ki, ordu, silahların yığılması əmrini yerinə yetirməyə hazırdır. Doğrudur, 1990-cı il yanvarın 15-dən həmin ilin

yayına qədər olan müddətdə fövqəladə vəziyyət ərazisində 350 kiloqramadək partlayıcı maddə, 1200-dən artıq tüfəng, bunlar üçün on minlərlə döyüş sursatı, doludağıdan 180 top, bunlar üçün 3.800 mərmi müsadirə[133] olundusa da lakin qanunsuz silahların yığılması sahəsində hələ də birtərəfli iş aparılması davam etmişdi. Bu da münasibətlərə öz mənfi təsirini göstərdi. SSRİ xalq deputatlarının regionlararası qrupunun üzvü, SSRİ xalq deputatı Vitali Alekseyeviç Çelışev verilən suala cavabında bildirdi ki, iki respublika arasındakı münasibətlərdə problemin kökünə, dərinliyinə varmırlar. Məsələyə birtərəfli yanaşırlar… Nəticədə təkcə ayrı-ayrı adamları, dəstələri deyil, xalqları narazı salırlar, ehtirasları daha da qızışdırırlar.[134]

Bu vəziyyətlə əlaqədar olaraq 1990-cı il avqustun 20-də Kremldə SSRİ Nazirlər Sovetinin geniş iclasında H.Həsənov (Respublika Nazirlər Sovetinin sədri idi) demişdi: Nə üçün Azərbaycanda fövqəladə vəziyyəti tətbiq etmək olardı, Ermənistanda yox? Nə üçün Azərbaycanda fövqəladə vəziyyəti tətbiq etməyi respublika parlamenti ilə razılaşmadan olar, ancaq Ermənistanda bunu mütləq etmək lazımdır? Nə üçün Azərbaycanda silahların yığılması həyata keçirilmiş, Ermənistanda isə bu tədbir hətta silahlı banda dəstələrinə də tətbiq edilməmişdi. Nə üçün Ermənistanda silahların basqınlarla ələ keçirilməsinə göz yumulur, Azərbaycanda isə belə hal yoxdur. Nə üçün Ermənistanda silahlı bandit dəstələri yeni ad altında özünü müdafiə dəstələrinə çevrildiyi halda, Azərbaycanda qanuni şəkildə milis işçilərinin sayını belə artırmaq mümkün deyil və s. H.Həsənovun bəyanatı başdan-başa ölkə rəhbərinin ünvanına deyilmiş həqiqət idi.

Qazax rayonu orta məktəbində tarix müəllimi işləyən Əli Əliyev 1990-cı ilin avqustunda haqlı olaraq demişdi: Tarix belə qanunsuzluğun nə olduğunu bilmir. Qorbaçov erməni lobbisinin təzyiqi ilə vəzifəyə başlarkən içdiyi andını pozmuşdu. Andını pozan prezident istefaya getməlidir. Ölkə rəhbərliyinin böyük xəyanəti öz rolunu oynadı və regionda

vəziyyət getdikcə ağırlaşdı. Azərbaycanın öz ərazisində kəndlər, şəhərlər yerlə-yeksan edildi, insanlar qırıldı, qaçqınlar artdı.

Bununla da ərazisi 928 kv. km olan Muxtar Vilayətin mərkəzi Xankəndi (Stepanakert) şəhəri, 53 yaşayış məntəqəsi olan Əsgəran rayonu, 1705 kv. km ərazisi və 57 yaşayış məntəqəsi olan Ağdərə (Mardakert) rayonu, 779 kv. km ərazisi, 38 yaşayış məntəqəsi olan Xocavənd (Martuni) rayonu, 679 kv. km ərazisi, 40 yaşayış məntəqəsi olan Hadrut rayonu Azərbaycanın tabeliyindən çıxarılmış oldu (Bax: «Azərbaycan» qəz. 29 mart 2003).

Belə şəraitdə nəinki vilayət ərazisində və eləcə də Laçın, Kəlbəcər, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan ərazilərində də vəziyyət gündən-günə ağırlaşdı. Digər tərəfdən Muxtar Vilayətin işlərinə A.Volskidən sonra yaradılan Təşkilat Komitəsinə və ona rəhbərlik edən V.Polyaniçkonun işinə də Moskvanın nəzarət etməsi ermənilərə meydan vermək oldu. Hətta Azərbaycanın hava sərhədlərini açıq şəkildə pozaraq Ermənistandan silah, sursat və erməni «boyevikləri»ni daşıyan nömrəsiz vertolyotların vilayət ərazisinə düşmələrinə hərbi komendantlar belə biganə qaldı. Bir sözlə hərbi komendantlığın xidmətçiləri, xüsusilə komandirlər də açıq şəkildə ermənilərin mövqeyini müdafiə etdilər və bu da «boyeviklər»in fəallığına və sayının artmasına öz təsirini göstərdi.

Əzim Piriyev yazır ki: Martuni, Mardakert, Hadrut, Əsgəran və Şuşa rayonları üzrə «boyeviklər»in siyahısı dəqiqləşdirilərkən onların min nəfərdən çox olduğu bilindi. Bundan əlavə Yerevandan gələn vertolyotların vilayətin ərazisində düşdükləri 22 meydançanın yeri müəyyənləşdirildi. Habelə silah-sursatların saxlandığı evlərin, zirzəmilərin, meşənin yerləri ilə bərabər «boyeviklər»in qaldıqları ünvanlar dəqiqləşdirildi. Bütün hazırlıq işləri görüldükdən sonra 1991-ci il aprel ayının 25-də gecə saat 4^{00}-da Hadrut rayonu ərazisində pasport rejiminin yoxlanması əməliyyatı başlan-

dı. Əzim Piriyev haqlı olaraq yazır ki, o vaxtlar Tuğ qəsəbəsində olduqca gərgin vəziyyət yaranmışdı. Burada yaşayan azərbaycanlıların evləri yandırılmış, on nəfərdən çox adam qətlə yetirilmişdi. Hətta əhaliyə içməli su belə verilməmişdir. Keçirilən əməliyyat nəticəsində azərbaycanlılara qarşı aparılan mübarizədə xüsusi rolu olan və qəsəbənin rəhbər vəzifələrində çalışanlardan Mixail Ayrapetyan, Ayriyan, Babayan, Saakyan, Poqosyan və digərləri həbs olundu. Tuğdan qaçan «boyeviklər»i tutmaq məqsədi ilə onlara yaxınlaşan vertolyotlara atəş açıldı. Buna cavab olaraq vertolyotlardan açılan atəşlərlə 80 nəfərə yaxın «boyevik» haqlı olaraq məhv edildi.[137]

Qəribə burasıdır ki, həmin hadisə tez bir anda böyük narahatçılığa səbəb oldu. Hətta bu məsələ ilə əlaqədar olaraq SSRİ Müdafiə Naziri Yazov, Dövlət Təhlükəsizlik Komitəsinin sədri Kryuçkov və Daxili İşlər Naziri Bakatin izahat tələb etdilər. Bununla da Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisindən azərbaycanlılar tamamilə çıxarıldıqdan sonra hərbi əməliyyatlar Azərbaycanın digər ərazilərinə keçirildi. Azərbaycan xalqı ağır faciələrə məruz qaldı. Erməni qəddarlığı daha da artdı. Hələ 70-ci illərdə Azərbaycanla həmsərhəd olan Şəmşəddin rayonunda M.Əliyev, M.Məmmədov, S.Şəkibəyov və başqalarının abidələri ucaldılmışdı. Hansı ki, onlar 1920-ci ildə çox çətin vəziyyətə düşmüş – ermənilərə kömək etmişlər. Onları ən zəruri məhsullarla – çörək, taxıl, kerosin və s. ilə təchiz etmişlər. Buna görə də qoyulmuş abidələrin altında erməni sənətkarları belə bir müdrik söz yazmışlar: «Çörəyi-duzu güllələyə bilməzsən». Ancaq həmin abidələr məhv edildi, çörək və duz güllələndi. Düşmənçilik daha da artdı, terrorçuluq gücləndi. Tbilisi-Bakı, Tbilisi-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə avtomobillər partladıldı.[135]

1990-cı il martın 24-də axşam Ermənistanın Meğri rayonunda Noraşen-Bakı sərnişin qatarının vaqonunun birində partlayış oldu. Nəticədə teplovoz və 2 vaqon relsdən çıx-

dı. Meğri stansiyasına kömək üçün göndərilən teplovoz atəşə tutuldu. Qatarların hərəkəti dayandırıldı.[136] Ermənilər tez qara-qışqırıq salıb bildirdilər ki, «Azərbaycan» Ermənistana qarşı blokada təşkil edib.

Ermənilərin saxta hay-küylü «blokada» deyib göz yaşı tökmək əhval-ruhiyyəsinin təsirində Leninqradda çıxan Rusiyanın ictimai-siyasi gənclik qəzeti olan «Smena»nın 1991-ci il 22 mart tarixli sayında «Günlərlə Qarabağda dururuq» adlı ermənipərəst qərəzli məqalə çap olunmuşdu. Məqalədə Dağlıq Qarabağın erməni əhalisinin «acınacaqlı vəziyyə-tindən», «hava, quru, dəmiryollarının blokadasından», «insan hüquqlarının tapdanmasından» və s. bəhs olunmuşdu.

Professor M.Cəlilov, dos. Ş.Sadıqov «Bakı» qəzetində 16 aprel (1991-ci ildə) tarixdə çap olunan sayında «Smena»nın saxta narahatlığı» adlı məqalədə «Smena»dakı fikirlərə öz münasibətlərini bildirmişlər. Həmin məqalədə müəlliflər «Smena» müxbirlərinin Dağlıq Qarabağdakı bu günkü mürəkkəb şəraitin səbəblərini və mahiyyətini təhlil etmələrini, uydurma «Qarabağ problemi»nin köklərini erməni millətçilərinin ərazi iddiaları ilə deyil, erməni silahlı dəstələrinin işğalçılıq fəaliyyəti ilə deyil, yanlış olaraq, Azərbaycan tərəfinin «blokadası» ilə bağlamağa çalışmalarını çoxlu faktlar əsasında təkzib edirlər. «Smena» müxbirlərini narazı salan «dəmiryolu və hava nəqliyyatına bütövlükdə Azərbaycan tərəfi nəzarət edir» fikrinə Azərbaycan alimləri «Suveren respublikanın ərazisindəki yollara nə üçün kənardan – Leninqraddan və ya qonşu respublikadan nəzarət edilməliymiş? Bu, Azərbaycan respublikasının daxili işlərinə qarışmaq deyilmi?» – deyə cavab vermişlər.

Blokada bəhanəsi altında 1991-ci ilin yanvarında erməni hərbi birləşmələri yenidən Dağlıq Qarabağ ərazisində fəallaşdılar.

1991-ci il yanvarın 8-də Laçın-Şuşa yolunda «Molodyoj Azerbaydjana» qəzetinin əməkdaşı Salatın Əsgərova, üç hərbçi – batalyon komandiri podpolkovnik O.Larionov,

Laçın rayonunun hərbi komendaturasının ştab rəisi mayor İ.İvanov və serjant İ.Qoyek ilə birlikdə öldürüldülər. 1991-ci il mayın 1-də Bakı-Tbilisi qatarında Noyemberyan rayonunda yaşayan S.Axnızaryan həbs edildi. Onda iki əl qumbarası, Makarov pistoletinin 16 patronu, fin bıçağı, Binə aeroportunun xəritəsi, Mingəçevir su anbarının və dəmiryol xəttinin sxemi və s. var idi. Onun verdiyi ifadədən məlum oldu ki, onlar 5 nəfər olublar və respublikaya gəliblər ki, Azərbaycanın ən mühüm yerlərini partlatsınlar.

1991-ci il mayın 30-da Mahaçkala dəmiryol şöbəsinin sahəsində 191 №-li Moskva-Bakı sərnişin qatarının axırıncı vaqonunda güclü partlayış oldu. Nəticədə 11 nəfər həlak oldu, 7 nəfər isə xəstəxanaya aparıldı.[138]

1991-ci il iyulun 31-də 6 №-li Moskva-Bakı sürətli sərnişin qatarında Mahaçkaladan bir qədər aralıda güclü partlayış baş verdi. Vaqon darmadağın oldu. 15 nəfər sərnişin həlak oldu və 19 nəfər ağır yaralı xəstəxanaya gətirildi.[139]

1991-ci il sentyabrın 25-də Əsgəran rayonunda Ağbulaq kəndi atəşə məruz qaldı. Milis işçisi Mehdiyev öldürüldü. Milisioner Qarayev yaralandı.[140] Xankəndi ərazisində avtokolon atəşə tutuldu, avtobus sürücüsü Zeynalov həlak oldu, digər sürücü A.Əliyev yaralandı, vilayət prokurorluğunun müstəntiqi S.Səfərov aldığı yaradan yerindəcə öldü. Ağdamdan Şuşaya gedən avtobusun daşa basılması nəticəsində sərnişinlər və sürücü zərər çəkdilər.

Ermənilər eyni zamanda Ağdərədən (Mardakertdən) Kəlbəcərə gedən avtomobil karvanına hücum edərək Kəlbəcər rayon partiya komitəsinin birinci katibinin həyat yoldaşını və Zərdab rayon daxili işlər şöbəsinin rəis müavini, milis mayoru Şükürovu və qeyrilərini vəhşicəsinə məhv etdilər. Bir sözlə, Dağlıq Qarabağda terrorçuluq davam etdirildi, qətlə yetirilənlərin sayı getdikcə artdı. Təkcə 1991-ci ilin 5 ayı ərzində 62 adam öldürüldü, 96 nəfər yaralandı.[141]

Bunların müəyyən dərəcədə qarşısını almaq məqsədi ilə Muxtar Vilayətin bütün rayonlarında əməliyyat istintaq

qrupları yaradıldı. May ayının 15-dən (1991-ci il) başlanan əməliyyat, pasport rejiminin yoxlanılması getdikcə öz bəhrəsini verdi. Müxtəlif xarakterli cinayətlər törətmiş olan 570 nəfər erməni tutuldu. Hadrut rayonu ərazisində keçirilən tədbirlər nəticəsində 21 kəndin əhalisi Gorus rayonu ərazisinə getdilər.[142]

Ancaq Şuşa-Laçın rayonları arasında olan erməni kəndlərini boşaltmaq, yəni ermənilər oradan çıxartmaq mümkün olmadı. SSRİ Daxili Qoşunların hərbi hissələrinin komandanı general-polkovnik Şatalovun köməkçisinin hərbi hissələrin həmin yerlərdən çıxarılması haqda göstəriş verməsinə baxmayaraq hərbiçilər çıxmağa tələsmədilər.

Əzim Piriyevin yazdığına görə «Hərbi hissələrin komandirləri buraları tərk etməyə tələsmirdilər. Köçüb getmək üçün avto-nəqliyyatın çatışmamasını bəhanə gətirirdilər, yüklərin, əşyaların hələ qablaşdırılmadığını və buna bənzər digər bəhanələri göstərməklə vaxtı uzadırdılar». Hadisələrin belə çətin bir dövründə SSRİ Daxili İşlər Nazirliyinin istintaq briqadası yaradılmışdı. 280 nəfər üzvdən ibarət istintaq briqadası Stepanakertdə fəaliyyət göstərdiyi müddətdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayət hadisələrinin istintaqını aparıb onları məsuliyyətə cəlb etməli idi. Çox təəssüf ki, 3 il ərzində yüzlərlə törədilən ağır cinayətə görə bir nəfər belə həbs edilməmişdir. Əksinə, Moskvadan gələn həmin 280 nəfərin saxlanması üçün 1990-cı ilin axırlarına respublika 42 milyon rubl xərcləmişdir.[143]

Burası da qəribədir ki, Azərbaycanda ağır cinayətlər törədib Şuşa türməsində saxlanılan erməni quldurları SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının mühafizəsinə verilmişdi. Hətta onların Azərbaycanın əməliyyat işçiləri tərəfindən dindirilməsinə belə yol verilmirdi. Belə münasibətin təsiri ilə üç il ərzində erməni quldur birləşmələrinin vəhşiliyi nəticəsində 189 nəfər adam məhv edilmiş, 743 nəfər yaralanmışdır. Vilayət ərazisində törədilən həmin faciələrlə bərabər

Muxtar Vilayətin azərbaycanlı sakinlərinin 450-dən artıq evləri yandırılıb viran edilmişdi.[144]

Azərbaycan Respublikası Prezidenti A.Mütəllibovun 27 aprel 1991-ci il tarixli Bəyanatında haqlı olaraq göstərilirdi: Dördüncü ildir ki, Dağlıq Qarabağda günahsız adamların qanı tökülür, qarətlər, partlayışlar, adamların öldürülməsi ara vermir.

«Biz tələb edirik ki, Azərbaycanın daxili işlərinə müdaxiləyə dərhal son qoyulsun. Üzdəniraq «Dağlıq Qarabağ problemi» Muxtar Vilayətin özündə, Azərbaycanda həll ediləcək. Bu torpaqda yaşayan hər bir erməni özü qərara gəlməlidir: o, ya SSRİ-nin və Azərbaycan Respublikasının Konstitusiyalarına, mehriban qonşuluq ənənələrinə uyğun olaraq sülh və əmin-amanlıq şəraitində yaşayacaq, ya da respublikamızdan kənarda özünə sığınacaq axtarmalı olacaq – deyən A.Mütəllibov bildirirdi: Biz respublikanın suverenliyini, ərazi bütövlüyünü müdafiə etmək səlahiyyətlərini SSRİ hökumətinə, SSRİ Daxili İşlər Nazirliyinə etibar etmişik və əminik ki, onlar Azərbaycan xalqı qarşısında öz Konstitusiya borclarını yerinə yetirəcəklər».

Ancaq təəssüf ki, SSRİ hökuməti və onun ayrı-ayrı nazirlikləri Konstitusiya borcunu ermənilərə güzəştə getməkdə gördülər.

1991-ci il artıq SSRİ-nin qorunub saxlanması uğrunda aparılan mübarizə dövrü idi. Ancaq Rusiyada hakimiyyətin B.Yeltsinin əlinə keçməsi ilə Ter-Petrosyan dərhal onun tərəfinə keçib siyasətini müdafiə etdi. Ter-Petrosyan «Respublikalardan Ermənistan üçün hansı daha vacibdir?» – sualına cavabında demişdir: Bizim üçün vacibi Rusiya və B.Yeltsindir. Mən Moskvaya Rusiyanın paytaxtı kimi gəldim. Bu vəziyyəti etiraf edən Ter-Petrosyan ABŞ-da çıxışlarının birində demişdir: biz artıq Rusiya Respublikası və Yeltsinlə razılığa nail olmuşuq.[145]

Rusiya ilə belə bir yaxınlaşma erməni silahlı qüvvələrinin fəaliyyətində öz təsirini aydın göstərdi. Dağlıq Qara-

bağda sovet ordusu tərkibində olan hərbi birləşmələr ermənilərin tərəfinə keçdilər və bu da Qarabağ müharibəsinə yeni güclü təkan verdi.

Azərbaycan isə Rusiyaya münasibətdə düzgün mövqe seçə bilmədi: mitinqlərdə, yığıncaqlarda, Milli Məclisdə, mətbuat səhifələrində Rusiya əleyhinə bolluca hər cür şüarlar deyildi və bu da öz acı nəticələrini verdi.

İnkişaf etmiş Qərb dövlətlərinin və Rusiyanın köməyi ilə Ermənistan silahlı qüvvələrini yaradıb gücləndirdi. Erməni silahlı qüvvələri müxtəlif şəraitlərdə döyüş əməliyyatları apara bilən, hərb sənətini öyrədən Rusiya və əcnəbi mütəxəssisləri ilə təmin edildi. Ermənilər eyni zamanda hücum taktikasına üstünlük verməklə vahid komandanlıq altında birləşən və müasir hərbi-texniki vasitələrlə tam təchiz olunmuş (radiostansiyalar, gecə görmə cihazları, zirehli gödəkçələr və s.) muzdlu dəstələr yaratdı.[146] Buna görə də 1991-ci ilin oktyabr ayında hücuma keçən erməni silahlı qüvvələri heç bir ciddi müqavimətə rast gəlmədən öz əməliyyatlarını davam etdirdilər.

Azərbaycanda vəziyyət daha da ağırlaşdı. Döyüş bölgələrində uğursuzluqlar getdikcə artdı. Respublikada hələ də Müdafiə Nazirliyinin yaradılmaması şübhəsiz, uğursuzluqlara öz təsirini göstərdi.

1991-ci il avqustun 30-da Respublika Ali Sovetinin növbədənkənar sessiyasında Milli qvardiya yaradılması haqqında qərar qəbul edildi. Ancaq bundan sonra 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması haqqında respublika prezidenti fərman imzaladı və 9 oktyabrda Ali Sovet milli ordunun yaradılması haqqında qərar qəbul etdi. Ermənistanda müasir silahlara malik ordu yaradılarkən susan erməni lobbisi qərarın əleyhinə çıxdı və «bu yeni müharibə təhlükəsi doğura bilər» deyib fəryad qopardı. SSRİ prezidentinin siyasi münasibətlər üzrə məsləhətçisi Gevord Şahnazaryan (Azərbaycanda, onun sərvəti ilə böyümüş qatı şovinist) ayrı-ayrı suveren respublikaların

ordu yaratmasını konstitusiyaya zidd hesab etdi. Görünür bu fikir son dörd ildə 200 minlik müasir silahlarla təchiz olunmaqla ordu yaratmış Ermənistana aid edilmirdi.[147] Azərbaycan Milli ordusunun yaradılması haqqındakı qanun Mərkəzi qane etmədi. SSRİ Müdafiə və Daxili İşlər nazirlikləri xüsusi bəyanat qəbul edərək bu işdən çəkinməyi müstəqil ordu yaradan respublikalardan tələb etdilər.

Azərbaycanda Milli ordunun yaradılması haqqında fərman və qərar tələb olunan nəticəni vermədi. Vahid ordu əvəzinə respublikada hələ də yarıtmaz təlim keçmiş, vahid komandanlığı olmayan və çox zaman bir-birinə etibar etməyən hissələr fəaliyyət göstərdi. Müdafiə Nazirliyi yalnız müdafiə taktikasını yeritdiyinə görə hərbi hissələr Dağlıq Qarabağ kəndlərində hələ də səpələnmiş halda olmaqla dalbadal uğursuzluqlara düçar olurdular.

Azərbaycan Respublikası silahlı qüvvələri gününə həsr edilmiş (oktyabr 1996-cı il) təntənəli yığıncaqda Azərbaycan Respublikasının Müdafiə Naziri, general-leytenant Səfər Əbiyev etdiyi məruzəsində həmin dövrdə hələ də respublika ordusunun formalaşmamasını, peşəkar hərbiçilərin buraya cəlb edilməsinin müxalifət qruplarını qane etməməsini, sərişтəsiz adamların hərbi işə cəlb edilməsini, təşkil edilən piketlər, saysız-hesabsız təxribatların ordu quruculuğuna ağır zərbələr vurmasını və buna görə də yaradılmış hərbi hissələrin dağılmağa başlamasını böyük ürək ağrısı və təəssüf hissləri ilə qeyd etmişdir.[148] Belə şəraitdə orduya çağırış məsələsində də böyük səhlənkarlıq və özbaşınalıq var idi. Belə ki, 1991-ci ilin payız çağırışı haqqında fərman üç ay ləngidildikdən sonra 5 dekabr 1991-ci ildə verildi. Bu laqeydlik əlbəttə çağırışın keyfiyyətsiz aparılmasına təsir etməyə bilməzdi. Bunun da nəticəsi idi ki, 1991-ci ilin dekabr, 1992-ci ilin yanvar-fevral aylarında 21.460 nəfər çağırışçıdan yalnız 5.425 nəfər ordu sıralarına çağırıldı.[149]

SSRİ dağılması ilə 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini elan etmiş Azərbaycan Respublikası üçün vətənin

müdafiəsinə göstərilən laqeydlik şübhəsiz ki, uğursuzluqları daha da artırdı. Bu şəraitdə 1991-ci il noyabrın 20-də Qarabağın Qarakənd kəndi səmasında Mİ-8 hərbi vertolyotu vuruldu. Azərbaycanın ən yaxşı oğullarından bir qrupu bu vertolyotda idi. Onların hamısı, o cümlədən T.K.İsmayılov, Z.S.Hacıyev, M.N.Əsədov, İ.İ.Qayıbov, V.C.Cəfərov, V. H. Məmmədov, O.M.Mirzəyev, Q.H.Namazəliyev, R.İ.Məmmədov, A. M. Mustafayev, F.İ.Şahbazov, A.İ.Hüseynzadə, N.V.Jinkin, V.V. Kovalyov, V.V.Kotov və başqaları həlak oldular. Onların ölümü Azərbaycana böyük itki oldu. Nə qədər ki, onlar böyük fədakarlıqla cəbhənin ən ağır nöqtələrində fəaliyyət göstərirdilər, düşmən elə əl-qol açа bilmirdi. Onların amalı təmiz və saf idi – vətəni düşməndən təmizləmək, müstəqilliyi qorumaq amalı idi. Çox təəssüf ki, bu hünərli Azərbaycan oğullarının faciəsi hələ də bu günə qədər açılıb xalqa çatdırılmayıb. Bu faciə üzrə olan komissiya və onun çıxardığı nəticələr xalqı qane etmir. Buna görə də faciənin düzgün açılması Azərbaycan xalqının böyük arzusudur. Digər tərəfdən də həmin vəzifəli şəxslərin fəaliyyəti unudulmamalı və Qarabağ uğrunda şəhid olmuş vətənpərvər övladlar kimi daima yad edilməlidirlər.

Beləliklə, 1988-1991-ci illərdə erməni ekstremistlərinin böyük və tarixi cinayəti üzündən Azərbaycana qarşı başlanmış təcavüz – Ermənistandan 200 minə yaxın azərbaycanlının didərgin salınması, həmin vaxt 214 nəfərin əzabla öldürülməsi, minlərlə adamın yaralanması, cismən eybəcər şəklə salınması, 1990-cı il 20 yanvar fəlakəti, 1991-ci il 20 noyabrda erməni quldurlarının əli ilə xalqımızın və qardaş xalqların 23 nəfər igid oğlunun guya «vertolyot qəzası ilə» qətlə yetirilməsi və s. kimi ağır hadisələrlə nəticələndi. Bunlarla kifayətlənməyən ermənilər azərbaycanlılara qarşı hərbi əməliyyatlarını davam etdirdilər. 1991-ci il noyabrın 27-də Qorbaçovun rəhbərliyi altında Dövlət Şurasında atəşin dayandırılacağını L.Ter-Petrosyanın söz verməsinə baxmayaraq ona da əməl etmədilər. Noyabrın 29-da Qara-

bağ səmasında yenə Qarakənd kəndi yaxınlığında ermənilər Azərbaycana məxsus iki sərnişin vertolyotunu vurub yerə enməyə məcbur etdilər. Yenə də həmin gün ermənilər tərəfindən daha iki vertolyot vurulub yerə endirildi.[150]

1991-ci il dekabrın əvvəllərində Şuşanın İcra hakimi sadə insan və bacarıqlı təşkilatçı Mikayıl Gözəlov iş kabinetində öldürüldü. Onun öldürülməsindən sonra vəziyyət bir qədər də ağırlaşdı. Bununla da Şuşa, Xocalı şəhərləri və bir sıra kəndlər üçün çox böyük təhlükə yarandı. Terrorçuluq hətta Xankəndində ermənilər tərəfindən ermənilərin özlərinə qarşı da tətbiq edildi. 1991-ci ildə aeroportun rəisi A.İşxanyan evinin partladılması ilə öldürüldü. Dağlıq Qarabağın fəallarından biri V.Qriqoryan küçədə güllə ilə qətlə yetirildi. 1992-ci ilin aprelində Artur Mkrtçyan öz evində arvad və uşaqlarının gözü qarşısında öldürüldü. Çünki o, ölümündən bir qədər əvvəl bildirmişdi ki, bizdə müharibə deyil, qısaca olaraq demək istəyirəm ki, bu insanlar üzərində işgəncədir.[151] Həmin ilin dekabrında Ermənistandan olan boyeviklər tərəfindən Xankəndində təhlükəsizlik orqanı işçisi L.Qaraxanyan öldürüldü. Çünki o, qardaş qırğını müharibəsi əleyhinə olan mövqeyini gizlətmirdi.[152] Erməni millətçilərinin ədalətsiz siyasəti əleyhinə çıxış etdiyinə və onlarla razılaşmadığına görə SSRİ Ali Sovetinin deputatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı Suren Adamyan da ermənilər tərəfindən qətlə yetirilmişdi.

1991-ci ilin sonuna yaxın hələ də Azərbaycanda lazımi dərəcədə mütəşəkkil ordunun olmamasından istifadə edən ermənilər daha da fəallaşdılar və sentyabrın 25-dən 26-a keçən gecə Kərgicahana hücum etdilər. Milis işçisi Ş.Cəfərov yaralandı. Həmin gecə «Alazan» tipli raketdən Şuşa atəşə tutuldu. Evlər, idarələr dağıdıldı. F.Fərhadov öz evində həlak oldu. Yevlax-Laçın yolunun Əsgəran ərazisində Dövlət Avtomobil müfəttişliyi idarəsi işçiləri A.Vəliyev, N.Əhmədov ermənilər tərəfindən öldürüldülər.[153] 1991-ci il sentyabrın 28-i gecəsi ermənilər Kərgicahana yenidən hücum et-

dilər və nəticədə evlər dağıdıldı, yaralananlar oldu. Bunlarla yanaşı təxribat işlərini zərrə qədər zəiflətmədilər. Belə təxribatın nəticəsində 1992-ci il yanvarın 8-də Bakı limanında dəhşətli partlayış oldu. Sərnişinlər Krasnovodsk-Bakı reysi ilə gələn gəmidən düşərkən hadisə baş verdi, 86 nəfər zərər çəkmiş sərnişinlər səhiyyə şöbəsinə gətirildilər.[154] Onların içərisində ağır yaralananlar və həlak olanlar da olmuşdu. 1992-ci il 10 yanvar tarixli "Səhər» qəzetində bildirildi ki, meyidlər o dərəcədə güclü yanmışdı ki, onlardan yalnız ikisini tanımaq mümkün olmuşdu. Gəmi hərəkət cədvəlindən 2 saat əvvəl limana gəlmişdi. Erməni terrorçularının hesablamalarına görə gəmi açıq dənizdə partlamalı və bütün gəmidəki adamlar məhv olmalı idilər.

Dünya ictimaiyyəti tərəfindən lazımi dərəcədə qəzəblə qarşılanıb pislənilməyən ermənilər hər yerdə istədiklərini edirdilər. Livan ermənilər Amerikada, Amerika ermənilər İsveçrədə, Qarabağ ermənilər Rusiyada, İranda, Türkiyədə və istədikləri ölkələrdə öz evlərindəki kimi hərəkət edirdilər. Onları hər yerdə qəbul edir, gizlədirlər, silahlandırırlar və terrorçuluq aktını həyata keçirdikdən sonra dərhal oradan getməsinə köməklik edirdilər.

Qəribə budur ki, R.Koçaryan Ermənistan prezidenti seçilən kimi özünün birinci vəzifəsi təcili olaraq məşhur İran terroristi Qrant Markaryanı azad etdirmək oldu. İran vətəndaşı olan Q.Markaryan 1991-ci ildə saxta sənədlə Ermənistandan Qarabağa göndərildi və az cinayətlər törətmədi. R.Koçaryan Ermənistanın prezidenti seçilən kimi həbsxanadan azad etdirdiyi terroristlərdən biri də Vaqan Oqanesyan olmuşdu. O, 1996-cı ildə «Dro» terrorist təşkilatındakı fəaliyyətinə görə həbs edilmişdi. Qəribə burasıdır ki, sonralar o terrorist cani V.Oqanesyan Ermənistan prezidentinin müşaviri işləmişdi (Bax: «İqtisadiyyat» qəz. 2-8 noyabr 2001). Faktlar təsdiq edir ki, R.Koçaryan 1991-ci ildə Xankəndində «Dövlət Müdafiə Komitəsinin sədri» olarkən

məhz o azərbaycanlılara qarşı törədilən terrorların bilavasitə təşkilatçısı olmuşdu (Yenə orada).

Buna misal olaraq Bakı metrosunun «20 Yanvar» stansiyasında, «28 May-Gənclik» və «Ulduz-Nərimanov» stansiyaları arasında törədilən partlayışları göstərmək olar. Təkcə 1994-cü il iyunun 3-də Bakı metrosunun «28 May-Gənclik» stansiyaları arasında törədilən dəhşətli partlayış nəticəsində 13 nəfər adam həlak olmuş, 40 nəfər yaralanmışdı (Yenə orada).

Bu hadisələrdə şübhəsiz, ermənilərin terrorçu təşkilatı olan «ASALA» da son illərdə fəal iştirak etmişdi. İsrail kəşfiyyatı müəyyən etmişdir ki, ermənilərin ASALA təşkilatı İranpərəst «Hezbullah» təşkilatı ilə sıx əlaqədədir (Bax: Армянский геноцид: Миф и реальность. Баку, 1992, səh. 39). Hələ 1987-ci ildə İsrail kəşfiyyatının belə bir məlumatı verilmişdi ki, ASALA Hezbullah təşkilatı ilə birlikdə Avropada türklərə qarşı terror aktları həyat keçirməyi planlaşdırmışlar. 1991-ci ildən ASALA təşkilatı öz fəaliyyətini daha da gücləndirmiş və terrorçuluq aktlarını artırmışdı.

1991-ci ildə Rostovda Sovet hərbiçi zabiti Vladimir Blaxotin öldürüldü. Türkiyə polisindən 1992-ci ildə verilmiş məlumata görə «ASALA» təşkilatı Türkiyədən Bakıya uçan təyyarələrdə partlayıcı qurğulardan istifadə etməyi planlaşdırmışdı. Bu təşkilat türkləri, azərbaycanlıları məhv etmək yolu ilə erməni təcavüzünü daha da gücləndirmək istəmişdi.

ASALA-nın PKK (Kürd İşçi Partiyası) təşkilatı və başqaları ilə əməkdaşlığı gərginliyi daha da artırır. Onların birgə fəaliyyəti Türkiyəyə qarşı daha aydın nəzərə çarpır. Seyfulla Cəfərli «Respublika» qəzetində (22 may 1996-cı il nömrəsində) «PKK – qanlı terror təşkilatıdır» adlı məqaləsində həmin təşkilatın terrorçularının Türkiyə əhalisinə müsibətlər gətirməsini çoxsaylı faktlarla təhlil etmişdi. Müəllif yazır ki, PKK terroru qurbanı olan müəllimlərin sayı son günlərdə 148-ə çatmış, Türkiyənin Toros dağları da daxil olmaqla Mardin, Urfa, Maraş və başqa yerlərin Suriya

torpağı kimi təbliğ edilməsi çox güclənmişdi. Məqalədə həmçinin ABŞ Dövlət Departamentinin aprelin 30-da (1996-cı ildə) dünyada terrorçuluq fəaliyyətini müzakirə edərkən PKK-nı təhlükəli terror təşkilatı kimi pisləməsi faktlarla tam açıqlanmışdır. PKK təşkilatı həm də azərbaycanlılara qarşı olan fəaliyyəti ilə ermənilərə çox köməklik etmişdir.

Hətta həmin təşkilatın Ermənistanda 1994-cü ildə 21 bazası yaradılmış və o, Azərbaycana qarşı aparılan təcavüz müharibəsində erməni işğalçılarının sərəncamına 660 döyüşçü vermişdir (Bax: «Ayna» qəzeti, 6 yanvar 1995). Məhz bu şəraitdə 1994-cü ilin martında Bakı metrosunda baş verən partlayış hadisəsində də erməni terrorçularının iştirakına şübhə yeri qalmır. Xaricdəki erməni milyonerlərindən və erməni kilsəsindən maliyyə yardımı alan bu yırtıcı terror təşkilatı hətta öz üzvlərinə qarşı da çox amansızdır. 1984-cü ildə ASALA haqqında məlumat yazdığına görə Livanda iki nəfər ermənin qətlə yetirilməsi faktı təşkilatın amansızlığını tamamilə təsdiq edir.

Daşnaksütyun Erməni İnqilabi Federasiyası – DEİF təşkilatı da bütün varlığı ilə erməni millətinin mənafeyini müdafiə edir. Bu təşkilatın fəaliyyətindən bəhs edən «Ayna» qəzetinin 7 dekabr (1996-cı il) sayında göstərilir ki, həmin təşkilat belə hesab edir ki, azad və vahid Ermənistanın yaradılması naminə onun bütün əraziləri – Naxçıvan, Axalkalaki, Qarabağ bölgələri də daxil olmaqla Ermənistanın hüdudları daxilində olmalıdır. Bu təşkilatın siyasi manifesti hətta Fransada çıxan «Qamk» erməni qəzetində hələ 1985-ci il 11 dekabr tarixli sayında dərc edilmişdi.

Erməni millətçilərinin Azərbaycana qarşı həyata keçirdikləri terrorçu təşkilatlardan ASALA hətta Azərbaycan neftinin Avropanın ölkələrinə ötürülməsi üçün neft kəmərinin çəkilişində iştirak etmək istəyən Türkiyə və başqa ölkələri terrorçuluqla hədələyir. Hətta 1993-cü il avqustun 22-də ASALA təşkilatı açıq şəkildə Azərbaycandan boru kəmərinin çəkilməsinə yol verməyəcəyini bildirmişdi.

Hollandiya jurnalisti Çarlz Van Der Ley erməni terrorizmi məsələsinə toxunaraq bildirmişdir ki, Qarabağ münaqişəsində və R.Koçaryanın siyasi fəaliyyətində ASALA mühüm rol oynamışdır. ASALA terrorçuları Davidyan və Melkonyan Livandan Qarabağa gələrək R.Koçaryan tərəfindən «səhra komandiri» vəzifəsinə təyin edilmişlər. Məhz onlar Xocalı, Şuşa, Laçın faciələrinə görə məsuliyyət daşıyırlar (Yenə orada).

Beləliklə, erməni terrorçuları XX əsrin əvvəllərindən başlayaraq zaman-zaman azərbaycanlılara qarşı amansız terror aktları həyata keçirmiş, saysız-hesabsız kəndləri viran qoymuş, əhalini qətlə yetirmişlər. Bu qanlı cinayət 1988-ci ildən etibarən daha geniş vüsət almışdı. 2001-ci ilin sentyabrında Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış edən millət vəkili İlham Əliyev demişdi: 32 terror aktı, metroda partlayışlar, qatarlarda, avtobuslarda, gəmi-bərələrdə partlayışlar, bütün bunların nəticəsində 2 min azərbaycanlı həlak olmuşdu. 10 minlərlə adam ağır bədən xəsarəti almışlar. Azərbaycana həm də külli miqdarda maddi ziyan dəymişdi.[155]

Erməni terrorçuları Azərbaycanla bərabər dünyanın bir sıra şəhərlərində – Vaşinqton, Nyu-York, London, Paris, Praqa, İstanbul, Tehran, Moskva, Vyana və s. cinayətlər törətmişlər. Çox təəssüf ki, bəşəriyyət üçün olduqca təhlükəli olan terrorçuluğa, habelə erməni terrorizminə qarşı vaxtında tədbir görülməmiş və əksinə erməni terrorizminə göz yumulmuşdu.

Lakin 2001-ci il sentyabrın 11-də Amerikada baş verən terror hadisəsindən sonra nəhayət ki, terrora qarşı mübarizə aparmaq dünya dövlətlərinin vəzifəsinə çevrildi. Hətta 2003-cü ilin yanvarında ABŞ Dövlət Departamentinin yayılmış hesabatında beynəlxalq terror yuvalarının adları açıqlanmışdı və tərtib olunmuş siyahıda «DQR» və Ermənistanın da adları vardır (Bax: «İki sahil» qəz. 28 mart 2003).

Belə bir şəraitdə Xocalı məsələsi ermənilər üçün ən mühüm yer idi. Buranı onlar özləri üçün böyük bir maneə hesab edirdilər. Çünki Xocalı Dağlıq Qarabağda şose yolunun üstündə yerləşirdi. Hava limanı Xocalıda olmaqla bərabər, həm də dəmiryolu buranın içindən keçirdi. Buna görə də ermənilər Xocalını məhv etməyə çalışırdılar. Həmin məqsədlərinə nail olmaq xatirinə hələ 1988-ci il sentyabrın 18-də Stepanakertdə keçirilən nümayişdə iştirak edən 10-12 min erməni Xocalıya hücum etmişdi. Lakin onlar burada böyük müqavimətə rast gəlmiş və tələfat verib geri çəkilmişdilər.

Bu hadisə Ermənistanı narahat etmiş və bundan xəbər tutan S.Sarkisyan, S.Kaputikyan və Z.Balayan Yerevanda televiziya ilə etdikləri qatı millətçi ruhlu çıxışlarında Xocalının məhv edilməsi haqqında sanki hökm verdilər. Hadisənin səhəri günü Zori Balayan bir dəstə həkimlə ermənilərin köməyinə gəldi. Ermənilərin Xocalıya etdikləri bu hücuma görə heç kim cəzalandırılmadı, əksinə, Xocalının səkkiz sakini həbs edildi. Həmin dövrün hadisələrini xatırlayan Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Elman Məmmədov deyir: O vaxtkı SSRİ Ali Soveti Millətlər Sovetinin sədri Boris Oleynik başqaları ilə birlikdə gəlib bizdə yığıncaq keçirdilər. Mən çıxış edib ona sual verdim: Siz milliyyətcə ukraynalısınız və oranın elə əraziləri vardır ki, əhalinin 80-90 faizi ruslardan ibarətdir. Gəlin, o ərazini kəsib Rusiyaya verək, siz buna razı olarsınızmı? O, cavabında bildirdi ki, yox, mən razı olmaram. Bəs nəyə görə razı olursunuz ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana verilsin? Sizin evinizə hücum etsələr və ailənizi təhqir etsələr, o halda siz nə iş görərsiniz? O, cavabında dedi ki, əlimə keçəni götürüb ailəmi müdafiə edərəm. Mən cavabında dedim, bax, biz də belə etmişik. Bəs nəyə görə həbs olunmalıyıq.[156]

1991-ci ilin mart ayında Xocalı ilk dəfə üç tərəfdən – Çəpik dağından, Bozdağdan və Mehdikənddən raket atəşinə məruz qaldı. 1991-ci il noyabrın 1-də «UAZ» markalı maşın

Əsgəranda güllələbaran edildi, iki nəfər həlak oldu və bir nəfər yaralandı. Bu hadisə ilə Xocalının Azərbaycanla əlaqəsi kəsildi, şəhər mühasirədə qaldı. Bütün ümid vertolyotlara qalmışdı. Belə bir şəraitdə Azərbaycan dövlətinin qərargahı Stepanakertdən çıxmaqla Ağdama köçürüldü. Deməli, Respublika hökuməti Stepanakertdən çıxmaqla Dağlıq Qarabağı könüllü şəkildə ermənilərə vermiş oldu. Qərargahı Stepanakertdə daha da möhkəmləndirib vilayət idarəsini tam öz əlində saxlamaq əvəzinə Ağdama köçmək nə dərəcədə düz idi?! Bundan sonra ermənilər sərbəst şəkildə təcavüzü daha da genişləndirdilər. 1991-ci il dekabrın 15-də 110 evli Cəmilli, dekabrın 24-nə keçən gecə isə 60 evli Meşəli kəndləri yandırıldı. Təkcə Meşəli kəndindən 27 nəfər məhv edildi.[157]

1991-ci il dekabrın 28-də 350 evdən ibarət olan Kərkicahan kəndi yandırıldı. Bura Şuşa ilə Stepanakert arasında mühüm strateji mövqedə idi. Buranı dağıtmadan Şuşaya doğru hərəkət etmək mümkün deyildi. Deməli, Şuşanın təhlükəsizliyi üçün çox əhəmiyyətli bir məntəqə də məhv edildi.

Beləliklə, 1992-ci ilin əvvəlinə Dağlıq Qarabağdakı 57 azərbaycanlı yaşayış məntəqəsindən artıq 50-i ermənilər tərəfindən işğal edilmişdi.[158] Kərkicahan üçün təhlükə şəraiti yaranan vaxt buranı möhkəmləndirmək üçün elə bir tədbir görülmədi; ermənilərə ciddi müqavimət göstərilmədi. Bundan istifadə edən ermənilər 1992-ci il yanvarın 18 və 19-da Nəbilər kəndini yandırıb viran etdilər. Bundan bir həftə sonra Azərbaycanın Müdafiə Naziri Mehdiyevin əmri ilə Milli ordunun birinci batalyonu heç bir hərbi zərurət olmadığı halda, Daşaltıdan Şuşanın altına köçürüldü. Bələdçilər həmin hissəni xəyanət edərək düşmənin gözlədiyi yerə gətirdilər və nəticədə ermənilər milli ordunun 123 döyüşçüsünü məhv etdilər.

1992-ci il yanvarın 28-də Şuşa səmasında Mİ-8 vertolyotu vuruldu və 40-a qədər sərnişin və ekipaj həlak oldu.[159] Həlak olanlar içərisində Şahin Abbasov, onun həyat yoldaşı və qızı, 1953-cü ildə Kərkicahanda anadan olan Asif

Qarayev, 1948-ci ildə Kəlbəcər rayonunun Yanşaq kəndində anadan olmuş Eldar Quliyev, 1936-cı ildə Şuşada anadan olmuş Əkrəm Zalov və 1938-ci ildə Göyçay rayonunda anadan olmuş həyat yoldaşı Bahar Zalova, oğlu Namiq və başqaları vardır.[160] Yanvarın 31-də komandanlığın düşünülməmiş tələsik əmri ilə Ağdamdan Əsgəran istiqamətində hücum başlandı. Bunun qarşısı ermənilər tərəfindən alındı və nəticədə 70 döyüşçü həlak oldu, 68 nəfər yaralandı.[161]

1992-ci il fevralın 8-də Şuşa şəhəri və onun ətrafında qalan milli ordu hissələrinin həmin yerlərdən çıxarılması haqqında Müdafiə Nazirinin əmri alındı. Milli ordunun axırıncı hissələri Şuşanı fevralın 9-da tərk etdilər. Fevralın 12-ə keçən gecə 600-700 evli Malıbəyli və Quşçular kəndləri viran qoyuldu. Burada 30-a qədər adam məhv edildi. Cəbhələrdəki məğlubiyyətlər və kəndlərin düşmən tərəfindən zəbt edilməsi[162] Azərbaycanda, xüsusilə Bakıda vəziyyəti olduqca gərginləşdirdi. Ali Sovetin sessiyasında Milli orduda (MO) cəmi 150 hərbi qulluqçunun olması haqqında Şahin Musayevin bəyanatı əhalinin böyük narahatlığına səbəb oldu. Belə şəraitdə prezident fevralın 17-də Müdafiə naziri Mehdiyevi işdən azad etdi. Bu, şəhərdəki gərginliyə elə bir təsir göstərmədi. Hətta Azərbaycan Xalq Cəbhəsi fevralın 29-da təyin etdiyi mitinqi belə təxirə salmadı. Bu zaman ən təhlükəli vəziyyət artıq Xocalı şəhəri üçün yarandı. Yaranmış təhlükə haqqında dəfələrlə respublika rəhbərliyinə məlumat verildisə də, bir nəticə alınmadı; əsaslı bir tədbir görülmədi.

Əksinə, 1991-ci ilin axırlarında ermənilər Azərbaycan kəndlərini viran qoyaraq insan qırğınları törətdikləri bir vaxtda Azərbaycan hökuməti «qonşuluq naminə» ermənilərə 600 ton benzin və iki vaqon un göndərdi.[163] Bunu bilən xocalılar dəmiryolunu dağıtdılar. Çox qəribədir, Dağlıq Qarabağda, eləcə də Xocalıda yaşayan çörəksiz, yanacaqsız azərbaycanlılara kömək etmək əvəzinə Azərbaycan hökumət rəhbərləri düşmənə – ermənilərə köməklik göstərirdilər. Dövlətlərarası və milli münaqişələr tarixində buna bənzər

hadisə tapmaq qeyri-mümkündür. 1992-ci il yanvarın 2-dən sonra Xocalıya verilən işıq da kəsildi. Fevralın 13-də çox çətinliklə vertolyotlarla 300 nəfərdən artıq Xocalı sakini oradan çıxarıldı. Sonuncu vertolyot Xocalıya fevralın 18-də uçmuşdu. Xocalı faciəsi getdikcə yaxınlaşırdı. Ermənilər Sumqayıt hadisəsinin ildönümünü Xocalıda qeyd etməyi planlaşdırmışdılar və ona görə də ciddi şəkildə hücuma hazırlıq gördülər.

Ancaq ermənilər Xocalı faciəsindən əvvəl, Xocavənd (Martuni) rayonunun işğalı vaxtı Qaradağlı kəndində də ağır faciə törətdilər. Dörd il qəhrəmanlıqla erməni işğalçılarına qarşı mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də süqut etdi. Kəndin mal fermasında 6 nəfər kişi, qadın, uşaq yandırıldı. Erməni vəhşiliyi nəticəsində 54 ailə başsız, 200-ə yaxın uşaq valideynsiz qalmış oldu. Həmin kəndin 117 nəfər dinc sakinini ermənilər Xankəndinə apararkən onlardan 76 nəfərini yolda güllələdilər. Bunlardan 20 nəfəri uşaq, qalanları isə qadınlar olmuşlar (Bax: «Səhər» qəz. 26 fevral 1993. «Azərbaycan» qəz. 28 mart 2008). Belə şəraitdə Xocalı üçün olduqca təhlükəli vəziyyət yaranmış oldu.

Nəhayət, 1992-ci il fevralın 25-26-na keçən gecə erməni döyüşçüləri 366-cı Rusiya atıcı alayının köməkliyi ilə Xocalı şəhərinə hücum etdilər. Şəhərin viran və işğal edilməsində 366-cı alayın 20 tankı, 34 BTR-i, 20 PDM iştirak etmişdi. Sağ qalmış əsirlər təsdiq edirlər ki, ermənilərlə birlikdə Rusiya əsgərləri nəinki əməliyyatda fəal iştirak edirdilər və eləcə də əhalinin qarət edilməsində də ermənilərdən geridə qalmırdılar. Qüvvələr nisbətinin qeyri-bərabər olduğu döyüşdə şəhərin müdafiəçiləri gecə saat 3-dək müqavimət göstərə bildilər. Düşmən ilk növbədə Xocalı aeroportunu ələ keçirdi. Aeroportun komendantı Əlif Hacıyev bütün gücünü mühüm sənədlər və silah saxlanılan anbarın düşmən əlinə keçməməsi xatirinə onun partladılmasına sərf etdi. İlk andan diqqət əhalini, xüsusilə qadınları, uşaqları və qocaları mümkün qədər salamat çıxartmağa yönəldi. Dəqiqləşdiril-

miş məlumata görə müəyyən yerlərdə gizlənən 600-dən çox Xocalı sakininin ayağını don vurdu. Təbiət də üz döndərmişdi, o günlərdə bərk qar yağmışdı, hava çox soyuq idi.

Respublika Prokurorluğunun Mətbuat xidmətindən alınan məlumata görə şəhərin işğalı zamanı Xocalının minlərlə sakini erməni vəhşiliyinə məruz qalmış oldu. 613 nəfər işğalçılar tərəfindən qətlə yetirildi, 1275 nəfər girov götürüldü, 487 nəfər ömürlük şikəst edildi. Qətlə yetirilənlərin 83 nəfəri azyaşlı uşaqlar olmuşdur. Xocalı faciəsində 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmiş, 8 ailə tamamilə məhv edilmişdi. Şəhərin işğalı nəticəsində 1992-ci ilin qiymətləri ilə dövlət əmlakına 4 milyard 199 milyon 622 min 238 rubl, vətəndaşların şəxsi əmlakına isə 229 milyon 861 min 800 rubl məbləğində ziyan dəymiş oldu.

Qəribədir! Ermənilər 24 apreli (1915-ci il) «genosid» deyib bu saxta uydurmanı bütün dünyaya yaymışlar və yenə də özlərini faciəyə məruz qalan yazıq bir millət kimi təbliğ edirlər. Lakin Rusiyanın əli ilə ermənilərin törətdiyi Xocalı faciəsi dilə belə gətirilmir, azərbaycanlılara öz doğma yurdunda tətbiq edilmiş soyqırım siyasəti kimi səslənmir.

1992-ciilin fevralında Xocalıda törədilən soyqırım sanki 1905 və 1918-ci illərdə Xocalıda törədilən soyqırımların təkrarı oldu. Bu dəhşətli faciədə – başının dərisi soyulanlar, barmaqları, qulaqları kəsilib üzükləri, sırğaları aparılanlar, gözləri çıxarılanlar, bədənləri deşik-deşik edilib tanınmaz və eybəcər vəziyyətə salınanlar və s. az olmamışdır. Səriyyə Talıbova adlı qadın söyləmişdir ki, erməni döyüşçüsünün qəbri üstündə ermənilər 4 nəfər Mesxeti türkünün (1989-cu ildə Fərqanədən qovulmuş həmin türklərin 54 ailəsi Xocalıda məskunlaşmışdı) və 3 azərbaycanlının başını kəsmiş və milli hərbi geyimdə olan döyüşçünün isə gözlərini çıxarmışlar (Bax: «Respublika» qəz. 22 fevral 2007).

Belə qəddarlıqla nəticələnən hücuma rəhbərlik edən, hazırda Ermənistanın Müdafiə Naziri işləyən Seyran Ohanyan və 366-cı alayın komandiri Yevgeniy Nabokixinin ol-

muşlar. Bunlardan əlavə Xocalı əməliyyatında 50-dən artıq erməni zabiti və gizirləri iştirak etmişdilər (Bax: «Xalq» qəz. 26 fevral 2011). Belə qüvvələrlə Xocalıda törədilən amansız faciə nəticəsində qətlə yetirilənlərin 70 nəfəri qoca, 106 nəfəri qadın, 33 nəfəri 11 yaşından 18 yaşına qədər olanlar idi, 150 nəfər isə itgin düşmüşdü. Bununla da 10 minə yaxın əhalisi olan şəhər viran edildi.[164]

Xocalının İcra Hakimiyyətinin başçısı Elman Məmmədovun 23 nəfər qohumlarından yalnız özü salamat qaldı. Vəkil Ələkbərov özünün 49 nəfər qohumunu itirdi.[165] Şəhərin yandırılıb dağıdılması nəticəsində müxtəlif təşkilatların əmlakına 4 milyard 199 milyondan artıq, şəxsi əmlaka isə 229 milyondan artıq ziyan vuruldu.[166]

Göstərmək lazımdır ki, Qarabağ müharibəsinin ən qanlı və müsibətli səhifəsi Xocalı faciəsi oldu. Xocalıda görünməmiş vəhşilik və qəddarlıq törədildi. Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun dedikləri bunu aydın göstərir: «Xocalı müsibətindən xəbər tutan dəstəmiz o səmtə yollandı. Şəhərə yaxınlaşmaq, yaralılara kömək etmək mümkün olmadı. Rus zirehli texnikasının fəal iştirakı ilə törədilən bu vəhşiliyin izlərini gizlətmək üçün Xocalı və onun ətrafı güclü atəşlə mühafizə edilirdi. Göstərilən müqaviməti yarmaq üçün bizim lazımi texnikamız və kifayət qədər canlı qüvvəmiz yox idi. Vuruşa-vuruşa Naxçıvanik istiqamətində Əsgəran yolunun altına çıxdıq. Buradakı donuz fermasının ətrafında ermənilərin dinc əhaliyə tutduqları divanı sözlə təsvir etmək mümkün deyil. Eybəcər şəklə salınmış meyidlər ətrafda tökülüb qalmışdı. İnanmaq olmurdu ki, insan belə vəhşiliyə və alçaqlığa qadir ola bilər. Başı, burnu, qulağı kəsilən, gözü çıxarılan meyidlər çox idi, bir neçə meyidin başının dərisini də soymuşdular.[167]

İnsanlıq tarixində heç kim, hətta faşistlər də bu cür cinayət törətməmişdilər. Belə qeyri-insani hərəkəti ancaq bütün qanı, şüuru ilə türkə nifrət bəsləyən erməni törədə bilərdi. Ermənilər 1915-ci ildə dünyaya car çəkərək aprelin

24-nü «genosid» günü kimi qeyd edirlər. Xocalı faciəsi ən ağır faciədir və bu yeni deyil. Ermənilər 1905-1906, 1918-1920-ci və nəhayət, olduqca dəhşətli faciəni 1992-ci ilin fevralında törətdilər.

Şübhəsiz Xocalı faciəsi XX əsrdə bəşəriyyətə qarşı törədilmiş kütləvi qanlı cinayət səviyyəsində və əsl soyqırım kimi beynəlxalq təşkilatlarda qəbul olunmalı və bu faciə haqqında yeni-yeni əsərlər yazılmalı və təbliğ edilməsi həmişə diqqət mərkəzində olmalıdır.

Xocalı faciəsindən sonra hadisə yerində olan «İzvestiya» qəzetinin müxbiri V.Belıx Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları, başları kəsilmiş, qafa sümükləri çıxarılmış meyidlərin şahidi olduğunu söyləmişdi. Xocalı hadisəsinin baş verdiyi yerdə olmuş fransız jurnalisti Jan İv Yinet demişdi: «Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçiblər».

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Vəfaddin İvayev yazır ki, Azərbaycan Müdafiə Nazirliyi Tibbi Xidmətinin rəisi Xanlar Hacıyev Xocalı hadisələri zamanı törədilmiş vəhşiliklərlə rastlaşdığını – donmuş qızın üzünün bıçaqla kəsildiyini, döyüşçünün bağırsaqlarının çıxarıldığını bildirmişdi. Həm də 4 meyidin başının dərisinin soyulduğu və bir meyidin başının kəsildiyi, 10 nəfərin küt alətlə vurularaq öldürüldüyü müəyyən edilmişdi.[168] Ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilik – Xocalı soyqırımına münasibət dünyanın bir sıra qəzet səhifələrində – o cümlədən, «Kommersant» – Moskva – 27 fevral 1992-ci ildə, «Vaşinqton Post» – 28 fevral 1992-ci ildə, «İndependent» – 29 fevral 1992-ci ildə, «Mond Paris» – 14 mart 1992-ci il sayında və s. qəzetlərdə öz əksini tapmışdı. 14 mart 1992-ci il tarixli sayında «Mond Paris» qəzetində yazılmışdı: Ağdamda olan əcnəbi jurnalist öldürülmüş adamlar arasında başlarının dərisi soyulmuş qadın, uşaqları və eyni zamanda onların dırnaqlarının çıxarıldığını görmüşdü. Jarnalist

bunun «Azərbaycan təbliğatı» deyil, reallıq olduğunu yazmışdı (Bax: «Azərbaycan» qəz. 26 fevral 1998).

Xocalı soyqırımı özünün əsl siyasi qiymətini H.Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra almışdı. Azərbaycan prezidenti H.Əliyev faciənin dördüncü ildönümü ilə əlaqədar Xocalı sakinlərinin bir qrupu ilə görüşündə (fevral, 1996-cı ildə) demişdi: «O vaxtlar, təzə-təzə, hələ o yaralar soyumamış bu barədə məlumat çatdırıldı. Yox, daim yadda saxlamaq lazımdır.

Daim! Hər il, hər gün! Beş il də bundan sonra, on il də bundan sonra! Bunu unutmaq olmaz! Bunu unutmaq olmaz! Bu, gərək dünya ictimaiyyətinə çatdırılsın və bildirilsin, hər yerdə bilinsin ki, erməni işğalçıları nə qədər qəddar, nə qədər vəhşidirlər və Azərbaycan xalqına qarşı dünya, bəşər qanunlarına zidd olaraq nə qədər böyük vəhşilik, cinayətlər ediblər» (Bax: «Azərbaycan» qəz. 28 fevral 1996).

Respublika Prezidentinin sərəncamı ilə həm də hər il fevralın 26-da saat 17^{00}-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmiş və hətta bu haqda beynəlxalq təşkilatlara məlumat da verilmişdi. Belə bir dəhşətli qırğınla əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral (1994-cü il) tarixli qərarı ilə 26 fevral günü «Xocalı soyqırımı (genosidi) və Milli Matəm günü» elan edilmişdi. Matəm gününün və sükut dəqiqəsinin elan edilməsi vaxtından başlayaraq bunlar müntəzəm olaraq respublikanın hər yerində həyata keçirilmiş və keçirilir. Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar olaraq respublika prezidentinin xalqa olan müraciəti də ölkə rəhbərinin həmin məsələyə daim diqqətli olduğunu bir daha təsdiq edir. Xocalı soyqırımı ilə əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il 26 fevral tarixli iclasında Bəyanat qəbul edilmişdi. Bəyanatda XIX əsrin sonlarından başlayaraq böyük dövlətlərin himayəsindən istifadə edən erməni millətçilərinin «Böyük Ermənistan» yaratmaq

xülyasına düşdükləri, iddia etdikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə Qafqazda kütləvi terror aktları və qırğınlar törədərək, yüz minlərlə günahsız azərbaycanlını qətlə yetirdikləri, habelə 1905-1907-ci illərdə İrəvanda və Zəngəzurda, Tiflisdə, Bakıda, Naxçıvanda, Gəncədə, Qarabağda, 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Muğanda, Cəbrayılda, Lənkəranda dinc əhaliyə amansızcasına divan tutduqları göstərilmişdi.

Bəyanatda həmçinin qeyd edilmişdi ki, təəssüf doğuran haldır ki, dünya birliyi dövlətlər arasında sivil birgəyaşayış qaydalarının hakim olduğu XX əsrin sonlarında Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsd etməsinə, qonşu dövlətə torpaq iddialarını həyata keçirmək üçün işğalçılıq müharibəsi və etnik təmizləmə aparmasına, Xocalı soyqırımı kimi dəhşətli cinayətlər törətməsinə biganə yanaşmış, təvazökarın cilovlanması üçün təsirli beynəlxalq tədbirlər görməmişdir. Buna görə də Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, dünya ictimaiyyəti, nəhayət, təcavüzkarı öz adı ilə çağırmalı, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin azad edilməsinə və qaçqınların doğma yurdlarına qaytarılmasına kömək göstərməlidirlər.

Nəhayət, respublika rəhbərliyinin ardıcıllıqla həyata keçirdiyi siyasətin nəticəsi olaraq beynəlxalq aləmdə Xocalı soyqırımına münasibət xeyli dərəcədə dəyişilmiş və XX əsrin ən dəhşətli faciəsi kimi Xocalı faciəsinin onuncu ildönümü ilə əlaqədar olaraq İstanbulda, Londonda, Strasburq və başqa yerlərdə tədbirlər keçirilmişdi. Xocalıda dəhşətli halda ermənilərin törətdiyi qanlı hadisəyə öz münasibətini bildirən məşhur Amerika tədqiqatçısı və jurnalisti Tomas Qolts Amerikanın «Nyu-York Tayms» və Londonun «Sandi Tayms» qəzetlərində yazır: Elə düşünməyin ki, ermənilər güclüdürlər. Xeyr. Siz, azərbaycanlılar informasiya müharibəsində zəif və gücsüzsünüz.

Həmin jurnalist BMT-ə və Rusiya prezidentinə 12 fevral 2001-ci il tarixli məktubunda yazır: Mənim – Amerika

jurnalistinin erməni kanallarından yan keçərək Azərbaycan haqqında məlumat yaymağım onları çox qıcıqlandırır. Belə ki, bir qrup erməni ABŞ konqresinin insan hüquqları komissiyasına məktubunda komissiyanın Azərbaycandakı hadisələr haqqında mənim məlumatlarımı nəzərə almasına narazılığını bildirmişdir. Onların arqumentləri özünəməxsus idi: guya mən müsəlmanam. Komissiya əlbəttə ki, bu «ədalət mübarizləri»nin bütün arqumentlərini rədd etmişdir. Mənə elə gəlir ki, mənim ölkəmin vətəndaşlarında Azərbaycan haqqında obyektiv fikir yaratmaq üçün bu gün bütün mümkün kanallardan və vasitələrdən istifadə etmək lazımdır. Bu gün Amerikaya Azərbaycan haqqında həqiqət lazımdır. Bəli, bu yalnız Amerikaya deyil, həqiqəti hamı bilməlidir (Bax: «Zerkalo» qəz. 22 fevral 2002).

Amerika jurnalistinin məqsədi ermənilərin azərbaycanlılara qarşı qəddarlıqla etdikləri bütün faciələri, eləcə də Xocalı faciəsini və onun ağır nəticələri haqqında nəinki Amerikaya və həmçinin də bütün dünyaya çatdırılmasını zəruri hesab etməsidir. Deməli, müəllif tərəfindən məktubun BMT ilə bərabər həm də Rusiya prezidentinə ünvanlanması da təsadüfi deyildir. Rusiyanın erməniləri bu dərəcədə müdafiə etməsini xatırladıqca İngiltərənin Xarici İşlər naziri işləmiş Kerzonun 1920-ci ilin martında ölkə parlamentində söylədiyi nitqində dediyi: «Mənə belə gəlir ki, Siz ermənilər səkkiz yaşında təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bu fikirdə yanılırsınız. Halbuki ermənilər son vəhşi davranışları ilə nə qədər qan tökən bir xalq olduqlarını qeyd-şərtsiz isbat etmişlər» fikri müasirliklə nə qədər bahəm səslənir.[169]

Ancaq ədalət naminə etiraf edək ki, Xocalı soyqırımı müntəzəm olaraq hər il və xüsusilə soyqırımın 15 illiyi daha geniş, daha mütəşəkkil və beynəlxalq aləmdə daha səmərəli təbliğ edilmişdi. Həm də ona obyektiv qiymət verilməsi baxımından əvvəlki illərdən xeyli dərəcədə fərqlənmişdi. Şübhəsiz, Xocalı soyqırımının geniş və yüksək səviyyədə qeyd edilməsində Respublika prezidenti cənab İlham Əliyevin

23 fevral 2007-ci il tarixdə Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciəti öz təsirli rolunu oynamışdı. Xocalı faciəsinin dəhşətlərindən və bunu törətməkdə erməni millətçilərinin təhlükəli məqsədlərinə toxunan Azərbaycan rəhbəri İ.Əliyev Azərbaycan xalqına etdiyi müraciətində bildirmişdi: «XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi». Bu faciəni törətməklə erməni millətçilərinin məqsədi xalqımızın mübarizə əzmini qırmaq və onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək olmuşdur. Lakin düşmənin niyyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və əzmkarlıq göstərdi.

Azərbaycan Prezidentinin müraciətində həmçinin də Xocalı faciəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, hadisənin soyqırım kimi tanınması üçün ardıcıl fəaliyyət göstərmək, tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməк kimi amillər qarşıda məqsəd qoyulmuşdu. Göstərilən məqsədlərə nail olmaq üçün isə müraciətdə bütün vətəndaşlarımızın dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə faciə haqqında məlumatların çatdırılmasında fəallıq göstərmələri tövsiyə edilmişdir.

Respublika Prezidentinin çox böyük məna kəsb edən müraciətinə cavab olaraq Azərbaycanın hər yerində, bütün rayon və təşkilatlarda olduqca yüksək səviyyədə anma tədbirləri keçirilmişdi. Eyni zamanda Xocalı soyqırımının nəinki respublika ərazisində və eləcə də dünyanın bir sıra ölkələrində geniş dairələrdə kütləvi halda qeyd olunmasında və bununla da soyqırıma olan münasibətlərə yeni baxış və məzmun kəsb edilməsində H.Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bənzərsiz xidməti öz təsirli və

olduqca əhəmiyyətli rolunu oynamışdı. Belə ki, Mehriban xanımın rəhbərliyi altında həmin Fondun dünyanın çoxsaylı ölkələrinə göndərdiyi müxtəlif dillərdə olan kitablar, jurnal və bukletlər, habelə Xocalı hadisələrini əks etdirən xarici jurnalistlərin materialları, faciə haqqında dünya mətbuatında öz əksini tapmış məqalələrin, foto-şəkillərin təqdim olunması tədbirləri olduqca təsirli rol oynamışdı. Bütün bunlar həm də faciəni törədənlərin ifşası baxımından böyük əhəmiyyət kəsb etmişdi. Bunlardan əlavə H.Əliyev Fondunun prezidenti Mehriban xanımın gərgin və prinsipial əməyinin nəticəsi olaraq, anma tədbirləri Azərbaycanla bərabər, dünyanın müxtəlif ölkə və şəhərlərində, o cümlədən Moldovada, Belorusiyada, Peterburqda, Moskvada, Kiyev və başqa yerlərdə yüksək səviyyədə təşkil olunmuşdu.

Kiyev şəhərində keçirilən izdihamlı mitinqdə aksiya iştirakçıları əllərində «Xocalı soyqırımını törədənlər cəzalandırılmalıdır», «Erməni daşnakları işğal altında olan Azərbaycan torpaqlarını tərk etməlidirlər!» şüarları yazılmış plakatları və həm də Azərbaycanın, Ukraynanın bayraqlarını tutmuşlar. Aksiya başa çatdıqdan sonra Kiyev şəhərindəki Səməd Vurğun adına kitabxanada Azərbaycan, ingilis və rus dillərində hazırlanmış «Qarabağ həqiqətləri» buklet toplusunun təqdimat mərasimi keçirilmişdi. Həmçinin də Ukraynanın kütləvi informasiya vasitələrində Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar geniş yazılar dərc olunmuşdu (Bax: «Respublika» qəz. 28 fevral 2007).

Moskva şəhərində Xocalı soyqırımı qurbanlarını anma tədbiri – «Xocalısız 15 il» adlı xatirə gecəsi olduqca təntənəli keçirilmişdi. Tədbiri H.Əliyev Fondunun dəstəyi ilə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Azərbaycanlı Gənclər Klubu və Rusiya ilə Azərbaycanlı Gəncləri Əlaqələndirmə Şurası təşkil etmişdi. Gecədə Xocalı faciəsinin tarixi haqqında H.Əliyev Fondunun təqdim etdiyi film göstərilmiş və sonra MDBMİ-nin Azərbaycanlı Gənclər Klubunun prezidenti Leyla Əliyeva çıxış edərək Xocalı

soyqırımının dəhşətli nəticələrindən danışmışdı. Çıxışında mindən çox adamın əsir götürüldüyünü, 500-ə qədər insanın ağır xəsarət aldığını nəzərə çatdıran Leyla xanım demişdi ki, H.Əliyev Fondunun dəstəyi ilə keçirilən bu tədbirdə məqsəd dünya ictimaiyyətinə Xocalı soyqırımı barədə doğru-düzgün məlumat verməkdir. Əminik ki, Ermənistan-Azərbaycan münaqişəsi ədalətlə həll ediləcək, Xocalı hadisələri isə öz hüquqi qiymətini olacaqdır (Bax: «Respublika» qəz. 27 fevral 2007).

Xatirə gecəsində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da çıxış etmişdir. Burada həm də Xocalı faciəsindən bəhs edən fotosərgi də nümayiş etdirilmişdi. 2007-ci il fevralın 22-də Britaniya Parlamentində hökumətin və Azərbaycan diasporu qurumları nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımının 15-ci ildönümünə həsr olunmuş tədbir də diqqəti cəlb edir. Burada Britaniya Parlamentinin üzvü Baronessa O.Koxoun etdiyi çıxışında Xocalı hadisələrindən danışaraq, şəhərin faktiki olaraq məhv edildiyini diqqətə çatdırmış və həm də öldürülənlər, əsir götürülənlər və itgin düşənlər haqqında geniş məlumat vermiş və Britaniya Parlamentinin üzvlərini Azərbaycanın ədalətli mübarizəsini müdafiə etməyə çağırmışdır (Bax: Yenə orada, 24 fevral 2007).

Türkiyədə də Xocalı soyqırımı qeyd edilmişdi. Hətta fevralın 23-də Ankarada Türkiyənin tanınmış alimlərinin və qeyri-hökumət təşkilatları üzvlərinin iştirakı ilə «Görülməyən soyqırım – Xocalı» mövzusunda geniş konfrans keçirilmişdi. Konfransda bir sıra alimlərlə bərabər Türkiyə Beynəlxalq Əlaqələr və Strateji Analizlər Mərkəzinin sədri Sinan Oqan çıxış etmişdir. O, demişdir ki, tarixdə türklərə qarşı bir çox soyqırımlar törədilmişdi. Bu soyqırımların sonuncusu 15 il bundan əvvəl Xocalıda yaşanmışdır. Çıxışına davam edən Sinan Oqan bildirmişdi ki, Xocalı faciəsi dünya mətbuatında da yer almışdır və biz bu faktlardan istifadə etməliyik. O, həm də faciə baş verərkən mətbuat orqanla-

rında yazılar getdiyini və onlardan bəzilərini xatırladaraq demişdi:

- «Krail Eveneman» jurnalının (Paris) 1992-ci il fevral tarixli nömrəsi: «Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya vəhşicəsinə öldürülmüş cəsədlərin şahidi oldu».

- «The Sunday Times» qəzetinin (London) 1992-ci il 1 mart tarixli nömrəsi: «Erməni əsgərləri minlərcə ailəni yox etmişlər».

- «The Times» qəzetinin (London) 1992-ci il 4 mart tarixli nömrəsi: «Bir çox insan cəsədi tanınmaz hala gətirilmiş, məsum bir qız uşağının yalnız baş hissəsi qalmışdır».

- «İzvestiya» qəzetinin (Moskva) 1992-ci il 4 mart tarixli nömrəsi: «Kamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının üzünün yarısı kəsilmişdi. Kişilərin başının dərisi soyulmuşdu».

- «Le Monde» (Paris) 1992-ci il 14 mart tarixli nömrəsi: «Ağdamda olan mətbuat nümayəndələri Xocalıda öldürülmüş qadın və uşaqlar arasında başının dərisi soyulmuş, dırnaqları çıxarılmış üç nəfəri görmüşlər. Bu, azərilərin təbliğatı deyil, bir həqiqətdir» (Bax: «Respublika» qəz. 24 fevral 2007).

Belə faktların çox olduğunu, hətta erməni jurnalistlərinin özləri tərəfindən də etiraf edildiyini bildirən Sinan Oqan beynəlxalq ictimaiyyətin bütün bu vəhşiliklərə hələ də lazımi qiymət vermədiyini söyləmişdi. Halbuki, Xocalı soyqırımı BMT-nin 1948-ci il 9 dekabr tarixli soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Protokolunun müddəalarına tamamilə uyğundur. Çıxışına davam edən Sinan Oqan Azərbaycan dövləti bütün bu faktları hüquqi cəhətdən əsaslandıraraq Haaqa İnsan Hüquqları Məhkəməsinə müraciət etməlidir. Türkiyə isə bu faciəni Parlament səviyyəsində soyqırım kimi tanımalıdır fikrini söyləmişdi (Bax: «Respublika» qəz. 24 fevral 2007).

Xocalı faciəsindən danışan Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıdakı nümayəndə heyətinin rəhbəri F.Zen Rufinin bildirmişdi ki, Ağdam şəhərinin müsəlman imamı-

nın ona dediyinə görə məscidə Xocalıdan 580 meyid gətirilmişdi və onlar dinc əhali idi. Deməli, erməni və Rusiya silahlı qüvvələrinin qırdıqları hamısı silahsız qocalar, qadınlar, uşaqlar olmuşlar. Tarixdə görünməmiş müharibə! Yüksək texnika ilə təchiz olunmuş ordu dinc əhalini qırmışdı. Britaniyalı jurnalist Tomas de Vall, rusiyalı jernalist Anatdi Liven, alman jurnalisti Elen Bomak, ABŞ jurnalisti və başqaları Xocalıda ermənilər tərəfindən törədilən dəhşətli qırğın haqqında kütləvi informasiya vasitələrində məlumat vermişlər. Britaniyalı jurnalist Tomas de Vall yazmışdı ki, dəhşətli hadisənin törədilməsinə rəhbərliyi Ermənistanın indiki prezidenti Serj Sarkisyan etmişdir. T. de Vall «Blask Qarden» kitabında S.Sarkisyandan aldığı müsahibədən yazmışdı: Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdilər ki, biz onlarla zarafat edirik. Onlar zənn edirdi ki, ermənilər əlini dinc əhaliyə qaldıra bilməyən bir xalqdır. Biz bu stereotipin öhdəsindən gələ bildik (Bax: «Xalq» qəz. 27 fevral 2011).

Azər. TAC-ın xüsusi müxbiri yazmışdı ki, XX əsr tariximizin qanlı səhifələrindən olan Xocalı soyqırımının 15-ci ildönümü ilə bağlı H.Əliyev Fondunun xüsusi layihəsi çərçivəsində Strasburqda fevralın 24-də keçirilmiş izdihamlı mitinq də diqqəti cəlb etmişdi. Şəhərin mərkəzi meydanı Broqlidə keçirilən həmin mitinqdə fotoşəkillər, əl işləri nümayiş etdirilmiş və həm də tədbirin iştirakçılarına, yerli əhaliyə H.Əliyev Fondunun fransız dilində hazırladığı «Qarabağ həqiqətləri» toplusu paylanmışdır. Əllərində fransız və ingilis dillərində plakatlar tutmuş mitinq iştirakçıları «Ermənistanın işğal etdiyi Azərbaycan əraziləri azad edilməlidir», «Xocalı faciəsi azərbaycanlıların soyqırımıdır», «Koçaryan canidir», «Zori Balayan qatildir» və s. kimi şüarları səsləndirmişlər. Mitinqdə həmçinin də Xocalı faciəsinə siyasi qiymət verilməsi üçün Beynəlxalq Cinayət Məhkəməsinə, Avropa Şurasına və Avropa İttifaqına ünvanlanmış müraciətlərə imzalar toplanmışdır.

H.Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük vətənpərvərlik amalı və gərgin əməyinin nəticəsi olaraq Xocalı faciəsinin 15-ci ildönümü dünyanın digər bir çox ölkələrində də, o cümlədən İngiltərədə, Yaponiyada, Kanadada, ABŞ-da, Danimarkada, Belçikada, Yeni Zelandiyada, İsveçdə və s. qeyd olunmuşdu (Bax: «Respublika» qəz. 27 fevral 2007). Xocalı soyqırımının 15-ci ildönümü Sankt-Peterburqda keçirilən tədbir də yüksək səviyyədə qeyd edilmişdi. Şəhərin Millətlər Liqasının prezidenti H.Tsakiyev, S.Peterburq Dövlət Universitetinin müəllimi D.Savin, Kolpin rayonu rəsmisi A.Andreyev və başqaları çıxışlarında Azərbaycan tarixinin qanlı səhifələrindən olan Xocalı soyqırımını bütün bəşəriyyətə qarşı törədilmiş cinayət kimi qiymətləndirmişlər. Həmin hadisəyə hüquqi qiymət verilməsi ilə əlaqədar olaraq tədbir iştirakçıları dünyanın nüfuzlu təşkilatlarına – BMT, ATƏT-ə, Avropa Şurasına ünvanlanmış bəyanat qəbul etmişlər.

Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar olaraq ingilis dilində «Xocalı faciəsi – beynəlxalq baxış» adlı kitabın nəşr edilməsi də diqqəti cəlb edir. London Azərbaycan Cəmiyyətinin həyata keçirdiyi Qarabağ tədbirləri silsiləsindən olan kitaba Xocalı faciəsi haqqında «Washinqton Post», «İndependent», «Sunday Times», «Times», «Washinqton Times», «New York Times», «Le Monde» və s. kimi dünyanın ən tanınmış kütləvi informasiya vasitələrində çap edilmiş məqalələr və həm də insan hüquqları sahəsində fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatların hesabatları, Tomas Qoltz, Tomas de Vall, Yuri Pompeyev kimi tanınmış müəlliflərin Dağlıq Qarabağ münaqişəsindən bəhs edən əsərlərindən parçalar daxil edilmişdir.

Kitabda həmçinin də ilk dəfə olaraq faciə günlərində Ağdamda olmuş Reyter Agentliyinin jurnalistləri Fredrix Lengeyn və Klaus Resingerin çəkdiyi fotolar, həm də faciənin dəhşətləri haqqında onların fikirləri, habelə Xocalıdakı

qırğının şahidləri olmuş xarici jurnalistlərin, yerli sakinlərin, hərbiçilərin təəssüratları öz əksini tapmışdı.

Azərbaycan Respublikasının Milli Məclisi də həmin faciəyə öz münasibətini bildirmişdi. Hətta Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar olaraq Milli Məclis 27 fevral (2007-ci ildə) tarixli iclasında Bəyanat qəbul etmişdi. Bəyanatda Xocalının 1275 nəfər sakininin – qocaların, uşaqların və qadınların girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə məruz qalması və onlardan 150 nəfərin, o cümlədən 68 qadının, 26 uşağın taleyinin bu günədək məlum olmadığı göstərilmişdi (Bax: «Respublika» qəz. 24 və 28 fevral 2007).

Həmçinin Bəyanatda Xocalı soyqırımının unudulmaması, onun dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini alması, faciənin təşkilatçıları və icraçılarının layiq olduqları cəzaya çatdırılmalarının zəruriliyi qeyd olunmuşdu. Dəhşətli faciə ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Milli Məclisi BMT, Avropa Şurasına, ATƏT-ə, Avropa İttifaqına, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət etmiş və müraciətdə göstərilmişdi ki, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar, pisləsinlər və gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görsünlər.

Bəyanatda eləcə də Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi tələb olunmuşdu. Həm də bunlardan əlavə Xocalı soyqırımı ilə əlaqədar olaraq Respublikanın Milli Məclisi 27 fevral (2007-ci ildə) tarixli qərar qəbul etmişdi. Qərarda Ermənistanın əsassız iddiasının – Dağlıq Qarabağ Ermənistana məxsusdur – iddiasının həyata keçirilməsi naminə respublikamızın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi gedişində

azərbaycanlılara qarşı törədilmiş barbarlıq, soyqırım təfsilatı ilə öz əksini tapmışdı.

2008-ci il fevralın 14-də Berlində «Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər» adı altında keçirilən konfrans da diqqəti cəlb edən bir toplantı olmuşdur. Burada Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil edilmiş «Xocalı – uşaqların gözü ilə» adlı sərgi nümayiş etdirilməklə bərabər, həm də erməni vəhşiliyini əks etdirən kitablar paylanmışdı. 2008-ci il mayın 8-də isə Şuşanın işğalının ildönümündə İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun (İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət» kampaniyası yaradılmış və 2009-cu ilin fevRalından fəaliyyətə başlamışdı. Hazırda 30-dan çox Ölkədə yüzlərlə könüllünün iştirakı ilə fəaliyyətini davam etdirir. Hətta Leyla xanım Əliyevanın təşəbbüsü ilə Xocalı soyqırımının daha geniş dairədə qeyd olunması artıq bir sıra ölkələrdə dövlət səviyyəsində bəyənilmişdi.

2010-cu il yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv olan ölkələrin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində tədqiqatçı alim Elçin Əhmədovun yazdığı kimi keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə «İKGF və İKT Pİ arasında əməkdaşlıq haqqında» qətnamə imzalanmışdır. Qətnamədə «Xocalıya ədalət» beynəlxalq kampaniyasına həm milli və həm də beynəlxalq səviyyədə dəstək verməyə çağıran bənd də öz əksini tapmışdı (Bax: «Xalq» qəz. 26 fevral 2011).

Beləliklə, H.Əliyev Fondunun dəstəyi ilə Xocalı soyqırımının 18-ci ildönümü 2010-cu ildə dünyanın 100-dən çox bölgəsində qeyd edilmişdi. Xocalının 19-cu ildönümü də Respublikanın bütün rayonlarında, ayrı-ayrı təşkilatlarda olduqca yüksək səviyyədə qeyd edilmişdi. Eləcə də həmin qanlı cinayətin 19-cu ildönümü dünyanın bir sıra ölkələrində də mütəşəkkil halda yad edilmişdi. O cümlədən ABŞ-ın

nüfuzlu Corc Vaşinqton Universitetində Xocalı faciəsinin 19-cu ildönümünə həsr olunan anma mərasimi keçirilmişdir. Universitetin Türk Tələbə Assosiasiyası, Azərbaycan və Türkiyə icmaları təşkilatlarının birgə səyləri nəticəsində baş tutan tədbirdə Xocalı qırğınını əks etdirən fotosərgi və sənədli film nümayiş etdirilmişdir.

Anma mərasimində çıxış edən Azərbaycanın ABŞ-dakı səfiri Yaşar Əliyev demişdir ki, son illər Xocalı faciəsi haqqında həqiqətlərin yerli və beynəlxalq səviyyədə yayılması istiqamətində Azərbaycan hakimiyyəti və diasporu çox işlər görmüşdür. Aparılan istintaq nəticəsində ölkəmizin Hərbi Prokurorluğu tərəfindən Xocalı hadisələrinə görə məsuliyyət daşıyan 287 nəfərə qarşı ittihamlar irəli sürülmüşdür. Onlardan 239 nəfəri bəşəriyyətə qarşı cinayətlərdə, 48 nəfər qətl, banditizm və digər cinayətlərdə təqsirkar bilinirlər.

Beynəlxalq qurumları Xocalı faciəsini soyqırım kimi tanımağa çağıran Türk Xalqları Vətəndaş Cəmiyyəti Forumu (TXVCF) Xocalı faciəsi ilə bağlı BMT-nin baş katibinə, təşkilatın İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq Sülh Bürosuna, Dünya Gənclər Assambleyasına, türk dövlətlərinin parlamentlərinə və Azərbaycandakı səfirliklərinə bəyanat ünvanlanmışdı (Bax: «Xalq» qəz. 27 fevral 2011).

2011-ci il fevralın 10-da Goranboyda məcburi köçkünlər üçün yaradılmış yaşayış məhəlləsinin açılışında ölkə rəhbəri cənab İ.Əliyev Xocalı soyqırımının XX əsrin ən böyük və dəhşətli cinayətlərdən biri olduğunu bildirərək demişdir: «Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir. Biz isə bundan sonra da çalışacağıq ki, bütün dünya Xocalı haqqında bilsin. Bizim indi imkanlarımız da artır, o cümlədən təbliğat imkanlarımız genişlənir. Biz istənilən ölkədə diaspor təşkilatlarımızın xətti ilə, dövlət xətti ilə istənilən tədbiri, konfransı keçirə bilərik. Bunu edirik və bu həqiqətləri bütün dünyaya çatdırırıq. Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc

əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir».

Beləliklə, XX əsrdə bəşəriyyətə qarşı kütləvi qanlı cinayət kimi Xocalı faciəsinin törədilməsində Zaqafqaziya hərbi dairəsinin rəhbərliyinin ermənipərəst mövqeyinin və riyakar fəaliyyətinin də az rolu olmamışdır. Belə ki, həmin dairə komandanının müavini general-leytenant Sufiyan Beppayevin nəzarəti ilə iki general, o cümlədən Ohanyan 366-cı alay ilə birlikdə Xocalıya göndərilmişdi. Faciə törədildikdən sonra alay yenidən Gürcüstana qaytarılmış və alayın külli miqdarda silahları, zirehli texnikası ermənilərə qalmışdı.

Kəlbəcər rayonunun Ağdaban kəndində ikinci Xocalı hadisəsi baş verdi. Həmin kəndin sakinləri mərdliklə düşmənə müqavimət göstərmişdilər. Ağdaban kəndinin hətta qadınları 1991-ci ildə 11 nəfər ermənini tərksilah etmişdilər və 1992-ci il aprelin əvvəllərinə qədər mərdliklə vuruşmuşdular. Nəhayət, ermənilər 1992-ci ilin aprelin 8-də səhər saat 5-6 radələrində Kəlbəcərin ən böyük kəndlərindən olan aşıq Şəmşirin vətəni Ağdaban kəndinə soxuldular. Xocalıdakı kimi, burada da dinc əhali kütləvi şəkildə güllələnib məhv edildi. Evlər qarət olundu, yandırıldı. Ermənilər tərəfindən götürülmüş girovlar 60-a qədər maşına doldurulub aparıldı.[170]

1992-ci ilin aprelində Azərbaycan Ali Sovetinin sədri işləmiş Y.Məmmədov Rusiya Xarici İşlər Naziri A.V.Kozırevlə görüşündə bildirdi ki, Kəlbəcər rayonunun Ağdaban kəndindən bir neçə yüz sakit girov götürülüb. Həmin kənddə 30 nəfər öldürülüb, 50 nəfər yaralanıb.[171] Buna baxmayaraq ermənilər 24 apreldə, yəni onların genosid günü ərəfəsində girovları öldürməyə hazırlaşırlar. Ona görə də Kozırevdən xahiş olundu ki, bunun qarşısını almağa köməklik etsin.

Volski ermənilərə olan xidmətini yerinə yetirib Moskvaya qayıtdıqdan sonra yaradılan Qarabağ üzrə Respublika Təşkilat Komitəsinin Ağdama keçirilməsi Dağlıq Qarabağın işğalı üçün əlverişli şərait yaratdı. 1992-ci il yanvarın 25-26-da Daşaltı əməliyyatı uğursuzluqla nəticələndi.

Malıbəyli, Quşçular, Xocalı faciələri baş verdi və bunlar Şuşanın vəziyyətini getdikcə ağırlaşdırdı. Şuşanın işğalı üçün real təhlükə yarandı.

Vəziyyəti ağırlaşdıran cəhətlərdən biri də Xocalı hadisəsindən iki gün sonra Şuşanın köçürülməsi məsələsinin ortaya atılması və bununla əlaqədar olaraq respublikanın müxtəlif rayonlarından buraya çoxlu miqdarda yük maşınlarının göndərilməsi oldu. Deməli, bütün qüvvələri birləşdirib Şuşanın müdafiəsini təşkil etmək əvəzinə belə xəyanət yoluna əl atıldı. Mardakert rayonunda azərbaycanlılar yaşayan kəndlərin işğalı, Füzuli rayonunun bəzi kəndlərinin əldən getməsi vəziyyəti daha da çətinləşdirdi. Dövlət səviyyəsində Şuşanın müdafiəsi haqqında lazımi dərəcədə düşünülmədi.

Aprelin əvvəlində Rusiyanın Xarici İşlər Naziri Andrey Kozırev Stepanakert və Şuşada olub Moskvaya qayıtdıqdan sonra «İzvestiya» qəzetində çap olunan məqaləsində yazmışdı ki, ermənilər 15 min canlı qüvvə ilə Şuşa şəhərini ələ keçirməyə hazırdırlar. Azərbaycanda isə vəziyyət bambaşqa idi. O vaxt respublikamızdakı siyasi-hərbi vəziyyət, AXC-nin keçirdiyi siyasi aksiyalar və s. haqqında həmin dövrdə Azərbaycan Ali Sovetinin sədri işləmiş Yaqub Məmmədovun məhkəmədə söylədiyi fikirlər aydın təsəvvür oyadır. O, demişdir: «Mən Ali Sovetin sədri olsam da, əslində hakimiyyət AXC-nin əlində idi. Onlar yerli İcra hakimiyyəti orqanlarını dəyişdirir, istədiklərini edirdilər. Tahir Əliyev başda olmaqla polis tamamilə AXC-nin tərəfinə keçmişdi». Faktlar onu göstərir ki, AXC rəhbərliyi və hakimiyyət orqanları Şuşa şəhərinin müdafiəsini möhkəmləndirmək əvəzinə, sanki əksinə, onun işğalına yardımçı olmuşlar. Şəhərin müdafiəsi üçün 625 şuşalıya cəmi 85 silah verilməsi nə demək idi?! Bunun özü təəccüb doğurmurmu? .[172]

Şuşaya olan belə laqeyd münasibətdən istifadə edən ermənilər may ayının 7-dən 8-ə keçən gecə lazımi texnika ilə təchiz olunmuş şəraitdə dörd bir tərəfdən güclü artileriya atəşindən sonra Şuşa üzərinə hücuma keçdilər. Düşmən

texnikası lazımi maneəyə rast gəlmədən irəlilədi. Digər tərəfdən də burada olan ordu hissələri və digər qüvvələr vahid komandanlıqda birləşmədilər. Belə şəraitdə may ayının 8-də saat 17 radələrində ermənilər Şuşaya daxil ola bildilər. Yerli könüllülərdən ibarət olan batalyon döyüşçüləri gecənin yarısına qədər Şuşanın küçələrində qəhrəmanlıqla vuruşdularsa da mayın 9-da şəhər tamamilə ermənilər tərəfindən tutuldu.[173]

Şuşanın alınması əməliyyatında da 366-cı alay iştirak etdi, hər iki general, o cümlədən Ohanyan mükafatlandırıldı. Təxmini məlumata görə Şuşa və onun ətrafındakı vuruşmalarda biz 100-ə qədər döyüşçü itirdik. Azaldılmış erməni məlumatına görə onlar bu döyüşdə 30-a qədər adam itirdilər və iki dəfədən çox yaralı oldu.[174] Şəhər tərk edilərkən orada olan bütün vəsait məhv edilməli idi? Lakin bu da edilmədi! Ona görə də Şuşada ermənilər kifayət qədər döyüş sursatı ələ keçirdilər. Düşmənin mayın 11-də Şuşanın axırıncı kəndini tutması ilə bütün Dağlıq Qarabağ ermənilərin tabeliyinə keçdi.

Şuşa və Laçının işğalının 4-cü ildönümü ilə əlaqədar həmin rayonların sakinlərinin bir qrupu ilə görüşündə Azərbaycan Prezidenti cənab H.Əliyev yekun nitqində demişdi: «Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Ona görə də Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir» (Bax: «Respublika» qəzeti, 15 may 1996).

Belə bir qiymətli tarixi-milli abidə itirildi. Azərbaycan xalqının çoxəsrlik tarixinə, onun dünya şöhrətinə böyük ləkə

vuruldu. «Azərbaycan» qəzetinin 8 sentyabr (1993-cü il) sayında Təranə Sərdar qızının «Gözümüz Şuşada qalıb» məqaləsində yazılmışdır: Şuşada qalanımız təkcə daş, divar, dağlarımız deyil. Aşağı və Yuxarı Gövhərağa məscidləri, bünövrəsi qurğuşundan tökülmüş möhtəşəm Hacıqulu, Zöhrabbəyov, Mehmandarovlar malikanələri, Xan qızı Natəvanın tikdirdiyi imarətlər, 549 qədim bina, 17 məhəllə bullağı, 15 məscid, 6 karvansara, bağlar, bağçalar, dünyanın dəyərli abidələrindən sayılan məhəllə bulaqları, neçə minillik tariximizi əks etdirən muzeylərimiz, Vaqifin, Natəvanın, Üzeyirin, Bülbülün, Cabbar Qaryağdıoğlunun, Xanın, Nəvvabın ev muzeyləri, Cıdır düzü, Topxana meşəsi, Qızıl Qaya, Əjdaha bulağı, İsa bulağı, Şuşanın hər yamacı, hər çiçəyi əzizdir, tarixi abidədir. Məhz Azərbaycan xalqı belə bir xəzinəni itirdi.

Bunu da unutmaq olmaz ki, Şuşa həm də kurort şəhəri kimi Azərbaycan xalqının şöhrətli sağlamlıq ocağı idi. Bu istiqamətdə də Şuşada böyük işlər görülmüşdü. Turşsu xətti Şırlandan şəhərə gətirilmişdi. İki sanatoriya binası, 600 yerlik sanatoriya yeməkxanası, 220 yerlik turist bazası, 1176 yerlik xüsusi internat məktəb, radiozavodun filialı, minlərlə kvadratmetr mənzil sahəsi, toxuculuq kombinatı və s. kimi sənaye və sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdi. Bütün bu maddi və mədəni sərvətlərin hamısı itirildi.

Şuşanın ermənilər tərəfindən tutulmasında İran vətəndaşı Qrant Markaryan və onun silah yoldaşları da iştirak etmişdilər. 23 noyabr (1996-cı ildə) tarixli «Ayna» qəzetində yazılmışdı ki, Markaryan və onun iki nəfər yaxın silahdaşı Şuşa əməliyyatındakı fəal iştirak etmələrinə görə «DQR»-in ali mükafatını alan «Ağ xaç»la təltif olunmuşlar. Bunlar, DQ-ın işğalında iştirak etmiş yüzlərlə xarici ölkə vətəndaşlarından yalnız bir faktdır. Əsir düşənlər və həlak olanların sənədləri təkzibolunmaz surətdə göstərir ki, erməni ordusu sıralarında Latın Amerikası, Avropa, Afrika və Yaxın Şərq

ölkələrindən olan çoxlu muzdlular və «erməni könüllüləri» də iştirak etmişlər.

Burada bir məqamı da xatırladaq ki, hələ Xocalı və Şuşa faciəsindən əvvəl Xankəndində yerləşən 366-cı alayın tərkibində erməni zabitləri və əsgərləri az deyildi. Buna görə də ermənilər həmin alayın vasitəsi ilə bizim bir sıra rayonlarımızı top və raket atəşləri ilə dağıdırdılar. 1991-ci ilin axırlarında həmin alayın Azərbaycan ərazisini tərk etməsi haqqında Moskvadan göstəriş verildi. Göstəriş əsasında 366-cı alay kolonna halında Ağdam ərazisindən keçib getməli idi. Belə bir məqamdan istifadə edib alayın Ağdamda saxlanması və gələcəkdə belə bir qüvvədən ermənilərə qarşı istifadə edilməsi əvəzinə, həmin alayın hətta Ağdamdan mütəşəkkil qaydada keçib getməsinə yol verilmədi. Vəziyyətin belə hal aldığını nəzərə alan yuxarı komandanlıq alayın yenidən Xankəndinə qayıdıb orada yerləşdirilməsi göstərişini verdi. Əzim Piriyevin haqlı olaraq yazdığı kimi bu qayıdış ermənilər üçün böyük sevincə, toya-bayrama çevrildi. Yaxşı qonaqlıqlar oldu. Buna görə də alay nəinki Xocalı, Şuşa əməliyyatlarında və eləcə də digər əməliyyatlarda da fəal iştirak etdi və bu da öz acı nəticələrini verdi.

Respublikanın ağır müharibə şəraitində olduğu bir zamanda əlbəttə rus ordusuna düzgün, ağıllı münasibət müsbət nəticələr verə bilərdi. Bu cəhətdən H.Əliyevin Naxçıvanda olan rus diviziyası rəhbərliyi ilə apardığı müdrik söhbət, əldə edilmiş razılıq və onların ehtiramla, hörmətlə yola salınması nəticəsi olaraq həmin hərbi hissənin texnika və döyüş sursatının hamısının Naxçıvanda saxlanması razılığının əldə edilməsi məhz H.Əliyev diplomatiyasının nəticəsi oldu. Çox təəssüf ki, Azərbaycanın bölgələrində H.Əliyev siyasətindən istifadə edilmədi. Rusiya dövləti əleyhinə düşünülməmiş hər cürə ağılsız çıxışlara – Bizi 70 il talan ediblər, hüququmuz tapdalanıb və s. deyən belə ağılsız, dəlicəsinə çıxış edənlər içərisində sərsəm ziyalılar, hətta şairlər, yazıçılar da az olmamışdır. Ona görə də Azərbaycan ərazisində

olan qırıcı təyyarələr, vertolyotlar Rusiyaya aparıldı, tankları, topları yararsız hala saldılar və digər döyüş sursatlarını isə müxtəlif yollarla respublika ərazisindən çıxartmaq halları az olmadı. Digər tərəfdən də Azərbaycanda yaradılan hərcmərclikdən istifadə edən bir qrup adamlar respublika daxilində Rus ordusundan qalan döyüş silah və sursatlarını talan etdilər. Belə ki, təkcə Ağdam ərazisində yeraltı anbarlardakı silahlar nizamlı ordu ixtiyarında qalmış olsaydı, o halda uzun illər düşmənlə vuruşmağa bəs edərdi.

Deməli, Azərbaycanda nizam-intizamlı ordunun yaradılmadığı bir şəraitdə çalışıb Rus ordusundan ermənilərə qarşı istifadə etməyə nail olmaq əvəzinə (Çaykənd, Şaumyan kənd əməliyyatlarında olduğu kimi) Rusiya dövləti əleyhinə açıq şəkildə meydan oxumaq bizə ağır başa gəldi. Rusiya haqqında olduğu kimi İran kimi qüdrətli bir dövlət haqqında da söylənilən ağılsız və yersiz çıxışlar Azərbaycana uğurlar gətirmədi. Əksinə, düşünülməmiş çıxış edən «millət qəhrəmanları»nın təqsiri üzündən İran dövləti ilə də vaxtında müdrik siyasət yeridilmədi. Nəticədə İran Ermənistana sabit köməklik edən bir dövlətə çevrildi.

Respublika daxilində yaranmış belə hərcmərclik şəraitindən və eləcə də hakimiyyətə gəlmək hərisliyinin yaratdığı qeyri-normal şəraitdən istifadə edən ermənilər daha da fəallaşdılar və Laçın kimi çox əhəmiyyətli bir yeri ələ keçirməyi qət etdilər. Şübhəsiz, «Laçın dəhlizi» adlandırılan yerin ələ keçirilməsi ermənilərin sonrakı uğurları üçün çox əhəmiyyətli ola bilərdi. Ona görə də bu dəhlizin ələ keçirilməsi təkcə Laçının işğalı üçün deyil, eləcə də bütün Qarabağda hərbi əməliyyatların uğurlu aparılması üçün olduqca əlverişli idi. Məhz Laçının süqutundan sonra həmin dəhlizin düşmən nəzarətinə keçməsilə ermənilər Yuxarı Qarabağa müntəzəm olaraq hərbi texnika, sursat və eləcə də Ermənistanda və xarici hərbi bazalarda təlim keçmiş qoşun hissələri daşıdılar. Şübhəsiz, bu da onların uğurlarına öz təsirini göstərdi. Demək olar ki, Laçın müdafiə üçün hazırlanmadı,

düşmənin həmləsini xeyli dərəcədə çətinləşdirə biləcək Laçın dəhlizinin açarı hesab edilən Laçın çayının üzərindəki körpü partladılmadı. Əhalini rayonun müdafiəsinə cəlb etmək əvəzinə, ermənilər gəlir, qaçın, qaçın deyən satqınlar, canilər xəyanətlə ermənilərə yardımçı oldular. Çox təəssüf ki, həmin satqın millət düşmənləri cəzalandırılmadı, əksinə hələ də Bakı meydanlarında fəaliyyətdədirlər.

Beləliklə, 60 min nəfərdən çox əhalisi olan bir rayon – Laçın işğal olundu. Laçının işğalı ilə mühüm strateji əhəmiyyətə malik olan bir yer itirildi. Şəhərin, qəsəbənin itirilməsi ilə bərabər 125 kənd, 64 min hektar yaylaq sahəsi, 34 min kvadrat kilometr zümrüd meşə zolağı ilə bərabər, yeraltı və yerüstü zəngin sərvətlər itirildi. Bunlardan əlavə rayonun 48 sənaye və 63 kənd təsərrüfatı, 108 təhsil, 142 səhiyyə, 217 mədəniyyət, 462 ticarət, rabitə, avtonəqliyyat və s. sahələrin bütün avadanlıqları talan edildi. 25 mindən artıq iri və 200 min başdan artıq xırdabuynuzlu heyvanlar qarət olundu. Döyüşlərdə 262 nəfər laçınlı şəhid oldu, 67 nəfər itgin düşdü və yüzlərlə insanlar şikəst edildi (Bax: «Azərbaycan» qəzeti, 18 may 2001). Laçın rayonuna külli miqdarda maddi ziyan dəydi. Bütün bunların törədilməsində Rusiya hərbiçilərinin iştirakı öz rolunu oynadı. Qəribə burasıdır ki, Kəlbəcərin alınmasında da Rusiya hərbiçiləri, xüsusilə 7-ci Rusiya ordusu fəal iştirak etmişdi.

Bunları düşündükcə Rusiya ilə əlaqələrin yaranmasına və Azərbaycanın 1991-ci ildə MDB-ə daxil olması əleyhinə çıxış edənlər özlərinin mövqeləri ilə xalqımızın böyük faciələrə məruz qalması səbəbkarlarından olmaqla bərabər, həm də belə mövqeləri ilə sanki ermənilərə yardımçı olmuşlar.

Digər tərəfdən də müharibə ərazilərində özbaşınalıq və talançılıq hallarının da olması cəbhələrdəki uğursuzluqlarda öz mənfi rolunu oynamışdı. Bu biabırçı vəziyyətlə əlaqədar olaraq hətta Respublika prezidentinin 13 iyul 1992-ci il tarixli sərəncamı oldu. Sərəncamda deyilirdi: Goranboy və Ağdərə rayonlarında keçirilmiş əməliyyatlar nəticəsində

erməni silahlı dəstələrindən azad edilmiş ərazilərdə sahibsiz qalmış çoxlu mal-qara, kənd təsərrüfatı texnikası və sənaye materialları yerli əhalinin bir qismi və silahlı qüvvələrin bəzi əsgərləri tərəfindən talan edilir və dağıdılır.[175]

Bu, sabitliyin pozulması idi. Bu xalq mülkünü qorumaq deyil, erməni caniləri kimi «qarət» etmək idi. Deməli, belə adamlar azərbaycanlılar üçün ermənidən də təhlükəli olmuşlar.

Respublika daxilindəki sabitliyin pozulması, cəbhələrdə uğursuzluqlar bir daha onu göstərdi ki, hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsinin liderləri xalqın taleyi ilə oynadılar. Heç bir dönüş yarada bilmədilər. Məhz belə bir şəraitdən istifadə edən erməni hərbiçiləri öz əməliyyatlarını daha da fəallaşdırdılar və 1993-cü il fevralın 5-də güclü hücuma keçdilər. Fevralın axırlarında ermənilər Ağdərə rayonunun 17 kəndini tutdular və Sərsəng su hövzəsini nəzarət altına aldılar. Onlar öz hücumlarını davam etdirərək martın əvvəllərində su bəndinin özünü ələ keçirdilər. 1993-cü ilin martın 8-i ərəfəsində erməni hərbi qüvvələri Meteşen, Möhrətac, Kasapet, Dəmirli və b. kəndləri tutub Ağdərəyə yaxınlaşdılar.[176] Belə bir şəraitdə Almaniyadan çıxarılmış iki Rusiya motoatıcı diviziyanın Ermənistana göndərilməsi (Moskva və Yerevanın rəsmi dairələri bunu inkar edirlər) cəbhədə ermənilərə əlavə yeni hərbi qüvvələrin verilməsi oldu. Bu, eyni zamanda Kəlbəcər istiqamətində gedən döyüşlərə də öz təsirini göstərdi. 1993-cü il martın 27-dən Kəlbəcər havadan və qurudan arasıkəsilməz atəşə tutuldu. Üç istiqamətdə düşmənin başladığı hücum nəticəsində Ağqaya, Narınclar, Təzəkənd və başqa kəndlərlə bərabər Qaraqaya yüksəkliyi itirildi. Martın 30-31-də rayonun mərkəzi şiddətli atəşə məruz qaldı və martın 31-də Kəlbəcərin 12 başqa kəndi də işğal edildi. Bu əməliyyatlar rayonun vəziyyətini ağırlaşdırdı və bununla da aprelin 2-də (1993-cü ildə) Kəlbəcər ermənilər tərəfindən zəbt edildi. Bununla da ermənilər çoxdan bəri zəngin yeraltı sərvətlərinə yiyələnmək

arzusu ilə yaşadıqları füsunkar və insanı heyran edən Kəlbəcərin işğalına nail oldular. Kəlbəcərin işğalında keçirilən əməliyyatlarda rus ordusu hissələri də iştirak etdilər. Hələ mart ayında Ermənistandakı 7-ci rus ordusunun 2892 nömrəli hərbi hissəsindən qaçaraq Azərbaycan dövlətindən siyasi sığınacaq istəyən A.Poprukin bildirmişdi ki, Ermənistandakı rus əsgərlərinin Qarabağda erməni hərbi hissələrinin tərkibində vuruşması adi haldır.[177]

Deməli, Kəlbəcərin işğalında da 7-ci rus ordusu fəal iştirak etdi. Rayon demək olar ki, döyüşsüz işğal olundu. 55 nəfər hərbi qulluqçu, 44 nəfər mülki şəxs həlak oldu, 276 nəfər yaralandı, 321 nəfər itgin düşdü. Rayona dəymiş zərəri təsvir edən 2 aprel (1996-cı il) tarixli «Xalq» qəzetində göstərilmişdir ki, 132 yaşayış məntəqəsində 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, üç klub, 42 mədəniyyət evi, 9 xəstəxana, 75 feldşer məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil və digər obyektlər ermənilər tərəfindən qəddarlıqla talan edilib dağıdılmışdır. Bununla da dövlətə və yerli əhaliyə təqribən 708 milyard 527 milyon rubl maddi ziyan dəymişdi.[178]

Kəlbəcər kimi möhtəşəm və zəngin rayon itirildi. Kəlbəcər Tarix-diyarşünaslıq muzeyinin direktoru Şamil Əsgərov demişdi: Əgər daxili maneələr olmasaydı Kəlbəcər əhalisi özünü qoruyacaqdı və bir nəfər erməni belə ora daxil ola bilməzdi. 1918-1920-ci illərdə baba və atalarımız ermənilərin ora daxil olmasına yol verməmişdir. Kəlbəcərdə 77 cür mineral daş, 36 növ süxur və hər yer mərmər süxurdur. Burada Travertin ehtiyatı 30 milyon kubmetrdir. Kəlbəcərin əhəngdaşı dünyaya kifayət edər. Kəlbəcərdə 412 mineral su, 17 isti su mənbəyi var. Əgər həmin sular yığılıb satılsa Azərbaycanda heç kim işləməsə belə onların hamısını təmin edə bilər. Kəlbəcərdə 4 min bitki növü var və bunun 280-i dərman bitkiləridir. Bu zəngin sərvətlərlə bərabər ucsuz-bucaqsız yaylaqlar itirildi. Əhali Kəlbəcəri tərk etmək məcburiyyətində qalanda qışın mart ayı idi. Murovdağ keçidi dəniz

səviyyəsindən 3200 metr yüksəkdir. Uşaqdan qocaya kimi hamı bu zirvəni aşaraq 90 km yolu qət etdi. O zülmü, müsibəti ifadə etməyə sözün gücü çatmaz. Bu XX əsrin Kəlbəcər müsibəti idi. Məhz Azərbaycan Kəlbəcər timsalında özünün böyük şöhrətini itirdi.[179]

Hələ Kəlbəcərin işğalından bir qədər əvvəl Rusiya dövləti Gəncədəki diviziyaya sülh məramlı qüvvə statusu verməyi bildirmişdi. Həmçinin Rusiya Xarici İşlər naziri Andrey Kozırev Kəlbəcər rayonunda Rusiyanın və BMT-nin sülhpərvər qüvvələrini yerləşdirmək təşəbbüsünü irəli sürmüşdü. Lakin respublika rəhbərliyi yanlış addım ataraq bundan imtina etdi. Belə halda Azərbaycanın Rusiyadakı hesabları (təxminən 30 milyard rubl) donduruldu.[180]

Müxtəlif dairələrin köməkliyi ilə qüvvətlənən Ermənistan hərbi qüvvələri öz hücumlarını daha da genişləndirdilər. Hətta, bəzi istiqamətlərdə ermənilər İran sərhədinin 2-9 kilometrliyinə çatdılar. Azərbaycan sərhədlərinə doğru atılan mərmilərdən hətta bir neçəsi İranın ərazisinə düşdü. Sentyabrın 6-da sərhədyanı Horadiz kəndi ermənilər tərəfindən tutuldu.[181] Bununla da çox ağır bir vəziyyət yarandı. Qonşu İran dövləti yaranmış ağır vəziyyətlə əlaqədar olaraq avqustun 19-da (1993-cü ildə) Ermənistanın ünvanına kəskin bəyanatla çıxış edərək Azərbaycanın işğal edilmiş ərazilərinin tezliklə boşaldılmasını tələb etdi. Belə bir şəraitdə məqsədyönlü siyasət həyata keçirib xalqı fəlakətdən xilas etmək naminə atəşi dayandırmaq, qırğının qarşısını almaq ən ağıllı bir yol idi.

Məhz bunun üçün az təşəbbüslər göstərilmədi. Bu sahədə Avropada Təhlükəsizlik və Əməkdaşlıq müşavirəsi (ATƏM) münaqişənin dincliklə aradan qaldırılması yolunu tapmaq üçün fəal səylər göstərdi və göstərir. ATƏM-in təşəbbüslərinə əməli kömək göstərilməsi yolları axtarıldı. Bununla əlaqədar olaraq bölgəyə BMT-nin iki missiyası göndərildi. Bundan əlavə Təhlükəsizlik Şurası Bakıda və Yerevanda BMT-nin nümayəndəliklərini açdı, Romada ATƏM

çərçivəsində dəfələrlə görüşlər keçirildi. Lakin erməni tərəfinin təqsiri üzündən bunlar lazımi nəticələr vermədi. Ermənistanın hakim dairələri ATƏM-in sülh siyasətinin fəallaşdığı dövrdə təcavüzü həmişə genişləndirmək cəhdi göstərdilər. 1993-cü il martın 10-da Ermənistanın Müdafiə naziri V.Manukyanın gizli yolla Azərbaycanın Ağdərə rayonuna gəlməsi və orada olan erməni hərbi hissələrinin döyüş hazırlığını yoxlaması faktı erməni rəhbərliyinin beynəlxalq qanunlara etinasızlığını göstərdi. Hər dəfə mühüm danışıqlar ərəfəsində onların həmin danışıqları pozmağa yönəlmiş hərbi əməliyyatlar keçirməsi artıq bir sistem halını almışdı. Bu cəhətdən Şuşa, Laçın, Kəlbəcər və başqalarını xatırlamaq olar.

1993-cü ilin martın ortalarında Türkiyənin və Rusiyanın nümayəndə heyətləri Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün Cenevrədə görüşməyi qərara aldılar və hətta Dağlıq Qarabağ məsələsinin tezliklə nizama salınmasına dair birgə səy göstərmək razılığına gəldilər. Ehtimal edilirdi ki, danışıqlarda atəşin dayandırılması, dövlətlərin ərazi bütövlüyünə hörmət edilməsi, bir-birinin daxili işlərinə qarışmamaq, qoşunların çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması məsələləri həll ediləcəkdir. Hətta razılaşmaya uyğun olaraq Rusiya və Türkiyə nümayəndələri vuruşan tərəflərin rəhbərliyi ilə danışıqlar aparmaq və münaqişəni dinc yolla aradan qaldırılması planını onlara təqdim etmək üçün Yerevana və Bakıya birgə səfər edəcəklərini də planlaşdırdılar. Lakin bütün səylər elə bir nəticə vermədi. Düşmən öz təcavüz siyasətini və hərbi əməliyyatlarını çəkinmədən davam etdirdi. Azərbaycandakı daxili vəziyyət getdikcə gərgin hal aldı. İqtidara olan inam getdikcə azaldı.

Deməli, erməni təcavüzünün getdikcə şiddətləndiyi bir dövrdə respublikada əhalinin vətənpərvərlik hərəkatı artıb ümumxalq səviyyəsinə yüksələ bilmədi. Gənclərin xeyli hissəsi cəbhədə vuruşan övladların müraciətlərinə biganə qal-

dılar. Müharibə getdiyi dövrdə Azərbaycanda tez-tez baş verən hakimiyyət dəyişikliyi adamların vətənpərvərlik hərəkatına, hərbi mübarizə əzminə mənfi təsir göstərdi. Bu barədə Azərbaycan EA-nın müxbir üzvü Məqsəd Səttarov və professor Maqsud Cəlilov «Vətənpərvərlik ümummilli xilas vasitəsidir» adlı məqalələrində (Bax: «Xalq» qəzeti, 22 aprel 1994-cü il) yazmışlar: «Hakimiyyət başına gələnlər sözdə özlərini xalq mənafeyinin təmsilçiləri adlandırır, işdə, əməldə, siyasətlərində isə dediklərinə əməl etmirdilər. «Azadlıq», «Müstəqillik», «Demokratiya» kimi şüarlarla hakimiyyəti ələ keçirən qüvvələr öz şüarlarından tezliklə əl çəkdilər. Belə şüar və vədlərə ümid bəsləyən kütlələrdə tezliklə hakimiyyətə qarşı inamsızlıq, narazılıq hissi yarandı, xalqla siyasi hakimiyyət arasında ayrılıq, ziddiyyət dərinləşdi».

1993-cü il iyunun 4-də Gəncə hadisəsi vəziyyəti daha da ağırlaşdırdı. Hadisəni törədən şəxslərin istefası və nəhayət prezidentin istefası çox kəskin şəkildə irəli sürüldü. Bu şəraitdə Baş Nazir Pənah Hüseynov və onun ardınca Ali Sovetin sədri İsa Qəmbərin istefası baş verdi. Belə bir mürəkkəb şəraitdə dünya şöhrətli müdrik siyasətçi Heydər Əliyevi xalq Bakıya dəvət etdi. Xalq H.Əliyevə özünün yeganə xilaskarı kimi baxırdı. Respublikanın real vətəndaş müharibəsi həddində olduğu bir şəraitdə, 1993-cü ilin iyunun 15-də Milli Məclisdə H.Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bundan az sonra prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-ə keçən gecə xəlvəti Bakıdan Naxçıvana və oradan da Kələki kəndinə getdi. İyunun 18-dən 24-dək olan müddətdə dəfələrlə Əbülfəz Elçibəylə telefonla danışıqlar aparıldı. Azərbaycan Elmlər Akademiyasının prezidenti başda olmaqla ziyalıların nümayəndələrinin böyük bir qrupu Kələkiyə getdilər. Bütün təşəbbüslər – onun Bakıya qayıtması təşəbbüsləri heç bir nəticə vermədi. Belə olduqda Milli Məclis 24 iyun (1993-cü il) tarixli qərarı ilə prezidentin səlahiyyətlərini Azərbaycan Ali Sovetinin

sədrinə həvalə etdi. Bu yenilik Azərbaycanda ictimai-siyasi vəziyyətin mürəkkəb bir şəraitində baş verdi.

H.Əliyev iyulun 4-də «Ostankino» Dövlətlərarası Televiziya Şirkətinin «Birbaşa efirdə dialoq» proqramına verdiyi müsahibəsində demişdi: sonralar görülmüş tədbirlər və təşkilati işlər, yəni respublika rəhbərliyindəki dəyişikliklər bu gərginliyi müəyyən dərəcədə aradan qaldırmışdı. Ən başlıcası isə, zənnimcə, respublikamızı ciddi şəkildə hədələyən vətəndaş müharibəsinin qarşısını ala bilmişik, qarşıdurma müəyyən qədər zəifləmişdir. Bununla belə, vəziyyət hələ də mürəkkəb olaraq qalır, lakin Ermənistan silahlı qüvvələrinin son üç gündə Azərbaycan ərazisinə başladıqları hücum bu çətinlikləri artırır.[182]

Azərbaycanda mövcud çətinliklər şəraitində H.Əliyev iyulun 5-də (1993-cü ildə) xarici ölkə səfirlərini və BMT-nin Azərbaycandakı səlahiyyətli nümayəndəsini qəbul etdi. Elə həmin gün Dağlıq Qarabağ üzrə ATƏM-in Minsk konfransının sədri Mario Rafaelli də Bakıya gəlməli idi. H.Əliyev səfirlərlə keçirilən görüşdə cəbhədə və ümumiyyətlə, Azərbaycandakı vəziyyətlə onları tanış etdi və bildirdi ki, Ermənistan ordusu artıq Ağdama, Füzuliyə və Cəbrayıla hücum etmişdir. İnsan tələfatı çoxdur. Biz ABŞ, Rusiya və Türkiyə dövlətlərindən uğurlu addımlar gözləyirik.

Bu görüşdən az sonra Mario Rafaelli Bakıda, Yerevanda, Xankəndində və yenə Bakıda oldu. Bu gəliş və keçirilən görüş, söhbətlər də ermənilərə lazımi təsir göstərmədi və əksinə, elə Rafaelli Bakıda olduğu vaxt onlar öz təcavüz planlarını daha da genişləndirdilər və iyulun 23-də Azərbaycanın qədim şəhərlərindən biri olan Ağdam şəhərini zəbt etdilər. Bu bir daha onu göstərdi ki, ermənilər yeni-yeni torpaqlar işğal etmək iddiasından əl çəkmir və bununla da onlar münaqişənin danışıqlar yolu ilə həll edilməsini istəmirlər. Bununla onlar BMT-nin 822-ci qətnaməsini açıqdan-açığa pozdular. Ağdamın işğalı nəinki Azərbaycana və eləcə də dünyanın bir sıra ölkələrinə, habelə Türkiyəyə öz

təsirini göstərdi. İyulun 25-də Türkiyə prezidenti Süleyman Dəmirəlin sədrliyi ilə keçirilən iclasda Ermənistanın Azərbaycana qarşı son hücumları nəticəsində yaranmış vəziyyət geniş müzakirə edildi. İclasda işğal edilmiş Azərbaycan torpaqlarının boşaldılması üçün BMT və ATƏM kimi beynəlxalq təşkilatların təşəbbüslər göstərməsi haqqında qərar qəbul edildi.

Azərbaycandakı ağır şərait BMT Təhlükəsizlik Şurasında da müzakirə edildi və yeni qətnamə qəbul olundu. BMT Təhlükəsizlik Şurasında iyulun 29-da qəbul edilmiş 853-cü qətnamədə erməni qüvvələrinin Azərbaycan torpaqlarına davam edən hücumları pislənildi və onlardan Ağdam şəhəri də daxil olmaqla işğal edilmiş bütün ərazilərdən dərhal və heç bir şərt qoymadan çıxmaları tələb olundu. Bununla yanaşı Təhlükəsizlik Şurası BMT-nin baş katibinə və müvafiq beynəlxalq təşkilatlara müraciət edərək zərər çəkmiş dinc əhaliyə humanitar kömək göstərməyə çağırdı.

Azərbaycanda yaranmış vəziyyət erməni təcavüzünün genişlənərək başqa ərazilərə keçməsi və bununla da Ermənistan və Azərbaycan arasında münasibətlərin daha da gərginləşməsi ilə əlaqədar olaraq avqustun 18-də BMT Təhlükəsizlik Şurasının sədri bəyanat verdi və həmin bəyanatı Təhlükəsizlik Şurasının bütün üzvləri bəyəndilər. Rusiya Federasiyası Xarici İşlər nazirliyi İnformasiya və Mətbuat departamentinin direktoru Qriqori Karasin dedi: Təhlükəsizlik Şurası Ermənistan Respublikasının hökumətini Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrini Dağlıq Qarabağ ermənilərinin yerinə yetirmələri üçün öz təsirindən istifadə etməyə çağırmışdır. Göstərilən qətnamələrin yerinə yetirilməməsi dünya ictimaiyyətini narahat edir və bütün sülhməramlı səylərə ciddi zərbə vurur.[183]

1993-cü il avqustun ortalarında Rusiya Xarici İşlər Nazirinin müavini Boris Kolokolov başda olmaqla Rusiya Federasiyası nümayəndə heyəti Azərbaycana – Bakıya gəldi. Nümayəndə heyətinin tərkibinə Rusiya Federasiyası Prezi-

dentinin Dağlıq Qarabağ üzrə xüsusi səfiri B.Kazimirov və başqa şəxslər də daxil idi. Avqustun 20-də Azərbaycan Respublikası prezidentinin səlahiyyətini həyata keçirən Ali Sovetin sədri H.Əliyev Rusiya Federasiyası nümayəndə heyətini qəbul etdi. Qəbulda keçmişdən mövcud olan siyasi, iqtisadi və mədəni əlaqələr məsələsinə toxunularaq göstərildi ki, iki ölkənin qarşılıqlı surətdə faydalı əməkdaşlığının möhkəmləndirilməsi, şübhəsiz, hər iki ölkənin iqtisadi yüksəlişinə, onların xalqlarının rifahına kömək edə bilər. Keçirilən söhbətdə, eləcə də Ermənistan və Azərbaycan arasında gedən müharibə məsələsinə də toxunuldu. Boris Kolokolov bildirdi ki, bu münaqişə barəsində artıq Rusiya Federasiyasının rəsmi və olduqca qəti mövqeyi vardır. O, Sözünə davam edərək bildirdi ki, Rusiya bütün lokal münaqişələrin sülh yolu ilə həll olunması siyasətini yürüdür. Şübhəsiz, bu görüşün və aparılan söhbətlərin iki ölkə arasında münasibətlərin əhəmiyyətli dərəcədə nizama salınmasında az rolu olmadı.

Respublikanın olduqca ağır bir dövründə prezident Elçibəyin hələ də Kələkidə oturması heç də yaxşı hal deyildi. Belə bir vəziyyətlə əlaqədar olaraq Milli Məclis iyulun axırlarında keçirdiyi iclasında Elçibəyə etimad barədə referendum keçirilməsi haqqında qərar qəbul etdi və referendumun 29 avqust 1993-cü ildə keçirilməsi nəzərdə tutuldu. Avqustun 29-da referendum müvəffəqiyyətlə keçdi. Elçibəyə etimad göstərilmədi. Bu, xalqın haqq səsinin yekunu oldu. Elçibəy başda olmaqla AXC liderləri ilk vaxtlardan səhvlərə yol verdilər. Xalqı Azadlıq meydanına yığıb «Topxana» məsələsini qəti qoyarkən onlar xalqı birliyə səsləmək əvəzinə, tətillərə səslədilər. Bununla da respublikada iş pozuldu, ali və orta məktəblərdə dərslərin dayandırılması hallarına yol verildi. Bakıda gedən bu proseslər tezliklə digər şəhər və Rayonlara da təsir etdi və bu da ümumən Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurdu. Bunun ardınca «istefa» şüarları meydana atıldı. Bu da siyasi vəziyyətə, sabitliyə öz mənfi

təsirini göstərdi. Dağlıq Qarabağ hadisələrindən çox xalqın diqqəti tətil və istefaya cəlb edildi. Bütün bunlar cəbhədə uğursuzluqlara az mənfi təsir göstərmədi. Respublikada sabitlik pozuldu, özbaşınalıq həddini aşdı, şəhərlər, rayonlar, kəndlər yandırılıb məhv edildi. Plansız keçirilən tətillərin və istefa şüarlarının nəticəsi bu oldu. Mitinqlərə toplaşıb qara-qışqırıq salanlara gəldikdə onların əksəriyyəti cəbhəçilər idi. Onların içərisində vətən eşqi ilə deyil, müəyyən vəsait əldə etmək xatirinə mitinqlərə toplaşanlar da az deyildi. Əbülfəz Elçibəy bu vəziyyəti etiraf edərək demişdi: «Kim bilməsə də, biz bu mitinqlərin necə təşkil edildiyini yaxşı bilirik. Əgər biz hər adama 200 rubl verməsəydik, dünya da qopsaydı, heç kəs küçələrə çıxıb bizim üçün qara-qışqırıq salmazdı.[184] Elə bunun da nəticəsi idi ki, torpaqlarımız əldən getdi, yaşayış yerləri yandırıldı, viran qaldı, iqtisadiyyat isə iflic vəziyyətə salındı. AXC-nin bir illik hakimiyyəti ərzində onlar respublikaya 300 milyard rubldan artıq məbləğdə iqtisadi ziyan vurdular. Əlvan metallar su qiymətinə ixrac edildi, kürü dünya bazarında olduğundan 10 dəfələrlə ucuz qiymətə satıldı[185] və s. Bir sözlə, respublikanın sərvətləri viran edildi. Ermənistanın da Xalq Cəbhəsi var. «Azərbaycan» qəzetinin 20 noyabr (1993-cü il) tarixli nömrəsində Zeynal Vəfanın «Qıl körpüdən hamı keçməlidir» adlı məqaləsində göstərilir ki: Lakin o, hakimiyyətə can atmır. Öz vəzifə kürsüsünü qorumaq xatirinə qardaşı-qardaş üstünə qaldırmır. Özünün dünya şöhrətli şəxsiyyətlərinə qarşı təxribatı işlərlə məşğul olmur. Müdrik alimlərin ayaqlarını qırmır, qeyrətli qələm sahiblərini qanına qəltan etmir. Əksinə dünya ermənilərini Azərbaycan türklərinə qarşı vahid bir bayraq altda birləşdirir.[186]

Şübhəsiz, bu da öz nəticələrini verdi. Ağdamın işğalından sonra ermənilər 1993-cü il avqustun 18-də Cəbrayılın, 23-də Füzulinin, 30-da Qubadlının işğalına nail oldular. Bununla da Azərbaycanın iqtisadiyyatının darmadağın edilmiş olduğu, ərazisinin təxminən 20 faizinin itirilməsi və bir mil-

yondan artıq qaçqının olduğu ağır bir şəraitdə müharibəni davam etdirmək əlbəttə əlverişli deyildi. Belə vəziyyətdə Rusiya Federasiyası ilə münasibətləri nizama salmaq zəruri idi. Bu münasibətlə H.Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti 1993-cü il sentyabrın 5-8 arasında Moskvada oldu. O, Moskvada olduğu müddətdə Rusiya Federasiyasının prezidenti B.N.Yeltsinlə, RF Ali Sovetinin keçmiş sədri R.İ.Xasbulatovla, Nazirlər Sovetinin sədri V.S.Çernomırdinlə, Nazirlər Soveti sədrinin müavini, millətlərin işləri komitəsinin sədri S.M.Şaxrayla, Xarici İşlər naziri A.V.Kozırevlə, Müdafiə Naziri P.S.Qraçovla, Moskvanın bələdiyyə rəisi Y.M.Lujkov ilə əməli söhbətlər apardı. Burada Azərbaycan-Rusiya münasibətlərinin bütün sahələri müzakirə edildi və dövlət müstəqilliyinə, ərazi bütövlüyünə və sərhədlərin pozulmazlığı prinsiplərinə qarşılıqlı hörmət və münasibətlərin yaxşılaşmasına nail olmaq əzmi təsdiq edildi. Görüşdə Ermənistanın Azərbaycana qarşı apardığı müharibə məsələsinə də toxunuldu. Rusiya Federasiyası və Azərbaycan Respublikası bölgədə sülhün bərpa edilməsinə çalışdıqlarını və BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə müvafiq surətdə silahlı münaqişənin siyasi vasitələrlə aradan qaldırılmasına çalışacaqlarını təsdiq etdilər.

Məlum olduğu kimi H.Əliyev Moskvaya özünün ilk əməli səfərinin yekunlarına dair mətbuat konfransı keçirdi. Həmin konfransda o, bildirdi ki, Rusiya rəhbərlərinin onu tamamilə başa düşdüyünü görmüşdür və Qarabağ müharibəsinin dayandırılmasında Rusiyanın köməyinə ümid bəsləyir.[187] Səfər başa çatdıqdan sonra 1993-cü il sentyabrın 13-də Milli Məclisin keçirilən iclasında Azərbaycan nümayəndə heyətinin Moskvada aparılan danışıqların yekunları, Heydər Əliyevin Türkiyənin Baş naziri Tansu Çillərlə Moskva görüşü, ABŞ dövlət departamentinin geniş səlahiyyətli səfiri və dövlət katibinin yeni müstəqil dövlətlər üzrə xüsusi müşaviri Strob Talbott ilə görüşün və aparılan danışıqların nəti-

cələri haqqında məsələlər müzakirə edildi. H.Əliyev hər üç məsələ haqqında Milli Məclis üzvlərinə məlumat verdi.

Türkiyənin Baş naziri Tansu Çillərlə olan görüşdən bəhs edən H.Əliyev dedi: Bu görüşdə iki dost və qardaş ölkənin münasibətlərinin daha da dərinləşməsi məsələləri ilə yanaşı, Azərbaycanın Rusiya ilə, habelə digər MDB ölkələri ilə əməkdaşlığının perspektivləri də nəzərdən keçirildi və Tansu Çillər bu əlaqələrin daha da yaxşılaşmasına Türkiyənin də tərəfdar olduğunu bildirdi.[188] O, qeyd etdi ki, Rusiya ilə əməkdaşlığın genişlənməsi Azərbaycanın Türkiyə və ABŞ-la əlaqələrinə qətiyyən mənfi təsir etməyəcəkdir.

H.Əliyevin Moskva səfəri ərəfəsində Avropa Birliyinin Dağlıq Qarabağa dair qəbul etdiyi 3 sentyabr (1993-cü il) tarixli bəyanatı da az əhəmiyyət kəsb etmədi. Bəyanatda deyilirdi: Birlik və onun üzvü olan dövlətlər Azərbaycanın içərilərinə doğru irəliləyən erməni qüvvələrinin hücumunu pisləyirlər. Birlik və onun üzvü olan dövlətlər istərdilər ki, erməni qüvvələri BMT TŞ-nın 822 və 853 nömrəli qətnamələrinə hörmət etsinlər. Buna görə də onlar erməni qüvvələrinin Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından çıxarılmasını tələb edirlər.[189]

Lakin ermənilər yenə də bunlara məhəl qoymadan Azərbaycanın bir sıra rayonlarına atəş açmaqda davam etdilər. Onlar sentyabrın 14-15-i ərzində Qazax rayonunun ərazisini və mərkəzini atəşə tutdular. Sentyabrın 16-da Ermənistan hərbi hissələri Azərbaycanın bütün dövlət sərhədləri – Tovuz, Gədəbəy, Zəngilan rayonlarında Azərbaycan ordusunun mövqeyini yarmağa can atdılar. Sentyabrın 17-də Ermənistan ərazisindən Zəngilan və Qubadlı rayonlarının kəndləri, sentyabrın 21-də isə Tovuz və Ordubad rayonlarının kəndləri yenidən atəşə məruz qaldılar.[190]

Məhz belə bir şəraitdə MDB-nin parlamentlərarası qrupunun nümayəndə heyəti Bakıya gəldi. Nümayəndə heyətinin tərkibinə Rusiya Federasiyasının, Qazaxıstanın, Tacikistanın və Qırğızıstanın nümayəndələri daxil idi. Həmin

nümayəndə heyəti sentyabrın 18-də (1993-cü ildə) H.Əliyev tərəfindən qəbul edildi və söhbətlər aparıldı. Heydər Əliyev bildirdi ki, dünyanın ən nüfuzlu təşkilatları olan BMT Təhlükəsizlik Şurası və ATƏM erməni qüvvələrinin Kəlbəcər və Ağdam rayonlarından tamamilə çıxarılması haqqında qətnamələr qəbul etmişdir. Lakin Ermənistan tərəfi heç nəyə məhəl qoymadan öz təcavüzkarlıq əməllərini davam etdirir. Nümayəndə heyəti adından çıxış edən Qırğızıstan Respublikası Ali Sovetinin sədri M.Şerimkulov qeyd etdi ki, bizim gəlişimizin əsas məqsədi Azərbaycanda baş verən hadisələri dərindən öyrənmək və münaqişənin aradan qaldırılmasına kömək etməkdir.[191] O, sözünə davam edərək bildirdi ki, növbəti səfərləri Yerevana və oradan da Bakıya qayıtmaqdır. Bundan az sonra 1993-cü il sentyabrın 24-də MDB-ə daxil olan ölkə rəhbərlərinin görüşü keçirildi və Azərbaycan bu birliyə daxil oldu və müxtəlif məsələlər üzrə danışıqlar aparıldı.

Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz siyasətinin beynəlxalq təşkilatlarda ifşa edilməsi sahəsində də respublikada az iş görülmürdü. Noyabrın 30-da (1993-cü ildə) Romada ATƏM-in Xarici İşlər nazirləri Şurasının iclasında Ermənistan-Azərbaycan münaqişəsi məsələsi müzakirə edildi. Respublika Xarici İşlər Naziri Həsən Həsənov burada etdiyi çıxışında ermənilərin «Böyük Ermənistan» yaratmaq iddiası ilə Azərbaycana qarşı apardıqları təcavüz siyasətinin nəticəsi olaraq Azərbaycan ərazisinin 20 faizdən çox sahəsinin tutulması, 18 mindən çox adamın məhv edilməsi, 50 min nəfərə yaxın adamın yaralanması, 4 min nəfər adamın əsir alınması ilə yanaşı 88 min yaşayış binasının, mindən çox iqtisadi obyekt, 250 məktəb və təhsil müəssisəsinin, 250 tibb müəssisəsinin yandırılıb məhv edilməsinin əsil təcavüz olduğunu bildirmişdi.[192]

Ermənistan respublikasının Azərbaycana qarşı siyasi və hərbi təcavüz yeritdiyini sübut edən bir sıra faktları misal gətirən Həsən Həsənov dedi: 1989-cu il dekabrın 1-də bey-

nəlxalq hüquq normalarını pozaraq Ermənistanın parlamenti «Ermənistanın və Dağlıq Qarabağın yenidən birləşməsi haqqında» qərar qəbul etdi və bu qərar indiyə qədər ləğv edilməmişdir:

- 1990-cı ildə Azərbaycanın Dağlıq Qarabağ regionunda qanunsuzluq edilərək Ermənistan parlamentinə seçkilər keçirildi və Ermənistan parlamentinin indiki tərkibində Azərbaycan ərazisindən 12 deputat seçildi;
- Sübut olunmuşdur ki, Azərbaycanın Qazax rayonunun kəndləri bilavasitə Ermənistan tərəfindən zəbt edilmişdir.

Azərbaycan və Ermənistan BMT və ATƏM-ə daxil olduqdan sonra Ermənistan həmin təşkilatların prinsiplərinə əməl edəcəyinə sadiq qalacağını bildirdiyi halda, Şuşanı zəbt etdi. Bununla əlaqədar olaraq BMT-nin nümayəndə heyəti faktlar toplamaq üçün Azərbaycanda olan vaxt Ermənistan Laçın rayonunu işğal etdi. Cenevrədə «beş»liyin qeyri-rəsmi məsləhətləşməsi zamanı Ermənistan Kəlbəcəri, Minsk konfransının sədri Mario Rafaellinin regiona səfərindən sonra isə Ağdam rayonunu işğal etdi. İşğal edilmiş Azərbaycan ərazilərindən erməni qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT TŞ-nın 853-cü qətnaməsi qəbul edildikdən sonra Ermənistan Füzuli rayonunu, ATƏM-in sədri Marqareta af Uqlas regionda olan vaxt Ermənistan Zəngilan rayonunu zəbt etdi. Bundan sonra erməni qüvvələri noyabrın axırlarına yaxın Xudafərin körpüsü zonasını zəbt etməklə, Azərbaycan ilə İran İslam Respublikası arasındakı sərhədin 161 kilometrini öz nəzarətləri altına aldılar.[193]

Bununla da Azərbaycanın ümumən 14 min kv. km-dən artıq sahəsi işğal olundu və nəticədə 900-dən çox yaşayış məntəqəsi, 250 tibb müəssisəsi, 616 məktəb, 225 uşaq bağçası, 11 texniki-peşə məktəbi, 4 texnikum, 1 ali məktəb, 842 klub, 962 kitabxanası, 2 teatr, 183 kino qurğusu viran edildi (Bax: «Azərbaycan» qəz. 16 dekabr 1993). Bunlardan əlavə məktəblər, dəmir yolları, meşələr, qəbristanlıqlar və s. dağıdılmış oldu. Bunlarla bərabər ermənilər tərəfindən işğal

olunmuş ərazilərdə ümumi sahəsi 9,1 milyon kv. km olan 150 min ev qarət edilib viran qoyuldu, 6 minə yaxın sənaye, kənd təsərrüfatı və digər müəssisələr amansızcasına qarət edilib sıradan çıxarıldı. Azərbaycanın kənd təsərrüfatı sahəsinə təxminən 472 milyon ABŞ dolları həcmində ziyan dəydi. Ümumi uzunluğu 3834 metr olan 160 körpü darmadağın edildi, 800 km avtomobil yolu yararsız hala salınmaqla bərabər, həm də 2,3 min km su xətti, 2 min km qaz xətti və 240 km kanalizasiya xətti tamamilə məhv edilmişdi.

Erməni vəhşiləri Azərbaycanın mədəni həyatına da böyük zərbə vurmuşlar. Onlar işğal olunmuş ərazidə 500 tarix-arxitektura abidəsinə və 100-dən artıq arxeoloji abidəyə, 9 tarixi saraya, 22 muzey eksponatlarına, 4 şəkil Qalereyasına və fondlarda olan 40 mindən artıq qiymətli əşyalara barbarcasına yanaşmışlar.[194] Bununla da Ermənistanın təcavüzü nəticəsində Azərbaycana 22 milyard dollar həcmində ziyan dəymişdi. 20 minə qədər azərbaycanlı məhv edilmiş, 50 mindən artıq adam yaralanmış, minlərlə qoca, qadın və uşaq girov götürülmüşdü (Bax: "Xalq" qəz. 2 aprel 1996).

Beləliklə, XIX əsrdə Azərbaycan zorakılıqla parçalanıb ərazisində ermənilərin yerləşdirilməsindən sonra bəşər tarixində görünməmiş vəhşiliklərə və dəfələrlə təkrarlanan soyqırıma məruz qalmışdı. Buna görə də olduqca amansız vəhşiliklə müşahidə olunan ermənilərin mərhələ-mərhələ törətdikləri soyqırımı heç vaxt unutmaq olmaz.

Zeynal Vəfa «Dünənini unudan sabahını itirə bilər» adlı məqaləsində olduqca haqlı olaraq yazmışdı: «Dünya yarananda bəri bəşəriyyət hələ bu qədər bişərəf, vəhşi bir tayfaya rast gəlməyib. Tarix boyu Yer kürəsində şahlar, xaqanlar, imperatorlar nə qədər fəth ediblər. Lakin dinc əhalini ucdantutma qırmayıblar. Kəndləri, şəhərləri yandırıb xarabazara çevirməyiblər. Hələ dil açmamış, günahsız körpələri heç bir səbəb olmadan diri-diri tonqallarda yandırmayıblar» (Bax: Yenə orada).

Ermənilərin əsrlər boyu etdikləri vəhşilikləri, qəddarlığı, amansızlığı düşündükcə insanda qəti şəkildə belə bir fikir formalaşır ki, onlar başdan-başa dünya xalqları üçün, bəşəriyyət üçün olduqca təhlükəlidirlər və təhlükəli olaraq da qalırlar. Beləliklə, 1991-ci ildən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ ərazisi və ətraf rayonları Ermənistan silahlı qüvvələrinin hərbi işğalına məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan xalqına qarşı törədilmiş qanlı cinayətlərdə erməni hərbiçiləri ilə bərabər xarici dövlətlərdən olan qüvvələrin köməyinin də böyük təsiri olmuşdur. Faktlarla müəyyən edilmişdir ki, erməni hərbi birləşmələri tərkibində Sakit Okean Flotu dəniz batalyonundan 480 nəfər, ABŞ, Yaxın Şərq və Avropa erməni diasporunun 870 nəfərdən artıq, Rusiyanın Şimali Qafqaz bölgəsindən isə 1200 nəfər döyüşçüsü iştirak etmişdi.[195] Belə köməkliyin nəticəsi idi ki, Ermənistan heç bir beynəlxalq normalara, eləcə də Azərbaycan prezidentinin BMT TŞ-nın daimi üzvləri olan ABŞ-ın, İngiltərənin, Fransanın, Rusiyanın, Çinin rəhbərlərinə edilən müraciətlərinə belə məhəl qoymadı. Azərbaycan və Ermənistan BMT və ATƏT-ə daxil olduqdan sonra Ermənistan həmin təşkilatların prinsiplərinə əməl edəcəyinə sadiq qalacağını bildirdiyi halda Şuşanı zəbt etdi. Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olduqdan və kollektiv təhlükəsizlik haqqında müqaviləyə qoşulduqdan sonra Azərbaycanın rayonlarını işğal etməsi məhz Ermənistanın birliyi təşkil edən prinsiplərə əməl etməməsini göstərdi.

1993-cü il dekabrın əvvəlində Brusseldə NATO, Şərqi Avropa və keçmiş Sovet İttifaqı respublikaları daxil olan Şimali Atlantika əməkdaşlığı Şurasının sessiyası açılmışdır. Burada iştirak edən respublika Xarici İşlər Naziri H.Həsənov sessiyadakı çıxışında diqqəti Ermənistanın Azərbaycana qarşı altı ildən bəri apardığı təcavüz müharibəsi nəticəsində respublika ərazisinin beşdə bir hissəsinin işğal edilməsinə, bir milyondan çox azərbaycanlıların doğma yerlərindən zorla çıxarılaraq qaçqınlara çevrilməsinə və onların vəziyyət-

lərinin olduqca ağırlaşmasına, Xudafərin yaşayış məntəqəsinin işğal olunması ilə Azərbaycanın Ermənistanla dövlət sərhədinin 70 faizindən artığının erməni hərbiçilərinin nəzarəti altında olması və nəticədə Azərbaycan üçün nə dərəcədə ağır vəziyyət yarandığına cəlb etmişdir. O, sessiya iştirakçılarına bildirmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində ATƏM-in Minsk prosesi çərçivəsində dünya birliyinin göstərdiyi səylər, təəssüf ki, Ermənistanın işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməmişdir.[196]

Cəbhədəki uğursuzluqların vəziyyəti ağırlaşdırdığı bir şəraitdə Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü il dekabrın 11-12-də İmişli, Beyləqan və Şəmkir rayonlarında olmuşdu. O, bu yerlərdə qaçqınlarla, döyüşçülərlə görüşmüş və onların problemləri ilə yaxından tanış olmuşdu. Həmçinin də H.Əliyev Ağcabədi və Gəncədə müşavirələr keçirmişdi. Onun Beyləqan və Füzuli ərazilərində 11 dekabr 1993-cü ildə olarkən cəbhə problemləri ilə yaxından tanış olması və lazımi tədbirləri görməsi cəbhədə dönüş yaranmasının başlanğıcı oldu. Bu vaxtdan etibarən düşmənin bütün hücumlarının qarşısı müvəffəqiyyətlə alındı, onlar tələfat verdilər və bununla da torpaqlarımızın müəyyən hissəsi düşmənlərdən təmizlənməyə başlandı.

Belə bir vaxtda H.Əliyevin 1993-cü il dekabrın 19-da Fransaya tarixi rəsmi səfəri başlandı. Onun dekabrın 20-də Fransa prezidenti Fransua Mitteranla apardığı danışıqlarda Dağlıq Qarabağ məsələsinə geniş yer verildi. Görüşdə H.Əliyev Azərbaycanda gedən hadisələri, ermənilərin ərazi iddialarını, respublikaya olan təcavüz siyasətlərini açıb Fransa prezidentini xəbərdar etməklə erməni mətbuatının Qarabağ haqqında yaydığı böhtançı təbliğatı alt-üst etdi. H.Əliyev ATƏM-in əsas sənədlərindən biri olan Yeni Avropa üçün Paris xartiyasına Azərbaycanın qoşulması barədə sənədi də imzaladı. Hər iki prezident Azərbaycan, Fransa və digər ölkələrin jurnalistləri qarşısında bəyanatla çıxış etdilər.

Fransa prezidenti dedi: Biz zor işlətməklə sərhədlərin dəyişdirilməsini qəbul etmirik, eləcə də münaqişənin zor gücünə aradan qaldırılmasına tərəfdar deyilik. Biz Azərbaycanın müstəqilliyinə və suverenliyinə hörmət bəslənilməsinə tərəfdarıq.[197]

Heydər Əliyev öz minnətdarlığını bildirərək dedi:

Ümid etmək istərdim ki, siz öz şəxsi nüfuzunuzdan, Fransanın nüfuzundan istifadə edib, Ermənistan hərbi birləşmələrinin Azərbaycana təcavüzünün qarşısının alınmasına, bölgəmizdə sülh yaradılmasına kömək göstərəcəksiniz». Azərbaycan Prezidenti eyni zamanda Fransa sahibkarlarının milli mərkəzində, Fransa diplomatiyası Akademiyasında, YUNESKO-nun iqamətgahında oldu. Bu görüşlərdə prezident bu vaxta qədər erməni lobbisinin Azərbaycan haqqında yaydıqları böhtançı məlumatları tamamilə ifşa etməklə bərabər, verilən suallara cavab verdi. YUNESKO-nun baş direktoru Federiko Mayor görüşün axırında H.Əliyevə həmin təşkilatın xatirə medalını verdi.[198]

Beləliklə, Azərbaycan Prezidentinin Fransaya olan üç günlük tarixi səfəri hər iki dövlət arasında ictimai-siyasi, iqtisadi və mədəni əlaqələr məsələsinə böyük təsir etdi. H.Əliyevin bu səfəri eyni zamanda Fransada çox güclü olan erməni diasporunun DQ barəsindəki pozucu fəaliyyətinin ifşasında və bunun informasiya vasitələri ilə bütün dünyaya çatdırılmasında müsbət rolu oldu.

Azərbaycan Prezidenti Fransa səfərindən qayıdandan az sonra Türkmənistanda keçirilən MDB dövlət başçıları Şurasının iclasında iştirak etdi. Dekabrın 23-də (1993-cü ildə) Türkmənistan prezidenti Saparmurad Niyazovun Vasitəçiliyi ilə Heydər Əliyev və Ter-Petrosyan arasında görüş keçirildi. Görüş adətən ümidverici olmalı idi, lakin bunların arasında Moskvada sentyabrın 25-də keçirilmiş birinci görüşdən sonra münaqişə zonasında vəziyyət kəskinləşmişdi. Türkmənistan görüşündən əvvəl mətbuat üçün verdiyi bəyanatda Heydər Əliyev qeyd etmişdi ki, o, münaqişənin sülh yolu ilə aradan qaldırılmasına üstünlük verir və münaqişə

aparan tərəflər arasında hərbi əməliyyatların dərhal dayandırılmasına tərəfdardır. Faciələrin, qırğınların qarşısını almaq üçün bu ən yaxşı yoldur. Lakin Ermənistan tərəfinin təqsiri üzündən həmin prinsiplər hələ də pozulur, hərbi əməliyyatlar davam edir, insanlar qırılır, kəndlər, qəsəbələr, şəhərlər viran edilirdi.

Bütün bunları dəqiqliyi ilə nəzərə alan Azərbaycan Prezidenti MDB Dövlət başçıları şurasının iclasında bəyanat verdi və göstərdi ki: Ermənistan respublikasının Azərbaycana qarşı təxminən 6 il davam edən təcavüzü Azərbaycan xalqına saysız-hesabsız müsibətlər gətirmişdir, Ermənistan respublikasının silahlı qüvvələri Azərbaycan ərazisinin 14,0 min kvadrat kilometrə qədərini işğal etmişdir. Bunun 9,0 min kvadrat kilometri Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənardadır. Onlar Dağlıq Qarabağın ərazisini tam nəzarət altına aldıqdan sonra təcavüzkar əməllərini genişləndirərək onun hüdudlarından kənara Azərbaycan Respublikasının Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını və Qazax rayonunun bir hissəsini işğal etmişlər. Azərbaycana qarşı təcavüz başlanandan indiyədək 18 mindən çox adam öldürülmüş, 50 minədək yaralanmış və ya şikəst olmuş, bir milyonadək azərbaycanlı ev-eşiyini itirmiş, 100 mindən çox yaşayış tikintisi, bir mindən çox iqtisadi obyekt, yüz milyonlarla dollar dəyərində şəxsi əmlak və dövlət əmlakı, maddi sərvətlər işğal olunmuş ərazilərdən Ermənistana daşınır.[199] Onlar Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etməklə Azərbaycanın İran İslam Respublikası ilə dövlət sərhədinə çıxaraq MDB-nin cənub hüdudlarında təhlükəli gərginlik ocağı yaratmış, münaqişənin beynəlmiləl xarakter alması qorxusu törətmişlər.

Sayı 300 mindən çox əhalinin yaşadığı rayonların 1993-cü ilin oktyabrında işğal edilməsini Azərbaycan xalqı həm də ona görə çox ağır qarşılamışdır ki, bu hadisə Azərbaycan MDB-yə daxil olduqdan və kollektiv təhlükəsizlik

haqqında müqaviləyə qoşulduqdan sonra baş vermişdi. Deməli, Ermənistan respublikası təkcə Azərbaycana qarşı təcavüz etmir, həm də indi bizim birliyimizi təşkil edən prinsiplərə tam saymazlıq nümayiş etdirir. Buna görə MDB-nin üzvü və kollektiv təhlükəsizlik haqqında müqavilənin iştirakçısı olan Ermənistan respublikasının, birliyin onun kimi tam hüquqlu üzvü olan dövlətə – Azərbaycan respublikasına qarşı təcavüz etməsi yolverilməzdir.[200]

Azərbaycan torpaqlarında böyük faciələr törətmiş ermənilər və onların xaricdə olan havadarları nəyin bahasına olursa-olsun, qondarma «Dağlıq Qarabağ Respublikası»na («DQR») müstəqil dövlət qurumu statusu verməyə cəhd göstərirlər. Şübhəsiz, buna nail olduqdan sonra onların daha geniş əraziyə nail olmaq planları var. Paris qəzeti «Liberasyon» sentyabr saylarının birində yazır ki, qatı erməni millətçiləri nəinki Dağlıq Qarabağ, həmçinin Naxçıvanı, Anadolunun bir hissəsini, Gürcüstanın cənub rayonlarını bütün bu «tarixi erməni torpaqlarını» da tutmaq istəyirlər.[201]

Ermənilərin saxtalığından bəhs edən gürcü yazıçısı İ.Q.Çavçavadze yazırdı ki, 1877-ci ildə Fransa qəzeti «Teşri» öz müxbiri Kutulini bizim diyara göndərmişdi. Lakin o, Tiflisə gəlib çatmamış yolda bir erməni zabitinə rast gəlmişdi. Həmin erməni Kutulini faytonla Tiflisə, birinci növbədə «Mşak»ın redaktoru Arsrunun yanına və o isə Kutulini erməni ziyalı dərnəyinə gətirmişdi. Fransa müxbirinin şərəfinə ziyafətlər, yığıncaqlar təşkil edilmişdi. Ermənilər müxbirlə söhbəti elə aparmışlar ki, guya Tiflisdə onun gördüyü nə varsa hamısı ermənilərə məxsusdur. Hətta Tiflis Ermənistanın şəhəridir. Həmin müxbiri məharətlə saxta məlumatlarla təbliğ etməkdə ermənilərin əsas məqsədi Fransanın ən hörmətli və təsirli qəzeti «QEMPS» vasitəsilə «Gürcüstan, ora Tiflis də daxil olmaqla Ermənistandır» fikrini bütün dünyaya yaymağa nail olmaq olmuşdu.[202] Ermənilərin başqa xalqların torpaqlarını öz torpaqları kimi qəbul etmələri və eləcə də təbliğ etmələri onların qanına yerimişdi.

Bu cəhətdən 1992-ci ilin sentyabrında Kazan şəhərində çıxan "İzvestiya TOS» qəzetində vətən müharibəsi veteranı Nikolay Petroviç Qorşkovun dərc olunmuş məqaləsində ermənilərin daha böyük iddiasından bəhs olunur.

N.P.Qorşkov yazmışdı: Mən yayda sanatoriyada müalicə olunan vaxt Tiqran adlı bir erməni ilə tanış oldum. Onunla söhbət məndə savadlı, ziyalı təəssüratı yaratdı. Lakin onun söhbətinin bir hissəsi məni çox həyəcanlandırdı. O, söhbətində bildirdi ki, ermənilər Yer kürəsinin ən qədim xalqlarından biridir. Tiqranın söhbətindən belə çıxırdı ki, hələ eradan əvvəl 20-ci əsrdə bütün xalqlar qəbilə halında yaşadıqları vaxtdan xeyli əvvəl, ermənilər millət kimi formalaşmışdılar. Onlar zəngin mədəniyyətə malik idilər. Guya qədimdə Ermənistanın ərazisi təxminən Azov dənizindən Xəzər dənizinə qədər olan yerləri əhatə edən çarlıqları olmuşdur.

Qorşkov buna cavab olaraq bildirmişdi ki, qədim tarix Yunanıstan, Karfagen, Roma imperiyalarıdır, erməni çarlığına gəldikdə bu haqda heç nə məlum deyil. Bundan qəzəblənən Tiqran bunun bütün günahı akademik Piotrovskidədir və ermənilər onu özlərinin qatı düşməni hesab edirlər – deyə cavab vermişdi. Akademik Yerevan ərazisində qazıntı aparan vaxt qədim dövlətin izlərini aşkar edib onu erməni çarlığı deyil, Urartu çarlığı adlandırmışdı. Guya bununla da akademik elmdə çaşqınlıq yaratmışdı. Tiqran sözünə davam edərək demişdi ki, tarix erməni milləti ilə ədalətsiz keçinmişdir. İndi bizə öz tarixi torpaqlarımızı, o cümlədən Qarabağı, Naxçıvanı, Gürcüstanda olan Axalkalakini və Axalsixi qaytarmaq şansı yaranmışdır. Bundan sonra isə biz ermənilər Rostov, Krasnodar və Stavropol məsələləri ilə məşğul olacağıq.[203] Qoşkov yazır ki, mən çox təəccüb etdim, yəni doğrudanmı bunlar da Ermənistan padşahlığına daxil idi? Tiqran ciddi şəkildə – bəs necə bilirdiniz, hələ II Tiqranın padşahlığı dövründə həmin torpaqlar erməni məliklərinə məxsus idi və bunu təsdiq edəcək kifayət qədər dəlillər var. Götürün tarixi və coğrafi adları. Məsələn, Rostov yaxınlı-

ğında yeni Naxiçevan. Yaxud erməni icmasının həmin yerlərdə kompakt yaşamalarını. Bir çox məşhur erməni rəssamları, dənizçiləri, admiral İsakov kimiləri həmin yerdə doğulub böyümüşlər. Buna görə də biz öz tarixi torpaqlarımızın qaytarılması məsələsini qaldırmağa hüquqi və tarixi ixtiyarımız var.

Qorşkov bildirmişdi ki, Tiqranın bu söhbətindən sonra həmin qəzetə yazdığım məktubda xahiş etdim ki, mənə qəzetinizdə açıq şəkildə cavab yazın, doğrudanmı Rostov, Krasnodar, Stavropol qədim erməni torpaqlarıdır.[204]

Ermənilərin belə avantürist iddialarını təhlil edən V.Veliçko Tiflis şəhərində 1904-cü ildə çap etdirdiyi «Qafqaz, rus mənafeyi və xalqlararası problemlər» kitabında göstərmişdi ki, erməni məhəlli məktəblərində tələbələr Böyük Ermənistanın xəritəsini öyrənirlər və bunun ərazisi demək olar ki, Voronejə qədər uzanır və paytaxtı da Tiflisdir.

Belə xəyallarla yaşayan erməni millətçiləri bütün vasitələrdən istifadə edərək Azərbaycana qarşı başladıqları müharibə gedişində dəhşətli qırğınlar, dağıntılar törətdilər. İndi dünyada olan 18 milyon qaçqının bir milyonu Azərbaycandadır.[205] Belə dağıntılara, faciələrə məruz qalmış Azərbaycan Respublikasını xilas etmək, onun müstəqilliyini, ərazi bütövlüyünü saxlamağın ən vacib vasitəsi xalqın birliyi idi. Şərq dünyasında belə bir ağıllı məsəl var, deyirlər qartalın gücü qanadında olduğu kimi xalqın da gücü onun birliyindədir. Bu birlik qələbəmizin, müstəqilliyimizin tam təmin edilməsinin rəhnidir. Prezident Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, o son damla qanına qədər özünü Vətən, xalq naminə qurban verməyə hazırdır və ancaq xalqın köməyinə arxalanır. Bu, prezidentin Vətənə və xalqa bağlılığını göstərməklə yanaşı, eyni zamanda xalqı birliyə, yekdilliyə və onun ətrafında birləşib düşmən üzərində qələbəni təmin etməyə çağırışdır. Bu eyni zamanda hər bir azərbaycanlının həqiqi vətəndaş, vətənpərvər olmağa çağırışdır.

Respublika rəhbərinin İngiltərədə və Çində olması, ümumiyyətlə, xarici siyasətdə məqsədyönlü siyasəti nəhayət öz təsirini göstərdi. Bütün diqqət birinci növbədə atəşin dayandırılmasına verildi. Dəfələrlə Rusiya, Türkiyə, Ermənistan nümayəndələri ilə aparılan danışıqlar öz nəticəsini verdi. 1994-cü il mayın 11-dən atəş dayandırıldı və bununla da insan qırğınının, kəndlərin, rayonların dağılmasının qarşısı alındı. Lakin ermənilər atəşkəst haqqında imzalanan sənədə xəyanət etdilər, o vaxtdan bu günə qədər demək olar ki, hər gün Azərbaycanın sərhədə yaxın yerlərini atəşə tutmaqda davam edirlər. Müxtəlif növ silahlardan açılan atəşlərlə ordumuzun zabitlərindən, əsgərlərindən qətlə yetirilənlər az olmayıb. 2011-ci ilin martında çərşənbə günü 9 yaşlı uşağın qətlə yetirilməsi ermənilərin nə dərəcədə vəhşi olduğunu bir daha təsdiqləyir. Ermənilər həm də sərhədə yaxın yerləri atəşə tutmaqla insanların dincliyini pozur, işləmələrinə mane olur, heyvanlara atəş açıb qırırlar, girov aparırlar və s. Buna baxmayaraq 1994-cü ilin mayından etibarən yaradılan şəraitin təsiri ilə Azərbaycanın iqtisadiyyatında böyük əhəmiyyəti olan 20 sentyabr 1994-cü ildə «Əsrin müqaviləsi» bağlandı və həmin gün «Neftçilər günü» bayramı kimi xalqımızın tarixinə daxil oldu. Həmçinin də Azərbaycan bir sıra beynəlxalq iqtisadi təşkilatların da üzvü oldu. O cümlədən Beynəlxalq Valyuta Fondunun. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının, İslam Konfransı Təşkilatının, İslam İnkişaf Bankının, Ümumdünya İslam Konqresinin və s. üzvü olmuşdur. Şübhəsiz, İpək yolunun bərpası üzrə Beynəlxalq konfransın 1998-ci ilin sentyabrında Bakıda keçirilməsi, burada 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin iştirakı ilə bağlanan müqavilə də Azərbaycana olan diqqət olmuşdu.

Bununla bərabər Respublikanın ərazi bütövlüyünün təmin edilməsi naminə Azərbaycan Prezidentinin ABŞ-da olması, oranın prezidenti ilə aparılan danışıqlar, BMT-nin sessiyasında etdiyi çıxışında, habelə, 1994-cü il dekabrın 5-6-da

dövlət başçılarının Budapeştdə zirvə toplanışında və həmin ayın 13-15-də Mərakeşdə 52 ölkənin üzvü olduğu İslam təşkilatının 7-ci zirvə konfransında «Böyük Ermənistan» yaratmaq xülyasında olan ermənilərin Azərbaycana qarşı apardıqları təcavüz siyasəti kəskin tənqid edilmişdi. Onların hətta beynəlxalq təşkilatın 822, 853, 874 və 884 nömrəli qətnamələrinə əməl etməmələri göstərildi və bununla da Zirvə toplanışında Ermənistanın təcavüz siyasəti pislənildi və Azərbaycana maddi yardım haqqında qətnamə qəbul edildi. Zirvə toplanışlarında müxtəlif ölkələrin başçıları ilə keçirilən görüşlər və aparılan danışıqlar bir daha onu göstərdi ki, dünya dövlətlərinin Azərbaycana marağı getdikcə artır. Həm Şərqdə və həm də Qərbdə dünyanın böyük dövlətləri, dünya siyasətinə təsir göstərə biləcək həmin dövlətlərin başçıları artıq Azərbaycanın problemləri ilə tanışdırlar. Bu tanışlıqda Respublika Prezidentinin məqsədyönlü siyasəti, aparılan danışıqlar öz rolunu oynamış və oynayır. Buna görə də Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi üçün öz təşəbbüslərini göstərirlər. Bu məsələlər eyni zamanda Birləşmiş Millətlər Təşkilatında, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, İslam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda dəfələrlə müzakirə edilmişdi. Azərbaycan xalqı həmin təşkilatların və böyük dövlətlərin ədalətli qərarlarına və mövqeyinə ümidlər bəsləyir.

Lakin qeyd edilməlidir ki, Rusiya ilk vaxtlardan Qarabağ münaqişəsini dinc yolla nizama salınması prosesinə Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatları cəlb etmək cəhdlərinə narahatlıqla yanaşmış və yanaşır.

1995-ci ilin dekabrın 23-də Vladimir Kazimirovun Bakıya səfəri şübhə yeri qoymadı ki, Qarabağ münaqişəsinin nizama salınmasında Rusiya yenidən təkbaşına vasitəçilik etmək niyyətindədir. Bu vasitəçilik isə hər halda Ermənistanın mənafeyinə uyğun aparılırdı. Bunu Rusiyanın Qarabağ üçün yüksək status tələb etməsi də göstərdi. Belə ki,

Qarabağın öz ordusu olsun və ona xaricdə öz nümayəndəliklərini açmaq hüququ verilsin təklifi buna əyani sübutdur. Bu belə də olmalı idi. İrəvan xanlığının ərazisinə ermənilər Çar Rusiyası köçürmüş, Zəngəzuru da Ermənistana Sovet Rusiyası bağışlamışdır. Həmçinin də DQMV-nin yaranması da Sovet Rusiyasının köməkliyi ilə yaradılmışdı. İndi Rusiyanın Ermənistanda öz hərbi bazalarını yerləşdirməsi, Ermənistanla birgə hərbi təlimlər keçirilməsi -- bunlar Rusiyanın Azərbaycana qarşı xidmətləridir.

İranla Ermənistanın dostlaşması da Qarabağ probleminin həllini çətinləşdirir. 1995-ci ilin dekabrında Araz çayı üzərində 192 metr uzunluğunda İranla Ermənistan arasında körpünün tikilməsinin başa çatması bunu aydın göstərir. 2,6 milyon dollara başa gələn körpünün tikintisini İranla Ermənistanın birgə maliyyələşdirməsi faktı fikrimizi bir daha təsdiq edir.[206] Belə nailiyyətlərin əldə edilməsində dünyanın müxtəlif ölkələrində fəaliyyətdə olan erməni lobbisinin, diasporunun, icmasının və Daşnaksütyunun da böyük rolu vardır. Bu işdə Eçmiədzinin, din xadimlərinin də fəaliyyətinin təsirini qeyd etməmək olmaz.

Azərbaycan diasporu məsələsinə gəldikdə bu müxtəlif vaxtlarda və müxtəlif səbəblərdən xaricə mühacirət etmiş hələlik azsaylı, güclü təşkilatı olmayan azərbaycanlılardan ibarətdir. Azərbaycandan ilk mühacirlər 1915-1918-ci illərdə gedənlərdən ibarət olmuşdur. Mühacirlərin əksəriyyətini Azərbaycan Milli Azadlıq hərəkatının fəalları və nəzəriyyəçiləri təşkil etmişlər. Onların sıralarında erməni zorakılığı nəticəsində didərgin düşənlərin sayı da az olmamışdır.

Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xaricə getmiş adamların və ikinci dünya müharibəsindən geri qayıtmayanların və 1946-cı ildə Şahın təqiblərinə görə xaricə getmiş azərbaycanlıların hesabına mühacirlərin sayı artmış, Azərbaycan diasporu formalaşmağa başlamışdı. Bununla bərabər 70-80-ci illərdə İranda şah rejimi, İran-İraq müharibəsi və Xomeyni hakimiyyəti dövründə xaricə

getməyə məcbur olan azərbaycanlıların hesabına da diaspor genişlənmişdi. Hazırda Azərbaycan diasporunun əksəriyyətini Cənubi Azərbaycandan köçənlər təşkil edirlər. İrandan köçüb gedənlərlə birlikdə müxtəlif xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı 7 milyonu ötmüşdür. Bunlardan 1,5 milyonu MDB ölkələrində, 2,5-3 milyonu Türkiyədə, 500 mindən artığı ABŞ-da, 330 minə yaxını Almaniyada, 40-50 min nəfərə qədəri isə Avropanın digər ölkələrində yaşayırlar.[209]

Lakin bunlarla Azərbaycan arasında lazımi dərəcədə əlaqələr saxlanmamışdır. Nəhayət, 1989-cu ildə Bakıda xarici ölkələrdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr saxlamaq üzrə «Vətən» cəmiyyəti yaradılmışdı. Bu cəmiyyət xarici qonaqların və adlı-sanlı Vətən övladlarının Azərbaycanda keçirilən mədəni-kütləvi tədbirlərdə iştirakını təmin etməklə bərabər, həmçinin də Azərbaycanın məşhur elm-mədəniyyət xadimlərinin xarici ölkələrə çoxlu səfərlərini təşkil etmişdir. Onlar xaricdə müxtəlif kütləvi tədbirlərdə iştirak etməklə bərabər, həm də respublika haqqında həqiqətləri yaymaqla erməni icmasının saxta təbliğatlarını ifşa edir, ölkəmiz haqqında düzgün ictimai rəy formalaşdırırlar.

Hər hansı ölkə olursa-olsun diasporun, icmanın fəaliyyəti onun mütəşəkkilliyindən və maliyyə imkanlarının genişliyindən çox asılıdır. İmkanlı dövlətlər, cəmiyyətlər və şəxsiyyətlər bu sahədə böyük vəsait sərf edirlər ki, bu da diasporun fəaliyyətində öz müsbət rolunu oynayır. ABŞ Ədliyyə Nazirliyinin verdiyi məlumata görə Yaponiya dövləti öz mühacirlərinin lobbiləşdirilməsinə 60 milyon dollar, Anqola 2,3 milyon dollar, Rusiya 1,54 milyon dollar vəsait sərf etmişdi.[210]

Azərbaycan icmasına və diasporuna gəldikdə bunun təşkilatlanması, tanınması, təsir gücü və maliyyələşdirilməsinə görə başqalarından, həmçinin erməni icmasından çox geri qalır. Olduqca güclü olan erməni icması öz imkanlarından istifadə edərək Azərbaycan haqqında hər cürə

şaiyələr, böhtanlar təbliğ edir və bu da «Böyük Ermənistan» yaratmağa xidmət etməklə Ermənistanın iddialarının müdafiə və həyata keçirilməsinə çox kömək etmiş olur.

Azərbaycan lobbisinin yaranması o qədər də asan məsələ deyildir, uzun sürən bir prosesdir. Bunun üçün hər şeydən əvvəl xaricdə yaşayan mühacir azərbaycanlılarla sıx əlaqələr yaradılmalı idi. Bu işə uzun zaman laqeydlik göstərilsə də, son vaxtlarda xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr yaradılmasında xeyli dəyişiklik əmələ gəlmişdir. Artıq onlar Azərbaycanda baş verən hadisələrlə, vəziyyətlə maraqlanır, öz münasibətlərini bildirirlər. Bu cəhətdən respublika prezidenti olmuş H.Əliyevin fəaliyyəti təqdirəlayiqdir. İstər müxtəlif ölkələrin başçıları ilə, istərsə də nümayəndəliklərlə keçirilən görüşlərində və xarici ölkələrdə olarkən orada yaşayan azərbaycanlı mühacirlərlə görüşlərində H.Əliyev onların problemləri ilə maraqlanmış və Azərbaycanla daha sıx əlaqələr qurmalarını dəfələrlə tövsiyə etmişdi. H.Əliyev tərəfindən göstərilən diqqət və qayğı xaricdəki Azərbaycan diasporunun respublikamızla əlaqələrinin daha da möhkəmlənməsinə və inkişaf etməsinə öz müsbət təsirini göstərmiş və göstərir.

Dekabrın 31-nin – Ümumdünya azərbaycanlılarının həmrəylik günü kimi qəbul edilməsi həmin əlaqələrin genişlənməsində böyük rol oynayır. Həmin tarixi günün daha təsirli qeyd olunmasına, daha yeni əlaqə formaları tapılmasına diqqət ildən-ilə artır. Belə ki, Azərbaycan Prezidenti öz fəaliyyəti dövründə daimi olaraq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların həyatına, onların birliyinə xüsusi diqqət və əhəmiyyət vermişdi. Ona görə də təsadüfi deyildir ki, o, müxtəlif ölkələrdə rəsmi səfərlərdə olarkən həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşlər keçirmiş və onların diqqətini Azərbaycana cəlb etmişdi. Belə bir müqəddəs amala xidmət edən H.Əliyevin hətta Dünya azərbaycanlılarının Birinci qurultayının keçirilməsi haqqında 23 may 2001-ci il tarixli sərəncamı olmuş və qərara alınmışdı

ki, 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirilsin. Qəbul edilmiş həmin sərəncamdan irəli gələn bütün tədbirlər görülmüş və qurultay H.Əliyevin rəhbərliyi altında çox yüksək səviyyədə keçirilmişdi. H.Əliyev siyasəti cənab İ.Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi və Azərbaycan prezidenti İlham Əliyevin orada etdiyi tarixi çıxış bir daha birliyin ildən-ilə möhkəmlənməsinə olan qayğıdır, diqqətdir.

Ancaq hələ də erməni diasporunun güclü olması bəzi Qərb ölkələrində, xüsusilə ABŞ-da dövlət siyasətinə müəyyən təsir göstərir. Keçmiş sovet respublikaları arasında ABŞ konqresinin yalnız Azərbaycana dövlət yardımını məhdudlaşdıran qərar qəbul etməsi və 1992-ci ildə qəbul olunan Azadlığın Müdafiəsi sənədinin Azərbaycana aid edilməməsində (907-ci bölmə) erməni diasporunun az təsiri olmamışdır. Şübhəsiz, belə bir ədalətsiz bölmənin özünü qüdrətli demokratik ölkə hesab edən ABŞ konqresi tərəfindən qəbul edilməsi və hələ də onun ləğv edilməməsi demokratiyaya zidd olmaqla bərabər, həm də Azərbaycan və Ermənistan arasında münasibətləri daha da kəskinləşdirir, sülhə nail olmaq işini çətinləşdirir.

Amerika dövlətinin Ermənistana üstün münasibəti oraya göstərilən maliyyə yardımı sahəsində də özünü aydın göstərir. 1996-cı ilin payızında ABŞ prezidenti B.Klinton dövlət xərcləri haqqında imzaladığı qanuna görə xarici dövlətlərə 12,1 milyard dollar həcmində yardım ediləcəyi nəzərdə tutulmuşdu. Qəbul edilmiş həmin qanun layihəsinə görə keçmiş sovet respublikalarına 625 milyon dollar paylanmalı idi. Bundan 225 milyon Ukraynaya, 95 milyon dollar isə Ermənistana nəzərdə tutulmuşdu.[211] Qaçqınlara yardım üçün 700 milyon dollar nəzərdə tutulmuşdur. Həmin yardımın bölüşdürülməsində də Azərbaycana ədalətsiz münasibət göstərilib. Belə ki, müharibə nəticəsində böyük dağın-

tılara məruz qalmış, bir milyondan çox qaçqını olan Azərbaycan qaçqınları üçün Ermənistandan az pay ayırılmışdı.

ABŞ, İran, Rusiya və Avropanın bir sıra ölkələrinin Ermənistana göstərdikləri belə birtərəfli kömək heç şübhəsiz, ermənilərin ədalətsiz ərazi iddialarını daha da artırır. Məhz bu günə kimi Ermənistanın Azərbaycana qarşı ədalətsiz ərazi iddiaları Dünya dövlətləri tərəfindən, Beynəlxalq dövlət və ictimai təşkilatlar tərəfindən qəti şəkildə pislənilmədiyindən, onun lazımi dərəcədə təcavüzkar bir dövlət hesab edilmədiyindən Ermənistan öz hərəkətlərini nəinki dayandırmır, hətta davam etdirir. Müəyyən uydurma bəhanələrlə zəbt edilmiş torpaqların boşaldılması sahəsində aparılan danışıqları yenə də uzatmaq siyasəti yürüdür. Bu, Ermənistan prezidenti L.Ter-Petrosyanın Böyük Britaniya Xarici İşlər Naziri M.Rifkindin Yerevana səfərinin yekunlarını şərh edərək mətbuat konfransında dediklərindən bir daha aydın olur. O, bildirmişdi ki, «Bosniya probleminin həllindən sonra dünya birliyinin diqqəti Dağlıq Qarabağa yönələcəkdir. Məhz buna görə də Yerevan və Stepanakert daha əməli və çevik təkliflər irəli sürməlidirlər».[212]

Ermənistan prezidentinin bu mövqeyindən aydın olur ki, o, hələ də vəziyyətin – atəşkəsin elə bu vəziyyətdə qalması tərəfdarıdır. Atəşkəs vəziyyəti isə ermənilər üçün əlverişlidir. Bunu hətta ermənilərin özləri də etiraf etmişlər. Bu yaxınlarda bir nəfər Qarabağ ermənisi demişdir ki, bu gün atəşkəs də bizə sərf edir. Qarabağ hərbiləşdirilir, sərvətlər büsbütün talanır, necə deyim, yerin üstü də, altı da Sökülür.[213]

Təəssüf ki, Azərbaycan xalqı tarixin acı hadisələrindən lazımi nəticələr çıxartmadı. 1828-1830, 1905-1906, 1918-1920, 1948-1950-ci illərdə Ermənistanda və Azərbaycanda azərbaycanlılara qarşı edilən haqsızlıqları, faciələri unutdu. Şair Nüsrət Kəsəmənli bu barədə yaxşı deyib: «Ermənilərlə azərbaycanlılar arasında tarix boyu baş vermiş bütün münaqişələrdə uduzduğumuza, soyqırıma məruz qalmağımıza baxmayaraq, hər dəfə də «Allah şeytana lənət eləsin!» –

deyib barışmışıq və sülhdən, əmin-amanlıqdan, xalqlar dostluğundan ağız dolusu danışmışıq».[214]

Azərbaycan Respublikasının Ümummilli Lideri H.Ə.Əliyevin Ermənistan-Azərbaycan münaqişəsi və erməni təcavüzü haqqında dediyi aşağıdakı sözlər daim yadda saxlanmalıdır: Tarixən Azərbaycanı çox mərhələlərdə parçalamaq istəyiblər. Xüsusən, respublikamızla qonşu olan Ermənistanın Azərbaycana torpaq iddiası daim olmuşdur. Ancaq Azərbaycanı parçalamaq mümkün olmamışdır. 80-ci illərdə ölkəmizə qarşı bu təcavüz, bu düşmən meylləri artmış və nəhayət, 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz başlanmışdır. Onun gedişi və nəticələri məlumdur. Azərbaycana dəhşətli zərbələr vurulmuş, respublikamızın ərazi bütövlüyü pozulmuş, torpaqlarımızın bir qismi işğal olunmuş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşmüşdür.

Azərbaycanın belə bir dövründə respublikamızı idarə edənlər, siyasətlə məşğul olanlar üçün daim dərs olmalıdı ki, Azərbaycan təhlükə altındadır. Dərs olmalı idi ki, Azərbaycan bütün daxili problemləri kənara qoyub xarici qüvvələrin respublikamıza uzatdığı əlləri kəsə bilsin, onların bu qəsbkar meyillərinin qarşısını ala bilsin və Azərbaycanın bütövlüyünü saxlaya bilsin. Təəssüf ki, keçmiş tarixin təhlili bunu deməyə əsas verir ki, belə olmayıbdır.

1988-ci ildən Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanıbdır. Ancaq bu təcavüz 1988-ci ildə birdən-birə başlanmayıbdır, ondan əvvəlki illərdə hazırlanıbdır. Onu düymaq, bilmək lazım idi, onun qarşısını almaq lazım idi. Ancaq təəssüf ki, Azərbaycanı idarə edən adamlar buna fikir verməyiblər, öz məsuliyyətlərini hiss etməyiblər və 1988-ci ildə belə bir kəskin şərait yaranan zaman ona cavab verməyə qabil olmayıblar.

Heydər Əliyev daha sonra demişdir: «Təsəvvür etmək mümkün deyil ki, Azərbaycan ərazisində Dağlıq Qarabağda olan yüz minə qədər erməni əhalisi onu əhatə edən milyon-

larla azərbaycanlı əhalidən güclü oldu və Dağlıq Qarabağdan azərbaycanlıları güclə çıxardı. Bunlar hamısı o səbəbdən meydana gəldi ki, bir tərəfdən, Azərbaycanı idarə edənlər öz xalqına xəyanət etdilər, ikinci tərəfdən də ayağa qalxmış xalqın milli azadlıq hərəkatından ayrı-ayrı adamlar öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışdılar, hamısı birləşib Ermənistan təcavüzünün əleyhinə getmək əvəzinə, Azərbaycanın daxilində hakimiyyət mübarizəsi, çəkişmələr və s. getdi».

H.Ə.Əliyev 1996-cı il aprelin 6-da Ümumxalq nümayəndələri ilə keçirilən toplantıda yekun nitqində demişdir: «Dağlıq Qarabağ Muxtar Vilayəti həmişə Azərbaycanı susdurmaq, Azərbaycana diqtə etmək, respublikamızın sərvətlərindən, imkanlarından başqalarının istifadə etməsi mənbəyi olubdur. Ona görə də Dağlıq Qarabağ problemi o yaranandan sonrakı dövrdə vaxtaşırı baş veribdir. Ancaq həqiqət naminə demək lazımdır ki, həm 20-ci, 30-cu, 40-cı, 50-ci, həm də sonrakı illərdə – 60-70-ci illərdə əgər bu məsələ vaxtaşırı qalxıbsa, onun qarşısı da alınıbdır. Onun qarşısı bir tərəfdən Azərbaycanı idarə edən şəxslər tərəfindən alınıbdır. İkinci tərəfdən isə, ədalət naminə demək lazımdır ki, o vaxtlar sovetlər ittifaqında hökm sürən qanun-qayda çərçivəsində alınıbdır».[215]

Bütün bunlara baxmayaraq, H.Əliyevin prezidentliyə başlamasından respublikanın ictimai-siyasi və iqtisadi həyatında dəyişikliklər aparmaq uğrunda mübarizə başlandı. Birinci növbədə respublika daxilində hərcmərcliyə son qoymaq, müxtəlif məqsədlərə xidmət edən silahlı qrupları zərərsizləşdirmək, əhali üçün dinc əmin-amanlıq şəraiti yaratmaq işlərinin həyata keçirilməsinə başlandı. İkinci tərəfdən, respublika daxilində dəfələrlə terrorçuluq aktlarının, xalqı vətəndaş müharibəsinə sürükləmək cəhdlərinin qarşısı alındı. Lakin yenə də müxtəlif cinayətkarlıq hərəkətləri davam edirdi. Dövlət və hakimiyyət orqanlarının səyi nəticəsində terror hadisələrinin (metro partlayışı və s.) günahkarları mə-

suliyyətə cəlb olundu, dövlət çevrilişinə cəhd (1994-cü ilin oktyabrında, 1995-ci ilin martında) kimi təhlükəli hadisələrin qarşısı alındı. Xalqın iqtisadi və mədəni tələbatının ödənilməsi, həyat tərzinin yaxşılaşdırılması sahəsində müəyyən tədbirlər görüldü.

Xarici siyasət sahəsində H.Əliyevin əməyi, göstərdiyi səylər getdikcə öz bəhrəsini verməkdə oldu. Onun Rusiya, Fransa, İngiltərə, Çin, Amerika və başqa ölkələrə olan tarixi səfərləri, orada aparılan danışıqlar, bağlanmış müqavilələr bir tərəfdən həmin ölkələrlərlə iqtisadi və ticarət əlaqələri yaradılmasında əhəmiyyətli rol oynayırsa, digər tərəfdən, Ermənistan dövlətinin təcavüz siyasətinin əsil mahiyyətinin açılıb ifşa edilməsinə əsaslı kömək göstərirdi. Həmin səfərlər vaxtı prezidentin çıxışları, həmçinin dünyanın müxtəlif ölkələrində çox güclü olan erməni diasporunun, icmasının Dağlıq Qarabağ haqqında ədalətsiz, böhtançı və iftiraçı təbliğatlarını alt-üst edilməsi ilə yanaşı, Dünya dövlətlərinə, dünya ictimaiyyətinə ermənilərin həqiqi məqsədlərinin iç üzünü açıb göstərməkdə olduqca faydalı təsir göstərirdi.

Qısa şəkildə göstərilən həmin məsələlərin ardıcıllıqla həlli tədricən öz bəhrəsini verdi və Dünya ictimaiyyətində belə bir fikir formalaşdı ki, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və buna görə də işğal edilmiş torpaqlar boşaldılmalıdır. Hazırda hətta bu fikri dövlət xadimləri içərisində də söyləyənlər və belə mövqedən çıxış edənlər az olmadı. Buna Böyük Britaniya Birləşmiş Krallığı və Şimali İrlandiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, peşəkar diplomat Tomas Yanqın dediklərini misal göstərmək kifayətdir. O, demişdir: «Əlahəzrət kraliça hökumətinin mövqeyi kifayət qədər aydın və möhkəmdir: Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, işğal edilmiş torpaqlar azad olunmalıdır. Regionda sabitliyin yaradılması üçün dünya ölkələri çox iş görməlidir. Azərbaycan torpağına sülh gəlməlidir».[216]

Böyük Britaniyanın Xarici İşlər Naziri Malkolm Rifkind yanvarın 3-də (1996-cı ildə) Yerevanda L.Ter-Petrosyan ilə görüşündən sonra öz fikrini belə açıqlamışdı: Münaqişənin həllində millətlərin öz müqəddəratını həll etmək hüququ və dövlətin ərazi bütövlüyü kimi meyarlar eyni dərəcədə nəzərə alınmalıdır.[217]

ABŞ-ın görkəmli siyasi xadimlərindən biri, 1977-1981-ci illərdə prezident olmuş Ceyms Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri işləmiş Z.Bjezinski müsahibəsində Azərbaycan-Ermənistan münaqişəsinin həllində sərhədlərin toxunulmazlığını tanımağı vacib hesab edərək bunun münaqişənin tam həlli yolunda əsas amil olduğunu bildirMişdir.[218]

Sonralar da beynəlxalq miqyasda keçirilmiş bir sıra simpozium, seminar, konfrans və sairədə də bu mövqedən çıxış edənlər çox-çoxdur. Tehranda yanvarın 14-16-ı arasında (1996-cı ildə) keçirilən beynəlxalq simpozium-seminarı buna misal göstərmək olar. Dünyanın 31 ölkəsindən 50-ə yaxın alim və dövlət xadiminin iştirak etdiyi yığıncaq çox aktual bir məsələyə – «Qafqazda və Mərkəzi asiyada təhlükəsizlik və beynəlxalq münasibətlər»ə həsr edilmişdi. Bu məclisin diqqətini cəlb edən başlıca məsələlərdən biri Dağlıq Qarabağ münaqişəsi idi. Seminarda bu məsələyə dair akademik C.Quliyev «Qarşıdurmadan sülhə doğru», EA-nın müxbir üzvü Ə.Ə.Zərgərov «Qarabağ münaqişəsi və Azərbaycanın iqtisadi təhlükəsizliyi», hüquq elmləri doktoru A.Rzayev «Təhlükəsizliyin təmin edilməsində beynəlxalq təşkilatların rolu», şərqşünas alim Q.Camalov «Qaçqınların və məcburi köçkünlərin olması təhlükəsizlik üçün qorxudur», V.Arzumanlı «Milli azlıqların təhlükəsizliyinin təmin olunmasında hüquqi dövlətin rolu» mövzularında məruzələr etmişlər. Rusiyadan, Ukraynadan, Böyük Britaniyadan, Fransadan, Pakistandan və Ermənistandan gəlmiş nümayəndələrin məruzələri içərisində Ermənistan-Azərbaycan münaqişəsinə dair edilən bəzi məruzələrdəki qeyri-obyektiv mövqelərə, müxtəlif suallara Azərbaycan alimləri faktlarla

tutarlı cavablar vermişlər. Beynəlxalq məclisdə İran alimi Ermənistandan gəlmiş Emma Beginyana belə bir sualla müraciət etmişdi ki, axı Ermənistan tərəfi bilir ki, Azərbaycan-İran münasibətləri yaxın və doğmadır. Heç olmazsa, bu səbəbdən Ermənistan-Azərbaycan torpaqlarının işğalından əl çəkib Qarabağ münaqişəsinə son qoymalıdır. Bu vəziyyətin İran-Ermənistan münasibətlərinə mənfi təsir etməsindən Ermənistan çəkinmirmi? E.Beginyan suala yenə də erməni riyakarlığı ilə cavab verməyə çalışaraq bildirmişdi ki, Azərbaycanla müharibə aparan Ermənistan deyil, Dağlıq Qarabağ Respublikasının silahlı qüvvələridir. Ermənistan yalnız ərzaqla Dağlıq Qarabağa əl tutur, ona mənəvi dayaq göstərir.[219] Bu ağ yalana cavab verən V.Arzumanlı Ermənistanın Azərbaycana qarşı apardığı yeddi illik müharibə nəticəsində torpaqların işğalında, törədiln faciələrdə Ermənistanın da Qarabağ ermənilər ilə birlikdə iştirak etdiyini və başqa dövlətlərin də Ermənistana köməklik göstərdiyini faktlarla açıqlamaqla bərabər bu müharibədə Azərbaycanın təkləndiyini məclis iştirakçılarına çatdırmışdı.

E.Beginyanın Azərbaycanla müharibə aparan Ermənistan deyil, Dağlıq Qarabağ Respublikasının silahlı qüvvələridir ifadəsi L.Ter-Petrosyanın ifadəsinin təkrarıdır. O da dəfələrlə qeyd etmişdir ki, Ermənistan bu müharibədə iştirak etmir. Ermənin belə böhtan və iftirasını eşitdikdə insanı təəccüb götürür! Axı, Ermənistan müharibədə iştirak etmirsə, onda prezident L.Ter-Petrosyanın fərmanı ilə (20 sentyabr 1996-cı il) «Ermənistanın milli qəhrəmanı» adı və «Vətən ordeni» niyə təsis edilmişdi? Ermənistanın vətəndaşlarına bu yüksək ad və orden hansı müharibədə göstərdikləri «igidliyə» görə verilir?! L.Ter-Petrosyanın imzaladığı həmin fərmanda deyilir ki, «Ermənistan Respublikasının müdafiəsi işində (hansı müharibədə – Ə.A.) göstərdiyi ümummilli əhəmiyyətli xüsusi fəaliyyətinə görə (… filankəsə) ölümündən sonra «Vətən ordeni» təqdim edilməklə «Ermənistanın milli qəhrəmanı» adı verilsin.

H.Rəhimoğlu «Azərbaycana Ermənistanın təcavüzü – təkzibedilməz faktlar» məqaləsində haqlı olaraq açıqlayır ki, L.Ter-Petrosyanın fərmanları təkzib edir ki, Dağlıq Qarabağda Azərbaycana qarşı müharibəni Qarabağ ermənilər yox, Ermənistan Respublikası aparır. Belə deyilsə, bəs nə üçün Dağlıq Qarabağda həlak olan erməni və yaxud Dağlıq Qarabağın sıravi döyüşçüsü «Ermənistanın milli qəhrəmanı» adına layiq görülür?!

Ölümündən sonra «Ermənistanın milli qəhrəmanı» adına layiq görülənlər kimlərdir? Vitya Ayvazyan – Ermənistan Respublikası Ali Sovetinin keçmiş deputatı, G.Mikaelyan – Əştərək rayonu ərazi müdafiə dəstəsinin komandiri. Əştərək rayonu Yerevanın 18-20 kilometrliyində yerləşir, bu bölgədə isə müharibə getməyib. Əştərək rayonu Dağlıq Qarabağdan 300 km uzaqdadır. Deməli, Mikaelyan da Əştərəkdə müharibə getmədiyinə görə orada həlak ola bilməzdi. O, Dağlıq Qarabağda Azərbaycana qarşı müharibədə həlak olub və onu bura göndərən də Ermənisan hökuməti olub.[220]

Zəhmətkeş erməni xalqı, xüsusilə Dağlıq Qarabağ ermənilər həmişə erməni millətçilərinin, ekstremistlərinin təkidi ilə başlanmış bu müharibənin əleyhinə olmuşlar. Filologiya elmləri doktoru, ermənişünas gürcü alimi B.Arveladze Ermənistan respublikası Yazıçılar Birliyinin sədri S.Xanzadyana açıq məktubda yazmışdı: «Qarabağ müharibəsi başlananda yolum Yerevana düşmüşdü. Orada Qarabağdan olan qaçqınlarla görüşüb söhbət edə bildim. Onlar açıq-aşkar etiraf edərək deyirdilər: Biz Qarabağda yaxşı yaşayırdıq. Lakin yerevanlılar illər boyu bizə dinclik vermir, bizi təhrik edirdilər ki, Qarabağı Azərbaycandan ayırmaq və onun Ermənistana birləşdirilməsi tələbini irəli sürmək»[221] lazımdır.

İndi Azərbaycana qarşı başlanmış təcavüzün məhz Ermənistan dövlətinin təşəbbüsü ilə olmasını faktlarla sübut etməyə ehtiyac belə yoxdur. «Krunk» və «Qarabağ» hərəkatı Dağlıq Qarabağda deyil, Ermənistanda başlanmışdı.

Bu hərəkata rəhbərlik edən Vazgen Manukyan, L.Ter-Petrosyan və başqaları Ermənistanda yaşayırdılar. İlk dəfə «Miatsum»» çağırışı Yerevanda Teatr meydanında meydana gəlmişdir və i.a. Faktlar göstərir ki, erməni əhalisi içərisində bu müharibəni istəməyənlər də olmuş, onların bir qismi etiraz əlaməti olaraq Rusiyaya, ABŞ-a, Almaniyaya, Fransaya və başqa ölkələrə çıxıb getmişlər. Hazırda Rusiyada yaşayan 2-2,5 milyon ermənin 1,5 milyonu 1990-cı ildən sonra Azərbaycandan, Gürcüstandan köçüb gedənlərdir.[222] Əgər onlar Dağlıq Qarabağda müharibə tərəfdarı olsaydılar ya müharibəyə, ya da Ermənistana gedərdilər. Deməli, ermənilərin heç də hamısı erməni siyasətçilərinin təcavüzkarlıq planlarını müdafiə etmirlər.

Xarici ölkələrin, xüsusilə ABŞ-ın erməni diasporu da Qarabağ müharibəsinə münasibətə görə yekdil deyildir; Ermənistanın ədalətsiz müharibə siyasətini heç də erməni diasporu üzvləri tam müdafiə etmir. Azərbaycanın ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri olmuş H.Paşayev bildirmişdir ki, «Mesa» Amerika ictimai təşkilatının dekabrda (1995-ci ildə) keçirdiyi konfransın bir hissəsi Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə həsr olunmuşdu. Burada Azərbaycan və Ermənistanın ABŞ-dakı səfirləri çıxış etmişdilər. H.Paşayev Amerikada erməni diasporunda parçalanmanın müşahidə olunduğunu bildirərək bəyan etmişdi ki, bu diasporun bir hissəsi Dağlıq Qarabağın Ermənistanla birləşməsi uğrunda mübarizəni davam etdirməyi tələb etdiyi halda, digər hissəsi əksinə belə hesab edir ki, mübarizə mənasızdır, sülh və dövlətlərin normal inkişafı daha zəruridir.[223]

Azərbaycan dövləti və onun rəhbəri H.Əliyev Dağlıq Qarabağ müharibəsinin sülh yolu ilə həll edilməsinə, dinc vasitələrlə Ermənistanın təcavüz siyasətinin dünya ictimaiyyətinə çatdırılmasına böyük ümidlər bəsləmiş və bu sahədə gərgin iş aparmışdı. Lissabon zirvə toplanışına hazırlıq və onun keçirilməsi dövründə Azərbaycan prezidentinin fəaliyyəti fikrimizi tam təsdiq edir. Lissabon sammitindən hələ

xeyli əvvəl Respublika Prezidenti beynəlxalq təşkilatların – BMT-nin, ATƏT-in, İslam Konfransı Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Avropa Birliyi, MDB təşkilatlarının imkanlarından istifadə etmək sahəsində gərgin iş aparmışdı. İki il ərzində görülən işlərdə əsas məqsəd Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün ədalətli qərarın qəbul edilməsinə nail olmaq idi. Bu məqsədlə Azərbaycan prezidenti hər şeydən əvvəl ATƏT-in Minsk Qrupunun fəaliyyətindən istifadə etməyə çalışmışdı. H.Əliyev ilk növbədə bu qrupa daxil olan əsas dövlətlərin, xüsusilə ABŞ, Rusiya, Fransa, Almaniya, Türkiyə və başqalarının rəhbərləri ilə əlaqə yaradaraq Minsk Qrupunun işini gücləndirməyə çalışmışdır. O, bununla həm də Lissabon zirvə görüşündə məsələnin sülh yolu ilə həll edilməsinə zəmin yaratmağa çalışmışdır.

Noyabrın 8-də (1996-cı ildə) ABŞ prezidentindən, sonralar isə Böyük Britaniya, Fransa, Rusiya, Türkiyə və başqa ölkələrin dövlət başçılarından alınan cavab məktublarında onların Azərbaycan prezidentinin mövqeyinə tərəfdar olduqları bildirilmişdir. Bunlarla bərabər, noyabr ayında Azərbaycana gələn ABŞ və Rusiya nümayəndələri ilə, həmçinin Minsk Qrupunun bütün tərkibi ilə görüşüb danışıqlar aparılmışdır. Azərbaycan prezidenti Lissabonda 1996-cı il dekabrın 2-3-də keçirilmiş ATƏT-in zirvə görüşündn əvvəl, eləcə də görüşün fasilələri vaxtlarında, hər andan, imkandan istifadə edərək ABŞ-ın, Rusiyanın, Türkiyənin, Ukraynanın, Finlandiyanın, Qazaxıstanın, Gürcüstanın nümayəndə heyətlərinin başçıları ilə, habelə ATƏT-in hazırkı sədri ilə, həmçinin L.Ter-Petrosyanla və başqaları ilə çoxsaylı görüşlər keçirmişdi.

Azərbaycan Prezidentinin başçılığı ilə Lissabon Zirvə görüşündə Azərbaycan nümayəndə heyəti Dağlıq Qarabağ probleminin ancaq aşağıdakı üç prinsip əsasında həll edilə biləcəyi haqqında təklif irəli sürmüşdü: Münaqişə yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü əsasında həll edilə bilər; Dağlıq Qarabağın hər hansı bir muxtariyyəti

Azərbaycanın tərkibində olmalıdır; Dağlıq Qarabağın bütün əhalisinin – ermənilərin və azərbaycanlıların təhlükəsizliyi tam təmin olunmalıdır. Ermənistana gəldikdə o, belə hesab edirdi ki, Azərbaycanın ərazi bütövlüyü hələ ki, zirvə görüşünün danışıq mövzusu ola bilməz; Dağlıq Qarabağın muxtariyyəti Azərbaycandan asılı olmamalıdır; Təhlükəsizlik məsələsi isə yalnız ermənilərə aid edilməlidir və s. Müzakirənin belə bir istiqamət aldığını və Azərbaycanın prinsiplərinin qəbul ediləcəyini hiss edən Ermənistan Azərbaycanın mövqeyini əks etdirən maddəyə öz qadağa hüququndan istifadə edib veto tətbiq etmişdi. Belə olduqda Azərbaycan qəbul olunacaq bütün sənədə öz qadağa hüququnu tətbiq edəcəyi barədə bəyanat vermişdi. Bu vəziyyətin yaranmasının səbəbkarı olan Ermənistanın mövqeyi 53 dövlət tərəfindən pislənilmiş və həlli çox çətin olan mürəkkəb bir şərait yaranmışdı.

Nəhayət, Azərbaycan nümayəndə heyəti ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatının məzmunu ilə tanış olduqdan sonra onun qəbul olunmasına öz müsbət münasibətini bildirmişdi. Bunun nəticəsi olaraq Azərbaycanın haqq sözü təsdiqlənmiş və 53 dövlət tərəfindən qəbul edilmişdi, Azərbaycan dünya birliyi dövlətlərinə etibarlı tərəfdar kimi tanınmışdı. Bu da münaqişənin həllinə dünya birliyinin marağının artması kimi müsbət nəticələr vermişdi. Bununla da Azərbaycanın mövqeyini əks etdirən yuxarıda qeyd olunmuş üç prinsipdən ibarət təklif 53 dövlət tərəfindən təsdiq olunmuş və xalqımız tərəfindən tam bəyənilən Lissabon sənədi qəbul edilmişdi.

Lissabon sənədi nəinki ümumxalq müzakirəsi nəticəsində ölkəmizdə, həm də bir sıra xarici ölkə diplomatları tərəfindən bəyənildi və Azərbaycanın mövqeyi dəstəkləndi. ABŞ-ın məşhur politoloqlarından biri olan Pol Qobl Azərbaycanın Vaşinqtondakı səfirliyinə bildirmişdir ki, Azərbaycan nümayəndə heyəti Lissabonda çox faydalı iş görərək, sanballı nəticə əldə etmişdir. Vaşinqtonda buraxılan «İnter-

kon Deyli» bülleteni Ermənistanın pozucu mövqeyini vurğulayaraq qeyd etmişdir ki, Ermənistan «özünü ATƏT-in 53 dövlətinə qarşı qoymuşdur».[224]

Azərbaycanın ərazi bütövlüyünü tam müdafiə edən ABŞ dövləti, qondarma Dağlıq Qarabağ Respublikasında prezident seçkilərinin keçirilməsinin qeyri-qanuniliyi haqqında da Bəyanat vermişdi. Lakin ABŞ erməni diasporu həmin bəyanata öz etirazını bildirmişdi. Belə olduqda, 1996-cı ilin oktyabr ayında ABŞ Dövlət Departamentinin nümayəndəsi, səfir Pressel, Detroytda daşnakları təmsil edən Erməni Milli Komitəsinin nümayəndələri qarşısında çıxış edərək, ABŞ dövlətinin həmin bəyanatını tam müdafiə etmiş və demişdi: «Amerika Dağlıq Qarabağı müstəqil ölkə kimi heç vaxt tanımayacaqdır». Bu çıxış ermənilərin yeni etiraz kompaniyasına səbəb olmuşdur.[225]

Lissabon Zirvə görüşündən sonra Minsk Qrupu genişlənərək 1997-ci ilin əvvəllərindən üç həmsədr – Fransa, Rusiya və Amerika Birləşmiş Ştatları olmuşdu. Həmin üç dövlətin prezidentləri 1997-ci ildə Denverdə Dağlıq Qarabağ münaqişəsi haqqında bəyanat verdilərsə də bu da bir nəticə vermədi.

Minsk Qrupu həmsədrlərinin öz fəaliyyətlərindəki passivlikdə və Qarabağ məsələsi haqda obyektiv olaraq qəti qərar qəbul edilməməsində Rusiya rəhbərliyinin təqsiri az deyildir. Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin, insan tələfatının qarşısını almaq naminə şübhəsiz Rusiya hökuməti daha təsirli addım ata bilərdi. Lakin əksinə, əvvəllərdə olduğu kimi sonrakı illərdə də Rusiya Ermənistana qayğısını davam etdirdi. Belə ki, Rusiyanın Müdafiə Nazirliyi tərəfindən Ermənistana bir milyard dollar qiymətində böyük miqdarda silah verilməsinin aşkar edilməsi məhz Rusiya dövlətinin əsl mahiyyətini ifşa etdi.

2001-ci il aprelin 24-də Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış edən millət vəkili və hazırda republika prezidenti cənab İlham Əliyev demişdi: Rusiyanın

keçmiş rəhbərliyi tərəfindən Ermənistana bir milyard dollar həcmində silah verilməsi şəraitində belə bir sual meydana çıxır: «Ermənistanda iqtisadi böhran gücləndiyi halda ermənilər bu silahı necə alıblar?

Bunun iki yolu var. Birincisi, odur ki, tamamilə pulsuz şəkildə, bu da inandırıcı deyil. İkincisi də, bu bir milyard dolların haradan tapıldığı məlum deyil. Bu vəsait narkotik biznesin dövriyyəsindən əldə edilə bilər[227]».

İ.Əliyevin AŞ PA sessiyasında cəsarətlə söylədiyi fikir nəinki erməni deputatlarını olduqca narahat etmiş və bu eyni zamanda Rusiya dövlətinin mövqeyinin açıqdan-açığa tənqid edilməsi, onun siyasətinin əsl mahiyyətinin açıqlanması olmuşdu. Təəssüf ki, Rusiyanın Ermənistanı açıq şəkildə silahlandırması, orada olan hərbi bazasına yeni tipli texnikanın gətirilməsi siyasəti bu gün də davam edir.

Bu vəziyyəti təhlil edən H.Əliyev demişdir: «Nə üçün neçə illərdir biz öz münaqişəmiz barədə, yəni Ermənistanla Azərbaycan arasında münaqişə barəsində haray qaldırdığımız halda, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyi halda, Azər-baycanın 8 milyon əhalisindən 1 milyonu neçə illərdir öz doğma yerlərindən didərgin salındığı və çadırlarda, çox ağır şəraitdə yaşadığı halda Dünya Birliyi, böyük dövlətlər indiyədək bizim münaqişəmizə lazımi diqqət yetirməmişlər... Təəssüflə düşünürəm: Nə üçün bizim regiona belə maraq yoxdur? Nə üçün Dünya Birliyi, böyük dövlətlər, o cümlədən Rusiya... niyə buradakı münaqişəni aradan qaldırmaq, burada haqq-ədalətə nail olmaq üçün tədbirlər görmədilər?» (Bax: «Azərbaycan» qəzeti, 21 aprel 1999).

H.Əliyev tərəfindən olduqca obyektiv və cəsarətli deyilmiş həmin fikirdən əlavə həm də xalqımızın tarixinə dəhşətli 31 mart (1918-ci il) tarixli faciə kimi daxil olan və demək olar ki, uzun illər unudulan həmin faciə xatırlandı. Dünya şöhrətli dövlət xadimi H.Əliyevin diqqətindən yayınmadı və həmin hadisə haqqında 26 mart 1998-ci il tarixli

fərmanı oldu. Həmin fərmanla 31 mart azərbaycanlıların soyqırımı günü elan edildi. Bu fərmanla həm də Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqımız keçmişinin həqiqi mənzərəsini öyrənmək imkanı əldə etmişdi. Bu fərmanla uzun illər məxfi saxlanılan, öyrənilməsinə qəti qadağa qoyulmuş tarixi həqiqətlr açılmış və bütün hadisələr özünün doğru və düzgün qiymətini almışdı.

1918-ci il mart faciəsinin 80 illiyi ərəfəsində Azərbaycan Prezidentinin 26 mart (1998-ci ildə) tarixli fərmanı ilə məhz 31 mart gününün «Azərbaycanlıların Soyqırımı Günü» elan edilməsi tarixi həqiqətlərin tam və düzgün aşkar edilməsinə, xalqın milli yaddaşının xatırlanmasına və dirçəlməsinə təkan verən çox böyük əhəmiyyətli bir fərman olmuşdu. Eyni zamanda həmin fərmanla dünyada yazıq, məzlum xalq kimi təbliğ olunan ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri qanlı cinayətlərin bəşəri qanunların əleyhinə olması əks olunmuşdu.

Respublika Prezidentinin 26 mart (1998-ci il) tarixli fərmanından sonra azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı olmuşdu. Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 31 mart tarixli iclasında qəbul edilmiş Bəyanatda göstərilmişdi: «Ermənilərin Azərbaycan xalqına qarşı çevrilmiş soyqırımı siyasəti Çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəylik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dövrdəki soyqırım daha mütəşəkkil şəkildə, daha böyük bir qəddarlıq və amansızlıqla həyata keçirilmişdi. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvasından didərgin salmışdılar» (Bax: «Xalq» qəz. 2 aprel 1998).

1918-ci il mart hadisələri Azərbaycan prezidentinin 26 mart 1998-ci il tarixli fərmanından sonra 31 mart azərbaycanlıların soyqırımı günü kimi hər il dövlət səviyyəsində

qeyd olunur. Həmin gün Azərbaycanın hər yerində soyqırım qurbanlarını anma tədbiri keçirilir. Bu məsələyə xüsusi diqqət verən respublika prezidenti 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına 27 mart 2003-cü il tarixli müraciətində demişdi: «Xalqımıza qarşı yeridilmiş soyqırım siyasətinin uzun tarixi olsa da, bu barədə əsl həqiqətlər yalnız Azərbaycan rəhbərliyinin qətiyyəti sayəsində son illərdə dünya ictimai fikrinə çatdırılmağa başlanmışdır. Bu işdə Azərbaycan vətəndaşlarının, ictimaiyyətin, xarici ölkələrdəki azərbaycanlı icmalarının üzərinə böyük məsuliyyət düşür» (Bax: «Azərbaycan» qəzeti, 30 mart 2003).

Beləliklə, H.Əliyevin gərgin əməyinin nəticəsi olaraq Azərbaycan dövlətinin xarici siyasəti böyük uğurlar qazandı. 2001-ci il yanvarın 25-də Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü oldu. Dünyanın inkişaf etmiş nüfuzlu, aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələr yaradıldı. Azərbaycan Prezidenti 1993-cü ildən 2001-ci ilin əvvəlinə olan müddətdə dünyanın 68 ölkəsinin prezidentləri və dövlət başçıları ilə 485 görüş keçirmişdi. ABŞ-ın prezidenti və dövlət katibi ilə 18 dəfə, Rusiya rəhbərləri ilə 28 dəfə, Fransa rəhbərləri ilə 16 dəfə və Türkiyə rəhbərləri ilə 78 dəfə tarixi görüş keçirmişdir. Azərbaycan Prezidenti ardıcıllıqla keçirdiyi yüksək səviyyəli çoxsaylı görüşlərində və eləcə də beynəlxalq təşkilatlarda cəsarətlə etdiyi çıxışlarında Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz siyasətinin məqsədini və həmin siyasətin nəticəsi olaraq yaranmış ağır vəziyyəti, işğal olunmuş yerlərin talan edilməsi məsələlərini təfsilatı ilə dünyaya çatdırmaqda misilsiz əmək sərf etmişdi. O, eyni zamanda həyata keçirdiyi müdrik siyasəti ilə Azərbaycanı dağılmaqdan, siyasi blokadadan xilas etmiş, Avropa Şurasına yol açmış və böyük dövlətlərin siyasətində Azərbaycanın xeyrinə tam dönüş yaranmasına nail olmuşdu. Belə bir nailiyyətin təsiri altında dünyanın ən qüdrətli dövlətlərindən olan ABŞ Dövlət Departamenti ilk dəfə olaraq Dağlıq Qarabağ ermənilərin deyil, məhz Ermənistanın Azərbaycan ərazisinin bir hissəsini işğal etdiyini bildirmişdi. Bunun ardınca ABŞ prezidenti C.Buşun administrasiyası Ermənistana yardımı azaltmağı və əksinə Azərbaycana yardımı artırmağı

qərara almışdı. Ermənistanın işğalçı bir dövlət olduğunu dünyanın bir sıra dövlətləri ilə yanaşı hətta ermənistanlı deputat A.Rustamyan da etiraf etmişdi. 2003-cü il noyabrın 4-də Avropa Şurası Parlament Assambleyasının siyasi komitəsinin və noyabrın 5-də qurumun monitorinq komitəsinin növbəti iclasında çıxış edən A.Rüstəmyan bildirmişdi ki, siyasi komitədən Dağlıq Qarabağ problemi üzrə məruzəçi təyin edilmiş Terri Devisin Azərbaycan ərazisindən münaqişə bölgəsinə gəlməsi qeyri-mümkündür. Çünki Dağlıq Qarabağda işğalçı ölkənin ordusu yerləşdirilmişdir və Ermənistan oradakı hadisələrə bilavasitə nəzarət edir. Bununla da Ermənistandan olan deputat ölkəsinin işğalçılıq siyasəti apardığını və işğal altında olan Azərbaycan ərazilərinə hətta AŞ nümayəndələrinin getməsinə öz ölkəsi tərəfindən təhlükə yarana biləcəyini açıq şəkildə bəyan etmişdir (Bax: «Azərbaycan» qəz. 8 noyabr 2003).

Ermənistanın təcavüzkarlıq siyasəti 2007-ci il martın əvvəllərində Malayziyanın Kuala-Lampur şəhərində İslam Konfransı Təşkilatına üzv təşkilatların Parlament İttifaqı Şurasının IX sessiyasında da diqqətdən yayınmamışdır. Belə ki, həmin sessiya Kuala-Lumpur deklorasiyasının qəbulu ilə yekunlaşmış və IX sessiyanın iştirakçıları Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləmiş və erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər və həm də işğal olunmuş Azərbaycan ərazilərində beynəlxalq hüquqa zidd hərəkətlərə son qoyulması və bunu Ermənistanın nəzərinə çatdırmağı bildirmişlər (Bax: «Azərbaycan» qəz. 10 mart 2007).

H.Əliyev siyasətini inamla davam etdirən İ.Əliyev 2003-cü ilin sonlarından Respublika Prezidenti kimi fəaliyyətə başladığı andan ölkənin ordusunun iqtisadiyyatının, mədəniyyətinin və xarici dövlətlərlə əlaqələrin müntəzəm olaraq inkişaf etdirilməsində böyük nailiyyətlər qazanılmışdı. O, istər xarici ölkə rəhbərləri ilə keçirdiyi görüşlərində, apardığı söhbətlərində və istərsə də beynəlxalq təşkilatlarda etdiyi obyektiv, cəsarətli çıxışlarında Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələrini, kütləvi qırğınları, talanları diqqətə çatdırmışdı. İ.Əliyev Azərbaycan xalqına 29 mart 2007-ci il tarixdə etdiyi müraciətində Ermənitanı təcavüzkar bir dövlət hesab etməklə bərabər, həm də qarşımızda ideoloji təxribatlar və dezinformasiya sahəsində «zəngin təcrübəyə», bir sıra ölkələrdə təsirli diaspora malik olan rəqibin dayandığını və onun mənfur siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq və həmin ərazilərdə «Böyük Ermənistan» dövləti yaratmaq istədiklərini də bildirmişdi.

Azərbaycanın məlum olan ərazilərinin Ermənistan tərəfindən işğalına münasibətini dəfələrlə bildirən Azərbaycan Prezidenti, cənab İ.Əliyev demişdi: «Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcək, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcək, ərazi bütövlüyünü bərpa edəcək» ifadəsindən Ermənistan nəticə çıxartmalıdır.

Həm də hazırda Azərbaycan rəhbərliyinin müdrik daxili və xarici siyasətinin nəticəsi olaraq yaranmış şərait də Ermənistanın ərazi qoparmaq iddiasını qeyri-mümkün hesab edir. Nəhayət, Ermənistan tarixi həqiqətlə hesablaşmalı və birdəfəlik təcavüzkarlıq siyasətinə son qoymalıdır. Belə bir addım birinci növbədə erməni xalqının xeyrinə ola bilər.

Azərbaycan xalqı əmindir ki, Respublika Prezidenti cənab İ.Əliyevin rəhbərliyi altında Azərbaycanın işğal olunmuş torpaqları işğalçılardan təmizlənəcək, qaçqınlar öz doğma diyarlarına qayıdacaq, respublikanın ərazi bütövlüyü təmin olunacaqdır. Bu, haqqın, ədalətin, xalqların xoşbəxt yaşaması naminə təmin olunmalıdır. Bu təmin olunmadığı halda Azərbaycan xalqı belə bir vəziyyətlə razılaşa bilməz.

Ermənistanın təcavüzü ilə əlaqədar olaraq ürək yanğısı və vətən eşqi ilə yazılmış bir sıra əsərlərin müəllifi, Azərbaycanın görkəmli ziyalısı və sevimli şairi Ənvər Əhmədin yazdığı kimi:

Əgər döyüş cəngin çalınmayıbsa,
Əgər qəsri Şuşan alınmayıbsa,
Azad olmayıbsa əsir qız-gəlin,
Əgər ucalmırsa qeyrət heykəlin,

Bu qılınc qınında pas ata bilməz!
Qardaş, Qarabağsız ruhumuz yandı,
İçək Göyçə andı, Zəngəzur andı.
Qələbə tarixin yazılmayıbsa,
Düşmənin məzarı qazılmayıbsa,
Bu qılınc qınında pas ata bilməz!

Deməli, vəziyyət olduğu kimi davam edərsə, o halda Azərbaycan xalqı öz sözünü deməlidir.

QEYD: XIX-XX əsrlərdə ermənilər azərbaycanlılara qarşı düşünülmüş planlı surətdə həyata keçirdikləri amansız qətllərlə, qarətlərlə və minlərlə tarixi-mədəni abidələri, yaşayış yerlərini xüsusi amansızlıqla dağıdıb xarabazarlığa çevirməklə bəşər qanunlarına zidd olaraq böyük vəhşilik, cinayətlər ediblər.

Çox qəribədir! – Azərbaycanlılara məxsus İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaradasan və və daima minnətdarlıq əvəzinə islah olunmaz qatı bir düşmənə çevrilib məhz Azərbaycana, azərbaycanlılara qarşı ağır vəhşiliklər edəsən? Ermənilərin azərbaycanlılara qarşı insanlıqdan tamamilə kənar hərəkətlərini əks etdirən ilk «Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti tarixindən» olan əsərim 1995-ci ildə çap olunub oxuculara çatdırılmışdı.

Ancaq bununla kifayətlənməyib erməni təcavüzünə dair tədqiqatımı davam etdirərək bir neçə əsərlər yazıb çap etdirdim. O cümlədən, 1998-ci ildə «Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırları – XX əsr)» əsərimi 1999-cu ildə «Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası», 2000-ci ildə «Tarix kursunda Azərbaycan-Ermənistan münasibətlərinin öyrənilməsi», 2001-ci ildə «Dağlıq Qarabağ: əsassız iddialar, hadisələr, faciələr», 2002-ci ildə «Erməni təcavüzü: acı faktlar, fəlakətli nəticələr» adlı əsərim cənab İlham Əliyevin göstərişi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru işləmiş, akademik Əli Abbasovun diqqət və qayğısı ilə ingilis

dilinə tərcümə olundu və Avropa Şurasının 2003-cü ilin yanvar sessiyasında yayıldı.

2003-cü ildə isə həmin əsər rus və Azərbaycan dillərində çap olundu. 2004-cü ildə «Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq», 2005-ci ildə «Dünya şöhrətli dövlət xadimi Heydər Əliyev», 2007-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, Millət vəkili, professor Şəmsəddin Hümmət oğlu Hacıyevin diqqət və qayğısı nəticəsində «Müstəqil Azərbaycan və Fransa» adlı əsərim, 2008-ci ildə isə «Azərbaycanlıların mart soyqırımı unudulmamalıdır» əsərim çap olunmuşdu. Göstərilən əsərlərdən əlavə jurnal və qəzet səhifələrində həmin mövzuya dair 50-ə yaxın elmi məqaləm çap olunmuşdu.

IV FƏSİL

1. Буниятов З. «Почему Сумгаит?». «Elm» qəz. № 19, 1988.
2. Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 20.
3. Z.Səmədzadə. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı, 1995, səh. 11-12.
4. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку, 1989, səh. 65.
5. İ.Əliyev. Göstərilən əsəri, səh. 104.
6. T.Köçərli. Göstərilən əsər, səh. 401.
7. Р.Аракелов. Карабахская тетрадь, Баку, 1995, səh. 85.
8. E.İsmayılov, C.Həsənov, T.Qaffarov. Göstərilən əsər, səh. 312.
9. «Kommunist» qəz. 24 fevral 1988.
10. «Azərbaycan kommunisti» jurnalı, № 4, aprel 1988, səh. 19.
11. Yenə orada, səh. 17.
12. «Известия» qəz. 25 mart 1988.
13. Fərziyyələr və səbəblər. «Azərbaycan kommunisti» jurnalı, № 7, 1989, səh. 89.
14. Yenə orada.
15. «Комсомольская правда» qəz. 30 mart 1988.
16. Səmədzadə Z. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. Bakı, 1995, səh. 11-12.
17. Yenə orada, səh. 17.
18. Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 142.
19. Yenə orada.
20. «Xalq» qəz. 17 sentyabr 1997.
21. «Сельская жизнь» qəz. 2 aprel 1988.
22. «Kommunist» qəz. 23 fevral, 1988.
23. Şulman R. Birlik və bütövlük. «Azərbaycan kommunisti» jurnalı, № 11, noyabr 1990, səh. 54.
24. Помпеев Ю. Göstərilən əsəri, 1993, səh. 51.
25. «Kommunist» qəz. 27 fevral, 1988.

26. Əziz Ələkbərli. Göstərilən əsər, səh. 99.
27. Zeynal Vəfa. Erməni vəhşiliklərinin canlı şahidi. «Azərbaycan» qəz. 5 aprel 2001.
28. A.Mansurov. Göstərilən əsəri, səh. 101.
29. M.İsmayılov. Sumqayıt haqqında daha bir yalan. «Azərbaycan kommunisti» jurnalı, № 5, 1991, səh. 80.
30. Конфликт в Нагорном Карабахе, Баку, 1990, səh. 263.
31. «Səhər» qəz. 10 may 1990.
32. События вокруг НКАО в кривом зеркале фальсификаторов. Баку, 1989, səh. 29.
33. Yenə orada, səh. 63.
34. «Azərbaycan kommunisti» jurnalı, № 8-9, avqust-sentyabr, 1990, səh. 164.
35. Arakelov R. Göstərilən əsəri, Baku, 1991, səh. 29.
36. Əzim Piriyev. Yarımçıq qalmış «Ümid» əməliyyatı… Bakı, 2000, səh. 16.
37. «Kommunist» qəz. 2 mart 1988.
38. «Təşviqatçı» jurnalı, № 7, aprel 1988, səh. 26.
39. A.Mansurov. Göstərilən əsəri, səh. 166.
40. «Kommunist» qəz. 10 mart 1988.
41. Azərbaycan tarixi, 1995, s. 313.
42. «Kommunist» qəz. 24 mart 1988.
43. Yenə orada.
44. «Сельская жизнь» газ. 2 апреля, 1988.
45. «Kommunist» qəz. 3 aprel 1988.
46. Yenə orada.
47. «Azərbaycan gəncləri» qəz. 5 aprel 1988.
48. Конфликт в Нагорном Карабахе, Баку, 1990, səh. 129.
49. Yenə orada, səh. 127
50. Yenə orada, səh. 128.
51. Yenə orada, səh. 126.
52. C.Quliyev. Göstərilən məqalə. «Kommunist» qəz. 20 mart 1991.
53. Конфликт в Нагорном Карабахе, Баку, 1990, səh. 126.
54. «Аргументы и факты», № 14, 2-8 aprel 1988.

55. Р.Аракелов. Карабахская тетрадь, Баку, 1995, səh. 100.
56. «Московские новости» qəz. 3 aprel 1988.
57. Yenə orada.
58. R. Arakelov. Göstərilən əsəri, 1991, səh. 80.
59. «Vışka» qəz. 11 iyun 1988.
60. События вокруг НКАО в кривом зеркале фальсификаторов, Баку, 1989, səh. 51.
61. «Kommunist» qəz. 14 iyul 1988.
62. Yenə orada.
63. Yenə orada, 18 iyun 1988.
64. Yenə orada, 19 iyun 1988.
65. Yenə orada.
66. Yenə orada.
67. Yenə orada, 24 iyun 1988.
68. Yenə orada.
69. Yenə orada, 8 iyul 1988.
70. Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 34.
71. Yenə orada.
72. Yenə orada.
73. «Kommunist» qəz. 3 avqust 1988.
74. Помпеев Ю. Göstərilən əsəri, 1993, səh. 51.
75. M.İsmayılov. Göstərilən əsəri, 1996, səh. 49.
76. Помпеев Ю. Göstərilən əsəri, 1993, səh. 72.
77. «Kommunist» qəz. 20 sentyabr 1988.
78. Gərgin və cəsarətli, çevik və səriştəli fəaliyyət dövrü. «Azərbaycan kommunisti» jurnalı, № 7, iyul 1989, səh. 55.
79. Помпеев Ю. Göstərilən əsəri, 1993, səh. 59.
80. Yenə orada.
81. «Azadlıq» qəz. 17 dekabr 1994.
82. Yenə orada.
83. Əziz Ələkbərli. Göstərilən əsər, səh. 143-144.
84. T.Köçərli. Göstərilən əsər, səh. 405.
85. Большая Советская Энциклопедия. Birinci buraxılış, c. 3, səh. 479.

86. S.Əsədov. Göstərilən əsəri, Bakı, 1995, səh. 56.
87. И.Г.Чавчавадзе. Армянские ученые и вопикающие камни, səh. 4.
88. «Elm» qəz. № 19, 1988.
89. S.Əsədov. Göstərilən əsəri, səh. 7.
90. H.Rəhimoğlu. Daha bir saxtakarlıq. «Xalq» qəz. 22 may 1996.
91. Джангир Араслы. Армяно-Азербайджанской конфликт: Военный аспект, Баку, 1995, səh. 4.
92. «Kommunist» qəz. 15 yanvar 1989.
93. Q.Sultanov. Göstərilən əsəri, səh. 67.
94. «Kommunist» qəz. 2 dekabr 1988.
95. Yenə orada.
96. Конфликт в Нагорном Карабахе. Баку, 1990, səh. 130.
97. Pompeev Ö. Göstərilən əsəri, 1992, səh. 93.
98. Конфликт в Нагорном Карабахе. Баку, 1990, səh. 264.
99. Yenə orada, səh. 47.
100. Салех Бей. Göstərilən əsəri, səh. 248.
101. Yenə orada, səh. 80.
102. «Kommunist» qəz. 15 yanvar 1989.
103. Dağlıq Qarabağda yaranmış gərgin vəziyyətlə əlaqədar Azərbaycan ziyalılarının həmrəylik toplanışının müraciəti. Azərb.EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1989, № 4, səh. 3-4.
104. Yenə orada, səh. 3.
105. Обрашение членов Академии Наук Азербайджанской ССР к народным депутатам СССР. Известия АН Азерб. ССР. Серия истории, философии и права, 1989, № 4, səh. 7-12.
106. Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 99.
107. Yenə orada.
108. «Kommunist» qəz. 4 oktyabr 1989.
109. Yenə orada.
110. Yenə orada.
111. «Azərbaycan kommunisti» jurnalı, № 8-9, avqust-sentyabr, 1990, səh. 163.

112.Постановление Президиума Верховного Совета СССР «О несоответствии конституции СССР актов по Нагорному Карабаху, принятых Верховным Советом Армянской ССР 1 декабря 1989 года и 9 января 1990 года». «Правда» qəz. 11 yanvar, 1990.

113.Указ Президиума Верховного Совета СССР «Об объявлении чрезвычайного положения в Нагорно-Карабахской Автономной области и некоторых других районах. «Бакински рабочи» qəz. 17 yanvar, 1990.

114.Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 106.

115.Черный январь, Baku, 1990, səh. 57.

116.Yenə orada.

117.R.Arakelov. Göstərilən əsəri, 1995, səh. 117.

118.«Say» qəz. 20 yanvar 1993.

119.Ю.Помпеев. Göstərilən əsəri, 1992, səh. 129.

120.Черный январь, Баку, 1990, səh. 111.

121.Yenə orada.

122.Указ Президиума Верховного Совета «О введении чрезвычайного положения в городе Баку», «Bakinski raboçi» qəz. 25 yanvar 1990.

123.«Бакинский рабочий» qəz. 27 yanvar 1990.

124.Обрашение Верховного Совета Азербайджанской Верховнему Совету СССР, Верховным Советам Союзных республик, народам Советского Союза, Парламентам всех стран мира, Организации Объединенных Наций. Бах: «Черный январь», Baku, 1990, səh. 92-93.

125.Черный январь, Баку, 1990, səh. 128-129.

126.«Kommunist» qəz. 7 mart 1990.

127.E.İsmayılov, C.Həsənov, T.Qaffarov. Göstərilən əsər, səh. 317.

128.Əzim Piriyev. Göstərilən əsər, səh. 25.

129.Помпеев Ю. Göstərilən əsəri, 1992, səh. 148.

130.Çətin yollarda büdrəməyək gərək. «Dialoq» jurnalı, 23 oktyabr, 1990, səh. 3.

131.«Bakı» qəz. 6 iyul 1990.

132.«Sovet İttifaqında ermənilər əleyhinə talanla əlaqədar olaraq dünya ictimaiyyətinə açıq məktub»un müəlliflərinə. «Azərbaycan kommunisti» jurnalı, № 10, oktyabr, 1990, səh. 8.

133.Azərbaycan KP XXXII qurultayının DQMV üzrə qətnaməsi. «Azərbaycan kommunisti» jurnalı, № 8-9, avqust-sentyabr, 1990, s. 113.

134.«Kommunist» qəz. 4 oktyabr, 1989.

135.Салех Бей. Göstərilən əsəri, səh. 242-243.

136.«Pravda» qəz. 27 mart 1990.

137.Əzim Piriyev. Göstərilən əsər, səh. 50-94.

138.Салех Бей. Göstərilən əsəri, səh. 244.

139.Yenə orada.

140.Ю.Помпеев. Göstərilən əsəri, 1993, səh. 114.

141.Əzim Piriyev. Göstərilən əsər, səh. 269.

142.Yenə orada, səh. 140.

143.Yenə orada, səh. 212.

144.Yenə orada, səh. 269.

145.C.Quliyev. Göstərilən məqalə. «Бакинский рабочий» qəz. 7 yanvar 1992.

146.A.Yunusov. «Qarabağ müharibəsi».«Azərbaycan» qəz. 22 yanvar 1993.

147.M.Cəlilov. Göstərilən məqalə, «Bakı» qəz. 12 dekabr 1991.

148.«Xalq» qəzeti, 11 oktyabr 1996.

149.«Azərbaycan» qəz. 3 dekabr 1993.

150.M.Cəlilov. Göstərilən məqalə, «Bakı» qəz. 12 dekabr 1991.

151.Ю.Помпеев. Göstərilən əsəri, 1992, səh. 72.

152.Ю.Помпеев. Göstərilən əsəri, 1993, səh. 88.

153.Yenə orada, səh. 114.

154.Салех Бей. Göstərilən əsəri, səh. 249.

155.İ.Əliyev bu günün və gələcəyin faktorudur. Bakı, 2001, səh. 350.

156.«Xocalı soyqırımı bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaq», «Azərbaycan» qəz. 27 fevral 1996.
157.Yenə orada.
158.A.Yunusov.Göstərilən məqalə. «Azərbaycan» qəz. 23 yanvar 1993.
159.Yenə orada, 26 yanvar, 1993.
160.K.Kərimli. «Hələ Şuşalıykən», II kitab, Bakı, 1995, səh. 11-37.
161.A.Yunusov. Göstərilən məqalə.«Azərbaycan» qəz. 26 yanvar 1993.
162.Yenə orada.
163.«Xocalı soyqırımı bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaq». «Azərbaycan» qəz. 27 fevral 1996.
164.Yenə orada.
165.Салех Бей. Göstərilən əsəri, s. 358.
166.«Azərbaycan» qəz. 3 dekabr 1993.
167.«Xocalı soyqırımı bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaq». «Azərbaycan» qəz. 28 fevral 1996.
168.Vəfaddin İsayev. Xocalı soyqırımı beynəlxalq cinayətdir. «Respublika» qəz. 22 fevral 2007.
169.C.Həsənov. Göstərilən əsər, Bakı, 1992, səh. 246.
170.«Xalq» qəz. 10 aprel 1992.
171.Yenə orada, 11 aprel 1992.
172.«Şuşa və Laçın xəyanətlərini xalqımız heç vaxt bağışlamayacaq», «Xalq» qəz. 8 may 1996.
173.«Азербайджан» qəz. 26 yanvar 1993.
174.Yenə orada.
175.«Həyat» qəz. 14 iyul 1992.
176.Dağlıq Qarabağ: 1993-cü ilin martı. «Azərbaycan» qəz. 13 mart 1993.
177.«Azadlıq» qəz. 23 oktyabr 1993.
178.«Azərbaycan» qəz. 30 mart 1996.
179.Kəlbəcər harayı xəyanətkarlara qarşı ağır ittihamdır. «Xalq» qəz. 2 aprel 1996.

180.Dağlıq Qarabağ: 1993-cü ilin martı. «Azərbaycan» qəz. 13 mart 1993.

181.«Azadlıq» qəz. 2 oktyabr 1993.

182.Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri H.Əliyevin «Ostankino» dövlətlərarası televiziya şirkətinə müsahibəsi. «Azərbaycan» qəz. 6 iyul 1993.

183.T.Yəhyayev. Hakimiyyəti istəyirdilər. Lakin xalqa yenidən xəyanət etdilər. «Azərbaycan» qəz. 21 avqust 1993.

184.Yenə orada.

185.Yenə orada.

186.Yenə orada, 20 noyabr 1993.

187.Azərbaycan-Rusiya birgə rəsmi məlumatı. «Azərbaycan» qəz. 9 sentyabr 1993.

188.«Xalq» qəz. 15 sentyabr 1993.

189.Yenə orada.

190.Azərbaycan Respublikası mətbuat xidmətinin bəyanatı. «Azərbaycan» qəz. 23 sentyabr 1993.

191.Yenə orada, 21 sentyabr 1993.

192.Azərbaycan ATƏM-in üzvü olan ölkələrdən onun probleminin başa düşüləcəyini gözləyir. «Azərbaycan» qəz. 2 dekabr, 1993.

193.Yenə orada.

194.О.Ф.Эфендиев. Военные преступления от Нюрнберга до Карабаха, Москва, 2000, səh. 154-160.

195.Araslı Джангир. Армяно-Азербайджанский конфликт: Военный аспект. Баку, 1995, səh. 46.

196.«Ermənistanın təcavüzkarlığı Qarabağla məhdudlaşmır». «Azərbaycan qəz. 4 dekabr 1993.

197.«Qarşılıqlı münasibətlərdə mühüm mərhələ». «Azərbaycan» qəz. 22 dekabr 1993.

198.Dostluq və əməkdaşlıq naminə. «Azərbaycan» qəz. 23 dekabr 1993.

199.Azərbaycan Respublikasının prezidenti H.Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında Bəyanatı. «Azərbaycan» qəz. 25 dekabr 1993.

200.Yenə orada.

201.C.Quliyev. Əgər vətənini sevirsənsə. «Azərbaycan» qəz. 16 dekabr 1993.

202.İ.Q.Çavçavadze. Göstərilən əsəri, səh. 43.

203.Ю.Помпеев. Göstərilən əsəri, 1993, səh. 44.

204.Yenə orada, səh. 45.

205.«Ayna» qəz. 1 dekabr 1993.

206.«Millət» qəz. 30 dekabr 1995.

207.Армянский геноцид: Миф и реальность, Баку, 1992, səh. 39.

208.«Erməni siyasi zorakılığı». «Ayna» qəz. 6 yanvar 1995.

209.A.Babaxanova A. «Avropa və Amerikada Azərbaycan lobbisi». Bu, mümkündürmü? «Ayna» qəz. 30 dekabr 1995.

210.Yenə orada.

211.Amerika Ermənistandan səxavətini əsirgəmir. «Avrasiya» qəz. 15 oktyabr 1996.

212.L-Ter-Petrosyan: «Yerevan və Stepanakert birgə çıxış etməlidirlər». «Millət» qəz. 9 yanvar 1996.

213.A.Məhəmmədov. «Erməni olsam da bilirəm ki, Qarabağ sizindir, amma…», «Təzadlar» qəz. 13 dekabr 1996.

214.N.Kəsəməndi. Silahlar danışanda mahnı oxumaq sadəlövhlükdür. «Panorama» qəz. № 5, 1996.

215.Xalqın birliyi və həmrəyliyi dövlətçiliyimizi daha da möhkəmlətməyin həlledici amilidir. 1996-cı il aprelin 6-da Ümumxalq nümayəndələri toplantısında Azərbaycan prezidenti Heydər Əliyevin nitqi. «Azərbaycan» qəz. № 68, 1996.

216.Tomas Yanq. «Əməkdaşlıq üçün hər cür imkan var». «Azərbaycan» qəz. 17 iyun 1995.

217.«Panorama» qəz. 6 yanvar 1996.

Nəşriyyatın müdiri:	**Kamil Hüseynov**
Baş redaktor:	**İsmət Səfərov**
Korrektor:	**İsabə Hüseynova**
Kompüter tərtibatı:	**Təranə Baxşəliyeva**
Dizayner:	**Vüsalə Axundova**

218.Z.Bjezinski. «Milli birlik müstəqilliyi qorumaq üçün çox vacibdir». «Panorama» qəz. 16 mart 1996.

219.V.Arzumanlı. «Qafqazda və Mərkəzi Asiyada təhlükəsizlik və beynəlxalq münasibətlər». «Xalq» qəz. 9 fevral 1996.

220.H.Rəhimoğlu. «Azərbaycana Ermənistanın təcavüzü – təkzibedilməz faktlar». «Xalq» qəz. 19 noyabr 1996.

221.B.Arveladze. «Qardaşlığımızı ləkələməyək». «Respublika» qəz. 24 aprel 1996.

222.H.Rəhimoğlu. Göstərilən məqalə. «Xalq» qəz. 19 noyabr 1996.

223.Erməni diasporunda parçalanma. «Millət» qəz. 6 yanvar 1996.

224.«Azərbaycanın ərazi bütövlüyünün, haqq işinin dünya miqyasında dəstəklənməsi yolunda uğurlu addım, diplomatiyamızın mühüm nailiyyəti». «Xalq» qəz. 10 dekabr 1996.

225.Yenə orada.

226.«Azərbaycan» qəz. 7 dekabr 1996.

227.İ.Əliyev bu günün və gələcəyin uğur faktorudur. Bakı, 2001, səh. 291.

Nəşriyyatın müdiri:	**Kamil Hüseynov**
Baş redaktor:	**İsmət Səfərov**
Korrektor:	**İsabə Hüseynova**
Kompüter tərtibatı:	**Çinarə Xalacova**
Dizayner:	**Vüsalə Axundova**

Əsgər Abdullayev

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,
Respublikanın Əməkdar müəllimi

Ermənistanın Azərbaycana qarşı təcavüzü tarixindən bəzi məqamlar
(Monoqrafiya)

Çapa imzalanıb 22.06.2011. Kağız formatı 60x84 1/16.
Həcmi 28 ç.v. Sifariş 157. Sayı 500.

" İqtisad Universiteti " Nəşriyyatı.
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6

Əsgər İbrahim oğlu Abdullayev 1929-cu ilin yayında Ağcabədi rayonunun Kəbirli kəndində anadan olmuşdur. O, 5 yaşından Ağdam şəhərində yaşayan əmisi Ələkbər Abdullayevin himayəsində yaşamışdır. 1946-cı ildə Ağdam şəhər 1 saylı orta məktəbi bitirmiş və həmin ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunmuşdu.

1951-ci ildə həmin universiteti bitirən Əsgər Abdullayev Ağdam şəhər Kənd Təsərrüfatı Texnikumunda tarix müəllimi işləməyə başlamışdı. 1951-1954-cü illərdə texnikumda işlədikdən sonra Bakıya gəlmiş və 1955-1957-ci illərdə Azərbaycan EA Tarix muzeyində elmi işçi vəzifəsində çalışmışdır. 1957-1961-ci illərdə Daxili işlər orqanlarında işləmiş və 1962-1964-cü illərdə S.M.Kirov adına (hazırda BDU) Azərbaycan Dövlət Universitetinin aspiranturasında əyani oxumuş, 1964-1966-cı illərdə isə Tarix muzeyində elmi işçi vəzifəsində çalışmışdır. 1966-cı ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək həmin ildə D.Bünyadzadə adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun "Partiya tarixi" kafedrasına müəllim qəbul olunmuşdu. 1966-cı ildən hal-hazıra kimi olan böyük bir dövrdə Əsgər müəllim institutun, sonralar isə Azərbaycan Dövlət İqtisad Universitetinin ictimai, siyasi həyatında tədbirlərdə fəal iştirak etmişdi. Universitetin professor, müəllim, tələbə kollektivi içərisində dərin hörmət və ehtiram qazanmışdı.

Onun gərgin əməyi, tədrisdə ciddiliyi, insanlarla olan rəftarı və qazandığı nüfuzu nəzərə alınmış və Prezidentin fərmanı ilə Əsgər müəllim "Respublikanın əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

Hal-hazırda Ə.Abdullayev "Beynəlxalq münasibətlər tarixi" kafedrasının professoru kimi fəaliyyətini davam etdirir.